_________________Milli Kitabxana_________________

**SÜLEYMAN SANİ AXUNDOV**

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

"ŞƏRQ-QƏRB"
BAKI-2005



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*Bu kitab "**Süleyman Sani Axundov**. Seçilmiş əsərləri.*
*İki cilddə " (Bakı, Gənclik, 1968) nəşri əsasında təkrar nəşrə hazırlanmısdır*

Tərtib edəni və
ön sözün müəllifi: **Nadir Vəlixanov**

Redaktoru: **Şamil Vəliyev**

**894.3613 - dc 21 AZE**
**Süleyman Sani Axundov. Seçilmiş əsərləri.** Bakı, "Şərq-Qərb", 2005, 448 səh.

Maarifpərvər ədib Süleyman Sani Axundovun bədii əsərlərində, pedaqoji-elmi fəaliyyətində və vətəndaşlıq əməlləri ilə zəngin olan ictimai həyatında işıqlı fikirlərin təsdiqi, nurlu, xeyirxah əməllərin təbliği onun başlıca yaradıcılıq idealları kimi meydana çıxmışdır. Müəllimlərlə maarifçilər, xeyirxah ziyalılarla nəcib tələbələr, məsum uşaqlarla müdrik qocalar - Süleyman Saninin məktəbə, elmə və təhsilə çağıran əsərlərinin əsas, nümunəvi qəhrəmanları olmuşdur. Həyatdakı fənalıq və eybəcərliyə qarşı mübarizədə təmiz fikirlərin, saf və xeyirxah hisslərin ziyasını təsirli mənəvi vasitə hesab edən yazıçının nəsr əsərlərinin çoxusunda, eləcə də müəyyən qisim səhnə əsərlərində bir-biri ilə daima mübarizə edən və rəmzi şəkildə mənalandırılan iki qüvvə mövcuddur: qaranlıq və işıq.

Bu kitabda ədibin zəngin ədəbi irsindən seçmələr - müəllifin maarifçi ideallarının təsdiqi olan bədii nəsr əsərləri (hekayələr) və pyeslər toplanmışdır.

**ISBN 9952-418-39-3**

© "ŞƏRQ-QƏRB", 2005



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## ÖN SÖZ

Azərbaycan realist nəsrinin böyük nümayəndələrindən olan maarifpərvər yazıçı Süleyman Sani Axundov 40 illik yaradıcılıq yolu keçmişdir. M.F.Axundovla başlanan nəsr və dramaturgiya yolunu davam etdirən N.Vəzirov, Ə.Haqverdiyev, C.Məmmədquluzadə kimi böyük yazıçılar sırasında Süleyman Sani orijinal bir yer tutur. Həm ictimai, həm də ədəbi fəaliyyəti ilə o, böyük demokrat, yorulmaz maarifçi, istedadlı sənətkar kimi XX əsr Azərbaycan ədəbiyyatı tarixində şöhrət qazanmışdır.

Süleyman Sani Rzaqulu bəy oğlu Axundov 1875-ci il oktyabr ayının 21-də Şuşa şəhərində bəy ailəsində doğulmuşdur. Hələ körpə ikən atasız qalan Süleymanın təlim-tərbiyəsi ilə bilavasitə dayısı, görkəmli maarif xadimi Səfərəli bəy Vəlibəyov (1861-1902) məşğul olmuşdur. Süleyman Sani 1885-ci ildə Qori müəllimlər seminariyasına daxil olmuş, burada milli, klassik rus və dünya ədəbiyyatı ilə dərindən tanışlıq onun dünyagörüşünə faydalı təsir göstərmişdir.

1894-cü ildə seminariyanı bitirən Süleyman Sani Bakıdakı III dərəcəli rus-tatar məktəbinə müəllim təyin edilmişdir. Həmin ildən o, tərəqqipərvər maarifçilərlə birlikdə xalqı cəhalətdən qurtarmaq, gənc nəsli mütərəqqi ideyalarla tərbiyələndirmək işində var qüvvəsi ilə çalışmışdır. Süleyman Sani ədəbi-ictimai, pedaqoji fəaliyyətinin bütün dövrlərində xalq mənafeyini müdafiə etmişdir.

1906-cı ildə Bakıda çağırılan müəllimlər qurultayında fəal iştirak edən Süleyman Sani ərəb əlifbasını islah etmək üçün faydalı təşəbbüs göstərmiş, həmin qurultayda ana dilində proqram tərtib etmək üçün ayrılan komissiyaya seçilmiş, 1908-ci ildə A.Şaiq, M.Mahmudbəyov və başqa qabaqcıl maarif xadimləri ilə birlikdə Azərbaycan pedaqoji fikri tarixində mütərəqqi bir hadisə olan məşhur "İkinci il" dərsliyini tərtib etmişdir. Dərsliyin müəllifləri yenicə oxuyub yazmağa başlayan azəri balalarına çatdırmaq istədikləri tərbiyəvi fikirləri sadə, aydın, usaq təfəkkürünün tez dərk edə biləcəyi bir üslubda qələmə almışdılar. Bununla həm də dilimizin alınmalarla doldurulmasına qarşı çıxaraq azəri dilinin saflığını qoruyub saxlamışlar.

Süleyman Sani olduqca həssas, şagirdlərin qəlbinə yol tapa bilən ustad müəllim idi. Bu keyfiyyət onun geniş psixoloji, pedaqoji biliyə malik olmasından irəli gəlirdi. Bakıdakı yoxsul ailələrdən olan yüzlərlə uşaq



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

onun dostu idi. O özünün yüksək mənəvi keyfiyyətləri, qabaqcıl fikri, ensiklopedik biliyi, ciddiliyi, səmimiliyi, tələbkarlığı ilə ictimaiyyətin dərin hörmətini qazanmışdır. Təsadüfi deyildir ki, Süleyman Saninin direktor olduğu məktəb onun adı ilə çağırılırdı.

1918-ci ildə Bakıda sovet hakimiyyəti qurulanda o, Azərbaycanda ilk maarif komissarı kimi maarif sahəsində böyük həvəslə çalışmışdır. Xalq maarifi işində Süleyman Saninin xidməti onun ictimai-pedaqoji fəaliyyətində parlaq, şərəfli hadisədir. O, tərcümeyi-halında yazır: "1918-ci ildə mən cəlb olunmuş üzv sifəti ilə xalq maarifi işində işləmişəm... Buradakı əsas işim - zəhmət məktəbləri üçün proqram düzəltmək, məktəbləri avadanlıqla təchiz etmək, Bakı şəhəri və rayonlarındakı maarifçilərin bütün həyətini siyahıya alıb yoxlamaqdan ibarət idi".

1920-ci il mayn 25-də Gəncə qiyamı yatırıldıqdan sonra həmin il iyun ayının əvvəlində belə bir qiyam Qarabağda baş verir. Qiyamı yatırmaq üçün ciddi tədbirlər hazırlanır. XI Ordu hissələri Qarabağa gəlir. AK(b)P MK və Azərbaycan İnqilab Komitəsi Dadaş Bünyadzadə və Çingiz ildırımı Qarabağa göndərir. Azərbaycan İnqilab Komitəsi tərəfindən göndərilən nümayəndələr sırasında Süleyman Sani də vardı.

1920-ci ildə Qarabağ İnqilab Komitəsinin qərarı ilə Süleyman Sani bir sıra partiya və dövlət tapşırıqlarını yerinə yetirir. Həmin il avqustun 9-da Qarabağ vilayəti maarif şöbəsinə müdir təyin edilir. O, maarif işində həvəslə işləyir; Qarabağ və Zəngəzurda məktəb, uşaq evi, klub, qiraətxana və başqa mədəni-maarif ocaqlarının açılmasında fəal iştirak edir. Azərbaycanda mədəni maarif işlərinin möhkəmlənməsinə çalışır.

1922-ci ildə S.Sani M.Mahmudbəyov, S.Əbdürrəhmanzadə, F.Ağazadə, A.Şaiq, Ə.Əfəndizadə ilə birlikdə "Yeni türk (Azərbaycan - *N.V.*) əlifbası" dərsliyini yazır. Həmin ildə o, "Azərbaycan ədib və şairlər ittifaqının sədrliyinə seçilir və ədəbi gəncliyin tərbiyələnməsi üçün böyük əmək sərf edir. 1923-cü ildən nəşrə başlayan "Maarif və mədəniyyət", "Şərq qadını" jurnallarında dövrün tələbləri ilə səsləşən bir sıra hekayələrini çap etdirir.

S.S.Axundov Azərbaycan teatrının əlli illiyi münasibəti ilə Ə.Haqverdiyev, N.Vəzirov, T.Şahbazi, S.Qənizadə, Ə.Cəfərzadə ilə birlikdə "Azərbaycan-türk teatrosunun müxtəsər tarixçəsi"ni yazır. 1923-cü ildə Bakıda Azərnəşrin nəzdində məktəbdənkənar oxu kitabları tərtib edən komissiyanın işində fəal çalışır. Bütün bu və başqa dəlillər göstərir ki, 20-ci illərdə Süleyman Sani xalqın ictimai-mədəni inkişafı üçün böyük əmək sərf etmiş, ictimai xadim kimi xalqın etimadını qazanmışdır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi 1932-ci ildə Süleyman Sani Axundovun pedaqoji-ədəbi, həmçinin ictimai-mədəni fəaliyyətini nəzərə alaraq ona Əmək qəhrəmanı adı vermişdir.

Süleyman Sani Axundov 1939-cu il mart ayının 29-da Bakıda vəfat etmişdir. Onun qəbri Bakıda Fəxri dəfn xiyabanındadır.

Süleyman Saninin yaradıcılığı zəngin və çoxcəhətlidir. M.F.Axundov realist ədəbi məktəbi zəminində yetişən Süleyman Sani ictimai-bədii fikir tariximizdə hekayə ustası, görkəmli dramaturq, komedioqraf, məşhur xalq müəllimi, mədəniyyət xadimi kimi də tanınmışdır.

Süleyman Sani dramaturgiyamıza M.F.Axundovun məşhur "Hacı Qara" əsərinin təsiri ilə yazdığı "Tamahkar" (1899) komediyası ilə gəlmişdir. Bu pyesində o, dövrün bir sıra mənfiliklərinə, o cümlədən xəsisliyə, tamahkarlığa, qadın əsarətinə qarşı çıxmış, feodal adət, ənənələrinə nifrət edən İmran, Gülzar, Şərəf xanım kimi müsbət surətlər yaradaraq, yeni nəsli həqiqətə, fədakarlığa sövq etməyə, oxucu və tamaşaçılarda gözəl həyat arzuları oyatmağa çalışmışdır.

"Tamahkar" sadə, aydın dildə yazılmış realist komediyadır. Bu əsərdə müəllif gülüşün muxtəlif təsvir vasitələrindən təbii şəkildə istifadə edir. Oxucu və tamaşaçı burada yazıçının real surətlər arxasında onun müsbət idealını aydın görür. Gənc dramaturq, M.F.Axundovun realizmindən yaradıcı şəkildə faydalanaraq feodal cəmiyyətindəki "həyati hadisələrlə həyatın mahiyyəti və mənası arasında olan təzadı" (Belinski) duymuş, ictimai komizmin bir sıra orijinal nümunələrini yaratmışdır.

Əsərin mənfi komik qəhrəmanı Hacı Muraddır. Dramaturqun realizminin qüvvətli cəhətlərindən biri Hacı Muradın yadda qalan səciyyəvi xüsusiyyətlərini - xəsisliyini, tamahkarlığını, qorxaqlığını, ikiüzlülüyünü, hiyləgərliyini və sair çirkin sifətlərini onun sözləri ilə hərəkətlərinin vəhdətində əks etdirməsindədir. Yazıçı, satirik obrazının mənfi, eybəcər sifətlərini nümayiş etdirib ona gülməklə kifayətlənmir, xəsisin mənfiliyini, mənəvi boşluğunu, gülünclüyünü, onun mənsub olduğu zümrəyə də şamil edir. Bu cəhəti ümumiləşdirmək üçün o, Hacı Muradla ikinci xəsis Məhərrəm bəyi qarşılasdırır. Qarşılaşdırma prosesində hər iki mənfi tipin varlanmaq üçün bir-birinə hiylə gəlmələri, xəsis və tamahkarlıqla, fərdiyyətçilikləri aydın nəzərə çarpır. Məsələn, Hacı Murad 18 yaşlı, gözəl, ağıllı, ismətli qızı Gülzarı qoca Məhərrəm bəyə satmaq niyyəti ilə özü kimi heç bir təqdirəlayiq olmayan bu xəsisi aslana, tərlana, gənc və sədaqətli İmranı isə tülküyə, sara bənzədir. Dramaturq, bununla tamahkar Hacı Muradın nifrətəlayiq gülünc



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qayəsini, böhtançı sifətini onun öz sözləri ilə ifşa etmişdir. Müəllifin xəsislərə nifrəti onların varlanmasına şərait yaradan cəmiyyətə nifrət səviyyəsinə qalxır. Yeri gəlmişkən xatırladaq ki, Süleyman Sani ilə dostluq, yaradıcılıq əlaqələri olmuş Nəriman Nərimanov "Həftə fəryadı" adlı felyetonunda (Bax: "Həyat" qəzeti, 19 may 1906-cı il) 'Tamahkar"dakı realizmin bu cəhətinə yüksək qiymət vermişdir. Yazıçı realizminin qüvvətli cəhətlərindən biri də feodal adət-ənənələrinə nifrətinin işıqlı gələcəyi olan gənclərə məhəbbətindən doğduğunu əks etdirməyə çalışmasındadır. Bu da onun mütərəqqi demokratizm humanizmi ilə bağlıdır.

1906-cı ildə Süleyman Sani burjua cəmiyyətini və əxlaqını ifşa edən kiçik formalı komediyalarını - "Dibdat bəy" və "Türk birliyi"ni yazır. Bu pyeslərdə o, duma seçkilərinə mollanəsrəddinçilər mövqeyindən baxmışdır. Hər iki komediya ilə S.S.Axundov dramaturgiyamıza ictimai-siyasi mövzu gətirmişdir.

S.Saninin bədii yaradıcılığının yeni yüksəliş mərhələsi 1920-ci illərdən başlayır. O, sovet dövrü Azərbaycan dramaturgiyasında ilk dramın -"Laçın yuvası" (1921) müəllifi olduğu kimi, inqilabi mövzulu pyeslər; "Çərxi-fələk" (1921), "Qaranlıqdan işığa" (1921), realist faciə- "Eşq və intiqam" (1922) və komediya janrının ilk nümunələri də - "Molla Nəsrəddin Bakıda" (1921), "Şahsənəm və Gülpəri" (1921), "Bir eşqin nəticəsi" (1922), "Yeni həyat" (1923) onun qələmindən çıxmışdır.

S.S.Axundovun Azərbaycan dramaturgiyası tarixində novatorluğu ondadır ki, o, zamanın yeni tələblərini, yeni inqilabi məsələlərini 1921 -ci ilin aprelində yazıb qurtardığı "Laçın yuvası" dramında və bir sıra başqa pyeslərində göstərə bilmişdi. Yuxarıda adlarını çəkdiyimiz səhnə əsərlərində S.Saninin realizmi yeni keyfiyyət kəsb edir.

Bu keyfiyyətin sovet dövrü Azərbaycan ədəbiyyatında ilk nümunəsini "Laçın yuvası"nda görürük. Yazıçı bu əsərində dramaturgiyamıza qəhrəmanlıq pafosu, xalq mənafeyini hər şeydən üstün tutan Cahangir kimi bir surət gətirmişdir. Akademik M.Arif "Laçın yuvası" haqqında yazır ki, bu dram, eyni zamanda, ədəbiyyatımızın böyük bir qələbəsi idi.

Əsərdə inqilabi qüvvələrin əksinqilabçılarla apardığı mübarizə barışmaz toqquşmalarda təzahür edir. Mülkədar Əmiraslan ağa ilə Cahangirin mübarizəsi daban-dabana zidd olan ideyaların çarpışmasıdır. Yeniliklə köhnəliyin, sosialist şüuru ilə bəy, mülkədar şüurunun mübarizəsi əsərdə əsas konflikt kimi sakitləşməyən, hadisədən-hadisəyə gərginləşən situasiyalarda verilir. Belə barışmaz konflikti dramaturgiyamıza gətirməklə Süleyman Sani böyük bir sənətkarlıq istedadı nümayiş etdirmişdir.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

"Laçın yuvası"nda Əmiraslan ağanın intiharı, Cahangirin ailəsinin başına gələn faciə, Cahangir üçün bir növ nikbin faciə xarakteri daşıyır ki, bu da əsərin mövzusu ilə əlaqədar olaraq Süleyman Saninin dramaturgiyamıza gətirdiyi yeni keyfiyyət idi. Dramın finalında yeniliyin köhnəliyə qalib gəlməsi əsərə nikbinlik, qəhrəmanlıq ruhu aşılayır. Bununla da Cahangirin ailə tragizmi kölgədə qalır. Bu tragizm yeniliyə zidd olan qüvvələrin faciəsinə çevrilir.

"Laçın yuvası" kamil ideya-bədii xüsusiyyətləri ilə seçilən sovet dövrü ilk Azərbaycan dramıdır. Sovet hakimiyyətinin qurulmasının ildönümü münasibəti ilə pyes yazmaq üçün elan edilən dövlət müsabiqəsində bu əsər birinci mükafata layiq görülmüşdür. "Laçın yuvası"nın əlyazmalarının biri üzərində böyük yazıçımız Ə.Haqverdiyev bu əsərin "Ənama layiq" olduğunu göstərmişdir.

"Eşq və intiqam" isə beş pərdə, yeddi şəkildə realist faciədir. Əsərin mövzusu bolşevik inqilabından əvvəlki Azərbaycanda insanları fəlakətə salan vəhşi adət-ənənələrdən, mustəbid mülkədar və bəylərin törətdiyi qanlı faciələrdən, gəncliyin bu müsibətlərdən xilas olmaq cəhdlərindən, onların azad məhəbbətindən, haqsızlığa qarşı mübarizə edənlərin həyatından bəhs edir. Professor Məmməd Cəfər sovet dövrü ilk Azərbaycan dramları haqda məqaləsində yazır: "Deyirlər ki, "Eşq və intiqam" faciəsi səhv olaraq bir-birini sevən bacı-qardaşın faciəsidir. Ona görə də guya süni, uydurma bir hadisədir. Bu, əlbəttə, yanlış, dərindən düşünülməmiş söylənən bir fikirdir. Əsil həqiqəti axtarsaq, bu əsərdə iştirak edən adamların hamısının faciəsi bir yerə toplanaraq ümumi bir faciə, müəyyən bir dövrün, zamanın, məişət tərzinin, bir üsuli-idarənin faciəsidir".

Əsərdə qanlı adət-ənənələri davam etdirən bəy-mülkədar zümrəsinin nümayəndəsi Şahbaz bəydir. O, pul gücünə Həcər xanımı özünə arvad etmişdir. Şahbaz bəy və Həcər xanım xəttində dramaturq, feodal-burjua ailəsindəki ziddiyyətləri olduqca real, bədii boyalarla qələmə almışdır. Həcər xanımın simasında qadının günahsız müqəssir, hüquqsuz kölə vəziyyətini, mənəvi iztirablarım, Şahbaz bəyin şəxsində isə pulun, çirkin feodal əxlaqının ailəni necə dağıtdığını görürük.

Realist dramaturq S.Sani göstərir ki, feodal-burjua cəmiyyətindəki əxlaqsızlıq çox təbii olaraq Çingiz və Zöhrə xanım kimi günahsız müqəssirlər doğurur. Buna görə şahbaz bəylərin özbaşınalığı, ancaq çingizlərin, zöhrələrin müsibətinə bais olmaları ilə məhdudlaşmır. Bu nöqteyi-nəzərdən Çingiz intihardan əvvəl üsyankar bir dillə: "Məni öz bacıma aşiq yetirməkdə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

fikrin nədir, ey çərxi-fələk?" deməsi çox mənalıdır. Çingiz realist, tragik qəhrəmandır. O, ağır dəqiqələrdə əlçatmaz gözəl arzularla yaşamaq istəmir. Bacısına aşiq olduğunu bilib intihar etməsi, xəstə mülkədar-burjua əxlaqının məişətdə törətdiyi faciəni ümumiləşdirir, digər tərəfdən insanların sevgi hisslərinin yüksək əxlaqi prinsiplərini ləkələməkdən qoruyur, saf ailə-məişət normalarının müqəddəsliyini təsdiq edir.

"Eşq və intiqam" ilhamla yazılmış əsərdir. Burada surətlərin intellektual aləmi, fərdi xüsusiyyətləri əlvan realist boyalarla təsvir olunmuş, öz xarakteri, ədası, hərəkət və düşüncə tərzi ilə bir-birindən fərqlənən surətlər yaradılmışdır. Əsərdəki obrazlar canlı, dolğun və təsirli verilmişlər. Faciə həm də gözəl insani sifətlərin qabarıq verilməsi baxımından 20-ci illərin dramaturgiyasında yeni hadisə idi.

S.S.Axundovun "Tənqid və təbliğ" teatrında tamaşaya qoyulan pyesləri də o dövrün tələblərinə cavab verən əsərlər idi. "Çərxi-fələk" (1921) pyesində dramaturq, istismarçı sinfin inqilabi mübarizə yolu ilə devrildiyini simvolik şəkildə əks etdirir, fəhlə sinfinin bu mübarizədə hegemonluğunu Bahadır surətində göstərməyə çalışır.

Yazıçının maraqlı pyeslərindən biri də "İki yol" (1922) əsəridir. Pyesin konflikti yeniliklə köhnəliyin mübarizəsi üzərində qurulmuşdur. Əsərin qəhrəmanı gənc ziyalı, aktyor Məmmədir. O, azad, saf məhəbbətin tərəfdarıdır, eyni zamanda teatrı kəsərli, əhəmiyyətli tərbiyə vasitəsi hesab edir və təbliğ etdiyi bu qayəyə qarşı duranlarla mübarizə aparır.

Keçmişdən qalma mənfi adət-ənənələrin tənqidi, yeni əxlaq normalarının köhnə mühafizəkar əxlaqi normalar üzərində qələbəsi, komediyada müsbət surətlərdən cəsarətlə istifadə etmək meyli Süleyman Saninin "Molla Nəsrəddin Bakıda", "Şahsənəm və Gülpəri", "Bir eşqin nəticəsi", "Yeni həyat" məzhəkələrinin ideya-bədii xüsusiyyətlərini təşkil edir.

Sovet dövrü Azərbaycan dramaturgiyasında bioqrafik formada yazan ilk sənətkar Süleyman Sanidir. Onun "Molla Nəsrəddin Bakıda" məzhəkəsi böyük inqilabçı-demokrat C.Məmmədquluzadəyə həsr edilmişdir. Burada o, Molla Nəsrəddin surətini ilk dəfə səhnəyə çıxarır, onun köhnəliyə qarşı çevrilən satirik gülüşünün ictimai məzmununu açır, Cəlil Məmmədquluzadənin bir şəxsiyyət kimi bəzi xarakterik sifətlərini göstərir.

"Şahsənəm və Gülpəri"nin konflikti hüququnu anlayan, ictimai həyata atılmaq istəyən qadınlar ilə yeniliyə qarşı çıxan köhnə fikirli ərlərin mübarizəsi üzərində qurulmuşdur. Komediyanın finalında ərlər öz səhvlərini başa düşüb arvadları ilə barışır, mədəni həyata qədəm qoyurlar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"Bir eşqin nəticəsi" komediyasının konfliktini də yeniliklə köhnəliyin mübarizəsi təşkil edir. Dramaturq, azyaşlı qıza evlənmək istəyən qoca Kərbəlayı Nəbi kimi tüfeylilər gülüş hədəfi edir. Dramaturqun yeniliyi ondadır ki, o, feodal əxlaqının gülünclüyünü, ölümə məhkumluğunu komik vəziyyətlərdə göstərməklə yanaşı, yeni insanın qələbəsini də əks etdirir.

Ailə və məişətdə yeniliklə köhnəliyin mübarizəsini təbii situasiyalarda, bitkin süjet xəttində göstərən məzhəkələrindən biri də "Yeni həyat"dır. Bu əsərdə qaldırılan məsələlər də çox aktual, ictimai-siyasi əhəmiyyətə malikdir. Dramaturq burada usta imanların dindarlığını tənqidə tutur, yeniliyi qəbul etməyənləri acı yumorla tənqid edir.

Süleyman Sani həm də orijinal nasirdir. Bizə məlum olan ilk hekayələri bunlardır: "Qonaqlıq" (1905), "Kövkəbi-hürriyyət" (1905), "Yuxu" (1905). Azərbaycan ədəbiyyatında məzmun, forma, üslub etibarı ilə yeni olan bu klassik əsərləri ədib, 1905-ci il inqilabının təsiri ilə yazmışdır. Professor Mir Cəlal Paşayevin dediyi kimi, bu hekayələrdə inqilabi nəğmə ruhu, tərənnüm üsulu əsasdır. Bunlarda qanadlı bir qəlb çırpınır... Burada bir xatirə, bir işarə və bəzən ildırım kimi yanıb-sönən bir işıq verilmişdir. Lakin yeni işıqda biz bir aləmi, böyük gələcəyi görürük. Süleyman Sani "Tutu quşu" (1909) hekayəsində də aktual məsələyə toxunmuşdur. Ədib təxminən bir səhifə həcmində olan bu hekayəsində təqlidçiləri, ana dilinə xor baxanları Tutu quşunun simasında ifşa etmişdir.

XX əsr Azərbaycan uşaq ədəbiyyatının formalaşmasında, inkişafında Süleyman Saninin böyük xidməti vardır. Ədib, "Qorxulu nağıllar" (1912-1914) başlığı altında yazdığı "Əhməd və Məleykə", "Abbas və Zeynəb", "Nurəddin", "Qaraca qız" əsərləri ilə Azərbaycan uşaq ədəbiyyatına forma, məzmun, üslub yenilikləri gətirmişdir.

"Qaraca qız" (1913) ədibin nəsr yaradıcılığının şah əsəridir. Yazıçı Qaraca qızın simasında ədəbiyyatımızda ilk dəfə olaraq zəhmətkeş ailəsindən olan uşağın bitkin, çox təsirli, parlaq, eyni zamanda tragik, unudulmaz surətini yaratmış, onda nəcib arzular təcəssüm etdirmişdir. Bu əsərin meydana çıxmasına qədərki Azərbaycan uşaq ədəbiyyatında belə bir keyfiyyət müşahidə etmirik. "Qaraca qız" klassik Avropa və rus uşaq ədəbiyyatı nümunələri arasında belə özünəməxsus bədii, ictimai-əxlaqi, estetik dəyəri ilə seçilən, fərqlənən sənət əsəridir.

"Qorxulu nağıllar" başlığı altında yazdığı hekayələrindən biri də "Əşrəf"dir (1914). Bu hekayəni ədib, Əşrəf adlı şagirdinə ithaf etmişdir. Hekayənin süjet xəttində balaca Əşrəfin ata-anasından didərgin düşdük-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dən sonra Nikolay İvanoviç adlı bir rus müəlliminin himayəsinə alınmasını göstərən canlı, maraqlı bədii lövhələr, müəllifin, uşaq psixologiyasına dərindən vaqif olmasım əks etdirən epizodlar oxucunun yaddaşında uzun zaman qalır.

Süleyman Saninin yazmış olduğu "Qan bulağı" (1923), "Ümid Çirağı" (1923), "Cəhalət qurbanı" (1923), "Nə üçün?" (1925), "Təbrik" (1925), "Sona xala" (1926), "Namus" (1926), "Mister Qreyin köpəyi" (1927), "Son ümid" (1927), "İki dost, iki düşmən" (1927), "Gənc maşinistka və qoca yazıçı" (1935) hekayələri sovet dövrü Azərbaycan nəsrinin ilk nümunələrindəndir.

Sağlam qayəli, eyni zamanda aydın, sadə üslubda əlvan boyalarla yazılan bu hekayələrdə ədib, gənc sovet nəsrinin ideya-estetik tələblərinə cavab verən bir sıra aktual məsələlərə toxunmuş və onların bədii həllini verməyə çalışmışdır. Zərərli adət-ənənələrin ifşası, dini xurafatın qalıqlarına qarşı mübarizə, azəri qadınlarının ictimai həyata atılması, yeniliyin köhnəlik üzərində qələbəsi - bu hekayələrdə qabarıq şəkildə əks etdirilmişdir.

Ədibin hekayələrini mövzuca iki qismə ayırmaq olar: bunlardan bir hissəsi keçmiş, ikinci qismi isə müasir həyatdan alınmış əsərlərdir. İstər keçmişdən, istərsə də müasir həyatdan aldığı mövzuları işlərkən o, həmişə xəlqiliyə sadiq idi. Keçmiş dövrdən yazdığı hekayələrində oxucunu düşündürən, mühakimə yürütməyə sövq edən həzin lirika qabarıq şəkildə nəzərə çarpır.

S.S.Axundov nəsrindəki lirizm surətin hisslərini, fikirlərini, vəziyyətini, təsvir etdiyi həyatın konkret nöqtələrini, çox yığcamlıqla əks etdirməyə yönəldilmişdir. "Cəhalət qurbanı", "Ümid çırağı" hekayələrində hadisələr lirik tərzdə hissiyyatla əks etdirilir. Bu əsərlərdəki lirizmdə ictimai fikirlə hissin ahəngdarlığı bir məziyyətdir. Lirizm S. Sanidə eyni zamanda estetik, tərbiyəvi qayə daşıyır. Yazıçı lirikanın həm məhəbbət, həm də siyasi formasına müraciət etmişdir. Qan intiqamının, nəsil ədavətinin ifşasına, saf məhəbbətin tərənnümünə həsr edilən "Qan bulağı"nda məhəbbət, zəhmetkeşlərin dözülməz həyatını əks etdirən "Nə üçün?" hekayəsində siyasi lirizmin ünsürləri qabarıq şəkildə görünür. Bu əsərlərdə ədibin təsvir üsulu lirika ilə bağlıdır.

Süleyman Saninin keçmiş həyatdan aldığı mövzular əsasında yazdığı hekayələrinin bədii metodunun spesifikasının mühüm bir cəhəti vardır. Ədib "Qaraca qız", "Cəhalət qurbanı", "Ümid çırağı" hekayələrində ağıllı,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

nəcib, gözəl arzularla yaşayan Qaraca qız, Tamam, məktəbli surətlərinin faciələrində belə bir fikri də açır ki, adlarını çəkdiyimiz gözəl insanlar ölsələr də, öz zəngin mənəviyyatı, insani keyfiyyətləri, xoş niyyət və arzuları ilə onları müsibətlərə düçar edən ədalətsiz quruluşdan, bu mühitin çirkin niyyətli adamlarından yüksəkdə dururlar.

Obraz və hadisələrin təsvirindəki yığcamlıq, bitkin xarakterlər, hadisələrin təbii inkişafını ustalıqla əks etdirmək, oxucunu düşündürüb müəyyən əxlaqi-tərbiyəvi nəticəyə gətirmək, kompozisiyada xalq ədəbiyyatı nümunələrindən məharətlə istifadə etmək, lirik-publisist ricətlərə müəyyən yer vermək, əhvalatçılıqdan qaçmaq, sadə, aydın, lakonik dil - S.S.Axundov nəsrinin əsas məziyyətlərindəndir.

"İctimai rəyin klassik saydığı" qüdrətli sənətkarlardan olan Süleyman Saninin ədəbiyyatımızın inkişafı tarixində böyük xidməti vardır. Onun əsərləri bütün oxucular kimi, məktəblilər tərəfindən də sevilə-sevilə mütaliə edilir. Ədəbi irsinin təravəti, ictimai-tərbiyəvi, bədii, estetik məzmunu solmayan bu sevimli yazıçının parlaq xatirəsi xalqın qəlbində yaşayır.

***Nadir Vəlixanov***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# PYESLƏR



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# TAMAHKAR

*Beş pərdəli məzhəkə*

İŞTİRAK EDƏNLƏR:

H a c ı  M u r a d - 60 yaşında.
İ m r a n - 25 yaşında.
G ü l z a r – Hacı Muradın qızı, 18 yaşında.
M ə h ə r r ə m  b ə y - 55 yaşında, xəsis bir mülkədar.
H a c ı  S a l e h - 48 yaşında, tacir.
Ş ə r ə f  x a n ı m - Hacı Muradın həmşirəsi[1].
Ə h m ə d - Şərəfin oğlu, 10 yaşında.
N a b a t - Hacı Muradın xidmətçisi, 25 yaşında.
Q u l u  - Hacı Muradın nökəri.
Ə l i q u l u  - Məhərrəm bəyin sabiq nökəri.
Q u r b a n  Qulunun yoldaşları.
N i y a z

## BİRİNCİ PƏRDƏ

Hacı Muradın otağı. İki qapısı və iki pəncərəsi var. Otaq fərşlə döşənmiş. Sol tərəfdə Hacı Muradın paltarı, sağ tərəfdə pul və cavahir sandıqları qoyulmuş. Qapı tərəfdə bir dolab. Yanında bir əl ağacı. Pərdə açıldıqda Qulu otağı süpürərək öz-özünə söylənir.

Q u l u. Deyən gərək, a qoca kaftar, bu pulları kimə yığırsan, niyə yemirsən? Arvadın yox, oğlun yox, bir qızın var, o da bu gün-sabah çıxıb allah bəndəsinin birinə gedər. Yenidən evlənməyə ömrün yox; çünki yaşın altmışdan ötmüşdür. Bəs bu pulları kimə yığırsan? Adam pulu qazanar ya bu dünya üçün, ya axirət üçün. Bu dünyada yeyər, içər, aşna-dosta xərclər, kef edər. Axirət üçün də məscid-mədrəsə tikdirər, fağıra pul verər, yetimə paltar alıb qarnını doydurar. Amma bu zalım oğlunda bunların heç biri yoxdur. Nə deyim, allahın sirrinə təəccüb qalmalıdır... Pulu götürüb belə xəsisə verir ki, sandığa doldurub

---

[1]Bacısı



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

gecə-gündüz keşiyini çəkir və mənim kimi bazburudlu oğlanı da ona nökər edir, yəni belə malınyeməzin malını yemək haramdır? Vallahi, mənə görə halaldan da halaldır. Ancaq açarları əlimə sala bilmirəm və özü də nə duyursa, məni otağına qoymur. İndi gəlib məni burada görsə həşirimi qatacaqdır. (*Pəncərədən baxır*.) Odur, gəlir, dədəmin evi yıxıldı.

Süpürgəni yerə atıb tez qaçır, Hacı Murad o biri qapıdan daxil olur.

H a c ı M u r a d. Bu süpürgə burada nə gəzir? Yoxsa yenə zalım oğlu Qulu burada imiş. Qulu! Qulu! Kar olsan. Nabat! Nabat!..

Nabat daxil olur.

N a b a t. Nə buyurursan, ağa?

H a c ı M u r a d. Qulu haradadır? Bu süpürgə burada nə gəzir?

N a b a t. Qulu indicə əlində süpürgə buraya girdi.

H a c ı M u r a d. Kafir uşaqları kafir, min dəfə demişəm ki, mənim otağıma, ta özüm çağırmasam girməyəsiniz. Sizin əlinizdən rahat bayıra da çıxa bilmirəm. Bəs Qulunun özü haradadır?

N a b a t. Ağa, bilmirəm.

H a c ı M u r a d. Get bu saat harada isə tap buraya göndər. (*Nabat gedir*.) Axırı bu zalım oğlu Qulu mənim başıma bir iş gətirəcəkdir. Murdar oğlunu görmək istəmirəm. Üzündən-gözündən oğurluq yağır. (*Qulu daxil olur*.) Qulu, harada idin? Səni çağırıram heç səs də vermirsən.

Q u l u. Ağa, bağçada çarhovuza su buraxmışdım.

H a c ı M u r a d.Bu süpürgə burada nə gəzir?

Q u l u. Ağa, gəldim, səndən izin alıb evi süpürəm, gördüm evdə yoxsan, çıxdım. Özün buyurubsan ki, izinsiz sənin otağına girməyim.

H a c ı M u r a d. Yaxşı, itil get. (*Qulu çıxır*.) Durum sandığı yoxlayım. Yoxsa Quluya etibar eləmək olmaz. Xoş o adamın halına ki, pulu əlçatmaz və möhkəm yerdədir. O gün də Məhərrəm bəy deyir ki, mən pullarımı bangə verirəm. A kişi, adam da gözü görə-görə pullarını özgəyə verərmi? Bu dünya elə dünyadır ki, adama bir qəpik də etibar etmək olmaz. Yaxşı, birdən o bangdə pullar itdi, ya vermədilər, onda mən kimdən alım? Yox, səfih işdir. (*Papağının içindən əsgiyə düyünlü açarları çıxardır, dörd tərəfinə baxa-baxa sandığın içindən mücrünü*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*çıxardıb pulları sanayır.*) Gərək burada əlli min manat ola. Dünən də Məşədi İsmayıl istədi ki, müamilədən kəsə, gördü ki, xeyr, mən o adamlardan deyiləm. (*Bu halda Nabat daxil olur. Hacı Murad cəld mücrünü altına qoyub üstünü çuxası ilə örtür.*) Yenə nə var?

N a b a t. Hacı ağa, Gülzar xanım hamama gedəcəkdir, pul istəyir.

H a c ı  M u r a d. Hamama gedəcəkdir? Çox qələt edəcəkdir. Evdə su da var, od da var, qab da var, qazan da var. Su qızdırsın çimsin. Gələniniz əlini açır pul ver, gedəniniz pul ver. Pul, pul, pul! Haradan alım? Deyəsən xəzinə üstə oturmuşam. Niyə dayanmısan? İtil get.

N a b a t (*gedə-gedə kənara*). Qoca kaftar, pulları sandıqlarda gizlədib bir tək balasına da qıymır.

H a c ı  M u r a d (*yalqız*). Yox, evdə bu qədər pulu saxlamaq olmaz. Heç olmasa mücrünü bir başqa yerdə gizlədim. Yoxsa sandıq elə şeydir ki, oğru əvvəl onun üstə yüyürər. (*Fikir edir.*) Tapdım. Hacı Saleh də pulu gətirsin, onu da bunlara qatıb basdırım. (*Mücrünü yenə sandığa qoyur.*) Görəsən nə oldu ki, Hacı Saleh gec gəldi? Şəhərdə bərk səs var ki, Hacı Saleh banqurotdu.

Bu halda Hacı  Saleh pərişan bir halda daxil olur.

H a c ı  S a l e h. Salaməleyküm.

H a c ı M u r a d. Əleyküməssəlam. Hacı,buyur əyləş. Nə var? Çox pərişansan, xeyir ola?

H a c ı  S a l e h. Hacı əmi, dünyanın hansı işinə baxıb pərişan olmayım? İnsanda insaf, rəhm, sədaqət qalmayıbdır. Vaxtı ki, işin sazdır, sənə ehtiyac var, hamı sənin qulundur. Amma elə ki, işin bir balaca əydi, hamı üstünə ayaq basıb, sənə qılınc vuracaqdır. Sənə məlumdur ki, bu şəhərin sövdəgərlərinin əksərini mən pullu etmişəm. Neçələrini dar günündən qurtarmışam. Neçələrinin veksillərini cırıb atmışam. İllər ilə müamiləsiz pul borc vermişəm. Xülasə, hansını deyim? Özün bilirsən.

H a c ı  M u r a d (*kənara*). Bu müqəddimədən heç gözüm su içmir.

H a c ı  S a l e h. Hacı əmi, Moskvadan gətirdiyim mal tamamilə satılmamış durur, barama da zərər çıxartdı. Alış-veriş belədir ki, beşinə sən borclu olursan, beşi də sənə. Mal satılıb qurtarar, borclar verilər. İndi mənim işim bir az dolaşıqdır, dövlətli etdiyim adamlar mənə macal vermir. Sənin beş min manatını hazır etmişəm, ancaq altı yüzünə bir həftə möhlət ver, çünki onu Məşədi Niyazquluya verəcəyəm. O



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

gözləyə bilmir. Doğrudan da, əlində heç zadı yoxdur. Yoxsa onun pulunu nə qədər saxlasam, istəyən adam deyil.

H a c ı M u r a d. Yox, Hacı Saleh, düz söz, gözləyə bilməyəcəyəm. Pul özümə çox lazımdır.

H a c ı S a l e h. Hacı, sən şəhərimizin birinci dövlətlilərindən hesab olunursan. Sən niyə pula möhtac olasan?

H a c ı M u r a d. Elə orada evim yıxılıbdır ki, xalq məni dövlətli qələminə veribdir. Hansı borclunun üstünə gedirəm, deyir, Hacı, sən dövlətlisən, gözlə. Baba, haradan dövlətli oldum. Qırx il külüng çalıb bir cüzi pul əlimə almışam. O da onda-bunda.

H a c ı S a l e h. Hacı, buyur bu dörd min dörd yüzü al, yerdə qalan altı yüzə də bir həftə vaxta, kağızı təzələyib, mənə möhlət ver. Eybi yoxdur, müamiləni də artır.

H a c ı M u r a d. Xeyr, xeyr, heç vaxt qəbul edə bilmərəm. Gərək beş mini tamam qabağıma qoyasan, bax kağızın vaxtından iki gün də keçibdir. Mən təəccüb edirəm ki, niyə mənim pulumdan kəsib Məşədi Niyazquluya verirsən, çünki məni yumşaq tanıyırsan.

H a c ı S a l e h. Hacı Murad, bu sözləri mənə deyirsən? Mənə bir həftə vaxt vermirsən? Neçə dəfə səni dar gündən qurtarmışam, a biin-saf kişi? Səni ilan ağzından qurbağa kimi, borclulardan xilas etmişəm. İndi mənə aman vermirsən?

H a c ı M u r a d. Onlar keçmiş əhvalatdır. Mən də sənə az etməmişəm. Köhnə palan içi açmaq lazım deyil. Daha bir gün də gözləyə bilmərəm. Dünya ölüm-itimdir və bundan əlavə də Kərbəla ziyarətinə gedəcəyəm. Pul lazımdır.

H a c ı S a l e h (*rişxəndlə*). Hacı Murad, ziyarətin qəbul olunsun, ancaq soruşmaq eyib olmasın, hansı əməl ilə gedirsən?

H a c ı M u r a d. Niyə? Mən nə pis əməl etmişəm ki, ziyarətim də qəbul olmasın?

H a c ı S a l e h. Hələ cürət edib soruşursan da? Sənin yediyin, içdiyin it qanından da murdardır, çünki oğurluqla, qaçaqlıqla, yetimin malını mənimsəməklə yığılıbdır. Hansı əməlini deyim. İmranın atasının pulu ilə mal-dövlət sahibi olduğunu hamı bilir və yetim İmranı nə tövr saxladığın cümləyə məlumdur. Amma onun atasının sən çöldəqalmışı öz oğlu kimi, xəz paltolu saxladığı hamıya məlumdur.

H a c ı M u r a d. Babam, mənimlə davaya gəlmisən? Bir qəbih iş görmürəm ki, öz pulumu istəyirəm də.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

H a c ı S a l e h. Kağızı ver buraya, bihəya kimi! Buyur, bu sənin beş min manatın. (*Pulları verir.*) Sən elə zalım deyilsən ki, adama rəhm edəsən. Boynuma torba salıb dilənməyə hazıram, nəinki sənin kimi adamdan minnət götürməyə. (*Veksili Hacı Muraddan alıb çıxır.*)

H a c ı M u r a d (pulları sayarkən). Yaxşı çrxartdım. Hacı Saleh az qalmışdı ki, İmranın qəyyumu olub Şeyx Əlinin malını məndən iddia edə. Dünyada qəribə adamlar var. Bir də görürsən ki, səndən iddia edir ki, mənim babam sənin babanı filan qərinədə əsirlikdən azad edibdir. İndi gərək sən də mənə qul olasan. Durum mücrüyə yer qazım. Qulu! Qulu!

Qulu gəlir.

Q u l u. Nə buyurursan, ağa?

H a c ı M u r a d.Get mətbəxdə bir xəncər tiyəsi var, onu buraya gətir. (*Qulu gedir.*) Bu döşəkcənin altını qazaram və basdırıb üstündə oturaram. Ancaq Quludan və Nabatdan həmişə sərvaraq olmalıyam. Ələl-xüsus o şeytan Quludan. Hər bir şeyə diqqət edir. İndi soruşacaqdır ki, bu xəncər tiyəsini neynirsən?

Qulu daxil olur.

Q u l u. Ağa, bunu neynirsən?

H a c ı M u r a d. Canına dərd edəcəyəm, səfihoğlu səfih! İndi durub mənnən silist edecəkdir. Nə edəcəyəm, dırnaqlarımı kəsəcəyəm.

Q u l u. Ağa, bunnan mən ət döyürəm. Bu dırnaq kəsməz.

H a c ı  M u r a d. Sarsaq oğlu sarsaq, itil cəhənnəmə.

Q u l u. Ağa, niyə acığın tutur. Bu elə kütdür ki, heç yer də qalmaz.

H a c ı M u r a d. Nə dedin? (*kənara*) Allah, divarların da qulağı var. Bu zalım oğlu haradan bildi ki, mən tiyəni nə üçün istəyirəm.

Q u l u (*kənara*). Bəli, məlum oldu ki, tiyə nə üçündür.

H a c ı M u r a d. Qulu, indi başımı sandığaqoyub yuxuyagetmişdim, yuxuda gördüm ki, sən surətdə bir adam evə girib istəyir ki, mənim pul sandığımı yarıb... belə boğub məni o boş sandığa saldı. Çox vaxt yuxu doğru olur. İndi onun ücün bunu səndən istədim ki, yanımda silah olsun.

Q u l u. Bəli, ağa, adam gərək ehtiyatlı olsun. Yanında silah saxlasın. (*kənara*) Amma necə inandım, məni hec şeytan da aldada bilməz,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

istəyir bu aldatsın. (*Hacı Murada*) Ağa, mən getdim, yoxsa toyuq ocaqda yanar.

H a c ı M u r a d. Ay gədə, toyuq nədir? Nə deyirsən? Kim sənə izin veribdir ki, toyuq kəsirsən. Bu zalım uşaqları axırı məni dilənçi edəcəklər, elə bu saat da dilənçi halındayam. Kafir oğlu kafir, bu dəqiqə o toyuğu mənə dirildərsən.

Q u l u. Ağa, mən neyləyim. İmran ağa buyurdu ki, axşama plov bişir, iki toyuğu da kəs qoy aşın altına, qonağım var.

H a c ı M u r a d. A kafir oğlu, mənəm sənin ağan, yoxsa İmran? O haradan ağa oldu. Bir yetim gədə idi. Rəhmim gəlib saxlamışam. İndi mənim evimi dağıdır? Get bu saat onu buraya çağır. (*Qulu gedir.*) Evin yıxılsın, İmran. Yaxşı evimi dağıdırsan. Heyf sənə, çil toyuq. Hamı toyuqlardan yumurtlayan idi. (*İmran daxil olur.*) Atam, belə ki, sən başlamısan, tezliklə mənim boynuma torba saldırıb diləndirəcəksən.

İ m r a n. Nə olmuş?

H a c ı M u r a d. Atam, bu nə qonaqlıqdır? Bu nə toyuqplovdur? Atam, yağ, düyü müftə deyil. Hamısına pul vermişik. Axır mənə deyən gərək, ay axmaq, niyə evə yağ, düyü alırsan ki, gədə-güdə hər gün aş bişirib yesin? Bu xərcə heç Süleyman padşahın xəzinəsi də davam edə bilməz.

İ m r a n. Sən evə nə yağ alansan, nə düyü. Bu günkü plovun xərci də mən ilədir. Budur, on iki ildir ki, mən bu evdə oluram, burada bir qonaq üzü görməmişəm və özüm də sənin qorxundan çağırmamışam. Amma indi bazardan gəlirdim, bir fağır qəribə rast gəldim. Bu gecəliyə qonaq olmağı rica etdi, naəlac qalıb razı oldum. Bir də, qəribə kömək etməyi allah, peyğəmbər buyurmuşlar.

H a c ı M u r a d. İndi de durub mənə şəriət öyrədəcəkdir. De görüm, ağa İmran, o hansı tatın kitabındadır ki, toza, torpağa batıb min əziyyət ilə pul qazanasan. Verəsən toyuqplova, onu da gəlib-gedən lotu-potu yesin. Özü də çil toyuğun əti ilə.

İ m r a n. Daha mən sənə nə deyim? Sənin üçün allah, peyğəmbər, quran, şəriət hamısı puldur ki, yığasan sandıqlara, nə özün xərcləyəsən, nə də başqasına verəsən.

H a c ı M u r a d. Kəs səsini, nadürüst, namərbut. Budur, on iki ildir ki, sən ata-anasız yetimi öz oğlum kimi bəsləyib, paltar, çörək verib bu boya çatdırmışam. Onun əvəzində mənə dediyi sözə bax. Çörəyim sənə haram olsun.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

İ m r a n. Sənin məndə heç bir haqqın yoxdur, mənim səndə var. Hələ atam Şeyx Əli sənə elədiyi yaxşılıq və qoyduğu dövlət dursun kənarda. Mən özüm gecə və gündüz çalışıb sənə pul qazanmışam. Amma bu vaxta kimi heç bir şeyə ixtiyarım yoxdur ki, əl vuram. Yığ, yığ görək kimə qalacaqdır... (*Çıxır.*)

H a c ı M u r a d. Ümid ol, sənə qalacaqdır. Çox tələsmisən. Yox, dəxi dayanmaq yeri deyil. Lazımdır tezliklə Gülzarı bir dövlətli yerə verib İmranı qovmaq. Baxaq görək, şəhərimizdə arvadsız dövlətli kimdir. Kərbalayı Cəfər. Yaxşı dövləti var. Amma irəliki arvaddan beş oğlu var, dörd də ayı kimi qızı. Heyf, bunlardan mənə heç şey düşməz. Hacı İmanqulu. Malı-dövləti çox, özünün də sill azarı var. Bu gün-sabah təşrif aparacaqdır. Amma bu bədbəxt də molla, seyidin kələyinə düşüb cəmi dövlətini məscidə vəqf etmiş. Bəs kim qaldı? (*Fikirləşir.*) Tapdım, Məhərrəm bəy. Yaxşı pulu, mülkü var. Qapısında nökər-qulluqçunun sayı-hesabı yoxdur. Heç bir övladı da, qohum-əqrəbası da yoxdur. Sinni də mənə yovuqdur. Qulu! Qulu!

Qulu daxil olur.

Q u l u. Nə buyurursan, ağa?

H a c ı M u r a d. Qulu, bir az naxoş kimiyəm, tezdən yatacağam, heç kəsi buraya qoymazsan. Gələn olsa, deyərsən ki, ağam azarlıdır, yatıb. Di get.

Q u l u. Ağa, bəs plov yeməyəcəksən?

H a c ı M u r a d. Xeyr, ağan İmran yesin. (*Qulu çıxır.*) Durum mücrü üçün yer qazım. (*Durub qapıları bağlayır, tiyəni götürüb yeri qazır.*) İndi, oğrular, tapın görüm Muradın pulu haradadır? Heç şeytanın da ağlına gəlməz ki, mən burada pul basdırmışam. Qulu demiş, tiyə elə kütdür ki, yeri də qazmır. (*Mücrünü basdırıb üstünü torpaqla örtur.*) Daha təşvişdən qurtardım. Gör ürəyim necə atdanır. (*Bu halda Qulunun papağı şüşəni sındırıb pəncərədən içəri düşür, Hacı Murad diksinib qalxdıqda ayağını tiyə kəsir. Bərkdən qışqırır. Sonra Qulunun papağını görür.*) Bu yenə zalım oğlu Qulunun işidir. (*Durub qapını açır və çağırır.*) Qulu! Qulu!

Qulu başı açıq daxil olur.

H a c ı M u r a d (*papağı göstərir.*) Bu nədir, a kafir oğlu?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Q u l u. Ağa, vallah, təqsir məndə deyil, Nabatdadır. Aydınlıq gecdir, həyəti süpürməyə başladım. Nabat gəlib birdən başıma bir qapaz salıb qaçdı. Mənim də elimə bir şey düşmədi, papağı dalınca atdım, gəlib pəncərəndən içəri düşdü.

H a c ı M u r a d. Kafir uşaqları kafir. Yeyin mənim yağlı-yağlı xörəklərimi, sonra qızışıb şıllağa durun. Görün sizin başınıza nə gətirəcəyəm. Elə indicə yuxuya getmişdim, şüşənin səsindən diksinib qalxdıqda tiyə ayağımı kəsdi.

Q u l u (*kənara*). A... indi basdırdığı yeri də bildim.

H a c ı M u r a d. Get, zirzəmidə divarın çatlağında pambıq gizlətmişəm və küncdə əsgi var. Tap buraya gətir.

Qulu gedir.

H a c ı M u r a d. Bu zalım uşaqlarının əlindən bir saat da rahatlığım yoxdur. Gərək adamın arvadı ola ki, canı rahat ola yoxsa arvadsız kişinin günü it günüdür. Yəni bir tərəfə də baxanda arvada da etibar yoxdur. Evin baş oğruları onların özləridir. (*Qulu axsaya-axsaya daxil olur.*) Tez gəl, tənbəl oğlu tənbəl. Məni görüb ayağı da axsamağa başladı.

Q u l u. Ağa, mən də sən düşən günə düşdüm. Ayağıma mıx batdı.

H a c ı M u r a d. Çox yaxşı oldu. Əlbəttə, ağasına xəyanət edəni allah elə edər. İndi gəl ayağımı sarı.

Q u l u (*Hacı Muradın ayağını bağlarkən kənara*). Xəsis kaftar. İt sümük yığan kimi, anbarı doldurubdur mıx ilə, nal parçası ilə, kəndir qırığı ilə, əsgi ilə, əlinə hər nə düşübdür, siçan kimi yuvasına yığıbdır.

H a c ı M u r a d. İndi həkim olsaydı, bir parça pambıqdan ötrü əpteyə göndərib məndən xeyli pul çıxartmışdı. Adam belə olmasa pul yığa bilməz.

Q u l u. Ağa, vallah mən belə pul yığsaydım, indi mənim də sənin kimi dövlətim vardı.

H a c ı M u r a d. Sən niyə zəhmət çəkəsən? Ağanın min əziyyətlə qazandığından yeyib eşşək kimi şıllaq atırsan. Mən olmuşam bir leş, siz olmusunuz bir ac qurd. Həraniz bir tərəfdən soxulub cəmdəyimi didirsiniz. Hə, qurtardın? İndi get orda dur. (*Çağırır.*) Nabat, Nabat! (*Nabat daxil olur.*) Xanım, indi de papaqaldıqaç oynuyursan?

N a b a t. Ağa, vallah, Qulu yalan deyir, nahaq yerdən gəlib məni sənə çuğullayır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Q u l u. Yəni gündə hər səhər-axşam samovarı təzələyib xanım kimi altı-yeddi istəkan salma çay içdiyini də yalan deyirəm.

N a b a t. Ağa, vallah, yalan deyir, inanma Quluya. Mən də sənin kimi gizlin, gündə ocaqda yumurta bişirib yeyirəm?

Q u l u. Ağa. Nabat qəndi doğrayanda ciblərinə doldurur.

H a c ı M u r a d. Dayanın, kafir usaqları, siz mənim evimə quldurluğa gəlmisiniz, mənim evimi tar-mar etmişsiniz. Mənim xəbərim yoxdur, bu saat sizin divanınızı edəcəyəm.

Qalxıb istəyir ki, ağacına tərəf getsin, Qulu və Nabat qaçırlar. Hacı Murad da ayağının ağrısından ufultu ilə yerə yıxılır.

**Pərdə**

## İKİNCİ PƏRDƏ

Səhnə İmranın otağını göstərir. Otağın divarları pəhləvanlar rəsmi ilə müsəvverdir, otağın pəncərəsi bağçaya baxır. Ortada bir masa, üstündə kitablar, yanında bir neçə kürsü. Gülzar pəncərəyə söykənib. İmran isə gəzinir.

İ m r a n. Yox, Gülzar, daha səbir edə bilmirəm. Bu on iki ildə atan mənə etdiyi zülmə davam edib səbir etdim, amma indi sənə etdiyi sitəmə tab gətirə bilmirəm. O günü yadındadırmı, göz ağrısından nalən ərşə çıxmışdı. Gedib deyirəm, Hacı əmi, pul ver həkim gətirim. Deyir həkim zad lazım deyil. İkicə gün ac qalsın sappasağ olsun ayağa dursun. Hamı azar, deyir, yeməkdəndir. Az yesin, qanı da az olsun. Onda heç vaxtı gözləri ağrımaz. O vaxtı məndə də pul yox idi. Gedib özgədən borc alıb həkim gətirdim. Sənə də demədim ki, ürəyin sıxılar. Nə deyim, allahın belə birəhm ata yaratdığına təəccüb edirəm.

G ü l z a r. İmran, bir ata ki qızını bu mal-dövlətlə on iki il bacı evində qoya ki, xərc çıxmasın, daha ondan nə ummaq olar?

İ m r a n. Gülzar, əbəs yerə indiyə kimi ümid bağlamışıq.

G ü l z a r. Necə, atam sənə nə deyib?

İ m r a n . Nə deyəcək? Vaxtı ki, karvansaranı və dükanları satmamışdı, oğlumsan və qızım da sənindir deyə məni əlindən buraxmırdı, amma elə ki, onların hamısını satıb pul elədi və sandıqlara doldurdu, daha mənə ehtiyacı qalmadı. İndi sözünü dəyişdirib deyir ki, mən heç vaxt öz qapımdakı nökərimə qızımı vermərəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

G ü l z a r. Yəni bu sözləri özü dedi?

İ m r a n. Xeyr, sən azarlı olan vaxtı bazarda Hacı Qəhrəmanın dükanında oturubmuş. Hacı Qəhrəman məni tərif edirmiş: deyirmiş ki, Hacı Murad, sən çox xoşbəxtsən ki, İmran kimi kürəkənin var. O vaxtı, o da həmin cavabı vermişdi. Bundan əlavə, özüm də görürəm ki, məni çox incidir ki, təngə gəlib gedəm.

G ü l z a r. Xudaya, ata-anaya ehtiram edib sevməyi övlada vacib etmisən. Mən belə atanı necə sevim?

İ m r a n. İndiyədək mənim adım sənin üstündə olduğuna görə hər kəsin qabağı alınmışdı. Bundan sonra buradan elçilərin ayaqları kəsilməz.

G ü l z a r. İmran, səhv edirsən. Belə iş olmaz. Cəmi şəhər bilir ki, mən sənə ad olunmuşam, heç kəs cürət edib bu qapıya gələ bilməz.

İ m r a n. Gülzar, o səni mənə heç vaxt verməyəcəkdir. Onun fikri odur ki, səni bir dövlətli adama verə ki, ondan nəfbərdar ola.

G ü l z a r. İmran, buna heç inana bilmərəm. Yəni atamın fikri odur ki, mənlə alış-veriş edib qazanc eləsin?

İ m r a n. İnanmamağa haqqın var, çünki sən atanla az olmusan. Onu yaxşı tanıya bilməzsən.

G ü l z a r. İmran, atam o qədər zalım ola bilməz. Bizim məhəbbətimizə rəhmi gəlib bir-birimizdən ayırmaz.

İ m r a n. Gülzar, özün bilirsən ki, məni burada saxlayan məhz sənə olan məhəbbətimdir. Amma bunu atana qandırmaq mümkündürmü? Onun məşuqəsi puldur. Onun namazı sandıqdır ki, gündə beş dəfə durub baş çəksin. Onun Kəbəsi mücrüdür ki, gündə yeddi dəfə başına dolansın. Gülzar, çox çəkməz ki, atan səni bir dövlətliyə verməyi aşkar edər və heç bir qanlı göz yaşı onun qət etdiyini poza bilməz. O vaxtı mənim ilə getməyə razısanmı?

G ü l z a r. Əlbəttə razıyam. Sənsiz mənə dirilik yoxdur.

Nabat daxil olur

N a b a t. Xanım, Dürrə xanım gəlib səni görmək istəyir. Gülzar və Nabat çıxırlar.

İ m r a n (*yalqız*). Zavallı qız, çox böyük müsibətdir ki, atan ola, özün yetim sayılasan. Dövlətin ola, kasıb kimi hər şeyə möhtac olasan.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hacı Murad əlində əsa daxil olur.

H a c ı  M u r a d. Əhvalın necədir, İmran ağa? Nə qəm dəryasına batmısan?

İ m r a n. Sizdən rica edirəm ki, mənlə rişxənd ilə danışmayasınız. Mən ağa olsaydım, sənin üçün nökər, dalandar olmazdım.

H a c ı M u r a d. Acığın niyə tutur, adam özü üçün pul qazanmağa çoban da olar, arabaçı da olar, hətta hambal da olar. Görmürsənmi mən qoca kişi necə çalışıram? İndi bu saat bazardan gəlirəm. Ac-susuz, altı saatdır o tacirin, bu tacirin dükanının qabağını kəsdirib borc yığıram. Bunların hamısı sənin işindir. Lakin sən əlini ağdan qaraya vurmaq istəmirsən. Deyirsən, qoy Hacı Murad zəhmət çəkib qazansın, axırda mənimdir. Əlbəttə, sənindir. Mənim daha kimim var. Amma yenə də lazımdır ki, özün də çalışıb qara gün üçün pul qazanasan.

İ m r a n (*kənara*). Görəsən yenə nə kələyi var. Xeyr, hiyləsinə aldanmam. (*Hacı Murada*) Xeyr, məni əfv edəsiniz. İndiyə kimi çalışdığım bəsdir.

H a c ı  M u r a d. Oğlum, ağlını başına cəm elə, yenə irəliki kimi işə-gücə get. Yoxsa səni danlayıb nəsihət etdiyimdən inciyirsən? Mən sənin xeyrindən ötrü çalışıram. İstəyirəm ki, ağıllı, kamallı adam olasan ki, mən də öləndə bu dünyadan arxayın gedim.

İ m r a n (*kənara*). Ay ilan, dilin baldır, dişin zəhər. (*Hacı Murada*) Təəccüb edirəm ki, bazarlarda mənə nökər adı verib dükanlarda danışırsan. Amma evdə olduq da oğlumsan, malım, canım hamısı sənindir deyirsən.

H a c ı M u r a d. Nökərimsən? Əstəğfürulla, belə söz mənim ağzımdan çıxmamış. İnanma, oğlum, bunlar düşmən böhtanıdır. Onlar istəyir ki, ata-oğul arasına inciklik salıb ondan nəfbərdar olsunlar.

Bu halda Məhərrəm bəy daxil olur.

İ m r a n (*kənara*). Zalım oğlu nə pis yerdə gəldi.

M ə h ə r r ə m bəy.Salaməleyküm,hacı. Kefin necədir? İmran oğlan, xoş gördük.

H a c ı M u r a d. Salaməleyküm, Məhərrəm bəy. Buyur, buyur, nə əcəb biz tərəflərə də qədəmi-şərifinizi basdınız. Qədim dostunuzu yada saldınız?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

M ə h ə r r ə m  b ə y. Ay hacı, işlər olub çox, özüm də tək, əgər gədə-güdə ümidinə qoyursan, hərəsi bir tərəfə çəkib evimi dağıdır. Hanı keçən vaxtlar, hanı qədim adamlar? Etibar, hörmət, izzət, insaniyyət, hamısı onlarnan getdi.

İ m r a n (*kənara*). Yaxşı tapışmıslar. Xəsislikdə bir-birlərindən qalmazlar.

H a c ı  M u r a d. Bəli, bəli, çox yaxşı buyurursan. Zəmanəmiz çox pis zəmanədir. Qocalar ömür çürüdür, pul qazanırlar, cavanlar isə əllərini bellərinə qoyub ver yeyim, ört yatım deyirlər.

M ə h ə r r ə m  b ə y. Ay hacı, sənin nə dərdin var? İmran kimi işləyən, can yandıran köməkçin var. Dərd mənim dərdimdir ki, heç kəsim yoxdur. Özüm də gün-gündən geri gedirəm, kənd-kəsəyi dolandıra bilmirəm.

H a c ı  M u r a d. Doğru buyurursan, İmran çox canyandıran oğlandır. Ancaq bu axır vaxtlarda əlini ağdan-qaraya vurmaq istəmir. İndi sən gələndə onun üstə danışıq edirdik. İmranın atası rəhmətlik Şeyx Əli çox yaxşı, rəhmli adam idi. Ölən zaman Təbrizdə çox pulları batdı. Ələ bir şey gəlmədi. Çox adama pulu kağızsız vermişdi. Kağızı olanlar da fağır adı ilə yedilər getdi. Tacirbası Hacı Əlinin o zaman bir pirkeşiyi vardı. Məmməd Sadıq adlı. Şeyx Əli vəfat edəndə iki min manatı o şəxsdə qalmışdı; pulu olmadı ki, versin. Ondan bəri, o pul onda qalıbdır. Öldü-qaldısından da xəbərim yoxdur. İndi istəyirəm İmranı onun dalınca İrana göndərəm, həm özü ücün səyahət etsin, həm də pulları alıb gətirsin.

İ m r a n (*kənara*). Hə, indi bildim ki, mənə etdiyi bu qılıqlar nə üçün imiş. Məni Gülzardan ayırmaq fikrindədir.

M ə h ə r r ə m  b ə y. Çox yaxşı fikirdir. (*kənara*) Deyəsən işim əvvəldən yaxşı gətirir. (*Hacı Murada*) İndi, ay hacı. Evdə sandığı açıb köhnə kağızlara baxırdım. Atamın siyahi dəftəri əlimə düşdü. Baxıb gördüm ki, cümlə borcların üstünə öz xətti ilə qələm çəkilmişdir. Ancaq mərhum atanıza yüz manat borcu var imiş. Onun üstə qələm cəkilməmişdir. Dərhal durub gəldim ki, o borcu sizə verib atamın boynundan saqit edəm. Buyurunuz.

Hacı  Murad alıb sayır.

İ m r a n (*kənara*). Burada bir sirr var. Onsuz deyil, yoxsa xəsislikdə bu ondan qalmaz.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

H a c ı  M u r a d. Mərhəba, mərhəba, a kişi, bu zamana adamı belə iş elərmi?

M ə h ə r r ə m b ə y. Ay hacı, indiki adamlarda halal, haram nədir? Borc vermək nədir?

H a c ı M u r a d. Doğru buyurursunuz, bu saat bazardan gəlirəm. Səhərdən o dükanın, bu dükanın qabağını kəsdirib, müamiləsiz-zadsız verdiyim borcları ala bilmirəm. (*İmrana*) İmran, qadan alım, zəhmət çək Quluya de çay gətirsin.

İmran çıxır

M ə h ə r r ə m  b ə y. İndi de görüm, qardaş sən nə tövr gün keçirirsən?

H a c ı  M u r a d. Heç soruşma, mənim günüm it günü. Adamın bişirib-düşürəni gərəkdir, qulluq edəni gərəkdir, yoxsa nökər-qulluqçudan nə rahatlıq olacaqdır?

M ə h ə r r ə m b ə y. Hacı, niyə evlənmirsən? Bir az ömrün var, evlən, günün rahatlıq ilə keçsin.

H a c ı  M u r a d. Ay sağ olmuş. Mənim ömrüm keçmişdir, qocalıqda nə yorğalıq. Mən sənə təəccüb edirəm ki, indiyə kimi nə üçün evlənməmisən? Allaha şükür, nəyin əskikdir? Altı-yeddi mədaxil gətirən göyçək qız al, gətir evinə qoy, gecə-gündüz başına dolansın.

M ə h ə r r ə m  b ə y. Hacı, doğru buyurursan. Özümündə xahişimdən keçir, ancaq hanı elə qız?

H a c ı  M u r a d. Qıza nə gəlibdir. Ancaq sən məni vəkil elə, gör sənə necə qız alıram?

M ə h ə r r ə m b ə y. Mən hazıram və səni də o işdə vəkil edirəm. Ancaq bayzadələrdən olmasın. Özün bilirsən ki, mənim onlarnan qədimdən aram yoxdur.

H a c ı  M u r a d. Yaxşı, bəylərə qələmçəkdik. Qaldı sövdəgər sinfi. Onlar da neçə qisimdir. İndi, de görüm, üzümü hansı tərəfə tutum?

M ə h ə r r ə m  b ə y. Sövdəgər qismindən hamıdan artıq həqiqi dostum sənsən. Mən özümü çox xoşbəxt hesab edərdim ki, səninlə qohumlaşmaq mümkün olaydı. O da ki, mənim bəxtimdən mümkün deyil. Xülasə, birdəfəlik səni vəkil edirəm nə tövr istəyirsən elə et.

H a c ı  M u r a d. Çox əcəb. İndi ki, sənin xahişin mənlə qohum olmaqdır, dəxi nə üçün özgə qapısına gedək? Əvvəl evin içi, sonra bayırı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

M ə h ə r r ə m b ə y. Hacı, hərgah öz qızınızı buyurursunuzsa, mən onu İmrana nişanlı bilirəm.

H a c ı M u r a d. A pir olmuş, aslan meydanına tülkü çıxa bilərmi? Tərlan yerini sar tuta bilərmi? Bir de öz qapımdakı gədəyə qız vermək mənə eyib gətirər.

M ə h ə r r ə m b ə y (*kənara*). Kəməndime yaxşı düşdü, bu gün-sabah təşrif aparar, pulları da mənə qalar. (*Hacı Murada*) Ancaq, hacı, bir iş var, bəlkə qız mənə gəlmək istəmədi?

H a c ı M u r a d. Ne danışırsan, a kişi? Atanın xahişi olanda qızın nə ixtiyarı var razı olmaya (*kənara*). Yaxşı düşdü toruma, bu gün-sabah təşrif aparar, pulları mənə qalar.

M ə h ə r r ə m b ə y. Hacı əmi, indi işi qət olunmuş hesab edək?

H a c ı M u r a d. Bəli, bəli. Ancaq özünüz bilirsiniz ki, mənim heç zadım yoxdur, gərək hər bir xərc sizinlə ola və sonra da mən qocanı nəzərdən salma.

M ə h ə r r ə m b ə y. Əlbəttə, hər bir xərci öhdəmə götürərəm və sonra da mənim evimin və qeyri şeyimin ixtiyarı sənnən olacaqdır.

H a c ı M u r a d. Çox gözəl, çox yaxşı. Allah bu qohumluğu qayim-qədim etsin. (*Qulu podnosda üç stəkan çay gətirir. Verəndə birini salıb sındırır.*) Ay ayı oğlu ayı, üsullu tərpənə bilmirsənmi, istəkan niyə üçdü? Biz ki iki adamıq.

Q u l u. Ağa elə bildim ki, İmran ağa da buradadır.

H a c ı M u r a d. Çox qələt etdin. Adam gəlib əvvəl qonağın hesabını bilər. Sonra da ona görə çay gətirər.

Q u l u. Baş üstə, ağa, bundan sonra buraya qonaq gəlsə, çayı qonağın sayına görə gətirərəm.

H a c ı M u r a d. Bəs niyə qənd gətirməmisən?

Q u l u. Ağa qənd salmışam.

H a c ı M u r a d. Yenə də qələt etmisən. Bəlkə biri çayı şirin içməyəcəkdir. Dişləmə içəcəkdir.

Q u l u. Ağa, dedim yanında qonaq var, bəlkə salma içəcəksiniz.

H a c ı M u r a d. Zalımoğlu, hər şeyə cavab verməsə olmaz. Di itil get.

Q u l u (*gedirkən kənara*). Deyəsən Məhərrəm əmi də ova çıxıbdır.

H a c ı M u r a d. Görürsən bu zalım uşaqları mənim başıma nə iş gətirir?

M ə h ə r r ə m b ə y. Bəli, yaxşı nökər adamın canını rahat edər, amma pisi ömrünü azaldar. Hacı, bu günlərdə əlimə bir həmşəri düşübdür,



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

nökər tutmuşam, bir düzgün, yaxşı qulluq yetirən fağırın biridir. Göndərim gəlsin pulsuz-zadsız sizə qulluq etsin.

H a c ı M u r a d. Çox sağ olun. Mərhəmətin artıq olsun. Göndər gəlsin, ta Qulunun murdar üzünü görməyim. Məhərrəm bəy, buyur çay iç, ağzını şirin et. Çay özü də şirin kimi bir şeydir. A kişi, deyirlər ki, çayın əsli yerində ki, ibarət olsun Çindən, çayı qəndsiz içirlər. Amma bizim adamlar müəllimlərindən ağıllı çıxmışlar. Qəndi istəkana doldurub doşab edirlər. Nədi, nədi, mən çay içirəm. Yeni əslində bir şey deyil. Artıq xərcdir də...

M ə h ə r r ə m b ə y. Ondan əlavə bədənə də zərərdir, ürəyi bişirib tərk edir. Bəli, bir çox bu kimi izafə xərclər aramızda adət olmuşdur. Məsələn: toy işində, vay işində məsrəf olan xərclər kimi.

H a c ı M u r a d. Yox, onlar da dədə-babadan qalma adətlərdir. Tərk etmək lazım deyil. Ancaq bu kürsü, çəngəl-bıçaq və qeyri-izafə şeylər ki, yenilər adət etmişlər, qızın cehizində verilsin, bax bu bir şey deyil. Allah əl veribdir yeməyə, diz veribdir əyləşməyə.

M ə h ə r r ə m b ə y (*kənara*). Bəli, işarəsini anladım. (*Hacı Murada*) Hacı, indi qulluğunuzdan mürəxxəs olum və özüm də tədarükdə olum.

H a c ı M u r a d. Çox əcəb, get mən də vaxtında sənə məlum edərəm.

M ə h ə r r ə m b ə y (*qalxır.*) Hacı, xudahafiz.

H a c ı M u r a d. Xudahafiz. Get, allah amanında olasan. (*Məhərrəm bəy çıxır.*) Afərin sənə Hacı Murad, işi elə tutdum ki, Məhərrəm bəy özü gəlib qızıma elçi düşdü, amma o da hərifdir, özünü o yerə qoymuşdu ki, guya heç bir zaddan xəbəri yoxdur. İndi qaldı İmranın bir cür başını əkib İrana göndərmək. (*Çağırır.*) Qulu, Qulu!

Q u l u (*daxil olur.*) Nə buyurursan, ağa can?

H a c ı M u r a d. Canına dərd buyururam. Məni Məhərrəm bəyin yanında biyabır etdin.

Q u l u. Ağa, mən nə elədim?

H a c ı M u r a d. Hələ nə elədin? O nə cavab idi verirdin? Çay verməkdə də qabiliyyətin yoxdur.

Q u l u. Ağa, adam gərək doğru danışsın, sən soruşursan, mən də düzünü deyirəm. O ki qaldı çayın tökülməyi, onda da təqsirim yoxdur, çünki padnos elə köhnədir ki, ortası qozbel adamın beli kimi qalxıbdır. İçində istəkan da durmur.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

H a c ı  M u r a d. Səsini kəs. Ayı oğlu ayı, hər şeyə bax belə cavab verirsən. Daha məni təngə gətirmisən. Sənə söz kar eləmir. (*Ağacı götürür.*) Ayını, bax, bunnan öyrədərlər.

Döyür, Qulu da qışqırır.

**Pərdə**

ÜÇÜNCÜ PƏRDƏ

Səhnə Hacı  Muradın otağını göstərir.

H a c ı M u r a d (*yalqız*). Hərçəndi Məhərrəm bəyə söz verdim ki, qız mənim itaətimdən çıxa bilməz, amma görürəm çətin olacaqdır, çünki Gülzarın könlü İmrandadır. Görüm, Məhərrəm bəyin mal-dövlətinə aldada bilərəmmi? Hərgah bu mümkün olmasa, atalıq ixtiyarımı əlimə alaram.

Q u l u (*daxil olur.*) Ağa, bir həmşəri gəlib səni soruşur.

H a c ı M u r a d. De gəlsin. Məhərrəm bəy göndəribdir. Mənə qulluq edəcəkdir. Daha bu gündən murdar üzünü hər saat görməyəcəyəm.

Q u l u. Ağa, mənim üzüm heç olmasa ağdır, amma onunku qap-qaradır.

H a c ı M u r a d. Di itil get. Yenə çərənnəməyə başlama. (*Qulu çıxır.*) Görək Məhərrəm bəy göndərdiyi nökər necə adamdır. O da Qulunun tayı isə heç çörək vermək lazım deyil. (*Əliqulu daxil olur və əllərini döşünə qoyub qayda ilə Hacı Murada təzim edir.*) Buyur əyləş.

Ə l i q u l u. Cənabınızın hüzurunda əyləşməyi bəndə özünə cürət edə bilməz.

H a c ı M u r a d (*kənara*). Bax, nökər belə olar, nəinki Qulu kimi, zalım oğlu üç saat çərənnəməsə, adamdan əl çəkmir. (*Əliquluya*) Buyur əyləş, izin verirəm.

Əliqulu ədəbanə diz üstə əyləşir.

Ə l i q u l u. Bəndənizi sərkar Ağa Məhərrəm bəy göndəribdir ki, cənabınıza xidmət edəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

H a c ı  M u r a d. Pulsuz-zadsız, dünən bəy özü belə buyururdu.

Ə l i q u l u. Bəli, məvacibim Məhərrəm bəydən çatacaqdır.

H a c ı  M u r a d. De görüm, yeməkdə pərgarsan ya yox?

Ə l i q u l u. Xeyr, ağa, çox kəmxörəyəm. Bir neçə xurma ilə dolanmış adamam.

H a c ı M u r a d. Çox yaxşı. Mənim çox yeyən adamdan acığım gəlir, çünki adamın gərək heyvandan fərqi olsun. O da ancaq az yeməklə olar. İndi de görüm, əlin-zadın təmizdirmi?..

Ə l i q u l u. Ağa, bəndə uşaqlıqdan böyüklər evində tərbiyə almışdır. Üst-başım həmişə təmiz olar.

H a c ı  M u r a d. O mənada demirəm. Yəni oğurluq-zad əlindən gələrmi?

Ə l i q u l u. Ağa, əlhəmdüllah, mən müsəlmanam, müsəlman olan şəxs də oğurluq edərmi?

H a c ı M u r a d. Bəs onda bizim Quludan xəbərin yoxdur. İndi qulaq as, gör işin nə olacaqdır. Bu otağı ki, görürsən, buraya səndən başqa qeyri nökər, qulluqçu girməyəcəkdir. Ocaqları qalamaq, samovarı qoymaq, nahar bişirmək, bunların hamısı sənin işindir. Xülasə, qulluğuna baxaram, yaxşı olsan evimin hər ixtiyarını sənə verəcəyəm.

Ə l i q u l u. Ümidvaram ki, can-dillə qulluq edib əmrinizi yerinə yetirəm.

H a c ı M u r a d. Adın nədir? Özün haralısan?

Ə l i q u l u. H a c ı M u r a d. Adım Əliquludur, özüm də Tehran əhliyəm.

H a c ı M u r a d.  Səni bu şəhərdə tanıyan varmı?

Ə l i q u l u. Xeyr, buraya iki həftədir ki, gəlmişəm və Məhərrəm bəydən başqa heç kəsi tanımıram.

H a c ı M u r a d. Çox əcəb. Bu gündən sən öz işində ol. (*Çağırır.*) Qulu! Qulu!

Qulu daxil olur.

Q u l u. Nə buyurursan, ağa?

H a c ı M u r a d. Qulu, bu gündən sənin ev işinə qarışacağın olmayacaqdır. Onların hamısını Əliqulu görəcəkdir. Sənin işin su daşımaq, bağçanı sulamaq, həyəti süpürmək, bazara getmək olacaqdır. Xülasə, bayır işi sənnəndir, ev işi ilə Əliqulu məşğul olacaqdır. Daha bundan



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sonra qab-qacaq ilə, qənd-çay ilə, pendir-çörəklə, mətbəxlə bilmərrə işin olmasın, qandın, ya yox?

Q u l u. Bəli, ağa, qandım.

H a c ı M u r a d. Elə deyirsən ki, başa düşdüm, amma işi tutanda tərsinə edirsən. Təkrar et görüm, nə edəcəksən?

Q u l u. Məsələn, elə ki, gördüm it girib içəri çörəyi yeyir, gərək gedib Əliqulu əmini tapam gəlsin onu qovsun. Ya da ocaqda süd daşır...

H a c ı M u r a d. Dayan, kafir oğlu kafir. Demədimmi ki, hər şeyi tərsinə anlayırsan. A məsəl gətirən köpək, bunu bir balaca uşaq da başa düşər ki, gördün it çörəyi yeyir, qov getsin. Burada nə Əliqulu, nə Vəliqulu. Daha nə?

Q u l u. Məsələn, elə ki, gördüm oğru evə girib sandıqları yarır, gərək gedib Əliqulu əmini durquzam ki, gəlib onu tüfəngləsin.

H a c ı M u r a d. De eşit, a kişi, yeddi ildir ki, bu höcət ayını saxlayıram. Gör mənim səbrim Əyyub peyğəmbərin səbrindən artıqdımı, daha sənə nə deyim? Axırda o misal gətirdiyin oğru özün olacaqsan. Get şələ-şüləni yığışdır, bundan sonra bir saat da səni burada saxlamaram. Niyə dayanıbsan?

Q u l u. Ağa, getməyə hazıram. Ancaq bu neçə ildə mənə qəpik də verməmisən. Haqqımı ver, baş üstə, gedim.

H a c ı M u r a d. Sənə nə verəcəyəm. Heç bir qara qəpik də vərməli deyiləm. Haqqın tamamilə sənə çatıbdır. Əslinə baxsan, sən mənə borclusan.

Q u l u. Bəli, müftə qulluq etdiyimiz bəs olmadı, hələ borclu da çıxdıq. İndi ki, belə oldu, ya sən and iç əl çəkim, ya mən and içim haqqımı ver.

H a c ı M u r a d. İndi də saqqalımın ağ vaxtında durub sənə and içəcəyəm. İtil cəhənnəmə. Yoxsa durub səni qolu bağlı qazamata göndərərəm.

Q u l u. (*çıxarkən*). Hacı Murad, xüdahafiz. Sənə göstərərəm mənə Qulu deyərlər. (*Çıxır.*)

H a c ı M u r a d. Axırı zalım oğlunun əlindən qurtardım. Kişi, məni təngə gətirmişdi. Özün görürdün ki, mənə nə tövr cavab verirdi. İndi dur get mətbəxə, çay-zad hazırla və özün də hər şeydə qənaət gözlə. Hər vaxt çay-qənd lazım olsa gələrsən özüm verərəm. (*Əliqulu gedir.*) Hər əsərindən düz adama oxşayır. Amma yenə insanı tanımaq olmaz.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yaxşısı budur ki, elə bu saat imtahana çəkim. Yoxsa sonra peşmançılığını çəkərəm. Yaxşısı budur ki, yerə pul atım. Qızıl pul atım ya gümüş? Elə bu abbasını ataram. Aza tamah edən çoxa da edər. (*Abbasını yerə atır.*) Əliqulu! Əliqulu!

Əliqulu daxil olur.

Ə l i q u l u. Nə buyurursan, ağa?

H a c ı M u r a d. Mən bağçaya gedirəm, gələnə kimi bu otağı süpür.

Ə l i q u l u. Baş üstə, ağa can.

Hacı Murad çıxır

Ə l i q u l u. (*yalqız*). Çox çalışdıın ki, Məhərrəm bəy məni kəndə göndərsin, orada ona bağban, ya bostançı olum, razı olmadı. Dedi gərək sən şəhərdə qalasan. Burada da mənə qulluq edəsən, ev işində qabilsən. Amma mən də şəhərdə qalmaqdan qorxuram, çünki burada çox İran əhli var. Məni tanıyıb konsula məlum edər, tutdurar, onda qolu bağlı Tehrana sürgün olub, həbsxanada çürüyəcəyəm. Yox, burada yaşamaq mənim üçün qorxuludur. Tezliklə puldan-şeydən əlimə salıb qaçmaq lazımdır. (*Abbasını götürüb*) Bu kimin ola? (*Fikir edir.*) Hə, bildim. Yəqin Hacı Murad məni imtahana çəkib, onda da bu abbası ilə, ay qoca kaftar, mənə Tehran lotusu Səfdər deyərlər, belə abbası ilə mənim əlimdən qurtara bilməzsən. Pulların, qızılların yerini göstər. Allah mənimkini yetiribdir. Hacı Murad, Qulunun əlindən qurtarıb Əliqulunun çənginə düşdün.

H a c ı M u r a d. (*daxil olur.*) Otağı təmiz etdinmi?

Ə l i q u l u. Bəli, ağa, süpürəndə bunu tapdım, buyurunuz. (*Abbasını verir.*)

H a c ı M u r a d. Mərhəba, mərhəba, görürəm, sən düz adamsan, sənə arxayın ola bilərəm. Bunu Qulu tapsaydı, heç vaxt verməzdi.

Ə l i q u l u. Ağa, bayaq ərz etdim ki, mənim dünya malında tamahım yoxdur.

H a c ı M u r a d. Çox yaxşı. Get Gülzar xanımı buraya çağır. (*Əliqulu çıxır.*) Heç bu zamana adamına oxşamır. Amma Gülzar tərəfdən ürəyim rahat deyil. Görək nə təhər olacaqdır. Bu gecə də pis yuxu görmüşəm, allah axırını xeyir etsin. Məni o gördüyüm şeytanın şərindən



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

hifz etsin. (*Gülzar qorxa-qorxa içəri girir.*) Qızım, niyə qorxa-qorxa girirsən? İrəli gəl, əyləş. Bir az ata-bala dərdləşək. Heç, qızım, gəlib əhvalımı soruşmursan. Demirsən ki, bir qoca atam var, qoy gedim dərdi nədir, səri nədir.

G ü l z a r (*kənara*). Xudaya, görəsən nə var. Bu məni əbəs yerə çağırmaz.

H a c ı M u r a d. Qızım, səni həmişə qəmgin, bikef görürəm, niyə dinmirsən? Danışmırsan? Nəyin əskikdir. De alım.

G ü l z a r. Ağa, hər şeyim var, şükür allaha, heç bir zaddan kəsirim yoxdur.

H a c ı M u r a d. Bəs niyə heç qaşqabağın açılmır? Elə bil ki, gəmilərin dəryaya batıb, qərq olubdur. Allaha şükür, mənim kimi atan var, sən niyə qəm çəkəsən?

G ü l z a r. Xeyr, ağa, bir qəmim yoxdur. Hərgah danışmıram, ona da səbəb yoldaşsızlıqdır.

H a c ı M u r a d. Doğru deyirsən. Yoldaş lazımdır. Can yoldaşı. Axirət yoldaşı. Bəs elə bilirsən, atan sənin fikrini çəkmir? Sənə yoldaş axtarmır? Bu qoca atan sənə bir elə yoldaş tapıbdır ki, çıraq götürüb cəmi dünyanı axtarsan, tayı-bərabəri tapılmaz.

G ü l z a r. Xeyr, ağa, mən elə yoldaş demirəm.

H a c ı M u r a d. Bilirəm, qızım, atan bir o qədər də qoca deyil ki, cavan qıza nə təhər yoldaş lazım olduğunu bilməsin. Ah qızardın. Ha-ha-ha! İndi tap görüm, kimi deyirəm. Tapa bilmirsən? Əlbəttə, elə şəxsdir ki, yatsan yuxuna da girməz. Dövləti, pulu həddən aşıbdır. Qapısında xidmətçinin sayı-hesabı yoxdur. Özü də şəhərimizin birinci bəyidir. Yenə tapa bilmirsən? Nökəri də qapımızda xanıma müntəzirdir.

G ü l z a r (*təşvişlə*). Məhərrəm bəy?!

H a c ı M u r a d. Afərin, qızım, yaxşı tapdın, heç belə nişanlı ağlına gələrdimi? Özü gəlib mənə elçi düşdü.

G ü l z a r. Ağa, mən heç kəsə ərə getmək istəmirəm.

H a c ı M u r a d. Bilirəm, qızım, məni çox istəyirsən. Məndən ayrılmaq istəmirsən. Doğrudur, mənim üçün də çətindir, ancaq görürsən ki, mən də günü gündən geri gedirəm. Bir ayağım burdadır, bir ayağım gorda. Səni belə qoyub getsəm, qəbrdə rahat olmaram. Amma indi arxayınam. Bilirəm ki, qızımı bir elə şəxsə vermişəm ki, hər böyük məclisdə hamı xanımlardan başda əyləşəcəkdir. Zərif paltarlar geyib, cavahirləri üstünə taxıb, yanında qul-qaravaşla qonaqlığa gedəndə,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

cəmi arvadlar ona həsrət aparacaqlar. Hə, qızım, görürəm ürəyin tələsiyir, Məhərrəm bəy bu saat tədarükdədir. Deyir ki, gərək elə toy eləyəm ki, misli bu şəhərimizdə olmamış ola.

G ü l z a r. Ağa, hərgah bunları mənə deməkdən qəsdin odur ki, məni onun malına, puluna aldadasan, onda səhvin var. Mənim dünya malında tamahım yoxdur.

H a c ı M u r a d. Qızım, sən hələ cavansan, dünya görməmisən. Xoşbəxtlik ibarətdir maldan, dövlətdən.

G ü l z a r. Ağa, əgər mənim xoşbəxtliyimi istəyirsənsə, bu fikirdən daşın. Mən heç vaxt Məhərrəm bəyə getməyəcəyəm.

H a c ı M u r a d. Qızım, deyəsən şadlığından dəli oldun. Sən xeyir-şərini anlamırsan. Uşağa ata-anası acı dərman verəndə, onu özünə zəhər, ata-anasını da zalım hesab edər, vəhalonki, onlar balasını istədiyindən edirlər.

G ü l z a r. Yenə təkrar edirəm ki, zəhər içib özümü öldürərəm, Məhərrəm bəyə getmərəm.

H a c ı M u r a d. Bu sənin axırıncı sözündür?

G ü l z a r. Bəli.

H a c ı M u r a d. Çox əcəb, mən sənin xoşbəxtliyini istəyirəm. Məhərrəm bəydə könlün yoxdur, bəs İmranla necə?

G ü l z a r (*sevinclə*). Ağa, mən səndən utanırdım, mənim ondan başqa bir kəsdə könlüm yoxdur. Amma İmran inanmayırdı ki, sən məni ona verərsən. Mənim məhəbbətim ondadır.

H a c ı M u r a d. Paho, siz mənsiz söz verib qurtarmışsınız, mənim xəbərim yox imiş! (*Rişxəndlə*) Xeyir işiniz mübarək olsun, Gülzar xanım. Siz, mən Hacı Muradı yaxşı tanımamısınız. Daha bəsdir, mən elə bilirdim ki, sən öz xeyrini başa düşə bilərsən. Qanmazı qandırarlar. Sözsüz-zadsız dur get. Özün də tədarükdə ol.

G ü l z a r (*atasının dizlərini qucub ağlaya-ağlaya*). Ata, yazığın gəlsin, məni bədbəxt etmə. Bu tökülən göz yaşıma rəhmin gəlsin. İki cavanın ahından qorx.

H a c ı M u r a d. Yox, yox, mən dediyimdən dönmərəm. Arvadın göz yaşı, ya bir şeh, gün çıxar, qurudar.

G ü l z a r. Ata, allahdan qorx. Məhəbbət yolunda tökülən göz yaşını heç zad quruda bilməz.

H a c ı M u r a d. Çəkil. Məhəbbət nədir, zad nədir? Sənə hər nə hökm edirəm, əmələ gətir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

G ü l z a r (*ayağa qalxıb*). Məhəbbət nədir? Məhəbbət oduna yanmayana onu qandırmaq mümkün deyil. Məhəbbəti dünya malına almaq olmaz. Məhəbbətə hökm yoxdur.

H a c ı M u r a d. Məhəbbət odur ki, adamı dəli, axmaq edib, allah göndərən neməti əlindən buraxır. Görürəm sən dəli olmusan. Amma dəlini də ağıllı etmək mümkündür. Sənə üç gün möhlət verirəm. And olsun allaha, heç bir şeylə dediyimdən dönmərəm. Di get, yaxşı fikir elə.

G ü l z a r. İndi ki, belə oldu. Mən də and içirəm o məhəbbətə ki, daşı yumşaldıb rəhmə gətirərdi, səni gətirmədi, ya İmran, ya ölüm.

H a c ı M u r a d.İmran! Bir o qalmışdı ki, cəmi şəhərdə biyabır olub öz nökərimə qız verəm. Get, İmrandan bilmərrə əlini üz.

G ü l z a r. Yaxşı, dünyadan bilmərrə əlimi üzərəm. (*Çıxır.*)

H a c ı M u r a d (*tək*) Bilirdim ki, belə olacaqdır. Yox, İmranı qovmasam, iş düzəlməyəcəkdir. İmran gedəndən sonra ümidi kəsilib razı olar. Qızın dediyinə bax! Məhəbbət dünya malına aldanmaz. Məhəbbətə hökm yoxdur. Məhəbbət, bax, budur ki, üstündə oturmuşam. Bunsuz nə məhəbbət? Bu məhəbbət-məhəbbət deyənləri verələr dama salam, ağzını da bağlayam. Görəsən necə acından, suzundan bir-birinin ətini yeyib qanını içərlər.

N a b a t (*təngnəfəs içəri yüyürüb*). Ağa, muştuluğumu ver, Şərəf xanım gəldi.

H a c ı M u r a d. Səfeh qızı səfeh. Elə yüyürür ki, deyəsən yanğın var. Çox böyük iş olubdur. Gələndə deyəsən mənə quş başı gətiribdir.

N a b a t. Ağa, doğrudan da dörd dənə qırqovul gətiribdir.

H a c ı M u r a d. Tək gəlibdir, ya uşaqlarını da gətiribdir.

N a b a t (*kənara*). Zalım oğlu qabaqca adamın hesabına gedir. (*Hacı Murada*) Yanında bir oğlu Əhməddir, bir də nökəri Cəfər.

H a c ı M u r a d (*kənara*). Öz yeyib-içənimiz az idi,bunlarda artdı. (*Nabata*) Sənin muştuluğun odur ki, göz-qulaq olasan, o nökər şeydən-zaddan oğurlamasın. Di get, dayanma.

N a b a t (*gedərkən kənara*). Mənə deyən gərək, ay axmaq qızı, bundan sən nə istəyirsən? O öz hayındadır ki, onlar burada qalıb çörək yeyəcəklər.

H a c ı M u r a d (*tək*). İndi də işlər tərsinə gedir.

Şərəf xanım, Əhməd və Gülzar daxil olurlar. Şərəf xanım
Hacı Muradın boynunu qucaqlayır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ş ə r ə f  x a n ı m. A qardaş, nə zəif düşmüsən, nə qocalmısan?

H a c ı  M u r a d. Niyə qocalmayım, niyə zəif düşməyim. Bu günü ki, mən çəkirəm, hər kəs olsaydı yeddi kəfən çürütmüşdü.

Ş ə r ə f  x a n ı m. A qardaş, sən niyə pis gün çəkirsən,nəyin əskikdir? Malın var, pulun var. Gülzar kimi qızın, qapında da xidmətçilərin. Sən otur, qoy sənə qulluq eləsinlər.

H a c ı  M u r a d. Elə ki onlar mənə qulluq edirlər, etməsələr ondan yaxşıdır. O ki İmrandır, əlini ağdan-qaraya vurmur. Az qalıbdır ki, məndən xanlıq iddiası etsin. Gülzar xanım da atam yoxdur deyir. Ağa, xanım belə olanda, nökər-qulluqçudan nə ummaq.

Ş ə r ə f  x a n ı m. İmran gərək elə oğlan olmasın. Onun tərifi hər yerdə söylənir. Gülzardan narazı olmağına təəccüb edirəm. Mən ona elə tərbiyə verməmişəm ki, atasının əmrindən çıxa, zəhmətindən incinə.

H a c ı  M u r a d. Görürəm, çox yaxşı tərbiyə vermisən.

Ş ə r ə f  x a n ı m. Heç vaxt inanmaram, sənin xasiyyətin pisdir. Mənim özüm də qız vaxtı nə qədər sənə yaxşı qulluq edirdim, yenə razı qalmırdın. Gülzar, bu nə işdir? (*Gülzar başım aşağı salıb ağlayır.*) Qızım, ağlayırsan? (*Hacı Murada*) Görürəm qızı nə hala salmısan. Saraldıb heyvaya döndərmisən, on səkkiz yaşında cavanı qocaldıb qarı eləmisən.

H a c ı  M u r a d. Mən ona nə edirəm ki, sarala. Durub təzədən ona nənəlik edə bilmərəm ki. Nökəri var, qulluqçusu var, yesin, içsin, geyinsin, gəzsin. O ki qaldı qocalmasına, ona da bais özüdür. Məhərrəm bəy kimi adam özü gəlib mənə elçi düşüb, qızımı istəyir, Gülzar xanım deyir ki, özümü öldürərəm, ona getmərəm. Daha mən nə deyim. Adam da bu dərəcədə dəli olub elə mal-dövlətdən əl çəkərmi?

Ş ə r ə f  x a n ı m. A qardaş, nə danışırsan? Sən təmiz ağlını itirmisən. Dünya malı gözlərini pərdələmişdir. Məhərrəm bəy nədir, zad nədir? Qızının nişanlısı on iki ildir sənə zəhmət çəkib pul qazanıbdır. İndi nə olubdur ki, əhdindən dönüb qızını öz yaşında yoldaşına verirsən? Eşidənlər nə deyərlər?

H a c ı  M u r a d. Buyur, bu da ağıllımız. Yaxşı deyiblərki, arvadın ağlı olmaz. Eşidənlər mənə dəli deyər ki, qızımı İmrana verib Məhərrəm bəy kimi adamı əlimdən cıxaram.

Ş ə r ə f  x a n ı m. Eşidənlər sənə ağıllı deyərlər ki, qızını İmrana verib ata yurdunu abad edirsən.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

H a c ı M u r a d. Əcəb buyurursan, Şərəf xanım. Məhərrəm bəy mənim atamın yurdunu tar-mar edər, amma gədənin biri abad edər. Arvadların ağlı belədir. Mən qızımın xoşbəxtliyini istəyirəm.

Ş ə r ə f x a n ı m. Yaxşı, hərgah qızın könülü Məhərrəm bəydə yoxdur, onun malına tamah etmir, onda o necə xoşbəxt ola bilər?

H a c ı M u r a d. Qız heç yediyini-içdiyini başa düşə bilmir. O xoşbəxtliyini nə anlayacaqdır? Arvad mal-dövlətin qədrini onda anlayır ki, uşaqları artıb, ana, mənə cörək ver deyəndə, təknədə olmaya.

Ş ə r ə f x a n ı m. A kişi, sənin puluna, dövlətinə nə gəlibdir ki, qızın İmranda çörəksiz qala? Bundan əlavə İmran elə oğlandır ki, öz əlinin zəhməti ilə arvadını xandan, bəydən yaxşı saxlar.

H a c ı M u r a d. Pulum haradadır, malım haradadır? Zurna çalıb aləmə səs salmısınız ki, Hacı Muradın pulunu sandıqlar tutmur. Bilmirəm pulu mənə kim qoyubdur. Atam qoyubdur, babam qoyubdur.

Ş ə r ə f x a n ı m. Sənin ağlamaq qədim xasiyyətindir. Bir şeydən kəsirin olmaz, amma özünü dilənçi yerinə qoyarsan. Xülasə, Məhərrəm bəy fikrindən bilmərrə daşınarsan. Mən heç razı ola bilmərəm ki, Gülzarı bədbəxt edib altmış yaşında qocaya verəsən.

H a c ı M u r a d. Buyur, bu da ağbirçək bibisi. Ağıl öyrətməkdən ağzına dil verir. Ay qız ey, raen dediyimdən dönmərəm, İmranı bilmərrə unudarsan. Bilmirəm bu mənə nə İmran oldu. And olsun allaha onu bundan sonra bir saat da evimə qoymaram, qoy getsin, gör onu da necə Qulu kimi qovaram.

Ş ə r ə f x a n ı m. Elə bil o qalmışdı ki, qızını bir qoca, xəsis kaftarın puluna satasan.

H a c ı M u r a d. Bilmirəm bu hardan gəlib çıxdı. Niyə qoca olur? Nökər dalında, qızılquş əlində atdanıb ova çıxanda elə bil ki, bir laçındır. Daha bəsdir. İndi de görüm, sən özün necə dolanırsan?

Ş ə r ə f x a n ı m. Nə deyim. Allah dərd-qəm yaradanda bizim üçün yaradıbdır. Uşaqlar artıbdır. Kişinin də əli aşağı düşmüşdür. Gecə-gündüz işləməkdən əllərim qabar olmuşdur.

H a c ı M u r a d. Buyur, bu da sənin öz başına gələn. Daha Gülzara niyə razı olmursan? Rəhmətlik atama dedim ki, kişi, Şərəfi bu kasıba vermə, neçə dövlətli istəyir, onların birinə ver. Dedi yox. Bu ağıllı, kamallı adamdır. Bunda Şərəf xoşbəxt olar.

Ş ə r ə f x a n ı m. Xeyr, atam səhv etməyibdir. Mən ərimdən çox razıyam. özüm də çox xoşbəxtəm ki, allah məni bu cür adama qismət



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

edibdir. Dünya malı bir puç şeydir. Gedər də, gələr də. Ər odur ki, qara gündə arvadla yoldaş olub, bir-birinə can deyib, can eşidələr.

Ə h m ə d. Ana, bəs sən deyirdin ki, dayın sənə qənfet verəcəkdir, bəs niyə vermir?

H a c ı M u r a d. Oğlum, qənfet pis şeydir. Adamın boğazını ağrıdır. Sən yekə oğlansan. Qənfeti neynirsən.

Ə h m ə d. Ana, Gülzar bacımgilin bağçasında elə çox alma var ki, gələndə gördüm.

H a c ı M u r a d. Yox, oğlum, dəymə, yetişəndə yığıb sənə göndərəcəyəm.

Ə h m ə d. Mənim özüm burada olacağam. Dəyəndə yığaram.

H a c ı M u r a d (*kənara*). Bunda yaxşı xəbər var. Deyəsən Şərəf çox qalacaqdır.

Ş ə r ə f x a n ı m. Sizin dərdiniz öz dərdimi də yaddan çıxartdı. Əhməd böyüyübdür, oxumaq vaxtı keçir, dedim gətirim sizdə qoyum, həm məktəbə getsin, həm də Gülzara hayan olsun.

H a c ı M u r a d (*kənara*). Mazandaranda çaqqal az idi, biridə gəmi ilə gəldi. (*Şərəfə*) Yox, yox, saxlaya bilmərəm. Özgə uşağını saxlamaq bir xata şeydir. Bunun korluğu var. Azarlaması var. Ağacdan yıxılması var. Anasız ona kim baxacaqdır.

Ş ə r ə f x a n ı m. Əhməd dinc uşaqdır. Heç kəsə korluğu olmaz. O ki qaldı azarlamağı, ondan da arxayın ol. Gülzar ona analıq edər.

G ü l z a r. Bibi, arxayın ol. Onu özümdən yaxşı saxlaram.

H a c ı M u r a d. Yox, yox, Gülzar bilmir. Uşağın tarpına dözmək olmaz. İmranda görmüşəm. Məni qocaldan o olmuşdur. Evimi dağıdan o olmuşdur.

G ü l z a r (*kənara*). Allah, xəcalətimdən bibimin üzünə baxa bilmirəm.

Ş ə r ə f x a n ı m.A qardaş, bir uşağın yeməyi, içməyi nə olacaqdır ki, bu sənin evini dağıda.

H a c ı M u r a d. Xülasə, mən razı deyiləm.

Ş ə r ə f x a n ı m. A qardaş, bacının əli aşağı düşəndə köməyə qardaşı üstə yüyürər. İndi mən də qardaş adı ilə evimi yiyəsiz qoyub yanına gəlmişəm. Eybi yoxdur. Uşaq səni incidər, apararam. Ancaq səndən bir təvəqqəm var, məni ondan naümid qaytarma. Ərimin beş yüz manat borcü var, borc sahibi pis adamın biridir. Gündə qapımıza gedib-gəlməkdən bizi təngə gətiribdir. Kişiyə dedim ki, qardaşımı



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

görməyə gedirəm, amma əsil fikrim o idi ki, səndən alıb aparıb verəm. Abrımız açılmasın.

H a c ı  M u r a d. A bacı, sən ki, özgəsi deyilsən, məgər mənim var-yoxumu bilmirsən? Məndə pul hardandır ki, sənə verim?

Ş ə r ə f  x a n ı m. Qardaş, burada xəsislik yeri deyil. Burada bacı namusu var. Razı olma ki, bacının paltarları bazarlarda tökülüb satılsın və bir də mən səndən borc istəyirəm. Sən gözləyə bilərsən. Amma özgəsi gözləyə bilmir.

H a c ı  M u r a d. Axı nə üçün inanmırsan, sənə deyirəm ki, özüm pul üzünə həsrətəm.

Ş ə r ə f  x a n ı m. Atamdan qalan pul və özün qazandığın pullar necə olmuşdur ki, mənə beş yüz manat tapılmır. Sandıqların ağzını bərk bağla.

H a c ı  M u r a d. A kişi, bu zalım uşaqlarını inandırmaq olmaz ki, buyur, bu mənim ciblərim, bu da mənim sandığım. (*Durub paltar sandığını açır.*) Di gəl bax, gör burada əsgi-üsgüdən başqa nə var. (*Qorxa-qorxa o biri sandığa baxır.*)

Ş ə r ə f  x a n ı m. O biri sandığın ağzını aç.

H a c ı  M u r a d. Sən mənim evimə pristav gəlmisən? Asmotr edirsən? Çox da var, niyə verim. Çöldən tapmışam?

Ş ə r ə f  x a n ı m (*ayağa galxır.*) Daha sənə nə deyim? Qarğış etməyə də yerim yoxdur, çünki bura mənim atam evidir. Cəfər! Cəfər!

Cəfər daxil olur.

C ə f ə r. Nə buyurursan, xanım?

Ş ə r ə f  x a n ı m. Cəfər, bu saat faytonu qoşdur, gedəcəyəm.

C ə f ə r. Xanım, gün keçibdir, gedib çatmaq olmaz.

Ş ə r ə f  x a n ı m. Eybi yoxdur, harada gecələrik, orada qalarıq, burada qala bilmərəm. Gərək gedək.

C ə f ə r. Baş üstə, xanım. Ancaq faytonçunun pulu qalıbdır, istəyir.

Ş ə r ə f  x a n ı m. Özündə varsa ver, yox isə ala bu üzüyü apar sat ver. (*Barmağından üzüyünü çıxarıb verir.*)

C ə f ə r. Xanım, lazım deyil, məndə var, verərəm. (*Çıxır.*)

G ü l z a r (*ağlaya-ağlaya*). Bibi, başına dönüm, bu gecə vaxtı getmə.

Ş ə r ə f  x a n ı m. Yox, Gülzar, qala bilmərəm. Bu ev mənim üçün cəhənnəmdir. Dur, oğlum, gedək.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

G ü l z a r. Bibi, məni də apar. Burada qoyub getmə.

Ş ə r ə f x a n ı m. Səni hara qoyub gedirəm. Belə zalımın evində bir saat da qoymaram. Dur gedək.

H a c ı M u r a d (*Gülzarın əlindən tulub özünə tərəf çəkir.*) Haraya aparırsan? Qoymaram.

Ş ə r ə f x a n ı m. Çəkil kənara. Hörümçək kimi yazıq qızın qanını sorub bu hala salmısan. Belə kafir ataya gözəl balanı verməràm.

**Pərdə**

## DÖRDÜNCÜ PƏRDƏ

Səhnə Hacı Muradın bağçasını göstərir. Aydınlıq bir gecə,
İmran gəzinərkən söylənir.

İ m r a n. Ay zalım, ey biinsaf kişi, əhdindən dönüb səni dövlətli edəni evindən qovursan. Dünya malından ötrü Gülzar kimi qızı bir qocanın puluna satırsan? Yox, zor ilə də olsa, gərək bu gecə aparam. Nabatdan bir xəbər çıxmadı. Yoxsa qoca kaftar güclə Gülzarın nigahını oxutdu? Ya Gülzar naəlac qalıb razı oldu? Yox, yox elə iş ola bilməz. Gülzar özünü öldürər, Məhərrəm bəyə getməz... Deyəsən, qaraltı görünür. Arvaddır.

Nabat gəlir.

N a b a t. İmran ağa, başına dönüm, yavaş danış, hamı oyaqdır. Qoca kaftar yenə sandıqlarını yoxlayır. Qara köpək də sən gedəndən bəri hacının hökmünə görə nə mənə, nə də Gülzar xanıma göz verib, işıq vermir. Bir az səbir elə, görək bir yerə gedərmi ki, Gülzar xanımı qaçırdam.

İ m r a n. Yox, Nabat, daha təngə gəlmişəm. Səbir edə bilmərəm. Bu saat zor ilə də olsa, aparacağam.

N a b a t. Qurbanın olum, İmran ağa, məni xataya salma. Bu gecə nə tövr olsa, Gülzar xanımın əlini əlində görəcəksən. Ancaq bir az səbir elə. Gülzar xanım Əliquludan fürsət tapan kimi buraya qaçacaqdır...

İ m r a n. Dayan, xışıltı gəlir...

N a b a t. Odur, odur, Gülzar xanımın özüdür.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gülzar qaçaraq gəlir.

İ m r a n (*tez onun əlindən tutub*).Gülzar, sənsən?

G ü l z a r. İmran, daha dayanmaq vaxtı deyil, qaçaq. Nabat, ala bu üzük məndən sənə yadigar olsun (*verir.*)

İ m r a n (*Nabata pul verir.*) Ala, Nabat, allah qoysa yenə bir yerdə olacağıq. Gülzar gedək. Nabat, xudahafiz.

N a b a t. Gedin, Allah sizi salamat etsin, xoşbəxt olasınız.

İmran və Gülzar gedirlər

N a b a t (*tək*). Qocanın murdar üzündən yaxşı qurtardılar. Qaldım mən bədbəxt. Bundan sonra şəksiz məni də qovacaqdır. İndi bir allah bəndəsi tapılaydı, məni də bu ilanın ağzından qurtaraydı.

Qulu ağacın dalından çıxır.

Q u l u. Bu allah bəndəsi mən.

N a b a t. Uy, kimsən?

Q u l u. Nabat xanım, deyəsən məni tanımırsan. Paltarımın dəyişilməsinə baxma. Ürəyim yenə sənnəndir.

N a b a t. Qulu, sənsən? Nə heybətli olmusan. Lap quldura oxşayırsan. Bu xəncər nədir?

Q u l u. Səfeh qızı hələ soruşur da. Görmürsən ki, səni göturüb qaçmağa gəlmişəm.

N a b a t. Heç zarafatdan əl götürməyəcəksən? Burax, gedirəm. Gülzar xanım məni axtarar.

Q u l u. A hilləmətənə, mənə kələk gəlirsən? İndi Gülzar xanımı İmranla qaçırmadınmı? Mən gözləyirdim, əvvəl yol xanımındır, sonra qulluqçunun. Ancaq mən onlar kimi səfeh deyiləm ki, tədarüksüz gedəm. Gərək qabaqca gedib Hacı Muraddan yeddi illik məvacibimi alam, sonra səni aparam.

N a b a t. Qulu, sən allah doğru deyirsən, yoxsa məni aldadırsan?

Q u l u. Vallah, doğru deyirəm. Mən gedəndə sənə nə demişdim, niyə yadından çıxarmısan? Tez get, nə şeyin varsa yığ. Uçuq hamamın yanına get. Məni orada gözlə.

N a b a t. Bəs sən nə edəcəksən?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Q u l u. Mən də gedib Hacı Muradı qorxudacağam, pullarımı alacağam. Di vaxtı itirmə, tez get. (*Nabat qaçaraq gedir.*) Arvadın ağlı, ya uşağın ağlı, hər şeyə o saat inanır.

Fit ilə yoldaşlarını çağırır. Bu səsə Niyazla Qurban, üstlərində əsləhə[1] gəlirlər.

Q u r b a n. Qulu, nə çox ləngidin?

N i y a z. Bir şey bildin, ya yox?

Q u l u. Yoldaşlar, işimiz çox rast gətiribdir. Evdə bir Hacı Muraddan və bir də Əliquludan başqa heç kəs yoxdur. Qızı bu saat İmrana qoşulub qaçdı. Qulluqçunu da mən aldatmışam ki, səni götürüb qaçacağam. İndi gedib yolumu gözləyir.

N i y a z. Bəs Əliquluya nə tədbir çəkmisən? Qulu, doğrusu, mənim ondan gözüm su içmir. Çox usta, hiyləgər adama oxşayır. Qorxuram bizi aldadıb, divana məlum edə. Hamımızı tutdura.

Q u r b a n. Niyaz doğru deyir, çox şübhəli adama oxşayır.

Q u l u. Yoldaşlar, mən elə iş tutmaram ki, ondan bizə xəta gələ. Əliqulu divandan elə qorxur, necə ki, it dəyənəkdən. Bu barədə arxayın olun. Əliqulu bu işdən qaça bilməz.

N i y a z. Söylə görək, onu haradan bildin?

Q u r b a n. Əlbəttə, söylə, yoldaşımızın necə adam olduğunu gərək biz də bilək.

Q u l u. Yoldaşlar, indi onun vaxtı deyil. Sonra sizə danışaram.

N i y a z. Bəs niyə dayanmışıq? Hacı Muradın qulluğuna gedək də.

Q u l u. Yox, gərək gözləyək. Əliqulu özü buraya gələsidir. Odur gəlir.

Əliqulu gəlib çatır.

Ə l i q u l u. Hacı Muradın əziz qonaqları, xoş gəlmişsiniz. Ancaq ərbabın bir balaca nəqahəti var. Sizi qəbul edə bilməyəcəkdir.

Q u l u. Əliqulu, zarafatı burax. Niyə belə gec gəldin. Bir şey var?

Ə l i q u l u. Yoldaşlar, gərək işi sabaha qoyaq.

Q u l u. Nə səbəbə?

Ə l i q u l u. Çünki Hacı Murad Məhərrəm bəygilə gedəsi olmadı. Özü Məhərrəm bəyi gözləyir və evdəkilərin hamısı da oyaqdır amma

---

[1]Silah



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sabah axşam Məhərrəm bəyə qonaqdır. Otağın açarı da məndə olacaqdır.

Q u r b a n. Yoldaşlar, nahaq yerə vaxt itiririk. İndi Məhərrəm bəy gəlincə mən min ev yarmışdım. O ki qaldı Hacı Murada, boğazından elə basaram ki, bir də qiyamətdə oyanar.

Ə l i q u l u. Xeyr, mən buna razı deyiləm. İş gərək tədbirlə ola. Yoxsa içindən xata çıxar.

N i y a z. Görünür, Əliqulu işdən baş qaçırır. Amma Qulu bizə özgə cürə demişdi.

Q u l u. Niyaz doğru deyir, Əliqulu əmi başqa fikrə düşübdür, amma bilsin ki, baş tutası iş deyil. Onun fikri bu gecə Hacı Muradın pullarına yaxşıca qulluq edib Araz çayını aşmaqdır. (*Üzünü Əliquluya tutub*) Belədirmi, Səfdər əmi?

Ə l i q u l u (*diksinmiş*). Nə dedin, mən Səfdər...

Q u l u. Bəli, Tehran həbsxanasından qaçmış oğrubaşı Səfdərsən. Mən də Quluyam. Yaxşı tanı. Məni aldatmaq olmaz.

N i y a z, Q u r b a n. Oğrubaşı?!.

Q u l u. İndi, Tehran lotusu Səfdər, bizə yoldaşsanmı?

Ə l i q u l u. Yoldaşam, hər nə buyursanız əmrinizə tabəyəm.

Q u l u. Ha beləcə, Əliqulu əmi, yoldaş yoldaş ilə tən gərək, tən olmasa, gen gərək. İndi de görüm, Gülzarın İmran ilə qoşulub qaçmağından xəbərin varmı?

Ə l i q u l u. Bəli, var.

Q u l u. Bəs Nabat haradadır?

Ə l i q u l u. Göndərmisən gedib yolunu gözləyir.

Q u l u. Oda düzdür. Hərif olmağını bəyənirəm. İndi bir sual qaldı. De görüm. doğrudanmı Hacı Murad Məhərrəm bəyi gözləyir?

Ə l i q u l u. Bəli, gündüzdən məni göndərmişdi ki, Məhərrəm bəyi bu axşama məsləhətə çağırım. Ancaq bəy dedi ki, Hacıya de qonaqlarım var, gec gələcəyəm.

Q u l u. Bu daha yaxşı oldu. İndi, yoldaşlar, hazır olun, Hacı Muradın qulluğuna gedək. Əliqulu əmi sən ağsaqqalsan, qabağa düş.

Gedirlər.

**Pərdə**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## BEŞİNCİ PƏRDƏ

Səhnə Hacı Muradın otağını göstərir.

H a c ı M u r a d (*yalqız*). İmranı qovdum getdi, amma qız yenə də razı olmur. Məhərrəm bəy gəlsin, görək işə nə əncam çəkirik. İmran da istədi ki, atası Şeyx Əlidən qalan malı məndən istəsin, gördü ki, xeyr o girən kol deyil. Elə hesab verdim ki, papağını da götürüb qaçdı. Durum Şeyx Əlidən qalan cavahir və qızılları yoxlayın. (*Durub sandığı açır.*) Pəh, pəh, pəh... almazların şəfəqi gözlərimi qamaşdırır. Bu irilikdə mirvari, bu rəngdə yaqut heç Xəta padşahının xəzinəsində də tapılmaz.

Qulu, Niyaz, Qurban daxil olurlar.

Q u l u. Sənin kimi xəsis, tamahkar da dünyada tapılmaz.

H a c ı M u r a d (*sandığın qapağını salıb*). A zalımlar, siz kimsiniz? Məndən nə istəyirsiniz?

Q u l u. Hacı Murad, nökərin Qulunu tanımırsan? Nə tez yadından çıxartmısan?

H a c ı M u r a d. Qulu, sənsən? Buyur əyləş, yoldaşların da xoş gəlibdir. Mənə görə nə qulluğun var? Yəqin məvacibinin dalınca gəlmisən, mən özüm də səni axtarırdım ki, haqqını verəm.

Q u l u. Haqqım çox ağırdır, qorxuram öz ixtiyarın ilə verməyəsən. (*Sandığa tərəf gedir.*)

H a c ı M u r a d (*onun əlindən tutub*). Nə istəyirsən? Qoymaram!

Q u l u. Demədimmi, öz ixtiyarınla verməyəcəksən. Qurban tut, Niyaz, qollarını bağla!

H a c ı M u r a d. Ay aman, qoymayın! Məni öldürürlər!

Q u r b a n (*xəncəri sivirib*). A kişi, səsini kəs, yoxsa qarnına soxaram. (*Əllərini bağlayır.*)

H a c ı M u r a d. Ay haray! Ay aman! Ay Əliqulu!

Ə l i q u l u (*daxil olur.*) Nə buyurursan, ağa can?

Yoldaşları gülüşürlər.

H a c ı M u r a d. Tez get divana məlum elə!

Ə l i q u l u. Ağa can, indi sənin hakimi-şərin bunlardır, bu saat divan edəcəklər. Cəza-fəza etmək artıqdır.

Hacı Murad. Əliqulu, sən də bunların yoldaşı imişsən? Ay aman, qoymayın!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Q u r b a n. A kişi, qoysanız xəncəri soxum rədd olsun.

Q u l u. Yox, öldürmə. O gərək ölümdən artıq cəza çəkə. Ağzını bağlayın, səs çıxarmasın. (*Hacı Muradın əl-ayağını bağlayıb yerə qoyurlar*.) Qurban, gəl sandığən qapağını tut. (Qurban tutur, Qulu mücrünü çıxarıb Niyaza verir.) Niyaz, bunu al. İndi, yoldaşlar, gəlin buraya, Əliqulu əmi, de görüm bundan xəbərin var idi, ya yox? Niyaz, o döşəkçəni, palazı qaldır. (*Niyaz qaldırır*.) Qurban, gəl xəncərlə bu yeri qaz. (*Qurban qazır, Qulu bir başqa mücrü çıxardır.*) Əliqulu əmi bu sirri bilirdinmi?

Ə l i q u l u. Bəli, duymuşdum ki, orada bir şey var, çünki Hacı Murad oranı tez-tez yoxlayırdı.

H a c ı M u r a d (*başını qaldırıb xırıltılı səslə deyir*.) Evim yıxıldı.

Q u r b a n. Sus!..

Q u l u. Yoldaşlar, daha dayanmaq yeri deyil. İndi o biri kaftar da gəlib çıxar.

N i y a z. Eybi yoxdur, onu da hacının gününə salarıq.

Q u l u. Hacı Murad, xudahafiz. Hərgah Ağa Qulunu axtarsan, Şama gəl. Siz öləsiz, nəinki Şama, hətta Hindistana da gəlib çıxar.

Hamı gedir, pərdə bir müddət açıq qalır, sonra Məhərrəm bəy daxil olur.

M ə h ə r r ə m b ə y. Evdə, həyətdə heç kəsi tapmadım, bunlar necə olmuşlar? Bu palazı, döşəkçəni niyə buraya çəkiblər? Yoxsa, evə oğru gəlmişdir. Elədi ki, var. Bəs Hacı Murad haradadır? (*Bucaqdan Hacı Muradın xırtltısı gəlir*.) Budur burada. Bunun əl-ayağını kim bağlamış? (*Açır.*)

H a c ı M u r a d. Məhərrəm bəy, evim yıxıldı...

M ə h ə r r ə m b ə y. Hacı əmi, de görüm, sənə nə olub? Əl-ayağını kim bağlayıb?

H a c ı M u r a d. Qulu zalım oğlu. Əliqulu da ona yoldaş idi. Evim yıxıldı, tarmar oldu. (*Gedir sandığa baxır.*) Hanı şəfəqin, gözəl cəvahir, haradasan zərif qızıllar?! Məhərrəm bəy, tez get divana məlum et. O quldurları tutdurub, mənim pullarımı qaytar.

Nabat təngnəfəs daxil olur.

N a b a t. Ağa, İmran Gülzar xanımı götürüb qaçdı.

Məhərrəm bəy və Hacı mat qalırlar.

M ə h ə r r ə m bəy. Əlimdən mal-dövlət çıxdı.

**Pərdə**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# DİBDAT BƏY

*Bir pərdəli, iki şəkilli məzhəkə*

İŞTİRAK EDƏNLƏR

S ə f d ə r q u l u b ə y - mülkədar bəy. Ucaboylu, dolubədənli, üzüqırxıq, çərkəz libasında, əlli yaşında sadədil bir şəxs. Danışanda tez-tez "vot tebe na" sözünü təkrar edir.

M e h d i b ə y
V ə l i b ə y } Səfdərqulu bəyin qumar yoldasları.
R ü s t ə m b ə y
S a ş a bəy
M ə ş ə d i S ə m ə d - dükançı.
A z a d b ə y - doktor.
N ə b i - Səfdərqulu bəyin nökəri.
C ə b i - Mehdi bəyin nökəri.
O v a n e s - Saşa bəyin nökəri.
R ə h i m - tarzən,
K ə r i m - oxuyan.

BİRİNCİ ŞƏKİL

Səhnə Səfdərqulu bəyin otağını göstərir. Otaq yarı Asiya, yarı Avropa qaydası ilə bəzənmiş. Ortada girdə stol. Üstə şamdan, kart və qeyri qumar şeyləri. Sandalyalar qaydasız halda durmuş. Açıq qapıdan yemək otağı görünür, Pərdə qalxdıqda, Nəbi otağı qaydaya salarkən öz-özünə söylənir.

N ə b i. Vay sizin evinizi allah yıxsın, a belə ağalar. Bir belə də qumar oynamaq olarmı? Hər gün səhərə kimi oynayırlar. Çox vaxtı gecəni gündüzə qatıb, o biri günə kimi kart vururlar. Vallah, mən nökər belə rahatsızlığa davam edə bilmərəm. Amma bizim bu nəcib bəylərimiz davam edirlər. Özgə vaxtı "o yana dur" üstə xəncər, tapan-çaya çıxırlar. Amma qumarda bir-birlərinə itə deyilməz sözləri deyirlər. Yenə də keçir gedir. Amma lotular mənim bu səefeh ağamı yaxşı tovlayıb tapıblar. Gecə-gündüz çörəyini yeyib, çayını içib özünü də,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qumarda sağmal inək kimi sağırlar. Ha-ha-ha... (*Bir az dayanıb yenə də*) Ha-ha-ha... A kişilər, bu lotuların hər kələkləri qurtarmışdı, qalmışdı elə bu. İndi də tutublar ki, Səfdərqulu ağa, səni cəmi bəylər tərəfindən dibdat seçəcəyik. Gedib Fitilbörgdə dum deyirlər, nə deyirlər, orada vəzirlər yanında danışasan. Ha-ha-ha... Səfdərqulu bəy vəzirlər yanında danışacaq? Vay o yazıqların halına. "Vot tebe na"dan başqa bir şey başa düşə bilməyəcəklər. (Cəbi daxil olur.) Xoş gördük, a Cəbi lələ. Mənə qulluq.

C ə b i. Gecə ağamın papiros qutusu burada qalıbdır. Ona gəlmişəm.

N ə b i (papiros qutusunu stolun üstündən götürüb verir.) Cəbi, sən öləsən bu gecə, ağan Mehdi bəyi təmiz süngə çəkiblər. Yaxşı ki, hələ papağını da yaddan çıxartmayıb.

C ə b i. Mənim ağam kartın höcətinə gedəndir.

N ə b i. Odur ki, bu gecə on bir əl dalbadal onluğa vuruldu. Axırda hirsindən kartı cırıb atdı.

C ə b i. Mən Mehdi bəyin yerinə olsaydım, onluğa vurulanda qaçardım doqquzluğa. Ona da vurulanda səkkizliyi qoyardım. Getdikcə bir xal azaldardım.

N ə b i. Ha-ha-ha... afərin sənə, Cəbi lələ. Sən lap qart qumarbaz imişsən. Onda mənlə bir əl qonçuna oynamaqda necəsən.

C ə b i. Çox yaxşı, oynaram. Bəs Səfdərqulu ağa evdə deyil?

N ə b i. Qorxma, elə yatıbdır ki, top da atsan xəbəri olmaz.

C ə b i. Bu gecə udubdur, yoxsa uduzubdur?

N ə b i. Heç görünməz iş!.. Udubdur! Cəbi, yaxşı yadıma saldın, ağa tapşırmışdı ki, onu tezdən durquzam. Günorta olubdur, amma o hələ yatıb. Cəbi, bu gecə bizdə böyük qonaqlıq var. Oxuyanlı, çalanlı, içgili.

C ə b i. Səfdərqulu ağanı vəkil seçəcəklər. Onun üçünmü?

N ə b i. Bəli. Bunu sən haradan bilirsən?

C ə b i. Bu bəylərin kələyidir. Onu elə salırlar. O günü bəylərin hamısı bizdə idi. Gülməkdən qəşş edirlər. Mehdi bəy də deyirdi: Nə var, zəhməti mən çəkim, qonaqlığı Səfdərqulu bəyin boynuna mən qoyum, hamı kələyi mən qurum, kefi siz çəkin.

N ə b i. Bunun bəylərin kələyi olduğunu mən də duymuşam. Ancaq nə işim var, ağa mənə bir çuxa vədə edibdir. Təki o çatsın.

C ə b i. Gərək qabaqcan alasan. Sonra kələk açılanda verməz. Bəlkə yadına salanda səni də kötəkləyər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

N ə b i. Elə mən də onun fikrindəyəm. Gedim durquzum. Amma daş kimi bərk yatandır. Bilmirəm heç durquza biləcəyəmmi? (*Gedib yataq otağının qapısından çağırır.*) Səfdərqulu ağa, Səfdərqulu ağa! İndi gəl bunu oyat. Paltarlı, taxta yıxılıb, xoruldayır. (*Səsini ucaldır.*) Səfdərqulu ağa, Səfdərqulu ağa, Əstəğfürulla, əgər vəcinə isə.

C ə b i. Ədə, gedib əlin ilə durquzsana.

N ə b i. Yaxşı buyurursan, Cəbi ağa. Sən ölsən durub atama od vurar. O günü elə etmişdim. Diksinib atlandı və mənə elə sillə çəkdi ki, gözlərimdən od parladı. Dedi ki, bundan sonra məni heç vaxt əlinlə durquzma. (*Qışqırır.*) Səfdərqulu ağa! Səfdərqulu ağa! Allahü əkbər, mən nə edim? A Cəbi, sən də kömək elə, görək bu dibdat bəyi oyada bilərikmi?

C ə b i. A balam, mən nə kömək edim? Belə ki, Səfdərqulu ağa yatıbdır, heç "Koroğlu" da çalsan duran deyil.

N ə b i. Vay, sağ ol Cəbi, yaxşı yadıma saldın. (*Çırtıq vura-vura o biri otaqdan bir qaval və bir tar gətirir.*) İndi durarsan. Sənə bir elə meymun havası çalım ki, sıçrayıb dik atılasan. Al qavalı, köhnə lotu. (*Qavalı Cəbiyə verir və özü çalıb oxuyur.*)

Mən bu dərədən keçmərəm,
Çadramı yellətmərəm,
Ağ saqqala getmərəm,
Gəl, gəl ay evi yıxılmış,
Tez gəl, ay evi yıxılmış.

(*Gedib qapıdan baxır.*) Cəbi, sən ölsən, heç halına təfavüt etmir.

C ə b i. İndi sən bir sallama bayatı çal, gör mən necə oyadıram.

Nəbi çalır.

C ə b i.

Əzizim ulu dağlar,
Çeşməli, sulu dağlar.
Burda bir qərib ölmüş,
Göy kişnər, bulud ağlar.

Nəbi gedib qapıdan baxır.

N ə b i. Xeyr a.

C ə b i. Adə, bəlkə, kişi ölüb?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

N ə b i. Hardan ölübdür, xorultusunu eşitmirsən? Ay Cəbi, nə edək? (*Fikrə gedir.*) Hə tapdım, yaxşı tapdım.

C ə b i. De görüm, nə tapdın?

N ə b i. Qumarbazı qumar oyadar. Cəbi lələ, indi gəl bəylərin qumar oynamaqlarının təqlidini çıxardaq. Onda görərsən necə durar. Kürsünü çək otur. (*Otururlar.*) Bax, mən Vəli bəyəm, sən ağan Mehdi bəy. Ah, bir adam da olsaydı, işimiz düzələrdi.

Ovanes daxil olur.

O v a n e s. Nəbi, Saşa bəyin ağacı burada qalıb. Ona gəlmişəm.

N ə b i. Kirvə, yaxşı vaxtda gəlmisən, bir adamımız çatmırdı. (*Durub onun əlindən tutub stola tərəf çəkir.*) Hələ buyur otur.

O v a n e s. Yox, kirvə, mən qumar oynamıram.

N ə b i. A kişi, otur.

O v a n e s. Mən qumarı toba etmişəm.

N ə b i. Otur, pul ilə oynamırıq. Zarafat edirik.

O v a n e s. Kela, qabaqda da məni o cür öyrədib evimi yıxdılar.

N ə b i. Adə, qumar oynamırıq, oyun çıxardırıq. Sən otur, bu saat deyim. (*Ovanes oturur.*) Bax, sən Saşa bəy...

O v a n e s. Mən Ovanesəm.

N ə b i. Adə, a qanmaz ayı, mən bilirəm ki, sən Ovanes kirvəsən. Biz ağaların qumar oynamalarının təqlidini çıxardırıq. Bax, Cəbi Mehdi bəydir, mən Vəli bəy, sən də ağan Saşa bəy... İndi başa düşdünmü?

O v a n e s. Kela, başa düşdüm, ancaq bu nə üçündür?

N ə b i. Sonra deyərəm.

C ə b i. Bax, Ovanes, Saşa bəy kimi oyna.

O v a n e s. Arxayın ol, kela, lap özü kimi oynayacağam.

C ə b i. Nə oynayaq?

N ə b i. Ştos (*gedib Səfdərqulu bəyin otağının qapısını açır, sonra gəlib bir kalod kartı əlinə götürür. Vəli bəy rolunda*). Bax, qospoda, bu yüz manat bankdır, kart deyil.

C ə b i (*Mehdi bəy rolunda*). Xeyr, olmaz, gərək tuz vuraq, kimə çıxsa o, bang qoysun.

O v a n e s (*Saşa bəy rolunda*). Mehdi bəy düz deyir, gərək tuz vuraq.

N ə b i. Pəh, yenə Mehdi höcətə saldı. Yaxşı tuz vururam. (*Kartı bir-bir üç yerə paylayır, tuz Nəbiyə çıxır.*) Gördünüz, tuz mənə çıxdı. Yamanlıq özünüzə qaldı.

C ə b i. Pravilo belədir, əzizim.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

N ə b i. İndi kart qoyun.

Cəbi (*stolun üstdəki basqa kaloddan kart çəkib üzü üstə qoyur*.) Xalı beş manat.

O v a n e s. Kartı on manat.

N ə b i (*kartı çevirir*.) Beşlik üzdədir, kartınızı açın. Vəli bəy səninki üzdədir. İyirmi manatı bangə at, qadanı alım. Saşa bəy, bu saat sənin üçün də bir onluq getirərəm (*kartı sağa və sola paylayır.*) Sən vurdun, buyur, Saşa bəy, bu da sənin on manatın.

O v a n e s. Qoy bangda dursun. Uqol gedəcəyəm.

N ə b i. Çox yaxşı, get (*kartı çalır*.) Buyurun kəsin. (*Ovanes kəsir*.)

C ə b i. Xalı üç manat.

O v a n e s. Uqol, kela, xalına da on manat.

N ə b i. Pəh, Saşa bəy yenə azartnı elədi. Xeyr, vermirəm. Sənə xalı üç manatdan artığa xod yoxdur.

O v a n e s. Kartın təpədir.

N ə b i. Onda eybi yoxdur. Mehdi bəy, şahid ol ki, Saşa bəyin kartı təpə olmasa, pul verməyəcəyəm. (*Kartı çevirib sağ-sola paylayır*.) Saşa bəy, bu da təpə.

O v a n e s. O deyil, eybi yoxdur, o olmasın, bu olsun. Xalı üç manatdan edər altı manat. Bangdan istərsən dörd manat. Vəli bəy kartının üzünü aç.

C ə b i. Surət gətir.

N ə b i (*sağa və sola paylayır*.) Bu da surət.

C ə b i. O deyil.

N ə b i. Buyur, bu da surətin o birisi.

C ə b i. O da deyil.

N ə b i. Mehdi bəy, kartını aç, yoxsa getmərəm.

C ə b i. Nə, kartın dalını çək deyim.

N ə b i (*səsini ucaldır*.) Vallah çəkmərəm. Canım, surətin ikisi çıxıbdır.

C ə b i. Sən öl, o kartın dalını çək, göstərim.

N ə b i. Pəh, Vəli bəy, yenə höcətə saldın? İbişin canına çəkmərəm. Di inan...

S ə f d ə r q u l u b ə y (*o biri otaqdan*). Vəli bəy, tuz gətir. Mehdi həmişə onu qoyar.

N ə b i. Ha beləcə... Zalım kartın gücünü gördünüzmü? Uşaqlar, cəld kürsüləri kənara qoyun. Kartı gizlədin, indi siz bayıra çıxın, məni gözləyin.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

C ə b i, O v a n e s çıxırlar.

S ə f d ə r q u l u b ə y (*başıaşağı cibindən pul çıxarıb*). Vəli bəy, qız da! Bu on manat (*başını qaldırır*.) Nəbi!

N ə b i. Bəli.

S ə f d ə r q u l u b ə y. A gədə, bəylər hanı?

N ə b i. Ağa, bəylər yoxdur.

S ə f d ə r q u l u b ə y. Ay gədə, nə deyirsən? Vot tebe na. İndicə səsləri gəlirdi. Qumar oynayırdılar.

N ə b i. Ağa, bəlkə, yuxunda görmüsən?

S ə f d ə r q u l u b ə y. Ay gədə, nə deyirsən? Vot tebe na. Başına at təpibdir nədir? İndicə buradan Vəli bəyin, Mehdi bəyin səsləri gəlirdi. Piyan saldat kimi, vot tebe na, evə gəlib gedəndən də xəbərin yoxdur. O biri otağa bax. Gör oradadırlarmı?

N ə b i. Bu saat oradan gəlirəm, heç kəs yoxdur.

S ə f d ə r q u l u b ə y. Allahü əkbər, vot tebe na. Ay gədə, mən dəli olmamışam ki, indicə bu qulaqlarımla eşitdim ki, vot tebe na, Vəli bəy Mehdi bəyə deyirdi ki, kartını açmasan getmərəm.

N ə b i. Ağa, and içkinən ki, sənə acığım tutmayacaq, düzunü deyim.

S ə f d ə r q u l u b ə y. Yaxşı, acığım tutmaz, de görüm.

N ə b i. Xeyr, Mələknisa xanımın goruna and iç, deyim.

S ə f d ə r q u l u b ə y. And olsun Mələknisa xanımın goruna. Vot tebe na! Acığım tutmaz. İndi de.

N ə b i. Ağa, özün buyurmuşdun ki, məni tez oyat, axşama qonaqlarım var, gərək bazarlıq edəm. Mən də nə qədər çağırdım, qışqırdım, oyanmadın. Axırda naəlac qalıb Cəbi və Ovanes ilə bəylərin qumar oynamaq təqlidini çıxartdım ki, bəlkə onların səslərinə oyanasan. Düzü budur.

S ə f d ə r q u l u b ə y. Ha-ha-ha... Ay gədə, Nəbi, sən nə lotusan. Bəs Cəbi, Ovanes hanı?

N ə b i. Ağa, onlar səsini eşitcək qorxub bayıra qaçdılar.

S ə f d ə r q u l u b ə y. Çağır buraya gəlsinlər.

N ə b i (*qapını açıb çağırır*.) Cəbi, Ovanes, buraya gəlin, ağa çağırır. Cəbi və Ovanes daxil olurlar, baş eyirlər.

S ə f d ə r q u l u b ə y. Adə, siz nə bicsiniz, indi də bizim təqlidimizi çıxardırsınız? Vot tebe na. Cəbi, de görüm Mehdi bəy nə tövr karta gedir?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

C ə b i (*səsini dəyişdirir.*) Doqquzluq napi pee... Yenə üzə düşdü. Atanti.

S ə f d ə r q u l u  b ə y. Ha-ha-ha... Siz öləsiniz lap Mehdi bəyin özüdür. Adə, Ovanes, sən de görüm, Saşa bəy nə tövr oynayır?

O v a n e s. Altılıq uqol, xalına da üç manat.

S ə f d ə r q u l u  b ə y. Ha-ha-ha... (*Barmağı ilə qorxudur.*) Əlbət Saşa bəyi, vot tebe na, görərəm. Bəs sizdən kim uddu?

C ə b i. Ağa, pulumuz haradaydı ki, puldan oynayaq.

S ə f d ə r q u l u  b ə y (*onlara pul paylayır.*) Ala, bu sənin, bu sənin, bu da sənin. (*hərəsinə bir manat verir.*)

Ü ç ü d ə. Sağ olsun Səfdərqulu ağa!

S ə f d ə r q u l u  b ə y. Bu gün məni seçsələr, hərənizə bir xələt verəcəyəm.

C ə b i. Ağa, sizdən artıq kim var ki, onu seçələr.

N ə b i. Bu doğrudur, bizim ölkədə ikinci Səfdərqulu ağa tapılmaz.

O v a n e s. Ağa, çox sağ ol, kela allah sizi bizim üstümüzdən əskik etməsin.

C ə b i. Ağa, izin ver gedək.

S ə f d ə r q u l u  b ə y. Yaxşı, gedin.

C ə b i  və  O v a n e s baş endirib çıxırlar.

S ə f d ə r q u l u  b ə y. Nəbi, biz də gedək, bəylər üçün içkidən-zaddan alım, gətir. Aşpazın hər şeyi hazırdırmı?

N ə b i. Bəli. Səfdərqulu bəy. Onda gedək.

Çıxırlar.

**Pərdə**

## İKİNCİ ŞƏKİL

Birinci pərdənin səhnəsi. Pərdə qalxdıqda Səfdərqulu  bəy görünür.

S ə f d ə r q u l u  b ə y. (*saata baxır.*) İndi seçki gərək qurtara. Nəbi! Nəbi!..

Nəbi daxil olur.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

N ə b i. Nə buyurursan, ağa?

S ə f d ə r q u l u  b ə y. Ədə, oxuyan-çalanlara xəbər vermisənmi?

N ə b i. Bəli, vermişəm.

S ə f d ə r q u l u  b ə y. Bəs niyə gəlməmişlər? Bu saat bəylər gələcəklər, vot tebe na. Get gör nə üçün gecikmişlər.

Nəbi çıxır, sonra Mehdi bəy. Vəli bəy. Rüstəm bəy. Məşədi Səməd, Saşa bəy səs-küylə daxil olurlar.

H a m ı. Urra... Urra... Sağ olsun Səfdərqulu bəy! Sağ olsun bizim deputat!

Səfdərqulu bəyi götürüb yuxarı atıb-tuturlar.

S ə f d ə r q u l u  b ə y. Qospada! Bir dayanın, vot tebe na, nəfəsimi alım.

V ə l i  b ə y. Ədə, bu oxuyan, çalanlar harada qaldılar?

Rəhim və Kərim daxil olurlar.

M e h d i  b ə y. Yaxşı vaxtda gəlmişsiniz, tez bir "Uzundərə" çalın.

Çalırlar.

V ə l i  b ə y. Mehdi bəy, Səfdərqulu bəyin havası o deyil.

M e h d i  b ə y. Vəli bəy, rica edirəm, iki dostun arasına girmə. *(Oynayır, sonra Səfdərqulu bəyin əlindən tutur.*) Gəl oynayaq, vəfalı dostum.

Oynayırlar, qeyriləri də çırtıq çalırlar, sonra otururlar.

R ü s t ə m b ə y. Qospada, səhərə kimi buradayıq. Yeyəcəyik, içəcəyik, oynayacağıq. Qumar vuracağıq. Ancaq gərək qabaqca işimizi qurtaraq. Ruslarda bir məsəl var, deyərlər: Kuy, jelezo poka qoryaco.

M ə ş ə d i  S ə m ə d. Rüstəmbəy, mənasını deyinizki, məndə başa düşüm.

R ü s t ə m  b ə y. Yəni dəmiri qızğın ikən yastıla. Məşədi Səməd, indi başa düşdünmü?

M ə ş ə d i S ə m ə d. Bəli, çox yaxşı başa düsdüm. Siz deyirsiniz ki, Məşədi Səməd, belə fürsət ələ düşməz, Səfdərqulu bəydən Qırx manat dükan borcunu almaq vaxtı gəlmişdir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

R ü s t ə m  b ə y. Rəhmətliyin oğlu, sən Nuhinəbinin borcundan dəm vurursan. Mən hal-hazırdan danışıram. Bu adamlar şahiddir ki, mən Səfdərqulu bəyin deputat seçilməsi yolunda nə qədər çalışmışam. Qospada, doğrudurmu?

H a m ı. Doğrudur.

R ü s t ə m  b ə y. Ona-buna mən ölüm demişəm. Cürbəcür hiylə qurmuşam, axırı özümü onun seçki qutusuna nəzarətçi təyin etdirmişəm. Qospada, doğrudurmu?

H a m ı. Doğrudur.

R ü s t ə m b ə y. Özünüz bilirsiniz ki, bizim adamların əksəri seçki işinə bələd deyillər. Bundan istifadə edərək xam adamları belə aldatmışam: Əmi, heç seçki görmüsən? - xeyr, oğlum, görməmişəm. Al bu yumru şeyi özün sal. - Xeyr, əmi onu eləmək olmaz, ancaq sənə kömək elərəm, - onun əlindən tutub qutunun pərdəsini qaldıraraq, - bax, əmi, şarı belə salarlar, deyə kişinin əli ilə ağ şar saldırmışam. Bax, imanımı belə satmışam. (*Gülüşürlər.*) Bu üsul ilə nə qədər şar salmışam, özüm də hesabını itirmişəm.

M e h d i  b ə y. Sənin dediyindən belə çıxır ki, hamı işləri sən görmüsən?

R ü s t ə m  b ə y. Xeyr, Mehdi bəy, mən haqqı itirən adam deyiləm. Hamınız işləmisiniz. Xüsusən siz, Mehdi bəy.

S a ş a  b ə y. Rüstəm bəy, kela çox uzun danışmaq lazım deyil. Borcunu de görüm.

Gülüşürlər.

R ü s t ə m  b ə y. Hər ağ şara bir manat istəməyə haqqım var, onu da dedim ki, hesabını itirmişəm, ona görə 80 manata iktifa[1] edirəm.

V ə l i  b ə y. Çox insaflı adamsan, mən çalışmağımı hesab etmirəm, çünki dost, dost yolunda canını qoyar. Lakin Səfdərqulu bəydən halalca altmış manat qumar borcunu istəyirəm.

M e h d i  b ə y. Qospada, sizdən sual edirəm, bu işin banisi kimdir və bu yolda hamıdan artıq çalışan kim olmuş?

H a m ı. Siz.

M e h d i  b ə y. Vəli bəy, sən vəkilsən, belə işlərdə məharətin var, məsələn, bir belə işi götürüb sudda udsan neçə alardın?

[1]Kifayətlənmək



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

V ə l i b ə y. İki mindən az almazdım.

M e h d i b ə y. Mənciyəz yüzcə manat istəyirəm.

S ə f d ə r q u l u b ə y. Qospada, hamınızı razı edəcəyəm, hələ kef zamanıdır.

R ü s t ə m bəy. Yox, yox, şərti belə kəsdik ki, əvvəl borc, sonra kef. Qospada, belədirmi?

H a m ı. Bəli, bəli... (*Onu əhatə edirlər.*) Tez ol ver.

S ə f d ə r q u l u b ə y. Qospada, bir dayanın, vot tebe na.

H a m ı. Tez ol ver.

S ə f d ə r q u l u b ə y. Görünür, bir Saşa bəyə borcum yoxdur.

S a ş a b ə y. Kela, necə yoxdur. Ağlamayan uşağa süd verməzlər? Dünən gecə özün demədinmi, Saşa, bu bangi aparsam, sənə əlli manat dəsxoş verəcəyə. Apardın, amma vermədin. Kela, kişinin sözü bir olar.

Gülüşürlər.

M e h d i b ə y. Saşa bəy doğru deyir, hamımız şahidik. Dünən bizdən dörd min manat pul aparmısan.

S ə f d ə r q u l u b ə y. (*cibindən portmonetini çıxardır.*) Ala, bu sənin, bu sənin, bu sənin, bu sənin, bu da sənin.

N ə b i (*yemək otağından qaçaraq gəlir.*) Ağa, mən qaldım.

S ə f d ə r q u l u b ə y. Ala, bu da sənin.

H a m ı. Sağ olsun Səfderqulubəy! Sağ olsun bizim deputat! Urra...

M ə ş ə d i S ə m ə d. Rüstəm bəy, ura-ura deməkdən boğazım qurudu. Yaşlamaq lazımdır.

S a ş a b ə y. Məşədi Səməd, kela lap ürəyimdən dəm vurdun.

Doktor Azad bəy paltolu, əlində əsa daxil olur.

A z a d b ə y. Qospada, bu nə ura-uradır. Yoxsa Səfdərqulu bəyə toy edirsiniz?

M e h d i b ə y (*kənara*). Nə pis vaxtda gəldi.

S ə f d ə r q u l u b ə y. Həkim, xoş gəlmisən, buyurunuz. Nəbi, Nəbi... (*Nəbi yemək otağından gəlir.*) Adə, doktorun paltosunu tut.

A z a d b ə y. Xeyr, xeyr, gedəsiyəm. Küçədə Nağı bəyin oğlu gözləyir. Atası ağır xəstədir, dalımca gəlmiş, vaxtım yoxdur.

S ə f d ə r q u l u b ə y. Mənim sağlığıma bir stəkan şampanski içməyə də vaxtın yoxdur? Vot tebe na!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

M e h d i b ə y. Yox, yox, mən razı deyiləm. Doktoru yoldan eləməyin. Nağı bəy ölər, cavabdeh biz olarıq.

R ü s t ə m b ə y. Mehdi bəy doğru deyir, qoy Azad bəy gedib naxoşuna baxsın, sonra gəlib bizimlə səhərə kimi kef edər.

A z a d b ə y. Mən özüm Zeynal bəyin qonaqlığından gəlirəm. Orada məni buraxmırdılar. Söz verdim ki, Nağı bəyə baxıb qayıdaram. Səfdərqulu bəy, doğrudan da, bu nə qonaqlıqdır? Hələ orada Zeynal bəyi padşahlıq dumasına vəkil seçmək münasibəti ilə şampanski içib ura-ura qışqırırlar. Buradakı ura-ura kim üçündür?

S ə f d ə r q u l u b ə y. Qospoda, bu nə deyir? Vot tebe na! Mənəm deputat, yoxsa Zeynaldır?

V ə l i b ə y. Həkim səhv edir, vəkil sənsən.

R ü s t ə m b ə y.A pir olmuş, azarlı orada can verir. Sən burada bizə leksiya oxuyursan.

M e h d i b ə y. Azad bəy, Rüstəm bəy doğru deyir, yolunla düz gedə bilmirsən? Sənə nə borcdur ki, burada nə qayırırıq.

A z a d b ə y. A lotular, bu nə kələkdir?Nə üçün kişini aldadırsınız?

M e h d i b ə y. Rica edirik ki, bizlə Səfdərqulu bəyin arasına girməyəsiniz, vəssalam.

A z a d b ə y. Mən də sizdən rica edirəm ki, sabah Səfdərqulu bəy həqiqəti bilib baş-gözünüzü əzdikdə, mən həkimin üstə yüyürməyəsiniz, vəssalam. (*Çıxır.*)

S ə f d ə r q u l u b ə y. Qospada, bu nə işdir? Vot tebe na!

M ə ş ə d i S ə m ə d. Səfdərqulu bəy, əslinə baxsan bizim işimizin hamısı vot tebe nadır.

Gülüşürlər.

M e h d i b ə y. Dostum, diqqətlə mənə qulaq asmağını rica edirəm. Əgər mən deyən fikrə şərik olmasan, Azad bəy buyurduğu kimi, qol-qabırğamızı qır. İndi qulaq as, Zeynal bəy və qeyri bəyin bu işə girişməkdə məqsədi nədir? Məncə bircə şeydir: ona dibdat bəy desinlər, vəssalam. Madam ki, iş belədir, mən öz tərəfimdən və bu dostlarım tərəfindən sənə söz verirəm ki, elə bir tədbir görüm ki, bu dibdat bəy ləqəbi sən ölənə kimi, xeyr, yüz illərcə, daha doğrusu, min illərcə üstündə qalsın. Şübhə edirsən? Qospada, bu 52 vərəqdən düzəlmiş kart nə vaxt məhv olacaqdır?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

R ü s t ə m b ə y. Bütün bəşəriyyət məhv olanda.

M e h d i b ə y. Doğru.

V ə l i b ə y. Kart, bəşəriyyət, dibdat bəy... anlamıram.

M ə ş ə d i S ə m ə d. Sən anlamırsansa, mən çox gözəl anlayıram. Mehdi bəy, dalını söylə.

M e h d i b ə y. Qospada, bu andan bizim aramızdan valetsaldat ləfzləri götürülür...

M ə ş ə d i S ə m ə d. Yerinə bir dibdat bəy qonur.

R ü s t ə m b ə y. Bravo!

V ə l i b ə y. A... indi başa düşdüm. Məncə şahın yerinə dibdat bəy qoyaq.

M e h d i b ə y. Xeyr, xeyr, şahların yerləri möhkəm deyil. Saldat hər zaman olacaqdır.

S a ş a b ə y. Səfdərqulu bəy, sənin kela, o qarlı, şaxtalı Peterburqda nə işin var?

V ə l i b ə y. Bundan əlavə padşahlıq dumasının vəkili olmaq çox xatalı işdir.

R ü s t ə m b ə y. Doğrudur, birdən artıq-əskik söz söylədin, bəlaya düşdün. Zarafat deyil, həmişə vəzirlər qabağında, bəzən padşah hüzurunda danışacaqsan.

M e h d i b ə y. Ağızdır, bir xatalı söz buraxdı, içindən qəmbərqulu çıxdı.

M ə ş ə d i S ə m ə d. Biriniz soyuqdan dəm vurursunuz, o biriniz danışıq qorxusundan, lakin heç biriniz əsli mətləbə yaxın düşmürsünüz. Səfdərqulu bəy bir gün plovsuz olmaz. Hələ bunun turşulu qovurması, dolması var.

V ə l i b ə y. Küftəsi var.

R ü s t ə m b ə y. Dovğası var.

S a ş a b ə y. Bozbaşı var.

S ə f d ə r q u l u b ə y. Sizin deməyinizə görə o yekəlikdə şəhərdə bunları bişirən tapılmayacaqdır?

Gülüşürlər.

M e h d i b ə y. Gəlsənə aşpaz Qolubyakin sənə bir piti də qoysun. Ya şam kababı da bişirsin?!

S ə f d ə r q u l u b ə y. Zakaz verərəm, bişirər. Vot tebe na.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

M e h d i  b ə y. O da sənə dəyər: mən qovurmaçı Cəbi deyiləm, vot tebe na.

Gülüşürlər.

V ə l i  b ə y. Rusiyada bir bişmiş tapmazsan ki, ona donuz əti qatmasınlar. Canım, allahın kələm suyu borşu istəyirsən, içindən sosiska çıxır.

S ə f d ə r q u l u  b ə y. Siz öləsiniz, şoqəribin adını çəkəndə ürəyim bulanır. Nə yaxşı məni secməyiblər. Vsyo k çortu. Vot tebe na. Nəbi, aşpaza de plovu çəksin.

H a m ı. Sağ olsun bizim deputat bəy!

M e h d i  b ə y. Qospada, cümə axşamı bu günkü kefin mabədi bizdədir. Rəhim, Kərim, siz də gələrsiniz.

R ə h i m. Mehdi bəy, mən də sizə söz verirəm ki, ona kimi bir rəng (*hava*) icad ediın, orada çalaram, xoşunuza gəlsə, adını "Rəngi-dibdat bəy" qoyarıq.

R ü s t ə m  b ə y. Ay sağ ol!

K ə r i m. Mən də bir təsnif düzəldərəm, oxuyaram. Bəyənsəniz, adını "Təsnifi-dibdat bəy" qoyarıq.

M e h d i  b ə y. Dostum, eşidirsənmi, daha sənin üçün ölüm yoxdur. Zeynal bəy müvəqqəti deputat bəydir, sən isə dünya durunca... Sağ olsun Səfdərqulu bəy!

H a m ı. Sağ olsun Səfdərqulu bəy! Ura...

N ə b i. Ağa, süfrə hazırdır.

S ə f d ə r q u l u  b ə y. Qospada, süfrəyə buyurunuz.

Rəhim çalır, Kərim qaval vurur, hamı yemək otağına keçir.

**Pərdə**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# TÜRK BİRLİYİ

*Bir pərdədə, məişətimizdən bir şəkil*

İŞTİRAK EDƏNLƏR

| | |
|---|---|
| H e y d ə r q u l u a ğ a | |
| C ə f ə r b ə y | |
| N ə c ə f b ə y | } Bəylər |
| S ə f ə r b ə y | |
| F i r i d u n b ə y - təbib. | |
| S ə m ə d b ə y - mühəndis. | } Ziyalılar |
| R ə s u l b ə y - vəkil. | |
| M i r z ə K ə r i m - müəllim. | |
| Ə l i b ə y - student. | |
| H a c ı C ə b r a y ı l | |
| K ə r b ə l a y ı H ü s e y n | }Tacirlər |
| M ə ş ə d i X u d a v e r d i | |

Əhvalat Qafqaz şəhərlərindən birində vaqe olur. Cəfər bəy axşam saat 7-də qonaqlarını gözləyərək Heydərqulu ağa ilə söhbət edir.

C ə f ə r b ə y. Heydərqulu ağa, mən bu işi boynuma çəkmişəm və ümidvaram ki, yürüdəm, ancaq rica edirəm ki, özünü bir az saxlayasan. Xasiyyətin tünddür, heç zad üstə barıt kimi partlayırsan.

H e y d ə r q u l u a ğ a. Cəfər bəy, sən öləsən, hərgah məni padşahlıq dumasına vəkil seçməsələr - cəmi mülkümü, evimi, eşiyimi satıb Firəngistan deyə birbaş gedəcəyəm. Mən belə xəcaləti, töhməti yeyə bilmərəm.

C ə f ə r b ə y. İndi mən bu məclisdə məsələnin başını açacağam və səni də dövlət dumasına vəkil seçməyi işarə edəcəyəm.

H e y d ə r q u l u a ğ a. Nə üçün işarə edirsən? Açıq-aşkar de ki, Heydərqulu ağadan layiqli heç kəs yoxdur. Gərək onu seçək.

C ə f ə r b ə y. Odur ki, tədbirin yoxdur. Əvvəl camaatın xahişini duymaq lazımdır. Sonra da ona görə iş görmək.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu halda Nəcəf bəy, Səfər bəy, Firidun bəy, Rəsul bəy, Hacı Cəbrayıl, Mirzə Kərim və sair qonaqlar daxil olurlar.

C ə f ə r b ə y. Ya allah. Xoş gəlmisiniz. Buyurunuz, buyurunuz. Nəcəf bəy, Səfər bəy, siz buraya buyurunuz. Hacı əmi, Mirzə Kərim buyurunuz buraya, divanın üstə əyləşiniz.

Qonaqlar otururlar.

H e y d ə r q u l u a ğ a (*Əli bəyə*). Qardaşoğlu, kefin necədir? Görünür student paltarını çox sevirsiniz.

Ə l i b ə y. Əmi, işarənizi başa düşürəm, ancaq təqsir məndə deyil. Özünüzə məlumdur ki, bu son illərdə Rusiyada elm təhsil etmək çox çətindir.

H e y d ə r q u l u a ğ a. Məncə təqsir özünüzdədir, mənim təsəvvürümə görə studentlər dərslərini buraxıb padşahlıq işlərinə qarışmaqları eyn səfahətdir. Bunlar tətil edib dərs oxumamaqdan dövlətə nə zərər toxunacaqdır. Mənə görə hökumət dəxi də şad olur ki, universitetlər bağlanıb padşahlığın xərci azalar.

S ə m ə d b ə y. Xeyr, Heydərqulu ağa, səhv edirsiniz. Darülfünunların bağlanması dövləti neçə il geriyə salıb böyük zərərlərə bais olur. Bu saat mühəndislərə böyük ehtiyac vardır.

F i r i d u n b ə y. Həkimlərə də həmçinin.

M i r z ə K ə r i m. Doğrudanda, studentlər hürriyyət uğrunda çalışıb böyük qurbanlar verirlər. Bunu inkar etmək olmaz.

R ə s u l b ə y. Biz də student vaxtında az çalışmamışıq, padşahlıq dumasının açılmasında bizim də payımız var.

N ə c ə f b ə y. Onlar hamısı cavanlıq əlamətidir. Mənim kibi sinnə dolanda unudulub gedir.

H a c ı C ə b r a y ı l. Bunu Nəcəf bəy doğru deyir. Mənim oğlumda göydən gedir. Deyirəm oğul, sənin Germaniyada aldığın təhsil mənə qızıl xəzinəyə durubdur. İndi çalış pul qazan. Bu gün, sabah evlənib arvad-uşaq sahibi olacaqsan. Pulsuz adamın nə dili var, nə hörməti. Hamıya gərək bəli, bəli, deyəsən.

C ə f ə r b ə y. Camaat, şair deyir ki:

Məsudimiz nə qəhvə və nə qəhvəxanədir,
Didari-yarı görməyə bunlar bəhanədir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İndi əzizlərim, sizləri buraya yığmaqdan mənim də ümdə məqsədim nəinki qırqavulplovdur, bəlkə, bir böyük mətləb üçün bunlar bir bəhanədir. O mühüm mətləb budur: dövlət tərəfindən elan olunur ki, padşahlıq duması aprel ayının 27-də açılır. Ona görə hər yerdə üzvlər seçməyə hazırlıq gedir. İndi bizə lazımdır ki, toplaşıb bu barədə məsləhət, məşvərət edək. Fikirlərimizi birləşdirib bir layiqli şəxs üzərində dayanaq. Elə olmasın ki, aramıza nifaq düşüb hərə bir tərəfə çəkə. Belə olursa, bişək və şübhə bir nalayiqin biri seçilib bizi cəmi Rusiyada rusvay edəcəkdir...

H e y d ə r q u l u a ğ a. Cəfər bəy,bağışla sözünü kəsirəm. Deyirlər ki, Motal Qurbanəlinin oğlu Ayı Kərim bərk deputatlıq şevqinə düşübdür. Özü də harada otururlursa deyir ki, şəhər dumasında məndən yaxşı danışan yoxdur. Siz öləsiniz istəyir onu zarafat üçün seçəsən və dövlət dumasının vəkilləri knyazlara, qraflara belə rekamandasiya (*tövsiyə*) edəsən; rica edirəm tanış olasınız, Qafqaz vəkili Motal Qurbanəlinin oğlu Qalayçı Məhəmməd Cəfərin nəvəsi Ayı Kərim. Ha... ha... ha...

C ə f ə r b ə y. Heydərqulu ağa doğru buyurur. Dövlət dumasının üzvlüyü nə dərəcədə böyük mənsəb olduğunu cümləniz bilirsiniz. Bu duma şəhər duması deyil ki, hər əttar, baqqal başmaqlarını taqqıldada-taqqıldada gəlib iclasda filan küçədə neçə fanar asılsın, filan adama çayxana açmağa izin verilsin, ya yox deyə boşboğazlıq edib vaxt keçirsinlər. Bu duma padşahlıq dumasıdır. Oraya seçilən vəkillər də gərək padşaha layiq şəxslər olsunlar. Belə ki, hər bir şeydən artıq gərək əsli, nəcabəti olsun, taki adı, familiyası çəkiləndə deməsinlər ki, bu cürə adam eşitməmişik. Sonra qədd-qamətli olsun ki, gözə görünüb secilsin. Uca, gur səsi olsun ki, danışdığı sözünə qulaq asıb fikir versinlər: mənim təsəvvürümə görə seçilən vəkil gərək bu süfətlərə sahib olsun. Səhv edirəmsə, buyurunuz, səhvimi deyiniz.

F i r i d u n b ə y. Bəli, səhv edirsiniz. Özü də artıq dərəcədə. Siz vəkilliyə ləyaqəti bu üç sifətdə görürsünüz. Nəcabət, qəd-qamət, uca səs. Məyər padşahlıq duması əcayib adamlar yığıncağıdır ki, elə adam göndərək? Xeyr, Cəfər bəy, bizə qəd-qamətli adam lazım deyil. Bizə elmli, tədbirli, zakondan, siyasətdən, vətənimizin keçmişindən və hali-hazırdan baxəbər şəxs lazımdır.

M i r z ə K ə r i m. Məncə bu sifətlərdə kifayət etməz. Gərək elə şəxs olsun ki, vətənin, millətin uğrunda pulundan, malından, hətta canından



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

da keçə bilsin. Burada bəylik, xanlıq, rəiyyətlik bilmərrə gərək mülahizə olunmasın.

S ə m ə d  b ə y. Parlamanlar məhkəməyə bənzər. Orada Rəsul bəy kimi vəkillər artıq mənfəət gətirə bilərlər. Firidun bəy düz buyurur. Gərək zakon biləsən, bu da vəkil işidir. Natiqlik də onların sənətidir.

K ə r b ə l a y ı  H ü s e y n. Mən ticarət üçün bir neçə dəfə zağranitsaya getmişəm. Orada çoxdan parlamanlar işləyir. Zağranitsada oxumuş cavanlarımız o üsula yaxşı bələddirlər. Məsələn, bacının oğlu Əli Heydər parlaman zakonlarını yaxşı bilir. Özü də üç xarici dildə danışır.

M ə ş ə d i  X u d a v e r d i. Kərbəlayı düz deyir. Çox layiqli oğlandır. Fikir eləməyiniz ki, bacım oğlu olduğuna görə tərif edirəm. Xeyr, doğrudan da başlı oğlandır.

Ə l i b ə y. Bu işdə qohumluq, dostluq, aşnalıq gözləmək lazım deyil. Məhz vətənimizin xeyrini mülahizə etmək lazımdır. Bizim ölkədə nəcabətdə, mal dövlətdə hamıdan artıq Heydərqulu ağadır. Mənim özüm də üç ildir ki, onun pulu ilə təhsil edirəm, lakin bununla belə o da seçkiye qutu qoya Firidun bəy də, mən insafımdan keçib Firidunu qoyub Heydərqulu ağaya şar salmaram.

H e y d ə r q u l u  a ğ a (*tez ayağa qalxıb*). Necə? Necə? Nə deyirsən? A gədə Firidun, bir gör onun ağzından çaxır iyi gəlirmi? Yəqin o buraya içib gəlmiş.

F i r i d u n  b ə y. Mən sizin nökəriniz deyiləm. Təvəqqe edirəm ədəb ilə danışasınız.

H e y d ə r q u l u  a ğ a. Kəs səsini gəda oğlu, gəda! Atan ölənə kimi mənim qapımda nökər idi. Baban da atamın nökəri. Buyur görək, Ağa Firidun bəy mən səninlə nə tövr rəftar edirəm. Sən gərək minlərcə şükür edəsən ki, mənimlə bir məclisdə oturub söhbət edirsən.

F i r i d u n  b ə y. Siz hələ qəflət yuxusundasınız, ayılmamısınız. O zaman ki, siz ağalar dilsiz, ağılsız rəiyyətin malının, canının, namusunun sahibi olub nə istəmişsinizsə etmişsiniz - getdi. İndi hürriyyət zamanıdır. İndi insan mülk-maaş ilə yox, elm, ədəblə şərəf qazanır.

H e y d ə r q u l u  a ğ a.  Ha-ha-ha. Camaat, eşidirsiniz nə deyir? Daha biz Motal Qurbanəlinin oğluna nə üçün rişxənd edirik. A gədə, mən qəflət yuxusundayam ya sən. Ayıl, gör nə fikrə düşmüsən. Məyər padşahlıq duması sənin kimi köpəklər yeridir?

S ə m ə d  b ə y, R ə s u l  b ə y, M i r z ə  K ə r i m, Ə l i b ə y (*hamısı birdən*). Eyib olsun sizə, Heydərqulu ağa.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

H e y d ə r q u l u a ğ a. Xeyr, eyib sizə olsun ki, bu kibi eşşəyi meydana çıxarıb vəkil seçməyi təklif edirsiniz.

F i r i d u n b ə y. Bimərifət, nadan.

H e y d ə r q u l u a ğ a. A gəda, mən bimərifətəm? Mən nadanam? Ayı oğlu, ayı!

Kürsünü əlinə götürüb Firidun bəyin üstə hücum edir. Qonaqlar ayağa qalxırlar. Cəfər bəy Heydərqulu ağanın əlindən tutur.

C ə f ə r b ə y. Heydərqulu ağa, sənə qurban olum, sakit ol. Heydərqulu ağa. Çəkil kənara,görüm bu pota oğlu nə cürət edib o sözləri mənə deyir?!.

Kürsü ilə vurub Firidun bəyin başını yarır. Küy, qalmaqal qalxır.

**Pərdə**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# LAÇIN YUVASI

*Drama 3 pərdədə*

İŞTİRAK EDƏNLƏR

Ə m i r a s l a n a ğ a - 50 yaşında, böyük mülkədar.
C a h a n g i r a ğ a - onun oğlu, 22 yaşında, bolşevik.
P ə r i c a h a n x a n ı m - onun qardaşı qızı, Cahangirin nişanlısı, 20 yaşında.
G ö v h ə r x a n ı m - Əmiraslan ağanın arvadı.
Ə d i l b ə y - Cahangir ağanın dayısı, bolşeviklərin tərəfdarı.
H a d i l ə l ə - Cahangirin ləlәsi.
S ə l i m b ə y
H e y d ə r b ə y }Bəylər.
M u x t a r b ə y
M e h r ə l i b ə y
H a c ı İ m a n q u l u - tacir, 60 yaşında.
M o l l a S a d ı q - axund.
Cəfərqulu - qolçomaq,
S ə n ə m
S ə f ə r }Əmiraslan ağanın xidmətçiləri.
Ə h m ə d
Bir neçə qoşun əhli, bir neçə kənd əhli.

## B İ R İ N C İ P Ə R D Ə

Hadisə ilk baharda, böyük mülkədar Əmiraslan ağanın dağ döşündəki kəndində vaqe olur. Kəndin üst tərəfində hasarlanmış əski bir köşk (*qala*), onun yaxınlığında Əmiraslan ağanın evi. Səhnə Əmiraslan ağanın otağını göstərir. Otağın divarları və səqfi Firdovsinin "Şahnamə" əsərinin qəhrəmanlarının rəsmi ilə müsevver, pəncərələrin şüşələri rəngbərəngdir. Açıq pəncərələrdən dağlar, çay və qala görünür.

G ö v h ə r x a n ı m (*tək*). Xudaya, mən nə günahın sahibiyəm ki, məni belə böyük bir bəlaya giriftar etdin? Tam üç ildir ki, gözlərimin nuru, ciyərparəm, yurdumun çırağı, tək bir övladımın həsrətini çəkirəm. Cahangirim, gözəl oğlum, cavan oğlum, başına nə bəla gəldi ki, bu uzun müddətdə gəlib əziz vətəninə çıxa bilmədin? Söyləyirlər ki, Rusiyada inqilabdır. Orada su yerinə qan axır. İnsanlar acından



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

tələf olurlar. Ya rəbbi! Bu tökülən göz yaşıma rəhmin gəlsin. Ey uca tanrı! Ey böyük allah! Ey cəmi yaranmışın pənahgahı! Oğlumu səndən istəyirəm. Ciyərparəmi tezliklə mənə yetir (*Hadi lələ daxil olur. Gövhər xanım iztirab ilə.*) Hadi lələ, nə xəbərlə gəlmisən? Oğlumdan bir şey bildinmi?

H a d i l ə l ə (*məyus bir hal ilə*). Xeyr, xanım, şəhərdə bir adam qalmadı ki, ondan Cahangir ağanı soruşmamış olam. Lakin bir şey hasil olmadı. Rusiya yolu hər tərəfdən bağlı, bir gediş-gəliş yox...

G ö v h ə r x a n ı m (*ağlar səslə*). Demək,heç ümid yox, çarə yox...

H a d i l ə l ə. Xanım, bircə çarə var...

G ö v h ə r x a n ı m. O nə çarədir? Tez ol, de, ürəyim tab etmir!

H a d i l ə l ə. Xanım, sənə məlumdur ki, Cahangir ağanı bu əllərim üstə böyütmüşəm. Gecələr nağıl deyib yatırtmışam. Gündüzlər gəzdirib muğayat olmuşam. Mən bilirdim ki, onun ayrılığına dözə bilməyəcəyəm. Onun üçün də Rusiyaya gedən zaman Əmiraslan ağanın ayaqlarına yıxılıb yalvardım ki, məni Cahangir ağadan ayırma, onunla Rusiyaya getməyə, mənə də izin ver, razı olmadı. Bu əhvalat yadındadırmı?

G ö v h ə r x a n ı m. Bəli, yadımdadır. Sənin də yadındadırmı, mən onun ayaqlarına düşüb yalvardım ki, məni bədbəxt etmə, bu səkkiz il oxuduğu kifayət edər. Bir belə mal-dövlət sahibidir. Daha nəyə ehtiyacı var ki, cavan ömrünü qürbət ölkədə çürüdə. Mənim də sözümə qulaq asmadı. Dedi: "Gərək mənim oğlum universitet qurtara!" Özün de bilirsən ki, istər dünya alt-üst olsun, Əmiraslan ağa dediyindən dönməz.

H a d i l ə l ə. Ağanın o xasiyyətini mən də bilirəm. İndi fikrim budur ki, Bakıya gedəm, oradan bir xəbər biləm. Bu da mümkün olmasa, Rusiyaya gedərəm, ağamı axtarıb taparam.

G ö v h ə r x a n ı m (*təəccüblə*). Sənmi?

H a d i l ə l ə. Bəli, mən. Gecələr yata bilmirəm, xəyalıma cürbəcür fikirlər gəlir. Deyirəm, bəlkə, o təhlükədədir, məni imdada çağırır, mənsə burada istirahət edirəm. Yox, xanım, daha səbir edə bilmərəm, getməliyəm.

G ö v h ə r x a n ı m. Hadi lələ, Əmiraslan ağa səni buraxarmı?

H a d i l ə l ə. Bilirəm, buraxmaz, lakin mən ondan izinsiz gedəcəyəm və bir də ağanın mənə nə ehtiyacı var? Qulluğunda duran xidmətçilər çoxdur. Mənim getməyimdən xəbəri olmayacaqdır. Sizin də bu sirri kimsəyə deməyəcəyinizə əminəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

G ö v h ə r x a n ı m. Ondan arxayın ol, ancaq məni təşvişə salan bir tərəfdən Rusiya yollarının bağlanması, orada və Qafqazda törənən vuruşma, çarpışma, o biri tərəfdən də sənin qocalığındır. A kişi, bu sinnində haraya gedib çıxacaqsan?

H a d i l ə l ə. Bunların hamısı düzdür, lakin allahı da unutmamalı, hər bir şey onun əlindədir. Ya məramıma nail olacağam, ya da bu yolda fot olacağam.

G ö v h ə r xanım. Hadi lələ, sənin bu fədakarlığın məni bir tərəfdən şad edir, o biri tərəfdən qəmgin. Şadam ki, belə qorxulu üsyan zamanında sənin kimi fədakar, əməkdar xidmətçilərimiz var. Qəmginəm ki, bu sinnində istirahət əvəzinə, belə qorxulu və ağır səfərə gedirsən. Nə deyim? Get, allah sənə yar olsun. Hərgah oğlumu tapıb mənə yetirsən, səni lazımınca razı edib ölənə kimi yadımdan çıxarmaram. Yola götürməyə lazımından artıq pul və qızıl verəcəyəm ki, bəlkə onların gücü ilə bir iş görə biləsən.

Bu halda Əmiraslan ağa daxil olur.

Ə m i r a s l a n a ğ a. Yenə baş-başa verib nə plan çəkirsiniz?

H a d i l ə l ə. Ağa, Gövhər xanım ilə mənim, Cahangir ağadan başqa nə söhbətimiz olacaq?

Ə m i r a s l a n a ğ a. Gerçəkdən, Cahangirdən bir xəbər yoxdur. Özüm də mat qalmışam.

G ö v h ə r x a n ı m. Əlbəttə, mat qalarsan. Sənin tərsliyindən indi mən bədbəxt ana, çarəsiz qalmışam.

Ə m i r a s l a n a ğ a. Gövhər, sus, yenə ovqatımı təlx etmə!

G ö v h ə r x a n ı m. Xeyr,bağışla, bu uzunmüddət susduğum kifayət edər! Daha bəsdir! Səbir kasam dolub daşmış. Məni arvad yerində, xanım yerində qoymursansa, övladının anası yerində qoy. Onu da istəmirsənsə, bir yad qadın, bir məzlum insan yerində qoy. Qapındakı nökər qorxudan sənə söz qaytarmırsa da, heç olmasa üzünə baxa bilir, lakin mən ona da cürət edə bilmirəm. (*Ağlayır.*)

Ə m i r a s l a n a ğ a. Gövhər, məndən nə istəyirsən?!

G ö v h ə r x a n ı m. Səndən övladımı istəyirəm!

Ə m i r a s l a n a ğ a. Mən nə edim? Rusiya yolu bağlı, poçt, teleqraf da işləmir.

G ö v h ə r x a n ı m. Bəs bunu nə üçün əzəldən fikir etmədin? Niyə mənim məsləhətimə qulaq asmadın? Səkkiz il oxuduğu bəs idi. Pəricahan haçana kimi onu gözləsin?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ə m i r a s l a n a ğ a. Bəs sənin istədiyin o idi ki, baqqal Səfdərqulunun nəvəsi Həsənəli məktəb qurtarsın, amma Hidayət ağanın nəvəsi Cahangir ağa yarım təhsildə qalsın? O ki qaldı Pəricahana, o özü gimnaziyanı qurtarmış bir qızdır. Əmizadəsinin ali məktəbə getməsinə çox şad idi.

G ö v h ə r x a n ı m. Yaxşı, ona razı olmadın, bəs Hadi lələni nə üçün Cahangirdən ayırdın? İndi belə zamanda sən də, mən də arxayın olardıq.

Ə m i r a s l a n a ğ a. Elə bu ağıllamı mənim işlərimə qarışmaq istəyirsən? 19 yaşında cavana lələmi lazım idi? Bundan əlavə Hadi lələ bu sinnində Rusiyada necə yaşaya bilərdi? Getmiş olsaydı, indi o da qırılanların biri idi.

G ö v h ə r x a n ı m (*iztirabla*). Demək, Cahangirin də diriliyinə ümid yoxdur?

Ə m i r a s l a n a ğ a. Onu demədim.O onun fərasətinə baxır: hərgah başında bir şey varsa, başqaları kimi xarici məmləkətə qaçıb canını qurtarar və bir də mənim oğlum rusların knyaz, qraf, baron və qeyri nücəba övladlarından artıq və əzizmidir? Onlar necə olar, o da onlar kimi.

H a d i l ə l ə. Ağa, Cahangir ağa dinc, rəhmdil və hamı ilə mehriban rəftar edin bir cavandır. Onunla kimin işi ola billr?

Ə m i r a s l a n a ğ a. Belə hərc - mərclikdə onun kimi dilsiz - ağısızlar tələfə gedə bilərlər. Cahangir mənə və mənim nəslimə əsla oxşamayıbdır. Bax, buna və bunun nəslinə oxşayıbdır. (*Barmağı ilə Gövhər xanımı göstərir.*) Mənim əcdadım atan, kəsən, vuran, yıxan, hökmdar bir nəsil olmuş. Əbəs yerə familiyamız "Şirzadə" deyildir. Bax, bizim nəslə layiq mərhum qardaşımın qızı Pəricahandır: at minməkdə, tüfəng atmaqda cümləni heyrətə gətirir.

Bu halda Pəricahan xanım çərkəzi libasda, əlində qırmanc daxil olur və qaçaraq Əmiraslan ağanın boynuna atılır.

P ə r i c a h a n x a n ı m. Əmucə, sənə bir yaxşı xəbər gətirmişəm!

G ö v h ə r x a n ı m. Qızım, Cahangirdənmi?

P ə r i c a h a n x a n ı m. Xeyr, əmucə muştuluğuma nə verəcəksən?

Ə m i r a s l a n a ğ a. Qızım, hər nə istəsən.

P ə r i c a h a n x a n ı m. Xaldar dayça mənim.

Ə m i r a s l a n a ğ a. Sənin, ingilis tüfəngim də üstəlik.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

P ə r i c a h a n x a n ı m. Hadi lələ, sən nə verəcəksən?

H a d i l ə l ə. Xanım, mənim nəyim var ki, nə də verim?

P ə r i c a h a n x a n ı m. Sən də bu gecə mənə Mələkzadə nağılı kimi gözəl bir nağıl söylərsən.

Ə m i r a s l a n a ğ a. İndi söylə görüm nə xəbər gətirmişsən?

P ə r i c a h a n x a n ı m. Əvvəl mənə bir qəziyyə üz verdiyini söyləyim, sonra gətirdiyim xəbəri. Əmucə, qaşqa at altımda qoruqdan gəlirdim. Qarşıma bir kəndli çıxdı. Qaşqa atı çamura salmağa heyfim gəldi. Oğlana dedim: "Yoldan çıx!" Kəndli mənə acıqlı baxıb dedi: "Heyvanı məndən əzizmi tutursan, mən niyə çamura girim?" Bu cavabdan qan başıma sıçradı. Qaşqa atı tərkimləyib kəndliyə bir elə qırmanc çəkdim ki, özünü qurbağa kimi çamura atdı.

Ə m i r a s l a n a ğ a. Afərin, qızım, əcəb etmisən. Gərək qabağına salıb buraya gətirəydin. Cəzasını mən verərdim. Kəndlini tanıdınmı?

P ə r i c a h a n x a n ı m. Bəli, Ədil dayının sabiq rəiyyəti Həsənqulu idi. Daldan qışqırdı ki, "Dayanın, ay ağalar, vaxtınız yaxınlaşmışdır".

Ə m i r a s l a n a ğ a. Elə itaətsizlik ancaq Ədil bəyin rəiyyətlərindən baş verir. İxtiyar verib kəndliləri başına çıxartmışdır.

H a d i l ə l ə. Həsənqulu ilə atası Cənnətəli də bacarmayır. Davakar, sərt dəliqanlının biridir.

P ə r i c a h a n x a n ı m. Sonra Mirzə Salehə rast gəldim. Dedi ki, qubernator dayına teleqraf gəlmiş ki, Şimali Qafqazda dağıstanlılar bolşevikləri elə pozmuşlar ki, o şiş papaqlarını da qoyub qaçmışlar.

Ə m i r a s l a n a ğ a. Nə gözəl xəbər! Nə şadlıq müjdəsi! Sağ olsun qəhrəman dağıstanlılar! İndi baron Vrangel də arxalarını kəsib onlara elə bir üsul tutsun ki, daha bir də Rusiyada bolşevik adı çəkilməsin.

Səfər daxil olur.

S ə f ə r. Ağa, bəylər gəlib sizi görmək istəyirlər.

Ə m i r a s l a n a ğ a. De, gəlsinlər.

Əmiraslan ağadan başqa qeyriləri çıxırlar. Sonra Mehrəli bəy, Səlim bəy, Heydər bəy və Muxtar bəy daxil olurlar.

M e h r ə l i b ə y. Çox təəccüblü işdir!

H e y d ə r b ə y. Ağla sığışan iş deyil.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Ə m i r a s l a n a ğ a. Çox gözəl xəbərdir!

S ə l i m b ə y. Əmiraslan ağa, nə deyirsən? Çox gözəl xəbərdir?!

M e h r ə l i b ə y. Əmiraslan ağa, haçandan bolşevik tərəfdarı olmuşsunuz?

Ə m i r a s l a n a ğ a. Səndə haçandan ağlını itirib məndən belə səfeh sual edirsən?

M e h r ə l i b ə y. Doğru buyurursan, bu xəbəri eşidəndən bəri ağlımı itirmişəm.

Ə m i r a s l a n a ğ a. Doğrudanda, biz bir-birimizi anlamırıq. Oturun görüm, bu xəbər sizi nə üçün belə çaşdırmış? Qəhrəman dağıstanlılar düşmənimiz bolşeviklərə elə bir toy tutmuşlar ki, ta həşrədək yadlarından çıxarmazlar.

B ə y l ə r (*gülüşürlər.*) Ha-ha-ha...

Ə m i r a s l a n a ğ a. Nəyə gülürsünüz?

M e h r ə l i b ə y. Öz halımıza gülürük. Görünür, əhvalatdan müxbir deyilsiniz. Qubernator Nadir bəyə Bakıdan teleqraf vasitəsi ilə xəbər vermişlər ki, müsavat hökuməti bolşeviklərə təslim olmuşdur. İndi orada Şura hökuməti qurulmuşdur.

Ə m i r a s l a n a ğ a. Bu xəbər səhihmidir?

M u x t a r b ə y. Bəli, doğrudur, teleqrafı Nadir bəydən alıb özüm oxumuşam.

Ə m i r a s l a n a ğ a. Teleqraf nə vaxt gəlmiş?

M u x t a r b ə y. Bu gün səhər.

Ə m i r a s l a n a ğ a. Bəs nə üçün Nadir bəy mənə məlum etməmiş?

M u x t a r. Ədil bəy orada idi. Yəqin onunla xəbər göndərəcəkdir. O da gələcəkdi, ancaq mən onu gözləyə bilmədim, tez çıxdım. Odur özü gəlir.

Ə d i l b ə y daxil olur.

Ə d i l b ə y. Yoldaşlar, salaməleyküm.

Ə m i r a s l a n a ğ a. Ah, yeno qulağıma bu söz dəydi!

Ə d i 1 b ə y. Əzizim, nə üçün ovqatım təlx edirsən? Yoldaş, yəni birlikdə yola çıxan adam, məsələn: Muxtar bəy məni gözləməyib qaçdı, yoldaşlıq etmədi. İndi hansınızdan muştuluq almışsa, ona şərikəm.

Ə m i r a s l a n a ğ a. Ədil, zarafatı burax, mənə Nadirdən nə xəbər gətirmişsən?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ə d i l  b ə y. Buyur, öz mübarək dəsti-xəttilə yazılmış məktubu. (*Məktubu verir.*)

Ə m i r a s l a n  a ğ a. (*məktubu oxuyarkən*). Biqeyrətlər! Binamuslar, vətəni satanlar! Görəsən hərəsi nə qədər rüşvət almış. Bəs batmış müsavat əsgərləri harada qalmışlar? (*Hirslə məktubu cırıb atır.*)

Ə d i l  b ə y. Hansı əsgərləri deyirsən? Xan, bəy, tacir övladlarından toplanmış əsgərlərimi?

M e h r ə l i  b ə y. Ədil bəy, biz buraya bir-birimizə tənə, məzəmmət etməyə yığışmamışıq. Sənin də oğlun olsaydı, hamıdan tez İrana, Turan qaçırtmışdın. Biz buraya, Əmiraslan ağanın məsləhətinə toplaşmışıq. Nə tədbiri varsa, buyursun.

Ə m i r a s l a n  a ğ a. Müsavat hökuməti bolşeviklərə təslim olmuşdur, fəqət mən Hidayət ağanın oğlu Əmiraslan elə dinsizlərə təslim olmaram. Buyursunlar, zor ilə tabe etdirsinlər. Bu mənim cavabım! Hansınız mənimlə həmrəydir, buyursun, gözüm üstə yeri var. Hər kəs papaq əvəzinə başına arvad yaylığı örtmək istəyirsə, ona da yol açıqdır. Getsin, bolşeviklərə qul olsun. Bu mənim sizə deyəcək axırıncı sozüm. O babalarım tərəfindən təmir olunmuş "Laçın yuvası" adlı qalanı görürsünüzmü? (*Barmağı ilə açıq pəncərədən görünən köşkü göstərir.*) İdiyədək bir düşmənə təslim olmamış, nə qədər də mən sağam təslim olmayacaqdır.

Ə d i l  b ə y. Babaların onu kimin qüvvəsi ilə saxlamışlar?

Ə m i r a s l a n  a ğ a. Doğrudur. İndi həmin kəndlilər daha siz ağalara qul olmaq istəmirlər. İndi onlar "Cəmi insan birdir" deyə haqlarım tələb edirlər.

M u x t a r  b ə y. Haqlarını tələb etsələr, dərd yarıdır. İndiyə kimi yerləri bizim üçün becərmişlər, qoy indi də özləri üçün becərsinlər, lakin onların fikri hökuməti özlərindən qurub, bizlərə ağalıq etməkdir.

Ə m i r a s l a n  a ğ a. Ha-ha-ha... Həsənqululardan, cənnətəlilərdən, fatmanisalardan hökumət! Dünya dəli olmuşdur? Dayanın, bu saat o hökumət üzvlərini sizə təqdim edəcəyəm. (*Qışqırır.*) Əhməd, Səməd, Səfər. (*Nökərlər cəld daxil olurlar.*) A gədələr, bu saat cəmi xidmətçiləri buraya toplarsınız, deyin ağa çağırır. Gec gələnin dərisi qırmancımın altında çıxacaqdır.

N ö k ə r l ə r. Baş üstə, ağa.

Ə m i r a s l a n  a ğ a. Haydı!

Nökərlər cəld çıxırlar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

S ə l i m b ə y. Bu axır vaxtlarda kəndlilər lap yollarından çıxmışlar. Biz ağalarına əsla itaət etmirlər.

H e y d ə r b ə y. Bizlərin cümləsindən ağıllı Ədil bəy çıxdı. Vaxtında cəmi mülkünü satıb, pullarını ciblərinə doldurdu. İndi asudə yeyib-içib gəzir. Nə mülk və nə də övlad dərdi çəkir. Bir arvadı var, o da özündən qocadır.

Ə d i l b ə y. Mənə kəndlilər tərəfindən heç vaxt xata toxunmaz, çünki mülküm də olan zamanı, indi də onlarla ədalətlə rəftar etmişəm. Dar günlərində onlara kömək etmişəm. Onlarla bərabər hər fəsildə qan-tər içində işləyib torpaq becərmişəm, kəndlilər ilə dostluq edib evimə çağırmışam, evlərinə qonaq getmişəm. Mən onlarla belə rəftar edib mülkədar olmuşam. Siz nə cür rəftar etmişsiniz? Kəndlilər qırmancdan başqa sizdən bir mehriban söz eşitməmişlər...

Ə m i r a s l a n a ğ a. Çünki sənin baban kəndli olmuş. Nəcabətdə sənin haqqın yoxdur.

Ə d i l b ə y. Oraya əl atsaq, çoxlarınızın babalarının xanların qapısında nökər və mehtər olduğu meydana çıxar.

M e h r ə l i b ə y. Ədil bəy, mənim silsiləmdə kimsənin qapısında nökər və ya mehtər olmuş şəxs yoxdur. Mənim ulu babam, Nadir şahın müqərrəb sərkərdələrindən olmuşdur.

M u x t a r b ə y. Mənim əcdadım da elə alçaq vəzifə sahibi olmamışdır. Mənim nəslim şanlı, şərəfli Turanın cahangiri Teymur xanın nəslindəndir. Şübhən var isə tarixə bax.

Ə d i l b ə y (*rişxəndlə*). İnanıram, əzizim, tarixə baxmağa lüzum yoxdur. Ancaq bilmirəm nə üçün Teymur xanda dayandın? Yuxarı qalxmadınız? Odu, Heydər bəy qurcalanır. Bu saat əcdadının ululuğunu aparıb Nuha çıxardacaqdır.

H e y d ə r b ə y. Necə? Yoxsa mənim nəslimin qədimliyinə şübhə edirsən?

Ə d i l b ə y. Xeyr, əstəğfürullah! Sənin familiyan İranın əski Keyan mülkünün nəslindəndir. Səlim bəyinki daha qədimdir. Pişdadyan sülaləsindən Cəmşidin doğmaca nəvəsindən törəyibdir. Əmiraslan ağa isə o, Tütəng xanın övladından törəmədir, Tütəng xan da Nuh Nəbinin doğmaca nəticəsidir.

Bu halda Əhməd, Səməd, Səfər, Sənəm və bir dəstə arvad, uşaq, kişi qorxa-qorxa daxil olurlar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ə m i r a s l a n a ğ a. İrəli gəliniz! Qulaq asınız. Bax bu gündən bəy, xan, ağa, nökər, qulluqçu aradan götürülür. İndi cümləmiz bərabər olduq. Daha siz ilə məndə heç fərq yoxdur. Buyurunuz, əyləşiniz. Biz bəylər ilə söhbət ediniz. Yeyiniz, içiniz, kef ediniz. Niyə dayanmısınız? Oturunuz (*xidmətçilər durduqları yerdə diz üstə çökürlər.*) Orada yox, buyurunuz bu divanlar üstə, bu sandalyalarda əyləşiniz! (*Heç kəs yerindən qalxmır.*) A gədə Əhməd! Qalx, buraya gəl. Sənəm sən də. (*Qorxa-qorxa gəlirlər.*) Sən burada, sən də orada oturunuz.

Ə h m ə d. Ağa, mən ona cürət edə bilmərəm. Məni başına çevir, azad et. Mən ağaların hüzurunda necə əyləşim?

S ə n ə m (*ağlar səslə*). Ağa, məni o qırmancın ilə döy, amma bu işə əmr etmə.

Ə m i r a s l a n a ğ a. (*əlini xidmətçilərə tərəf uzadaraq*). Bu dilsiz-ağızsız heyvanlardanmı hökumət qurulacaqdır? Deyirəm dünya dəli olub, mənə inanmırsınız. (*Ayağını yerə çırpır.*) Durun! Sürünün!

Xidmətçilər qaçırlar. Bir qədər sükutdan sonra.

Ə d i l b ə y. Sizin bu imtahanınız mənə bir şey vermədi. Əmiraslan ağa, siz kəndli, işçi, yoxsul kütləsi ilə heç bir zaman oturub-durmamısınız, ona görə də təcrübəniz yoxdur. Qırmızı Ordu Bakıdan bu tərəfə yürüş edərsə, etməsinə də şübhə yoxdur, çünki Azərbaycan bir Bakıdan ibarət deyil, o vaxtı indi hüzurunuzda qoyun kimi diz üstə çökən xidmətçi əhmədlər, səmədlər, səfərlər və qeyriləri bolşevik tərəfinə keçib sizə düşmən olacaqlar; çünki sizin zülmünüzdən xilas olmaq yolu yalnız odur. Mənfəətləri də oradadır.

Ə m i r a s l a n a ğ a. Heç vaxt! Kəndlilər bolşevik tərəfinə keçməzlər. Sübutum on səkkizinci il.

Ə d i l b ə y. O başqa zaman və başqa hal idi. İndini onunla müqayisə etmə, yeni hökumətə tabe olmaqdan başqa yol yoxdur.

Ə m i r a s l a n a ğ a. Heç vaxt! Onları Kürdən bu tərəfə keçməyə qoymarıq. Gürcüstan və Ermənistanı da unutma.

Ə d i l b ə y. Baxarıq.

Çıxır, bəylər məyus, başlarını aşağı salıb sükuta gedirlər.

Ə m i r a s l a n a ğ a. Nə sükuta getmişsiniz. Yoxsa gopçu Ədilin sözündən xofa düşmüsünüz?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

H e y d ə r  b ə y. Xofa düşməyə haqqımız var, çünki Şura hökumətinin qanununda torpaq kəndlinindir.

Ə m i r a s l a n  a ğ a. O niyə? Yer kəndlinin dədəsindən qalıb, ya babasından? Bu torpaqların üstündə babalarımız su yerinə qan axıtmışlar. Onun bir addımını kimsəyə vermərəm.

M u x t a r  b ə y. Şura hökumətinin qanunda nəinki torpaq, heç xüsusi mal-mülk yoxdur.

Ə m i r a s l a n  a ğ a. Deməli, bu ev də mənim deyil?

M u x t a r  b ə y. Bəli.

Ə m i r a s l a n  a ğ a. Daha kifayətdir. Bəs beləmi hökumətə tabe olmaq istəyirsiniz. Mülkümüzü, ev-eşiyimizi alıb özümüzü də Rusiya mülkədarları kimi güllə qabağına qoyub tələf etdikdə bizə nə yol qalır? Tabe olmaqmı?

M e h r ə l i  b ə y. Xeyr, mən bu ana kimi şərəflə yaşamışam. İndi də lazım gələrsə, qeyrətlə ölərəm.

Ə m i r a s l a n  a ğ a. Qəhrəman bəyin nəvəsindən başqa cavab gözləmək olmazdı. Siz necə?

M u x t a r  b ə y, S ə l i m  b ə y, H e y d ə r  b ə y. Bizdə bu fikirdəyik.

Ə m i r a s l a n  a ğ a. Sağ olunuz! Ümidvaramki, sizlərin köməkliyi ilə babalarımızın yurdunu düşməndən müdafiə edə billəm. Qırmızı Ordudan əsla xof etməyin. O, nizami qoşun deyil, əlsiz-ayaqsız, aciz, kasıb-kusublardan toplanmış dəstədir. Bizim igid dəliqanlıların müqabilində əsla durmazlar, fəqət səy və qeyrət lazımdır. Siz bu gündən işə şüru ediniz. Dəstələr toplayınız, ləvazimat cəm ediniz. Kəndliləri hər vasitə ilə olmuş-olursa öz tərəfinizə çəkiniz. Onları bolşeviklərin vəhşiliyi ilə qorxudunuz. Deyiniz ki, bolşeviklər dini, məzhəbi, şəriəti aradan götürürlər. Nigahı ortadan qaldırıb, arvadlar hamıya məxsus olur. Ruhaniləri, ticarət əhlini köməyə çağırınız.

Bu halda Hacı İmamqulu və Molla Sadıq daxil olurlar.

H a c ı  İ m a m q u l u,  M o l l a  S a d ı q. Salaməleyküm.

Ə m i r a s l a n  a ğ a. Əleyküməssalam. Buyurunuz əyləşiniz. Yaxşı vaxtda gəlmişsiniz.

H a c ı İ m a m q u l u. Əmiraslan ağa, Bakıdan gələn xəbər səhihdirmi?

Ə m i r a s l a n  a ğ a. Hansı xəbər, hacı?

H a c ı İ m a m q u l u. Bolşeviklərin Bakını almaq xəbəri.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ə m i r a s l a n a ğ a. Bəli, doğrudur.

M o l l a S a d ı q. Hacı gördün ki, mən yalan deyən adam deyiləm?

H a c ı İ m a m q u l u. Bəs onda fikriniz nədir?

M u x t a r b ə y. Nə olacaq? İrana qaçmaq.

M o l l a S a d ı q. Hacı eşitdinmi? Gördün ki, mənim məsləhətim bizi düşməndən xilas edər. Bəylər də mən deyənə gəlmişlər, şəriət də bunu əmr edir, hifz-bədəni vacib buyurmuş, bəla gəlməmiş, fərar et demiş.

M e h r ə l i b ə y. Molla Sadıq, sizin buyurduğunuza görə şəriətimiz: "Düşmən vətəniniz üstə gəldikdə qoy qaç, canını qurtar" demişdir?! Bəs onda peyğəmbərimizin buyurduğu hübbil-vətən[1] harada qaldı.

Mo l l a S a d ı q. Orası səhih, lakin bolşeviklər bizim üçün bir bəlayi-əzimdir ki, xudavəndaləm dutduğumuz əməlin cəzası üçün göndəribdir.

S ə l i m b ə y. Bəs o cəza İran əhli üçün göndərilməmişdir? Yoxsa oradakıların hamısı əməli-saleh insanlardır? Əgər cəza varsa, bizi İranda da tutacaqdır, Turanda da.

H e y d ə r b ə y. Molla Sadığın fikri budur ki, nə məsləhət olacaq isə olsun, fəqət içində Arazı keçmək olsun. Hacı, sizin fikrinizi də bilmək istəyirik.

H a c ı İ m a m q u l u. Mənə qalsa, hökumətə itaət etmək. Biz hökm quluyuq, başda kim duracaqsa dursun.

Ə m i r a s l a n a ğ a. Hec dediyini anlayırsan, ağlını itirmiş kişi? Məgər bilməyirsən ki, bolşeviklərin ən böyük düşmənləri biz xanlar, bəylər, siz sərvətdarlar və Molla Sadıq kimi ruhanilərdir? Onlar bu üç sinfi yer üzündən götürmək fikrindədirlər. Yoxsa fikrin odur ki, bolşevik zamanında da malı beşə alıb yüz beşə satacaqsan? Onlar alış-verişi bilmərrə aradan götürürlər. İndi anladınmı? Xəsis, malını yeməyən kişi?

M u x t a r b ə y. Hacı, bundan əlavə pul da aradan qaldırılır.

H a c ı İ m a m q u l u. Elə iş olarmı? Pulsuz da dünya yaşarmı?

M u x t a r b ə y. Hacı, onu get bolşeviklərdən soruş.

Ə m i r a s l a n a ğ a. Daha bitdi. Hacı İmamqulu və Molla Sadıq, hər birinizin fikrini bildik. İndi bizim də fikrimizi bilin. Biz bəylər qət

---

[1]Vətən sevgisi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

etmişik ki, bolşevik hökumətinə tabe olmayaq. Bizim üstümüzə gəlsələr, müharibə edib babalarımızın yurdunu müdafiə edəcəyik. Bu bizim qətnaməmiz! Buna siz də tabe olmalısınız. Molla Sadıq, siz Mehrəli bəyin itaətində olacaqsınız, hər nə əmr etsə, fori bitirəcəksiniz. Hacı İmamqulu, siz də Muxtar bəyin əmrinə tabesiniz. Millətdən topladığınız paranı millət yolunda məsrəf edəcəksiniz.

H a c ı İ m a m q u l u. Başınıza dönüm, Əmiraslan ağa, mənim param harada idi ki, məsrəf edim?

Ə m i r a s l a n a ğ a. Onu Muxtar bəy bilər. O, onun vəzifəsidir.

M u x t a r b ə y. O, bizim xüsusi işimizdir. Əmrinizin dalını buyurunuz.

Ə m i r a s l a n a ğ a. Molla Sadıq, siz də o fəsahət, bəlağət qapısı olan ağzını açıb camaatı bizim itaətimizə çağıracaqsınız. İndi cümləniz mürəxxəssiniz. Gediniz, iş dalınca olunuz. (*Ayağa qalxırlar*.) O da məxfi qalmasın ki, hər kim mənim əmrimdən baş qaçırarsa, güllə qabağına qoyulacaqdır.

M u x t a r b ə y. Hacı İmamqulu, eşitdinmi?

M e h r ə l i b ə y. Molla Sadıq, anladınmı?

B ə y l ə r. Əmiraslan ağa, xudahafiz.

Ə m i r a s l a n a ğ a. Xudahafiz, qeyrətli bəylərim.

Çıxırlar.

**Pərdə**

## İKİNCİ PƏRDƏ

Birinci pərdənin səhnəsi.

P ə r i c a h a n x a n ı m (*yalqız*). Ah! Nə dəhşətli xəbər! Nə fənabir hal! Qırmızı Ordu tərəfindən kəndlər tutulmuş. Kəndlilər də bolşeviklərə qarışıb bəylər üzərinə üsyan edirlər. Bizim rəiyyətə də etibar yoxdur. Bu axır vaxtlar xidmətçilərimizin rəftarı bizlə büsbütün dəyişilib. Xanədanımızda ən müti, ən fədakar sayılan Hadi lələ də yox olmuşdur. Yəqin o da bolşeviklər tərəfə keçibdir. Daha bundan sonra kimə ümid bağlamalı? Kimdən nicat gözləməli? Ah, harada qalmışsan ey sevgili əmizadəm! Gəl, gəl, meydanda tək qalmış zavallı əmucənin



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

imdadına çat! Uğrunda göz yaşı tökməkdən kor olan xəstə əmmənin fəryadına yetiş!

Hadi lələ daxil olur.

H a d i l ə l ə. Uğurlar olsun, Pəricahan xanım.

P ə r i c a h a n x a n ı m Ah! Hadi lələ! A kişi, haraya getmişdin? Bir aydan artıqdır ki, yox olmuşsan.

H a d i l ə l ə. Bakıya getmişdim.

P ə r i c a h a n x a n ı m. Nə işə?

H a d i l ə l ə . Cahangir ağadan xəbər bilməyə. De görüm Gövhər xanımın xəstəliyi nədir?

P ə r i c a h a n x a n ı m. Nə olacaqdır?! Cahangirin qəm-qüssəsini çəkməkdən biçarə əmməm şam kimi əriyir.

H a d i l ə l ə. Gətirdiyim xəbərdən dirilər.

P ə r i c a h a n x a n ı m. Cahangirdən xəbərmi gətirmisən?

H a d i l ə l ə. Bəli.

P ə r i c a h a n x a n ı m. Ah! Ürəyim necə atlanır, Hadi lələ, tez ol, söylə. Mən sənin barəndə nə fikirdəydim! Əfv et.

H a d i l ə l ə. Yəqin fikir etmisən ki, mən bolşevik tərəfinə keçmişəm, beləmi?

P ə r i c a h a n x a n ı m. Bəli, mən nə edim. Sən yox olmuşdun. Əlbəttə, şübhəyə düşmək olardı.

H a d i l ə l ə. Xanım, fikriniz səhv deyil.

P ə r i c a h a n x a n ı m. A kişi, nə deyirsən? Doğrudanmı onlar tərəfə keçmisən?

H a d i l ə l ə. Bəli.

P ə r i c a h a n x a n ı m. Yox, yox, inanmıram. Sən məni imtahan edirsən. Sən elə qaniçici, dünyanı oda tutub viran edənlər tərəfinə keçməzsən. Sən istəməzsən ki, belə gözəl yurdumuz tarmar olub qızıl qana boyana.

H a d i l ə l ə. Bu son sözlərinə mən də şərikəm. Lakin bolşeviklər qaniçici deyillər. Bunlar düşmənlərin iftirasıdır. Bolşeviklər məzlumlar, yoxsullar, füqareyi-kasibə tərəfdarıdırlar. Onların fikri işçi-kəndli sinfini azad etməkdir. Bu yolda öz qanlarını tökürlər. Məgər bu pis bir hərəkətdir? Pəricahan xanım, istəyirsən ki, doğrudan da, əcdadının gözəl mülkü və belə binası sən deyən hala düşməsin, sənə həvalə olunan bir təklifi qəbul et. Mən onun üçün buraya göndərilmişəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

P ə r i c a h a n x a n ı m. O nə təklifdir? Səni kim göndərmişdir?

H a d i l ə l ə. Sənə məlumdur ki, Azərbaycanda Şura hökuməti qurulduqdan sonra bir neçə mülkədar, bəylər itaətdən boyun qaçırıb tabe olmaq istəmirlər. Ona görə də Qızıl Ordu hissələri bu tərəfə gəlib çıxmışdır. Hər yerdə kəndlilər Qırmızı Ordu tərəfinə keçirlər. Təklif budur ki, Əmiraslan ağa qovğasız təslim olsun. Səndən başqa da onu bu yola gətirən şəxs tapılmaz. Bizə məlumdur ki, bu saat Əmiraslan ağa Nadir bəygildə bəylərlə birlikdə məşvərət edir.

P ə r i c a h a n x a n ı m. Mənə bu təklifi kim edir?

H a d i l ə l ə. Cahangir ağa.

P ə r i c a h a n x a n ı m. Kim? Cahangir, mənim sevgilim, nişanlım əmizadəm? Yox, yox elə iş ola bilməz, inanmıram.

H a d i l ə l ə. Buyur, öz dəst-xətti ilə sizə yazdığı məktub. (*Verir*.)

P ə r i c a h a n x a n ı m (*məktubu açıb oxuyur*.) Ah! Doğru. Cahangir bolşevik olub. Ordu başında durubdur, əcdadının yurdunu da tutmaq istəyir. Ah, ağlım çaşır! Otaq başıma fırlanır. Cahangir, Cahangir, hansı şeytana aldanıb belə alçaq, gədəyə yaraşan vəzifəni öhdənə götürmüsən?! Məni də, sevgili əmizadəni, məhəbbətin uğrunda atəşə yanan nişanlını da belə yola dəvət edirsən? Yox, yox, mən sənin kimi alçaq olmaq istəmirəm. Əcdadımın yurdunu, şərəfini sənin kimi düşməndən müdafiə etməyə hazıram. Onun uğrunda canımı fəda etməyə hazıram. Hadi kişi, ağan Cahangir məndən cavab istəyir. (*Məktubu cırıb Hadi lələyə atarkən*.) Bu mənim birinci cavabım. (*Sonra boynundan qızıl medalyonu, içindəki Cahangirin rəsmi ilə bərabər çıxarıb Hadi lələyə atır*.) Al, tam üç ildir ki, bu rəsmi ürəyim üstə sevə-sevə saxlamışam. Gecələr onu bağrıma basıb əzizləmişəm, öpmüşəm. Ta hicran oduna dözüb təsəlli tapmışam. Hadi kişi...

H a d i l ə l ə. Pəricahan xanım, kifayətdir. Məni oda yaxma. Mən sənin lələnəm. Səni də Cahangir ağa kimi bu əllərim üstə bəsləmişəm. Mənə Hadi kişi demə.

P ə r i c a h a n x a n ı m. Bolşevik tərəfinə keçmiş lələni mən istəmirəm. Dinlə, üçüncü verəcəyim cavab qaldı. Bilirsənmi o nədir?

H a d i l ə l ə. Xeyr, xanım.

P ə r i c a h a n x a n ı m. İndi görərsən, çıx, ey itlərcə qəlbimdə məskən etmiş ilan! Çıx, ey zəhərli, məni atəşə yaxan məhəbbət. Orada indi başqa məhəbbət, başqa eşq aşiyan edəsidir. Hadi kişi, Cahangirə de ki, Pəricahanın ürəyi onun üçün daha qapanmışdır. Açmaq istəsə xəncərlə gəlsin. İndi gedə bilərsən.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

H a d i l ə l ə. Pəricahan xanım, belə etmə, gəl, sən qoca lələnin məsləhətinə qulaq as. Bu xanədanın dağılıb pərakəndə düşməyinə bais olma.

P ə r i c a h a n x a n ı m. Bais olan sənin ağan Cahangirdir. Bu nəsihəti ona et. Daha bitdi. Gedə bilərsən!

H a d i l ə l ə. Cahangir ağa, Cənnət əlinin evində sənin cavabına müntəzirdir. Onda buyurunuz gedək, mənə verdiyin cavabı onun özünə ver, yoxsa, mən bu ağır məsuliyyəti öhdəmə götürməkdən qorxuram.

P ə r i c a h a n x a n ı m. Hə, indi başa düşdümki, Cənnətəlininoğlu Həsənqulu nə üçün yoldan çıxmayıb, mənə elə sərt cavab verirdi. Demək, Cənnətəlinin ailəsinin Cahangir ağa ilə əlaqəsi varmış.

H a d i l ə l ə. Bəli.

P ə r i c a h a n x a n ı m. Mən, başına qırmanc çəkdiyim Həsənqulunun evinə getmərəm. Ağan Cahangirin cürəti varsa, buyurub buraya gəlsin.

H a d i l ə l ə. Cahangir ağanın cürətini sən məndən yaxşı bilirsən. Buraya gələrsə, ona heç bir xəta toxunmaz, çünki sizi əhatə edənlərin hamısı onun tərəfdarlarıdır. Başından bir tük düşməyə qoymazlar. Əmiraslan ağanın bu saat harada olduğu və atdığı hər qədəm bizə məlumdur. Baş üstə, cavabını Cahangir ağaya deyərəm, lazım bilsə gələr, bilməsə qoşuna hücum əmrini verər. Daha başqa əmrin yoxdur ki?

P ə r i c a h a n x a n ı m. Yoxdur.

H a d i l ə l ə (*gedərkən*). Pəricahan xanım, fikirləş. Son peşmançılıq fayda verməz. (*Çıxır*.)

P ə r i c a h a n x a n ı m (*tək*). Ah! Bu gün başlanacaq müharibən xatırıma gətirməkdən qorxuram. Bütün bədənim titrəyir. Əmucəm yanında təslim adını çəkmək mümkündürmü? O öz əlləri ilə cəmi evini-eşiyini atəşə tutub yandırar, fəqət təslim olmaz. (*Çağırır*.) Əhməd! Əhməd! (*Səs vermir*.) Səməd! Səməd! Bunlar harada batmışlar? Səfər! Səfər!

Sənəm daxil olur.

S ə n ə m. Nə buyurursan, xanım?

P ə r i c a h a n x a n ı m. A qız, nökərlər haradadır? Heç səsimə səs verən yoxdur.

S ə n ə m. Xanım, evdə heç kəs yoxdur.

P ə r i c a h a n x a n ı m. Haraya getmişlər? (*Sənəm başını aşağı salıb cavab vermir*.) Niyə cavab vermirsən?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

S ə n ə m. Xanım, qorxuram.

P ə r i c a h a n  x a n ı m. Kimdən?

S ə n ə m. Ərim Əhməddən!

P ə r i c a h a n  x a n ı m. Nə üçün?

S ə n ə m. Xanım, xidmətçilərin hamısı bolşevikləri gözləyirlər. Onlar tərəfə keçəcəklər. Nökərlər Cənnətəligilə getmişlər. Onun oğlu Həsənqulu bolşevikdir.

P ə r i c a h a n  x a n ı m. Sənəm, sən də onların tərəfdarısan?

S ə n ə m. Mən yox... Ancaq qorxuram. Əhməd deyir ki, bizim sirrimizi ağalara versən, səni öz əlimlə boğub öldürəcəyəm. Xanım, bir Hadi lələdən başqa, heç kimə bel bağlamayın. O da burada yoxdur.

P ə r i c a h a n  x a n ı m. Ah, safqəlbli, sadədil Sənəm, indi heç özümə də inanmıram. Qorxma, sirrini bir kəsə demərəm, ancaq Əhmədi buradan rədd etmək lazımdır. Başqalarını da o yoldan çıxarıbdır. Onu özüm kəndə göndərəcəyəm. Əmməm necədir?

S ə n ə m. Müdam böhran içindədir. Ayılanda da su istəyir. Xanım, izin ver mən gedim.

P ə r i c a h a n  x a n ı m. Yaxşı, sən get, yanında ol, bir azdan sonra mən də gələcəyəm. (*Sənəm gedir*.) Ey zavallı ana, heç bilirsənmi ki, yolunu gözlədiyin oğlun nə fikirdədir? Baba yurdunu tapdayıb, sən xəstə anasının başına güllələr yağdıracaq! Yox, yox, əgər indi buraya gələrsə, sağ buraxmaram. (*Divardan asılmış zinətli xəncəri əlinə alır*.) Babamın bu şanlı silahı ilə onun xain qəlbini yırtmalıyam. (*Cahangir ağa daxil olur*.) Ah, gəldi! (*Xəncəri sıyırıb ona tərəf yönəlir*.)

C a h a n g i r  a ğ a (*döşünü gərib*). Vur!

P ə r i c a h a n  x a n ı m. Sən nə ixtiyarla buraya qədəm basdın?

C a h a n g i r  a ğ a. Bura mənim yurdum deyilmi?

P ə r i c a h a n  x a n ı m. Yox. İrəlidə sən bu sarayın,bu yerlərin sahibi Hidayət ağanın nəvəsi, Əmiraslan ağanın vahid varisi Cahangir ağa idin, fəqət indi vətən və millət xaini - bolşevik, yoldaş Cahangirsən.

C a h a n g i r  a ğ a. Dediklərinin hamısı düzdür, lakin bir şeydə səhv edirsən. Pəricahan, mən sən deyən kimi şanlı-şöhrətli bir ağa idim. Lakin indi qırmancın ilə döydüyün Həsənqulu kimi zəhmətkeş yoldaş Cahangirəm. Bəli, burası doğrudur, fəqət mən vətənimin, millətimin düşməni deyiləm. Onun məzlum, miskin, səfil, çılpaq əməkçilərini ən səmimi qəlblə sevən yoldaş Cahangirəm. Onları əsrlərcə zülm və cəhalətdə saxlayan zalımlardan azad etmək yolunda çalışan yoldaş Cahangirəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

P ə r i c a h a n  x a n ı m. Vətənin o zalımları kimdir?

C a h a n g i r  a ğ a. Birincisi, belə saraylar sahibi ağalar.

P ə r i c a h a n  x a n ı m. Xeyr, sənin kimi vətenine xəyanət edən alçaqlar.

C a h a n g i r  a ğ a. Pəricahan, alçaq o şəxsə deyərlər ki, başqalarının zəhməti ilə yaşaya, zalım o kəsdir ki, öz mənfəəti üçün başqalarını sıxa, əzə, məhv edə. Bu saat orada, bir azdan sonra burada tökülən qan, kim və nə üçündür?

P ə r i c a h a n  x a n ı m. Millət və vətən üçün.

C a h a n g i r  a ğ a. Yalan! Mənim atam Əmiraslan ağa kimi mülkədarın ağalığını saxlamaq üçün. Torpaqlarını mühafizə etmək üçün. Məgər millət yalnız bəylərdən ibarətdir? Bəs bu milyonlarla kəndli, işçi, yoxsullar? Yoxsa onlar vətən övladları deyil? Pəricahan, ağalıq daha bitdi, çünki onu mühafizə edən, onun yolunda qanlarını sel kimi axıdan kəndli və fəhlə indi hüququnu daha anlamış. Buna sübut kəndlilərin bizim tərəfə keçməsidir. Bu gün iki qüvvə bir-biri ilə toqquşur. Biri haqqı müdafiə edir, digəri zülmü. Pəricahan, səni bu haqq yola dəvət edirəm.

P ə r i c a h a n  x a n ı m. Mən sən tərəfdə haqq görmürəm. Kəndlilərin sizin tərəfə keçmələri buna sübut ola bilməz. Onlar bəylərin torpağına, belə gözəl saraylarına sahib olmaq istəyirlər.

C a h a n g i r  a ğ a. Doğrudur. Buna da haqları var.

P ə r i c a h a n  x a n ı m. Hansı qanunla?

C a h a n g i r  a ğ a. Təbiətin qanunu ilə. İşləməyən yeməz. Torpaq, onu becərib zəhmət çəkənlərindir.

P ə r i c a h a n  x a n ı m. Mən elə qanun eşitməmişəm.

C a h a n g i r  a ğ a. İrəlilərdə mən də sənin kimi eşitməmişdim. Bu torpaqların sahibi olmağımı göylər təsdiq etmiş sanırdım. Rəiyyətləri özümüzün qulu hesab edirdim. Fəqət Karl Marksın əsərlərini oxuduqdan sonra anladım, haqq yolunu tapdım.

P ə r i c a h a n  x a n ı m. Sonra da bolşevik oldun. Özün kimi zalımlara qoşulub böyük Rusiyanı tarmar etdiniz. İndi də bu gözəl ölkəni o hala salmaq istəyirsiniz.

C a h a n g i r  a ğ a. Pəricahan, zülm yuvaları dağılmasa, məzlumlar azad olmazlar. İndi yıxarıqsa, sonra tikəcəyik. Nə etməli? Əmiraslan ağalar öz ixtiyarları ilə tabe olmurlar. Pəricahan, atamın bizim tərəfə gəlməyinə ümidim yoxdur, çünki həmişə buyurmada, vurmada,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

kəsmədə ömür sürmüş, qartlaşmış ağa bunların hamısındaıı əl çəkib işçi-kəndli tərəfdarı olmaz, fəqət bizim müqabilimizə çıxıb qovğa etməsin niyyəti ilə sənə Hadi lələ ilə o məktubu göndərdim. Cavabın da söylədi.

Sən niyə zülm tərəfdarı olursan? Biz o zülmü insanlar arasından götürmək istəyirik. Bax, gör bu nə böyük, nə yüksək bir idealdır ki, məni öz əlimlə bu mülkümüzü tapdayıb məhv etdirməyə məcbur edir, atamın müqabilinə çıxardır. Mehriban anamı unutdurur, tam üç il həsrətini çəkdiyim sən sevgili əmizadəmi mənə düşmən etdirir. Pəricahan, sevgilim, gəl mənimlə birlikdə vətənimizin məzlumlarını cəlladlar əlindən xilas edək.

P ə r i c a h a n  x a n ı m. Cəlladları mən, sən tərəfdə görürəm.

C a h a n g i r  a ğ a. Son sözümü dinlə, fikirləş, cavabını ver. Bax gör, bizmi cəlladıq, yoxsa siz ağalar? Milyonlarla işçi-kəndlilər, əsrlərcə sitəmkarlar əlində didilir, çeynənir, ayaqlar altında tapdalanıb əzilir. Hamısı ac, çılpaq zillətdə, əziyyətdə, fəryadları əflaka çıxmış. Əsarət zənciri altında bədənləri incəlib üzülür. Bax bu biçarələr indi bizdən nicat gözləyirlər. Pəricahan, gedək, onların fəryadına çataq. Əsarət zəncirlərini kəsib xilas edək. Pəricahan, bu şərəfi başqasının öhdəsinə atma. Şərq aləminin pərisi ol ki, əsrlərcə adın dünyada baqi qalsın. Qırmızı Ordu içində nə qədər nəcib qəhrəman qadınlar var. Sən də Şərq məzlumlarının qəhrəmanı ol.

P ə r i c a h a n  x a n ı m. Elə böyük vəzifəni, elə yüksək şüarı özün üçün bəslə. Mən isə bu gün ufaçıq bir vəzifə qəbul edirəm. O da "Laçın yuvası"nı sənin ordundan müdafiə edib, onun "Orlean xanımı" olmaq istəyirəm.

C a h a n g i r  a ğ a. Daha bitdi. Sən də atam kimi belə saraydan, belə cah-cəlaldan öz ixtiyarınla əl çəkmək istəmirsən, fəqət mən zor ilə çəkdirərəm. Bu zülmlə bina olmuş saraydan bir əsər qoymaram! (*Çıxır.*)

P ə r i c a h a n  x a n ı m (*tək*). Ah! Cahangirdə nə böyük təğyir! Sabiqdə mənim kimi, babalarımızın şan-şöhrəti ilə fəxr edərdi, ancaq indi isə, onlara zalım deyib, nifrət edir. Mənim də qəlbimə şübhə saldı. Görəsən hansı yol doğrudur... (*Əmiraslan ağa daxil olur.*) Ah, əmücəm gəldi.

Ə m i r a s l a n  a ğ a. Qızım,bolşeviklər üzərimizə hücuma başlamış. Bu saat Mehrəli bəyin dəstəsi ilə vumşurlar. Ümidim budur ki, igid



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bəylər onları pozub bu tərəfə keçməyə qoymayacaqlar. Pəricahan, bu gün oğlum burada olmalı idi. Qəhrəmananə müharibə edib, "Laçın yuvası"nı düşməndən müdafiə edəydi. Onu fələk əlimdən aldı. Yerində sən qalmısan. İgidlikdə heç bir oğlandan geri qalmazsan. Qəhrəman qızım, babalarımız yurdunun müdafiəsini sənə həvalə edirəm. Bu gün bizim üçün başqa yol yoxdur. Ya zəfər, ya ölüm. Qızım, səni məyus görürəm, yoxsa düşməndən xof edirsən? Ona əsir olmaq istəyirsən?

P ə r i c a h a n x a n ı m. Heç vaxtı. Məni məyus edən şey başqadır. Ah, Cahangir...

Ə m i r a s l a n a ğ a. Qəm etmə, qızım, inşallah düşmənə qalib gələcəyik. Get hərbi libasını gey, hazır ol. (*Pəricahan xanım çıxır.*)

Ə m i r a s l a n a ğ a. (*tək*). Pəricahan anadan olanda mərhum qardaşım Kamran çox məyus oldu ki, oğlan deyil, lakin mən bu igid qızı min oğula verməzəm.

Mehrəli bəy sol əli sarınmış daxil olur.

M e h r ə l i b ə y. Əmiraslan ağa, sol cəbhəni düşmən aldı.

Ə m i r a s l a n a ğ a. Nə deyirsən? Məgər sənə əmr etməmişdim ki, onu möhkəm saxla? Bir adamın qalıncaya qədər vuruşmada davam et?

M e h r ə l i b ə y. Mən nə edim? Tərəfdarlarımız kəndlilər fürsət tapdıqca bolşeviklər tərəfinə keçdilər. Bir də baxıb gördüm ki, ətrafımda az bir qüvvə qalıb. Yenə də vuruşmadan çəkilmədim. Bu vaxt güllə dəydi. O az qüvvə də pozulub dağıldı. Ancaq onu qənimət bildim ki, arvad-uşağı götürüb buraya qaçdım.

Ə m i r a s l a n a ğ a. Qorxuram Ədilbəyin dediyi doğru ola. Kəndlilərin cümləsi bolşevik tərəfinə keçə. Sol cəbhənin alınması Səlim bəyin halını ağırlaşdırdı. Bu saat Kollu dərənin üstünü tutmaq lazımdır. Yoxsa qırmızılar Səlim bəyin arxasına keçib onu pozacaqdır.

Heydər bəy təngnəfəs daxil olur.

H e y d ə r b ə y. Əmiraslan ağa, qırmızılar Kötüklü kəndini aldı. Bizimkilər qaçırlar.

Ə m i r a s l a n a ğ a (*qəzəbnak*). Siz onlardan geriyə qalmazsınız. Dovşan kimi, bir səs çıxdıqda qoyub qaçırsınız.

H e y d ə r b ə y. Mən nə edim? Allah arvad tayfasını müsəlman üçün bir böyük bəla yaratmışdır. Ağlaşma qurub, ərlərinin ətəklərindən



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yapışıb davaya getməyə qoymurlar. Başqa millətin qadınları tüfəng götürüb ərləri ilə bərabər düşmənlə vuruşur, bizimkilər isə şaxsey deyə üzlərini cırır, saçlarını yolurlar.

Ə m i r a s l a n a ğ a. Bu onların təqsiri deyil. Siz kimi ərlərin, ataların təqsiridir. Ləzgi qadınları düşmən ilə müharibədə ərlərindən geri qalmır. Pəricahana mən tərbiyə vermişəm, hansınızdan qoçaq deyil?

Səlim bəy daxil olur.

S ə l i m b ə y. Əmiraslan ağa, Güllücə kəndini düşmən zəbt etdi.

Ə m i r a s l a n a ğ a. Nə pis xəbər! Onun alınması ilə yol buraya açıldı. Heydər bəy, mənim adamlarımdan otuz tüfəngli götürüb Uçurum dərəsinin keçidini kəs. Daha durma!

H e y d ə r b ə y. (*Cəld çıxır*.)

Ə m i r a s l a n a ğ a (*Səlim bəyə*). Söylə görüm. Nə tövr olduki, elə möhkəm yeri boşladın?

S ə l i m b ə y. Heydər bəyin dəstəsi pozulduqdan sonra sol cəbhə açıldı. Mən Muxtar bəydən kömək istədim. Cavab verdi ki, özüm iki tərəfdən əhatə olunmuşam, tez Əmiraslan ağadan həm özün üçün və həm də mənim üçün kömək istə. Bu vaxt düşmən arxama keçib məni pozdu.

Ə m i r a s l a n a ğ a. Kollu dərədə qüvvə qoymuş olsaydın, qırmızılar arxana keçə bilməzdilər.

S ə l i m b ə y. Necə qoymamışdım? Qoymuşdum. Onlara ümid bağlayıb geri çəkilmədim. Atışmada davam etdim. Bir də xəbər tutdum ki, onlar da qaçıb dağılmışlar, düşmən də arxama keçmişdir.

Ə m i r a s l a n a ğ a. Səlim bəy, onda dayanma, mənim atlılarımdan lazım bildiyin qədər götürüb Muxtar bəyin köməyinə get. Onu təhlükədən qurtar, sonra Qayadibi kəndinə çəkiliniz.

S ə l i m b ə y. Baş üstə. (*Çıxır*.)

Ə m i r a s l a n a ğ a. Mənim Qaya dibi kəndim nə qədər davam edərsə, buranın qorxusu yoxdur. Onun dar və gizli yollarını, ancaq oranın əhli bilir. Bələdçi olmasa, qoşun bir şey edə bilməz.

Molla Sadıq və Hacı İmamqulu daxil olurlar.

H a c ı İ m a m q u l u. Bu nə bəladır? Bu nə tufandır?

M o l l a S a d ı q. Tutduğunuz əməlin cəzasıdər ki, xudavəndi-aləm verir. Biz ruhanilərə qulaq asmayıb övladlarınızı rus məktəblərinə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qoydunuz. İndi dindən, məzhəbdən çıxıb öz vətənlərini, ata-analarını atəşə tutub qırırlar. Dünyanın axırıdır. Üləma buyurmuşlar ki, vay o zamandan ki, aradan şəriət, din, böyük-kiçiklik, ağa-nökərlik götürülə. Bax, indi həmin zamandır ki, gəlmişdir.

Ə m i r a s l a n a ğ a. Molla Sadıq, sən bizə nəsihət verməyəmi gəlmisən?

M o l l a S a d ı q. Xeyr, Əmiraslan ağa, məni əfv et, ürəyim yanır, onun üçün danışıram. Mən arvad-uşağımı götürüb sizə pənah gətirmişəm.

Ə m i r a s l a n a ğ a. Çox xoş gəlmişsən. Gözüm üstə yerin var. Bu gün mənimlə bərabər tüfəng götürüb o dediyin dinimizi, şəriətimizi düşməndən mühafizə edəcəksən. Yoxsa, boş yerə nə vəz edirsən?

M e h r ə l i b ə y. Əmiraslan ağa düz buyurur.

M o l l a S a d ı q. Mən ömrümdə əlimə silah almamışam.

H a c ı İ m a m q u l u. Mən də arşından başqa əlimə heç zad götürməmişəm.

Ə m i r a s l a n a ğ a. İndi götürərsiniz.

M o l l a S a d ı q. Başına dönüm, Əmiraslan ağa, məni o tək balan Cahangir ağanın başına çevir, azad et. Mən də bu yolda ölənlərimizi dəfn edərəm ki, allah onların günahlarından keçsin.

H a c ı İ m a m q u l u. Məni də arvad-uşaqların keşiyini çəkməyə təyin et.

Bu halda Səlim bəy və Heydər bəy daxil olurlar.

Ə m i r a s l a n a ğ a. Səlimbəy, nə üçün qayıtdın?..

S ə l i m b ə y. Heydər bəy qaytardı.

Ə m i r a s l a n a ğ a. Heydər bəy? Nə üçün?..

H e y d ə r b ə y. Muxtar bəyin dəstəsi qırmızılar tərəfindən əhatə olunub təslimə məcbur olmuşdur.

Ə m i r a s l a n a ğ a. Ah, nə fəna xəbər?! Bəs Muxtar bəyin özü necə olubdur?

H e y d ə r b ə y. Bir rəvayətə görə əsir düşüb, başqa rəvayətə görə nökərləri onu yaralı halında Qayadibi kəndinə aparmışlar. Xülasə, onun barəsində heç bir düz xəbər yoxdur.

Ə m i r a s l a n a ğ a. Uçurum dərəsini boşaltmamısan ki?

H e y d ə r b ə y. Xeyr, lakin qırmızılar cəmi qüvvəsini Qayadibi kəndinə atmış. Mənim müqabilimdə heç kəs yoxdur.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ə m i r a s l a n a ğ a. Ona baxma,vaxt ki,qırmızılar Qayadibini almaq fikrindədir, Uçurum dərəsinin böyük əhəmiyyəti var. İndi sənin qüvvəni daha da artırmaq lazımdır. Uçurum dərəsini möhkəm saxlamağı əmr edirəm.

H e y d ə r b ə y. Əmrini bitirməyə hazıram. Uçurum dərəsindən özümü atıb həlak edərəm, fəqət geriyə çəkilmərəm.

Ə m i r a s l a n a ğ a. Elə də lazımdır. Daha durmaq yeri deyil. Mehrəli bəy, sən yaralısan burada qal. Arvad-uşaqları "Laçın yuvası"na topla. Səlim bəy, biz də Qayadibinin köməyinə gedək.

Qalxırlar. Bu halda Cəfərqulu daxil olur.

C ə f ə r q u l u. Ağa, Qayadibi kəndini bolşeviklər aldı.

Qorxurlar.

M o l l a S a d ı q. Buradan qaçmaq! İndi buraya gələrlər.

H a c ı İ m a m q u l u. Durun, arvad-uşaqları götürüb dağlara qaçaq.

Ə m i r a s l a n a ğ a. Sakit! Qorxaq yassarlar! Cəfərqulu, Qayadibi çox möhkəm, yolları da sərt qayalıq, onu necə aldılar? Yoxsa, dönüklük olmuşdur?

C ə f ə r q u l u. Xeyr, ağa, bizimkilər çox mərdanə vuruşurdular, ancaq iki səbəb təslimə bais oldu. Biri, kəndin qaya tərəfi tutulub atəş açılması...

Ə m i r a s l a n a ğ a. Qoşuna bələdçi olmasa, o yolu kimsə bilməz. Yəqin kəndçilərdən bir binamus çıxmışdır.

C ə f ə r q u l u. Xeyr, ağa, elə şəxs bizdən çıxmamış.

Ə m i r a s l a n a ğ a. Bəs kimdən çıxmış?

C ə f ə r q u l u. Orduya yol göstərən Hacının oğlu bolşevik Həsən olmuşdur.

B ə y l ə r. Ay binamus!

M o l l a S a d ı q. Hacı, gördünmü, dediyim necə düz oldu? Sənə demədimmi, bu uşağı Rusiyaya göndərmə? Sözümə baxmadın.

H a c ı İ m a m q u l u. Ah, oğlum sağ imiş, gəlib çıxdı.

M e h r ə l i b ə y. Elə biqeyrət oğul heç gəlib çıxmayaydı.

Ə m i r a s l a n a ğ a. İkinci səbəb?

C ə f ə r q u l u. Ağa, soruşma, deməyə cürət etmirəm.

Ə m i r a s l a n a ğ a. Sənə əmr edirəm, de!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

C ə f ə r q u l u. İkinci səbəb qırmızıların başında duran şəxs...

Ə m i r a s l a n a ğ a. O kimdir?

C ə f ə r q u l u. Cahangir ağa!

H a m ı. Ah!

Ə m i r a s l a n a ğ a (*əlini xəncərin dəstəsinə qoyur* ) Sus! Qorxudan gözlərinizə qaranlıq çöküb, kimi isə mənim oğluma oxşatmışsınız. Mənim nəslimdən Həsən kimi öz vətəninə xain çıxmaz.

Ədil bəy və Hadi lələ daxil olurlar.

Ə d i l bəy. Bu partıltını, gurultunu eşitmirsiniz? Bu nə toplaşıb söhbət etməkdir?

M e h r ə l i b ə y. Biz sənin kimi millətə xain olub, vətəni satmamışıq. Onun uğrunda canlar fəda etməyə yığışmışıq.

Ə d i l b ə y. Mehrəli bəy, bu yalançı sözləri burax. Mən sizin əsil məqsədinizi gözəlcəsinə bilirəm. Nə üçün "vətən, millət" deyə bağıraraq, bu məzlum kəndliləri qırdırırsınız? Onların çoxu hələ öz mənfəətlərini anlamamışlar, onun üçün də qırmızılarla müharibə edirlər. Fəqət tezliklə anlayacaqlar. Onda süngünü bolşeviklərə yox, sizin üzərinizə çevirəcəklər. Siz, qəhrəman, tac-taxtları zəlzələyə salan Qırmızı Ordunun müqabilindəmi durmaq istəyirsiniz? Necə oldu kolçaqlar, yudeniçlər, denikinlər?

Məni bölük komandiri axırıncı dəfə olaraq sizin yanınıza göndərmiş. Qan tökülməmiş təslim olmağınızı tələb edir.

S ə l i m b ə y. Bizə birinci dəfədir ki, təslim təklif olunur. Amma siz axırıncı dəfə olaraq, deyirsiniz.

Ə d i l b ə y. Birinci dəfə bu Hadi-lələ təslim əmrini gətirmişdir.

Ə m i r a s l a n a ğ a. Elə təklif olmamış, ola da bilməz.

Ə d i l b ə y. Pəricahan vasitəsi ilə, belədirmi, Hadi lələ?

H a d i l ə l ə. Bəli.

Ə m i r a s l a n a ğ a. Pəricahan mənə bir şey deməmişdir.

H a d i l ə l ə. Xanım məktubu oxuduqdan sonra cırıb atdı.

Ə m i r a s l a n a ğ a. Ah, nə gözəl cavab! Yaşasın qəhrəman qızım! (*Qışqırır.*) Pəricahan!

Pəricahan xanım çərkəs libasında, üstü əslihəli daxil olur.

P ə r i c a h a n x a n ı m. Məni çağırırsan, əmücəm?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ə m i r a s l a n  a ğ a. Bəli, səni, qeyrətli qardaşımın igid qızı! De görüm cırdığın məktub kimdən idi? (*Pəricahan xanım başını aşağı salıb dinmir.*) Qızım, niyə dinmirsən?

P ə r i c a h a n  x a n ı m. Məktub qırmızıların komandiri Cahangirdən idi.

Ə m i r a s l a n  a ğ a (*yerindən cəld qalxıb*). Ah! Cəfərqulu doğru deyirmiş! Ağalar, bu divarda çəkilmiş rəsmlərə baxınız. Bu, Rüstəm zalın, o da oğlu Söhrabın rəsmidir. Rüstəm müharibədə övladını tanımamış, onun sinəsini paralamışdır. Mən isə bu gün mənə xain olmuş ciyərparəmi bu xəncər ilə qətl edəcəyəm. İndi Qırmızı Orduya hücumu mən başlayıram. Qalxın, haydı, ardımca!

Ə d i l  b ə y  və H a d i  lələdən başqa qeyriləri çıxırlar.

Ə d i l  b ə y. Bacım Gövhər əhvalatı biiirmi?

H a d i  l ə l ə. Xeyr, x’stəliyi c’hətinc’ deməyi məsləhət bilmədim və başqalarına da tapşırmışam ki, deməsinlər.

Ə d i l  b ə y. Yaxşı tədbirdir. Sən get vəziyyəti Cahangirə söylə, mən də bacımı yoxlayıb gəlirəm.

Çıxırlar.

**Pərdə**

ÜÇÜNCÜ PƏRDƏ

İkinci pərdənin səhnəsi.

Əmiraslan ağa, Mehrəli bəy, Səlim bəy, Muxtar bəy, Heydərbəy, Cəfərqulu, Pəricahan, Molla Sadıq, Hacı İmamqulu oturub müşavirə edirlər.

Ə m i r a s l a n  a ğ a. Qeyrətli bəylər, bolşevik Cahangir bu məktubla bizi təslimə təklif edir. Yazır:

"Sizdən, aldanmış kəndlilərin qanları daha tökülməsin məqsədi ilə, təslim olmağınızı tələb edirəm. Bizə məlumdur ki, o biçarələri "gürcü, erməni və türk köməkləri gələcəkdir" deyə aldadıb qırdırırsınız. Onu da bilməlisiniz, təslimi rədd edib qovğada davam etsəniz,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sabah qala alındıqdan sonra, siz üsyançı bəylər güllə qabağına qoyulacaqsınız.

*İmza: Cahangir"*

Bəylər başlarını aşağı salıb fikrə gedirlər.

Ə m i r a s l a n  a ğ a. Mehrəli bəy, fikrinizi bilmək istəyirik.

M e h r ə l i  b ə y. Məncə, düşmənə hiylə gəlməli. Guya təslimə hazırıq, lakin iki gün möhlət istəyirik. Düşmən buna razı olarsa, gecə ikən bir neçə adam qaçırıb ətrafdan kömək toplarıq. Sonra iki tərəfdən hücumu başlarıq. Birini burdan, o birini düşmənin arxasından.

M u x t a r  b ə y. Mən bu fikrə şərik deyiləm. Əvvəla, düşmən bizə möhlət verməz. Versə də bu az vaxtda düşmənin gözü qabağında kimdən qüvvə toplayacağıq? Məncə, özümüzdən başqa qeyri köməyə ümid bağlamamalı.

H e y d ə r  b ə y. Əlimizdə olan qüvvə ilə qalanı saxlaya bilməyəcəyik. Gec-tez onu boşaldıb çəkilməyə məcbür olacağıq. Belə olan surətdə mən qalanı vermək tərəfdarıyam.

S ə l i m  b ə y. Cahangir ağanm tələbi aydındır. O, təsüm olunuz deyir, qalanı veriniz demir. Bizi buraxıb bu boş qalanı ne edəcəkdir? Lakin testim şertinden bir şey yazmır, təslim olarsaq, bizle ne cür rəftar olunacaq? Melıım deyil.

C ə f ə r q u l u. Səlim bəy doğru buyurur. Təslim şərti aydın deyil. Məncə, biz də yazıb şərtimizi məlum etməliyik. Bəlkə, istədiyimizi qəbul edəcəkdir.

Ə m i r a s l a n  a ğ a. Qızım, sənin fikrin nədir?

P ə r i c a h a n  x a n ı m. Cahangir hərbi toxdadıb ortalığa təslim məsələsini atmışdır. Bu iki şeydən xali deyildir: ya budur ki, dogrudan da qan tökülməsini istəmir, ya da əlində olan qüvvə ilə "Laçın yuvası"nı almaqdan acizdir.

Ə m i r a s l a n  a ğ a. Afərin, qızım, bu son sözün düzdür. Cahangir təslim məsələsi ilə bizə hərbi hiylə gəlir. Mənə məlumdur ki, o, mərkəzdən qüvvə və top tələb edir, çünki, doğrudan da, əlindəki qüvvə ilə qalanı almaqdan acizdir. Bu fürsətdən istifadə etməli. Təslim tərəfdarları bilsinlər ki, istər zor ilə, istərsə öz ixtiyarımızla bolşeviklərə tabe olarıqsa, heç bir təfavütü yoxdur, hər iki halda güllə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qabağına qoyulacağıq. Onlardan bizə nicat yolu yoxdur. Belə olan surətdə öz əllərimizlə başlarımızı qurbanmı verməliyik?

B ə y l ə r. Heç vaxt!

Ə m i r a s l a n a ğ a. Təslim tərəfdarı varmı?

B ə y l ə r. Xeyr.

M o l l a S a d ı q. Əmiraslan ağa, mən də, hacı da sülh tərəfdarıyıq.

Ə m i r a s l a n a ğ a. Siz bizim işimizə qarışmayın. Sizin vəzifəniz buraya qoyun sürüsü kimi tökülən arvad-aşaqları sülh ilə saxlamaqdır.

H a c ı İ m a m q u l u. Biz də onu istəyirik ki,qurdlar gəlib bu sürünü yırtmasınlar.

Ə m i r a s l a n a ğ a. Qorxmayın, o canavarların müqabilində belə aslanlar durmuşlar. (*Kağız götürüb yazır, sonra oxuyur.*) Qulaq asın, yazdığım cavabı oxuyum.

B ə y l ə r. Buyurunuz.

Ə m i r a s l a n a ğ a. "Laçın yuvası"nı almağa laçın kimi igidlər lazımdır. Sizin kimi bayquşların hünəri deyil".

Bu cavabı bəyənirsinizmi?

B ə y l ə r. Bəyənirik.

Ə m i r a s l a n a ğ a. Cəfərqulu, al, elçiyə ver.

Cəfərqulu alıb gedir.

Ə m i r a s l a n a ğ a. İndi planımızı çəkək. Bolşevik Cahangir sabah qırmızı bayrağını "Laçın yuvası"na taxmaq arzusundadır. Bu işi sabaha qoymaqdan belə məlum olur ki, o, sabah kömək gözləyir. Bu fürsəti ona verməməli, onu qabaqlamalıyıq. Biz hücumu bu gün başlamalıyıq.

M e h r ə l i b ə y. Əmiraslan ağa, madam ki, bu fikrə gələcəkdiniz, mənim təklifimi rədd etməməliydiniz.

M u x t a r b ə y. Necə?

M e h r ə l i b ə y. Düşmənə hücumu qəflətən, onun gözləmədiyi bir vaxtda etməli. Biz bunun əksinə eməl etdik. Düşmənə xəbər verdik ki, hazır ol, üstünə gəlirik.

H e y d ə r b ə y. Biz elə cavab yazmamışıq.

M e h r ə l i b ə y. Mənası elə çıxdı.

S ə l i m b ə y. Sizin fikriniz möhlət istəmək idi. Ondan da vaz keçdiniz.

M e h r ə l i b ə y. Doğru,çünki bu gün hücum edəcəyimizi bilmirdim.

M u x t a r b ə y. Bilsəydin nə təklif edərdin?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

M e h r ə l i  b ə y. Sabaha kimi möhlət istəyib bu gün qəflətən hücum edərdik.

Ə m i r a s l a n  a ğ a. Heç təfavütü yoxdur. Bolşeviklər biz tərəfdən hücum gözləmirlər. Onlar inanmışlar ki, biz hücumdan qorxub qaladan çıxmayacağıq. Hər halda cavab vermişik.

M e h r ə l i  b ə y. Doğru. İndi hücum planını buyurunuz.

Ə m i r a s l a n  a ğ a. Cəmi qüvvə dörd yerə bölünəcəkdir. Bir qismi Mehrəli bəylə Pəricahanın ixtiyarında olub "Laçın yuvası"nı müdafiə edəcəkdir. Yerdə qalan üç hissənin birinin başında Muxtar bəy, o birinin başında Səlim bəy və üçüncüsünün başında Heydər bəy duracaqdır.

Muxtar bəy, sənin dəstənə böyük əhəmiyyət verirəm. Əgər mən çəkdiyim planı əmələ gətirə bilsən, şəksiz düşmənə qalib gələcəyik. O da budur: dəstəni "Laçın yuvası"nın arxasında duran "Keçi dağı"ndan endirib, "Yaşıl orman" deyilən meşəyə keçirsən. Sonra orman içi ilə gizli yürüş edib, Qayadibi kəndinin arxasında pusquya yatarsan. O zaman Səlim bəy Uçurum dərəsindən, mən də Heydər bəylə Qayadibi keçidindən hücumu başlaram. Düşmən qüvvəsini bizim üstümüzə atar. Sən, Muxtar bəy yenə də pusquda qalıb müharibəyə girməzsən. Elə ki, gördün düşmənin arxasında qüvvə qalmadı, cümləsi hücuma başladı, qəflətən arxadan soxularsan. Bu plana etiraz varmı?

B ə y l ə r. Xeyr.

M e h r ə l i  b ə y. Plan yaxşıdır. Lakin"Laçınyuvası"nda qalan qüvvəni də hücuma atmalı.

Ə m i r a s l a n  a ğ a. Yox. O qüvvə ehtiyat üçün olub, təhlükə zamanı hərbə atılmalı. Daha nöqsanı varsa deyiniz.

M e h r ə l i  b ə y. Xeyr, yoxdur.

Ə m i r a s l a n  a ğ a. İndi son sözümü dinləyiniz. Cümləniz şir-jəyan kimi hücuma atılmalısınız. Geri çəkilməni bilmərrə unutmalı, beyninizdə, fikrinizdə, xəyalımzda bu olmah: - İrəli, irəli, irəli. Belo olursa, düşməni bu dağlardan, bu qayalardan geriyə atıb mülklərimizi əlimizdə saxlaya biləcəyik. Əgər bu taleyimizdə yox isə, ərlərə yaraşan mərdliklə ölüm şərbətini içərik. Bizim üçün başqa yol yoxdur. (*Ayağa qalxır*.) Haydı, igidlərim, gedək.

Molla Sadıqdan və Hacı İmamquludan savayı hamı gedir.

M o l l a S a d ı q. Hacı, bu divanələrin oduna biz nə üçün yanaq?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

H a c ı İ m a m q u l u. Molla Sadıq, nə demək istəyirsən?

M o l l a S a d ı q. Bolşeviklər bizə qalib gələcəklər, buna mənim şübhəm yoxdur.

H a c ı İ m a m q u l u. Mənim də şübhəm yoxdur.

M o l l a S a d ı q. Onda bizim halımız necə olacaqdır?

H a c ı İ m a m q u l u. Yəqin bolşeviklər cümləmizi qətlam edəcəklər.

M o l l a S a d ı q. Etməyə də haqları var, çünki Əmiraslan ağanın tərsliyindən hər iki tərəfdən çox qan tökülmüşdür, o indi bu uçuq qalaya pənah gətirmişdir.

H a c ı İ m a m q u l u. Xeyr a! O cəngavərlərin müqabilində belə qalalar davam etməz.

M o l l a S a d ı q. Cahangir ağa ədalətli bir hakim kimi qan tökmək tərəfdarı deyil, lakin ağlını qayib etmiş kişi, görmürsənmi, eşitmək belə istəmir. Hacı, bunların içində bir özümlə səni ağıllı görürəm. Aqil olan şəxs canım bihudə yerə güdəza verərmi?

H a c ı İ m a m q u l u. Xeyr, verməz, fikrin nədir?

M o l l a S a d ı q. Bolşeviklər tərəfə keçmək.

H a c ı İ m a m q u l u. A kişi, nə deyirsən? Dəli olmusan nədir?

M o l l a S a d ı q. Nə üçün dəli oluram? Biz öz ixtiyarımızla bolşeviklərə təslim oluruq. Qan tökməkdə də iştirak etmirik. Bundan əlavə mən Cahangir ağanın şəriət müəllimi olmuşam. Sənin də oğlun Həsən onun köməkçisidir. Onlardan bizə nə xəta yetişə bilər?

H a c ı İ m a m q u l u. Bu doğru, fəqət nə yol ilə bu zalım ağalardan xilas ola bilərik? Qaladan çıxmaq imkanı varmı?

M o l l a S a d ı q. Var. Mən ancaq sənin razılığını gözləyirəm.

H a c ı İ m a m q u l u. Mən razıyam. Bəs arvad-uşaq necə olsun?

M o l l a S a d ı q. Nə arvad-uşaq? Ölüm zamanı arvad-uşaqmı yada düşər? Gedək öz canımızı xilas edək.

H a c ı İ m a m q u l u. Doğru deyirsən, gedək:

Çıxırlar, sonra Gövhər xanım Sənəmin köməkliyi ilə alt qatdan Əmiraslan ağanın salonuna gəlir. Divanın üstündə oturur.

G ö v h ə r x a n ı m. Gör nə zəif düşmüşəm. Bir mərtəbəni çıxmağa məndə taqət qalmayıbdır. Sənəm, Pəricahanın otağından bir yastıq gətir, bir az uzanıram rahat olum.

Sənəm yastıq gətirib divana qoyur, Gövhər xanım uzanır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

G ö v h ə r x a n ı m. Sənəm, qaladan nə xəbər var?

S ə n ə m. Hələ davam edir.

G ö v h ə r x a n ı m. Allah, sənə pənah aparıram. Bizi bu qan içici düşmən əlinə vermə! Sənəm, deyirlər bolşeviklər körpə uşaqları da qırırlar.

S ə n ə m. Xanım, hamısı yalandır. Mən onlardan heç qorxmuram. Onların böyükləri çox rəhmli adamdır. Neçə dəfə təklif etdi ki, mənə qan tökdürməyin, təslim olun. Hayıf ki Əmiraslan ağa qulaq asmır. Bu gün yenə təklif etmişdi, bilmirəm ağa razı oldu, ya yox.

G ö v h ə r x a n ı m. Olmaz. Mən onun tərsliyini bilirəm, heç kəsə qulaq asan deyil. Sənəm, canım xəstə olmasaydı, gedib o böyüyün ayaqlarına yıxılıb öpərdim, yalvarardım, işə qansız əncəm edərdi. O, böyük Rusiyadan gəlmiş. Görəsən, mənim oğlumdan bir xəbər bilərmi?

S ə n ə m. Onu bilmirəm, ancaq Cahangir ağanın sağ olduğunu söyləyirlər.

G ö v h ə r x a n ı m. Ay qız, onu kim deyir? Bəs niyə mənə xəbər vermirsiniz? O adamı tapdırıb doğru xəbər bilərdim.

S ə n ə m. O günü Əhmədgil deyirdilər ki, Bakıda bir adam söyləyirmiş ki, Cahangir ağa Rusiyada qoşun böyüyü olubdur.

G ö v h ə r x a n ı m. Hər nə olursa-olsun, ta ki, sag-salamat olsun. Sənəm, pəncərəni aç, kürsü qoy, oturub bir az özümü havaya verim, nəfəsim təngiləşir.

Sənəm pəncərəni açır, kürsü qoyur. Sonra Gövhər xanımın qoluna girib aparır.

S ə n ə m. Qoy yastığı da qoyum, yumşaq olsun.

Yastığı qoyur, Gövhər xanım oturur.

G ö v h ə r x a n ı m. Nə gözəl hava! Hər yan gül, çiçək! Nə üçün bu insanlar bir-birlərini qırırlar?

S ə n ə m. Xanım, izin ver, gedim, xörəyini hazırlayım.

G ö v h ə r x a n ı m. Yaxşı, get.

S ə n ə m (*gedirkən*). Dərmanını gətirimmi, içəsən?

G ö v h ə r x a n ı m. Yox, lazım deyil. Dərmandan heç bir xeyir görmürəm.

Sənəm çıxır. Səhnə bir müddət sükutda qalır. Sonra tüfəng, top səsləri gurultu salır.Gövhər xanım qalxır ki, pəncərəni örtsün, bu zaman ayaq üstə dura bilməyib yıxılır, Top, tüfəng səsi kəsilir. "Ura!" sədası qalxır. Bir azdan sonra o da kəsilir, Sənəm daxil olur. Gövhər xanımı yıxılmış görüb cəld üstünü alır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

S ə n ə m. Vay, xanıma nə oldu?

G ö v h ə r x a n ı m. Sənəm məni qaldır. Divanın üstə apar...

Sənəm onu qaldırıb divanın üstə uzadır.

G ö v h ə r x a n ı m. Sənəm, ölürəm, amma bu dünyadan nakam gedirəm... Oğlumu görməyib gedirəm... Onun toyunu etməyib gedirəm... Ah, Cahangirim, bir səni görəydim... Axirətə rahat gedəydim.

S ə n ə m (*kənara*). Ah, ürəyim davam etmir. İstəyirəm sirri açıb deyəm. Yox, qoy bilməsin.

G ö v h ə r x a n ı m. Sənəm, gözlərimə qaranlıq çökür... sənəm, Pəricahana de ki, əmmən vəsiyyət etdi... Cahangiri axtarıb tapsın... Ona getsin. Nəslimiz kəsilməsin.

Səsi kəsilir.

S ə n ə m. Ah, yazıq arvad öldü. Müsibətli öldü. Dərdli-qəmli öldü. Yaxşı insan idi, heç kəsi incitməzdi. Bu uzun müddətdə ondan bir acı söz eşitmədim. Başqa xanımlar kimi olmayıb, bir kəsə əziyyət verməzdi. Çox cəfa çəkdin, indi rahat yat.

Gedib yorğan gətirib üstünə salır. Pəricahan daxil olur.

P ə r i c a h a n x a n ı m. Sənəm, qala alındı. İndi buraya gələcəklər, qaçmaq lazımdır. Əmməm də yatmış. Onu durquzmaq lazımdır. Sənəm (*ağlar səslə*). O daha durmaz... Pəricahan xanım.Nə deyirsən? Əmməmə nə olmuş?

Sənəm ağlayır.

P ə r i c a h a n x a n ı m. Ah, yazıq əmməm! (*Gedib divanın önündə diz çökür*.) Yat, rahat ol! Sən bizdən xoşbəxtsən, sən bəlaları görməyəcəksən.

S ə n ə m. Xanım vəsiyyət etdi ki, Pəricahan Cahangiri tapıb-ona getsin. Ondan ayrılmasın.

P ə r i c a h a n x a n ı m. Ey biçarə əmməm! Pəricahan onu tapdı, Sözlərinə baxmadı, yenidən itirdi. Nə etməli? Qəzanın istədiyi bu imiş.

Əmiraslan ağa başı açıq, tükləri pərişan, dəli halda daxil olur.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ə m i r a s l a n  a ğ a. Mən haradayam?.. Hə, bildim. Bayquş yuvasında. Mən Rüstəm Zalam... Ey igid bəylərim! İrəli! Vur! At!

P ə r i c a h a n  x a n ı m. Ah, bəla üstə bəla! Əmücəm dəli olmuş.

Ə m i r a s l a n  a ğ a. Yenə qırmızı! Ora qırmızı, bura qırmızı. (*Pəricahana.*) Sən kimsən? Hə, sən də qırmızı, o yatmış da qırmızı, cəmi cahan qırmızı!.. Mən qırmızı sevmirəm. (*Divara baxır.*) Çəkil, sənə deyirəm, çəkil, çəkil! (*Tavana baxır.*) Oradan ilan sallanmışdır. Ah, düşdü! Necə oldu? Haraya girdi? (*Arayır.*) A, budur, girdi (*Döşünü cırıb baxır.*) Hə... ürəyimə girmək istəyir... Qoymaram... (*Qəməsini çıxarıb ürəyinə soxarkən.*) Öl, müzürr heyvan!..

P ə r i c a h a n  x a n ı m. Ah! Əmücəm özünü öldürdü!.. Cahangir, Cahangir! Şan-şöhrətli xanədanın viran etdin, gəl tamaşaya.

Cahangir əlində qırmızı bayraq, Ədil  bəy, Hadi  lələ, Həsən, bir dəstə qoşun əhli və bir dəstə arvad-uşaqla daxil olur.

P ə r i c a h a n  x a n ı m. Bax, güllədən ölmüş anana! Bax, dəli olub xəncəri ilə özünü öldürmüş atana, tutduğun əmələ tamaşa et! Ürəyin şad olsun!

Cahangir ağa. Poricahan, zülm ilə qurulmuş bina, ziilm ilə qurulmuş xanədan - axırda fot olar. Heç kəs önünü ala bilmoz. Mane olanlar belə fot oiarlar. Indi yeni dünya zühur etmiş. Əski dünya əski qanunları ilə gerek yıxılsın. Poricahan, nə üçün bu əski, zülmkar, tökdüyü qanın içində boğulan dünyadan əl çəkmirsən? Bu Öliilər için-de qalmaqmı istəyirsən?

P ə r i c a h a n. Yox, istəmirəm.

C a h a n g i r. Bu inqilab bayrağı altına gəlirsənmi?

P ə r i c a h a n. Bəli, gəlirəm! (*Onun tərəfinə keçir.*)

C a h a n g i r. Bu şanlı bayrağı al, ona and iç.

P ə r i c a h a n (*alır.*) Ey qırmızı inqilab bayrağı! Bu gündən bütün ömrümü sənin yolunda çalışmağa, qurban verməyə and içirəm.

H a m ı. Yaşasın Pəricahan!

**Pərdə**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# MOLLA NƏSRƏDDİN BAKIDA

*Bir pərdəli, dörd şəkilli pyes*

## İŞTİRAK EDƏNLƏR

M o l l a N ə s r ə d d i n.
P i n ə ç i Q a f a r.
M i r z ə F ə r ə c.
V ə l i b ə y - sabiq mülkədar bəy.
A ğ a S a l e h - zavod sahibi.
A ğ a Ş i r ə l i - burjua.
E r m ə n i k e ş i s i.
İ v a n o v a - rus qadını.
C a v a d
R ə c ə b }spekulyantlar
M i l i s i o n e r.
M e m a r - rus.
Ş a h s ə n ə m - Qafarın arvadı.
G ü l p ə r i - Mirzə Fərəcin arvadı.
Ç ö r ə k ç i.

## BİRİNCİ ŞƏKİL

Səhnə bir karvansara qapısını göstərir. Qapının sağ tərəfində Mirzə Fərəc əlləri qoynunda qəmgin oturub məktub yazdıran gözləyir. Onun qabağında bir balaca masa, üstə kağız, qələmdan və bir balaca kasa içində məktub qurulamaq üçün qum. Digər tərəfdə Pinəçi Qafar çust yamayır.

P i n ə ç i Q a f a r (*oxuyur*.)

Pinəçi mənəm, işləsəm mədarım keçməz mənim.
Bu qışı burada qışlamasam mədarım keçməz mənim.

(*Mirzə Fərəcə*) Kişi keyfin olsun! Sən də mənim kimi oxu, gül, de, danış.

M i r z ə F ə r ə c. Sənin keyfin kökdür, onun üçün də oxuyursan. Mən niyə oxuyum? Gündəlik çörək pulumu qazana bilmirəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Molla Nəsrəddin daxil olur.

M o l l a N ə s r ə d d i n. Səlaməleyküm, ey bitli-sirkəli qardaşlarım! Çoxdan bəridir sizdən xəbərim yoxdur. Gəldim, görüm ruzigarınız necə keçir?

P i n ə ç i Q a f a r. Və əleykümə̈ssəlam, Molla əmi! Sən buraya xoş gəlmisən. Dayan, sənin üçün bu saat bir hava da oxuyacağam. (*Oxuyur.*)

Molla dayı sən bura xoş gəlmisən,
Harada idin bəs niyə gec gəlmisən?
Ağaları əski haldan salmışıq,
Mülklərini əllərindən almışıq.

M o l l a N ə s r ə d d i n. Mirzə Fərəc, Pinəçi Qafarın keyfi ulduza hürür. Sən niyə gəmilərini bolşeviklər almış xozeyinlər kimi qəm dəryasına batmısan?

M i r z ə F ə r ə c. Molla dayı, Pinəçi Qafarın keyfi ulduza hürür. Kommunxoz yoldaşın dövlətindən mən də dilənçi halına düşmüşəm. Tovariş Narkomprosun əməlindən.

M o l l a N ə s r ə d d i n. Hə, başa düşürəm, yəqin Pinəçi Qafara amerikalı yoldaşı kommunxozdan böyük pul çatıbdır. Onun üçün də keyfi kökdür.

P i n ə ç i Q a f a r (*gülür.*) Molla əmi, yoxsa badı-buduçu Məşədi Məhəmmədəlini deyirsən?

M o l l a N ə s r ə d d i n. Hə, hə, onu deyirəm, sənin dostunu. Tiflisdə badı-budu satardı. Səhərdən axşama kimi səsi kücələrdən kəsilməzdi. Oylə çağırardı: badı-buduya, sibindiyya, ay badı-budu!

Gülüşürlər.

P i n ə ç i Q a f a r. Məşədi Məhəmmədəli bir yerdə oturmağı sevməzdi. Badı-budu sata-sata, gəzməmiş şəhər qoymamışdı.

M o l l a N ə s r ə d d i n. Bir gün Məşədi Məhəmmədəli idarəyə gəlib dedi: Molla əmi jurnalında yaz ki, badı-budu satan Məşədi Məhəmmədəli Amerikaya badı-budu satmağa gedir. Şəklimi də çək. Məni də bərk tərif et. Yaz ki, dünyada birinci badı-buduçudur. Hər kəs onun noğul kimi badı-budusunu yesə, ömrü uzun olar, özü də cavanlaşar. Dedim, a lotu, kələyin nədir? Dedi: Molla əmi, xozeyin



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

olmaq istəyirəm. Deyirlər Amerikada adamlar çox tez pullanır. Sənin jurnalın da dünyanın hər yerinə gedir. Qoy amerikalılar oxuyub mənim pişvazıma çıxsınlar. Onda işim xod olar. Bir az müddətdən sonra eşidərsən ki, Məşədi Məhəmmədəli Amerikada milyonçu olubdur.

P i n ə ç i  Q a f a r. Amerikaya gedəndə mənə yazmışdı ki, səni Molla Nəsrəddin əmiyə tapşırmışam ki, Ağa Şirəli kirayə üstə incitsə onu jurnalında hədələsin.

M o l l a  N ə s r ə d d i n. Doğru deyirsən, gedəndə tapşırmışdı. İndi de görüm, tapmışammı? Məşədi Məhəmmədəli Amerikada kommunxoz olubdur, sənə də pul göndəribdir.

Gülüşürlər.

M i r z ə F ə r ə c. A Molla əmi, indi tap görüm məni bu bəlaya salan tovariş Narkompros kimdir?

M o l l a  N ə s r ə d d i n. Zənnimcə Bakıda "Tovariş Narkompros" adında bir əcnəbi şirkət əmələ gəlibdir. Savadsız adamlara məktublar yazıb ciblərini pul ilə doldururlar. Sən yazığın da çörəyini kəsirlər.

M i r z ə F ə r ə c. Molla əmi, bəli, doğrudur. Mən zavallının çörəyin kəsən o evi bərbad olmuş Narkomprosdur. Lakin o, şirkət deyil, məktəblərə baxan böyük müdirdir.

M o l l a  N ə s r ə d d i n. Hə, başa düşdüm. Görünür o Narkompros Bakıda savad fabriki açıbdır. Məmməd Cəfərləri, tükəzbanları orada oxudub savadlı edir və sənin də çörəyinə bais olur. Yaxşı iş deyil! İranda da bir zaman istədilər dəmiryol salsınlar. Müctəhid ağa mane oldu ki, o, şeytan əməlidir. İslam övladı gərək bu fani dünyada zillət, əziyyət, məşəqqət çəksin. Ta ki, axirətdə huri, qılmanlara nail olsunlar.

P i n ə ç i  Q a f a r. Molla əmi, kommunxoz bilirmisən nədir? Belə irəlidə şəhərlərdə dum olardı. Yadındadırmı?

M o l l a  N ə s r ə d d i n. Yaxşı yadımdadır. Xozeyinlər yığıncağı. Onlara qlasni deyərdilər. Başda durana da qalava.

P i n ə ç i  Q a f a r. Odu, odu, indi o dum işinə kommunxoz baxır.

M o l l a  N ə s r ə d d i n. Qafar, yaxşı yadıma saldın. Buraya gəlincə küçələrdə igirmi iki dəfə səcdəyə getmişəm. Oylə ayaq atmışam, başmağım çuxura düşüb yıxılmışam. Onun qulluğuna getməliyəm. Öz aramızdır, deyəsən, bu kommunxoz da köhnə xozeyinlər kimi işə kəm baxır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

P i n ə ç i  Q a f a r. Molla əmi, o kommunxozun dövlətindən Bakıda gön-zad tapılmayır. Ayaqqabı da o qədər bahadır ki, yaxına düşmək olmayır. Onun üçün də mən Pinəçi Qafarın işi xoddur. Başım nə ağradım, hər çustun yamağına yüz mindən az almıram.

M o l l a  N ə s r ə d d i n. Hə, indi başa düşdüm ki, sən nə ücün kommunxoz iddəa edirsən, Mirzə Fərəc de narkomprosa qarğış.

M i r z ə F ə r ə c. Molla əmi, burada mənim çörəyim kəsildi. Vətənə getmək istəyirəm. Nə məsləhət görürsən?

M o l l a  N ə s r ə d d i n. Məbadə oylə fikrə düşəsən. Hər kəs Azərbaycandan İrana qədəm qoyur - bolşeviksən deyə dara çəkirlər. Amma bolşeviklər də yaman adamlardır. İran nədir, Turan nədir - hələ desən Hindustana gedib çıxacaqlar. A balam, bircə deyin görüm, bu kommunxoz, narkompros - nə dilidir ki, sizlər danışırsınız? Mən bu qarğa dilini necə öyrənim? Mən gedən vaxtı burada belə dil yox idi. O zaman bizim abrazovanın cavanlarımız belə danışardılar: Mən sizi səvsəm panimat etmirəm. Mollalar da deyərdilər; - Şəcəri-ənacirin zilli-təhtində istirahət üçün nüzul etdikdən fərəsi-müənnəsin qürbi-fəmindən liçam münqəte olmuş anı buldunmu?

Gülüşürlər.

P i n ə ç i  Q a f a r.  Molla əmi, bu bolşevik dilidir, gərək öyrənəsən, yoxsa, köhnə dil ilə danışarsan, səni başa düşməzlər, tutub çekaya salarlar.

M o l l a  N ə s r ə d d i n. A Qafar, çeka nə deməkdir?

P i n ə ç i  Q a f a r. Orada müqəssirlərin işinə baxırlar.

M o l l a  N ə s r ə d d i n. Demək, əski zamanın okrujnoy sudu.

M i r z ə F ə r ə c. Yox, çeka ondan çox-çox böyükdür.

P i n ə ç i  Q a f a r. Molla əmi, bu axşam mənə qonaq gələrsən. Özüm də səhər tezdən yağlı ət alıb Şahsənəmə göndərmişəm ki, piti qoysun. Şahsənəmin də səliqəsin görmüsən. Sənə bir ləzzətli piti verəcəyəm, yanında sumax, təzə qatıq, ağ kağız kimi lavaşa, Cərco qovunu, Bakı üzümü. İçəri vuraq. Mən də sənə bu təzə bolşevik dilini öyrədim. Molla əmi gəlir?

M o l l a  N ə s r ə d d i n. Şahsənəmin pitisindən keçmək olmaz. Gəlir... Mən de durum Quba meydanını yoxlayım, görüm əski dostlarımın halı necədir? İşlərim çoxdur. Gərək cəmi idarələri gəzəm, Haqq-hesablarına baxam. Görüm bunlar nə cür iş aparırlar? (*Qalxır*.)



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

P i n ə ç i  Q a f a r. Yaxşı, get, amma Molla əmi, ehtiyatlı ol. Düşmənlərin çoxdur, sabiq ağaların çoxunu Quba meydanında tapacaqsan. Məndən sənə əmanət, müsəlman ilə danışanda "yoldaş" de, urus itə "tovariş".

M o l l a  N ə s r ə d d i n. A Qafar,birdən yanılıb urusa yoldaş desəm mənə acığı tutmaz ki?

P i n ə ç i  Q a f a r. Bolşevik olsa, acığı tutmaz. Həqiqi urus olsa, cəmdəginə kopuyacaqdır: Kakoy çort ya tebe yoldaş?

M o l l a  N ə s r ə d d i n. Qafar, yəni o həqiqilərdən genə də var?

P i n ə ç i  Q a f a r. Molla əmi, nə qədər istəsən.

M o l l a  N ə s r ə d d i n. Görünür, onlarla bolşeviklər bacara bilməyirlər. Hələ ki, xudahafiz.

P i n ə ç i  Q a f a r. Molla əmi, bir dayan, yaxşı yadıma düşdü. Kişi, başbiletin varmı?

M o l l a  N ə s r ə d d i n. Xeyr, Qafar, yoxdur. İrandan bu gün gəlmişəm. Hələ başbilet çıxartmamışam.

Q a f a r. Bəs hara düşmüsən?

M o l l a  N ə s r ə d d i n. Təbriz mehmanxanasına.

Q a f a r. Molla əmi, ehtiyat üçün mənim udastaverenimi götür, adresim də orada var. Bir iş olsa, məni o adres ilə çağırtdır. (*Kağızı verir*.)

M o l l a  N ə s r ə d d i n. A Qafar, bu baş biletdir, nədir?

P i n ə ç i  Q a f a r. Bəli, başbiletdir, adına udastaverenni deyirlər.

M o l l a  N ə s r ə d d i n. Qafar, görünür, bolşeviklər də başbiletdən əl çəkə bilməyirlər, ancaq adını dəyişdiriblər. Mən getdim. (*Gedir.*)

**Pərdə**

İKİNCİ ŞƏKİL

Səhnə Quba meydanının bir guşəsini göstərir. Vəli bəy qovurulmuş şabalıd, Ağa Şirəli qovurma, Ağa Saleh də halva satırlar.

A ğ a  S a l e h. Halvası, halvası! Slatki halvası! Nastayaşi malmalat!

V ə l i  b ə y. Jrinni kaştan! Kaştan!

A ğ a Ş i r ə l i. Qavurma, qavurma! Yağlı qavurma!

A ğ a  S a l e h. Şirəli, malıyın əsil adını desənə?

A ğ a  Ş i r ə l i. Ay onun adı batsın! Qavurma, qavurma! Adı yaman, özü dadlı!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

V ə l i  b ə y. Hey, get ey fələk, hey! Keçmişdə o hadim vaxtımda bir axşamçağı küçə ilə gedirdim. Qəflətən bir şey partladı. Dedim yəqin məni atdılar. O vaxtı düşmənlərim çox idi. Baxıb gördüm ki, bir həmşəri şahbalut partıltısı imiş. Şahbalutu ayağımla vurub küçə ilə bir elədim. İndi qəzanın işinə bax ki, özüm şahbalut qavurub satıram. Hanı keçmiş dövran! Dəmlər o dəmlər idi, zaman o zaman idi!

A ğ a  Ş i r ə l i. Vəli bəy, mən də keçmişdə, o gözəl vaxtda bir gecə restoranda yoldaşlarımla (*indiki yoldaşlarımı demirəm ha*) kef edirdim. Hər cür içki içib sərxoş olan zaman həmin indi bu halva satan dostumuz Ağa Saleh gəlib çıxdı. Dedi: sizin hamımızı ştraf edəcəyəm, nə üçün mənsiz kef edirsiniz. Gərək bu saat stol təzələnə! Konyak, vodka meydana gələ. Qavurmaçı Mehrinin də adı yaman, özü dadlı qavurması da burada hazır ola. Ağa Salehin də bir sözü iki olmazdı. Bəli, qavurma hazır oldu. Biz də təzədən lül qənbərqulu olduq. Ah, dəmlər o dəmlər idi, zaman o zaman idi!

A ğ a  S a l e h. Düzdür, dəmlər o dəmlər idi. Fəqət biz də müdəm məst olub, bizə dərin quyu qazan bolşeviklərə kömək edən molla nəsrəddinləri vaxtında tələf etmədik.

V ə l i  b ə y. Bunu Ağa Saleh doğru deyir. Molla Nəsrəddinin jurnalından kəndli-fəhlə məsələsi düşməyirdi.

A ğ a  Ş i r ə l i. Onda mənim də yanığım var. Ah! Bir gəlib buraya çıxaydı, onun o uzun hənalı saqqalında bir tük qoymazdım!

V ə l i  b ə y. Mən də onun ala-bula əmmaməsini bu saca salıb şahbulat kimi qavurardım.

A ğ a Ş i r ə l i. Aman! Ya rəbb! Odur, Molla Nəsrəddin gəlir.

Molla  Nəsrəddin daxil olur, onlara diqqətlə baxır.

M o l l a  N ə s r ə d d i n. Səlaməleyküm, ey sabiq ağalar, xozeyinlər, indi qavurma, halva satan füqərayi-kasibo!

A ğ a  S a l e h. Əleyküməssəlam, ey bizləri bu günə qoyan fitnə fücur Xacə Nəsir, qoca Nəsir!

M o l l a  N ə s r ə d d i n. Hə! İndi mən deyənə gəlmisiniz!

V ə l i  b ə y. Oylə ki, sən biz bəylərə külüng vururdun, axırda bu günə düşəcək idik. Müdam biz mülkədarların əleyhinə yazdın:

Bağın, əkinin xeyrini bəylər görəcəkmiş,
Toxum əkməyə dehqanları neylərdin, ilahi,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İş rəncbərin, güc öküzün, yer özününkü,
Bəyzadələri, xanları neylərdin, ilahi.

A ğ a  S a l e h. Fəhlələri də bizim üstümüzə qaldırmağa yazırdın:

Fəhlə, Özünü sən də bir insanmı sanırsan?
Pulsuz kişi, insanlığı asanmı sanırsan?

O qədər belə yazdın ki, axırda onlar da üsyan edib bizləri bu günə saldılar.

M o l l a N ə s r ə d d i n. Hə, başa düşürəm. Siz ağa xozeyinlər mənə sud qurmuşsunuz. Onda mən müqəssirin də danışmağa haqqı varmı?

A ğ a  Ş i r ə l i. Var, söylə görək nə deyəcəksən?

M o l l a  N ə s r ə d d i n. Ağa Şirəli, mən siz dövlətlilərə belə nəsihət etmədimmi?

Dövlətli, amandır! Özünü salma bəlaya
Fəhlə sözü haqq olsa da, baxma o sədayə.

A ğ a  S a l e h. A hiyləbaz molla, sənin bu kələyini biz də duymuşduq. Fəhlədə sənin sözlərini tərsinə anlamaq lazımdır.

M o l l a  N ə s r ə d d i n (*kənara*). Doğrudan da, kələyimi duymuşlar. Görüm bunların əlindən necə xilas oluram? (*Onlara.*) indi mənim barəmdə fikriniz nədir?

V ə l i  b ə y. Mən əhd eləmişəm ki, sənin o əmmaməni bu şahbalut qazanında yandıram.

A ğ a Ş i r ə l i. Mən də səni xurd-xəşil edib bu qavurma qazanında Molla Nəsrəddin qavurması bişirəm.

A ğ a  S a l e h. Mən də Molla Nəsrəddin halvası yoğuram.

Vəli  bəy şabalıd çömçəsini, Ağa  Şirəli qovurma çömcəsini, Ağa  Saleh halva bıçağını götürüb Molla Nəsrəddinin üzərinə hücum edirlər.

M o l l a  N ə s r ə d d i n. Qaradavoy, qaradavoy!

V ə l i  b ə y. Sizlərin dövlətindən köhnə hökumət öz qaradavoyları ilə təşrif apardılar...

M o l l a  N ə s r ə d d i n (*qoltuğundan Qafar verdiyi kağızı çıxarıb göstərir.*) Məni döymək olmaz! Bu möhürlü kağızı görürsünüzmü? Hünəriniz var mənə bir çırtma vurun, hamınızı tutub çekaya salarlar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onlar kağızın nə olduğuna fikir verməyib möhürdən qorxurlar.

A ğ a S a l e h. Molla əmi, biz sənlə zarafat edirdik.

V ə l i b ə y və A ğ a Ş i r ə l i. Buyurunuz bizə qonaq olunuz. Molla Nəsrəddin. Görürəm mənim gəlməyimdən ovqatınız təlx olubdur. Çox şadıq. Keçmiş günahlarımızı boynumuza alırıq.

A ğ a Ş i r ə l i. Xeyr, xeyr. (*Oxuyurlar.*)

Söylədik aldatmıyalım fəhləni, fəhləni,
Əldə də oynatmayalım fəhləni, fəhləni.
Yer verin azad eliyək kəndlini, kəndlini
Dəhridə dilşad eliyək kəndlini, kəndlini
Biz vəli bunlara qulaq vermədik, vermədik
Bu gələcək işləri biz görmədik, görmədik.

**Pərdə**

## ÜÇÜNCÜ ŞƏKİL

Səhnə bir küçə göstərir, Molla Nəsrəddin sabiq ağaların əlindən xilas olduqdan sonra kommunxoz idarəsinə getmək istəyir. Lakin o sözü unudub küçədən gedən adamlardan soruşmaq istəyir. Rəcəb ilə Cavadı dayandırıb soruşur.

M o l l a N ə s r ə d d i n. A yoldaşlar, bircə dayanın, sizdən bir soruşmalım var.

R ə c ə b. Bizim molla ilə yoldaşlığımız tutmaz. Bizim sənətimiz başqa şeydir.

C a v a d. Rəcəb, qoy kişi sözünü desin. Kim bilir, bəlkə yoldaşlığımız tutdu. Görmürsən ki, bura adamına oxşamır. Bəlkə molla libasında... o söz.

R ə c ə b. Doğru deyirsən. Molla əmi, buyur görək, bizdən nə soruşmaq istəyirsən?

M o l l a N ə s r ə d d i n. Sizdən bir söz soruşmaq istəyirəm. Ancaq yadımdan çıxıbdır. Nə edim, qoca kişiyəm, hafizəm yoxdur. Pinəçi Qafar ilə Mirzə Fərəc öyrətdilər, yenə də unutdum. Belə qozdur, xozdur, buna oxşayan bir sözdür.

C a v a d. Molla dayı, bizdən çəkinmə, malıym əsil adını de.

R ə c ə b. Molla əmi, biz də aramızda sövdə edəndə guya qoz alırıq, kişmiş satırıq, deyirik. Lakin əsil alış-verişimiz başqa şeydir... o söz.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

M o l l a  N ə s r ə d d i n. A balam, mən sizi başa düşə bilmirəm, açıq danışın.

C a v a d. Düzü, biz qızıl alış-verişi edirik. Bizə speklyant deyərlər. Sən, deyəsən, İrandan gəlmişsən. Qrandan, lirədən, dollardan nəyin var isə qiymətini de, sövdəni başlayaq.

M o l l a  N ə s r ə d d i n. Düzdür, mən İrandan gəlmişəm, lakin siz deyən şeylər məndə yoxdur.

R ə c ə b. Sənə demədim ki, bizim molla ilə yoldaşlığımız tutmaz. Onlardan kim xeyir görmüş ki, biz də görək.

C a v a d. Rəhmətliyin oğlu, bizi işdən, gücdən qoyubdur ki, nə var, sizdən söz soruşacağam.

R ə c ə b. Gəl gedək. İndi malakan bağında rəqiblərimiz işlərini düzəltdilər.

C a v a d. İndi allah bilir, bu qoca kaftar bizə neçə milyon zərər vurdu!

Gedirlər.

M o l l a  N ə s r ə d d i n. Bolşeviklərin də möhtəkirliklərlə bacarmadıqlarını görürəm! (*Erməni keşişini görüb.*) Axper, bir dayan!

K e ş i ş. Kila niyə dayanmıram, dayanaram. Görürəm sən də mən dərdlisən. Gəl iki badbaxt ürəyimizi bir-birimizə boşaldax. Kila, a Molla! Gördün ki, bu şeytan bolşeviklər biz ruhanilərin başına nə gətirdilər?

M o l l a  N ə s r ə d d i n. Nə gətirdilər, axper?

K e ş i ş. Daha nə gətirəcəklər? Kila, bu evi bərbad olmuş bolşeviklər çörəyimizi kəsdilər.

M o l l a  N ə s r ə d d i n. Necə?

K e ş i ş. İndi heç kəs gəlib bizə kəbin kəsdirmir. Hamı dindan, masapdan çıxıbdır. Kila, indi oğlan qıza deyir: Bana gələrsən? Kila, qız da oğlana deyir, gələrəm. İş bunla qurtarır. Daha bizə işləri yoxdur.

M o l l a  N ə s r ə d d i n. Axper, burada təqsir kimdədir?

K e ş i ş. Kimdə olacaq? Əlbəttə, bolşeviklərdədir.

M o l l a  N ə s r ə d d i n. Xeyr, axper, bizdədir. Biz din, məzhəbilə alış-veriş edib ciblərimizi pul ilə doldururduq. Molla ilə keşişin cibinin böyüklüyü də zərb-məsəl olmuşdur.

K e ş i ş. Ban elə bildim ki, molladan bolşevik olmaz. Sən, kila, bolşeviklərin atasısanmış. Banım sənlə söhbətim tutmaz. Kila, xudahafis. (*Gedir.*)



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

M o l l a N ə s r ə d d i n. Bizim mollalara həqiqəti söyləyəndə ya kafirsən, ya da babısan deyərdilər. İndi onların əvəzinə bolşeviksən deyirlər. (*Memar keçir.*) - Tovariş, bacaliska...

M e m a r. Kakoy çort ya tebe tovariş. Stolka let trudilsiya, okonçil vısşeye uçebnoye zavədeniye i vdruq tovariş kakomuto staromu mulle! (*Gedir.*)

M o l l a N ə s r ə d d i n. Mənə acığı tutdu. Görünür Qafar deyən həqiqi ruslardandır. (Çörəkçi başında çörəklə dolu tabaq oxuya-oxuya gəlir.) A çörəkçi qardaş, bir dayan!

Ç ö r e k ç i. Baş üstə! (*Tabağı başından endirib yerə qoyur.*) Molla əmi, indicə təndirdən çıxartmışam. Gör nə ağ çörəkdir. Xalis sarıbuğda unundan bişibdir. Deyəcəksən girvənkəsi otuz min manata bahadır. Vallahi, kişi, baha deyil! İndiki otuz min köhnə pul ilə üç köpik edir. Bahadır?

M o l l a N ə s r ə d d i n. A balam,mən çörək alınıram. Səndən köhnə dumun yolunu soruşuram. Oraya gedəcəyəm.

Ç ö r ə k ç i. Rəhmətliyin oğlu, işdən-gücdən avara edibdir ki, mənə köhnə dumun yolunu göstər. Bilirəm bizdən şikayət etmək istəyirsiniz. (*Tabağı başına qaldırır.*) Biz çörəkçilərlə nə köhnə dum, nə tazə dum, nə sovnarkom, nə kommunxoz, nə refkom, nə uçkom, nə domkom heç kəs bacara bilməz. Çörəyi gündə beş min artıracayıq. (*Gedir.*)

M o l l a N ə s r ə d d i n. O dediyin sözlərin içində mən axtaran da var idi. Amma zalım oğlu öylə tez-tez dedi ki, bir kom, komdan başqa heç biri yadımda qalmadı. (*İvanova gəlir.*) Bacaliska, madam. Dom mini bakacı, baydom domoy...

İ v a n o v a. Çto? Ax tı stany çort! Menya domoy priqlaşayeş? Ya tebe seyças pokaju.

M o l l a N ə s r ə d d i n. Bunun da acığı tutdu.

M o l l a N ə s r ə d d i n. Milisioner!

Milisioner gəlir.

M i l i s i o n e r. Çto skajite tovariş?

İ v a n o v a. Etot stany çort priqlaşayet menya k sebe domoy. Ponimayete.

M i l i s i o n e r. Da ponimayu.

İ v a n o v a. Tak vozmite yeqo v rayon.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

M i l i s i o n e r. Molla, gedek!

M o l l a N ə s r ə d d i n. Haraya?

M i l i s i o n e r. Rayona!

M o l l a N ə s r ə d d i n. Nə üçün?

M i l i s i o n e r. Sən bu arvada sataşmısan.

M o l l a N ə s r ə d d i n. Mən ona sataşmamışam. Söz soruşmuşam. Görünür məni başa düşməmiş.

İ v a n o v a. Çto yeqo sluşayete? Vozmite v rayon, tam razberut.

M i l i s i o n e r. Molla, gedək, orada məlum olar.

M o l l a N ə s r ə d d i n. A balam, vallah, mənim təqsirim yoxdur.

M i l i s i o n e r. Çox danışma. Orada məlum olar.

Üçü də gedir.

**Pərdə**

DÖRDÜNCÜ ŞƏKİL

Səhnə Pinəçi Qafarın otağını göstərir. Otaq palaz ilə döşənmiş. Divar içində iki dolab. Birisi qab-qacaq üçün. O biri yorğan döşək üçün. Rəf üstündə stəkan, nəlbəki, qəndqabı, piyalə, çaynik və qeyri. Buxarı. Onun sağında Mirzə Fərəc, solunda Qafar, döşəkcə üstə oturmuşlar. Pərdə qalxdıqda Gülpəri ilə Şahsənəm samovarın yanında oturub biri qənd doğrayır, o biri stəkan yuyur.

Q a f a r. A Mirzə Fərəc, Molla əmi gəlib çıxmadı. Görəsən, kişinin başına nə iş gəldi?

M i r z ə F ə r ə c. Adə Məşədi Qafar, olmaya ağalar Molla əmini dolaşdırıb tutdurdular. Kişinin başbileti də yoxdur.

Q a f a r. Bəs mən verdiyim udastaverenni nədir?

M i r z ə F ə r ə c. O kağız senin adınadır,Molla əminin adına deyilki?

Q a f a r. Molla əmi deyər ki, Məşədi Qafar mən özüməm.

M i r z ə F ə r ə c. Molla əmi onu deməz, desədə inanmazdılar. Çünki molla libasında başı əmmaməli pinəçi olmaz. Mənim udastaverennim olsaydı inanardılar. Çünki o da oxumuş adamdır mən də. O da abalı, qurşaqlıdır mən də.

Q a f a r. A Mirzə Fərəc, yenə oxumaqdan dəm vurursan? Mən sənin kimi oxumuşlara bir qara köpük də verməræm. Kişi sən düz kağız yazmağı da bacarmırsan.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

M i r z ə F ə r ə c. Adə, mən düz yaza bilmirəm? Mənim kimi məktub yazmağı heç sənin baban da bacarmaz!

Q a f a r. Mənim babam İranda molla imiş. Rəhmətlik sağ qalsaydı, indi müctəhid olmuşdu.

M i r z ə F ə r ə c. Mənim də babam fərraş imiş. Rəhmətlik ölməsəymiş indi Həmədanda hakim idi.

Ş a h s ə n ə m. A Gülpəri, görəsən bizi bu külbaşlara ərə verən zaman ağılları harada imiş?

Q a f a r. A Mirzə Fərəc, bu dünya gözəllərinə elçi gedib bəyənən vaxtı analarımızın gözləri harada imiş?

Bayırda avtomobil fit verir.

Ş a h s a n ə m (*pəncərədən baxarkən*). Qafar, qapımıza avtomobil gəlir. Bu nə işdir?

Q a f a r (*baxır*.) Nə mənə? Molla əmidir?! Avtomobildə gəlir?!

M i r z ə F ə r ə c. Kişi nə deyirsən? (*Durub baxır*.) Doğru.

Molla Nəsrəddin daxil olur.

M o l l a N ə s r ə d d i n. Axşamın xeyir, a Şahsənəm! Gülpəri, kefin necədir?

Ş a h s ə n ə m. Aqibətin xeyir, a Molla əmi. Mənim bu evim, eşiyim sənə qurban olsun! Bu döşəkçənin üstə otur.

Molla Nəsrəddin oturur.

Q a f a r. Arvad, mütəkkəni qoy, Molla əmi söykənib rahat olsun. Şahsənəm. Bu saat.

Mütəkkə gətirib qoyur.

M i r z ə F ə r ə c. Molla əmi, səndən çox nigəran idik. Dedik görəsən kişinin başına nə iş gəldi ki, bu vaxta kimi gəlib çıxmadı.

M o l l a N ə s r ə d d i n. Mirzə Fərəc, başıma çox qəzavü-qədər gəlibdir. Söyləyəcəyəm.

Şahsənəm çay töküb onun qabağına qoyur.

Ş a h s ə n ə m. Molla əmi, bilirəm, Təbriz çayına öyrəşmisən, bizim bu payok çayı xoşuna gəlməyəcəkdir. Kişi bazardan gec gəldi. Yaxşı çay ala bilmədik.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

M o l l a  N ə s r ə d d i n. Şahsənəm, susuzluğum var, hər nə cür çay olsa, içəcəyəm.

Gülpəri çay tökür, Şahsənəm də paylayır.

Q a f a r. Molla əmi! Mənim kağızım işə gəldi?

M o l l a  N ə s r ə d d i n. Çox yaxşı!

Q a f a r. Mirzə Fərəc eşidirsənmi?

M i r z ə  F ə r ə c. Molla əmi, demək mollalığı atıb Pinəçi Qafar oldun?

M o l l a  N ə s r ə d d i n (*gülür.*) Xeyr, Mirzə Fərəc hiyləyi-şər qurdum. Sabiq ağalar mənə bihörmətlik etmək istədilər. Üstümə hücum etdikdə Qafarın kağızını əlimə alıb dedim: - Hər kəs bu möhürlü kağızın sahibinə əl qaldırsa, özünü çekada görər. Ağalar qorxudan özlərini itirib - xeyr, Molla əmi biz səninlə zarafat edirik dedilər.

Gülüşürlər.

Q a f a r. Mirzə Fərəc, mənim kağızımın gücünü gördün?

M i r z ə  F ə r ə c. Sənin kağızın yox, Molla əminin ustalığı, bəli.

Q a f a r. Sənin deməyinə görə kommunxozun kağızı sənin narkomprosunun kağızından alçaqdır.

Molla Nəsreddin. Necə? Qafar o sözü bir də de!

Q a f a r. Kommunxoz.

M o l l a  N ə s r ə d d i n. Kommunxoz! Qoca Nəsirin başına bəla gətirən kommunxoz! A kişilər, öylə ki, ağaların əlindən xilas oldum, bazan bir qədər dolandım. Küçələri çox natəmiz gördüm. Kommunxozun qulluğuna getmək fikrinə düşdüm. Lakin kommunxoz sözünü unutdum. Qocalıq əlaməti, hafizəsizlik bəlası.

G ü l p ə r i. Molla əmi, onda Mirzə Fərəcdən xəbərin yoxdur. Üç həftə bundan irəli kişi Qızxanım və Şahpəri üçün İrana kağız yazır. Qızxanımın kağızını Şahpərinin paketinə, Şahpərinin kağızını Qızxanımın paketinə qoyub başlarını bağlayır. Arvadlar poçta salırlar. Kişi onların davalarını indi də çəkir.

Gülüşürlər.

M o l l a  N ə s r ə d d i n. Hə, hər kəsdən köhnə dumun yolunu soruşdum, cavab əvəzinə məzəmmət aldım. Bir rus arvadından soruşdum, cavab əvəzinə qaradovoy çağırdı. Məni özü ilə çasta apardı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

M i r z ə F ə r ə c. Molla əmi, qaradovoy yox, milisioner.

Q a f a r. A kişi, sözü yenə qələt deyirsən, "milisner".

Ş a h s ə n ə m. Daha bəsdir, yenə mübahisəni başlamayın. Qoyun kişi sözünü desin.

M o l l a N ə s r ə d d i n. Qoyun əhvalatı nəql edim, sonra ikinizin də qələtinizi tutacağam. Mən çasta gedəsi Azərbaycanın daxili komissarı, orada olası. O mənim əski dostumdur. Məni görcək dedi: A Molla əmi, sən bura xoş gəlmisən! Dedim: Ay oğlum, xoş ilə gəlməmişəm, məni zor ilə gətiriblər. Əhvalatı nəql etdim. Çox güldü, dedi: Sən həmişə fəhlə-kəndli tərəfdən olmuşsan. Biz sənin qədrini bilirik. Sonra mənə bir sizinki kimi, bir də başqa kağız verdi. Dedi: Molla əmi, indi hansı idarəyə istəsən, gedə bilərsən, qüsurlarımızı da göstərə bilərsən. Biz tənqiddən qorxmarıq. Sonra öz avtomobili ilə buraya göndərdi. Yolda ağaların üçün də bir yerdə gedən gördüm. Mənə elə bellərini büküb baş əydilər ki, heç keçmiş vaxt kəndli, fəhlə də onlara öylə baş əyməmişdi.

Gülüşürlər.

M i r z ə F ə r ə c. Molla əmi, gərək mənim də işimə bir əncam çəkəsən.

M o l l a N ə s r ə d d i n. Hansı işinə, a Mirzə Fərəc?

M i r z ə F ə r ə c. Narkomprosa deyəsən məni şkola müəllim təyin etsin.

Ş a h s ə n ə m. Elə bir o qalmışdı ki, sənin kimi qocalara uşaq tapşırsınlar!

Q a f a r. Arvad, sən bu işlərə qarışma...

M o l l a N ə s r ə d d i n. Mirzə Fərəc! Şahsənəm doğru deyir. Sən ilə mənim mollalığım keçdi. İndi cavan adamlar lazımdır.

M i r z ə F ə r ə c. Molla əmi, başına and olsun məndən çox qoca adamları müəllim təyin ediblər. Heç olmasa, mən də gecə kurslarına dərs deyərəm.

M o l l a N ə s r ə d d i n. İndi səni imtahan edərəm. Bu təzə dili bilsən, mən də təvəqqə edərəm. (*Qoltuğundan dəftərçəsini çıxarıb baxır.*)

M o l l a N ə s r ə d d i n. De görüm, idarələrin ən böyüyü hansıdır?

M i r z ə F ə r ə c. Sovkom.

M o l l a N ə s r ə d d i n. Qafar, belədir?

Q a f a r. Xeyr, Molla əmi, Narsovkom?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

M i r z ə F ə r ə c. Adə, sən get pinəçiliyini elə! Belə şeyləri bilməzsən. Molla əmi, sən ona qulaq asma, mən deyənə bax.

Q a f a r. Mirzə Fərəc, bir mənə qulaq ver. Kişi, bu yeni dildə "kom", "sov", "nar" sözləri çox işlənir. Mən bunların mənasını bilmirəm. Bunu boynuma alıram. Ancaq onu bilirəm ki, "nar" böyüklük göstərir. Hansı komun başına qonursa onu böyük edir. İndi anladınmı?

M o l l a N ə s r ə d d i n. A Şahsənəm, deyəsən bunların heç biri bu təzə dili yaxşı bilməyir.

Ş a h s ə n ə m. Molla əmi, yaxşı başa düşmüsən. Bunları qoyasan oylə mübahisə edələr. Mən də, Gülpəri də bunların sözləşməsindən təngə gəlmişik. Kişi, belə söyüşməyə, davaya çıxırlar. Həftələrlə küs baxılırlar.

M i r z ə F ə r ə c. A Molla əmi, sən özün bizə həkəm ol. Mən deyirəm bu "dankom sözü bizim "dam" sözündəndir. Qafar deyir xeyr, urusun "dom" sözündəndir. Hansımız düz deyirik?

M o l l a N ə s r ə d d i n. Hansınız düz deyirsiniz mən də bilmirəm. Ancaq bu gün məni bəlaya salan o "dom" sözü oldu. Oylə ki, o matışkaya dedim: - madam, bacalıska poydom domoy - mənim üstümə qışqırıb rayona apardı. O dostum böyük idarələrin adlarını dedi mən də bu dəftərimə yazdım. Hə, tapdım "sovnarkom" gördünüz ki, ikiniz də qələt deyirsiniz.

Q a f a r. Molla əmi, sənin dostun səhv edir. Kişi, "nar" gərək başda dursun.

Ş a h s ə n ə m. Aley, kül sənin o höcət başına. O hökumət adamı bilmədi, sən Pinəçi Qafar bildin?

M o l l a N ə s r ə d d i n. Burada ən böyük idarənin adını yazmışam, amma özüm də oxuya bilmirəm. Tərs kimi zirzəbərin də qoymamışam.

Q a f a r. Molla əmi, sən ora-burasından de, mən düzəldərəm.

M o l l a N ə s r ə d d i n. Baş kəlməni aydın oxuyuram. "Az"tsik...

Q a f a r. Hə, Aztsika.

M o l l a N ə s r ə d d i n. Yox, Qafar, sən də düz demirsən. Qoy qalsın. Bu dili yaxşı biləndən öyrənərik. Ay uşaqlar, dil bəlasını çəkdiyimiz zaman ortalığa əlifba bəlası gəldi. Deyəsən, bu ərəb əlifbasının dəyişilmək zamanı gəlib çatmışdır.

M i r z ə F ə r ə c. Kişi, nə danışırsan?

M o l l a N ə s r ə d d i n. İran durur, sən durursan.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ş a h s ə n ə m. Molla əmi, izin ver süfrəni salım.

M o l l a  N ə s r ə d d i n. Çox gözəl olar.

Ş a h s ə n ə m ilə G ü l p ə r i süfrə salmağa məşğul olurlar.

M i r z ə  F ə r ə c. Molla əmi, bolşeviklər hər şeyə əl atırlar. Qorxuram, sən demiş, bu əlifbaya əl atalar.

M o l l a  N ə s r ə d d i n. Mirzə Fərəc, əlifba məsələsi çoxdandır. Dəyişilməsi əski hökumətlərə sərfə deyil idi. Onun üçün də qoymayırdılar. İndi Şura hökuməti latın hərflərinə keçəcəklər.

Q a f a r. Molla əmi, bu bədbəxt heç indikini yaxşı bilməyir. O təzəni necə öyrənəcəkdir?

M i r z ə  F ə r ə c. Qafar! Sən pinəçi adamsan, nə üçün aləm işinə qarışırsan?

Ş a h s ə n ə m. Molla əmi, süfrə hazırdır. Buyur.

Qalxıb süfrə tərəfə gedirlər.

Molla əmi, gəl irəli.
Şahsənəmin can pitisi
Gör nə pişib lap yeməli
Dərdinə dərman pitisi.

**Pərdə**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# ÇƏRXİ-FƏLƏK

*İki pərdəli, dörd şəkilli pyes.*

İŞTİRAK EDƏNLƏR

P i r i - F a n i -uzun, ağsaqqallı və saçlı bir qoca. Libası uzun ağ ləbbadə, üstdən qurşaq.
V ə l i  a ğ a - mülkədarbəy.
A ğ a  S a l e h - zavod sahibi.
A ğ a  Ş i r ə l i - mülkədar.
M u s a  b ə y - Ağa Salehin zavod müdiri, mühəndis.
B a h a d ı r - gəcə bir işçi.
Q ə h r ə m a n
F ə r m a n } Bahadırın yoldaşları
N a d i r
Q u r b a n ə l i - kəndli.
G ü l s ə n ə m - onun arvadı.
Q a f a r - pinəçi.
S a n d r o - restoran xidmətçisi (lakey).
L i d a
Z i n a
M a r u s y a } çəngilər
M a r q o
A l l a h q u l u - işçi.
Bir neçə işçi arvad və kişilər.

## BİRİNCİ PƏRDƏ

### BİRİNCİ ŞƏKİL

Səhnə pərdə ilə iki hissəyə bölünür. Bir hissəsi restoran otağını və digər hissəsi Piri-Faninin komasını və həyətini göstərir. Komanın yanında bir qurumuş ağac kötüyü; hər iki mənzilə qapılar açılır. Pərdə qalxdıqda Piri-Fani komanın ağzında oturmuş və bir carx hərəkət halında görünür. Çarxın pərləri həm otaqda, həm də həyətdə görünür. Qurbanəli və Gülsənəm Piri-Faninin həyətinə daxil olurlar.

Q u r b a n ə l i. Ey pir, daha səbrim tükənmiş, bir ilimin zəhmətini bir gündə itirdim. Qan-tər içində əkib becərdiyim məhsulu Vəli ağa



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

zor ilə əlimdən aldı. Uşaqlarımı ruzisiz qoydu. Bu qış günündə gözləri yaşlı çöllərə saldı. (*Ağlayır.*)

G ü l s ə n ə m. A kişi, qızıl inəyi demədin.

Q u r b a n ə l i. Onu da sən söylə, mənim danışmağa taqətim yoxdur.

G ü l s ə n ə m. Ay pir baba, belə sənə bu Gülsənəmin canı qurban olsun. Mal-qaradan təkcə bir inəyimiz qalmışdı. İnək demə, bir maral, buynuzları göylə gedirdi, yelini yer ilə sürünürdü. Kənddə qızıl inəyin tərifi dillərdə söylənilirdi. Üç gün bundan irəli ağanın naxırçısı inəyimi damğalayıb bəyin naxırına qatmış. Səbəbi guya qızıl inək ağanın qoruğuna girmiş. Ey pir baba, o ağaya biz nə edə bilərik? Səndən başqa bizim imdadımıza yetən yoxdur. Bizə bir çarə qıl.

P i r i - F a n i. Əyləşin, cavabmızı alarsınız.

Əyləşirlər. Pinəçi  Qafar daxil olur, pirə təzim edib ərz eləyir.

Q a f a r. Ey pir, bu qabarmış əllərimin zəhməti ilə Ağa Şirəlinin karvansarasının qarşısında pinəçilik edib yeddi baş külfət ruzisini bir tövr ilə qazanıram. Bu gün xozeyindən əmr çıxmış ki, Pinəçi Qafar ya tutduğu yerə kirə versin, ya da tutduğu yeri azad etsin. Hər iki hal mənim üçün müşküldür. Bu qış zamanı mən haraya gedim? Nə qazanıram ki, uşaqlarımın boğazından kəsib ona kirayə verim? Məgər sansız evlərinin kirayəsi ona kafi deyil ki, mən zavallı kasıbı küçələrə buraxır. Ey pir, səndən İmdad istəyirəm.

P i r i - F a n i. Əyləş, cavabını alarsan.

Allahqulu və bir neçə işçi daxil olur, pirə təzim edirlər.

A l l a h q u l u. Ey Piri-Fani, Ağa Saleh xozeyin bu gün bizləri zavoddan çıxarıb, küçəyə atdı. İndi biz nə edək? Arvad-uşaqlarımız acından fəryad edirlər.

P i r i-F a n i. Səbəb nə olmuş?

A l l a h q u l u. Gündəlik muzdumuz çox az idi. Aldığımız pul külfətimizi ödəmirdi. Bir qədər artırılmasını xozeyindən rica etdik, qəbul etməyib dedi: İndiyə kimi gündə on saat işləmisiniz, bu gündən həmin məbləğə on iki saat işləyəcəksiniz. Bu şərtə biz razı olmadıq.

P i r i - F a n i. Əyləşiniz, cavabınızı alarsınız.

Əyləşirlər, bu halda Bahadır qolları çirməkli, döşü və başı açıq, dalınca Qəhrəman, Fərman və  Nadir daxil olurlar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

P i r i - F a n i. Şikayətəmi gəlmisiniz?

B a h a d ı r (*əllərini belinə qoyub*.) Xeyr, siz Piri-Faninin bu məzlumlara verəcəyi cavabı gözləyirik.

P i r i - F a n i. Əyləşiniz, eşidərsiniz.

Bahadır yoldaşlarını başına cəm edib ayrı əyləşir.

P i r i - F a n i. Ta cavablarınızı alınca sükutda olmalısınız. Piri-Fani başını aşağı salıb fikrə gedir, sairləri də sakit, ona müntəzir olurlar.

**Pərdə**

İKİNCİ ŞƏKİL

Sandro otağıtı qapısını açır. Vəli ağa, Ağa Saleh, Ağa Şirəli və Musa bəy daxil olurlar.

V ə l i a ğ a. Sandro!

S a n d r o. Padano.

V ə l i a ğ a. Qatso! Dünya nədən ibarətdir?

S a n d r o. Ağa, şərabdan, qızdan, qruzinski düdükdən.

V ə l i a ğ a. Malades, Sandro, keçmişləri unutmamısan, hanı Tiflisdə sizin qəsdində kef etdiyim günlər? Hanı Tamara, hanı Marqo?..

S a n d r o. Ağa, Marqo dünən Tiflisdən gəlmişdir.

Vəli ağa. Sandro, bu müjdə iləməni diriltdin. Al. (*Pul verir*.) Bu sənin muştuluğun, qoy başqa lakey padavat etsin. Sən Marqonun dalınca get.

S a n d r o. Ağa, xəbər etmişəm, gələcəkdir.

A ğ a S a l e h. Sandro, bizim qızlara da xəbər vermisənmi?

S a n d r o. Bəli, xozeyin, vermişəm.

A ğ a Ş i r ə l i. Sandro, stolu düzəlt, mən acından ölürəm.

S a n d r o. Ağa, bu saat. (*Çıxır*.)

A ğ a Ş i r ə l i. Ağa Saleh, eşitdim bu gün raboçilərin zabastovka ediblər?

A ğ a S a l e h. İstədilər muzdlarını artırsınlar, öz yerlərini də itirdilər.

M u s a b ə y. Xozeyin, gərək bir qədər artırıb ağızlarını yumaydın. Gündə on iki saat zəhmətə heç bir fəhlə dözməz.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

A ğ a S a l e h. Niyə dözməz, qoy bir-iki gün ac qalsınlar, hamısı gəlib, ayaqlarıma yıxılıb yalvaracaqlar. Allah onları bizlər üçün işləməyə yaradıbdır.

V ə l i a ğ a. Bizləri də şampanski içməyə.

Sandro daxil olur, stola içki və yemək qoyur.

A ğ a Ş i r ə l i. Ay sağ ol, Sandro. Şampanskini buza qoymusanmı?

S a n d r o. Bəli, qoymuşam.

V ə l i a ğ a. Sandro, qızlar necə oldu?

S a n d r o. Ağa, bu saat gələrlər.

A ğ a S a l e h. Vəli ağa, tamada vəzifəsi siz ilədir.

V ə l i a ğ a. Oğul deyirəm, bu gün mənimlə içə bilsin. Hamınızı şəhid edəcəyəm.

Bu halda Lida, Marusya və Zina daxil olurlar.

Q ı z l a r. Ura!

X o z e y i n l ə r. Ura!..

L i d a. Şiroçka! (*Ağa Şirəlinin üstə yüyürür*.)

M a r u s y a. Sali! (*Ağa Salehin üstə yüyürür.*)

Z i n a. Musiçka! Musiçka! (Musa bəyin üstə yüyürür.)

V ə l i a ğ a. Sandro, evimi yıxdın. Marqo harada qaldı. Məni xanımsız qoydun.

S a n d r o. Ağa, bu saat gedim gətirim. (*Gedir*.)

A ğ a S a l e h, Tamada, nə yatmısan? Xanımlar yemək istəyirlər.

V ə l i a ğ a. Bu saat, kim nə içmək istəyirsə desin: konyak var, zubrovka var, benedektin var, nastoyaşşiy smirnovka var.

A ğ a Ş i r ə l i. Mən konyak içəcəyəm. Ağa Saleh, Mən də.

M a r u s y a. Mən vodka içəcəyəm.

V ə l i a ğ a. Sağ olsun Maruska xanım, mən özüm də vodka içəcəyəm.

Bu halda Marqo və çalğıçılar daxil olurlar.

M a r q o. Valya! Valiçka! (*İstəyir Vəli bəy tərəfə gəlsin*.) Vəli ağa. Marqo, yerində dur. Ustalar çalınız! Marqo, oradan süzə-süzə gəlib mənlə görüşərsən.

Çalğıçılar çalırlar. Marqo da oynaya-oynaya gəlib Vəli ağa ilə görüşür.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

A ğ a Ş i r ə l i. Sağ olsun Marqo, nə gözəl oynayır.

A ğ a S a l e h. Sağ olsun belə Gürcüstan tavadı. Qospada, Marqo xanımın sağlığına içək.

İçirlər.

A ğ a Ş i r ə l i. Dövran bizimdir, bizim.

A ğ a S a l e h. Mülki-Süleyman bizimdir, bizim.

V ə l i a ğ a. Marqo xanım da mənimdir, mənim.

A ğ a Ş i r ə l i. Çərxi-fələyi döndərən olmaz.

A ğ a S a l e h. Biz ağaları bu büsatdan endirən olmaz.

V ə l i a ğ a. Sandro, şampanski və meyvə gətir.

S a n d r o. Bu saat, ağa. (*Gedir.*)

M a r u s y a. Sali, pul var?

A ğ a S a l e h. Var, var.

L i d a. Şiroçka, ev var?

A ğ a Ş i r ə l i. Var, var.

M a r q o. Valiçka, mülk var?

V ə l i a ğ a. Duşoçka, var, var.

Z i n a. Musiçka, bəs sənin nəyin var?

M u s a b ə y. Mənim də səni sevən ürəyim var.

Z i n a. Fu! O, hammalda da var. Dilənçidə də var.

S a n d r o şampanski və meyvə gətirir, ağalar yemək-içməyə məşğul olurlar, səssiz bir-birinin sağlığına içirlər, söhbət edirlər.

**Pərdə**

## İKİNCİ PƏRDƏ

### ÜÇÜNCÜ ŞƏKİL

Əvvəlinci səhnə.

P i r i-F a n i. Ey məndən dərdlərinə çarə istəyən füqarəyi-kasibə! Siz o vaxt bu əziyyətdən, bu zillətdən xilas olarsınız ki, çərxi-fələk sizə çönə. O zaman bu qurumuş ağac kötüyü göyərər, əlvan çiçəklər ilə bəzənər, yarpaqlanar, bar verər. Onun çiçəkləri, yarpaqları və meyvələri adi nəbatat kimi olmaz. Hər çiçəyin başqa bir rəngdə yarpaqları və meyvəsi, həmçinin yer üzündə gördüyünüz və eşitdiyiniz



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

cavahir, qızıl və gümüş kimi ziqiymət daşlı o mədən şeyləri bu ağacda əmələ gəldikdə, Simürq adında bir quş uçub gələr, bu ağacda məskən edər, onu qoruyar. Sizlərdən hər biriniz özünüz üçün nə istəsəniz Simürq qağası ilə dərib atar.

Al l a h q u l u. Ey pir baba, sənə canım qurban. O zaman haçan olar?

P i r i - F a n i. Onun vaxtını bilmək olmaz. Fəqət səbir edib zəhmətinizdə davam edərsinizsə, elə nemətə nail olarsınız.

Bahadır ucadan qəhqəhə ilə gülür.

P i r i - F a n i. Nəyə gülürsən, ey cavan?

B a h a d ı r (*ayağa qalxıb ona tərəf gəlir*.) Sənin belə dediyin əfsanəyə gülürəm. Ey ağlını qayib etmiş qoca, nə üçün bu avam zavallıları belə xurafat ilə aldadırsan. Bu qurumuş, çürümüş, qurtlanmış kötük yenidən göyərərmi? Çiçəklənərmi? Belə əfsanə ilə məzlumları aldatdığın yetər. Al! (*Ayağı ilə vurub ağac kötüyünü Sındırır*.)

Hamı. Ah...

P i r i - F a n i (*ayağa qalxıb*). Nə etdin! Ey dəli qanlı? Bu biçarələrin ümid çırağını söndürdün.

B a h a d ı r. Elə yalançı çıraqlar çoxdan sönməli idi.

P i r i - F a n i. İndi nə etmək istəyirsən?

B a h a d ı r. İndi çarxı döndərmək istəyirəm.

P i r i - F a n i. Bacarmazsan, çoxları bu yolda fot olmuşlar.

B a h a d ı r. Qəhrəman, Fərman, Nadir, yoldaşlar, heç bir fikir dünyada qurbansız yeriməmiş. Hərgah çarx məni vurub fot edərsə, Qəhrəman dalımca sən gələrsən, sonra Fərman, dalınca Nadir ta çarxı saxlayıb tərsə çöndərməyincə ol çəkməyin. Haydı, igid yoldaşlarım.

Q ə h r ə m a n. Yoldaş Bahadır, toxda, sən bizim rəhbərimizsən, sənin sağ qalmağın bu məzlumlara lazımdır. Əvvəl mən qurban olmaq istəyirəm. (*Atılıb çarxın pərindən tutur, çarx onu kənara atır*.)

H a m ı. Ah, zavallı! Öldü!

Qurbanəli özünü atır, carx onu da vurur.

P i r i - F a n i. Dayanın, divanələr. Bahadır çarxdan tutub saxlayır. Nadir kömək edir, çarxı döndərirlər.

**Pərdə**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## DÖRDÜNCÜ ŞƏKİL

İkinci şəkildəki səhnə.

A ğ a  Ş i r ə l i (*qışqırır.*) Aman, toxdayın, qərq olduq, tufan, tufan...

A ğ a S a l e h. Ədə, Musa bəy, qoyma, qoyma. Çarx dönmüş, tormazla, tormazla.

M u s a  b ə y. Ay xozeyin, bu fələk çarxıdır. Ona tormoz vurmaq olmaz.

V ə l i  a ğ a. Vay bizim halımıza, çərxi-fələk indi tərsinə dönmüş.

B a h a d ı r və yerdə qalanlar otağa girirlər.

B a h a d ı r. Ay ağalar, indi çərxi-fələk sizlər üçün tərsinə dönmüş. Piri-Faninin komasına buyurunuz. Bizə söyləyən kimi, sizə də gözəl-gözəl nağıllar söyləsin. Qurumuş ağacda sizin Üçün cavahir bitirsin. Qızıl meyvələr dərib versin.

Ağalar məyus, başlarını aşağı salıb Piri-Faninin komasına tərəf gedirlər.

B a h a d ı r. Xanımlar, siz də ağalarınızın qulluğuna təşrif aparınız.

M a r q o. Biz burada, siz ilə qalmaq istəyirik.

B a h a d ı r. Bizim nə pulumuz var, nə də şampanskimiz. Buyurun gedin. (*Qızlar gedirlər.*) Sandro, bu içkiləri-zadı buradan götür.

S a n d r o. Ağa, bu saat.

B a h a d ı r. Biz ağa deyilik. Yoldaşıq.

S a n d r o. Bəli, bəli, yoldaş, yoldaş.

B a h a d ı r. Ustalar, internasional çalınız.

Onlar da çalırlar.

**Pərdə**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# QARANLIQDAN İŞIĞA

*Bir pərdəli pyes.*

İŞTİRAK EDƏNLƏR

O ğ u z - qoca bir türk.
U l u ğ - onun oğlu.
Ə b d ü s s ə l a m - qoca bir ərəb.
Q a s ı m - onun oğlu.
Z e y n əb - onun qızı, Uluğun namizədi.
C ə m ş i d - qoca bir fars.
Q u b a d - onun oğlu.
F i r ə n g i z - onun qızı.
B a h a d ı r - qoca bir hindli.
Ə k b ə r - onun oğlu.
L i-x u n-c a n ğ - qoca birçinli,
X u n-x u z - onun oğlu.
M a r z a v a n - əcinnə jandarması.
C u r c a n - əcinnə komandanı, Daxnaşın pəhləvanı.
İ k i  m ə m u r.
Bir taqım əcinnə qoşunu.

Səhnə qaranlıq bir mağara içini göstərir. Pərdə qalxdıqda cavanlar ayaq üstə və qocalar oturmuş görünür.

Ə b d ü s s ə l a m. Ey Oğuz oğlu Uluğ, bizi buraya toplamaqdan məramın nədir? Bilmək istərik.

C ə m ş i d. Ey Oğuz oğlu, qəlyanımın vaxtıdır, deyəcəyini tez söylə, dözə bilmirəm.

L i-x u n-c a n ğ. Ey Oğuz oğlu, tiryakim qaldı. Mətləbini əcələ söylə.

U l u ğ. Ey əhli zülmət! Bu qaranlıq dünyada əsrlərcə yatdığın yetər, bu qədər sərxoş olub alçaqlara qul olduğun yetər, həşərat kimi ayaqlar altında süründüyünüz yetər. Qəflət yuxusundan ayıl. Acizliyi, zəifliyi burax. Kim olduğunu düşün. Səni işıqdan məhrum edib bu qaranlığa salan divləri, cinləri yıx, əz, qır, özünü onların zülmündən xilas et. Bu zülmət aləmindən işıqlı dünyaya çıx!..



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

B a h a d ı r. Ey Oğuz oğlu, nə söyləyirsən? Məyər bu zülmət aləmindən başqa bir qeyri dünya da var?

U l u ğ. Bəli, var. Onun adı işıqlı dünyadır. Onu yüksək intəhasız fəzadan günəş işıqlandırır. İşıqlı dünyanın gözəlliyi vəsfə gəlməz. Yaşıl mənzərəli dağlar, üzərindən şıqqıltı ilə axıb mühitlərə tökülən nəhrlər, qayalardan fəvvarələnib uçan şəlalələr, çiçəklərlə bəzənmiş çəmənlər, seyrəngahlar, gülşənlər, onlarda ötüşən quşlar, uçuşan rəngbərəng pərvanələr, müxtəlif heyvanlar işıqlı dünyanı zinətləndirir...

Ə b d ü s s ə l a m. Ey Oğuz oğlu, toxda, əcaba əfsanəyi söyləmək üçünmü bizi buraya toplamısan.

L i-x u n-c a n ğ. Ey Oğuz oğlu, elə nağılları bu çocuqlara söylə, biz qocaları belə xürafat ilə aldada bilməzsən.

C ə m ş i d. Ey sükuta getmiş Oğuz! Oğlun dəli olmuş, başına çarə qıl.

Ə b d ü s s ə l a m. Oğuz, bu gündən əhdimiz pozulur. Mən qızım Zeynəbi belə sərsəriyə vermərəm.

O ğ u z. Ey Əbdüssəlam, əhdini tez pozursan. Uluğ sərsəm olmuşdur, - bu doğru, fəqət onu əqlə gətirmək asandır.

U l u ğ. Ey mənə cünun nami verən əhli-zülmat! Mən söylədiyim əfsanə deyil, həqiqətdir. Mən o işıqlı dünyanı bütün vücudumla hiss edirəm, görürəm, eşidirəm. Sizlər isə paslanmış, qabarlanmış əqlinizlə qüvvətdən düşmüş, zəifləşmiş hissinizlə onu dərk edə bilməyirsiniz.

Səhnə dalından kamança səsi gəlir.

Ah... Yenə qulağıma o dünyanın musiqi sədası gəlir... Dinləyin, dinləyin... Eşidirmisiniz?

Q o c a l a r. Eşitmirik.

U l u ğ. Eşitməyirsiniz, çünki karsınız...

Yuxarıdan ağ işıq görünür.

Bax... bax... o səmadəki nuri görürmüsünüz?

Q o c a l ar. Görmürük.

U l u ğ. Görmürsünüz, çünki korsunuz. Ey əhli-zülmət! Mən Oğuz oğluna inanınız. Bu divlər tərəfindən hörülmüş sədləri yıxıb, bu qayaları dəlib deşərəm, sizi bu zülmətdən işıqlığa çıxardaram. Hər kəs mənə inanırsa, bu qırmızı inqilab bayrağı altına gəlsin.

Qırmızı bayrağı qaldırır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Z e y n ə b. Sənə inanıb bayrağın altına gəlirəm. (*Gəlib bayrağın allında durur.*)

F i r ə n g i z  və Q u b a d. Biz də sənə inanırıq.

Onun tərəfinə keçirlər.

C a v a n l a r. Sənə inanıb bayrağın altına gəlirik. Uluğ tərəfə keçirlər.

Q o c a l a r. Ey divanələr, nə edirsiniz?

O ğ u z. Məyər Daxnaş divin əcinnə qoşununu unutmuşsunuz?

U l u ğ. Xeyr, unutmamışıq. Onlarla qovğa etməyə hazırıq. İndiyə kimi bizə mane olduğunuz yetər. Çəkiliniz, daha bəsdir. Səbir kasamız dolub daşmış. Ya hamımız bu yolda öləcəyik, ya da divlərə qalib gəlib işıqlı dünyaya çıxacayıq.

Marzavan iki nəfər məmur ilə daxil olur.

M a r z a v a n. A! Gizli yığıncaq! Qırmızı bayraq! Oğuz, bu nə işdir? Söylə.

O ğ u z. Cənab Marzavan, bu gün bizim bayramımızdır. Cavanlar bir qədər şadlıq etmək istəyirlər.

C ə m ş i d. Cənab Marzavan, bu gün bahar günüdür. Qədim zamandan bəri bu gündə baharı yad edərək, qırmızı libas geyib bayram etmək rəsmdir. Bu qırmızı bayrağa başqa məna verməyiniz.

U l u ğ. Cəmşid baba doğru deyir. Bu gün bizim üçün tarixi gündür. Bu gün biz inqilab bayrağını qaldırıb siz zalimlərdən xilas olmaq istəyirik. Bəxtiyar, azadə insanlar sırasına girmək istəyirik.

C a v a n l a r. Bəli, istəyirik!

M a r z a v a n. A!.. Üsyan! İnqilab! Bunu alın! (*Uluğu göstərir.*)

Q a s ı m və Q u b a d (*qılınclarını sıyırıb*). Qoymarıq!

Ə k b ə r (*qılıncını çəkib*). Hər kəs Uluğa əl qaldırarsa, başını boynundan ayıraram.

X u n-x u z. Görünür, Xun-xuzun əyri moğol qılıncının gücünü bilmək istəyirsiniz.

B a h a d ı r. Cənab Marzavan, bu əqilsiz cavanların sözlərinə fikir verməyiniz, əfv ediniz. Biz vəlinemətimiz olan həzrət Daxnaşın ən sadiq, xalis, əməkdar bəndələriyik. Onun mərhəmətləri sayəsində səadətlə yaşayırıq. Ona itaət etmək bizim üçün vacib bir əmrdir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

L i-x u n-c a n ğ. Tanrı ədalət, səxavət sahibi olan Daxnaş həzrətlərinə ömri-tulani[1] baxş etsin. Bizlərə öz evladı kimi nəzər yetirir. Tiryəkimizi bol-bol verir.

U l u ğ. Ey azadlığım, irz-namusunu, istiqbalını tiryəkə, şəraba, qızıla satan qocalar! Daha yetər. Çəkiliniz, yoxsa, sizi də bu zalimlərə qatıb inqilaba qurban ederəm. Qubad, Qasım, Xun-xuz, bunları tutunuz, həbs ediniz!

Marzavanın və məmurların üstə hücum edirlər. Çarpışma düşür. Marzavan və bir məmur qətlə yetir. O biri məmur qaçır. Əkbər onun dalınca gedir.

Q o c a l a r. Vay bizim halımıza!

C ə m ş i d. Bu saat Daxnaşın qoşunu buraya töküləcəkdir, qaçmaq lazımdır.

Q o c a l a r. Qaçaq, qaçaq.

Gedirlər.

U l u ğ. Yoldaşlar, durmayınız. Divlərin hörmüş olduğu bu dağları uçurdalım.

Balta, külüng, sünbə, çəkic və qeyri götürüb dağı sökməyə başlayırlar, Əkbər daxil olur.

Ə k b ə r. Daxnaşın qoşunu gəlir.

U l u ğ. Yoldaşlar, hazır olun! Kişilər birinci sırada, qadınlar ikinci sırada durunuz!

Uluğ dəstənin başında durub. Curcan bir taqım əcinnə qoşunu ilə daxil olur.

C u r c a n. Yahu! Sizsiniz inqilab qaldıran? Üsyan edən? Təslim olunuz!

U l u ğ. Siz alçaqlara təslim olmarıq! (*Qılıncını sıyırıb.*) Mübariz istəyirəm. Curcan, cürətin var isə meydana çıx!

C u r c a n. Ha... ha... ha... Ey yazıq çocuq! Gör kimi mübarizəyə çağırırsan. Daxnaşın birinci pəhləvanı Curcanı!

U l u ğ. Qılınc meydanında söz lazım deyil. Buyur, meydan açıqdır.

C u r c a n. Ay... ay... belə... Al gəldi!

---

[1] Uzun ömür



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Uluğ ilə vuruşur. Uluğ Curcanı öldürür, qoşun qaçır.

U l u ğ. Yoldaşlar, indi iş dalınca olmalı.

İki hissə olub dağı uçururlar, dal pərdədə bir sərdabə görünür. Onun üç tərəfində üç böyük hərflə yazılmış: ELM

Q a s ı m. Uluğ, yenə zülmət. Bəs vəd etdiyin işıqlı dünya hanı?
F i r ə n g i z. Uluğ, o gözəl dünyanı ver.
Ə k b ə r. Uluğ, səndən cavab gözləyirik.
U l u ğ. Yoldaşlar, şübhəyə düşməyiniz. Bizi qaranlıqdan işıqlığa üç şey çıxarar. Qüvvət, zəhmət, bilik. İkisini əmələ gətirmişik, qalıbdır biri. Zənnimcə, bu sərdabə zülmətdən işığa qapıdır. Onu açmaq lazımdır. Xun-xuz, üst qarmağı aşağı çək.
X u n-x u z (*E hərfini çəkir.*) Açılmır.
U l u ğ. Qasım, sağ qarmağı çək.
Q a s ı m (*L hərfini çəkir.*) Açılmır.
U l u ğ. Əkbər, sol qarmağı çək.
Ə k b ə r (*M hərfini çəkir.*) Açılmır.
U l u ğ. İndi kənara çəkilin!
Üç hərfi bir-birinə yapışdırır. Sərdabə üzərində qırmızı işıq ilə böyük bir "ELM" yazılır. Sərdabədən ağ işıq görünür.
C ü m l ə s i. Ah açıldı.

Zeynəblə Firəngiz öpüşürlər.

U l u ğ. Xun-xuz, inanmayan babalarımızı çağır, gəlib görsünlər, taki inansınlar.

Xun-xuz gedir.

Z e y n ə b. Ah, ürəyim dözməyir. İşıqlı dünyanı tez görmək istəyirəm.

Xun-xuz daxil olur.

F i r ə n g i z. Ah! O dünyanı işıqlı edən günəşi bircə tez görə idim.

Qocalar danışa-danışa gəlirlər.

C ə m ş i d. Elə şey ola bilməz.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

L i-x u n-c a n ğ. Heç vaxt inanmam.

B a h a d ı r. Elə şey mümkün deyil.

Ə b d ü s s ə l a m.O müşkül işdir, inanmam.

İşığı görürlər.

C ü m l ə s i. Ah! Doğru. İşıq gəlir.

U l u ğ. Ey əhli-zülmət, hazır olun, işıqlı dünyaya çıxırıq.

Səhnə qaranlıq olur. Həzin-həzin musiqi səsi gəlir. Dal pərdə qalxır. Mənzərəli dağlar, ciçəklərlə bəzənmiş çəmən və sular görünür. Bir taqım qız, çiyinlərində cürdək bulağın başına toplasıb, kimi su doldurur, kimi söhbət edir. Bu halda dağın arasından cərgə ilə Uluğ, Əkbər, Zeynəb, Firəngiz, Qasım, Qubad, Xun-xuz çıxırlar.

Z e y n ə b. Ah, işıqlı dünya nə gözəldir!

F i r ə n g i z. Ah, nə yüksək, nə işıqlı göylər!

Q a s ı m. Sənə baxdıqca göz doymayır, ey çeşməli, həm yaşıl dağlar.

Q u b a d. Nə xoş mənzərən var, ey çiçəkli çəmənlər.

Ə k b ə r. Ey göydə süzən azadə şahin! Məni qaynağına alıb da qaldır. O yüksək səmada bir qədər seyr edim. Bu təzə cahana doyunca baxım.

X u n-x u z. Ötünüz, ey xoş avazlı, qəlbə zövq verən quşlar!

C ü m l ə s i. Əhsən sənə, əhsən sənə, ey həqiqət işığı.

U l u ğ (*al bayrağı qaldırıb*). Məhv ol bu cahandan dəxi ey dəhşətli-zülmət!

**Pərdə**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## ŞAHSƏNƏM VƏ GÜLPƏRİ

*Bir pərdəli, üç şəkilli pyes*

İŞTİRAK EDƏNLƏR

P i n ə ç i  Q a f a r.
Ş a h s ə n ə m - onun arvadı.
M i r z ə F ə r ə c-küçə məktub yazanı.
G ü l p ə r i -onun arvadı.
A x u n d  M o l l a Q a s ı m.

BİRİNCİ  ŞƏKİL

Pinəci Qafarın otağı. Yoxsul, zəhmətkeş otağı mənzərəsi. Pinəçi Qafar başmaq yamayarkən oxuyur, Şahsənəm də tikiş tikir.

Pinəçi mənəm, işləməsəm, mədarım keçməz mənim.
Bu qışı burda qaşlamasam, mədarım keçməz mənim.

Ş a h s ə n ə m. Qafar, bircə o oxumağı kəs, mənə qulaq as.
Q a f a r. Buyur, kəsdim, nə deyirsən?
Ş a h s ə n ə m. Onu deyirəm ki, mən kimdən əskigəm?
Q a f a r. Arvad, nə demək istəyirsən? Başa düşmürəm.
Ş a h s ə n ə m. Çox yaxşı başa düşürsən. Ancaq özünü anlamazlığa qoymusan.
Q a f a r. A nadürüst balası, sən nə dedin ki, mən də başa düşəm.
Ş a h s ə n ə m. Deyirəm ki, kimdən əskigəm?
Q a f a r. Allahu əkbər, a Tıntın Həsənin qızı, Teleqraf Güllünün balası. Axı sən nə deyirsən ki, mən başa düşüm.
Ş a h s ə n ə m. Bəli, mən deyirəm ki, kimin arvadından əskigəm?
Q a f a r. Əstəğfürullah. Lənət şeytana. A mürtədin qızı, elə tutuquşu kimi təkrar edirsən ki, mən kimdən əskigəm, mən kimdən əskigəm. Bunu keç, bunu eşitdim, sözünün dalını söylə.
Ş a h s ə n ə m. Belə sözümün dalı da budur, qabağı da. Mən kimdən əskigəm?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Q a f a r. Lənət sənə, kor şeytan. Arvad, aydınca de görüm, məndən nə istəyirsən? Səni başa düşə bilmirəm.

Ş a h s ə n ə m. Qafar, görürəm, əllərin qabar olan kimi, beynin də qabarlayıbdır. Başına söz girmir.

Q a f a r. Axır sən mənə nə deyirsən ki, mənim də beynimə girməsin.

Ş a h s ə n ə m. Belə mən onu deyirəm ki, mən kimdən əskigəm. Məşədi İbadın arvadı Keçəl Püstədənmi? Kərbəlayı Qulamın arvadı Cızdalan Nabatdanmı? Yoxsa dəllək Kərbəlayı Cəfərin arvadı ağzıəyri Fatmadanmı? Di cavab ver.

Q a f a r. Hə, beləcə, indi başa düşdüm. Sən mənnən paltar davası eləyirsən, eləmi?

Ş a h s ə n ə m. O da var. Amma indiki davam başqa şeydir.

Q a f a r. Onda başla gəlsin.

Ş a h s ə n ə m. Yaxşı, a Qafar, niyə məni "Şah İsmayıl", "Eşq və intiqam", "Hacı Qara" ya aparmırsan?

Q a f a r. Ay rəhmətliyin qızı, barı ziyarətin birini de, mən də görüm başıma nə çarə qılıram. Bu kasadlıq vaxtda mən səni üç ziyarətə necə aparım, arvad, Şah İsmayılın qəbri uzaq ölkədədir. O ki qaldı "Eşq və intiqam", "Hacı Qara" ziyarətgahlarına, onların nə adlarını eşitmişəm, nə də müqəddəs qəbir-şəriflərini görmüşəm.

Ş a h s ə n ə m. Yaxşı, a Qafar, bəs bilmirsən, onda hər axşam sən də, dostun Mirzə Fərəc də evdən çıxıb bir də gecə yarısı gəlirsiniz. De görüm, haradan gəlirsiniz?

Q a f a r. Arvad, sənə min dəfə demişəm, minbir dəfə də deyirəm: biz hər gecə Məşədi Əlibalanın çayçı dükanına yığışırıq. Orada dərviş baba şirin-şirin hekayələr, maraqlı nağıllar söyləyir, biz də qulaq asırıq. Sonra da qəsidə oxuyur. Dinləyib axirət üçün savab qazanırıq. İndi gecələr haradan gəldiyimizi bildinmi?

Ş a h s ə n ə m. Bu şirin dil ilə məni aldada bilməzsən. O günü mən də, Gülpəri də hamamda idik. Tratirdən (*teatr.*) söhbət açıldı. Məşədi İbadın arvadı Püstə əllərini belinə qoyub bizə fors atırdı. Loğa-loğa danışıb deyirdi ki, ay yazıqlar, allah sizi piti bişirməyə, cəhrə əyirməyə yaradıbdır. Siz evdə qalıb gecə-gündüz işləyirsiniz, ərləriniz də tratirlarda kef çəkirlər. "Şah İsmayıl" oyununa getdim, Mirzə Fərəc ilə Usta Qafarı orada gördüm. "Eşq və intiqam", "Hacı Qara" oyunlarına getdim, yenə də onları orada gördüm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Q a f a r. O Püstə arvad xırp yalan deyir. Buna birinci və axırıncı sübut odur ki, yalan dediyinə görə qurban olduğum imam Cəfər Sadıq onun ağzını əyibdir. Bu imam özü düz danışan adam olduğuna görə, yalan deyəni sevmir. O arvad görəsən, kimi görübsə bizə oxşadıbdır.

Ş a h s ə n ə m. A Qafar, yəni sən bilmirsən ki, mən haraya getmək istəyirəm?

Q a f a r. Ziyarətə.

Ş a h s ə n ə m. Hə, o ziyarəti də tratirdə göstərirlər?

Q a f a r. Nə mənə? Səni teatra aparım? Oyunbazxanaya? O möhtərəm axund-mollalarımızın təqlidini çıxaran yerə?

Ş a h s ə n ə m. Hə, nə var? Nə üçün gözlərini bərəldirsən. Belə tratira getmək istəyirəm.

Q a f a r. Arvad, görürəm ağlın çaşıbdır. Bu axşam vaxtı bizi günaha batırma. Dur, ağzını suya çək. Dur, lüleyin eşikdə doludur. Arvad nədir, teatra getdi nədir? Arvadlar gərək evdə otursun, pitisini bişirsin, cəhrəsini əyirsin, vəssalam.

Ş a h s ə n ə m. Qafar, mən özgə şey bilmirəm. Bu saat durub məni "Eşq və intiqam" tratrina apararsan.

Q a f a r. Arvad, görürəm, sən dəli olmusan. Mən necə səni eşqbazlıq teatrına aparım. Orada bacı qardaşa aşiq olur. Axırda da hər ikisi ölür... Onu görən gündən bəri az qalmışam on yeddi rükət namaz əvəzinə, yüz on yeddi rükət qılam.

Ş a h s ə n ə m. Bax, Qafar, adamın boynuna beləcə qoyarlar ha. Bəs sən deyirdin ki, oraya getmirəm. Dur bu saat dinməz-söyləməz məni tratiraya apar.

Q a f a r. Arvad, yaxşısı budur ki, sənin qol-qabırğanı sındırmamış buradan gedim.

Geyinib gedir.

Ş a h s ə n ə m. Cəhənnəmə get, gora get. İndi mən də tratira gedəndə görüm sən nə deyəcəksən.

Gülpəri daxil olur.

G ü l p ə r i. Salaməleyküm, ay Şahsənəm bacı. Şahsənəm. Əleyküməssəlam, ay Gülpəri. Arvad, çarşafını yerə qoy, otur, Qafardan söyləyəcəyəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

G ü l p ə r i. Bəs özü hanı? Teatra getdi?

Ş a h s ə n ə m. Ay arvad, onu haradan bildin?

G ü l p ə r i. Dünən Qafar bizdəydi. Mirzə Fərəc ilə söz qoydular ki, bu gecə teatra getsinlər. Mənim kişim soruşdu ki, Qafar, hansı teatra gedək, o da dedi: bulvarın yanındakı... Şoqəribin adı yadımdan çıxdı. Hə, satır-alır.

Ş a h s ə n ə m. Ay qız, elə deyil. Mənim yaxşı yadımdadır ki, onda bir it sözü də var. Hə, yadıma düşdü. Satır ağ it. (*Satiragit*).

G ü l p ə r i. Hə deyəsən, sən düz deyirsən. Dur ora gedək.

Ş a h s ə n ə m. Qafargil bizi görsələr necə olsun?

G ü l p ə r i. Çarşafa bürünərik, tanıya bilməzlər. Deyirlər o teatra çox arvad-uşaq gəlir, onların içində bizi haradan tanıya bilərlər.

Ş a h s ə n ə m. İndi ki, belə oldu, qoy tanısınlar. Bəs başqa arvadlar nə üçün gedirlər?

G ü l p ə r i. Doğru deyirsən. O günü Nabat deyirdi ki, ərim ilə oraya getmişdim. Orada cinlər yerin içindən çıxıb şeytan ilə danışırlar.

Ş a h s ə n ə m. Ay arvad, nə əcəb qorxmamış?

G ü l p ə r i. Necə qorxmamış, bərk qorxubdur. Hətta istəyibdir durub qaçsın, əri əlindən tutub saxlayıbdır. Deyibdir ki, qorxma, onlar cin deyil, adamlardır, onların oyunlarını çıxardırlar.

Ş a h s ə n ə m. Daha durma, vaxt keçir, gedək. Yoxsa oyunu başlarlar.

G ü l p ə r i. Gedək.

Gedirlər.

**Pərdə**

## İKİNCİ ŞƏKİL

Əhvalat Satiragit teatrının zalında vaqe olur. Teatrın səhnəsi pərdə ilə qapalı. Sıralar teatra gələnlər ilə doludur. Mirzə Fərəc dal sırada oturmuş. Qafar birinci sırada baxa-baxa Mirzə Fərəci axtarır.

Q a f a r. Adə, görəsən, mənim yoldaşım harada oturubdur. (*Birdən gözü arvadına sataşır.*) Arvad, sənsən?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ş a h s ə n ə m. Bəli, mənəm.

Q a f a r. Burada nə qayırırsan?

Ş a h s ə n ə m. Tratira gəlmişəm.

Q a f a r. Çox qələt etmisən, səfeh qızı, səfeh. Əl-ayağın qırılmamış qalx, qabağıma düş.

Ş a h s ə n ə m. Ölsəndə getməyəcəyəm. Bəs bir belə arvad burada nə qayırırlar.

Q a f a r. Canına dərd qayırırlar, Düş qabağıma.

G ü l p ə r i. A Qafar, Şahsənəm doğru deyir. Bəs bu qədər arvadların ərləri yoxdur. Yoxsa elə qeyrətli bir tək siz çıxmısınız.

Q a f a r. Allahu əkbər, bu papaqdır, yoxsa sizin başınızdakı yaylıq. (*Papağını yerə vurur.*) Ədə, bura bax, müsəlman arvadı, teatr? Bəs bizim namusumuz, qeyrətimiz harada qaldı?

M i r z ə F ə r ə c. Adə, Qafar, Qafar buradayam.

Q a f a r. A kişi, buraya gəl.

M i r z ə F ə r ə c. Adə, yerimiz burdadır. Sənin bilitin də məndədir.

Q a f a r. Adə, bilit cəhənnəmə, arvadlar buradadır.

M i r z ə F ə r ə c. Adə, hansı arvadlar?

Q a f a r. Şahsənəm ilə Gülpəri.

M i r z ə F ə r ə c. Gülpəri də?

Q a f a r. Hə, hə, tez ol gəl.

M i r z ə F ə r ə c (*onlara tərəf gələrkən*). Ey dad-bidad Ərdəbil. Gülpəri, nadürüst qızı nadürüst. Hərgah sabah açılar, səni paraxoda qoyub birbaş Ərdəbilə göndərməsəm, mənim atama, babama, yeddi qat əcdadımın ərvahinə lənət olsun. Qalx, köpəyin qızı köpək.

G ü l p ə r i. Ölsən də getməyəcəyəm. Bəs bir belə arvadların ərləri yoxdur. Yoxsa kişi təkcə siz çıxmısınız?

M i r z ə F ə r ə c. Bəli, müsəlman ancaq bizik. Arvad nədir, teatr nədir?

Arvadların əllərindən tutub dartırlar, sıradan qırağa çıxardırlar. Onlar da dartınıb əllərindən çıxırlar. Zalda qaçırlar. Qafar ilə Mirzə Fərəc onları qovurlar.

**Pərdə**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## ÜÇÜNCÜ ŞƏKİL

Pinəçi Qafarın evi

M i r z ə F ə r ə c. Qafar, sən bunlardan muğayat ol, məndə gedib axund Molla Qasım ağanı çağırım, gəlib bu binamusların talağını versin.

Q a f a r. Yaxşı get. (*Mirzə Fərəc çıxır.*) Bax, bura da teatr deyil. And olsun atamın ərvahinə, bir balaca o yan-bu yan eləsəniz, elə bir sillə çəkərəm ki, yerinizdə qalarsınız.

Ş a h s ə n ə m. Allah vurub səni, hünərindir əlini qaldır.

G ü l p e r i. Yaxşı, siz bizi boşayarsınız, biz də o siz bəyənmədiyiniz kişilərə ərə gedərik. Onlar da tez-tez bizi teatra aparарlar.

Q a f a r. Allahü-əkbər, lənət sənə kor şeytan. İndi durub ikisini də boğub öldürəcəyəm, ha.

Ş a h s ə n ə m. Allah vurub səni. Durub səni o qədər döyərik ki, arvad boşamaq da yadından çıxar.

Q a f a r. Arvadın hünəri nədir ki, kişiyə əl atsın.

Ş a h s ə n ə m. Bax, hünəri belədir.

Durub onunla tutaşır. Gülpəri də köməyə gəlir. Qafarın ayağından çəkir, Qafar yıxılır, onu yumruqlayırlar. Bu halda Mirzə Fərəc və onun dalınca Molla Qasım daxil olurlar.

Q a f a r. Ədə, Mirzə Fərəc, qoyma, arvadlar heyimi kəsdilər.

Arvadlar Qafarı buraxıb Mirzə Fərəcin üstə düşürlər, yumruqlayırlar. Molla aralaşdırır, ona da bir-iki yumruq dəyir.

M o l l a Q a s ı m. Ay bacılar, bir toxtayın. (*Arvadlar dayanırlar*.) Bəs mollaya belə ehtiram edərlər?

Ş a h s ə n ə m. Bir molla ki, gecə yarısı bu iki səfehin sözünə baxıb biz biçarələrin talağını verməyə gələ, elə axundun ehtiramını saxlamazlar.

Q a f a r. Arvad, bəsdir, bizi biabır etdin.

M o l l a Q a s ı m. Usta Qafar, bir arvad ki, biz ruhanilərə, biz şəriət ərlərinə biehtiramlıq elədi, onu boşa getsin. Şəriət də belə buyurub.

Q a f a r. Düz buyurursan, ağa.

Ş a h s ə n ə m. Kül sənin başına a belə ər! A qanmaz kişi, görmürsən bu molla nə deyir. Mən sənin arvadınam, yoxsa bu şorgöz mollanın?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

M o l l a  Q a s ı m. Usta Qafar, bu sözdən sonra bu arvadın nigahı pozuldu. İndi canın azaddır.

Ş a h s ə n ə m. Belə kül molla başına.

M o l l a  Q a s ı m. İndi bu arvaddan sual-cavab edin. A bacı, sən bilirsən ki, biz ruhanilər müsəlman arvadlarına teatra getməyi haram buyurmuşuq?

G ü l p ə r i. Bilmirəm.

M o l l a  Q a s ı m. Bilmirsən, indi bil.

G ü l p ə r i. Bəs kişilərə necə?

M o l l a  Q a s ı m. Onlara da nəhy etmişik.

G ü l p ə r i. Bəs niyə gedirlər?

M o l l a  Q a s ı m. Gərək getməsinlər, günah da etməsinlər. Lakin arvad ilə kişidə fərq vardır. Şeytan həzrət Adəmi aldada bilmədi. Amma Həvvanı aldatdı. Behiştdən hər ikisini çıxartdı. Kişini, o oyun çıxardanlar yoldan çıxara bilməzlər. Arvad isə naqisüləql olar. Tez aldadarlar.

G ü l p ə r i. Ay molla, bilirəm, sən bizim nigahımızı geri oxumağa gəlmisən. Sən heç zəhmət çəkmə. Mən kəbinimi halal edib canımı azad edirəm. Elə rəhmətlik atam məni, gözləri yaslı bu qoca kaftara vermişdi.

M i r z ə  F ə r ə c. Nəmənə? Qoca kaftar? İndi ki, bele oldu daha səni boşamıram.

G ü l p ə r i. Ölsən də boşanacağam!..

M i r z ə  F ə r ə c. Mən də boşamayacağam.

Q a f a r. İndi ki, iş bu məqama çatdı, Şahsənəm, mən də səni boşamalı olmadım.

Ş a h s ə n ə m. Ölsən də boşanacağam!

M o l l a  Q a s ı m. Bir mənə də qulaq asın. Görürəm siz arvad boşayan deyilsiniz. Mənim zəhmət haqqımı veriniz, çıxım gedim.

Q a f a r. Nəmən? Sən nə qayırdın ki, zəhməthaqqı da istəyirsən?

M i r z ə  F ə r ə c. Rəhmətliyin oğlu, bu gecə yarısı gəlib arvadlarımızı əlimizdən almaq istədiyin bəs deyil, bir də zəhmət haqqı istəyir.

Q a f a r. Biz arvadlarımızı boşamaq istəmirik.

M o l l a  Q a s ı m. Cəhənnəmə boşayınız. Mənim zəhmət haqqıma nə deyirsiniz?

M i r z ə  F ə r ə c. Uzun müşərrəf eləmə, dur rədd ol!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Q a f a r. Bas bayıra!

M o l l a Q a s ı m. Allah sizin bərəkətinizi kəssin. Bu gecə vaxtı məni avara etdiniz.

M i r z ə F ə r ə c. Sənə deyirəm, uzun müşərrəf etmə! Dur rədd ol!

Molla söylənə-söylənə gedir.

Ş a h s ə n ə m. Ay qız Gülpəri, dur biz də bunların acığına dəniz kənarına gəzməyə gedək.

G ü l p ə r i. Dur gedək.

Qapıya tərəf gedirlər, Qafar ilə Mirzə Fərəc qabaqlarını kəsirlər.

M i r z ə F ə r ə c və Q a f a r. Hara gedirsiniz?

G ü l p ə r i və Ş a h s ə n ə m. Bulvara, gəzməyə.

Vuruşurlar.

M i r z ə F ə r ə c və Q a f a r. Biz də gedirik.

Onlara qoşulub gedirlər.

**Pərdə**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# BİR EŞQİN NƏTİCƏSİ

*Bir pərdəli, iki şəkilli*

İŞTİRAK EDƏNLƏR

K ə r b ə l a y ı  N ə b i - əlli yaşında, şişman.
Ş ö v k ə t - on iki yaşında, qaçqın bir qız, Kərbəlayı Nəbinin xidmətçisi.
P ə r i c a h a n - 35 yaşında, Kərbəlayı Nəbinin qulluqçusu.
M o l l a  R ə h i m
M ə ş ə d i  S ə f d ə r q u l u  Kərbəlayı Nəbinin kirayənişinləri.
Q ı z x a n ı m - Məşədi Səfdərqulunun arvadı.
M a r a l  x a n ı m - kommunist.
Ə l i - onun oğlu, səkkiz yasında.
Ş i r ə l i.
İki milis nəfəri.

BİRİNCİ ŞƏKİL

Səhnə Kərbəlayı Nəbinin qonaq otağını göstərir, otaq bəzəkli bir otaqdır. Üç tərəfdən qapı açılır.

P ə r i c a h a n (*otağı nizama salarkən söylənir.*) Kişilərdə heç vəfa olmazmış. Xanım öləni heç bir ay olmaz, ağa evlənmək fikrinə düşübdür, yaşı da əlli beşdən yuxarıdır. Xanımın vəfatından bəri şadlığından bilmir ki, nə etsin. On beş yaşında cavan kimi gah oxuyur, gah oynayır, gah güldən dəm vurur, gah bülbüldən. Bir söz, eşq başına vurmuş. Ancaq başa düşə bilmirəm ki, bu eşq kimədir. Məndən başqa burada arvad yoxdur. Ağa əvvəllərdə də mənlə mazaqlaşardı, məni çimdiklərdi, mənə söz atardı. Yəqin bu eşq mənədir. Nə yaxşı iş olardı ki, birdən ağa məni alaydı, bu evə xanım edəydi. Odur oxuya-oxuya gəlir.
K ə r b ə l a y ı  N ə b i (*əlində həna daxil olur.*)

Məzəlim, ay məzəlim,
Gözəlim, ay gözəlim.
Mən səni çox sevərəm.
Mən səni çox sevərəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ay qız ey, irəli gəl. (*Pəricahan irəli gəlir, saqqalını göstərərək.*) De görüm, bu nədir?

P ə r i c a h a n. Buy, ay ağa, nə deyirsən? Saqqaldır, dayna.

K ə r b ə l a y ı  N ə b i. A kişilər, bu qız düz iyirmi beş ildir ki, mənim evimdə qulluqçudur. Mən bu "dayna" sözünü buna tərk etdirə bilmədim. A mürtəd qızı, mürtəd! Xeyr, saqqal deyil.

P ə r i c a h a n. Ağa bəs nədir?

K ə r b ə l a y ı  N ə b i. Nə bilim nədir? Süpürgə çöpüdür. Koldur, kosdur, qanqaldır. Hər nə zibil isə, ancaq saqqal deyil.

P ə r i c a h a n. Ay ağa, nə danışırsan? Üzdə də qanqal bitərmi?

K ə r b ə l a y ı  N ə b i. Elə məndə onu səndən soruşmaq istəyirdim. Bu gün məni, sən kafir qızı, taytuşlar yanında biabır etmisən. Hər kəs görür, deyir ki, Kərbəlayı Nəbi, nə bərk qocalmısan. Balam, mən haradan qoca oldum? Çox olsa, çox olsa, otuz beş sinnim var.

P ə r i c a h a n. Vaxsey, ay ağa, nə deyirsən? Demək, mən bu evə qulluqçu gələndə sən on yaşında uşaq idin?

K ə r b ə l a y ı  N ə b i. Kəs səsini, kafir qızı kafir. Dəli şeytan deyir bu saqqalı, bığı qırxdır tök yerə, 25 yaşında cavan ol. Onda da söyəcəklər ki, Kərbəlayi Nəbi komsomol olubdur.

P ə r i c a h a n. Ağa, Maral xanım, belə bizim qonşumuz hər gün küçədən gedəndə mənə deyir ki, gəl səni də kluba yazım.

K ə r b ə l a y ı  N ə b i. Ay qız, nə deyirsən? Kluba!

P ə r i c a h a n. Ağa, vallah, doğru deyirəm. O axşam Məşədi Səfdərqulu yenə piyan gəlib yazıq Qızxanımı döyməyə başladı. Onun qışqırığına Maral xanım gəlib çıxdı. Vallah, ağa, Məşədi Səfdərqulunun üstə elə qışqırdı ki, kişi qorxusundan piyanlığından lap ayıldı. Maral xanım dedi ki, bir də eşidəm sən arvadını döyürsən, ya incidirsən, tutub çekaya salacağam.

K ə r b ə l a y ı  N ə b i. Çekaya?

P ə r i c a h a n. Bəli, çekaya!

K ə r b ə l a y ı  N ə b i. Bilmirəm, bu kafir qızı haradan gəlib mənə qonşu oldu? Pəricahan, bolşeviklər kafirdirlər, onlar allahı inkar edirlər. Peyğəmbərə, imama, müctəhidə, pirə inanmırlar. Birdən ağlını unudub onlara qoşularsan, onda inkir-minkirə nə cavab verəcəksən. Məgər cəhənnəmin odundan qorxmursan?

P ə r i c a h a n. Xeyr, ağa, mən elə dinsizlərə qarışmaram, arxayın ol.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

K ə r b ə l a y ı N ə b i. Bilmirəm, bu şeytanı sən haradan mənim yadıma saldın. Lap ovqatımı təlx etdin. Xülasə, xalasına lənət, gələk saqqal məsələsinə. Bir de görüm, mənim bu saqqalım əvvəllərdə nə tövr olardı?

P ə r i c a h a n. Ağa, qapqara şəvə kimi.

K ə r b ə l a y ı N ə b i. Belə atan oldu rəhmətlik. Onu şəvə kimi edən kim olardı?

P ə r i c a h a n. Belə mən. Həftədə iki dəfə, üç dəfə xına qoyub yuyardım, saqqalın da qapqara kömür kimi olardı.

K ə r b ə l a y ı N ə b i. Bəs onu indi niyə etmirsən, a zalım qızı?

P ə r i c a h a n. Ağa, dedim yəqin xanımın yasını saxlayırsan, onun üçün də saqqalına xına qoymursan.

K ə r b ə l a y ı N ə b i. Xub, biri öləcək, biri dünyaya gələcək, burada saqqalın günahı nədir ki, bu günə düşsün?

P ə r i c a h a n. Ağa, buyurarsan, elə bu gecə saqqalına xına qoyaram.

K ə r b ə l a y ı N ə b i. Gecə nədir? Elə indicə bu xınanı suya qoyarsan, bir azdan sonra da saqqalıma qoyarsan. Bu gecə xeyir işim var.

P ə r i c a h a n. Ağa, o necə xeyir işdir?

K ə r b ə l a y ı N ə b i. Sən bilmirsən ki, o necə xeyir işdir? Görmürsən ki, eşq topuğuma vurubdur?

P ə r i c a h a n. Ay ağa, eşq adamın başına vurar.

K ə r b ə l a y ı N ə b i. Eşq mənim başıma da, döşümə də, belimə də, əlimə də, ayağıma da, hətta bağırsaqlarıma da vurubdur, cəmi vücudum eşq oduna yanır. Bu dəmdə mənə bir spiçka vursan, şam kimi əriyib töküləröm. Mən qabaqda eşq-məşqə inanmazdım, deyərdim, ele şey yoxdur, onu şairlər icad ediblər. Demə, kişilər doğru deyirmiş. Nədir eşq? "Məhəbbət bir bəla şeydir, giriftar olmayan bilməz". Vallahi ki, belədir. İndi Pəricahan, iş sənə qalıbdır.

P ə r i c a h a n. Ağa, mən razıyam.

K ə r b ə l a y ı N ə b i. Ay sağ ol, mənim ağıllı Pəricahanım.

P ə r i c a h a n. Ancaq, ağa, gərək bir az səbir edək, el bizə nə deyər? Bir aydır ki, xanım ölübdür, heç olmasa qoy qırxı çıxsın.

K ə r b ə l a y ı N ə b i. Xeyr, xeyr, eşq məni yaman hala salıbdır. Davam edə bilmirəm. Gərək bu gecə nə tövr olsa iş bitsin. El özü çox yaxsı bilir ki, müsəlman olan şəxs, heç bir gün də arvadsız dura bilməz.

P ə r i c a h a n. Ağa, bəs mən bu otuz ili necə ərsiz qalmışam?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

K ə r b ə l a y ı N ə b i. O da sənin səfehliyin. Müsəlman qızı elə ki, doqquz-on yaşına çatdı, ver getsin ərə.

P ə r i c a h a n. Ağa, sənin fikrin odur ki, elə bu gecə kəbin kəsilsin?

K ə r b ə l a y ı N ə b i. Bəli.

P ə r i c a h a n. Axı mənim vəkilim yoxdur.

K ə r b ə l a y ı N ə b i. Sən vəkili neylirsən?

P ə r i c a h a n. Bəs qız tərəfindən vəkil lazım deyilmi?

K ə r b ə l a y ı N ə b i. A səfeh qızı səfeh, nə danışırsan? Məgər mən səni alıram?

P ə r i c a h a n. Bəs kimi alırsan? Mən elə bilirəm məni alırsan.

K ə r b ə l a y ı N ə b i. Səni? Ha-ha-ha... Dünyanın çopuru elə mənə qalmışdı. Sən elə çopursan ki, başından bir çuval darı töksən, bir dənəsi de yerə düşməz. Bir Pəricahana bax, kül olsun o cahanın başına ki, sənin kimi pərisi var. A kişilər, mən bu ad qoyan ata-anaya lap məəttəl qalmışam. Görürsən meymuna oxşayan qızlara ad qoyurlar: Dürnisə, Mələkmənzər, Mahtaban.

P ə r i c a h a n. Yaxşı, məni almırsan, bəs kimi alırsan?

K ə r b ə l a y ı N ə b i. Belə gözəlini, məzəlini.

P ə r i c a h a n. Məzəli kimdir?

K ə r b ə l a y ı N ə b i. Belə Şövkət, mənim canım ona qurban olsun.

P ə r i c a h a n. Vaxsey, gör bu qoca kaftar nə fikrə düşübdür. şövkətin heç on bir yaşı tamam deyil, o hələ gəlin oynadır.

K ə r b ə l a y ı N ə b i. Elə mən də onun ilə gəlin-gəlin oynayacağam. Bir də baxıb görəcəkdir ki, dünyaya bir bapbalaca bəbə gəlibdir. Oynatsın nə qədər kefi istəyir.

P ə r i c a h a n. Mən bu işə heç vaxt razı ola bilmərəm.

K ə r b ə l a y ı N ə b i. Səfeh qızı səfeh, sən mənə qəyyumsan ki, razılıq istəyim. Elə sən cəhənnəmə razı olma.

P ə r i c a h a n. İndi ki, belə oldu, mən bu işi pozacağam.

K ə r b ə l a y ı N ə b i. Necə pozacaqsan?

P ə r i c a h a n. O mənim işimdir.

K ə r b ə l a y ı N ə b i. Yenə bilək de...

P ə r i c a h a n. Belə Maral xanıma deyəcəyəm, o da səni bu işin üstə tutub çekaya salacaqdır.

K ə r b ə l a y ı N ə b i. A balam, Maral xanıma nə dəxli var? Şəriət təriqilə evlənirəm. Doğru deyiblər ki, arvadın heç ağlı olmaz, öz xeyrini anlamaz. Gəl, sən mənim işimi düzəlt, - mən də sənin işini... O



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

günü Məmmədəli mənim yanıma gəlmişdi, mənə başsağlığı verəndən sonra, dərdini açıb dedi: kərbəlayı, mən Pəricahanı bəyənmişəm, izin versən, elçi göndərərəm.

P ə r i c a h a n. Ay ağa, sən allah, doğru deyirsən?

K ə r b ə l a y ı N ə b i. Məndən heç yalan eşitmisən? Gör sənə nə cür cehiz verəcəyəm? Səni istəyən adam bir elə gözəl oğlandır ki, görən kimi eşq mənim kimi topuğuna vuracaqdır. İndi de görüm razısanmı?

P ə r i c a h a n. Əlbəttə, razıyam.

K ə r b ə l a y ı N ə b i. Onda gedək, sən saqqalıma xına qoy, mən də nə edəcəyimi söyləyim.

Gedirlər, Sonra Şövkət ilə Əli əllərində kukla daxil olurlar.

Ə l i. Nə oynayacağıq?

Ş ö v k ə t. Hələ qoy, laylay çalım gəlinimiz yatsın, sonra bacı-qardaş oynarıq,

Ə l i. Yaxşı.

Ş ö v k ə t.

Laylay dedim yatasan,
Qızıl gülə batasan,
Qızıl gül bağın olsun,
Gölgəsində yatasan.
Balam laylay, a laylay,
Gülüm laylay, a laylay.

Ə l i. Mənim bəbəm yatdı.

Ş ö v k ə t. Beşiyə qoy, üzunə də cuna ört. Mənim bəbəm hələ yatmayıbdır. Qoy laylay çalım, o da yatsın:

Laylay dedim yatınca,
Gözlərəm ay batınca,
Canım zinhara gəldi,
Sən hasilə çatınca,
Balam laylay, a laylay,
Gülüm laylay, a laylay.

İndi bu da yatdı. Qoy, ikisi də bir yerdə yatsın. (*Qoyur.*)



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ə l i. Gəl, indi bacı-qardaş oynayaq.

Ş ö v k ə t. Yaxşı.

Ə l i. A Şövkət bacı, mənə bir nağıl söylə.

Ş ö v k ə t. Yaxşı, qardaşım Əli, mən sənə bir qəmgin nağıl söylərəm. Qardaşım, biri varmış, biri yoxmuş, bir Səlim adında kənd müəllimi varmış. Bunun Gövhər adında bir arvadı, yeddi yaşında Əhməd adında bir oğlu, səkkiz yaşında Şövkət adında bir qızı varmış.

Ə l i. Vay, onun da adı Şövkət imiş?

Ş ö v k ə t. O vaxt qırğın düşür, bunların kəndinə düşmən tökülür, adamları qırılır. Səlim külfətini götürüb qaçır, gecə meşədə onların üstünə tökülüb gülləyə tuturlar. Şövkət qaçıb ağacların arasında gizlənir. Səhər olanda Şövkət gəlib görür ki, atasını, anasını və balaca qardaşını öldürüblər. Şövkət özünü onların üstünə salır, zar-zar ağlayır.

Ə l i. Bacım, nə üçün ağlayırsan? Sən allah ağlama, yoxsa, mən də ağlaram.

Ş ö v k ə t. Necə ağlamayım? O balaca Şövkət mən özüməm, atasız-anasız bir yetiməm. Məni üç il kəndli Cəfər baba öz uşaqları ilə bir yerdə saxladı. Mən onları çox istəyirdim, onlar da məni. Sonra məni Kərbəlayı Nəbi qulluqçu gətirdi.

Ə l i. Mən elə bilirdim, sən o qoca kişinin nəvəsisən.

Ş ö v k ə t. Yox, qulluqçusuyam. Onun arvadı məni çox istəyirdi, bir aydır ki, ölübdür.

Ə l i. Bacım, mən belə nağıl istəmirəm.

Ş ö v k ə t. Gəl tapmaca deyim, sən də tap.

Ə l i. Yaxşı.

Ş ö v k ə t. Tap görüm, atdan hündür, itdən alçaq.

Ə l i. Yəhər.

Ş ö v k ə t. Tapdın, bildin. O yanı çəpər, bu yanı çəpər, içində atlı çapar?

Ə l i. Onu bilmirəm.

Ş ö v k ə t. Nehrə.

Ə l i. İndi sən tap görüm, biri bizə yağıdır, biri cənnət bağıdır, biri yığar gətirər, biri vurar dağıdar.

Ş ö v k ə t. İlin fəsilləri.

Ə l i. Bacım, mənə o günkü tapır-tupuru de.

Ş ö v k ə t. Yaxşı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Tapır-tupur atdılar,
Qolları bazbəndlilər...
Şah evinə gedərsiz,
Siçan bəyə deyərsiz:
Pıspısa xanım.
Dabancığı xəstə xanım,
Düşüb dəvə gölünə,
Boğulur xəstə xanım.

Gülüşürlər.

Ə l i. Axşam bizə gələcəksənmi?

Ş ö v k ə t. Gələcəyəm, həm sənin dərsini öyrədəcəyəm, həm də Maral xanımdan dərs alacağam.

Ə l i. Anam deyirdi ki, Şövkəti məktəbə qoyacağam.

Ş ö v k ə t. Ah, nə yaxşı olardı. Atam yazıq məni oxudurdu.

Ə l i. Mən gedim.

Şövkət ilə öpüşür, bu halda Kərbəlayı Nəbi saqqalı bağlı daxil olur.

K ə r b ə l a y ı N ə b i. Ədə sən kimsən? Burada aşnabazlıq edirsən? Sənin qulağını elə çəkərəm ki, yerindən qopar. Qurumsağın biri.

Ə l i. Mən Maral xanımın oğluyam.

K ə r b ə l a y ı N ə b i. Maral xanımın oğlu? Bala mən sənnən zarafat edirdim. Mən səni çox istəyirəm. (*Cibindən konfet çıxarıb ona və Şövkətə verir*.) Alın, gedin həyətdə oynayın. Oğlum, birdən mən dediyim sözü anana deyərsən ha. Mən sənnən zarafat eləyirdim. Dedim görüm, qorxaq uşaq deyilsən ki?

Ə l i. Mən heç kəsdən qorxmuram.

K ə r b ə l a y ı N ə b i (*kənara*). Niyə qorxasan, Maral xanım kimi kommunist anan var. (*Əliyə.*) İndi, balalarım, gedin oynayın, buraya qonaq gələcəkdir.

Əli və Şövkət gedirlər.

K ə r b ə l a y ı N ə b i. O şeytan qızı Maral xanımdan çox qorxuram.

Molla Rəhim və Məşədi Səfdər qulu daxil olurlar.

M o l l a R ə h i m. Səlamünəleküm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

K ə r b ə l a y ı  N ə b i. Əleküməssəlam.

M ə ş ə d i  S ə f d ə r q u l u. Kərbəlayı, bizə görə qulluq?

K ə r b ə l a y ı  N ə b i. Qulluq deyil, buyruqdur. Atam, siz mənim ilə bu xarabaya şəriksiniz? Sən Molla Rəhim üç aydır ki, kirayə vermirsən, bu da beş aydır.

M o l l a  R ə h i m. Kərbəlayı, and içirəm o hərəmi möhtərəminizin pak olan ruhuna, heç gəlirim yoxdur. Tükəzbanı satıb paltarı çılpaq qoymuşam.

Səfdərqulu qəhqəhə ilə gülür.

K ə r b ə l a y ı  N ə b i. Ədə bu nə deyir? Tükəzbanı satıb paltarı çılpaq qoymuşam.

M ə ş ə d i  S ə f d ə r q u l u. Kərbəlayı, biyol bil ki, Molla Rəhim çox səhv vurandır. O demək istəyirdi ki, paltarı satıb Tükəzbanı çılpaq qoymuşam. O gecə evinə bir qonaq gəlib gedəndə deyib, arvad, tez ol başmağı tut qoanq lampanı geysin.

Gülüşürlər.

K ə r b ə l a y ı  N ə b i. Yazıq nə etsin, kitaba baxmaqdan başı xarab olubdur. Xub, deyək ki, mollanın işi xod deyil, gəliri yoxdur. Bəs, Məşədi Səfdərqulu, sən nə deyirsən? Özün görürsən ki, bir gün ev naloqunu kassaya gec verəndə kommunxoz adamın atasını yandırır. Sənin arvadın Qızxanım səhərdən-axşama kimi o evdə, bu evdə çörək bişirib, paltar yuyub, pul qazanır; hamısını gətirib sənə verir. Sən də onun hamısını şəraba verirsən, heç mənzil kirayəsi dərdinə qalmırsan. Yəni bu zəhrimarı içməsən olmaz? A kişi, sən niyə buna nəsihət etmirsən?

M o l l a  R ə h i m. Etməkdən yorulmuşam, tərk edə bilmir.

M ə ş ə d i  S ə f d ə r q u l u. Ay kərbəlayı, biyol bunu bil ki, hər kəs bir şeyə eşq bağlar. Biri arvada, biri ata, biri quşa, biri qoça, biri nə bilim nəyə. Mən başı daşlı da bu şəraba eşq bağlamışam.

M o l l a  R ə h i m. Mən də pula aşiqəm, amma onun üzünü heç görmürəm.

M ə ş ə d i  S ə f d ə r q u l u. Əsil aşiq sənsən. Aşiq gərək məşuqəsini az-az görsün.

K ə r b ə l a y ı  N ə b i. Molla Rəhim, sən mənim işimi düzəlt, mən də sənin o məşuqəni belə ciblərinə doldurum. Həm kirayə pulunu da bağışlayım.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

M ə ş ə d i S ə f d ə r q u l u. Kərbəlayı, bəs bu xeyir işdən mənim xeyirim nə olacaqdır?

K ə r b ə l a y ı N ə b i. Sənin kirayəni bağışlayıb, o qədər pul verəcəyəm ki, o məşuqən şərabın küpünə girib nə qədər istəsən içəsən.

M ə ş ə d i S ə f d ə r q u l u. Ay sağ ol kərbəlayı, mən də bu yolda başımdan keçərəm.

M o l l a R ə h i m. İndi əmrinizi buyurun.

K ə r b ə l a y ı N ə b i. Mən istəyirəm qulluqçum Şövkəti alam. Qız hərçəndi kiçikdir, amma on iki yaşı var, şəriət ilə kəbin düsər. Mən bilirəm ki, qız öz ixtiyarı ilə mənə gəlməyəcəkdir. Ona görə gərək burada hiyləyi-şər oluna. Onun da yolunu, Molla Rəhim, siz bilirsiniz.

M o l l a R ə h i m. Madam ki, qız razı deyil, nə etmək olar?

K ə r b ə l a y ı N ə b i. A Molla Rəhim,bunu mənə deyirsən? Hansı qızın razılığı ilə kəbinini kəsmisən? Hansı qızı özünüz danışdırıb razılığını almısınız? Yalançı şahid də dünyada çox.

M ə ş ə d i S ə f d ə r q u l u. A kişi, kərbəlayı düz deyir, şahidin biri də mən.

K ə r b ə l a y ı N ə b i. Ay sağ ol,Məşədi Səfdərqulu, fikrimi anlamısan.

M o l l a R ə h i m. Məncə qızın yanında nə nigah, nə kəbin sözü açılmamalı, nə qədər kiçik olsa da bu sözləri anlar. Gərək onu çağırıb deyək ki, kərbəlayını sənə siğə edirik, çünki şəriətimizdə qız xeylağı gərək gizlənsin, o da qulluqçu üçün çətindir. Ancaq Pəricahan da təsdiq etsin ki, o da kərbəlayıya siğədir.

K ə r b ə l a y ı N ə b i. Çox gözəl fikirdir. Pəricahandan arxayın olunuz. Onun ilə bu barədə danışmışam. Molla sonra?

M o l l a R ə h i m. Daha bunun sonrası yoxdur. Kəbini kəsərik, basqa razılığını almaq, o sizin xüsusi işinizdir.

K ə r b ə l a y ı N ə b i. Çox əcəb, Pəricahan! Pəricahan!

P ə r i c a h a n (*daxil olur.*) Nə buyurursan?

K ə r b ə l a y ı N ə b i. Şövkəti buraya çağır, özün də gəl.

Pəricahan gedir.

M ə ş ə d i S ə f d ə r q u l u. Kərbəlayı, neçə gündür ayıqlıqdan başım lap çatlayır.

K ə r b ə l a y ı N ə b i. A kişi, sən nə səbirsiz adamsan, elə bu gecə sənnən məxsusi kef edəcəyəm. Ancaq gərək qız üçün də bir vəkil hazır edəsən.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

M ə ş ə d i  S ə f d ə r q u l u. O barədə arxayın ol.

Şövkət ilə Pəricahan daxil olurlar.

K ə r b ə l a y ı  N ə b i. Qızım, Şövkət, bizim şəriətimizdə arvad tayfası naməhrəm kişilərə üzü açıq görükə bilməz. Mən sənə naməhrəməm, belə açıq mənim yanıma girib çıxanda həm sən, həm də mən günah edirik. İndi gərək bu molla bizə siğə oxuya ki, biz bir-birimizə məhrəm olaq.

Ş ö v k ə t. Siğə nədir?

K ə r b ə l a y ı  N ə b i. Siğə bir duadır ki, bu molla oxuyacaq, onda biz bir-birimizə ər-arvad kimi olacağıq.

Ş ö v k ə t. Ər-arvad? Yox, mən onu istəmirəm.

M o l l a  R ə h i m. Qız, kərbəlayı səhv dedi, yəni sən ər-arvad kimi kərbəlayının yanına üzü açıq girib-çıxa bilərsən.

Ş ö v k ə t. Pəricahan, sənə də belə dua oxuyublar.

P ə r i c a h a n. Bəli.

Ş ö v k ə t. Onda mən də razıyam.

K ə r b ə l a y ı  N ə b i. Ay sağ ol, mənim gül balam, bülbül balam. A kişilər bilirsinizmi, necə bu mənim məzəlim, gözəlimdir. İndi get, Pericahan sənə aldığım paltarı və qeyri şeyləri göstərsin.

Gedirlər.

M o l l a  R ə h i m. İndi vəkillər və şahidlər lazımdır.

M ə ş ə d i  S ə f d ə r q u l u. Onların hamısını mən bu gecə hazır edərəm.

K ə r b ə l a y ı  N ə b i. A kişi, sən nə yaxşı adamsan. Ala bu pulu cibinə qoy. (*Pul verir.*) Ədə birdən, evi bərbad oğlu, gedib içib məst olarsan, işləri xarab edərsən.

M ə ş ə d i  S ə f d ə r q u l u. Xeyr, arxayın ol, içməyin də vaxtı var.

M o l l a  R ə h i m. İndi mürəxxəs olaq!

K ə r b ə l a y ı  N ə b i. Buyurun, işinizdə olun. Bu axşam məxsusi burada bir balaca kef çəkərik.

M e ş ə d i  S ə f d ə r q u l u. Kərbəlayı, sənin bu gecəki kefin kaş məndə olaydı. Xudahafiz.

K ə r b ə l a y ı  N ə b i. Adə, bu Ərdəbil lotusu nə deyir?

M ə ş ə d i  S ə f d ə r q u l u. O söz.

Gedirlər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

K ə r b ə l a y ı  N ə b i. Adə nə əcəb ih oldu. (*Çırtıq vura-vura oynayır.*)

Məzəlim, ay məzəlim,
Gözəlim, ay gözəlim.
Gözəlim, ay gözəlim.
Səni mən çox sevirəm.

**Pərdə**

İKİNCİ ŞƏKİL

Həmin otaqda gecə. Pəricahan süfrə salıb masaya bosqab düzür, yanında Şövkət.

P ə r i c a h a n. Mən stolu hazır edirəm, sən də o şamları yandırıb düz.
Ş ö v k ə t. Lap toya oxşayır.
P ə r i c a h a n. Toy deyil, bəs nədir?
Ş ö v k ə t. Bu kimin toyudur?
P ə r i c a h a n. Sənin.
Ş ö v k ə t. A qız nə danışırsan? Məni kimə verirlər?
P ə r i c a h a n. Ağaya, özün mollanın yanında razı olmadınmı?
Ş ö v k ə t. Mən dua oxumağa razı oldum, o duanın adı nə idi?
P ə r i c a h a n. Siğə.
Ş ö v k ə t. Hə, siğə.
P ə r i c a h a n. Nə təfavütü var? O da o birisinin tayıdır.
Ş ö v k ə t. Sən allah doğru deyirsən?
P ə r i c a h a n (*gülür.*) Yox, zarafat edirəm.
Ş ö v k ə t. Sənə də siğə oxunanda belə qonaqlıq oldu?
P ə r i c a h a n. Əlbəttə, hətta oxuyan, çalan da vardı. Mən də o qədər oynadım ki, ayaq üstə durmağa taqətim qalmadı.
Ş ö v k ə t. Ah, oynamağı mən çox sevirəm.
P ə r i c a h a n.  Sən də ağaya de, Məşədi Səfdərqulu qonşusu Şirəlini çağırsın, o çalsın, sən də belə nə qədər kefin istəyir oyna.
Ş ö v k ə t. Pəricahan, sən allah doğru deyirsən? Yəni ağaya desəm, gətirdər?
P ə r i c a h a n. Əlbəttə, gətirdər.
Ş ö v k ə t. Yaxşı, sən de oynayacaqsanmı?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

P ə r i c a h a n. Əlbəttə, oynayacağam. İndi gəl gedək səni geyindirim.

Gedirlər, sonra Kərbəlayı Nəbi, Məşədi Səfdərqulu daxil olurlar.

K ə r b ə l a y ı N ə b i. Sənə dedimki, bu zəhriman içmə, yoxsa işləri xarab edərsən. Genə qulaq asmadın. İndi bu gecə iç nə qədər qarnın tutur.

M ə ş ə d i S ə f d ə r q u l u (yarımməst). Kərbəlayı biyol bunu bil ki, müsəlman arvadı döyülməyə yaranıbdır. Başı yarılmağa, qabırğaları sınmağa.

K ə r b ə l a y ı N ə b i. Elə gərək mənim xeyir işimdə bunu edəydin?

M ə ş ə d i S ə f d ə r q u l u. Axı, a kişi, mən nə edim? Sən verdiyin pula bir az zəhrimar alıb evdə içirdim. Arvad da tutdu ki, bəs bu pulu haradan almısan? Bu söz biləmə toxundu, dedim arvad necə? Mən kişi deyiləm? Mənim cibimdə pul olmaz? Dedi yox, sən kişi deyilsən, kişi olsaydın mən arvadın pulu ilə dolanmazdın, yəqin yenə mənim şeylərimdən satmısan.

K ə r b ə l a y ı N ə b i. Ədə deyəydin, pulu mənə Kərbəlayı Nəbi veribdir, dava qurtarardı.

M e ş ə d i S ə f d ə r q u l u. Bəs demədim, ondada tutduki, sən yalan deyirsən. Sən kərbəlayıya pul verməkdən kərbəlayı sənə nə səbəbə pul versin. Mən əhvalatı nağıl etdim. Yenə bidin qızı inanmayıb dedi: sən məni aldadırsan. O qocalıqda kişi on bir yaşında qulluqçusunu almaz.

K ə r b ə l a y ı N ə b i. Yəni belə dedi? O qocalıqda kişi?

M ə ş ə d i S ə f d ə r q u l u. Bəli!

K ə r b ə l a y ı N ə b i. Onda əcəb etmisən ki, onun qol-qıcını sındırmısan. Mən qocayam?

M ə ş ə d i S ə f d ə r q u l u. Bu söz mənim lap biləmə toxundu. Ağacı götürüb nə yemisən turşulu aş. Başını yardım, qolunu sındırdım, ağlaya-ağlaya birbaş çıxıb getdi.

K ə r b ə l a y ı N ə b i. Ədə,birdən Qızxanım gedib şikayət-zad edər.

M ə ş ə d i S ə f d ə r q u l u. Allah vurub onu, küsüb yenə xalasıgilə gedər. A kişi, onları boşla getsin, kefini pozma. Kərbəlayı, süfrədə şüşə görünmür.

K ə r b ə l a y ı N ə b i. Qorxma, almışam, ancaq molla Rəhim gələcəkdir, onun yanında mən içə bilməyəcəyəm. Qoy gəlsin, onu yedirdək, yola salaq, sonra öz kefimizdə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

M ə ş ə d i  S ə f d ə r q u l u. Ha-ha-ha...

K ə r b ə l a y ı  N ə b i. Ədə, a bic, nəyə gülürsən?

M ə ş ə d i  S ə f d ə r q u l u. Kərbəlayı, o da lotudur, sən öləsən şərabın küpünə girir.

K ə r b ə l a y ı  N ə b i. A kişi, nə danışırsan? Vay sənin zatına lənət, a bele molla.

Şövkət daxil olur.

Ş ö v k ə t. Ağa!

K ə r b ə l a y ı  N ə b i. Belə can, nə buyurursan mənim gözəlim, məzəlim?

Ş ö v k ə t. Pəricahan deyir ki, o sənə siğə olanda çalğıçı gətirmişdin. İndi mənə də gətirsənə. Axı mən də oynamaq istəyirəm.

K ə r b ə l a y ı  N ə b i. Belə mənim bu gözlərim üstə, mənim nazlı balam. Get Pəricahana de ki, Şirəlini buraya çağırsın. Tarını da gətirsin.

Şövkət gedir.

M ə ş ə d i  S ə f d ə r q u l u. Kərbəlayı, qız ilə aranı yaman sazlamısan, ha.

K ə r b ə l a y ı  N ə b i. Sən öləsən məşədi, özümü on səkkiz yaşında cavan kimi hiss edirəm.

M ə ş ə d i  S ə f d ə r q u l u. Şərabdan da vurub qızmış şirə dönəcəksən.

K ə r b ə l a y ı  N ə b i. Ədə, məşədi, gərək qızın yanında içməyəm. Yoxsa məndən ürküb qaçar.

M ə ş ə d i  S ə f d ə r q u l u. A kişi, sənin toruna düşən haraya qaça bilər?

K ə r b ə l a y ı  N ə b i. Əlbəttə, küçələrdə dilənçilik edən bir qızı gətirib özümə arvad etmişəm. Daha niyə öz vəliyyinemətinə şıllaq atsın?

Ş i r ə l i (*əlində tar daxil olur.*) Salamünəleyküm kərbəlayı, toyun mübarək olsun.

K ə r b ə l a y ı  N ə b i. Əleykümərssəlam Şirəli, səndən çox razıyam, mənim bu işimdə çox zəhmət çəkmisən.

Ş i r ə l i. A kişi, təki sən belə toylardan tez-tez edəsən, mən də gələm.

Gülüsürlər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

M ə ş ə d i  S ə f d ə r q u l u. Ədə, Şirəli,o gorbagorun qızı evə qayıtdı?

Ş i r ə l i. Qızxanımın qol-qıçını elə sındırmamısan ki, bir də xarabana qayıtsın.

M ə ş ə d i  S ə f d ə r q u l u. Hələ ona o da azdır.

Ş i r ə l i. Kərbəlayı, süfrə ziynətini stolda görmürəm.

K ə r b ə l a y ı  N ə b i. Bu piyaniskələr məni lar təngə getirdilər. (*Şkafı açıb şərab çıxardır.*) Ala bu biri, bu da biri, bu da biri.

M ə ş ə d i  S ə f d ə r q u l u. Kərbəlayı, bundan Fatıya tuman olmaz.

K ə r b ə l a y ı  N ə b i. Ədə, sən doymaz oğlu doymazsan.

M ə ş ə d i  S ə f d ə r q u l u. Kərbəlayı, bunun biri mənim, biri sənin, biri bu cənabın. Bəs mollanın payı? Siz öləsiniz mən öz payımdan bir damcı da ona verməyəcəyəm, zalım oğlu il uzunu mənim xərcimə içir.

Ş i r ə l i. Aşna, kişinin haqqında böhtan deyirsən. Mən insafımdan keçə bilmərəm, pul o yazığınkı olur, içmək də sənlə mənim. Ona da bir tula payı veririk. Dinə de bilmir, çünki qorxur ki, paxırını açaq.

K ə r b ə l a y ı  N ə b i. Görürəm, siz yaxşı sirr saxlayırsınız. Yəqin mənim içməyimi də ona söyləmisiniz.

Gülüşürlər.

M ə ş ə d i  S ə f d ə r q u l u. Əlbəttə, sizin içinizdə kişi bir özümü görürəm. Apaçıq içirəm. Heç kəsdən gizlətmirəm.

Ş i r ə l i. Kərbəlayı, yenə gözləyəcək adamın var?

K ə r b ə l a y ı  N ə b i. Xeyr, bircə Molla Rəhim qalıbdır.

M ə ş ə d i  S ə f d ə r q u l u. O, şərabın qülqüləsini eşidən kimi burada hazır olacaqdır.

K ə r b ə l a y ı  N ə b i. Onda buyurunuz başlayaq. (*Əyləşirlər, fincanları şərab ilə doldururlar.*)

Ş i r ə l i. Bu piyaləni kərbəlayının sağlığına içək və arzu edək ki, belə siğələrdən çox etsin və biz dostları da unutmasın.

M ə ş ə d i  S ə f d ə r q u l u. Sağol, kərbəlayı, bugecəki kefini allah ömrünə hesab etsin.

K ə r b ə l a y ı  N ə b i. Sağ olun, əziz dostlarım.

İçirlər.

M ə ş ə d i  S ə f d ə r q u l u. A kişi, gör mürtəd qızı mürtəd nə deyir. Kərbəlayı qocadır. İş sinndə deyil, ürək cavan olsun.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

M o l l a R ə h i m təğyiri-libas daxil olur.

M ə ş ə d i S ə f d ə r q u l u. A kişi, gəldə, kərbəlayının xeyir işində də içməyib haçan içəcəksən?
M o l l a R ə h i m. Adə, məni kərbəlayının yanında biabır etmə.
Ş i r ə l i. A kişi, kərbəlayı əhli-ruhdur, işlərdən baxəbərdir, buyur.

Molla Rəhim əyləşir.

M ə ş ə d i S ə f d ə r q u l u. İndi mollanın payını meydana çıxar.
K ə r b ə l a y ı N ə b i. Ədə, bəs nə fikir edirsən? Nə qədər içirsən, iç, dalı bağlıdır.
M ə ş ə d i S ə f d ə r q u l u. Ha, belə de, mən də gülə-gülə içim. Şirəli, mollanın piyaləsini doldur.

Şirəli doldurur.

M ə ş ə d i S ə f d ə r q u l u. Bu piyaləni də içək o gözəl xanımın sağlığına.
K ə r b ə l a y ı N ə b i. Şair bu sözləri yəqin mənim məzəlicə gözəlimə deyibdir:

Əzizim, gözlərim, canım, üzün göstərgilən ayə,
O düşsün torpağa, merac elə sən ərşi-əlayə.

M o l l a R ə h i m. Əhsən, əhsən.

İçirlər.

Ş i r ə l i. Kərbəlayı, şərab, nə şərab, adama ruh verir. Sağ ol.
K ə r b ə l a y ı N ə b i. Nuşican.

Piyalələri doldururlar.

M ə ş ə d i S ə f d ə r q u l u. Bu piyaləni də dostumuz əhli-ruh Molla Rəhimin sağlığına içək, arzu edək ki, belə-belə hiləyi-şərdən çox düzəltsin və belə keflərdən də bizi məhrum etməsin.
M o l l a R ə h i m. Əzizlərim, dünyanın ləzzəti iki şeydir: biri bu şərabdır, biri də zənən. Əbəs yerə şair bunları tərif etmir, bu iki şeyi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dünyadan götür, gör yerdə nə qalır. Şərabın nəhyi biz ürəfa üçün deyil, avam üçündür.

Ş i r ə l i. Kişi haqq söz deyir. Şərab, qadın, fəqət şərab Kərbəlayının şərabı kimi köhnə və qadın da onun zövcəsi kimi on yaşında olmalıdır.

M o l l a  R ə h i m. Sağ ol!

İçirlər.

K ə r b ə l a y ı  N ə b i. (*oxuyur.*)

Zahid, çox eyləmə məni təklifi-cənnətə,
Mən qoymaram behiştə qədəm nazlı yarsız.

M o l l a  R ə h i m.

Saqi kərəm eylə cam gəzdir,
Durma, qədəhi müdam gəzdir.
Dövrana çox etibar qılma.
Gəzdir qədəhi, qərar qılma.

Ş i r ə l i. Belə mənim başım üstə.

Piyalələri doldurur.

M ə ş ə d i  S ə f d ə r q u l u. Bu piyaləni içək bizim Şirəlinin sağlığına və təvəqqə edək ki, bir az bizim üçün çalsın.

Ş i r ə l i. Ancaq bu şərt ilə ki, mən çalım, Molla Rəhim də oynasın.

M o l l a  R ə h i m. Xeyr, xeyr, mən bacarmaram. O, kərbəlayının işidir, eşq başına vermuş. Sən çalsan o davam etməyəcəkdir.

Pəricahanla  Şövkət daxil olur.

P ə r i c a h a n. Gəl, gəl vallah mən də oynayacağam. İstəyirsən mən qabaqca oynayım.

Ş ö v k ə t. Vay dədə, vay, burada çaxır içirlər. Yox, mən istəmirəm, mən gedirəm.

K ə r b ə l a y ı  N ə b i. Gəl mənim gözəlim, mənim məzəlim. Bu çaxır deyil, qırmızı şərbətdir. Görmürsən, Molla Rəhim də içir. Molla



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

da heç çaxır içərmi? (*Ayaq üstə qalxır, pyan kimi yırğalanır.*) Gəl mənimlə oynayaq, gözəlim.

Ş ö v k ə t. Sən piyansan, mən sənnən oynamaram.

K ə r b ə l a y ı  N ə b i. Düzdür, mən piyanam, ancaq çaxırdan yox, sənin eşqindən, mənim gözlərim. Adə Şirəli, çal. (*Şirəli çalır.*) Ay qız Pəricahan, gəl mənnən oynayaq, Şövkət baxsın.

Oynayırlar, çırtıq çalır, Kərbəlayı Nəbi Şövkəti qucaqlayıb çəkir, Şövkət qışqırır.

Ş ö v k ə t. Burax məni, burax məni, sən piyansan, səndən qorxuram. Bu halda Maral xanım, Qızxanım, Əli və iki milis nəfəri daxil olur.

H a m ı. Vaxsey.

Ş ö v k ə t. Maral xanım, məni bunların əlindən al.

M a r a l. Qorxma qızım, qorxma, ay alçaqlar, ay sitəmkarlar, bu məsumə qızcığazın başına nə iş gətirirsiniz. Söylə, qoca məlun!

K ə r b ə l a y ı  N ə b i. Biz bir balaca kef edirdik.

M a r a l. Bəli, bir balaca, yetim qızı da aldadıb özünə gəlin gətirmisən, eləmi?

K ə r b ə l a y ı  N ə b i. Biz onu aldatmamışıq. Öz ixtiyarı ilə mənə gəlibdir. Bunlar da şahiddir. Kəbini də bu Molla Rəhim kəsibdir.

Ş ö v k ə t. Maral bacı, vallah yalan deyirlər, bunlar məni aldatdılar ki, sənə dua oxuyuruq ki, üzü açıq kərbəlayının yanına girib-çıxa biləsən.

M a r a l. Bilirəm, qızım, hamısını bilirəm, mənə bu Qızxanım söyləyibdir.

M ə ş ə d i  S ə f d ə r q u l u. A gorbagorun qızı, gör sənin başına nə iş getirəcəyəm?

M a r a l. Sus, alçaq! Sənin cəzan bunların hamısından artıq olacaqdır. Gör, öz zəhmətilə sən binamus əri saxlayanı nə hala salıbsan?

Q ı z x a n ı m. Başına dönüm, Maral bacı, məni bu əjdahanın əlindən al.

M a r a l. Qorxma, bacım, bu əjdahaları mən bir hala salacağam ki, sən özün də əhsən deyəsən.

M o l l a  R ə h i m. Başına dönüm, Maral xanım, bu işdə mənim təqsirim yoxdur. Bu şahidlərin şəhadəti ilə, şəriət üzrə mən kəbin



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

kəsmişəm. Hərgah indi qız inkar edir, burada da mənim təqsirim yoxdur.

Ş ö v k ə t. Mən haçan sənə izin verdim ki, mənə kəbin kəsəsən, mən siğə oxumağa razı oldum.

M a r a l. Ay alçaqlar, görmürsünüz ki, bu məsumə qızcığaz heç siğə nə olduğunu da anlamır. Onu aldadanın biri də bu Pəricahan olubdur.

P ə r i c a h a n. Cəmi taqsır bu qoca kaftardadır. Məni yoldan çıxardan o oldu. Deyir, mən Şövkətə aşiq olmuşam. Onun eşqindən dəli olmuşam.

M a r a l. Onu ağla gətirərlər. Ay alçaq binamuslar, siz unutmayınız ki, indi Şura hökumətidir. İndi qadınlar azaddır. İxtiyarları öz əllərindədir. (*Milislərə.*) Alın bunları.

P ə r i c a h a n. Məni də?

M a r a l. Səni də, haydı.

H a m ı. Vay, atamızın evi yıxıldı.

**Pərdə**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## SƏADƏT ZƏHMƏTDƏDİR

*Bir pərdədə, üç şəkil*

ƏFRADİ ƏHLİ MƏCLİS

Ş a h z a m a n -şah.
Ş ə m s ə d d i n -vəzir.
C ə m a l ə d d i n -vəkil.
Ş e y x İ b r a h i m -alim.
D u d a n - əcnəbi bir təbib.
M ə n s u r - xidmətçi.
B u l q e y s -kəniz.
C e f e r k i ş i - ixtiyar bir kəndli,
A b d u l l a -dərviş.

BİRİNCİ ŞƏKİL

Səhnə Şahzamanın sarayını göstərir. Şəmsəddin, Cəmaləddin Şeyx İbrahim məsləhət üçün cəm olublar.

Ş ə m s ə d d i n. Ey məmləkətimizin əyanları! Tam bir aydır ki, cavan şahimiz bu mərəzi-bidərmana düçar olmuş. Vilayətimizdə bir alim, bir təbib qalmamış ki, ona müalicə etməmiş ola. Fəqət indiyə kimi bir səmərə verməmiş. İndi əcnəbi ölkədən Dudan namində bir alim biəvəz, təbibi-binəzir çağırılmış ki, şaha müalicə etsin. Hərgah bu da bir şey bacarmazsa, ümidimizi ondan üzməliyik.

Dudan məyus bir halda şahın xabıgahından[1] cıxıb gəlir.

C ə m a l ə d d i n. Həkim, sizi məyus görürüz, şahın sağlamlığına ümid yoxmu?

D u d a n. Təbabətdə ümdə şərt mərəzi tapmaqdır, müalicəsi asandır. Mən Şahzaman həzrətlərinin mərəzin tapmadım. Zahiri və batili əzalələri sağlam, əqli yerində, huşu özündə. Boylə olan surətdə xörəkdən kəsilməsi nə illətdəndir? Anlaya bilmirəm.

---

[1] *Xabıgah* - yataq yeri.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mənsur daxil olur.

M ə n s u r. Bir dərviş qibleyi-aləmə müalicə üçün gəlmiş, izin istəyir.
Ş ə m s ə d d i n. De, gəlsin.

Mənsur çıxır.

Ş e y x İ b r a h i m. Zəmanəmizin Ərəstü və Əflatunu hesab olunan Dudan əfəndilər müalicə etməkdə aciz olduqda bir dərvişmi edəcəkdir?
C ə m a l ə d d i n. Bilmək olmaz, bəlkə dərviş vilayətləri gəzərkən boylə mərəzə mübtəla olmuş və onun müalicəsin öyrənmiş.

Abdulla daxil olur.

A b d u l l a. Şahzaman həzrətlərinin xəstəliyini eşidib gəlmişəm. İzin var isə baxım.
Ş ə m s ə d d i n. Ağa dərviş, siz burada gözləyin, şah həzrətlərindən izin alım. (*İçəri girir.*)
Ş e y x İ b r a h i m. Ağa dərviş, təbibi-binəzir Dudan əfəndi şah həzrətlirinin mərəzini tapmamış.
D u d a n. Təəccüb birmərəz! Mədəsi sağlam olduğu halda heç bir xörəyi götürməyir.
A b d u l l a. Bəs indiyə kimi təamı nə olmuş?
C ə m a l ə d d i n. Şah həzrətləri xurmadan başqa bir şey yemir.
Ş e y x İ b r a h i m. O da bağçasındakı kənizin zəhmətilə bəsləmiş xurmanı - başqa xurma ağaclarının barını yeyə bilməyir.
A b d u l l a. Ha, şah həzrətlərinin azarını anlayıram.

Şəmsəddin daxil olur.

Ş ə m s ə d d i n. Qibleyi-aləm cümlənizi hüzuruna dəvət edir.

Gedirlər.

**Pərdə**

## İKİNCİ ŞƏKİL

Şahzamanın xabıgahını göstərir. Şah taxt üstündə uzanmış. Bulqeys, Şəmsəddin, Şeyx İbrahim və Abdulla.

Ş a h z a m a n. Ağa dərviş, mərəzimdən nə anladın? Söylə.
A b d u l l a. Şah, mərəzinizi tapmışam. Fəqət müalicəsini özünüzə məxfi söyləyəcəyəm. Əmr ediniz burada kimsə olmasın.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ş a h z a m a n. Ağa dərvişin xahişinə əməl gətiriniz.

Şəmsəddindən başqa cümləsi cıxır.

Ş ə m s ə d d i n. Qibleyi-aləm, əmrinizdən çıxmağa üzr istəyirəm. Məhz sizi naməlum dərviş ilə tək qoymağa cürət etmirəm.

A b d u l l a. Şahım, əgər vəzirinizi özünüzə ən müqərrib bir şəxs sanırsınızsa və mənim sizi bu mərəzdən xilas etmək tədbirimə mane olmazsa, burada qalmasına razıyam.

Ş a h z a m a n. Ağa dərviş, Şəmsəddin mənim ən müqərrib vəzirlərimdəndir və sənin tədbirindən çıxmaz, söylə.

A b d u l l a. Şahim, bu mərəzdən xilsa olmaq üçün gərək tam bir il mənim əmrimə tabe olub müalicəmi əmələ gətirəsiniz. Nə cür ağır təklif etsəm, bitirəsiniz. Müalicə qəsdilə sizi bir ilin müddətində vilayətimizi seyr etdirəcəyəm. Təyin etdiyim bir il tamam olduqda sizi sağ və salamat yenə buraya gətirəcəyəm. Əgər bu şərtimə razısınızsa, dalını söyləyim.

Ş a h z a m a n.  Razıyam, söylə.

A b d u l l a. Əcnəbi vilayətə müalicəyə gedirəm – deyə elan edirsiniz və hökumət işlərini ərkani-dövlətə tapşırmağı əhaliyə məlum edirsiniz. Onu da əlavə edirəm ki, nərəyə getdiyiniz məxvi qalmalıdır. Bu gecə mənim ilə bərabər təqyiri-libas olub saraydan çıxacağıq. Zəif olmağınıza görə bir kəniz də götürünüz ki, sizə qulluq etsin.

Ş a h z a m a n. Şəmsəddin, ağa dərvişin tədbirinə nə deyirsiniz?

Ş ə m s ə d d i n. Şahım bir tədbir ki, zati-alilərinizin şəfa tapmağına səbəb ola - mən nə deyə bilərəm.

Ş a h z a m a n. Onda ərkani-dövləti hüzuruma çağırınız.

Şəmsəddin çıxır.

Ş a h z a m a n. Ağa dərviş, mənim mərəzim nədən əmələ gəlmiş?

A b d u l l a. Şahım, təbiətdən uzaqlaşıb, onun qanunun pozmaqdan. Mənim müalicəm də sizi ona yavuqlaşdırmaq olacaqdır.

Ş ə m s ə d d i n. Cəmaləddin, Şeyx İbrahim daxil olurlar.

Ş a h z a m a n. Ey ərkani-dövlət! Bu xəstəlikdən xilas olmaq üçün əcnəbi vilayətə müalicəyə gedirəm. Hökumət işlərini sizlərə tapşırıram. Mən qayıdana kimi Şəmsəddinin hökmünə tabe olmalısınız və



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

onun itaətində bulunmalısınız. Müalicə bir sənə çəkəcəkdir. Padşahlıq işlərinə diqqətlə baxmağınızı əmr edirəm. İndi mürəxxəssiniz.

Çıxırlar.

**Pərdə**

ÜÇÜNCÜ ŞƏKİL

Səhnə bağ içində bir kəndli koması göstərir. Pərdə qalxdıqda
Şahzaman kəndli libasında odun gətirir.

B u l q e y s. Ah, əzizim, nə bərk tərləmisən? (*Dəsmalı ilə onun tərini silir.*) Odun səni yordumu?

Ş a h z a m a n. Yox, əzizim, artıq yorulmamışam, amma çox acmışam. Bir az su ver içim. Ürəyim yanır.

Bulqeys cürdəyi verir, o da içir.

B u l q e y s. Xörəyi hazır etmişəm, Cəfər babanı gözləməyə dözməyəcəksənsə ye.

Ş a h z a m a n. Yox, Bulqeys, qoy baba da gəlsin, birlikdə yeyek. Qaydanı pozma, Sən süfrəni hazır et, ona kimi Cəfər baba da gəlib çıxar. (*Bulqeys süfrəni hazır edir.*) Bulqeys, bu gün ağa dərviş təyin etmiş vaxt bitir.

B u l q e y s. Ah! (*Əlindən qabı salır.*)

Ş a h z a m a n. Niyə təlaş etdin? Məgər bu xəbər səni şad etməyir?

B u l q e y s. Yox, şahim.

Ş a h z a m a n. Nə səbəbə saraya qayıtmağa şad deyilsən?

B u l q e y s. Şahim, qızıl qəfəsə salınmış bir quş halına şadmı olur? Əgər quş özündən də oxuyursa, öz halından nalə edir. Böylə təbiət içində azadə yaşadığını yad edib fəğan eləyir.

Ş a h z a m a n. Gözəl bir cavab! Bulqeys bu sualı sənə verməkdə fikrini bilmək istəyirəm.

B u l q e y s. Bəs sizin fikriniz nədir, şahim?

Ş a h z a m a n. Sən ilə bu gözəl təbiət içində yasamaq!

B u l q e y s. Ah, sevgili Zamanım! Sən mənə yeni bir həyat verdin! (*Boynunu qucaqlayır.*) Sən də mənim kimi o qızıl qəfəsə qayıtmaq istəmirsən?!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ş a h z a m a n. Əvət istəmirəm.

Cəfər kişi dalında bir kisə un daxil olur. Şahzaman kisəni onun dalından alıb yerə qoyur.

Ş a h z a m a n. Baba, niyə mənə demədin gedib gətirəydim. Sən qoca kişi bu ağır kisəni necə götürdün?

C ə f ə r k i ş i. Oğul, onsuz da sənin yanında xəciləm. Bu sənə mənim işimin hepsini sən görmüsən. Gör buğdamdan nə ağ un çıxıbdır?

Göstərir.

B u l q e y s. Baba, mən də bu ağ undan yaxşı çörək bişirəcəyəm. Əyləşin, xörəyi verim, acsınız.

Əyləşirlər nahar yeməyə məşğul olurlar.

C ə f ə r k i ş i. Oğlum Zaman, ağa dərviş çoxdan bəridir bizə qonaq gəlməgyir. Görəsən bir qəziyyə üz verməyib ki?

Ş a h z a m a n. Baba, ağa derviş bu gün gələcəkdir və özü ilə bir neçə qonaq gətirəcəkdir. Odur gəlirlər.

Şəmsəddin, Cəmaləddin, Şeyx İbrahim və Abdulla daxil olurlar.
Şahzamana təzim edirlər.

C ə f ə r k i ş i. Buyurunuz, əyleşin, bizim ilə allah verenden yeyiniz.

A b d u l l a. Cəfər baba, bu əşxas sizin xörəyinizə adət etməmişlər. Bunların yeməkləri başqadır.

C ə f ə r k i ş i. Doğru deyirsiniz. Bu şəxslər çox böyük adamlara oxşayırlar. Mən fəqir kəndlinin çörəyini bəyənməzlər.

Ş ə m s ə d d i n. Kəndli baba, ən böyük şəxs yanında əyləşibdir.

C ə f ə r k i ş i. Kim? Zamanmı?

Ş ə m s ə d d i n. Bəli.

C ə f ə r k i ş i. Zaman nəçidir?

Ş ə m s ə d d i n. Məmləkətimizin şahı, cümləmizin qibleyi-aləmi.

C ə f ə r k i ş i. Oğlum, bunlar nə söyləyirlər? Sən doğrudanmı şahsan?

Ş a h z a m a n. Baba, bir il bundan irəli mən şah idim. Amma indi yox.

C ə m a l ə d d i n. Qibleyi-aləm, sizi təxtinizdən kim xələl edə bilər?

Ş a h z a m a n. Cəmaləddin, mən özüm etmişəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ş e y x İ b r a h i m. Qibleyi-aləm əgər bizlərdən narazısınız tənbeh ediniz. Fəqət bu söz ilə bizləri məyus etməyiniz.

Ş ə m s ə d d i n. Qibleyi-aləm, bir sənə bundan əqdəm hökumət işlərini, bu ağır vəzifəni aciz bəndələrinizə tapşırıb xəstəliyinizi müalicə etmək üçün bura gəlmişsiniz. Min şükürlər olsun indi sağalmışsınız, buyurunuz gedək. Sahibsiz qalmış tac-taxtınız, gözəl sarayınız sizi gözləyir. Tam bir sənədir ki, rəiyyətləriniz yas tutub, üzləri gülməyir. Sizin gəlməyiniz onları nəhayət şad edəcəkdir.

Ş a h z a m a n. Kəs, yalançı vəzir! Rəiyyətimin üzü bir sənə deyil, illər ilə gülməyir. Bizim zülm və sitəmimizdən müdam göz yaşı tökür. Nə vaxt soruşmuşam, rəiyyətim nə tövr dolanır? Cavab vermisiniz ki, mərhəmətləriniz sayəsində şad və xürrəm yaşayıb ömr şərəfinizə duaku vardırlar. Yalan! Mən bu səyahət ilə rəiyyətimin nə tövr əziyyətlə dolandığını öz gözlərimlə gördüm. Ziqiymət-libaslarımın qanlı göz yaşı ilə toxunduğunu gördüm. Yediyim ləziz xörəklərin necə göz yaşı ilə əmələ gəldiyini gördüm. Gümüş və qızıl qapılarımın nə zəhmət ilə əmələ gəldiyini gördüm, hərəmxanamda işsiz yeyib-içən kənizlərimin boynundakı mirvarıları dənizlərdən çıxaran zaman yüzlərlə qərq olan işçiləri gördüm.

Ş ə m s ə d d i n. Qibleyi-aləm! Allah-təala həzrətləri onları zəhmət üçün yaratmışlar. Sizi də onlara padşahlıq etməyə.

Ş a h z a m a n. Ey mənə çocuq ikən qəsdən öylə yanlış tərbiyə verən ixtiyar vəzir. Yenə də məni elə çocuq sanırsan? Xeyr, mən səadət yolumu tapdım. Məni saraya, o zindana, o zülm yuvasına çağırma. Mən bu dəyirmanı min elə saraylara dəyişməm. Mən öz əlimin zəhmətilə becərdiyim bu bağçanı, bu bostanı sarayın başqaları zəhməti ilə əmələ gəlmiş cənnət-misal gülüstanına verməm. Bax, bu sadə, öz zəhmətim məhsulundan təamı oranın (*sarayın*) növbənöv xörəklərinə dəyişməm. Şəmsəddin bilmirsən dünyada ən böyük səadət nədir? Zəhmətdə bunu anlamış Şahzamanı heç bir vəchlə burdan apara bilməz.

Ş e y x İ b r a h i m. Qibleyi-aləmi yoldan çıxardıb sizləri şahsız qoyan bu dərviş oldu.

Ş a h z a m a n. Bəli, mənə həqiqi səadəti anladan və insanın müqəddəs vəzifəsini zəhmətlə bildirən ağa dərviş oldu. Siz məni yenə dəvət edirsiniz. Daha bitdi. Cümləniz azadsınız.

**Pərdə**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# İKİ YOL

*Faciə bir pərdədə*

İŞTİRAK EDƏNLƏR

M i r K a z ı m a ğ a - şəhərin axundu, 65 yaşında.
T ü k ə z b a n - onun arvadı, 40 yaşında.
M ə m m ə d - onun oğlu, 22 yaşında,
G ü l s ü m - onun qızı, 17 yaşında.
M o l l a F ə t t a h - məhəllə mollası, Tükəzbanın qardaşı, 60 yaşında.
Q o n ç a - onun qızı, Məmmədin nişanlısı, 18 yaşında.

Səhnə Mir Kazım ağanın otağını göstərir. Otaq Şərq səliqəsilə bəzənmiş, pəncərələr qalın pərdələr ilə örtülmüş, Divan üstə şal mütəkkələr. İki böyük divar aynası. Gülsüm aynanın önündə durub özüna bəzək verir. Təzə paltarına baxır. Oru-burasını düzəldir. Bu vaxt anası daxil olur.

G ü l s ü m. Ana, donum gen tikilmiş, daraltmaq lazımdır.

T ü k ə z b a n. Qızım, gen olmağın zərəri yoxdur, təki dar olmasın. Həmişə belə zəif olmayacaqsan ki, ətə-qana gəlib dolacaqsan.

G ü l s ü m. Ay ana, nə deyirsən? Libas mənə tikilmiş, ya mən libasa? Mən haçana kimi gözləyim ki, ətə-qana gəlim, libas bədənimə görə olsun? Bəlkə, heç kökəlməyəcəyəm.

T ü k ə z b a n. Nə üçün kökəlməyəcəksən? Allaha şükür yemək-içməyimiz boldur. Ağanın müridləri evimizi heç bir zaddan kəm-kəsir qoymur. Hər bir yeyəcəyimizi yığıb verirlər. Burada heç bir ehtiyacımız yoxdur. Qəssab Səfər də hər gün ət payımızı göndərir. Atanın da nəziri yüz-yüz gəlir.

G ü l s ü m. Ana can, dediklərin hamısı doğrudur, amma mən yenə də hala gəlmirəm. Bilirsənmi buna səbəb kimdir?

T ü k ə z b a n. Kim olacaq? Sən özün, sənin tərsliyin. Nə qədər yalvarıram ki, qızım ye, iç, hala gəl. Həkim də buyurmuşdur ki, çoxlu süd və bal, yumurta yesin. Amma sən bunların heç birinə əməl etmirsən.

G ü l s ü m. Xeyr, ana, mənim belə zəif düşməyimə səbəb bunlar deyil, siz atam-anamsınız! Quşu qəfəsə salan kimi, məni də bu otağa



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

salıb dustaq etmişsiniz. Sən axund Mir Kazım ağanın qızı Seyyidə xanımsan deyə, mənə hər bir şeyi nəhy etmisiniz. Bu dörd divarın içi mənim dünyamdır! (*Ağlayır.*)

T ü k ə z b a n. Gülsüm, yenə sənə nə olmuş? Yoxsa bu gecə pis yuxu görmüsən?

G ü l s ü m. Bəli, görmüşəm,

T ü k ə z b a n. Xeyir ola, qızim, söylə görüm.

G ü l s ü m. Ana, yuxumda gördüm ki, qardaşım Məmmədin toyudur.

T ü k ə z b a n. Doğru görmüsən, qızım, ağan sabahkən mənə dedi ki, Tükəzban bu həftə Məmmədin gəlinini gətirməli, çünki məhərrəm ayı yaxınlaşır. Mənim özüm də tələsirəm ki, Qonçanı tez gətirək, həm mənə kömək etsin, həm də sənə yoldaş olsun. Daha, nə gördün, qızım?

G ü l s ü m. Gördüm ki, evimizdə böyük şadlıqdır. Həmin bu otağımız qonaq ilə doludur. Bir yanda mənim, bir yanda Məmmədin cavan yoldaşları oturmuşlar. Bir dəstə oxuyan, çalan da hazırdır. Çalğıçılar çalırlar. Bir oğlan o cərgədən, bir qız bu cərgədən qalxıb oynayırlar. Onlar otururlar, başaqaları rəqs edir. Sonra oxuyan başladı. Ah, heç olmasa yuxumda isə də evimizdə bir şadlıq, bir toy gördüm.

T ü k ə z b a n. Kəs səsini, bihəya! Mir Kazım ağanın evində toy, balaban? Qızlar oğlanlar ilə oynamaq?

G ü l s ü m. Ay ana, mən nə edim? Yuxudur, görürəm. Mənim əlimdə deyil ki, görməyim. Bəs sən heç belə yuxu görmürsən?

T ü k ə z b a n. Mən qələt edərəm, başımı daşdan-daşa döyərəm, elə yuxu görmərəm. Görünür ki, sən elə şeylərdən fikir edirsən, yuxuna da girir. Ağan sənə dua öyrətmiş. Nə üçün yatanda oxumursan ki, şeytan da yuxuna girib sənə elə şey göstərməsin?

G ü l s ü m. Ana, yatanda dua da oxuyuram, bismillah da deyirəm, amma yenə də belə yuxular görürəm. Mən nə edim? İxtiyar məndə deyil ki.

T ü k ə z b a n. Yaxşı, bəs dayın qızı Qonça nə üçün görmür? Çünki beş vaxt namazın heç birini keçirmir, amma sən tənbəli, mən hər səhər güclə durquzuram ki, sübh namazını qılasan.

G ü l s ü m. Ana can, elə bilirsən ki, Qonça belə yuxular görmür? Vallah mənə elələrini nağıl edir ki, desəm, qulaqlarını tutub qaçarsan?

T ü k ə z b a n. Kəs səsini, bihəya! Onu da sən xarab etmisən. Bu işlərin hamısına səbəb bu qonşumuzun külfətidir. Özlərinə taytuş tapıblar! Suruş!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

G ü l s ü m (*gülərək*). Ay arvad, Suruş deyil, Siranuş.

T ü k ə z b a n. Eh, mən nə bilim, adı yadımda qalırmı ki. Vallah, atan bilsə ki, erməni evinə gedirsən, aləmi bir-birinə vurar, səni də öldürər (*çıxır.*)

G ü l s ü m (*tək*). Öldürsə, birdəfəlik qurtarardım. Kaş ki, Mir Kazım ağanın qızı olunca, bir çoban qızı olaydım dağlarda, çəmənlərdə, təbiət üzərində yaşayaydım, çiçəklər dərəydim, şırıldayan bulaqlara baxaydım, sərin sularından içəydim!.. (*Ağlayır.*)

Məmməd daxil olur. Əmmamə və əbasını çıxarır.

M ə m m ə d. Bacım, ağlayırsan?

G ü l s ü m. Necə ağlamayım, qardaşım? Mənim qəlbim, ruhum, vücudum hamısı xəstə, mərəzimdən xilas olmaq üçün bilirsənmi mənə nə təklif edirlər?

M ə m m ə d. Bilirəm, bacım, çoxlu süd iç, bol yumurta ye deyirlər.

G ü l s ü m. Bəli, lakin mənim müalicəm budurmu?

M ə m m ə d. Xeyr, bacım, bu mərəzin müalicəsi başqa şeydir. Bu mərəzə mübtəla olan tək bir sən deyilsən, bütün islam qadınlarıdır. Bu xəstəlik iki nurdan məhrum qalmadan naşı baş vermiş; biri ruhu yüksəldən elm nurudur, digəri günəşdir ki, ziyası ilə dünyanı tənvir edir, heyvanata, nəbatata həyat bəxş edir. Onsuz bu gözəl dünya dəhşətli bir zülmət olurdu. Bu lətif, rəngin çiçəklər, güllər sənin kimi saralıb-solub məhv olurdu. Bacım, sən qonça gülü o nurdan məhrum etmişlər. Sənə bu dəmlə, o gözəl təbiət üzərində yaşamaq lazımdır, sənə gəzmək, gülmək, yemək, içmək, danışmaq lazımdır. Qəlbini əsla sıxmayıb hər zaman şad saxlamalısan.

G ü l s ü m. Doğru, fəqət bu mənə müyəssər deyildir, çünki mən müsəlman qızıyam. Müsəlman qadını üçün bu nemətlər yaranmamışdır. O, başqaları üçün yaranmışdır. Bunları bizə nəhy etmişlər. Ax, Məmməd! Nə üçün mən binəva qızcığazı oxutdun? Nə üçün mənə mənliyimi anlatdın? Nə hacət ki, söyləyirsən dünya gözəldir, genişdir, intihasızdır. Mənim dünyam, qardaşım, bax nə geniş, nə yüksək bir aləmdir. (*Əli ilə otağını göstərir.*) Bu səqf mənim ulduzlu səmamdır. Bu xalılar ilə döşənmiş yer mənim çiçəkli çəmənlərim, yaşıl ormanlarımdır. Bu divarlar da mənzərəli dağlarım, yüksək qayalarımdır. Qardaşım, burada dünyaya gəldim, buradan da tezliklə məni aparıb qəbrə qoyacaqsınız.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

M ə m m ə d. Sus, sus, bacım! Odlu qəlbimə yenidən atəş atma. Qadınlarımızın belə təbiətə müğayir, hürr yaranmış növi-bəşərə yaraşmaz halı, məni çoxdan düşündürür. Çarə arayırdım ki, nə yol ilə onlara kömək edim. İndi tapmışam. Bacım, and içirəm, qadınlarımızın bu yolda tökülən qanlı göz yaslarına, and içirəm, sənin kimi hələ qonça gül ikən saralıb solan gül çöhrələrinə, and içirəm sənin kimi belə zindanlarda, cəhalət zənciri altında sızlayan məsumələrə, sizləri bu əsarətdən xilas etmək yolunda cavan ömrümü qurban edim.

G ü l s ü m. Qardaşım, bir tək sən nə eləyə biləcəksən? Rüsvayi-cahan olub tələf olacaqsan.

M ə m m ə d. Tələf olsam da, bir cığır açaram, ta ki məndən sonra gələn cavanlar da o yol ilə gedib axırı sizləri xilas edərlər. Ey cəhalət, ey yeddi başlı div! Hazır ol, Məmməd gəlir.

Molla Fəttah və Mir Kazımağa daxil olurlar.

M i r  K a z ı m a ğ a. Bacına yeddi başlı divdən nağıl deyincə, əhkam-diniyyəni öyrətsən, daha əfzal olmazmı?

M ə m m ə d. Ata, elə mən də bacıma ondan söyləyirəm, lakin əfsus! Axundlarımız o əhkamı ya özləri anlamırlar, ya da anlayıb da qəsdən camaata başqa surətdə yetirirlər.

M i r  K a z ı m a ğ a (*Gülsümə*). Sən bu danışığa nə qulaq asırsan? Otağına get!

Gülsüm çıxır.

M o l l a  F ə t t a h (*istehza ilə*). Bacıoğlu, görürəm sən yaxşı anlamısan! De görüm, dinimizdə sənin kimi başını açıb tərk ədəblik edəne, yaxud başqaları kimi saçlarını uzadıb özlərini xaricilərə oxşadanlara nə nəzərlə baxılır?

M ə m m ə d. Mən o barədə şəriətdə bir şey görməmişəm, olsa da dinə yox, bəlkə, adətə, səhhətə dəxli vardır.

M o l l a  F ə t t a h. Bacıoğlu, görürəm, şəriəti axund Molla Calaldan yaxşı təhsil etmisən. Mir Kazım ağaya dedim ki, qoy Məmmədi özüm oxudum. Dedi, - yox, bacın oğludur, səndən xof etməz. İndi buyur, gör Calalın babı fikri Məmmədə nə xoş gəlir.

M i r  K a z ı m a ğ a. Fəttah, səhv edirsən, Məmmədin əqidəsi elə deyil. O sən qoca dayısını mübahisəyə çəkir, fəqət onu başqa bir



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

zamana qoyunuz. İndi mətləb üstə gələk. Oğlum, dayın ilə belə qət etmişik ki, cümə axşamı Qonçanı köçərək, çünki məhərrəmül-həram yaxınlaşır. Buna sən nə deyirsən?

M ə m m ə d. Nə deyəcəyəm? İxtiyar sahibisiniz.

M i r K a z ı m a ğ a. Çox əcəb. İndi ikinci məsələyə keçək. Sənə iki yol seçmişəm ki, din-islama xidmət edəsən; biri, Kərbəlayı-müəllayə gedib təhsilini bitirəsən, sonra da gəlib camaatımıza vəz edəsən. Digəri, mərsiyəxanlıqdır. Bu axırıncı müqəddəs vəzifəni yürütməyo indi də hazırsan. Gözəl səsin var. Demək, övladım iki təriq: vaizlik, rövzəxanlıq, hansına meylin artıq isə onu seç.

M ə m m ə d. Ata, çox dərin düşüncələrdən sonra özümə bir müqəddəs, bir müstəqim təriq seçmişəm. Sənin məqsədin mən fərzəndini bir sahib-minbər görmək deyilmi ki, o minbərdən vətəndaşlarımı, dindaşlarımı doğru yola dəvət edim?

M i r K a z ı m a ğ a. Bəli, nami-mübarəki qoyulmuş sən övladından cəddimiz bunu tələb edir.

M ə m m ə d. Ata, indi dinlə, gör övladın nə gözəl, nə müqəddəs bir minbər bəyənmiş?

M o l l a F ə t t a h. Söylə, yoxsa, bayaq məni şübhəyə salmışdın.

M ə m m ə d. Ata, tərif etdiyim minbərdən sizlər kimi quru vəz etmək yox, həyatı təsvir edən maraqlı vəqələr, dəhşətli, qanlı faciələr söyləyorək, göstərərək, camaatı doğru yola dəvət edəcəkdir - bu övladın.

M i r K a z ı m a ğ a. Əhsən, əhsən, oğlum.

M ə m m ə d. Zalımların sitəmlərini, məzlumların qanlı göz yaşlarını göstərərək, qəlbləri lərzənak edəcəkdir - mən övladın.

M o l l a F ə t t a h. Əhsən, afərin bacıoğlu.

M i r K a z ı m a ğ a. O minbəri-müqəddəsin ismi nədir, övladım?

M ə m m ə d. Səhnədir ismi onun, pədərim.

M o l l a F ə t t a h. Səhnə nədir?

M ə m m ə d. Dayım, səhnə ayinəsidir həyati-bəşərin!

M i r K a z ı m a ğ a. O səhnə hansı müqəddəs binadır?

M ə m m ə d. Bəli, doğru, o, müqəddəs binadır, çünki orada yüksəlir həqiqət bayrağı, orada yanır haqq ocağı. Ora bir ədalətxanədir ki, hər kəs vicdanən əməlinə görə ya mükafat, ya da mücazət alır. Ora bir ibrətxanədir ki, hər kəs orada çirkin əməlini görüb də ibrət alır, istiğfar edir, insafa gəlir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

M o l l a  F ə t t a h. Atan səndən sorur ki, o hansı binadır?

M ə m m ə d. O binanın adı teatrdır.

M i r  K a z ı m a ğ a və M o l l a F ə t t a h. Nə? Teatr?

M ə m m ə d. Bəli, teatr.

M i r  K a z ı m a ğ a. Teatr! Lotular yığıncağı.

M ə m m ə d. Xeyr, ürəfa ocağı.

M o l l a  F ə t t a h. Şeytan yuvası!

M ə m m ə d. Xeyr, mələk otağı.

M i r  K a z ı m a ğ a. Ora meyxanadır!

M ə m m ə d. Xeyr, ora ibrətxanadır.

M o l l a  F ə t t a h. Sən babı olmusan?!

M ə m m ə d. Xeyr, mən haqq yolu tapmış bir insan olmuşam.

M i r  K a z ı m a ğ a. Sən dəli olmusan?!

M ə m m ə d. Xeyr, mən aqil olmuşam.

M o l l a  F ə t t a h. Bunların hamısına bais o babı Molla Calaldır.

M i r  K a z ı m a ğ a. Ağa, doğru deyirsən, odur.

M ə m m ə d . Nahaq yerə Molla Calalı müqəssir edirsiniz. O sizdən geriyə qalmaz. O da sizin kimi... saç qoyanlara, çəkmə geyənlərə, rusca oxuyanlara kafir deyənlərdəndir.

M i r  K a z ı m a ğ a. Bəs səni bu şeytan yoluna kim və nə vadar edir?

M ə m m ə d. Məgər mənim tutduğum yol şeytan yoludur? Orada nə edəcəyimi söyləmədimmi?

M o l l a  F ə t t a h. Söylədin, orada oyunbazlıq, mütrüblük edəcəksən.

M i r  K a z ı m a ğ a. Ah! Ürəyim partlayır! Seyid övladı oyunbazlıq?! Oğul, o qoyduğum ad sənə haram olsun! Cəddim səni tezliklə əlimdən alsın!

M o l l a  F ə t t a h. Mən qızımı belə mürtədə vermərəm. Bu saat Molla Vəlini çağırıb nigahını pozduracağam.

M ə m m ə d. Bax, şəriəti bu günə salmışsınız, ehkami-diniyyəyə belə əməl edirsiniz.

M o l l a  F ə t t a h. Necə?

M ə m m ə d. Kəriməniz öz ixtiyariləmi mənə gəlmiş?

M o l l a  F ə t t a h. Bəli.

M ə m m ə d. Onda çağırınız gəlsin və öz ixtiyarilə də nigahını geri oxutsun. Şəriətin yolu budur, dayını.

M o l l a  F ə t t a h. Sus! Mənə şəriət öyrətmə. Dini-islamda sənin kimi dəliyə nigah yoxdur. Bu burası. Səni şəkdən çıxarmaq üçün də



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qızımı bu saat buraya gətirdərəm, görərsən ki, sən divanədən ikrah edib əl çəkəcəkdir. Tükəzban! Tükəzban!

Tükəzban daxil olur.

T ü k ə z b a n. Nə buyurursan, qardaşım?

M o l l a  F ə t t a h. Bu saat gedib Qonçanı gətirərsən.

T ü k ə z b a n. A qardaş, belə toy olurmu? Qoy qövm-əqrəbamı yığıb qayda ilə toy edim. Qonça anadan yetimdir, niyə onu tay-tuş yanında xar edirsən? Niyə könlünü sındırırsan.

M i r  K a z ı m a ğ a. Tükəzban, sənin toyun yasa döndü!

T ü k ə z b a n. Vay! Ay kişi nə deyirsən? Ölənimiz kimdir?

M i r  K a z ı m a ğ a. Bu oğlun Məmməd.

T ü k ə z b a n. A kişi, nə deyirsən? Sən allah, mənlə belə zarafat etmə.

M i r  K a z ı m a ğ a. Arvad, oğlun dəli olmuş, dəliyə də qız vermək şəriətlə caiz deyil.

M ə m m ə d. Ana, bunlar deyirlər ki, mən dəli olmuşam. Mən də istəyirəm ki, Qonça gəlsin, özündən soruşum ki, mən dəliyə yoldas olmaq istəyir, ya yox?

T ü k ə z b a n. Elə bu? Gör məni necə qorxutdular! Oğlum bunlar yalan deyirlər. Sənin eşqindən dəli-divanə olan Qonçadır.

M o l l a  F ə t t a h. Heç vaxtı!

T ü k ə z b a n. A qardaş, nə deyirsən? Bizdən nə pislik gördün ki, daha qızını vermək istəmirsən? Vallah, verməsən Qonça özünü öldürəcəkdir, ya da Məmmədə qoşulub qaçacaqdır. Bu saat gedib gətirərəm, görərsən, doğru deyirəm, ya yox. (*Çıxır.*)

M i r  K a z ı m a ğ a. Bu işlərdə müqəssir mən özüməm. Nə üçün o islam torpağını buraxıb bu viranəyə gəldim. Nə bilim, dedim ki, bura mənim vətənimdir, ata-babalarımın xaki-paki buradadır, qoy ölsəm də burada ölüm. Heç bu günlərimi düşünmədim, övladlarımın fikrinə qalmadım.

M o l l a  F ə t t a h. Əlbəttə, səhvətmisən. Gərək gəlməyəydin. İndi mən özüm də Ərəbistana köçmək fikrindəyəm. Bu işləri ki, mən görürəm, bir az çəkməz burada müsəlmanlıq nişanəsindən heç bir zad qalmaz.

Tükəzban  Gülsüm, Qonça ipək çarşafa bürünərək daxil olurlar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

T ü k ə z b a n. Qardaşım, indi qızından özün soruş, gör Məmmədə getmək istəyir, ya yox?

M ə m m ə d. Qonçacığım, hansı zalımdan qorxaraq belə çadraya bürünüb gizlənmisən? Yoxsa, qələm qaşlarında, ahu baxışlarında, şəhla gözlərində bir qüsurmu görürsən? Yetər, yetər, gözəlim! Səni kimi qonça güllərin açılmaq zamanı gəlmiş! (*Cəld onun başından çarşafı çəkib atır.*)

M i r K a z ı m a ğ a. Nadürüst, bihəya!

M o l l a F ə t t a h. Qızım, görürsənmi? Bu dini-təriqətdən dönmüş seyid övladı, əmmaməni atıb, lotu libası geyib teatrda oyunbazlıq etmək fikrindədir. Sən bu kafirə, bu divanəyə getmək istəyirsənmi?

Q o n ç a. Ağa, Məmməd mənim qəlbimin şahıdır, özünə nə vəzifə seçərsə, mənə xoşdur. Mən onun vəfalı bir quluyam.

M i r K a z ı m a ğ a və M o l l a F ə t t a h. Va şəriəta, va milləta!

M o l l a F ə t t a h. Sus, bihəya! O sənin qəlbinin sultanı isə mən də sənin cisminin, həyatının sultanıyam.

T ü k ə z b a n. Qardaş, sənə yalvarıram, bu iki cavanın göz yaşı tökməyinə bais olma, qızını bədbəxt etmə.

G ü l s ü m. Dayı, mən də yalvarıram, Qonçanı Məmməddən ayırma.

M o l l a F ə t t a h. Çəkilin, siz qadınların məsləhətinə qulaq asıb bu dünyada biabır, axirətdə də cəhənnəm oduna yanmaq istəmirəm.

M ə m m ə d. Ey mənim seyid atam, ey mənim axund dayım.

M i r K a z ı m a ğ a. Sus, şeytani-məlun, sən dinsiz daha mənim övladım deyilsən! Çəkil, evimdən çıx! Rədd ol!

M ə m m ə d. İndi mən bağırıram: vay o millətin halına ki, sizin kimi yol göstərəni var! (*Getmək istəyir.*)

Q o n ç a. Məmməd, məni bunlara buraxıb haraya gedirsən?!

G ü l s ü m. Qardaşım, məni də özünlə apar, burada qoyma.

M ə m m ə d. Səbir ediniz, ey qonca güllərim, Məmməd sizləri, bu zülmətdən, bu əziyyətdən, bu əzraillərin pəncəsindən xilas etmək üçün gedir.

**Pərdə**



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

# ŞEYTAN

*Bir pərdəli, üç şəkilli pyes*

İŞTİRAK EDƏNLƏR

Ş e y t a n -iblis libasında.
M a r z a v a n
C u r c a n cinlər
T e y m u r - dəmirçi.
Ə l i - onun oğlu, 12 yasında.
A s l a n - Teymurun yoldası.
D ə m i r ç i.
R i z v a n -kommunist.
S a d ı q k i ş i - qoca kəndli,
H ü s e y n q u l u - kəndli.
Q a r a H ü s e y n - kəndli.
G ü l p ə r i
Ş a h p ə r i - kəndli qızları
N a z p ə r i

BİRİNCİ ŞƏKİL

Səhnə bir dağı göstərir. Şeytan bir daş üstə oturmuş, hüzurunda Marzavan durmuş.

Ş e y t a n. Marzavan, Avropadan nə xəbər var? Söylə.

M a r z a v a n. Baba can, səpdiyin toxumların barını tez görəcəksən. Firənglər tərəfindən qovulmuş Əmir Feyzəli ingilislər İraqi-ərəbə sultan təyin etmişlər. İngilislərin bu siyasətindən firənglər rəncidə olaraq türklərlə gizli müahidənamə bağlamışlar.

Ş e y t a n. Ha-ha-ha, Marzavan, bu işin aqibətini öz gözünlə görəcəksən. Şeytan babana əhsən deyəcəksən.

M a r z a v a n. Yaxın Şərq məsələsi əski Antantanı pozdu. Yeni Antanta Uzaq Şərqə əl atır.

Ş e y t a n. Bu da iblis babanın insan qanı tökmək üçün bir tələsidir.

M a r z a v a n. Almanların ölmüş cəsədindən müzəffər firənglər qorxurlar. Bilirsənmi, onlar nə tədbir etmişlər?

Ş e y t a n . Söylə görək.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

M a r z a v a n. Almaniyada hərbə lazım nə şey varsa, toplayıb Firəngistana göndərirlər.

Ş e y t a n. Türk-yunan müharibəsi nə haldadır?

M a r z a v a n. Kral Konstantin əhd etmiş ki, ta İstambulu alıb yenidən başına tac qoymayınca, qılıncını qınına satmasın.

Curcan daxil olur.

Ş e y t a n. Söylə görüm, ulu Qafqazda nə xəbər var, Curcan?

C u r c a n. Səni şad edəcək bir xəbər yox, baba can.

Ş e y t a n. Söylə görək.

C u r c a n. Ulu Qafqaz unutmuş tanrısını...

Ş e y t a n. Bu xəbər şad edir iblisini.

C u r c a n. Səni də yad edən yoxdur, baba can.

Ş e y t a n. Buna mən heç inanmaram, Curcan. Bəşəriyyət arasında olmaz elə zaman ki, şeytanı unutsun insan.

C u r c a n. Gördüyümü söyləyirəm, baba can.

Ş e y t a n. Demək ki, ulu Qafqazda tökülmür daha qan?

C u r c a n. Xeyr, baba can.

Ş e y t a n. İnanmaram, Curcan, erməni, gürcü, azərbaycanlı qan tökməsinlər? Bu nə halət? Bəs bəylər, xanlar, knyazlar necə olmuşlar? Qoçular, burjuylar, qolçomaqlar nə edirlər?

C u r c a n. Cümləsini hökmdarlıqdan endirmişlər.

Ş e y t a n. Kimlər?

C u r c a n. Kommunistlər. Ulu Qafqazda başqa bir halət: büxl, həsəd, kin, kədurət, ədavət büsbütün yox olmuş. Orada can deyib can eşidirlər.

Ş e y t a n. Nə pis xəbər gətirmişsən, Curcan! Yerüzündə sevgili bir məskənim vardisə o da Qafqazdı. Kommunistlər onu məndən ala bilməzlər. Mənə iblis, mənə şeytan deyərlər. Erməni, gürcü, müsəlman qardaş olmuşlar? Ha, ha, ha. Rahat yaşayıb can deyib, can eşidirlər? Ha, ha, ha. (*Ayağa qalxıb.*) Curcan, Marzavan, mən onların içərilərinə elə bir fitnə salım ki, yenidən bir-birini atəşə yaxsın, çapsın, talasın, qırsın, oda atsınlar. Analar bətnindən balaları çıxarıb nizəyə taxsınlar. Nəhrlər su yerinə qanlar axıtsın, Bəhri-siyah ilə Xəzərin içləri qızıl qan ilo dolsun. Kəndlər, şəhərlər, meşələr, çöllər od alıb məşəl kimi yansın, cəhənnəmə dönsün!

Ulu Qafqaz hazır ol! Şeytan gəlir!

**Pərdə**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İKİNCİ ŞƏKİL

Səhnə dəmirçi dükanını göstərir. Əli körük basır, Teymur ilə Aslan dəmir döyürlər.

T e y m u r. Oğlum, körüyü bas, yoxsa yorulmusan?

Ə l i. Xeyr, babacığım yorulmamışam.

A s l a n. Yorulma, oğlum, sən zəhmətkeş balasısan, sən işdən qorxma, qoy iş səndən qorxsun.

Şeytan səyyah libasında daxil olur.

Ş e y t a n. Ataş... cahanda varsa tərifə layiq bir şey, o da sənsən, Ey yandırıcı od, səni gördükdə qəlbim şad olur, ruhum rahat. Ey qırmızı işıq, səni mən çox sevirəm!

A s l a n. Yoldaş, sən kimsən?

T e y m u r. Nə soruşursan? Dediyindən görmürsənmi bu adam atəşpərəstdir.

Ş e y t a n. Doğru, mən atəşpərəstəm, çünki xamırım oddan yoğrulmuş, odu mən çox sevirəm.

A s l a n. Yoldaş, bizim torpaq azadə bir yerdir. Hər kəs nəyə sitayiş edirsə etsin. Burada din, məzhəb üstə qovğa yoxdur, müsəlman, xristiyan, büdpərəst, atəşpərəst, hamısı insandır, bizə qardaşdır.

Ş e y t a n. Pəh, pəh, nə gözəl məslək! Ey azərbaycanlılar mən səyyaham, dünyanı seyr edərək, buraya gəldim, belə səadətlə yaşayan insanlar görmədim. Siz çox bəxtiyarsınız... Əfsus ki... qonşu düşmənləriniz bunu puç edəcəklər...

Rizvan daxil olur, Şeytan onu görmür.

T e y m u r. Kimlər?

Ş e y t a n. Gürcülər ilə ermənilər.

A s l a n. Səhv edirsən, yoldaş, onlar bizim dostlarımızdır. Köhnə ədavət, köhnə hökumətlə getdi.

Ş e y t a n. Ha-ha-ha. Ey sadədil azərbaycanlılar! Siz qəflətdəsiniz, ermənilər, gürcülər gecə-gündüz yatmayıb yeni hərb üçün silah hazırlayırlar. İntiqam, intiqam deyərək, müharibə üçün plan çəkirlər. İndi burada siz nə qayırırsınız?

A s l a n. Kəndli qardaşlarımız üçün əkin aləti qayırırıq.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ş e y t a n. Bu işləri buraxınız, gecə-gündüz siz də onlar kimi qılınclar, xəncərlər qayırınız, fürsəti fövtə verən aqil deyil, divanədir. Keçmişinizi yada salın. Siz eyş-işrətə məşğul olduqda, onlar top, tüfəng yığıb hazırlaşırdılar.

T e y m u r. Sən kimsən? Bunu haradan düzəltmisən?

Ş e y t a n. O zaman mən burada idim.

Rizvan pusqudan çıxıb irəli gəlir.

R i z v a n. Doğrudur, o zaman sən burada imişsən. Buna şəkkim yoxdur. Yoldaşlar, bayaqdan bəri mən bu hərifi diniəyirəm. Bunun kim olduğunu anlayırsınızmı?

A s l a n. Kim olduğunu bilmirəm, lakin sözlərindən, gözlərindən şərarət odu yağır. Mən bunu görürəm.

R i z v a n. Doğrudur, yoldaşlar, insanı bir-birilə vuruşduranlar belə həriflərdir. Bunlara provakator deyərlər. Bunların əsil adları Şeytandır. Yoldaşlar, bunlara aldanmayınız, gürcü, erməni zəhmətkeşləri bizə düşmən deyillər. (*Şeytan yox olur*.) Onları bizlərlə toqquşduranlar belə şeytanlar idi. Harada belə araqarışdıran adam gördünüz, tutub bizə veriniz. (*Dönüb baxır*.) Bax, hərif giriz vermiş. Hərgah düz adam idi, nə üçün qaçdı?

T e y m u r. Yoldaş Rizvan, qorxmayın. Belə fitnələrə aldanmarıq. Qonşularımız ilə qardaşlığı pozmarıq.

R i z v a n. Elə də lazımdır, indi iş dalınca. (*Çıxır*.)

A s l a n. Oğlum, Əli, körüyü bas!

**Pərdə**

ÜÇÜNCÜ ŞƏKİL

Səhnə Sadıq kişinin komasını göstərir, həyətdə Nazpəri corab hörür, Gülpəri paltar və Şahpəri də köynək tikirlər. Şeytan səyyah libasında, qoltuğun da bir qutu həyətə daxil olur.

Ş e y t a n (*qızları başıaşağı işləyən halda gördükdə öz-özünə*). Nə gözəl fürsət! Bu Həvva övladlarını aldadıb buradan aparmalı. Sonra, qızlarınızı düşmənlər aparmış, deyə fitnə salmalı... (*Qızlara*.) Ya rəb,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bunlar nə gözəl qızlardır. Sanki göydən enmiş pərilərdir. İsminiz nədir, mələklər?

G ü l p ə r i. Mənimki Gülpəri.

N a z p ə r i. Mənimki Nazpəri.

Ş a h p ə r i. Mənimki də Şahpəri.

Ş e y t a n. Deməmişdimmi siz pərisiniz? Simalarınız buna şahiddir. Siz kimi pərilərə belə işlər yaraşarmı? Toxda, gözəlim. (*Nazpərinin əlini əlinə alıb.*) Bu şümşad kimi barmaqlara nə yaraşar, gözəlim?

G ü l p ə r i. Xına yaxmaq.

Gülüşürlər.

Ş e y t a n. Bunların nə gözəl səsləri var? Sanki səma musiqisidir, bu sədalar. (*Bir yaqut üzük Nazpərinin barmağına taxır.*) İndi baxınız.

G ü l p ə r i. Ah, nə gözəldir? Necə parlaqdır? Kaş mənim elə bir üzüyüm olaydı!

Ş e y t a n. Səbir et, gözəlim, sənin barmağına başqa bir qaş yaraşar, bax, o da bu! (*Almaz üzüyü onun barmağına taxır*.)

Ş a h p ə r i. Doğrudanda nə yaraşıqlıdır!

Ş e y t a n. Mənim qutumda sizlərə layiq şeylər çoxdur. (*Rəngbə-rəng şüşə muncuqları göstərir*.)

G ü l p ə r i. Ah, nə gözəl şeylərdir!

Ş e y t a n. İndi siz pərilərə nə lazımdır?

Ş a h p ə r i. O şey ki, bizim kəndli atalarımızda yoxdur. Pul lazımdır ki, bu şeyləri sizdən alaq.

N a z p ə r i. Şahpəri düz deyir. Bizim atalarımız kasıbdır.

G ü l p ə r i. Kaş bu şeyləri bizə göstərməyəydin, baba!

Ş e y t a n. Gözəl şey görmək savabdır. Görürəm bunları almağa sizdə pul yoxdur, lakin mən də sizin köməyinizə möhtacam. Hərgah mənim təklifimi qəbul edərsinizsə, bu üzükləri sizə bağışlaram.

G ü l p ə r i. Mən qəbul edərəm.

N a z p ə r i. Mən də.

Ş e y t a n. Çox sağ olun! İndi dediyimə yaxşı fikir veriniz. Mən böyük təbibəm. Qədim bir tibb kitabında oxumuşam ki, sizin bu dağlarda bir növ çiçək bitir. Bu çiçək indiyə kimi müalicəsi tapılmayan vərəm xəstəliyinə dərmandır. Mən bu məqsədlə uzaq vətənimdən buraya gəlmişəm. Bu daşları da satıb özümə yemək və yol xərci düzəldirəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mən sizin bu dağlarınıza nabələdəm. Gözlərim də siz cavanlarınkı kimi iti deyil. Əgər mənə kömək edib, o çiçəyi tapa bilsək, göstərdiyim cavahirlərdən sizə peşkəş verərəm və yazdığım tibb kitabında siz pərilərin adlarını da qeyd edərəm. Görün, insanlara nə böyük xidmət edirsiniz? Adlarınız da min illərcə dillərdə söylənər. Razı olursunuzmu?

C ü m l ə s i. Razıyıq.

G ü l p ə r i. Ancaq atalarımızdan izin almaq lazımdır.

Ş e y t a n. Yox, onu etməyin. Qorxuram sizi qoymayalar və bu sirr öz aramızda qalmalıdır. Çox gəzməyəcəyik. Bəlkə, bəxtimiz gətirdi, tez tapdıq. Gedək, qızlarım.

Q ı z l a r. Gedək.

Ayağa qalxırlar. Bu halda Rizvan daxil olur.

Ş e y t a n. Yenə bu şiş papaq nə pis vaxtda gəldi!

R i z v a n. Bacılar, işlərinizi qurtardınızmı?

G ü l p ə r i. Xeyr, bir az qalıbdır.

R i z v a n. Yoldaşlar, tənbəllik etməyin. Özünüz bilirsiniz ki, alman proletarları acından qırılırlar, çılpaq balaları sizin köməyinizə möhtacdır. Bir saat gecikməyiniz neçə məsum uşaqların ölümünə bais olar. Bu barmaqlarınızdakı üzüklər haradandır?

Ş a h p ə r i. Bu kişidən almışıq.

Rizvan diqqətlə Şeytana baxır.

R i z v a n. Hə, tanıdım, həmin hərif. Üzüklərinizə baxım. (*Göstərirlər. Şeytan qaçır.*) Bunlar qiymətli daşlar deyil, şüşədir.

G ü l p ə r i. Vay sənə lənət, şeytan kişi! Biz də elə bilirik ki, qiymətli daşlardır. Nə yaxşı hələ pul verməmişik.

N a z p ə r i. O çiçək axtarması da hiylədir.

R i z v a n. Nə çiçək?

G ü l p ə r i. Deyirdi ki, bizim dağlarda vərəm naxoşluğuna dərman bir çiçək bitir. Bizi, onu aramağa aparırdı.

R i z v a n. Onun tələsindən yaxşı qurtardınız. Bu sizə bir dərs olsun. Bundan sonra belə şeytan şəxslərə aldanmayınız. Bu adam dəmirçi yoldaşları da aldatmaq istəyirdi. Daha durmayın, iş dalınca. Bir azdan sonra gələcəyəm, ona kimi siz də işlərinizi qurtarınız. Sadıq babaya deyin ki, ianə şeylərini buraya toplasın, gəlib siyahı edəcəyəm. (*Gedir.*)



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

N a z p ə r i. Gedək, işlərimizi qurtaraq. Nazpəri və Şahpəri komaya girirlər. Sadıq kişi həyətə daxil olur.

S a d ı q k i ş i. Gülpəri, Rizvan gəlmişdimi?

G ü l p ə r i. Bəli, gəlmişdi. İndicə getdi, dedi ki, bir azdan sonra gələcəyəm, Sadıq baba şeyləri toplasın, gəlib siyahı edəcəyəm.

S a d ı q k i ş i. Yaxşı, get, gələn adamlar üçün çörək hazırla.

G ü l p ə r i. Baş üstə.

Komaya girir. Qara Hüseyn dalında bir çuval həyət qapısından girir.

S a d ı q k i ş i. Gətir, oğlum, gətir, ruzun bol olsun, bir əvəzinə min alasan.

Q a r a H ü s e y n. Sadıq baba, özün bilirsən ki, bu il taxılım az oldu. Özümüzə çatmır.

S a d ı q k i ş i. Bilirəm, oğlum, sən də onu bil ki, Almaniyadakı qardaşlarımız acından ələf yeyirlər, ağacların qabağını gəmirirlər. Allah kərimdir. Bizlər bir-birimizə kömək edib təzə məhsula çıxarıq, amma onlar acından tələf olurlar.

Həsənqulu dalında çuval daxil olur.

S a d ı q k i ş i. Oğlum, Həsənqulu, sənin bu ehsanın hamısından qiymətlidir; çünki sən kasıbsan, el özü səni ianə ilə saxlayır.

H ə s ə n q u l u. Sadıq baba, o günü yoldaş Rizvan Almaniya aclığını elə halda nağıl etdi ki, nə deyim? O vaxtdan bəri çörək boğazımdan getmir, zibil eşib çörək arayan qardaşlarımız gözümün qabağında dururlar.

Q a r a H ü s e y n. Mənim balaca oğlum da çörək yeyəndə öz payından ayırır ki, yığıb ac uşaqlara göndərəcəyəm.

H ə s ə n q u l u. Sadıq baba, bir şey yığa bilmisənmi?

S a d ı q k i ş i. Allah bərəkət versin, beş yüz puda qədər toplanmışdır. Hər kənd bir belə yığsa, acların imdadına çatarıq.

Aslan və Teymur daxil olurlar.

A s l a n . Sabahınız xeyir.

S a d ı q k i ş i. Aqibətiniz xeyir. Mənə görə qulluq?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

T e y m u r. Sadıq baba, bizi şəhərdən göndəriblər ki, kəndli qardaşlarımıza kömək edək.

A s l a n. Dəmirçiyə möhtac nə işiniz var isə qayıracağıq.

H ə s ə n q u l u. Mənim baltam sınıbdır.

Q a r a  H ü s e y n. Mənim də dəhrəm və dəryazım.

T e y m u r. Yoldaşlar, hamısını qayıracağıq, arxayın olunuz.

S a d ı q  k i ş i. Övladlarım, mən bu yaşa çatmışam, belə qardaşlıq, yoldaşlıq dövranı görməmişəm. Cümlə insanlar birdir - deyən çox olmuş, lakin indiki kimi, bolşeviklərdən savayı əmələ gətirən olmamışdır.

Şeytan təbib libasında, qoltuğunda bir davacat qutusu daxil olur.

S a d ı q  k i ş i. Kimsən? Sənətin nədir?

Ş e y t a n. Mən təbibəm.

H ə s ə n q u l u. Nə yaxşı vaxtda gəlmisən, mənim balaca qızım naxoşdur.

Q a r a H ü s e y n. Mənim də arvadım.

Ş e y t a n. Mən sağlara həkimlik edirəm.

T e y m u r. Qəribə təbibdir, sağları sağaldır...

Ş e y t a n. Bəli, sağları sağaldıram. Sağ mən o şəxsə deyirəm ki, bü dünyada heç bir qəmi və qüssəsi olmaya. Hansınızın dərdi yoxdur? Hərəniz bir dərdə mübtəlasınız. Mən ömrümü sərf edib bu dərmanları icad etmişəm. Bunların hər birində başqa bir xasiyyət var. (*Bir şüşə göstərir.*) Bu dərmandan bir fincan içənin bədəni qızışıb qüvvətə gəlir. Birin də içərsə, qəm-qüssəsi gedib şad və xürrəm olar. Birisini də içərsə, qızmış şirə dönüb pəhləvan tək meydanda mübariz istər. Bu dərman da yuxusuzlar üçündür. Bir həb atsa, şirin yuxuya gedib rahat olar. Lakin dərmanlarımın şahı budur.

Bunu qəlyanın başına qoyub çəkəndə adam üçün bir başqa aləm açılır. Onu tərif etməkdən özüm də acizəm. Bir sözlə, rəbbiniz vəd etdiyi cənnəti bu dünyada görürsünüz.

R i z v a n (*daxil olur.*) Mən sən hərifi yenə də görürəm.

Ş e y t a n. Yenə bu şiş papaq!

R i z v a n. Yoldaşlar, bu hərifi əhatə ediniz. Qaçmağa qoymayınız.

Onun ətrafını alırlar.

R i z v a n (*qutudakı şüşəni əlinə alır.*) Bilirsinizmi bu nədir?

H a m ı. Xeyr.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

R i z v a n. Bu şeytan icadı konyakdır. Bunu içib məst olanları və nə halda, nə cür pis işlər tutduqlarını görmüşsünüz.

S a d ı q  k i ş i. Hə, adamı qızmış aslana döndərdiyini anladım.

R i z v a n. Bu da tiryəkdir. Həbbini atanları nə hala salır, onu da görmüşsünüz.

A s l a n. Ey hərif, bizi bunlarla aldadırdın?

R i z v a n. Bu da əsrardır. Bunu çəkən adam bir hala duşür ki, at ləpiri kimi su, onun gözündə bir böyük çay görünür. Paltarını soyunur ki, o çayı üzüb keçsin.

Gülüşürlər.

T e y m u r. Vay sənə lənət, hərif gör bizi nəyə öyrədirmiş?

A s l a n. Teymur, deyəsən o bizi aldadan şəxsə oxşayır.

R i z v a n. Onun özüdür, ancaq libasını dəyişdirmiş. Bir az bundan irəli başqa surətdə qızlarınızı aldadıb dağlara aparmaq istəyirdi, mən qoymamışam.

Q a r a H ü s e y n. Bəs nə üçün bunu tutub həbsə almırsınız?

R i z v a n. Tutulacaqdır və cəzasını da alacaqdır. Qoyun görək kimdir.

H ə s ə n q u l u. Kim olacaqdır? Şərir fəsadçının biri.

Ş e y t a n. Rütbəmi azaltma.

R i z v a n. Bəs sən kimsən?

Ş e y t a n (*üst libasını atır*.) Şeytan.

C ü m l ə s i. Şeytan!

Ş e y t a n.

Ey vay, bu nə aləm, bu nə dövran, bu nə halət?
Nərdən yetib insanlara boylə mələkiyyət?
Bu bəndələrim-qullarım hər an mənə tabe,
Olsunmu o zəhmətlərim indi hamı zayə?
Qan yağdıraram fitnə ilə ərzə səmadən,
Qorxmam nə bəşərdən, nə mələkdən, nə qəzadən:
Beş guşəli yıldız məni məğlub edir ey vah,
Mənsə yenə öz qüvvəmi-naçizimə gümrah.
Qaçmaq, bunların əmri olubdur mənə mükül,
Etmək gərək ol Asiyadə fitnəni təşkil.
Ha, ha, ha!

**Pərdə**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# EŞQ VƏ İNTİQAM

*Beş pərdəli, yeddi şəkildə faciə*

## İŞTİRAK EDƏNLƏR

Ə l i m ə r d a n - quldur dəstəsinin atamanı.
İ b a d - onun yoldaşı.
P i r i  b a b a - ovçu meşə qarovulçusu.
Y a s ə m ə n - Əlimərdanın arvadı.
X a l i s ə  n ə n ə - Piri babanın arvadı.
Ç i n g i z - surətən Əlimərdanın oğlu,
Q ə m ə r - Əlimərdanın qızı.
C ə b i - Əlimərdanın nökəri.
Ş a h b a z b ə y - mülkədar bəy.
H ə c ə r  x a n ı m - onun arvadı.
Ş ə m s i  b ə y - onun oğlu
Z ö h r ə  x a n ı m - onun qızı.
S ə f i  b ə y - qəza naziri.
X a v ə r - xidmətci qız.
H e y d ə r q u l u  -  }nökərlər
S ə f a
P r i s t a v.
S t r a j n i k l ə r.

## BİRİNCİ PƏRDƏ

Səhnə meşə içində ağac çəpərlə hasarlanmış bir həyət göstərir. Həyətin sağ tərəfində Piri babanın koması, sol tərəfdə meşə sahibi Həsənqulu ağanın ikimərtəbəli evi görünür, Həyətde neçə yerdə skamyalar qoyulmuşdur. Yasəmən komanın onündə oturub özünü günə verir. Yanında bir beşik. Pərdə qalxdıqda Piri baba çiynində tüfəng, əlində qırqovul daxil olur.

P i r i  b a b a. Yasəmən, gör sənə nə kök qırqovul ovlamışam.

Y a s ə m ə n. Ah, nə gözəl qırqovuldur.

P i r i  b a b a. Qızım, gərək bu gün də durmayaydın. Özünü gözlə, yoxsa üzülərsən.

Y a s ə m ə n. Baba, doğrudur, mən şəhərdə tərbiyə almışam, amma əslim kürddür. Bizim arvadlar köç üstündə atdan düşüb, doğarlar, yenə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

atı minib köçdən qalmazlar. Üç gün yatdığım kifayət edər. Ürəyim darıxdı, çıxdım ki, özümü bir az havaya verim.

P i r i  b a b a. Bəs, Xalisə haradadır?

Y a s ə m ə n. Xalisə nənə bulaqdan su gətirməyə, həm də çağanın əsgilərini yumağa gedibdir.

P i r i  b a b a. Topal gəlib çıxdımı?

Y a s ə m ə n. Xeyr.

P i r i b a b a. Görəsən, nə qəziyyə üz verdi ki, bu üç günün ərzində gəlib çıxa bilmədi. (Tüfəngi ağacdan asıb Yasəmənin yanında oturur.) Yasəmən, Əlimərdanın sədası bizim torpaqdan gəlir, görünür İrandan bu tərəfə keçmişdir.

Y a s ə m ə n. Ah, baba, bu nə ömürdür ki, mən sürürəm. Bu gün tamam yeddi aydır ki, Əlimərdan məni burada qoyub özü qaçaq olmuşdur. Bu uzun müddətdə nə gecə, nə gündüz xəyalımdan, ürəyimdən sevgili ərim çıxmır. (*Ağlayır.*)

P i r i  b a b a. Yasəmən, səbir et, naşükür olma. Allaha dua et, ürəyin təsəlli tapsın. Bu bəlalar, bu cəfalar ki, sən çəkirsən, hamısı Əlimərdanın ucundandır. Rəhmətlik qardaşımın cəmi xasiyyəti oğlu Əlimərdana keçmişdir. Atası kimi təkəbbürlü, kinli, höcət, qoçaq bir dəliqanlıdır. Hansı bir rəiyyət qızının irz-namusuna ağaları toxunmamışdır?

Ya s ə m ə n. Allah o ağaları dünya üzündən məhv edəydi, ta bizlər də rahat gün görəydik.

P i r i  b a b a. Nə etməli, qızım, dünya belə gəlib, belə də gedəcəkdir. Qüvvətli zəifi basacaq, əzəcək, zalım məzlumu incidəcək, məhv edəcək, dövlətli kasıbı sıxacaq, boğacaqdır. Qızım, bunlar tək insanda deyil, heyvanda da belədir. Tamam qırx ildir ki, mən bu meşədə ömür sürürəm. Bu bağlarda ov edirəm. Hər bir heyvanın, quşun, həşəratın yaşayışına diqqət etmişəm. Bir də görürsən, bir tərlan kəklik ovlayıb qaya başında yeməyə məşğuldur. Qəflətən ondan qüvvətli bir şahin ildırım kimi şığıdı, onun əlindən aldı, havaya qalxdı. Bax, böcəkləri qurbağalar, onlan ilanlar, ilanları da kirpilər yeyib tələf edirlər.

Y a  s ə m ə n. Baba, onlar heyvandır, anlamır, ağılları yoxdur. Bəs bu insanlar nə üçün bir-birlərini qırırlar?

P i r i  b a b a. Qızım, biri dövlət üstə, biri şöhrət üstə, biri tamah üstə, səbəbləri çoxdur. Mənim qardaşım oğlu Əlimərdan da qeyrət, namus üstə. Mənim nəsihətimə qulaq asmadı, dedi gərək Şahbaz



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bəyin nəslini qırıb, yer üzündən məhv edəm. Onun əmisi oğlu Tağı bəyi və nökəri Fərəci öldürüb qaçaq düşdü.

Y a s ə m ə n. Piri baba, nə vaxt ki, bədbəxtlik bizə üz verməmişdi, Əlimərdan məni sevib mehriban dolanırdı. Qəmər qəziyyəsindən sonra büsbütün dəyişilib, arvad adını yanında çəkmək mümkün deyil. Mənlə xudahafiz edəndə dedi ki, Yasəmən, qız doğsan öz əlimlə, qədim ərəblər tək, boğub atacağam. Baba, dönmüş taleyim burada da məni ərimin yanında xəcil etdi, qız doğdum.

P i r i  b a b a. Qəm etmə, qızım, övlad şirin olar. Özün görəcəksən ki, necə əzizləyib sevəcəkdir.

Y a s ə m ə n. Allah sən deyən kimi edəydi, baba.

P i r i  b a b a. Qorxma, elə də olacaqdır, bax, bu meşə sahibi Həsənqulu ağa da oğul həsrəti çəkirdi. Allahtaala ona qızı Züleyxanı verdi. Mən bu sinnə çatmışam, amma atanın qıza elə məhəbbət bağladığını görməmişəm, eşitməmişəm. Bax, bu evi Həsənqulu ağa qızı üçün tikdirmişdir. Ağa burada həftələrlə ov edəndə, Züleyxa xanım da qaravaşları ilə burada yaşardı. Xalisə onun istəkli qulluqçularından biri idi. Ağanın ondan başqa övladı olmadı. İndi bu meşənin sahibi həmin Züleyxa xanımdır. Yasəmən, Əlimərdan da qızını inşallah elə sevəcəkdir.

Y a s ə m ə n. Ah, o günü görsəydim, ölməzdim.

P i r i  b a b a. Xalisə gəlib çıxmadı. Xörək nə vaxtı bişəcəkdir?

Y a s ə m ə n. Odun yoxdur, olsaydı durub özüm bişirərdim.

P i r i  b a b a. Onda, mən durum oduna gedim, ona kimi də Xalisə gəlib çıxar. (*Baltanı və ipi götürüb gedir.*)

Y a s ə m ə n (*yalnız, çağanı beşikdən götürüb*). Xudaya, dərgahına el götürüb dua edirəm, mənə əta etdiyini - bu məsum balanı ata məhəbbətindən məhrum etmə. (*Laylay çalır.*)

Laylay dedim yatasan,
Qızıl gülə batasan.
Qızıl gül bağın olsun,
Kölgəsində yatasan.
Balam, a laylay.
Gülüm, a laylay, a laylay.
Mən aşiqəm balasın,
Laçın verməz balasın.
Mən balamı istərəm,
Balam istər balasın.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu halda həyət qapısı döyülür. Yasəmən gedib açır, Həcər xanım qucağında bir körpə uşaq daxil olur.

H ə c ə r. Yasəmən, nə təəccüblə mənə baxırsan? Yoxsa məni tanımırsan?

Y a s ə m ə n. Bilmirəm, yuxu görürəm, ya doğrudan da Həcər xanımı görürəm.

H ə c ə r x a n ı m. Doğru deyirsən, Şahbaz bəyin arvadı quldurbaşı Əlimərdanın evində, bu yuxu deyil nədir? Gəl, otur dərdimi sənə söyləyim. (*Skamyada otururlar.*) Yasəmən, irəlidə sən mənim xidmətçim olmusan. Xeyr, səhv etdim, xidmətçim yox, sevgili bacım olmusan, sirr yoldaşım olmusan. Yasəmən, o günlər yadındadırmı?

Y a s ə m ə n. Bəli, yadımdadır.

H ə c ə r x a n ı m. Başımızda eşq sevdası, ürəyimizdə məhəbbət atəşi, son Əlimərdanı sevirdin, mən Nadir bəyi. Sən məhəbbət uğrunda cəfa çəkdinsə de, axırda sevgilinə gedib, məramına çatdın. Lakin mənim baharım solub, zimistan oldu. Yadındadırmı, bir gündə iki şəxs mənə elçi düşdü, biri sevdiyim, söz verdiyim Nadir bəy, o biri bədəxlaq, bədxasiyyət, çaxır içən, günlərini meyxanalarda keçirən

Ş a h b a z b ə y. Nadir bəy kasıb, Şahbaz bəy dövlətli. Borc boğazına çıxmış, mülkü, evi Şahbaz bəyin yanında girovda olan atamın meyli kimdə olması məlum idi. Yadındadırmı, mən Şahbaz bəyə getmək istəmədim.

Y a s ə m ə n. Bəli, yadımdadır. Atanız dedi: Həcər, Şahbaz bəyə getməsən, özümü öldürəcəyəm.

H ə c ə r x a n ı m. Anam da saçlarını yoldu ki, bizi bədbəxt etmə, küçələrə salma. Axırı mən razı oldum. Şahbaz bəyə gözləri yaşlı getdim. O gündən cəfalarım, bəlalarım başlandı... Şahbaz bəy evimi cürdüxanaya, qumarxanaya döndərib, çəngilər ilə kef etməyə başladı. Nadir mənim göz yaşıma dözə bilməyib baş götürüb bu vilayətdən getdi. Axırda Şahbaz bəyin binamusluğu bir dərəcəyə çatdı ki, öz süd bacısı, qardaşı Əlimərdanın bacısı Qəmərin namusuna toxundu.

Y a s ə m ə n. Ah, indi məni də gözü yaşlı qoyan o binamus oldu.

H ə c ə r x a n ı m. Yasəmən, o zaman, o iki körpəm olmasaydı, biri Şəmsi, o biri Zöhrə, inan ki, mən də özümü Qəmər kimi qayadan atmışdım.

Y a s ə m ə n. Yazıq Qəmər, qardaşım İbada nişanlı idi. Bir-birlərini çox istəyirdilər. Sonra İbad da gedib Əlimərdanın qaçaq dəstəsinə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qoşuldu. Piri babanın deməyinə görə siz altı aydır ki, Züleyxa xalanızın yanında olursunuz və heç kəsə də görünmürsünüz.

H ə c ə r x a n ı m. Doğrudur, orada gizli olmağımın sirrini gılmişım sənı açıb söyləyım və səndən kömək istəyəm. Başqası məni anlayıb dadıma çatmayacaqdır.

Y a s ə m ə n. Söyləyiniz görüm, məndən nə kömək istəyirsiniz? Özünüz bilirsiniz ki, əlimdən gələni müzayiqə etmərəm.

H ə c ə r x a n ı m. Yasəmən, Şahbaz bəy Parisə gedəndən üç ay sonar, qəflətən Nadir bəy gəlib çıxdı. "Həcər, sevgilim, bu iki ilin müddətində dünyanı səyahət edib gəzdim ki, bəlkə səni unudam, fəqət bacarmadım. Axırda sənin fəraqına dözə bilməyib gəlmişəm" - deyə fəryad etdi. Yasəmən, biz qadınlar hissimiz ilə yaşayırıq. Biz qadınlar ürəklərimizin quluyuq. Mən də eşq atəşinə yandım, nəticəsi bu... (*Oğlunu göstərir.*)

Y a s ə m ə n. Demək, bu uşaq Nadir bəyindir? Həcər xanım. Bəli, mənə tənə, məzəmmətmi edəceksən? Mənə lənət, nifrətmi edəcəksən?

Y a s ə m ə n. Mən? Xeyr!.. Başqalarını bilmirəm. İndi söyləyiniz görüm, məndən nə kömək istəyirsiniz?

H ə c ə r x a n ı m. Nadirlə belə qət etmişik ki, mən Şahbaz bəydən boşanıb azad olacaqdım, sonra ona gedəcəkdim. Ah, fələk cəmi səadətimi, ümidimi bir anda puç etdi. Bir ay bundan əvvəl Nadir xəstə düsüb şam kimi əridi, axırda söndü. (*Ağlayır.*)

Y a s ə m ə n. Ah, sizin taleyiniz də mənimki kimi çönmüş. (*Gözlərini silir.*)

H ə c ə r x a n ı m. Yasəmən, çəkdiyim cəfalar, görünür, kifayət deyilmiş ki, təzə bəlalarım yenidən zühur edir. Şahbaz bəy teleqrafla Parisdən çıxmağını xəbər verir, indi anlayırsanmı?

Y a s ə m ə n. Bəli, anlayıram, bu uşağı gizlətmək lazımdır.

H ə c ə r x a n ı m. Bəli, onu da ancaq sən bacararsan.

Y a s ə m ə n. Nə tövr? Unutmayınız ki, siz mənim ərim Əlimərdanın düşməni Şahbaz bəyin arvadısınız. Sizlərdən buraya gəliş-gediş ola bilməz.

H ə c ə r x a n ı m. Mən onların hamısını fikir etmişəm. Ona görə də oğlumu həmişəlik sənə verirəm. Üç gündür ki, doğmuşam. Sənin qızın da həmin vaxtda. Hamıya deyərsən ki, əkiz doğmuşam. Sirr bizim aramızda qalar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Y a s ə m ə n. Bəs, Piri baba ilə Xalisə nənə necə olsun.

H ə c ə r x a n ı m. Bu barədə xalam ilə danışmışam. O deyir ki, mənim xatirim üçün onlar razı olarlar və sirri də kimsəyə açmazlar.

Y a s ə m ə n. Mənim qorxum Əlimərdandan və Cəbidəndir.

H ə c ə r x a n ı m. Mənə məlumdur ki, Cəbi sənin doğmağından hələ xəbərsizdir.

Y a s ə m ə n. Yenə də qorxuram. Bu sirr bir vaxtı açılar, onda mənim halım necə olar? Yox, yox, bu ağır və qorxulu işi öhdəmə götürməyə cürət etmirəm.

H ə c ə r x a n ı m (*ayağa qalxır.*) Onda bircə yol qaldı.

Y a s ə m ə n. Hansı?

H ə c ə r x a n ı m. Mən müqəssir ananın əli ilə bu məsum uşağın ölməyi. (*Getmək istəyir.*)

Y a s ə m ə n (*onun qabağını kəsir.*) Yox, yox, onu etməyiniz, veriniz, razıyam. (*Uşağı alıb beşiyə qoyur. Bu halda qapı döyülür.*) Siz içəriyə giriniz, görüm kimdir.

Həcər xanım komaya girir.

P i r i b a b a (*qapının dalından*). Yasəmən, bizik qapını aç. Yasəmən qapını açır, Piri haba ilə Xalisə nənə daxil olurlar.

P i r i b a b a. Xalisə, tez ol ocağı qala, xörək bişir. Xalisə nənə. Bu saat.

Y a s ə m ə n. Xalisə nənə, xörəyi mən hazır edərəm. İçəridə bir əziz qonaq səni gözləyir.

X a l i s ə n ə n ə. Kimdir? Buraya qorxudan heç kəs gəlməz.

Y a s ə m ə n. İçəri get, görərsən.

Xalisə nənə komaya girir.

P i r i b a b a. Yoxsa Əlimərdandır?

Y a s ə m ə n. Xeyr, Həcər xanımdır, Piri baba.

P i r i b a b a. Həcər xanım?.. O bura əbəs yerə gəlməz, nə böyük qəziyyə üz veribdir ki, cürət edib gəlibdir.

Y a s ə m ə n. Baba, doğrudan da böyük qəziyyədir. Həcər xanım səndən bir şey təvəqqə edəcəkdir, onu qəbul etməyinizi mən də rica edirəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

P i r i  b a b a. Nədir?

Y a s ə m ə n. Sizi gözləyir, gediniz desin. (*Piri baba girir. Yasəmən Həcər xanımın oğlunu qucağına götürür.*) Ah, nə gözəl uşaqdır, mən oğul həsrəti çəkirdim, allah verdi. Bunu öz balam kimi sevəcəyəm. Əlimərdan da məndən razı qalacaqdır. Allahın sirrini bilmək olmaz, gör kimi Əlimərdana oğul göndərdi.

Cəbi daxil olur.

C ə b i. Gözləriniz aydın olsun, oğlandır, qız?

Y a s ə m ə n. Oğlandır.

C ə b i. Onda sahib şad olacaqdır.

Y a s ə m ə n. Topal, biri də var.

C ə b i. O kimdir?

Y a s ə m ə n. O da mənimdir, əkiz doğmuşam, biri oğlan biri qız.

C ə b i. Sahib bu saat özü gələcəkdir.

Y a s ə m ə n (*özünü itirir.*) Ah, ürəyim nə döyünür. Cəbi, o sudan tök, mənə ver içim.

C ə b i (*su verərkən*). Sahibin gəlməsindən niyə qorxursan?

Y a s ə m ə n. Qorxuram ki, ona burada bir xətər yetə.

C ə b i. Sahibin dəstəsi meşədədir.

Piri  baba komadan çıxır.

P i r i  b a b a. Topal, bu üç gündə harada qalmışdın?

C ə b i. Kəndə anamı yoxlamağa getmişdim. Bərk naxoş olduğuna görə qoyub gələ bilmədim. İndi bir az yaxşıdır.

P i r i  b a b a. Xalisə çağanın əsgisini yuyanda birini orada unudubdur, get onu gətir, gəl.

Cəbi gedir.

Y a s ə m ə n. Baba, böyük bəlaya düşdük. Cəbinin deməyinə görə, Əlimərdan bu saat buraya gələcəkdir. Mən çox qorxuram.

P i r i b a b a. Özünü itirmə, toxdaq saxla, hər bir şey allahın əlindədir, nə istərsə, o olacaqdır. Xalisə, Xalisə!

X a l i s ə  n ə n ə (*komadan çıxır, Yasəmən uşağı beşiyə qoyub cuna ilə üzünü örtür.*) Nə var?

P i r i  b a b a. Cəld Həcər xanımı Həsənqulu ağanın otağında gizlət, özün də yanında ol.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

X a l i s ə  n ə n ə. Nə var, nə olubdur?

P i r i  b a b a. Danışıq yeri deyil, Əlimərdan bu saat gələcəkdir.

X a l i s ə  n ə n ə. Vay, evimiz yıxıldı.

Qapı bərk döyülür.

P i r i  b a b a. Arvad, cəld ol.

Xalisə  nənə otağa girir.

Ə l i m ə r d a n (*qapının dalından qışqırır.*) Topal!

Piri  baba gedib qapını açır, Əlimərdan və İbad üstlərində əsləhə daxil olurlar.

Ə l i m ə r d a n. Əmi!

P i r i  b a b a. Can!

Ə l i m ə r d a n. Hamı salamatmı?

P i r i  b a b a. Salamat!

Yasəmən onun boynunu qucaqlayır.

Ə l i m ə r d a n. Kürd qızı, toxda, oğlandır, ya qız?

Y a s ə m ə n. Qız.

Ə l i m ə r d a n. Qız?

P i r i  b a b a. Qəm etmə, allah hər ikinizin istəyini veribdir. Yasəmən əkiz doğubdur, biri oğlan, biri qız.

Ə l i m ə r d a n. Bu yaxşı. Kürd qızı, oğlan mənim, qız sənin. Gətir baxım.

Y a s ə m ə n (*cunanı götürüb*). İkisi də yatıbdır.

Ə l i m ə r d a n. Onda tərpətmə, qoy yatsınlar. Kürd qızı mən oğlumun adını Çingiz qoydum... Sən qızının adını nə qoyursan?

Y a s ə m ə n. İzin versən Qəmər qoyaram.

Ə l i m ə r d a n.  Onda izni qardaşın İbaddan al.

İ b a d. Bacım, hərgah onun kimi qeyrətli, namuslu bir qız yetirəcəksənsə, izin verirəm. Mən əhd etmişəm ki, nişanlım Qəmərin intiqamını düşməndən almayınca dünyada rahat yaşamayam.

Ə l i m ə r d a n. Əmi, Şahbaz bəyin qardaşı İlyas bəy elə bildi ki, İrana qacmaq ilə mənim əlimdən qurtaracaqdır. Qardaşın oğlu onu da babalarının yanına göndərdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

P i r i  b a b a. Əlimərdan, bu işdən əl çək, su sənəyi axırda suda sınar.

Ə l i m ə r d a n. Əmi, insan üçün də ölüm bir dəfə olacaqdır.

İ b a d. Piri baba, biqeyrət olub uzun ömür sürməkdənsə, namus üstə cavan ölmək daha əfzəldir.

P i r i  b a b a. Ay dəliqanlılar, aqibətinizi çox pis görürəm. Gəlin, mən qoca babanızın nəsihətinə qulaq asın.

Ə l i m ə r d a n. Əmi, ac qonaqları nəsihət ilə doydurmaq olmaz, nəyin varsa əmr et gətirsinlər, yeyək.

Y a s ə m ə n. Bir azca səbir ediniz, bu saat hazır edim.

Ə l i m ə r d a n. İbad, xörək hazır olunca biz də bir az rahat olaq.

Otağa tərəf yönəlirlər. Yasəmən onların qabağını kəsib.

Y a s ə m ə n. Ay, oraya getməyiniz.

Ə l i m ə r d a n. Nə üçün?

P i r i  b a b a. Orada Xalisə çimir.

Ə l i m ə r d a n. Ha-ha-ha... Ay qoca əmi. Dinc durmursan ha.

İ b a d. Piri baba bizim kimi cavanları yarı yolda qoyub keçər.

Ə l i m ə r d a n. Kürd qızı, buraya palaz sal oturaq.

Yasəmən palaz salır, Əlimərdan və İbad tüfəngləri ağacdan asıb otururlar. Bu halda qapı döyülür, Əlimərdan cəld ayağa qalxıb.

Ə l i m ə r d a n. Kim ola?

P i r i b a b a. Təşvişə düşmə, yəqin Topaldır. (*Qapını açır*.)

Ə l i m ə r d a n. Topal?

C ə b i. Sahib.

Ə l i m ə r d a n. Haradan gəlirsən?

C ə b i. Bulaqdan, sahib.

Ə l i m ə r d a n. Ətrafda qaraltı-zad görünürmü?

C ə b i. Uzaqdan atlı dəstəsi görünür, çaparlara oxşayır.

Ə l i m ə r d a n. Get pusquda dur, şübhəli adamlar olsa cəld gəlib xəbər ver.

C ə b i. Baş üstə, sahib. (*Gedir*.)

İ b a d. Təzə uyezdni naçalnik Səfi bəy bizim müqabilimizə çıxmaq ilə qubernatordan malades almaq istəyir.

Ə l i m ə r d a n. Eybi yoxdur, buyursun, onu daknyaz Vaçinadzenin gününə salaram.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

P i r i  b a b a. Bir neçə vaxtdan bəri meşədə strajniklər görünür. Birinə rast gəlib soruşdum: burada nə qayırırsınız? Cavab verdi ki, Səfi bəyin əmrinə görə yolları qaçaqlardan mühafizə edirik.

İ b a d. Ha-ha-ha... Piri baba çox yaxşı mühafizə edirlər, allah onları bədnəzərdən saxlasın. Üç gün bundan irəli iki yoldaşımız, Xaspolad və Qarabəkir, Razyonnı poçt üstə düşürlər, bir-iki güllə atan kimi igid çaparlar qoyub qaçırlar. Yoldaşlarımız da xəzinəni qulluğumuza gətirdilər.

Ə l i m ə r d a n. Əmi, mənim qorxumdan hökumət qulluqçuları cürət edib kəndliləri incidə bilmirlər. Mənim üç düşmənim var: hökumət, bəylər, tacirlər də pulları ilə mənə tövçü verirlər. Mən kəndliləri onların zülmündən saxlayıram.

Yasəmən xörək gətirib süfrəyə qoyur, bu halda meşədən tüfəng səsi gəlir. Əlimərdan və İbad cəld qalxıb tüfənglərini götürürlər.

Ə l i m ə r d a n. Əmi, xudahafiz. Kürd qızı, Çingizdən muğayat ol. Bir igid, qoçaq oğlan meydana çıxarmağı səndən tələb edirəm.

Y a s ə m ə n (*onların qabağını kəsib*). Qoymaram, sizi öldürərlər.

Ə l i m ə r d a n. Məni öldürərlər, yerimdə oğlum Çingiz qalar.

Gedirlər.

Y a s ə m ə n. Xudaya, dəxi səbir edə bilmirəm, məni öldür, bu əzabdan qurtar. Yeddi ay həsrətini çəkdiyim sevgili ərim ilə belə görüşdük. (*Ağlayır.*)

P i r i  b a b a. Yasəmən, səbir et, göz yaşı tökmədən nə çıxar?

Y a s ə m ə n. Ondan başqa mənə nə qalıbdır, onadamı mane olacaqsan.

X a l i s ə  n ə n ə (*gəlir.*)Əlimərdan getdimi? Vay, qızım, ağlayırsan?

Y a s ə m ə n. Xalisə nənə, necə ağlamayım, bu birəhm fələk mən zavallını elə tilsimə satıbdır ki, sevgili ərimin gəlməsi mənim üçün qorxu, getməsi bəla. (*Ağlayır.*)

X a l i s ə  n ə n ə. Qızım, yenə də səbir etmək lazımdır, hər bir qara günün bir ağ günü də var.

Bu halda Səfi bəy, pristav və ücstrajnik daxil olurlar.

S ə f i  b ə y. Tərpənməyin! Piri kişi, Əlimərdanın yerini de.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

P i r i  b a b a. Səfi bəy, Əlimərdan burada yoxdur.

S ə f i b ə y. Yalan deyirsən, quldurbaşı qardaşın oğlunu ələ vermək istəmirsən. Fəqət mən sənə dedirdərəm. Bunları alınız.

Strajniklər onları əhatə edirlər.

P i r i b a b a. Səfi bəy, arvadları nə üçün qorxudursan, mənə inanmırsan, buyur axtar.

S ə f i  b ə y. Mən dedim ki, sən özün yerlərini göstərəsən, təki həm bu arvadları, həm də özünü Sibir sürgünündən xilas edəsən. İndi Əlimərdan buradan çıxsa, tənbehin böyük olacaqdır. Tüfənglərinizi bunların döşlərinə tutun. (*Strajnikiər tuturlar.*) Belə hazırda durarsınız, üzərinizə tüfəng açılsa, üçünü də güllələyib yerə yıxarsınız. Sən, İsrafil bəy, dalımca gəl.

Komaya girirlər. Bir azdan sonra cıxırlar.

P r i s t a v. Səfi bəy, yəqin o evdə gizlənmişlər, oranı axtarmalı.

S ə f i  b ə y. Doğru.

Bu halda H ə c ə r xanım otaqdan çıxıb qaçaraq gəlir.

H ə c ə r  x a n ı m. Səfi bəy, toxda, bunları nə üçün güllələyirsiniz?

S ə f i  b ə y. Çünki Əlimərdanı burada gizlədib yerini demək istəmirlər.

H ə c ə r  x a n ı m. İndi sizə məlum oldu ki, Əlimərdan burada ola bilməz.

S ə f i  b ə y. Bəli, Şahbaz bəyin arvadı olan yerdə Əlimərdan ola bilməz. (*Piri babagilə.*) Azadsınız, Həcər xanım siz burada nə qayırırsınız?

H ə c ə r  x a n ı m. Şəhərə gedirdim, buraya döndüm ki, Züleyxa xalamın sifarişini Piri babaya yetirəm.

S ə f i b ə y. O yolda duran fayton sizinkidirmi?

H ə c ə r  x a n ı m. Bəli.

S ə f i b ə y. Həcər xanım, heç bilirsinizmi sizi nə böyük bəladan xilas edirəm. Əlimərdanın quldur dəstəsi meşədədir. Mən onu əhatə etmişəm. Bu gün dayım İlyas bəyin intiqamını ondan alacağam. Buyurunuz gedək, adam qoşum sizi xalanızgilə aparsınlar. Şəhərə getmək mümkün deyil.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

H ə c ə r x a n ı m. Piri baba, Xalisə nənə, xudahafiz, Yasəmən, oğlunu gətir baxım.

S ə f i b ə y. Həcər xanım, düşmənin ailəsinə mərhəmət etmək caizmidir?

H ə c ə r x a n ı m. Siz bilirsiniz ki, Yasəmən mənim sevgili xidmətçim olmuşdur. Onun və bu məsum uşağın nə günahı var? (*Yasəməndən uşağı alıb öpür.*) Yasəmən, səni və bunu bir allaha tapşırıram.

Tüfəng səsi gəlir.

S ə f i b ə y. Həcər xanım, gedək.

H ə c ə r x a n ı m. Xudahafiz. (*Gözlərini silir, gedirlər.*)

Y a s ə m ə n. Ey uca tanrı, mən də sevgili ərimi sənə tapşırıram.

**Pərdə**

## İKİNCİ PƏRDƏ

Birinci pərdənin mənzərəsi. Birinci pərdədən iyirmi il keçibdir.

P i r i b a b a. Ey vəfalı silahım, sahibin tək sən də köhnəlmisən, paslanmısan. Keçmişdə sənin güllən heç puça çıxmazdı. Ağzından od parladıqda ovu yerdə görmüşəm. İndi sinnim həştada çatmış, gözlərimin nuru getmiş, qollarımın qüvvəti azalmış. İndi səni qaldırıb qırqovulu nişana aldıqda qaqqıltı ilə uçub uzaqlaşır. O, qaqqıltı ilə sanki deyir, ey piri-natəvan, nə vaxta kimi bizləri ovlayacaqsan? Çəkil, rahat ol, daha vaxtın keçmiş. Bəli keçmiş... (*Yasəmən samovarı gətirib süfrəyə qoyur.*) Yasəmən Qəmər durubdurmu?

Y a s ə m ə n. Qəmər sübh tezdən durub meşəyə gedibdir.

P i r i b a b a. Erkən durmaq yaxşı şeydir, bədəni saflaşdırar. Ancaq o zaman meşə rütubətdir, gəzməsin, dağa çıxsın, təmiz hava udsun.

Y a s ə m ə n. Qəmər şəhərdə o qədər darıxıb, sıxılıbdır ki, buraya gələndən bəri evdə oturmaq istəmir. Deyir: Ana can, doqquz ay dərs zamanı günlərimi sanamışam ki, yay fəsli haçan gələcəkdir ki, Piri babama qonaq gedəm, doyunca meşəni, dağı, çəməni gəzəm.

P i r i b a b a. Qoy gəzsin, yesin, içsin, hala gəlsin. Ancaq gəzməyə yoldaşı yoxdur. Məni tutur ki, Piri baba dur gəzməyə gedək. Deyirəm,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ay qızım, babanın nə gücü qalmışdır ki, sənə yoldaşlıq etsin, sənin iti ayaqların ilə yeriş etsin. Deyirəm, səbir et, qardaşın Çingiz gəlsin o zaman ürəyiniz istədikcə gəziniz.

Yasəmən çay töküb Piri babaya verir.

Y a s ə m ə n. Piri baba, Qəmər ilə Çingizi görəndə elə bil ki, dünya mənimdir. Necə mehriban bacı-qardaşdırlar. Necə məni sevib ehtiramımı saxlayırlar. Çingiz ona atalıq edir. Bax nə sənə baxdı, nə mənə, bacısını oxutdu.

P i r i  b a b a. Çingiz çox ağıllı, kamallı cavandır.

Y a s ə m ə n. Allah sevgili ərimi əlimdən aldısa da, yerində belə oğul qoydu.

Qəmər qucağında çiçək və əlində dəsmal bağlısı daxil olur.

Q ə m ə r. Baba, sabahın xeyir.

P i r i  b a b a. Qızım, aqibətin xeyir.

Q ə m ə r. Baba, tap görüm, mənim bu dəsmalımdakı nədir?

P i r i  b a b a. Qızım, kirpidir.

Q ə m ə r. Vay, baba nədən bildin?

P i r i  b a b a. Dəsmalına bax, özün bilərsən.

Q ə m ə r (*baxır.*) Hə, kirpinin tikanları dəsmalı dəlib çıxıbdır.

P i r i  b a b a. Bu kirpini nə edəcəksən?

Q ə m ə r. Sənin bostanına buraxacağam.

Y a s ə m ə n. Qızım, bu heyvan bostanı tərk edər.

Q ə m ə r. Piri baba, beləmi?

P i r i  b a b a. Yox, ağıllı qızım, fikrini anlayıram. Kirpi bostanın qurdlarını yeyib tələf edər, onu salamat saxlar.

Y a s ə m ə n. Qızım, bunu sən haradan bilirsən?

Q ə m ə r. Mən kitabda oxumuşam. Piri baba da təbiətin içində yaşayıb, görüb-gütürübdür. Baba, təzə qoruqçunu aparım bostanına buraxım. (*Gedir.*)

P i r i  b a b a. Yasəmən, görürsən oxumaq nə gözəl şeydir.

Y a s ə m ə n. Baba, doğru deyirsən, ancaq oxuyub elmli olandan sonra, bizim kəndli qızları öz ayağı çarıqlılarına ərə getmirlər.

P i r i  b a b a. Nə üçün getmirlər? Ürək elmə-zada baxmaz. Səni bəyzadələr istəyirdilər, bəs nə üçün getmədin?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Y a s ə m ə n. Çünki Əlimərdanı sevirdim. Biz müsəlmanca oxumuşuq. Onlar kimi elmimiz yoxdur. (*Qəmər daxil olur.*) Qızım, gəl otur, çayın soyuyur.

Q ə m ə r (*çay içərkən*). Baba, indi tap görüm, bu çiçəkləri nə edəcəyəm?

P i r i  b a b a. Dəstə tutub otağına qoyacaqsan.

Q ə m ə r. Yox, baba, bilmədin. Bunlardan tac hörüb sənin başına qoyacağam. Səni bu meşənin, bu bağların sultanı edəcəyəm.

Gülüşürlər.

P i r i  b a b a. A qızım, mənim bu qoca qulaqlarıma gahdan bir gəlib çatır ki, rəiyyətlər üsyan edib padşahlarını taxtdan salırlar. Sən də təzədən mənim başıma tac qoymaq istəyirsən.

Q ə m ə r. Onlar öz rəiyyətlərilə ədalətlə rəftar etməyiblər, onlara zülm ediblər, onun üçün də taclarını itiriblər. Fəqət sən öz vəzifəni çox yaxşı ifa etmisən. Ona görə də meşə əhli məni öz tərəflərindən vəkil seçib hüzurunuza göndəriblər ki, bu tacı qəbul edib onlara sultan olasan.

Gülüşürlər.

P i r i  b a b a. Qızım, bu gətirdiyin vəkalətnaməyə tülkülər, dovşanlar, kəkliklər, qırqovullar da qol çəkirlərmi?

Q ə m ə r. Onlar tərəfindən bir qədər narazılıq oldu, fəqət əksəriyyət səni özlərinə sultan seçdilər.

P i r i  b a b a. Qızım, bu meşənin sultanlığını qəbul edirəm, bu şərtlə ki, sən də mənə vəliəhd olasan.

Gülüşürlər.

Q ə m ə r. Mən qəbul edirəm. (*Qapı döyülür.*) Birdən Çingiz ola.

Gedib qapını açır. Həcər xanım, Zöhrə xanım, Şəmsi bəy daxil olurlar.

H ə c ə r  x a n ı m. Qəmər, nə gözəl, nə göyçək qız olmusan. (*Onu öpür.*)

Y a s ə m ə n. Ah, nə əziz qonaqlarım gəlmiş. (*Həcər xanım ilə görüşürlər.*) Buyurunuz, buyurunuz, Piri baba çox şad olacaqdır.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

H ə c ə r x a n ı m. Qəmər, bu mənim oğlum Şəmsi bəy, bu da qızım Zöhrədir. Tanış olunuz.

Qəmər onlara əl verir, qonaqlar Piri baba tərəfə gəlirlər.

P i r i b a b a. Həcərxanım, çox xoş gəlmişsiniz, səfa gətirmişsiniz, mən qocanı yad etmisiniz, buyurun əyləşin.

Otururlar.

H ə c ə r x a n ı m. Züleyxa xalama qonaq gedirik, dedim dönüb sizlə görüşüm. Çoxdan bəridir ki, sizdən xəbərim yoxdur. Yaxşı oldu ki, Qəməri də gördüm, maşallah, gözəl qız olubdur.

Y a s ə m ə n. Qəmər on gündür ki, dərslərini qurtarıb gəlibdir. Dedi ana, gedək bu yay da Piri babaya qonaq olaq, o da təkdir.

P i r i b a b a. Xalisə vəfat edəndən bəri burada Topal ilə ikimiz oluruq. Yasəmən istədi məni də kəndə öz yanına aparsın, razı olmadım, çünki balıq susuz yaşaya bilməyən kimi, mən də meşəsiz ömür sürə bilmərəm.

H ə c ə r x a n ı m. Çingizdən nə xəbər var?

Q ə m ə r. Mənə yazmışdı ki, iki gündən sonra çıxacağam, gərək bu gün-sabah gəlib çıxsın.

Ş ə m s i b ə y. Çingiz həkimlikmi oxuyur?

Q ə m ə r. Bəli.

Z ö h r ə x a n ı m. Yenə Kiyev şəhərində oxuyur?

Q ə m ə r. Bəli, orada oxuyur.

H ə c ə r x a n ı m. Uşaqlar, durun gedin bir az meşədə gəzin.

Y a s ə m ə n. Qoyun çayı təzələyim, içsinlər, sonra gedərlər.

H ə c ə r x a n ı m. Zəhmət çəkməyin, bir azdan sonra gedəcəyik. Xalam bizi gözləyir.

P i r i b a b a. Nə tələsirsən? Buradan Züleyxa xanımgilə yarım saatlıq yoldur, bir az rahat olub çörək yeyərsiniz, sonra gedərsiniz. Ona kimi də cavanlar meşədə gəzərlər. Qəmər də bu gün məni meşə sultanı təyin edibdir. Təzə sultanın hökmü belədir, gərək tabe olasınız.

Gülüşürlər.

Ş ə m s i b ə y. Meşə sultanı Piri babadan rica edirəm ki, mənə öz ormanında bir qədər ov etməyə izin versin.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

P i r i  b a b a. İzin verirəm, ancaq mənim tüfəngim ilə çətin ov edə biləcəksən.

Ş ə m s i b ə y. Öz tüfəngim odur faytonda, sizinkinə ehtiyac yoxdur. Xanımlar, buyurunuz.

H ə c ə r  x a n ı m. Şəmsi, Heydərquluya de ki, atları açıb rahat etsin, bir azdan sonra gedəcəyik.

Ş ə m s i b ə y. Yaxşı, deyərəm.

Gedirlər.

Y a s ə m ə n. Xudaya, Çingizi de bunlar ilə belə mehriban görsəydim dünyada bir qəmim olmazdı.

H ə c ə r  x a n ı m. Yasəmən, iyirmi ildir ki, mən bədbəxt ana, oğlum Çingiz üçün göz yaşı tökmüşəm. Sən Yasəmənə həsəd aparmışam ki, Çingizi bağrına basıb əzizləmisən, ona süd vermisən, oğlum demisən. Amma mən yad kimi kənardan baxmışam. Ah, ana üçün dünyada bundan artıq əzab olarmı?

P i r i  b a b a. Həcər xanım, bugünə kimi səbir etmisiniz, yenə də etməlisiniz. Yoxsa cümlənizi böyük bəlaya salarsınız. İndiyə kimi sirr açılmayıbdır, bundan sonra da açılmamalıdır.

Y a s ə m ə n. Həcər xanım, mən də sizdən rica edirəm ki, məni bəlaya salmayasınız, məgər mən Çingizə doğma ana kimi baxmamışam?

H ə c ə r  x a n ı m. Dogru deyirsən, sən Çingizə həqiqi analıq etmisən. Ölənə kimi sənə qul olsam, yenə də borcundan çıxa bilmərəm.

P i r i  b a b a. Həcər xanım, indi bizim seyimiz onda olmalıdır ki, ataları kimi cavanların da arasına ədavət düşməsin.

H ə c ə r  x a n ı m. Piri baba, Çingizin burada olmasının xətası çoxdur, Şahbaz bəyin qohum-əqrəbası dinc durmayacaqdır. Qorxuram onu da Əlimərdan kimi tələf edələr.

Y a s ə m ə n. Nə qədər ki, Əlimərdan tutulmamışdı, sağdı, onun qorxusundan Çingizə əziyyət verə bilmirdilər, amma indi mən də qorxuram.

P i r i b a b a. Həcər xanım, Çingizin gələcəyi üçün heç fikirləşmisinizmi?

H ə c ə r  x a n ı m. Bəli, o barədə xalam ilə danışmışam. Onun fikri odur ki, dayısı oğlu Əli bəyin qızını ona ala və cəmi mülkünü də



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

onların adına keçirə. Əli bəyin qohum-əqrəbası çoxdur, ona heç kəs bata bilməz. Yasəmən, sən bu fikrə nə deyirsən?

Y a s ə m ə n . Mən nə deyəcəyəm? Çox gözəl fikirdir.

Qəmər, Zöhrə və Şəmsi bəy daxil olurlar.

Q ə m ə r. Ha-ha-ha...

Z ö h r ə. Ha-ha-ha...

H ə c ə r x a n ı m. A qızlar, deyin görüm, nəyə gülürsünüz?

Q ə m ə r. Piri baba, bu saatdan sən sultanı əzl edib yerinə Şəmsi bəyi təyin edirəm.

P i r i b a b a. A qızım, buna səbəb nə olmuş?

Q ə m ə r. Şəmsi bəyin bimisl ovçu olmağı.

Zöhrə gülür.

Ş ə m s i b ə y. Qəmər bəyim, rica edirəm məni Piri babanın yanında xəcil etməyəsiniz.

Z ö h r ə x a n ı m. Xeyr, gərək nağıl oluna, yoxsa mən Piri babanın əzlinə razı deyiləm.

Ş ə m s i b ə y. Onda qoyun mən özüm söyləyim.

Z ö h r ə x a n ı m. Xeyr, mən razı deyiləm. Qoy Qəmər söyləsin.

Ş ə m s i b ə y. Nə etməli, siz iki, mən tək, Qəmər bəyim, söyləyiniz.

Q ə m ə r. Piri baba, meşəyə girdikdə qarşımıza dovşan çıxdı. Bunu gördükdə Şəmsi bəy, bizim ölkənin birinci ovçusu, xeyli nəzakət ilə qoşalüləsini çiynindən çıxarıb...

P i r i b a b a. Ov etdikdə, ovçunun tüfəngi əlində hazır olmalıdır.

Z ö h r ə x a n ı m. Buda onun özünə arxayın olmasına bir sübut.

Q ə m ə r. Dovşan dayanıb durmuşdu. Şəmsi bəyin gülləsi açıldı, dovşan yerindən tərpəndi. Güllənin biri də açıldı, dovşan yenə qaçmadı. Burada Zöhrə xanım ilə inən elə qəhqəhə etdik ki, dovşan ildırım kimi götürüldü.

Gülüşürlər.

P i r i b a b a. Görünür, dovşan uzaqda durmuşmuş.

Z ö h r ə x a n ı m. Xeyr, Piribaba, sonar ölçdük, bizim ayağımız ilə dovşan on iki addımda durmuşdu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ş ə m s i  b ə y. Piri baba, bunlar mənim ovçulğumu lağa qoyub güldü, fəqət öz qüsurlarını açmaq istəmirlər.

P i r i  b a b a. Sən də onlarınkını aç söylə, görək nə olmuş.

Ş ə m s i  b ə y. Piri baba meşəyə bir az qalmış onda gördük ki, bu iki igid xanımdan bir elə qışqırıq qalxdı ki, dedim yəqin bunların qarşısına aslan çıxmışdır. Bilirsinizmi, Piri baba, bunlar nə görmüşlər?

P i r i  b a b a. Yəqin siçan görmüşlər.

Ş ə m s i  b ə y. Bəli.

Gülüşürlər.

P i r i  b a b a. Oğlum, arvad tayfasının əksəri siçandan qorxur. Rəhmətlik Xalisə də belə idi.

Bu halda Cəbi əlində bir çamadan, dalınca Çingiz daxil olurlar.

Q ə m ə r. Çingiz gəldi. (*Qaçaraq gedib onun boynunu qucaqlayıb öpür*.)

Y a s ə m ə n. Ah, oğlum, gəldi, Allah, sənə şükür. Ay qız, bir dayan, mən də öpüm! (*Çingizi öpür*.)

H ə c ə r  x a n ı m. Oğlum, gəl səni mən də öpüm.

İstəyir öpsün, Çingiz kənara çəkilir.

Ç i n g i z. Həcər xanım, mən haradan sizin oğlunuz oldum. Mən sizin qulluqçunuz kürd qızının oğluyam.

H ə c ə r  x a n ı m. Ah, Çingiz, oğlum, məni atəşə yaxma, Yasəmən mənim qulluqçum olmayıbdır, sevgili bacım olubdur.

Q ə m ə r. Çingiz, gəl su töküm əl-üzünü yu, yoldan gəlmisən, yorulmusan. Gəl, qardaşım, sonra danışarsan.

Ç i n g i z. Toxda, Həcər xanım, Əlimərdanı ölmüş görüb, mən oğlu Çingizi Rusiyada bilib buraya gəlməyə cürət etmisiniz?

P i r i  b a b a. Çingiz, Həcər xanım övladları ilə mənə qonaq gəlmişlər, sənə dəxli yoxdur.

Ç i n g i z. Bəs sən Əlimərdanın əmisi deyilsən? Necə qeyrətin qəbul edir ki, onun düşmənlərini qonaq edirsən? Məgər bilmirsən ki, mənim atam Əlimərdanın Sibirdə əlləri, ayaqları qandalda, sızlayıb fəryad etməyinə səbəb binamus Şahbaz bəy olmuşdur.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ş ə m s i  b ə y. Çingiz, mən elə fikir edirdim ki, atalarımızın ədavəti biz övladlarına keçməyəcəkdir, çünki hər iki tərəf bir-birlərindən intiqamını almış. Mən əmim İlyas bəyin və başqa qohumlarımın qanını səndən iddia etmirəm. Fəqət indi görürəm ki, siz başqa fikrə düşmüşsünüz, bismillah, mən meydandan qaçan oğlan deyiləm.

Ç i n g i z. Hə, indi biqeyrət Şahbaz bəyin oğlu Şəmsi bəy özünü büruzə verdi.

Ş ə m s i  b ə y. Quldurbaşı Əlimərdanın oğlu Çingiz də öz gədalığını göstərdi.

Ç i n g i z. Mənə gəda deyirsən?

Onun üstünə yeriş edir, Zöhrə xanım başını uca tutaraq, döşünü gərərək onun qarşısında durur. Həcər xanım qışqırıb qəşş edir, Qəmər ağlayır.

Z ö h r ə  x a n ı m. Çingiz, biz düşmən də olsaq qapınıza gəlmişik, sizə qonaq olmuşuq, qonağın ehtiramı beləmi olur?

Ç i n g i z (*başını aşağı salaraq*). Zöhrə xanım, məni əfv ediniz, xəcalətimdən üzünüzə baxa bilmirəm. Tutduğum əməldən özüm də peşmanam.

Z ö h r ə  x a n ı m. Öz tərbiyəsilə cavanlar arasında şöhrət tapmış Çingizi indi tanıdım, əfvinizi qəbul edirəm. Ancaq anamız Həcər xanımdan üzr istəməlisiniz.

Ç i n g i z. Həcər xanım, məni əfv etməlisiniz. (*Əllərindən öpür, Həcər də onun alnından öpür.*)

H ə c ə r  x a n ı m. Oğlum, Çingiz, mənə yenidən ruh verib diriltdin, allah səni hər bəladan hifz etsin.

Q ə m ə r (*gedib Çingizin əlindən tutub Şəmsi bəyə tərəf gedir.*) Çingiz, Şəmsi bəylə də barış.

Ç i n g i z (*ona əl verərək*). Şəmsi bəy, məni əfv ediniz, o sözləri deməyə ürəyimin qəm-qüssəsi səbəb oldu. Qürbətdə çəkdiyim əziyyətdən sonra əziz anamı, sevgili bacımı, qoca babamı sağ və salamat gördükdə bəxtiyar ömrünü Sibirdə çürüdüb axırı canını namus yolunda fəda edən yazıq atam yadıma düşdü. Özümü saxlaya bilməyib sizlərə biehtiramlıq etdim.

Y a s ə m ə n (*gedib onu qucaqlayaraq*). Oğlum, bu sözlərin ilə yaralı ürəyimi oxladın. (*Ağlayır.*)

P i r i  b a b a. Yasəmən, sakit ol, naşükür olma, Çingiz kimi oğlun, Qəmər kimi qızın var. Ölüm cümlə yaranmış üçün var. Oğlum, Çingiz, bəs mən qoca baban ilə nə üçün görüşmürsən?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ç i n g i z. Bağışla baba, bu gün özümü başqa halda görürəm. (*Gedib onun əllərini öpür.*)

Q ə m ə r. İndi gəl gedək, su töküm əl üzünü yu.

Otağa gedirlər.

Ş ə m s i b ə y. Ana, siz də hazır olun, mən də gedib faytonu qoşdurum.

P i r i b a b a. Oğlum, nə tələsirsən, çörək yeyib gedərsiniz.

H ə c ə r x a n ı m. Şəmsinin fikrini anlayıram, o qorxur ki, yenə aralarında toqquşma ola. Mən də onun fikrinə şərikəm.

Y a s ə m ə n. İndi Çingiz nəinki yenidən toqquşmaq, hətta səy edəcəkdir ki, sizin könlünüzü alsın.

P i r i b a b a. Yasəmən doğru deyir, Çingizin ürəyi çox yumşaqdır, heç kəsi özündən incitməz.

Z ö h r ə x a n ı m. Biz Çingizdən rəncidə olmuruq. Ürəyi yanıqlı idi, onun üçün də təbiətindən çıxdı. Sonra peşman olub bizdən üzr istədi. Bu bizə kifayət edər. İrəlilərdə mənə heç vaxt ədavət göstərməyibdir. Çox mehriban rəftar edibdir.

Çingiz və Qəmər gülə -gülə gəlirlər.

Ç i n g i z. Piri baba, eşitdim səni sultanlıqdan əzl ediblər.

P i r i b a b a. Ay oğul, çox da yaxşı ediblər, mənim sultanlığım keçmiş. Cavanlıqda atdığım güllə boşa çıxmazdı, indi isə çox vaxtı ovdan əliboş qayıdıram.

Ç i n g i z. Demək on iki addımda durmuş dovşanı daha vura bilmirsiniz.

Gülüşürlər.

Z ö h r ə x a n ı m. Şəmsi, payını aldın?

Ş ə m s i b ə y. Allah heç kəsi Qəmər bəyimin dilinə salmasın.

Q ə m ə r. Allah heç kəsi Şəmsi bəy kimi ovçunun ümidinə qoymasın, çünki şamsız yatar.

Gülüşürlər.

Ç i n g i z. Allah heç qardası Qəmər kimi bacının ümidinə qoymasın, çünki səfərdən gəlmiş qardaşım çaysız qoyar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Q ə m ə r. Bu saat, qardaşım. (*ona çaytöküb verir.*) Gör bacın sənə badımcandan, pamidordan nə dürlü-dürlü ləziz xörəklər bişirəcəkdir.

Ş ə m s i b ə y. Qəmər bəyim, nə qədər xörək bişirməkdə mahir olsanız, yenə də mənim bacım Zöhrəyə çata bilməzsiniz.

Z ö h r ə x a n ı m. Yəqin yenə də mənim qayğanaq məsələm meydana çıxacaqdır.

Ş ə m s i b ə y. Əlbəttə çıxacaqdır. Camaat, bir dəfə çox bərk acmışdım, evdə də Zöhrədən başqa heç kəs yoxdu. O da oturub roman oxuyurdu. Dedim, bacım dur mənə qayğanaq bişir, yeyim. O vaxtı Zöhrə xanım təzəcə gimnaziyanı qurtarmışdı. Bacım bişirdi, mən də yedim. Nəticəsi - indi də qayğanağa baxa bilmirəm.

H ə c ə r x a n ı m (*gülür.*) Zöhrə yumurtanı əvvəl suya salıb sonra yağ tökmüşdür.

Gülüşürlər.

Ş ə m s i b ə y. Ana, mən bacımın icadının sirrini açmaq istəmədim, sən niyə açırsan?

Ç i n g i z. Piri baba, arıların nə haldadır?

Y a s ə m ə n. Anan ölsün, hər bal yeyəndə boğazımdan getmirdi. Bilirəm, sən balı çox sevirsən.

P i r i b a b a. Oğlum, sənin bəxtindən bu il balım boldur, nə qədər xətrin istəsə ye, qurtaran deyil.

Ç i n g i z. Cəbi lələ, get Piri babanın o tərifli balından kəs gətir, yeyək.

P i r i b a b a. Topal, cökə ağacının altındakı səbətdən kəs gətir. Onun balı çox dadlıdır.

Cəbi gedir. Səfa daxil olur.

H ə c ə r x a n ı m. Səfa nə var, xeyir ola.

S ə f a. Xanım siz gedəndən sonra Şahbaz bəy gəlib çıxdı. Nurəli bəyin evində qumar oynayırmışlar. Ağa gecə də orada yatıb qalıbmış. Məndən soruşdu ki, Həcər xanım və usaqlar haraya gediblər. Dedim Züleyxa xanımgilə qonaq gediblər, üç gündən sonra gələcəklər. Elə bunu demiş oldum, ağa hirslənib qışqırdı, söyməmiş bir xidmətçi qoymadı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mənə dedi ki, atı minib çaparsan, harada çatdın qaytararsan. Bu halda ürəyi bitab olub yıxıldı. Qurban həkim dalınca getdi, mən də sizin.

Ş ə m s i b ə y. Ana, durma gedək. Ax, atamın köhnə azarı qalxmış.

H ə c ə r x a n ı m. Gedək. (*Qalxırlar.*) Səfa, get faytonun yanında gözlə.

Səfa gedir.

P i r i b a b a. Allah şəfa versin, daha sizi saxlaya bilmərəm. İnşallah yaxşı olar, yenə mənə qonaq gələrsiniz.

Həcər xanım ilə Yasəmən, Qəmər ilə Şəmsi bəy və Çingiz ilə Zöhrə xanım kənara çəkilib məxfi danışırlar.

Ç i n g i z. Zöhrə xanım, siz ilə əlvida edərək yenə də rica edirəm ki, sizə etdiyim ehtiramsızlığı qəlbinizdən çıxarasınız.

Z ö h r ə x a n ı m. Çingiz, mənim qəlbimdə, bilirsən, sənə ədavət yoxdur, başqa bir hiss...

Ç i n g i z. Müşgül.

Z ö h r ə x a n ı m. Nə üçün?

Ç i n g i z. Çünki çox sədd var...

Z ö h r ə x a n ı m. Ürəyin incə oxları müqabilində elə sədlər durmaz...

Ç i n g i z. Ürəyin özünə sədd çəkməli.

Z ö h r ə x a n ı m. O nə üçün?

Ç i n g i z. Fələyin istədiyi bu.

H ə c ə r x a n ı m. Uşaqlar, gedək.

Z ö h r ə x a n ı m. Əlvida, Çingizim.

Ç i n g i z. Əlvida, xoyali-naümidim.

H ə c ə r x a n ı m. Xudahafiz.

P i r i b a b a. Xudahafiz, yaxşıyol.

Gedirlər.

**Pərdə**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ÜÇÜNCÜ PƏRDƏ

Səhnə Şahbaz bəyin qonaq otağını göstərir. Otaq Avropa səliqəsilə bəzənmiş.

Ş a h b a z  b ə y səfərə hazırlaşır.

Ş a h b a z  b ə y. Xavər, Xavər.

Xavər daxil olur.

X a v ə r. Nə buyurursan, ağa?

Ş a h b a z  b ə y. Şəmsi evdədirmi?

X a v ə r. Bəli, evdədir.

Ş a h b a z  b ə y. Get de, atan çağırır.

X a v ə r. Baş üstə. (*Gedir.*)

Ş a h b a z  b ə y (*dərman içərək.*) Bunun əvəzinə bir dəfə zəhər içib bu dünyadan xilas olmağa cürət edə bilmirəm.

Şəmsi bəy daxil olur.

Ş a h b a z  b ə y. Oğlum, əyləş, sənə deyəcək sözüm çoxdur. Şəmsi, mənim bədənimdə bir sağ ezam yoxdur. Ürəyim, ciyərim xarab, mədəm xarab, dilim də gah tutulur, gah açılır. İndi müalicəyə gedirəm. Fəqət sağalmağa ümidim yoxdur. Demək, bir az gec, bir az tez, məni qəbrə qoyacaqsan. Sən mənim tək oğlumsan, babalarımızın yurdunun sahibisən. Doğrudur, sənin dövlətinin çoxunu mən tələf etmişəm, qumara vermişəm, kef etmişəm, fəqət o tələf etdiyimdən ziyada mərhum qardaşım İlyas bəydən sənə dövlət düşəcəkdir. İndi de görüm, dərdin nədir ki, əmin qızı Nəcibəni evdə dustaq etmisən.

Ş ə m s i  b ə y. Mən əmim qızını dustaq etməmişəm.

Ş a h b a z  b ə y. Bəs nə üçün evlənmirsən? Özün bilirsən ki, o sənə ad olubdur. Ağıllı, kamallı, qoyulduğu ada layiq nəcibə bir gözəldir. Belə qızdan nə üçün qaçırsan?

Ş ə m s i b ə y. Ata, o tərif etdiyin sifətlərin cümləsi əmizadəmdə mövcuddur. Fəqət yenə də mən özümü və o zavallını bədbəxt etmək istəmirəm.

Ş a h b a z  b ə y. Səbəb?

Ş ə m s i  b ə y. Səbəb odur ki, mənim onda könlüm yoxdur. Qəlb istəmədiyi halda nə zövc və nə də zövcə.

Ş a h b a z  b ə y. İstəmədiyinə səbəb nədir?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ş ə m s i b ə y. Onu ürəkdən sormalı və bir də mən uşaqlıqdan əmim qızı ilə bir yerdə böyümüşəm, mən ona bacı kimi baxıram.

Ş a h b a z b ə y. Oğlum, məhəbbət bir yalan şeydir. Onu şairlər icad etmişlər. İsmi var, özü yox o, bir xəyaldır. Uzaqdan dadlı, nəşəli, yaxından zəhərli, cəfalı, bəlalı, ömrü puç edən bir şeydir. Beş gün səfa versə, beş il cəfa verər. Atan onların hamısından keçmişdir.

Ş ə m s i b ə y. Demək, qəlb sevmədiyi bir zövcə ilə ömür sürmək, cəfa-bəla deyilmiş, eləmi?

Ş a h b a z b ə y. Bilmirəm sən bu arvad tayfasına nə böyük məna verirsən. Arvad al, qoy evdə evdarlıq etsin, sən də kefdə, damaqda ol...

Ş ə m s i b ə y. Ata, mən onu edə bilməyəcəyəm. Sizin nəzəriniz qadınlara başqa, mənimki başqa. Mən könlüm sevməyəni almayacağam.

Ş a h b a z b ə y. Bəlkə sənin könlün bir kəndlinin, bir hammalın qızını istəyəcəkdir.

Ş ə m s i b ə y. Eybi nədir, istər alaram.

Ş a h b a z b ə y. Eybi coxdur, Şahbaz bəyin gəlini kimin qızıdır. Kəndli Cənnətəlinin?.. Bir özün insaf et, bu mənə yaraşarmı? Onda mən xəcalətimdən məclislərə çıxa bilərəmmi? Taytuşlarımın üzünə baxa bilərəmmi?

Ş ə m s i b ə y. Ata, siz məni öz getdiyiniz yola dəvət edirsiniz, fəqət mən o yol ilə getməyəcəyəm, çünki nəticəsi gözlərimin önündədir.

Ş a h b a z b ə y. Necə? Mən nə fəna iş görmüşəm ki, sən ondan xəcalət çəkirsən?

Ş ə m s i b ə y. Ata, mən istəmirəm ki, ata ilə oğulun arasından pərdə götürülsün. Sizin sualınıza cavab versəm, o pərdə götürüləcəkdir.

Ş a h b a z b ə y. Ananız Həcərxanımın səyi ilə o pərdə, siz övladlarım ilə mənim aramdan çoxdan götürülübdür. Siz məni qapımdakı nökərimcən saymırsınız.

Ş ə m s i b ə y. Təqsir özünüzdədir. O, məzlumə, bədbəxt anamızı nahaq yerə müqəssir edirsiniz.

Ş a h b a z b ə y. Ananız nə üçün bədbəxt olsun? Mən onu hansı xanımdan əskik saxlayıram? Libas almamışam, cavahirat almamışam? Yoxsa, qulluq etməyə xidmətçilər tutmamışam? Hansı şeyi kəsir qoymuşam?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ş ə m s i b ə y. Nəzərinizcə bundan başqa şey qadına lazım deyil?

Ş a h b a z  b ə y. Mən bilmirəm, sən bilirsənsə de.

Ş ə m s i  b ə y. Ümdəsi məhəbbət, sonra ərin gözəl, mehriban rəftarı. Bunların hansı sizdə olubdur? Anamı qız ikən pul gücünə, gözü yaşlı özünüzə zövcə etmişsiniz. Sonra gözəl rəftar ilə könlünü alıb özünüzə rağib etmək əvəzinə, həmin bu evi şərabxanə, çəngixanə edib, onun incə qadınlıq hissini ayaqlarınız altına salıb tapdalamışsınız.

Ş a h b a z  b ə y. Yalan! Bunun hamısı Həcərin düzəltməsidir. Məni sizin nəzərinizdən salıb düşmən etmək fikridir. Sizi məndən uzaqlaşdırmaqdır.

Ş ə m s i  b ə y. Bizi sizdən uzaqlaşdıran anamız deyil, sizin fəna əməlinizdir. Uşaq ikən biz bacı-qardaş sizdən bir mehriban söz eşitmədik. Həmişə evə sərxoş gəlmisən, biz də qorxumuzdan qaçıb otağımızda gizlənmişik. Bədbəxt anamız bizi bağrına basıb biz ilə bahəm göz yaşı tökübdür. Mən deyərdim, ana, dur buradan qaçaq, deyərdi: Bala, haraya qaçaq, adam da öz evindən qaçarmı, bizə nə deyərlər. Yenə səbir etməli. Anamız bizi bu evdə belə saxlayıbdır. Biz böyüdükdə də tutduğunuz binamus əməllərdən xəcalət çəkib, Şahbaz bəyin övladları olduğumuzu gizlətmişik.

Ş a h b a z  b ə y. Sus, nadürüst, daha sən mənim övladım deyilsən, çıx haraya istəyirsən get! Gözümün önündən sürün. (*Şəmsi bəy çıxır.*) Az qalmışam bunların əlindən baş götürüb yenə Firəngistana qacam.

Səfi  bəy daxil olur.

S ə f i  b ə y. Dayı, deyəsən yenə Şəmsi ilə sözləşmisən, çox hirsli gedirdi, mənə də məhəl qoymadı.

Ş a h b a z  b ə y. Gör mənə nə deyir, Şahbaz bəyin övladı olmaqdan xəcalət çəkirəm.

S ə f i b ə y. Odur ki, düşmənimizin oğlu ilə də dostluq edir.

Ş a h b a z  b ə y. Kim ilə?

S ə f i  b ə y. Əlimərdanın oğlu Çingiz ilə.

Ş a h b a z  b ə y. Nə deyirsən. Cingiz odur Rusiyada.

S ə f i  b ə y. Xeyr, Çingiz bir aydır ki, anası, bacısı ilə Piri babanın yanında olur.

Ş a h b a z  b ə y. Səfi, Şəmsi Çingiz ilə dostluq etməz.

S ə f i  b ə y. Çağırın, mənim yanımda özündən soruşun.

Ş a h b a z  b ə y. Xavər, Xavər!



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Xavər daxil olur.

X a v ə r. Nə buyurursan, ağa?
Ş a h b a z  b ə y. Şəmsi bəyi buraya çağır.
X a v ə r. Şəmsi bəy getdi.
S ə f i  b ə y. Zöhrə xanım evdədirmi?
X a v ə r. Bəli, evdədir.
S ə f i  b ə y. Çağır gəlsin.

Xavər gedir.

Ş a h b a z  b ə y. Sən Şəmsini deyirdin, Zöhrəni nə üçün çağırırsan?
S ə f i  b ə y. O da qardaşından geri qalmaz. Dayı, Çingizə bir elə tələ qurmuşam ki, əlimdən qurtarası deyil. Çingiz guya gizlin, hökumətin əleyhinə işləyir. Onu həbs edib tutduracağam, həbsxanaya göndərəcəyəm. Yolda guya qaçırdı deyə güllələdəcəyəm, necə tədbirdir.
Ş a h b a z  b ə y. Çox gözəl tədbirdir. Dayın İlyas bəyin qanını yerdə qoymursan.
Z ö h r ə  x a n ı m (*daxil olur*.) Bibioğlu, xoş gəlmisən.
S ə f i  b ə y. Sağ ol, dayıqızı... Zöhrə, səndon bir şey barəsində məlumat istəyəcəyəm. Rica edirəm düzünü deyəsən, əyləş.

Zöhrə oturur.

Z ö h r ə  x a n ı m. Demək, məndən silist edəcəksiniz.
S ə f i  b ə y. Bəli, buyurunuz görüm, bir ay bundan irəli ananız Həcər xanım, qardaşınız Şəmsi bəy ilə Züleyxa xanımgilə qonaq gedərkən, yoldan dönüb haraya getmişsiniz?
Z ö h r ə  x a n ı m. Piri babagilə.
S ə f i  b ə y. Doğru! Orada kim ilə görüşmüsünüz?
Z ö h r ə  x a n ı m. Piri baba, Yasəmən və qızı Qəmər ilə.
S ə f i  b ə y. Daha kimin ilə?
Z ö h r ə  x a n ı m. Onu deməRəm.
S ə f i  b ə y. Nə üçün?
Z ö h r ə  x a n ı m. Çünki məcburam.
S ə f i  b ə y. Sizi məcbur edən kimdir?
Z ö h r ə  x a n ı m. Mənim vicdanım.
Ş a h b a z  b ə y. Yox, sənin anan Həcər xanım! Mənim düşmənlərim onun dostudur, dostlarım düşməni.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

S ə f i b ə y. Siz demək istəmirsiniz, mən deyirəm. Orada siz, bizim nəslimizin düşməni, quldurbaşı Əlimərdanın oğlu Çingiz ilə görüşmüşsünüz, belədirmi?

Z ö h r ə x a n ı m. Elədir.

S ə f i b ə y. Bəs nə üçün bunu demək istəmirdiniz?

Z ö h r ə x a n ı m. Çünki bu yolda tökülən qanı daha kifayət bilirəm. Ataların ədavətinin övladlarına keçməyini artıq bilirəm.

Ş a h b a z b ə y. Mənim övladlarımın heç birində qeyrət, namus olmadığını da mən bilirəm.

Z ö h r ə x a n ı m. Ata, qeyrət, namus gözləyən şəxs, gərək bu ədavətin binasını qoymayaydı.

Ş a h b a z b ə y. Səsini kəs, Həcərin qızı.

S ə f i b ə y. Dayı, doğru deyirsən, bunların heç birində qeyrət, namus yoxdur. Əmiləri İlyas bəyin qatili Əlimərdanın oğlu ilə dostluq edirlər.

Ş a h b a z b ə y. Bunların belə olmağına yenə də Həcər baisdir.

S ə f i b ə y. Zöhrə, bu səfər ikinizin də təqsirinizdən keçirəm. Bir də Çingiz ilə mülağat etsəniz, məni əfv edəsiniz, onda sizin ilə başqa cür rəftar edəcəyəm, çünki qulluq qohum-əqrəba tanımaz. Zöhrə, onu bil ki, Çingiz hökumətin ziddinə işləyir, mən onu həbs edəcəyəm.

Ş a h b a z b ə y. Sən Gəncədə neçə gün qalacaqsan?

S ə f i b ə y. Üç-dörd gündən artıq qala bilmərəm. Dayı, vaxt keçir, gedək.

Ş a h b a z b ə y. Səfa, Səfa!

S ə f a (*daxil olur.*) Nə buyurursan, ağa?

Ş a h b a z b ə y. Çamadanı götür faytona qoy. (*Səfa götürüb aparır.*) Səfi halımı görürsən, ata bir yerə gedəndə evini oğluna tapşırar. O da olmasa arvadına, qızına. Həcər xanım məni görmək istəmir. Oğul elə, qız belə. Bunlar hamısı dua edirlər ki, mən bu müalicədən şəfa tapıb salamat qayıtmayam.

Z ö h r ə x a n ı m. Ata, sənin azarının xasiyyəti elədir ki, hamını özünə düşmən hesab edirsən. Xeyr, biz istəyirik ki, sən Gəncədən bu azardan sağalıb salamat gələsən, biz də rahat olaq.

S ə f i b ə y. Dayı qızı doğru deyir, sən əsəbi məcazsan. İnşallah Gəncədən sağalıb gələrsən, bu qara fikirlər də başından çıxıb gedər.

Ş a h b a z b ə y. Yenə ümidim sən qızımadır. Xudahafiz. (*Onu öpür.*)



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

S ə f i  b ə y. Dayıqızı, xudahafiz.

Z ö h r ə  x a n ı m. Xudahafiz, yaxşı yol.

Şahbaz bəy və Səfi bəy gedirlər.

Z ö h r ə  x a n ı m (*yalnız*). Ah... Çingiz, sevgilim, nə üçün mənə qulaq asmadın. Nə üçün məni də, özünü də bəlaya saldın. A... h... səni tutacaqlar, sənə min əziyyət verəcəklər, zindana salacaqlar... Yox, yox, qoymaram, səni cəlladların əlindən alaram... Ya sənlə bir yerdə həbsxanaya gedərəm... Sənsiz mənə dirilik yoxdur.

H ə c ə r  x a n ı m (*daxil olur*.) Zöhrə, Səfi bəy səni niyə çağırmışdı?

Z ö h r ə  x a n ı m. Səfi bəy məndən silist edirdi.

H ə c ə r  x a n ı m. Nə barədə?

Z ö h r ə  x a n ı m. Bizim Çingizlə görüşməyimiz ona məlum olmuşdur.

H ə c ə r  x a n ı m. Nə deyirsən, onu haradan bilmiş?

Z ö h r ə  x a n ı m. Bilmirəm, o barədə bir söz demədi. Çingizi həbs etmək istəyir.

H ə c ə r  x a n ı m. Nə səbəbə?

Z ö h r ə x a n ı m. Səfi bəyin deməyinə görə guya Çingiz hökumət əleyhinə işləyir. Amma mən buna inanmıram. Bu hiylə ilə onu tələf etmək istəyir.

H ə c ə r  x a n ı m. Ah, bu nə pis xəbər. Tezliklə Çingizə xəbər verib qaçırmaq lazımdır.

Z ö h r ə  x a n ı m. Mən də o fikirdəyəm, ancaq nə yol ilə.

H ə c ə r  x a n ı m. Əhvalatı Qəmərə yaz, o da Çingizi qaçırsın.

Z ö h r ə  x a n ı m. Xeyr, məktubla xəbər vermək qorxuludur, başqa yol aramalı.

H ə c ə r  x a n ı m. Başqa nə yol var. Onda gərək birimiz gedək. O da qorxuludur.

Z ö h r ə x a n ı m. Qorxulu olsa da məktubdan bu yaxşıdır. O səfərki kimi Züleyxa xalama qonaq getmək bəhanəsi ilə dönüb məlum etmək lazımdır.

H ə c ə r  x a n ı m. İndicə atan yola düşdü. Bizdə onun dalınca getsək şübhəyə düşərlər.

Z ö h r ə  x a n ı m. Doğru deyirsən. Ona görə sən evdə qal, mən Şəmsi ilə sabah gedərəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

H ə c ə r x a n ı m. Qorxuram ona kimi Çingizi tutalar.

Z ö h r ə x a n ı m. Səfi bəyin Gəncədən qayıtması beş-altı gün çəkər.

H ə c ə r x a n ı m. Onda qoy Şəmsi getsin, sənin getməyin artıqdır.

Z ö h r ə x a n ı m. Yox, ana, mən gərək gedəm, Şəmsi bacarmaz. Çingiz ona inanmaz. Mən olsam, Qəmər ilə köməkləşib onu inandırarıq və qaçırdarıq.

H ə c ə r x a n ı m. Yaxşı deyirsən, sənin getməyin vacibdir.

Şəmsi bəy ovçu libasında, əlində tüfəng, dalınca Səfa daxil olurlar.

Ş ə m s i b ə y. Ana, iki günə Züleyxa xalama qonaq gedirəm, izin ver Səfa faytonu qoşub məni aparsın.

H ə c ə r x a n ı m. İndi atan getdi, sən də getmək istəyirsən, bəs evdə kim qalsın?

Ş ə m s i b ə y. Bəs sən və Zöhrə nədir?

H ə c ə r x a n ı m. Biz arvadıq, evi kişisiz qoymaq olarmı?

Ş ə m s i b ə y. Ana, sənə söz verirəm ki, iki gündən artıq qalmayam. İndi əhvalım çox pərişandır, havamı dəyişmək istəyirəm.

H ə c ə r x a n ı m. Onda səbir et, Zöhrə də gedəcəkdir, xalan istəyibdir, onunla gedərsiniz.

Heydərqulu daxil olur.

H ə c ə r x a n ı m. Heydərqulu, nə var, xeyir ola?

H e y d ə r q u l u. İnşallah xeyirdir, ancaq Züleyxa xanım bir az naxoşdur, məni göndərdi ki, sizi aparam.

Z ö h r ə x a n ı m. Ana, biz də gedəcəyik?

H e y d ə r q u l u. Xanım dedi ki, uşaqları da gətirsin.

H ə c ə r x a n ı m. Heydərqulu, düzünü de, yoxsa xalam bərk naxoşdur?

H e y d ə r q u l u. Xeyr, xanım, başınız üçün qorxusu yoxdur, həkim gəlmişdi, dedi soyuq dəyibdir. Üç-dörd günə sağalıb duracaqdır.

H ə c ə r x a n ı m. Səfa, tez faytonu qoş.

H e y d ə r q u l u. Lazım deyil, Züleyxa xanımın faytonunu gətirmişəm, gecə gəlib çıxdım, karvansarada açdım.

H ə c ə r x a n ı m. Onda sən get, tez faytonu qoş gətir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

H e y d ə r q u l u. Baş üstə.

H ə c ə r x a n ı m. Heydərqulu, axşama düşmərik ki?

H e y d ə r q u l u. Xeyr, xanım, axşama beş saat qalmış orada olacağıq. Faytona dörd at qoşmuşam, ancaq yarım saatlıq Piri babagilə dönəcəyəm. Xanım üçün göyərti aparacağam.

H ə c ə r x a n ı m. Çox yaxşı. Get. (*Heydərqulu gedir*.) Səfa evi sənin ümidinə qoyuram, yaxşı muğayat ol.

S ə f a. Arxayın ol, xanım.

H ə c ə r x a n ı m. Get Xavərə də bizim üçün dəyişəcək hazır etsin.

Səfa gedir.

Ş ə m s i b ə y. Ana, bu çox yaxşı otdu, hərgah bu gün özümüzü Piri babaya yetirməsək, Çingizi tutacaqlar.

Z ö h r ə x a n ı m. Onu sənə kim dedi?

Ş ə m s i b ə y. Səfi bəy.

H ə c ə r x a n ı m. Səfi bəy ilə sən haçan görüşdün?

Ş ə m s i b ə y. Bir az bundan İrəli.

Z ö h r ə x a n ı m. Nə deyirsən, Səfi bəy atam ilə Gəncəyə getmədimi?

Ş ə m s i b ə y. Xeyr, Səfi bəy Gəncədən kağız aldı, oxuyandan sonra qalmalı oldu. Atam tək getdi.

H ə c ə r x a n ı m. Səfi bəy sənlə daha nə danışdı?

Ş ə m s i b ə y. Mənə böyük divan qurmuşdu. Dedi: Zöhrə ilə də danışmışam. Mən əhvalatı necə olmuşdur tamamilə nağıl etdim. Hətta Çingiz ilə sözləşdiyimi də ondan gizlətmədim. Dedim, hərgah mən biləydim ki, Çingiz oradadır, heç vaxtı Piri babagilə getməzdim. Mən səy edirdim ki, onu inandırım ki, firini açdırım. Məni tərif edib dedi: Mən bilirəm ki, sən qeyrətli oğlansan, bizi bacın Zöhrə kimi düşmənə satmazsan.

H e y d ə r q u l u (*daxil olur*.) Fayton hazırdır.

H ə c ə r x a n ı m. Uşaqlar, gedək.

Gedirlər.

**Pərdə**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# DÖRDÜNCÜ PƏRDƏ

Səhnə birinci pərdənin mənzərəsini göstərir. Həyətdə skamyanın qarşısında bir masa, üstündə bir neçə kitab. Qəmər kitabların şəklinə baxarkən gözünə bir məktub sataşır.

Q ə m ə r (*məktubu əlinə götürüb*). Bu Zöhrənin xəttinə oxşayır. Yox, səhv edirəm, Zöhrə Çingizə məktub yazmaz. Qoy açıb oxuyum, onda məlum olar. Yox, özgənin məktubunu oxumaq qəbih şeydir. Qoy başını açıb oxuyum, onda məlum olar, dalını oxumaram. (*Məktubu paketdən çıxarıb oxuyur.*) "Ey qəlbimin sultanı, sevgili Çingizim!" Paho, qəlbimin sultanı, sevgili, bu məktubdan ətir iyi gəlir. Gərək oxuyam. (*Oxuyur.*) "Tam bir aydır ki, nə gecə, nə gündüz bir an xəyalımdan çıxmırsan. Ah, hicran atəşi, məni yaxıb yandırır. Çingizim, dəxi səbir edə bilmirəm, məhəbbətin uğrunda şam tək əriyən, eşqindən məcnun olan Zöhrəyə rəhmin gəlisin". Hə, doğrudan da yazan Zöhrə imiş. Ey bivəfa Zöhrə, bəs sən mənlə belə dost imişsən? Mənə bir çox məktub yazmışsan, heç birində işarə edə bilməmisən. İndi sirrini məndən bərk saxla. Başa düşdüm ki, Zöhrəni şair edən nə imiş. Çingizə ah çəkdirən nə imiş. (*Məktubu gizlədib kağız yazır.*) Zöhrə xanım, məktubu belə yazarlar, özü də şeir ilə.

Y a s ə m ə n (*içəridən*). Qəmər, Qəmər!

Q ə m ə r. Gəlirəm.

Gedir, Çingiz otaqdan çıxır, masaya tərəf gəlir, Qəmərin yazdığı kağızı əlinə götürür.

Ç i n g i z. Bunu kim yazmış. Qəmərin xəttinə oxşayır. Görüm bacım nə yazıb. Deyəsən şeirdir. (*Oxuyur.*)

Ey gərdişi ədalı Şəmsi,
Ey fəzanın nazlı sultanı.
Kainatı şad edən sənsən,
Cahana nur verən sənsən.
Ziyan ilə yaşar.
Qəmə mübtəla Qəmər.

Ha-ha-ha...

Qəmər daldan gəlib kağızı onun əlindən dartıb alır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Q ə m ə r. Başqasının məktubunu oxumaq qəbih şeydir. Belədirmi, bəradərim Çingiz?

Ç i n g i z. Elədir, bacım Qəmər.

Q ə m ə r. Bəs nə üçün oxuyursunuz?

Ç i n g i z. Çünki məktub deyil, şeirdir. Şair şeir yazır ki, insanlar onu oxuyub ləzzət aparsınlar, hissləri incələnib zərif olsun. Bacım Qəmər, bu şeirlərlə sən ədəbiyyatımızda yeni bir cığır açırsan. Daha bundan sonra şeirdə nə qafiyə, nə məna lazım deyil.

Q ə m ə r.  Necə? Mənim şeirimdə məna yoxdur?

Ç i n g i z. Mən ki tapa bilmirəm. Bəlkə, özünüz o pünhan mənanı izhar edəsiniz.

Q ə m ə r. Ey qəlbimin sultanı Çingiz, Qəmərin şeirinin mənasını anlamağa sən hələ xamsan, püxtə olmağa çox səfər gərək...

Ç i n g i z. Qəmər!

Q ə m ə r. Bəli.

Ç i n g i z. Gözlərimə bax.

Q ə m ə r (*onun gözlərinə baxarkən*). Ah, bəradərimin gözləri nə gözəldir. Şahin baxışlı. İndi o gözlərdə bir iztirab, bir həyəcan görünür. Fəqət gülümsünəndə başqa lətafət, basqa məlahət... Ey bu gözlərə aşiq olan parlaq ulduz, Qəmər sənə həsəd aparır.

Ç i n g i z. Ha-ha-ha...

Q ə m ə r. Bax belə, yoxsa qaşqabağını tökəndə üzün Cəbi lələnin gülümsəməsinə bənzəyir.

Ç i n g i z. Qəmər, güldürdüyün yetər, bir az da səndən böyük qardaşını dinlə.

Q ə m ə r. Oy, məndən nə çox böyüksən, heç hesab edə bilməyəcəyəm. Sən məndən min səkkiz yüz saniyə böyüksən.

Ç i n g i z. Ha-ha-ha... Qəmər bu gün mən sənlə bacarmayacağam. Ona görə rica edirəm bəndənizi əfv edəsiniz, buradan təşrif aparasınız. Mənə dərs oxumağa mane olmayasınız.

Q ə m ə r. Çingiz, daha zarafatı buraxdım.

Ç i n g i z. Qəmər, bir neçə vaxtdan bəri mən səndə təğyir görürəm.

Q ə m ə r. Məsələn...

Ç i n g i z. Məsələn, irəlilərdə sən məndən heç bir şeyi gizlətməzdin, ürəyində nə olsa açıb mənə söyləyərdin. Məndən gizlin bir sirrin olmazdı, indi isə onu görmürəm.

Q ə m ə r. Mən də səndə təğyir görürəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ç i n g i z. Məsetən...

Q ə m ə r. Məsələn, bir neçə vaxtdan bəri sən hər axşam bu skamyada əyləşib saatlarca üfüqün şərq cəhətindən zühur edən bir parlaq ulduza tamaşa edirsən.

Ç i n g i z. Elə bu?

Q ə m ə r. Bəli, elə bu!

Ç i n g i z. Mənim ulduza baxmağımda sən nə sirr görürsən?

Q ə m ə r. Göydə ulduz çoxdur. Nə üçün sən ancaq o ulduza baxırsan?

Ç i n g i z. Çünki o ulduz qeyrilərindən parlaqdır. Mən onu çox sevirəm.

Q ə m ə r. Elə mən də bunu bitmək istəyirdim. O ulduzun adı nədir?

Ç i n g i z. Çoban ulduzu deyirlər, dan ulduzu deyirlər.

Q ə m ə r. Daha adı yoxdur?

Ç i n g i z. Qədim yunanlar o ulduzu eşq və hüsn ilahiyyəsi sanırdılar, adına da Diana deyirdilər.

Q ə m ə r. Bəs, ərəblər o ulduza nə deyirlər?

Ç i n g i z. Bilmirəm, gərək ki... Zöhrə.

Q ə m ə r. Ha-ha-na... gərək ki... Zöhrə.

Ç i n g i z (*acıqlı*). Çəkil!

Q ə m ə r. Gedirəm, gedirəm acığın tutmasın.

Bir az gedib dayanır. Çingiz başını əlləri ilə tutub fikrə gedir. Qəmər gizli daldan onun boynunu qucaqlayıb saçlarından öpür, qaçır.

Ç i n g i z. Qəmər. (*Qalxıb otağına gedir.*)

Q ə m ə r (*yalnız*). Ey zavallı qardaşım, görürəm, aslan ürəyini eşq atəşi yandırır. Söndürmək istəyirsən fəqət bacarmırsan. Çünki atəş bütün vücudunu almış, damarlarına yerimiş. Görürəm, müşkülat çox, sevdiyin düşmən qızı, sən bir rəiyyət oğlu, o bir ağa qızı. Ah! Bilirsənmi Çingizim, bacın Qəmər də Şəms oduna yanır.

Yasəmən və Piri baba komadan çıxırlar.

Y a s ə m ə n. Qəmər, Çingiz hanı? Bizimlə gedirmi?

Q ə m ə r. Bilmirəm, getsə yaxşı olardı, kefi açılardı.

P i r i b a b a. Əlbəttə, yaxşı olardı, yoxsa səhərdən axşama kimi kitabdan əl çəkmir.

Y a s ə m ə n. Çingiz.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Çingiz otaqdan çıxır.

Ç i n g i z. Ana, mən gedə bilməyəcəyəm. Yoldaşım gələcəkdir, onu gözləyirəm.

Q ə m ə r. Ana, yalan deyir, getmək istəmir, yoldaşını bəhanə gətirir.

Ç i n g i z. Qəmər, indi də məni yalançı edirsən? Çox sağ ol. Mən səni belə bivəfa bacı bilmirdim. Get, get...

Q ə m ə r (*əlindən tutub*). Yox, yox, mən bivəfa bacı deyiləm. Şəms ilə Qəmər altında mənim tək bacı tapa bilməzsən.

Ç i n g i z. Bu gün Şəms ilə Qəmər dilindən düşməyir. Bu nə sirdir?

Q ə m ə r. Çünki... xudahafiz. Ana, gedək.

Gedirlər.

P i r i b a b a. Ay oğul, bir belə nə oxuyursan?

Ç i n g i z. Piri baba, tibb çox çətin elmdir, gərək həmişə mütaliə edəsən.

P i r i  b a b a. Həkimlik çətin isə də gözəl sənətdir. İnsanlara böyük xidmət edir.

Ç i n g i z. Piri baba, mənim fikrim odur ki, həkimliyi qurtarandan sonra gəlib kənddə oturam, kəndlilərə kömək edəm.

P i r i b ab a. Çox gözəl fikirdir, allah sənə tövfiq versin.

Bu halda Həcər xanım, Şəmsi  bəy, Zöhrə  xanım və Heydərqulu daxil olurlar.

P i r i  b a b a. Həcər xanım, çox xoş gəlmisiniz, səfa gətirmisiniz, buyurunuz, buyurunuz...

Çingiz onlara əl verir.

H ə c ə r  x a n ı m. Bəs Yasəmən və Qəmər hanı?

Ç i n g i z. Onlar indicə meşəyə gəzməyə getdilər.

H ə c ə r  x a n ı m. Oğlum, bəs sən nə üçün getməmisən?

Ç i n g i z. Mən məktəb yoldaşım Fərmanı gözləyirəm, onunla dərslərimizi mütaliə edəcəyik.

Ş ə m s i  b ə y. Ana, mən də meşəyə gedirəm.

H ə c ə r  x a n ı m. Get, Yasəməngilə də xəbər et gəlsinlər. Vaxt yoxdur, tez gedəcəyik.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şəmsi bəy gedir.

P i r i b a b a. Niyə o səfərki kimi tələsirsiniz?

H ə c ə r x a n ı m. Xalam naxoşdur, Heydərqulu bizim dalımızca göndəribdir.

P i r i b a b a. Allah şəfa versin. Heydərqulu, Züleyxa xanımın naxoşluğu nədir?

H e y d ə r q u l u. Soyuq dəymədir, qorxusu yoxdur. Piri baba, xanım mənə göyərti tapmışdır.

P i r i b a b a. Get xanıma nə lazımdır yığ.

Heydərqulu gedir.

H ə c ə r x a n ı m. Piri baba, içəri gedək, sizə deməli sözüm var.

Komaya girirlər.

Z ö h r ə (*Çingizin əlindən tutub*). Çingiz, səni döymək lazımdır.

Ç i n g i z. Döy.

Z ö h r ə. Səni sevmək lazımdır.

Ç i n g i z. Sev.

Z ö h r ə. Bəs sən.

Ç i n g i z. Əfsus ki, mən də sevirəm.

Z ö h r ə. Nə üçün əfsus, Çingiz, məhəbbət bir elə dövlət, bir elə nemətdir ki, allah onu ən bəyəndiyi dostuna bəxş edər.

Ç i n g i z. Görünür ki, mən onun dostu deyiləm. Dosta bir belə bəla, cəfa vermək rəvadırmı?

Z ö h r ə. Çingiz, bəlanı, cəfanı özünə, sən özün çəkdirirsən. Nə üçün mənim kimi ürəyinin dalınca getmirsən?

Ç i n g i z. Çünki mane olan səbəb çoxdur.

Z ö h r ə. Bilirəm, yenə deyəcəksən sən düşmənimiz Şahbaz bəyin qızısan. Sən bir bəy qızı, mən bir rəiyyət oğlu. Çingiz, məhəbbət aləmində bəy, gəda yoxdur, mən səni sevirəm, sən də məni. Başqaları bizə nə lazımdır? Mən məhəbbət uğrunda hər şeydən keçirəm. Mən səninlə haraya istəyirsən getməyə hazıram. Bir başqa ölkəyə gedək, orada bəxtiyar yaşayaq.

Ç i n g i z. Zöhrə, nə demək istəyirsən?

Z ö h r ə. Onu demək istəyirəm ki, bu gün səni həbs edecəklər, gəlmişəm səni xəbərdar edəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ç i n g i z. Məni kim həbs edəcəkdir?

Z ö h r ə. Qəza naziri Səfi bəy.

Ç i n g i z. Səfi bəy məni nədə müqəssir edir?

Z ö h r ə. Guya sən hökumətin əleyhinə işləyirsən.

Ç i n g i z. A... bu hiylə ilə Səfi bəy məni tələf etmək istəyir. Sən bunu kimdən eşitmisən?

Z ö h r ə. Səfi bəy özü dedi. Keçən səfər buraya gəlməyimiz ona məlum olmuşdur. Məndən və Şəmsidən böyük silist etdi və tapşırdı ki, sənlə əlaqə etməyək, əks halda bizi də həbs edəcəkdir. İndi gəlmişik səni xəbərdar edib qaçırdaq.

Ç i n g i z. Zöhrə, sizin bu fədakarlığı ölənə kimi unutmaram. Ələlxüsus Şəmsi bəyi, onda siz buradan tez gedin, yoxsa fəlakətə düşərsiniz.

Z ö h r ə. Anamgil getsin, mən getməyəcəyəm.

Ç i n g i z. Nə üçün?

Z ö h r ə. Ah, Çingiz... görünür, sən mənim məhəbbətimə inanmırsan, inansaydın bu sualı mənə verməzdin. Sən fəlakətə düşdükdə, mən kənardanmı baxım?

Ç i n g i z. Zöhrə, ağıllı ol, elə iş etmə, nahaq yerə özünü bəlaya salma.

Z ö h r ə. Aqil olub qorxaqlartək canımı salamat saxlamaqdan, eşq cünunu olub sevgilim ilə hebsxanaya düşməyi daha əfzəl bilirəm.

Ç i n g i z. Zöhrəm, ey parlaq ulduzum, sənə and içirəm ki, əgər bu bəladan xilas olaramsa, sənin arzunu yerinə yetirərəm.

Şəmsi bəy, Qəmər və Yasəmən daxil olurlar. Qəmər Çingizin boynunu qucaqlayıb ağlayır.

Ç i n g i z. Ay dəli bacım, nə üçün ağlayırsan?

Q ə m ə r. Ah, səni tutmaq istəyirlər, zindana salmaq istəyirlər. Yox, yox, qoymaram. Səni heç kəsə vermərəm.

Ç i n g i z. Qəmər, sakit ol, görürsən qardaşını nə tutublar və nə də həbsxanaya salıblar.

Y a s ə m ə n. Çingiz, əhvalatı bilirsənmi?

Ç i n g i z. Bilirəm, Zöhrə xanım söyləyibdir.

Q ə m ə r (*Zöhrə xanımı öpərkən*). Zöhrə, bizə etdiyin yaxşılığı ölənə kimi unutmaram.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Y a s ə m ə n. Bəs, Həcər xanım hanı?
Z ö h r ə. İçəridə Piri babanın yanındadır.

Yasəmən içəri girir.

Ç i n g i z. Şəmsi bəy, bu gün siz bir yaxşı insan olduğunuzu mənə sübut etdiniz. Düşmənə yaxşılıq etmək hər kişinin işi deyil.
Ş ə m s i  b ə y. Mən özümü sizə düşmən hesab etmirəm və səy edirəm ki, atalarımızın ədavəti biz övladlarına keçməsin.
Ç i n g i z. Mən də o fikirdəyəm.

Piri  baba, Yasəmən və Həcər xanım komadan çıxırlar.

H ə c ə r  x a n ı m. Oğlum, Çingiz, biz qocalar belə qət etdik ki, səni özümüz ilə aparaq.
Z ö h r ə. Çox gözəl fikirdir.
Ş ə m s i b ə y. Ondan başqa çarəsi yoxdur.
Ç i n g i z. Mənim barəmdə etdiyiniz fədakarlıqdan artıqca məmnum olub təşəkkür edirəm. Fəqət məni əfv ediniz, təklifinizi rədd etməyə məcburam.
H ə c ə r  x a n ı m. Nə üçün?
Ç i n g i z. Çünki sizləri də fəlakətə salmaq istəmirəm. Bu saat mənim yoldaşım Fərman gələcəkdir. O, Kiyevə qayıtmaq istəyir, mən də onunla gedərəm. Yoxsa burada qalsam, məni arayıb taparlar.
P i r i  b a b a. Çingizin fikrini mən də bəyənirəm. Siz, Həcər xanım, tez gedin, burada olmağınız açılmasın.
H ə c ə r  x a n ı m. Onda, uşaqlar, gedək.
Z ö h r ə x a n ı m. Ana, mən Qəməri tək qoymaq istəmirəm. İzin ver, bu gecə burada qalım.
H ə c ə r  x a n ı m. Yox, izin verə bilmərəm, Çingiz gedəndən sonra gəlib nə qədər istəsən qalarsan.

Heydərqulu daxil olur.

H e y d ə r q u l u. Həcər xanım, gedək, yoxsa Züleyxa xanım təşvişə düşəcək ki, nə üçün gec gəldilər.
H ə c ə r  x a n ı m. Gedək. Salamat qalınız, allah sizə yar olsun.
P i r i  b a b a. Allah sizdən razı olsun, mən qocanı yaddan çıxarmırsınız.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Zöhrə Qəməri qucaqlayıb ağlayır.

Q ə m ə r. Qəm etmə, inşallah yenə görüşəcəyik. Şəmsi bəy (*Qəmər əvəzinə Zöhrəyə əl verib*). Qəmər bəyim, xudahafiz.

Q ə m ə r. Ha-ha-ha...

Y a s ə m ə n. Yenə nəyə gülürsən, a dəli qız?

Q ə m ə r. Necə gülməyim, Şəmsi bəy Zöhrəyə əl verib deyir: Qəmər bəyim xudahafiz.

Gülüşürlər.

P i r i b a b a. Qəmər yaxşı etdi ki, bizi güldürdü. Səfərə gedəni gülərüzlə yola salmalı.

H ə c ə r x a n ı m. Xudahafiz.

Gedirlər.

Ç i n g i z. Qəmər, cəld çamadanı içəridən gətir, kitablarımı qoy, camaşırlarımı gətir.

Qəmər gedib gətirir.

Y a s ə m ə n. Anan ölsün, zalımlar səni qoymadılar bu üç ay yayı rahat yeyib-içib, gəzəsən.

Ç i n g i z. Qəm etmə, ana, bu gün-sabah həkim olub gələcəyəm və sizləri götürüb başqa bir şəhərdə təbiblik edəcəyəm. Qəmər, kitabları altdan qoy, camaşırları üstdən.

Səfi bəy iki strajnik ilə daxil olur.

Y a s ə m ə n. Uy, bizdən nə istəyirsiniz, niyə gəlmisiniz?

S ə f i b ə y. Bu quldur yuvası dağıtmağa gəlmişəm. Bunu mən gərək, iyirmi il bundan əqdəm edəydim.

P i r i b a b a. Onda edə bilməzdin, çünki Əlimərdan sağ idi.

S ə f i b ə y. İndi oğlunu da onun yanına göndərərəm.

Ç i n g i z. Səfi bəy, küy-qalmaqal edib nə üçün arvadları qorxudursan? Nəyə gəlmisiniz?

S ə f i b ə y. Onu həbsxanada bilərsən. Qaçmağa hazır olmağından görünür mənim gəlməyimi sənə məlum etmişlər. Piri kişi, siz ilə işim sonradır. Çingizi alın.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Y a s ə m ə n (*Səfi bəyin qabağında diz üstə çökür.*) Səfi bəy, məni balalarının başına çevir, oğlumu əlimdən alma.

Ç i ng i z. Ana, qalx, belə alçaqların önündə diz üstə çökmə.

Strajniklər Çingizi araya alırlar. Qəmər Çingizdən yapışır.

Q ə m ə r. Qoymaram.

S ə f i  b ə y. Əllərinə qandal vurun.

Qəmər Çingizin əllərindən tutur.

Q ə m ə r. Qoymaram.

Ç i n g i z. Bacım, sakit ol, qoy vursunlar.

Q ə m ə r. Səfi bəy, məni qardaşım ilə bərabər zindana apar.

S ə f i  b ə y. Əlimərdandan törəyən ya quldur olar, ya üsyançı. Səbir et, sən də oraya gedəcəksən, anan da, bu Piri baban da.

P i r i  b a b a. Qəmər, Yasəmən, Çingiz, belə şəxsə yalvarmaq lazım deyil. Səfi bəy, fələyin işini bilmək olmaz, bu günkü şad sabah ağlar. Bu günkü hökm edən baş, sabah ayaqlar altında tapdalanar.

S ə f i b ə y. Sus, qoca kaftar, yoxsa o ayaqlar altında tapdalanan baş, öz başın olacaqdır.

Y a s ə m ə n (*Çingizin boynunu qucaqlayaraq*). Oğlum, kaş anan kor olaydı, səni qolu bağlı görməyəydi.

Çingizi aparırlar.

Ç i n g i z. Qəmər haraya gəlirsən?

Q ə m ə r. Mən də səninlə gedirəm.

Ç i n g i z. Bacım, qayıt.

P i r i  b a b a gedib onu qucaqlayıb qoymayır. Səfi bəygil qapıdan çıxıb gedirlər.

Q ə m ə r (*qışqırır.*) Baba burax, yoxsa özümü öldürərəm.

P i r i b a b a. Yasəmən, gəl qızını qoyma, mən bacarmıram.

Y a s ə m ə n. Qızım, sakit ol, allah kərimdir, qardaşın tezliklə qurtaracaqdır.

Qəmərin ürəyi bitab olur, Yasəmən üzünə su çırpır.

C ə b i (*daxil olur.*) Qəmərə nə olmuş?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Y a s ə m ə n. Cəbi, Çingizi Səfi bəy tutub həbsxanaya apardı.

C ə b i. Nə deyirsən, çoxdanmı getdilər?

Y a s ə m ə n. Elə indicə.

C ə b i. Bu saat Çingizi burada görərsiniz. Mən getdim. (*Cəld qapıdan çıxır*.)

Q ə m ə r (*zəif səslə*). Ana, Cəbi lələ nə deyirdi.

Y a s ə m ə n. Cəbi getdi, dedi ki, Çingizi bu saat gətirəcəyəm.

P i r i  b a b a. Özünü nahaq yerə ölümə verəcəkdir. Bir tək Cəbi üç misəlləh adamın əlindən dustaqmı ala bilər?!

Y a s ə m ə n. Cəbi Çingizi çox istəyir. Doğrudan da onun xilası üçün özünü ölümə verecəkdir.

Q ə m ə r. Cəbi ləlləni mən də çox istəyirəm. Ürəyi çox nazik insandır. Bizim cümləmizi çox istəyir.

Bu halda bir neçə tüfəng açılır.

Y a s ə m ə n. Aman, ya rəbb, bu güllələri Cəbi lələyə atdılarmı?

Q ə m ə r. Yazıq lələ, səni cəlladlar öldürdülərmi?

P i r i  b a b a. Demədimmi nahaq yerə özünü güdaza verəcəkdir, qoy gedim görüm necə oldu?

Q ə m ə r. Yox, baba, qoymaram, səni də öldürərlər.

P i r i  b a b a. Mənim diri qalmağımdan nə fayda var. Cavanları gora göndərib mənmi sağ qalacağam?

Y a s ə m ə n. Piri baba, biz iki arvadı pənahsızmı qoymaq istəyirsən?

Q ə m ə r. Ah!..Bu çərxi-fələk biz zavallıdan nə istəyir? (*Ağlayır*.)

Bu halda Əlimərdan çiynində tüfəng, düşündə iki qatar patrondaş daxil olur.

Y a s ə m ə n (*cəld qalxıb ona tərəf gedir*.) Sən... Kimsən?..

Ə l i m ə r d a n. Kürdqızı, məni tanımırsan?

Y a s ə m ə n (*qışqırıb onun üstünə atılır*.) Əlimərdan!

P i r i  b a b a. Yasəmən nə deyirsən? Ölü də dirilərmi?

Ə l i m ə r d a n. Əmi ölü dirilməz, Əlimərdan dirilər.

P i r i  b a b a (*onu qucaqlayıb öpür*.) Əlimərdan, gör Qəmərin nə gözəl qız olmuş.

Ə l i m ə r d a n (*onu öpərkən*). On beş ildir ki, sizdən ayrılmışam. Qızım, mənsiz gününüz necə keçir, düşmənlərim sənə sataşmamışlar ki?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Q ə m ə r. Ata, Çingizin bacısına sataşmaq olmaz. Ah, ata, kaş bir az tez gəlmiş olaydın, Çingizimi məğrur düşmənin əlindən alaydın.

Ə l i m ə r d a n. Qəm etmə, qızım, məğrur düşmən cəzasına çatdı. Qardaşın bu saat gələr.

Çingiz, İbad və Cəbi  lələ daxil olur.

Q ə m ə r. Çingiz gəldi (*gedib boynunu qucaqlayır*.)

İ b a d. Qəmər, məni tanımırsan?

Q ə m ə r. Ah, İbad dayım. (*Onu qucaqlayır*.)

Y a s ə m ə n. İbad, qardaşım! (*Boynunu qucaqlayıb ağlayır*.)

İ b a d. Bacım, nə üçün ağlayırsan?

Y a s ə m ə n. Necə ağlamayım. Sizin ikinizin də ölüm xəbəri gəlmişdi. İndi bizim üçün yenidən dünyaya gəlmisiniz.

İ b a d. Bacım o sizə yalan xəbəri çıxaran Səfi bəy də, bizi bu bəlalara salan Şahbaz bəy də cazalarını aldılar. Bacım, görməli idin Şahbaz bəy necə ayaqlarıma düşüb yalvarırdı ki, məni öldürmə, onsuz da mən bidərman azara düşmüşəm, bu gün sabah öləcəyəm. Dedim, onda qoy səni bu əziyyətdən xilas edim. Tüfəngimin beş gülləsini də onun ürəyinə boşaltdım. Ruhun şad olsun, ey qeyrətli nişanlım Qəmər, İbad intiqamını düşməndən aldı.

Ç i n g i z. Qəmər, hərgah Cəbi lələ tez atamgilə xəbər verməsəydi, indi məni burada sağ görməyəcəydin.

Q ə m ə r. Sağ olsun, Cəbi lələ.

P i r i  b a b a. Məgər sizin gəlməyinizi Cəbi bilirdi?

İ b a d. Bilirdi, ancaq Əlimərdan tapşırmışdı ki, hələ xəbər verməsin.

Ə l i m ə r d a n. Topal, al bunu! (*Pul verir.*)

C ə b i. Sağ ol, sahib.

Ə l i m ə r d a n. Kürd qızı, mən gəlmişəm sizi aparmağa, tez ol hazırlaş, bu ittifaqdan sonra sizi burada qoymaq olmaz.

Y a s ə m ə n. Bizi haraya aparacaqsan?

Ə l i m ə r d a n. İrana, Arazın o tayına. Yoldaşlarım bu saat bizi meşədə gözləyirlər. Gərək sübh açılınca İran torpağında olaq. Daha durma, cəld ol! Bir dost paltardan və dəyişəcəkdən savayı heç bir zad götürmə. Uşaqlar, siz də gedin üst paltarlarınızı götürün.

Çingiz və Qəmər gedirlər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İ b a d. Piri baba, sən də hazır ol.

P i r i  b a b a. Mən bu sinnimdə hara gedib çıxaram.

İ b a d. Piri baba, qorxuram sənə əziyyət verələr.

Ə l i m ə r d a n. Mənim qorxumdan heç kəs əmimə əziyyət verə bilməz, ancaq uşaqlar gedirlər, ona burada kim qulluq edəcəkdir.

P i r i b ab a. Oğlum, Cəbini də aparırsan?

Ə l i m ə r d a n. Yox, Cəbi burada qalacaqdır.

P i r i  b a b a. Onda məndən arxayın ol.

Ə l i m ə r d a n. Əmi, qorxma. Uşaqlan İranda qoyub özüm dəstəm ilə bu taya keçəcəyəm. Mənim hənirtim gələn yerdə heç kəs cürət edib sənə yaxın düşə bilməz. (*Yasəmən, Çingiz və Qəmər gəlirlər.*) Daha durmayın, gedək.

Cəbi  lələ əlində bir dəsmal xiyar gəlir.

Ə l i m ə r d a n. Topal, o nədir?

C ə b i. Xiyardır, sahib, uşaqlara yığmışam, yola götürsünlər.

Q ə m ə r. Sağ ol, Cəbi lələ, bax, Piri babadan muğayat ol.

Ə l i m ə r d a n. Daha durmayın, gedək! Topal, şeylərdən götür. Əmi, xudahafiz, qəm etmə, yenə görüşəcəyik.

Piri baba ilə xudahafizləşib gedirlər.

P i r i b a b a (*yalqız*). Komanın bülbülləri uçub getdi.

**Pərdə**

## BEŞİNCİ PƏRDƏ

## BİRİNCİ ŞƏKİL

Dördüncü pərdədən üç il keçmişdir. Səhnə meşə içində bir bulaq göstərir. Pərdə qalxdıqda Şəmsi  bəy, Qəmər, Zöhrə xanım və Cəbi görünür.

Q ə m ə r. Seyrə çıxanın cümləsi gərək işləsin. Şəmsi, belədirmi?

Ş ə m s i. Bəli, elədir.

Q ə m ə r. Onda diniəyin, hər birinizin vəzifəsini deyim: sən, Zöhrə, burada qalıb süfrəni hazır edəcəksən, əti kabablıq doğrayıb, duzlayacaqsan...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Z ö h r ə. Əti mən tək necə doğrayacağam?

Q ə m ə r. A Zöhrə xanım, deyək ki, gimnaziyada sənə qayğanaq bişirməyi öyrətməmişdilər, onun üçün də yumurtanı suya salıb sonra yağ tökmüşdün. Bəs ət doğramağa nə deyirsən?

Gülüşürlər.

Z ö h r ə x a n ı m. Canım, bir insaf ediniz, tək adam necə ət doğraya bilər? Gərək biri əti tutsun, o biri bıçaq ilə kəssin. Cəbi lələ, belədirmi?

C ə b i. Bəli, xanım, elədir. Siz zəhmət çəkməyin, azardan yeni durmusunuz. Mən bunların hamısını düzəldərəm.

Q ə m ə r. Cəbi lələ doğru deyir. Zöhrə, sən balışını başının altına qoy uzan, kitab oxu. Biz də sənin əvəzinə işləyərik. Cəbi lələ, sən meşədən odun gətir, ocaq qala, biz də Şəmsi, ilə kabab üçün çubuq kəsək, şiş hazır edək. Şəmsi, tüfəngini götür, bəlkə baxtımız gətirdi, rastımıza ov çıxdı, sən də atıb, səhvən vurdun.

Gülüşürlər.

Z ö h r ə. Dovşan əhvalatı bu üç ildə hələ yaddan çıxmayıbdır?

Q ə m ə r. Xeyr, heç vaxtı çıxmaz, hazır ol! İrəli arş!

Gedirlər.

Z ö h r ə (*yalqız*), Gediniz, ey iki bəxtiyar cavan. Siz də mənimlə bahəm bu üç il qanlı toqquşma, vuruşma içində min dürlü əziyyət, məşəqqət çəkdinizsə də axırda məramınıza nail oldunuz. Bu gün-sabah iki xoşbəxt quşcuğaz kimi uçub özünüz üçün yeni bir yuva tikəcəksiniz. Orada şad və xürrəm ömr sürəcəksiniz. Fəqət mən, vərəmli qızcığaz, öz arzuma çatmayıb, eşq atəşində şam tək əriyib bu gün-sabah sönəcəyəm. Ey fələk, tökdüyüm bu qanlı yaşıma rəhm et, ya vüsalə tez yetir məni, ya al bu canımı. Çingiz, sevgilim, tam üç ildir ki, səndən bir xəbər yoxdur. Məni ölmüş sanıb cəlayi-vətən oldun, haradasan, ey cəfalı, ey bəlalı aşiqim? Zöhrənin naləsini eşidirsənmi? Ah, ürəyim gedir.

Yerə yıxılıb qəşş edir. Səhnə bir müddət sükut içində qalır, sonra Çingiz səyyah libasında, əlində bir əl çamadanı daxil olur, Bulaqdan su içir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ç i n g i z. Ah, nə sərin, nə dadlısan, ey vətənimin gözəl çeşməsi! Ölmüş ruhuma, yorğun cismimə yenidən bir həyat verdin. Nə həzin sədan gəlir, ey sevimli bulağım! Səni bir nazənin pəri çox sevərdi. Məni tez-tez buraya gətirərdi. Ah, xatıratım məni boğur. Zöhrəm, ey parlaq ulduzum, nə tez söndün! Çingizin gəlmiş məcnun tək məzarını qucub, yorgun ruhunu, sınıq qəlbini sənə təslim etsin. (*Bülbül oxuyur.*) Ötüş, ötüş ey mənim tək möhnəti-yardan fəğan eyləyən bülbül, ey həmdərd rəfiqim! Bu bahar aləmi içrə insanlardan uzaq, yar üçün nalə etməkdə yalnız deyilsən. (*Zöhrəyə tərəf gedir, onu görüb.*) Ah, bu röyamı, ya həqiqətən Zöhrəmi burada yatımş görürəm?! Ya rəbb, bu nə sirr? Demək, Zöhrə ölməmiş, İrana yalan xəbər gelmiş. Ah nə böyük səadət! Qoy oyadım. Nə şirin yuxuya batmış. Yox, oyatma, qoy bir qədər yatsın.

Ah, şair nə gözəl deyir:

Əsmə, dur! Əsmə, ey nəsimi-bahar!
Uyuyor yari-işvəkar, uyuyor.
Dalğalandıqda zülfi-zərrin tar
Sanyor pənbə hüsnü altın nur.
O gözəl çöhrənin əsiri ikən,
Əcəba qısqanırmısan məndən?
Əsmə, dur, dur! Burax, burax uyusun.
Nobaharın bu nazənin qızını.
Ötüşən quşlar! İştə siz də susun!
Susun artıq! Bu Zöhrə yıldızını
Seyr edin iştiyaqü həsrət ilə.
Bu gözəl lövhə sonra düşməz əls.
Günəş! Ey xilqətin gözəl gəlini!
Uyuyor, iştə nazlı həmşirən!
Sən də dur! Saçma bir ziyalərini,
Sən də bir an üçün çəkil, gizlən!
Bir az əylən bulutlu dünyada,
Mane olma bu tifli-nevzadə.
Uyuyor... uf! Ey bəlalı gönül,
Çarpınıb durma! Sən də sus artıq,
Vurma sus! İştə susdu həm bülbül:
Dur, həyatım da getsə dur azacıq,
Uyuyor, çünki aşinayi-xəyal,
Uyuyor, çünki qayeyi-amal.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Z ö h r ə (*oyanır*.) Ah, məni öldürmə.

Ç i n g i z. Zöhrə, ey mənim sevimli dilbərim! Məni tanımırsanmı?

Z ö h r ə. Ah, Çingiz! (*Boynunu qucaqlayıb ağlayır*.)

Ç i n g i z. Nə üçün ağlayırsan, ey parlaq ulduzum?

Z ö h r ə. Nə üçün ağlamayım, tam üç ildir ki, feraq oduna yanıb nalə etmişəm. İndi bu tökdüyüm göz yaşı vüsal üçündür. Mane olma.

Ç i n g i z. Zöhrə, sən dirilmişsən, ah nə böyük səadət!

Z ö h r ə. Ölən mənim əmim qızı Nəcibə idi. Kim isə sizə yanlış xəbər vermişdir.

Ç i n g i z. Ah, Zöhrəm, bilirsənmi mən nələr çəkmişəm?! Ölüm xəbərin gəldikdə özümü həlak etmək istədim. Qəmər mane oldu. Sonra atam və dayım tutulub qətl olundular. Mən də İrandan qaçıb əcnəbi ölkəyə getdim. Almaniyada həkimliyi bitirdim. Fikrim bu idi ki, heç vətənə qayıtmayım, çünki sənsiz vətən mənə viranə idi. Fəqət dözə bilmədim, torpaq məni çəkib gətirdi.

Z ö h r ə. İndi bizi bir-birimizdən, ancaq qəbir ayıra bilər.

Ç i n g i z. Xeyr, o da bacarmaz! Mən sənsiz diri qalmaram. Zöhrə, səni gördükdə cümləni unutdum, başqalarını soruşmadım.

Z ö h r ə. Hamımız salamatıq. İndi biz burada yaşayırıq, çünki Züleyxa xalam vəfat etmiş, mülkü anama qalmışdır.

Ç i n g i z. Bəs, sən tək-tənha burada nə qayırırsan?

Z ö h r ə. Şəmsi ilə Qəmər, məni, kefimi açmaq üçün buraya seyrə gətiriblər. Onlar meşəyə getmişlər. Çingiz, Şəmsi ilə Qəmər nişanlıdırlar. Yaxında toyları olacaqdır.

Ç i n g i z. Bizdə edərik, bəlkə...

Z ö h r ə. Nə?

Ç i n g i z. Başqasına söz vermisən?

Z ö h r ə. Çingiz, məni elə bivəfa sanırsan?

Ç i n g i z. Əfv et, gözəlim, mən zarafat edirəm.

Z ö h r ə. Sənin gəldiyindən anamgilin xəbəri varmı?

Ç i n g i z. Xeyr, kimsə bilmir. Burdan gəldim ki, bulaqdan su içib evə gedəm.

Z ö h r ə. İndi Qəmərgil gələcəklər. Gəl ona kimi süfrəni hazır edək. Əti doğrayaq.

Ç i n g i z. Çox gözəl.

Süfrəni salıb boşqabları düzürlər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Z ö h r ə. Fələyin işini bilmək olmaz. Bir az bundan irəli, dünya mənim üçün bir cəhənnəm idi, indi isə istəyirəm, onu qucub öpəm.

Ç i n g i z. Məncə, səadət ibarətdir məhəbbətdən. O olarsa, dünya bir cənnətdir, olmazsa, yaşamağın mənası yoxdur.

Z ö h r ə. Mən də o fikrə şərikəm.

Ç i n g i z. Hazır etdik, indi sən dur get yat. Guya mənim gəlməyimdən xəbərin yoxdur. Görək Qəmər nə edəcəkdir. Yəqin gedib səni oyadacaqdır. Sən oyandıqda mənə məhəl qoyma.

Z ö h r ə. Yaxşı deyirsən.

Q ə m ə r. Cəbi lələ au-u-u..

Ç i n g i z. Zöhrə, tez ol, yat.

Zöhrə gedib ağacın dalında uzanır.

Q ə m ə r. A-u-u-u...

Ç i n g i z. A-u-u-u...

Şəmsi bəylə Qəmər gəlir.

Q ə m ə r (*Çingizi görməyib*). Ay sağ ol, Cəbi lələ, hər şeyi hazır edibdir.

Ç i n g i z. Siz də sağ olunuz, ay mənsiz seyrə çıxan cavanlar.

Q ə m ə r. Çingiz! (*Atılıb boynuna sarılır, buraxmaq istəməyir*.)

Ç i n g i z. Bacım, qoy Şəmsi ilə də görüşüm.

Q ə m ə r. Doğrudan sən Çingizsən?

Ç i n g i z. Xeyr, mən Çingizin kölgəsiyəm. (*Şəmsi ilə öpüşürlər*.)

Qəmər Şəmsini kənara çəkib pıçıldaşırlar.

Ç i n g i z. Orada nə pıçıldaşırsınız?

Q ə m ə r. Çingiz, sənə bir xəbər verəcəyəm, amma deməyə qorxuram.

Ç i n g i z. Qorxma, bacım, de.

Q ə m ə r. Bax ürəyini bərk saxla, qorxma... Belə... Zöhrə sağdır, ölməyibdir...

Ç i n g i z. Ah, ürəyim! (Əllərini ürəyinə qoyur.) Yox, sən məni aldadırsan.

Q ə m ə r. Vallah, aldatmıram, bu saat gətirim, gör. (*Gedib Zöhrəni durquzur*.) Zöhrə, dur, kabab hazırdır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Z ö h r ə. Mənim xatirim kabab istəmir, qoy yatım.

Q ə m ə r (*onun əlindən tutub qaldırır*.) Belə sənə kababdan şirin şey verecəyəm. O da sevgilin Çingizin ağuşu. (*Onu çəkə-çəkə gətirir*.) İndi gördünmü, doğru deyirəm.

Z ö h r ə. Çingiz?

Q ə m ə r. Zöhrə, Zöhrə, oyan, belə yuxu deyil ey, doğrudan da Çingizdir, görürsən?

Z ö h r ə. Çingiz, xoş gəlmisən. Salamatmısan?

Ç i n g i z. Teşəkkür edirəm, xanım, salamatam.

Ş ə m s i. Bacım, Zöhrə, nə edirsən? Üç ildən bəri ayrılmış sevgilin ilə beləmi görüşürsən?

Q ə m ə r. Çox gözəl dedin. Ey bunun eşqindən məcnun olan qardaşım, bu hissiz, qurumuş cəsədə bənd olmusan?

Ç i n g i z. Bəli, bacım, əfsus ki, bu bivəfa Leylaya bənd olmuşam.

Zöhrə və Çingiz gülürlər...

Q ə m ə r. Aha, bunlar bizi ələ salıblar, çoxdan görüşüb, öpüşüblər.

Bu halda Cəbi  lələ daxil olur.

Cə b i. Vay, Çingiz! Çingiz! (*Gah gülür, gah gözlərini silir.*) Mən gedim, xanımları muştuluqlayım.

Ç i n g i z. Yox, lələ, hələ kababı bişirək yeyək, sonra bir yerdə gedərik. Sənin haqqın bizim boynumuzda çoxdur. Səni lazımınca razı edəcəyik.

C ə b i. Allah sizi salamat etsin. Mənə də o qədər ömr versin ki, Qəmər xanımın uşaqlarına lələlik edim.

Ç i n g i z. Cəbi lələ, burada üzgörəlik etdin ha. Bəs mənim uşaqlarıma?

C ə b i. Sənin uşaqlarına da edərdim, ancaq qorxuram verməyəsən.

Ç i n g i z. Nə üçün?

C ə b i. Sən abrazonnısan. Uşaqlarına da rus dayəsi tutacaqsan. O da məni yaxına qoymayıb deyəcək: ey birit basqa, barançuq netorqay.

Gülüşürlər.

Q ə m ə r. Cəbi lələ, netorqay nədir?

C ə b i. Yəni uşağa dəymə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ç i n g i z. Yox, Cəbi lələ, elə iş olmaz. Necə məni saxlamısan, elə də uşaqlarımı saxlayacaqsan. Görürəm rusca yaxşı bilirsən. Ona görə səni öz yanımda feldşer edecəyəm.

C ə b i. Oturunuz, bu saat kababınızı bişirim, gətirim.

Əyləşirlər. Cəbi  lələ kabab gətirir, onlar da şişdən çəkib yeyirlər.

Ş ə m s i. Çingiz, nağıl et görək harada qalmışdın və nə səbəbə bizə məktub yazmayırdın?

Ç i n g i z. Şəmsi, başım çox bəlalar çəkmişdir. Buradan gedən zaman əhvalım çox pərişan idi, ona görə də üç ay əcnəbi vilayətləri səyahət etdim ki, bəlkə qəm və qüssədən bir qədər azad olam. Sonra Almaniyada tibb fakültəsinə girib təhsilimi bitirdim.

Q ə m ə r. Ah, sən nə daş ürəkli qardaşsanmış. Məni heç yad edirdinmi?

Ç i n g i z. Necə etmirdim. Şəklinə baxdıqca hər zaman səni qarşımda görürdüm.

Q ə m ə r (*Zöhrəni göstərərək*). Bəs bu xanımın rəsmini?

Ç i n g i z. O xanımın rəsmi ürəyimin ən dərin bir guşəsində məskən etmiş, onu buradan çıxarmaq qeyri-mümkündür

Q ə m ə r. Deməkl, indi sən həkimsən?

Ç i n g i z. Bəli.

Q ə m ə r. Onda qulağını ürəyimə qoy, gör nə səbəbə belə çırpınır.

Çingiz baxır. Qəmər onun başını qucub öpür.

Q ə m ə r.  Ha-ha-ha... tapa bildinmi?

Ç i n g i z. Tapdım, bacım, xəstəliyin çox yamandır. (*Cəbi lələ kabab gətirir*.) Gərək pəhriz saxlayasan. Ələlxüsus, Cəbi lələnin gətirdiyi bu kababdan.

Gülüşürlər.

Q ə m ə r. O həkimliyi bu xanıma elə.

Ç i n g i z. Biləks bu xanım gərək hər səhər çay əvəzinə bir şiş kabab yeyib, üstdən bir stəkan qırmızı şərab içsin ki, hala gəlsin.

C ə b i. Yenə kabab gətirimmi?

Q ə m ə r. Yox, lələ, bəsdir, al bu çörəyi də, kabab bişir ye.

Cəbi alıb səhnənin dalına gedir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Z ö h r ə. Bilmirəm Çingizin gəlmək xəbərini anama nə tövr verəcəyik. Axır zamanlarda ürəkgetmə azarına düşübdür, gecələr oyanıb bizdən gizlin "Çingiz, Çingiz" - deyə ağlayır.

Q ə m ə r. Mənim anam ondan geriyə qalmaz. İndiyə kimi mən onu aldatmışdım ki, Çingizi İstambulda görən olubdur, orada oxuyur; qurtaran kimi gələcəkdir. Yaxşı oldu ki, sözüm yalan olmadı.

Q ə m ə r. Gedək, zavallı analarımızı şad edək. Cəbi lələ, Cəbi lələ.

Ş ə m s i b ə y. Cəbi lələ, au-u-u-u-u-u...

Q ə m ə r. Cəbi lələ, au-u-u-u-u...

Z ö h r ə. Nahaq yerə boğazınızı yırtmayın. Cəbi lələ yəqin evə qaçmışdır ki, Çingizin müjdəsini versin.

Ç i n g i z. Haydı, gedək.

Q ə m ə r. Gedək.

Z ö h r ə. Bəs bu boşqabları kim aparacaq?

Q ə m ə r. Sən indi də mənə naz edəcəksən? İstədiyin bu idi, o da gəlib çıxdı.

Ç i n g i z. Bəhs etmək lazım deyil, hamısını mən apararam.

Q ə m ə r. Sən allah, sən bunu xarab eləmə, qoy işləməyi öyrənsin. Yoxsa, bu tənbəldən sənə nə arvad olacaqdır.

Ş ə m s i b ə y. Canım, hamısını aparıram, bəhsiniz bitsin.

Q ə m ə r. Can! Bax, ər belə olar... (*Gülüşürlər.*) Şəmsi, tüfəngi mən aparacağam, boşqabları sən.

Ş ə m s i b ə y. Eybi yoxdur, apararam. Mənim kimi ovçunun gərək sənin kimi arvadı olsun.

Gülüşürlər. Qəmər boşqabları bağlayıb Şəmsiyə verir, özü də tüfəngi çiyninə salır, Zöhrə xanım da Çingizin çamadanını götürür.

Q ə m ə r (*əl çalaraq Zöhrəyə*). Ha beləcə, görünür, sözüm, sənə təsir etdi.

Ş ə m s i b ə y. Qəmər elə ki, qarşına siçan çıxdı, güllənin ikisini də təpəsindən çax...

Gülüşürlər.

Q ə m ə r. Hazır ol! İrəli arş!..

Gedirlər.

**Pərdə**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## İKİNCİ ŞƏKİL

Səhnə dördüncü pərdənin mənzərəsini göstərir. Həcər xanımla Yasəmən skamyada əyləşib dərdləşirlər.

H ə c ə r x a n ı m. Yasəmən, Qəmər ilə Şəmsi necə bəxtiyar oldular. Onlara baxdıqda ürəyim şad olur. Fəqət Zöhrəni elə pərişan, qəmgin, şikəstədil gördükdə ürəyim paralanır. Zavallı qızcığaz, Çingizin eşqindən şam kimi yanıb əriyir.

Y a s ə m ə n. Yazıq Çingiz, Zöhrənin ölüm xəbərini eşidib cəlayi-vətən oldu. Kim bilir, başına nə fəlakət gəldi. Sağ olsaydı indiyə kimi sədası bir yerdən çıxardı.

H ə c ə r x a n ı m. Atası Nadir bəyin macərası oğlu Çingizdə təkrar etdi. Bilmirəm bu çərxi dönmüş fələk bizdən nə istəyir, məgər bu iki bədbəxt ailədən aldığı intiqam kifayət etməyir ki, yenidən bizə bəla hazırlayır. Zöhrə Çingizin fəraqına dözə bilməyib vərəmləyib.

Y a s ə m ə n. Həcər xanım; Çingizin təvəllüd sirrini açıb Zöhrəyə söyləməlisiniz. Taki sakit olub, axırda başqasına ərə getməyə razı olsun.

H ə c ə r x a n ı m. Yox, yox, onda övladlarımın ikisini də qayib edəcəyəm. Onlar mənə lənət, nifrət edib küçələrə atacaqlar.

Y a s ə m ə n. Onda bəs nə etməli?

H ə c ə r x a n ı m.Özüm də bilmirəm.

Y a s ə m ə n. Səhərdən ürəyim iztirab içində çırpınır, gələcək bəlanı hiss edir.

Cəbi lələ təngnəfəs daxil olur.

H ə c ə r və Y a s ə m ə n. Nə var, nə olmuş?

C ə b i. Qorxmayın, yaxşı xəbər gətirmişəm, Çingiz gəldi.

Y a s ə m ə n. Ah, xudaya sənə şükür, oğlum gəldi.

H ə c ə r. Bəs hanı?

C ə b i. Bulaq üstə kabab yeyirlər, çoxdan gəlmişdi, mən istəyirdim qaçıb sizə xəbər verim, Çingiz qoymadı. Dedi, Cəbi lələ, kababı bişir yeyək, sonra bir yerdə gedərik. Mən dözə bilmədim, onları qoyub gizlincə qaçdım.

Y a s ə m ə n . Çox sağ ol, Cəbi lələ, həmişə belə xeyirxəbər olasan. Hər nə istəsən verəcəyəm.

C ə b i. Çingizin sağlığı mənə hər şeydən artıqdır.

Çingiz, Zöhrə, Qəmər və Şəmsi daxil olurlar.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Q ə m ə r. Ana, gör sizə kimi gətirirəm.

Y a s ə m ə n. Ah, Çingiz, oğlum! (*Boynunu qucaqlayıb öpür*.)

Ç i n g i z. Şükür olsun ki, gəlib cümlənizi sağ və salamat tapdım.

Həcər xanım onu qucaqlayıb öpərkən bitab olur.

Ç i n g i z. Qəmər, stəkanda bir az su gətir, Həcər xanıma su verəcəyəm.

Qəmər su gətirir, Çingiz əl çamadanından dərman çıxarır, töküb Həcər xanıma verir.

Z ö h r ə x a n ı m. Ana, sənə nə oldu?

H ə c ə r x a n ı m. Qorxma, qızım, həmişəki ürək döyünməmdir, indi sakit oldum.

Ç i n g i z. Qəm yeməyiniz, sizi bu ürək döyünməsindən tezliklə xilas edəcəyəm. Fəqət zəhmət haqqımı indidən təyin ediniz, mənim şərtim budur.

H ə c ə r x a n ı m. Oğlum, nə istəsən verəcəyəm.

Ç i n g i z (*Zöhrənin əlini tutub*). İstədiyim bu qızın Zöhrədir.

H ə c ə r və Y a s ə m ə n. Vay!

Ç i n g i z. Nə üçün təəccüb edirsiniz? Bilmirsiniz ki, biz çoxdan bir-birimizi sevirik. Fəqət atalarımızın ədavəti buna mane olurdu. İndi isə o ədavət bitdi. Mənim atam Əlimərdan, Zöhrə xanımın atası Şahbaz bəy intiqama qurban olub bu iki aləmin qanlı ədavətini itmama yetirdilər. Yoxsa, siz analar düşmənçiliyin davamını istəyirsiniz?

H ə c ə r x a n ı m. Yox, yox.

Ç i n g i z. Bəs nə səbəbə razı deyilsiniz?

H ə c ə r x a n ı m. Onu sorma, Zöhrəni sənə vermək olmaz, sənin üçün başqa bir qız seçmişəm.

Ç i n g i z. Bəli, anlayıram. Şahbaz bəyin arvadı Həcər xanım qızını öz xidmətçisi Yasəmənin oğlu Çingizə verməyi özünə ar bilir.

Q ə m ə r. Həcər xanım, mənim qadaşım Çingiz, qızınız Zöhrəyə layiq deyilsə, sizin oğlunuz Şəmsi bəy də mənə layiq deyil. Al bu da sizin nişanınız. (*Barmağından üzüyü çıxarıb onlara atır*.)

Ş ə m s i b ə y. Ah, Qəmər nə edirsən? Ana, Çingiz məndən elmli, tərbiyəli bir oğlandır, nə üçün bacımı ona vermisən?

Z ö h r ə. Ana, görünür mənim ölümümü istəyirsən?

H ə c ə r. Xudaya, mən aciz qadına bir belə əziyyət verməyi özünə rəva görürsən. Nə üçün məni öldürüb bu əzabdan xilas etmirsən?



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Ç i n g i z (*rişxəndlə*). Bəli, böyük əzabdır, nəcibə bir xanım kəriməsini öz kənizi oğluna necə versin?

H ə c ə r. Çingiz, yetər, ürəyimi daha parçalama, mən sizi özümə layiq bilməsəydim, Yasəmənin qızını oğluma almazdım. Çingiz mən xalamın vəsiyyətini yerinə yetirmək istəyirəm. Onun xahişi odur ki, sən Əli bəyin qızını alıb bu mülkə sahib olasan.

Ç i n g i z. Mən məhəbbətimi dövlətə satan oğlan deyiləm. Ya Zöhrə, ya ölüm! İndi iki ana bunu qət ediniz.

Ş ə m s i b ə y. Ana, unutmayınız ki, bu işdən mənim də ömrüm asılıdır. Ya oğlunuzu bəxtiyar edəcəksiniz, ya qayib.

Həcər xanım, Yasəmən ilə kənara çəkilib məsləhət edirlər. Çingiz Zöhrə ilə, Şəmsi Qəmər ilə danışırlar.

Ş ə m s i b ə y. Qəmər nə tez mənim nişanımı üstümə atdın? Görünür məni sevmirsən?

Q ə m ə r. Bəs sən istəyirsən biz xoşbəxt olaq, Çingiz ilə Zöhrə bədbəxt.

Ş ə m s i b ə y. Xeyr, mən istəmirəm, fəqət burada mənim təqsirim nədir ki, məni bədbəxt edirsən? İndi anamın fikri bizə məlum oldu. Əlbəttə, axırda o fikirdən əl çəkəcəkdir. O heç vaxtı Çingizin və Zöhrənin bədbəxtliyini istəməz.

H ə c ə r x a n ı m. Oğlum, Çingiz, biz belə qət etdikki, sən Piri babandan izin istəyəsən, çünki o cümləmizin qoca babası və ağsaqqalıdır. Hərgah o bu əmrə razı olarsa, biz də ona tabe olarıq.

Q ə m ə r. Çox gözəl, elbəttə, Piri baba buna çox şadlıqla razı olacaqdır.

Ç i n g i z. Mən də buna razıyam. (*Komaya girir*.)

Ş ə m s i b ə y. Ana, Çingiz ali məktəb qurtarmış bir həkimdir. O, bacım Zöhrəni məndən artıq saxlayacaqdır. Bunu bilirsənmi?

H ə c ə r. Bilirəm, oğlum.

Ş ə m s i b ə y. Bəs nə üçün razı olmursan?

H ə c ə r. Çünki məcburam.

Z ö h r ə. Ana, Züleyxa xalam bilsəydi ki, onun vəsiyyəti məni bədbəxt edəcəkdir, heç vaxtı istəməzdi.

Ş ə m s i b ə y. Bir də xalamın vəsiyyəti bizimçün qanun deyil ki, onu pozmaqdan aciz qalaq.

H ə c ə r. Övladlarım, bu işdə bir qanun var ki, onu pozmaqda doğrudan da biz acizik.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu halda Çingiz dəli kimi komadan çıxır.

Ç i n g i z. Ha-ha-ha... hərb meydanı açılmış, yenidən, yenə müharibə, yenə qovğa, yenə qan.

Q ə m ə r. Çingiz, qardaşım, kim ilə müharibə edirsən?

Ç i n g i z. Yer ilə, göy ilə, cümlə cahan ilə.

Z ö h r ə. Çingiz, sevgilim, sənə nə olmuş? Məgər məhəbbətimiz uğrunda tökülən qan kifayət deyilmi ki, yenə də müharibəyə çağırırsan?

Ç i n g i z. Sevgilim, nazlı dilbərim, eşqim, məhəbbətim, insanlar qovğası bitmiş, fələk müharibəsi başlanmışdır!

Q ə m ə r. Çingiz, qardaşım, yenə nə olmuş ki, fələklə müharibə edirsən?

Ç i n g i z (*Zöhrəni göstərərək*). Bu bacıma bağladığım eşq üstə.

Q ə m ə r. Qardaşım, nə söyləyirsən? Ağlın çaşmış, bacın mənəm, Zöhrə ilə məni qarışdırırsan.

Z ö h r ə. Ah, Çingiz dəli olmuş! (*Ağlayır*.)

Ç i n g i z. Məni öz bacıma aşiq etdirməkdən fikrin nədir, ey çərxifələk? Məcnun kimi səhrayi-biyabanlara salmaq? Məni Fərhad kimi dağdaşları gəzdirmək? Budur məqsəd? Məni divanə edib çöllərə salmaq? Bundan nədir hacət? Xalq gördükdə desin, bax, bax, budur gəldi, həmşirisinə eşq-məhəbbət yetirən aşiq. Yox, yox, mən sərsəri olmaram, divanəlik acizlər, zəiflər işidir. Çingizlər ondan azaddır. Bacım, Zöhrə, indi bil mən Çingizəm, atam Nadirdir, anam Həcər.

C ü m l ə s i. Ah!

Ç i n g i z. Əlvida, ey ümidsiz xəyalım. Eşqin uğrunda Çingiz canını fəda edir... (*Cəld tapançanı çıxarıb özünü öldürür*.)

Z ö h r ə. Çingiz!

Özünü onun üstünə salır. Piri baba gəlir. Qəmər qəşş edir. Şəmsi onu tutur.

H ə c ə r x a n ı m. Oğlum, Çingiz, nə etdin? Mən müqəssir ananı öldürün, sizə yalvarıram, öldürün, məni bir gülləyə qurban ediniz. Niyə durmusunuz?

P i r i b a b a. Ey zor ilə qızları özlərinə arvad edən ərlər, budur tutduğunuz əməlin nəticəsi.

**Pərdə**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# YENİ HƏYAT

*Bir pərdəli pyes*

İŞTİRAK EDƏNLƏR

U s t a  İ m a n - 50 yaşında bir papaqçı.
S ə l i m ə - onun arvadı, firqəçi.
A l l a h q u l u - onun oğlu, komsomol.
S ə k i n ə - onun qızı, pionerka,
N a z l ı - onun bacısı qızı.
M ə h ə m m ə d  R ə h i m  - Nazlının əri, Usta İmanın dükan şəriki.
A x u n d  R ə h m ə t u l l a h - molla.
H a c ı  İ s m a y ı l - tacir.

Səhnə Usta İmanın qonaq otağını göstərir. Otaq səliqə ilə bəzənmiş. Sağ tərəfdə Allahqulu Lenin guşəsi düzəltmiş, divardan Lenin və başqa rəhbərlərin şəkilləri asılmış. Masa üstə kitablar, qlobus, insan qafası və qeyri tədris ləvazimatı. Sol tərəfdə Səkinə öz masasını pioner tərzilə bəzəmiş. Nazlı otağı səliqəyə salarkən Usta İman daxil olur.

U s t a  İ m a n. Ay qız Nazlı, Səlimə evdədirmi?
N a z l ı. Xeyr, dayı can, evdə heç kəs yoxdur.
U s t a  İ m a n. Qırılmışlar hara getmişlər?
N a z l ı. Səlimə Jenotdela iclasa getmiş.
U s t a  İ m a n. Nəmən? Cinatdel?
N a z l ı. Belə, o urus kilsəsinin qabağında bir böyük ev var ha, ora jenotdel deyirlər. Orada arvadları oxudurlar. Onlara tamaşa göstərirlər. Klubları da var.
U s t a  İ m a n. Deməк, Səlimə Cinatdel olmuş?
N a z l ı. Bəli.
U s t a  İ m a n. Mənim bu mürtəd oğlum Allahqulu özü komsomol olduğu bəs deyil idi, arvadı da yoldan çıxarıb cinatdel elədi.
N a z l ı. Bəli, dayı can, yoxsa Səlimə elə yerləri haradan tanırdı?
U s t a  İ m a n. İndi ehtiyatlı olmalı. Yoxsa kafir qızı məni tutdurar.
N a z l ı. Doğru deyirsən, dayı. O günü mənə deyirdi ki, bir də hünəri var mənə bir çırtma vursun o saat həbsə saldırram.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

U s t a İ m a n. Gözəl şəriəti bu dinsiz bolşeviklər gör nə günə saldılar? Ərin arvada ixtiyarı yoxdur, uşağa ixtiyarı yoxdur, bəs bu külbaşın nəyə ixtiyarı var?

N a z l ı. Dayı, mən istəyirdim sənə deyəm, amma qorxdum. İndi ki iş açıldı qoy o birisini də deyim.

U s t a İ m a n. Daha nə var?

N a z l ı. Allahqulu Səkinəni o küçələrdə "curavəy-curavəy" oxuyan uşaqların dəstəsinə yazdırıbdır.

U s t a İ m a n. Nə? O baldırları açıq, əllərində dəyənək küçələri dolaşan, qarğa kimi qağıldaşanların dəstəsinə?

N a z l ı. Bəli, bəli onlara piyanerkə deyirlər.

U s t a İ m a n. Vay sənin zatına lənət, a belə oğul. A kişilər, az qalmışam mən də dindən çıxam. Əgər allah var niyə bu şəhəri alt-üst etmir? Əstəğfürulla. Lənət şeytana. (*Hirsli gəzinir.*)

N a z l ı. Ay dayı, sən allah, sakit ol. Hər şeyi ürəyinə salma.

U s t a İ m a n. Axı mən necə sakit olum? Görmürsənmi bu dinsiz oğlu mənim başıma nə həngamə getirib? Arvad - cinatdel, oğul komsomol, qız pənirkə. Niyə partlayıb gəbərmirsən, Usta İman?

Allahqulu qoltuğunda kitab daxil olur, masa dalında oturub kitabın vərəqlərini kəsir.

U s t a İ m a n. A bidin oğlu bidin...

A l l a h q u l u. Kaş dediyin sözlər doğru olaydı.

U s t a İ m a n. Bəs doğru deyil?

A l l a h q u l u. Xeyr, doğru olsaydı mən elə ata ilə fəxr edərdim.

U s t a İ m a n. Adə, sərsəm olmusan nədi? Hansı ata ilə fəxr edərdin?

A l l a h q u l u. Sən deyən bidin ata ilə.

U s t a İ m a n. Səsini kəs, mürtəd oğlu mürtəd.

A l l a h q u l u. Elə atanı da şadlıq ilə qəbul edərdim.

U s t a İ m a n. Hansı atanı?

A l l a h q u l u. Mürtəd atanı.

U s t a İ m a n. A biiman oğlu biiman, sən mənim ürəyimi partladacaqsan.

A l l a h q u l u. Doğrudur, mən sən İmanın oğluyam, ancaq əfsus ki, "bi"siz.

U s t a İ m a n. A qız, Nazlı, tez ol su ver içim. Yoxsa, doğrudanda, bu bidin, biməzhəb mənim bağrımı çatladacaqdır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

N a z l ı. Ay dayı, sən allah hirslənmə. Yoxsa, o səfərki kimi ürəgin bitab olar.

A l l a h q u l u. Ata, son sözlerin doğrudur. Menim nə dinim var, nə də məzhebim.

U s t a İ m a n.A qız, di eşit, mən necə hirslənmeyim, arvad -cinatdel, oğul - komsomol, qız - penirkə.

N a z l ı. Ala iç, özün də təbiətdən çıxma.

Usta İman suyu alıb içir.

A l l a h q u l u. Bibi qızı doğru deyir. Niyə özündən çıxıb hər söz başı föhş edirsən. Kişi kimi sözünü de, cavab al.

U s t a İ m a n. Mən kişi olsaydım arvadım cinatdel, oğlum komsomol, qızım da pənirkə olmazdı.

N a z l ı. Ay dayı, daha bəsdir. Niyə kişi deyilsən. Hamı ərlərin arvadları Jenatdel klubuna gedirlər. Orada oyun çıxardanlara tamaşa edirlər. Burada nə pis iş var?

U s t a İ m a n. Yoxsa sən kafir qızı da oraya gedirsən?

N a z l ı. Xeyr, mən oraya getmirəm.

U s t a İ m a n. Bəs bu işləri haradan bilirsən?

N a z l ı. Ora gedən arvadlar söyləyirlər.

U s t a İ m a n (*Allahquluya*). Bir de görüm arvad-cinatdel, oğul-komsomol, qız - penirkə, bəs mən başı daşlının adı nə?

A l l a h q u l u. Sən də qeyrətli, məşədi, kərbəlayı, müsəlmanların qırxıq başlarına namus papağı tikən Usta İmansan.

U s t a İ m a n. Belə atan oldu rəhmətlik, doğru söz dedin. Bəs mənim bu batmış başıma bu biqeyrət, binamus papağımı kim tikmiş? (*Papağı yerə zollayıb ayaqları ilə tapdalayır.)*

N a z l ı. Ay dayı, sənə qurban olum, sakit ol. Bircə otur. (*Altına sandalya çəkib oturdur, papağım düzəldib başına qoyur, sonra su verir.*) Bu suyu iç, hirsin yatsın.

U s t a İ m a n. Yox, daha səbir kasam dolub daşıbdır. Gərək ürəyimdə nə varsa deyəm.

A l l a h q u l u. Onda başla gəlsin.

U s t a İ m a n. Sən anadan olandan üç ay sonra, ay kaş heç olmayaydın, mən böyük bayram edib molla ilə, quran ilə sənə bu batmış Allahqulu adım qoydum. İndi onu niyə dəyişmisən? Siz dinsiz bolşeviklər, adın da düşmənisiniz?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

A l l a h q u l u. Hansı ad ki, bizim əqidəmizə düz gəlmir onu dəyişdiririk. Mən heç kəsə qul olmaq istəmirəm. Onda da adı var, özü yox allaha!

U s t a  İ m a n. Vay, allah sənə lənət eyləsin.

A l l a h q u l u. Varsa eləsin.

U s t a  İ m a n. Qız, eşidirsən, a allahı inkar edən şeytani-məlun! Bəs allah kimi böyük bir adın əvəzinə nə qoymusan. Mənə xəbər veriblər ki, özünə zilimi, milimi bir belə ad qoymusan.

A l l a h q u l u. Doğrudur, adımı dəyişmişəm, Böyük Oktyabr bayramı münasibəti ilə yeni adlar qoyurdular...

U s t a  İ m a n. Daha nə deyim? Küfr bu torpağı basmış. Buradan qaçmaq lazımdır. Gec-tez allahtaala və təbarək Lut şəhəri kimi bu şəhəri də alt-üst edəcəkdir.

A l l a h q u l u. Yoxsa onun üçün Məşhəd ziyarəti bəhanəsi ilə buradan qaçırsan?

U s t a  İ m a n. Xeyr, o deyil, fikrim odur ki, gedib imamhəzrətlərinin qəbri-şərəfinə yıxılıb yalvaram ki, siz bidinləri həq yola gətirsin.

A l l a h q u l u. Xeyr, biz ilə işin olmasın. Ağana yalvar ki, məşədi, kərbəlayıları insafa gətirsin. Arvadlarını heç zad üstə gündə dörd dəfə döyüb başlarını yarmasınlar. Qol-qabırğalarını sındırmasınlar. Onların üstə üç arvad almasınlar. On yaşında qızlarını qoca kaftarlara ərə verməsinlır. Uşaqları məktəbə girmək istıyındə mane olmasınlar.

N a z l ı. Ay dayı, Allahqulu bunları lap doğru deyir.

U s t a  İ m a n. Kəs səsini, bihəya... Görürəm səni də bu məlunlar yoldan çıxartmışlar.

N a z l ı. Dayı can, dünən gecə Məşhədi Səfdərqulu arvadı Şahsənəmi o qədər döymüş ki, yazıq arvadın bədəni qara tuluğa dönmüş.

U s t a  İ m a n. Çox əcəb də etmiş. Görünür ərinin itaətindən çıxmış. O da döymüş. Arvadın əqli kəm olar. Özü də hücət. Onları başına buraxmaq olmaz.

A l l a h q u l u (*istehza ilə*). Düz buyurursan, atacığım. Klara Setkinin əqli Məşədi Səfdərquludan kəmdir?

U s t a  İ m a n. Ay qız, sən bu səfih sözlərə nə qulaq asırsan. Get xörəyini bişir. (*Nazlı qaçır*.) Mən Klaranı tanımıram. O arvad əqilli olsaydı, allah-təala onu kişi yaradardı.

Səlimə daxil olur.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

U s t a  İ m a n. Arvad haradan gəlirsən?

S ə l i m ə. Sənə nə borcdur hardan gəlirəm.

U s t a  İ m a n. Bəs mən sənin ərin deyiləm?

S ə l i m ə. Əfsus ki, ərimsən.

U s t a  İ m a n. Nə üçün əfsus?

S ə l i m ə. Çünki gorbagor olmuş atam məni gözü yaşlı zor ilə sənə vermiş. İyirmi il bu viranədə sənin zülmün altında cəhənnəm odu çəkmişəm. Elə indicə işıqlı dünyaya çıxmışam.

U s t a  İ m a n. Çünki dinsiz, axirətsiz cinatdel olmusan, beləmi?

S ə l i m ə. Bəli, kluba çilen olmuşam. Bu da mənim üzvülük kitabçam. Buyur bax. (*Göstərir.*)

U s t a  İ m a n. Cəhənnəmə başbilit çıxarmısan.

S ə l i m ə. Xeyr, sənin zülmünün müqabilində bu kitabça mənim qalxanımdır. İndi hünərindi mənə əl qaldır. Atana od vurub yandıraram.

U s t a  İ m a n. Odu mənə bu kafir oğlu vurmuş. Səninki lazım gəlməz. Arvad - cinatdel, oğul - komsomol, qız - pənirkə. Bu cəhənnəm deyil, bəs nədir?

S ə l i m ə. Sən bizə sənələrcən cəhənnəm odu çəkdirmisən. Biz ki sənə bir şey etməmişik.

U s t a  İ m a n. Tələsmə, vaxt gələr yenə ixtiyarı əlimə alaram, onda sizə göstərərəm.

A l l a h q u l u. Bilirik, çox sənin kimi məşədi, kərbəlayılar əllərini göyə qaldırıb dua edirlər ki, Şura hökuməti yıxılsın. Fəqət Antanta kimi nərlər yıxa bilməyən bir hökuməti, sizin kimi məşədilər yıxa bilməz. Proletariatın parlaq günəşini sizlər kimi yarasalar söndürə bilməzlər.

S ə l i m ə. A kişi ey, bax, dilini farağat qoy. Yoxsa jenotdelə xəbər verərəm. Səni tutub Çekaya salarlar.

U s t a  İ m a n. Ay arvad, sən də qalmağal axtarırsan. Külfət söhbətidir edirik. Bunun cinatdelə nə dəxli var.

S ə l i m ə. Çox dəxli var. Sənin kimilər ya gərək Şura hökumətinə tabe olalar, ya da itilib hansı ölkəyə istəyirlər gedələr.

U s t a  İ m a n. Yaxşı ay arvad, onuda edərik, daha acığın tutmasın.

S ə l i m ə. Necə acığını tutmasın, o günü qızın kitab pulu istəyir, deyirsən itil cəhənnəmə. Bəs belə atalıq olar?

U s t a  İ m a n. Axı mən başı küllü nə edim? Kitab bir olar, iki olar, yoxsa on yaşında qıza altı-yeddi kitab lazımdır. Bu da sizin şura



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

məktəbiniz. Yazıq qızın başını doldururlar ki, yer belə fırlanır, ay, gün belə fırlanır. Bəh, bəh bu da elm oldu. Onları yaradan istər belə fırladar, istər tərsinə fırladar. Ya da heç fırlatmaz. Bunun balaca qızlara nə dəxli var. Canım nə üçün allahın işinə qarışırsınız? Allahın səbri çox isə də qəzəbi də az deyil. Axırda təngə gəlib ikinci dəfə tufan edər. Bu küfrə[1] mürtəkib olmuş ölkəni suya qərq edər. Deyər indi yer hansı tərəfə fırlanır?

A l l a h q u l u (*qəhqəhə ilə gülür.*) Ha-ha-ha... atacığım, belə mövhumat ilə sizləri aldatmışlar; elə nağıllara biz ancaq gülürük.

U s t a İ m a n. Nuhun oğlanlarından biri də sənin kimi tufana inanmırdı, gülürdü, dalğalar içində boğulanda inandı ki, allah da varmış, onun qəzəbi də.

M ə h ə m m ə d R ə h i m (*daxil olur.*) Usta əmi, Xorasan yoldaşların dükana xəbər göndərmişlər ki, saat beşdə İrana böyük paraxod gedir. Pəncşənbə gününə qalmaq istəmirlər. Saat da xoşdur. Getmək istəsəniz hazırlaşın.

U s t a İ m a n. Əlbəttə istəyirəm, sən get dükanı bağla, tapşırdığım şeyləri al gətir ki, İranda satıb yol xərcimi çıxardım. Daha durma, vaxt azdır.

M ə h ə m m ə d R ə h i m. O tapşırdığın şeylərdən suvayı başqa mal alımmı?

U s t a İ m a n. Xeyr, xeyr.

M ə h ə m m ə d R ə h i m. Ancaq sən də hazır ol. Vaxt azdır. (*Çıxır.*)

U s t a İ m a n. Arvad, dur sən də tuman-köynək, yorğan-döşək hazır et.

S ə l i m ə (*istehza ilə*). Usta İman, ziyarətin qəbul olsun. Bəs bu evi kimin umuduna qoyub gedirsən?

U s t a İ m a n. Cinatdel arvadımın, komsomol oğlumun, pənirkə qızımın umuduna.

A l l a h q u l u. Anam doğru deyir. Sən ailənə zülm edirsən. Özün bilirsən ki, mənim sənə ehtiyacım yoxdur. Həm qulluq edirəm, həm də oxuyuram. Öz zəhmətim ilə özümü dolandırıram. Evə də kömək edirəm. Lakin bu nə ziyarətbazlıqdır. Nə üçün zəhmət ilə qazandığın pulları aparıb Xorasan lotularına yedirirsən?

S ə l i m ə. Oğlum, sən elə bilirsən bunun məqsədi ziyarətdir? Xeyir, bu Məşhədə kefə gedir.

---

[1]*Küfr* - dinsizlik



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

U s t a  İ m a n. Arvad günah etdin, əstəxfar et. Mən ağamın qulluğuna gedirəm.

S ə l i m ə. Xeyr, sən ağanın yava kənizlərini siğə etməyə gedirsən.

U s t a  İ m a n. Arvad nə sarsaq-sarsaq danışırsan? Əgər mənə etibar etmirsən bismillah buyur səni də aparım.

S ə l i m ə. Al ey, kül başına. Sən elə fikir edirsən ki, mən qısqanclıq edirəm? Bəli, sənin gül camalına, sərvi-qamətinə aşiqəm.

U s t a  İ m a n. Aşiq olsaydın gedib cinatdel olmazdın.

S ə l i m ə. Əlbəttə, siz məşədi-kərbəlayılar jenotdeli sevməzsiniz; çünki arvadlarınıza etdiyiniz zülmün qarşısını o alır.

A l l a h q u l u (*ayağa qalxaraq*). Ata, mən yaçeykaya gedirəm.

Səlimə o biri otağa gedir.

U s t a  İ m a n. Bəs məni ötürməyə getməyəcəksən?

A l l a h q u l u. İclasımız tez qurtarsa gələrəm.

U s t a  İ m a n. Sənin o sabrannm mənim ziyarət səfərimdən əfzəldir ki, qalmaq istəmirsən?

A l l a h q u l u. Əlbəttə, min qat əfzəldir. Biz yeni dünya, yeni həyat qururuq. Sən və sənin yoldaşların da əski dünyadan bərk-bərk yapışıb bizə mane olursunuz.

U s t a  İ m a n. Siz yeni dünya tikmirsiniz, insanları əski bütpərəstliyə, daha doğrusu, dinsizliyə dəvət edirsiniz.

A l l a h q u l u. Sənnən mübahisə etməyə vaxtım yoxdur, get imama yalvar ki, tezliklə bizi yıxsın. Yoxsa siz sadiq bəndələri də yoldan çıxardacayıq. (*Çıxır.*)

U s t a  İ m a n (*yalqız*). Arvad - cinatdel, oğul - komsomol, qız -pənirkə, heç bilmirəm imam həzrətləri mən günahkar atanın taqsırından keçəcəkdirmi?

M ə h ə m m ə d  R ə h i m (*əlində bir dolu xurcun daxil olur.*) Usta əmi, tapşırıqlarının hamısını əmələ gətirdim. Lakin malları sən deyən qiymətə ala bilmədim. Dükançılar malın qiymətini artırmışlar.

U s t a  İ m a n. Vay, allahsizin insafınızı kəssin. Bidin uşaqları bidin. Elə kommunxoz yaxşı eləyir ki, bu alverçiləri sıxır. Beş köpüyə aldıqları malı bir manata satırlar.

M ə h ə m m ə d  R ə h i m. Puldan da bir az kəm oldu. Məşədi İbrahim yüz manat əvəzinə altmış manat verdi, dedi: əldə pulum ancaq budur. Usta İman ziyarətdən qayıdınca yerdə qalanı da hazırlayıb evə verərəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

U s t a  İ m a n. Eybi yoxdur. O düz adamdır. Ancaq alanda özündə saxla, evə vermə. Cümlətanı neçədir?

M ə h ə m m ə d  R ə h i m. Altı yüz əlli manatdır. (*Cibindən çıxarıb sayır*.)

Nazlı daxil olur.

N a z l ı (*Məhəmməd Rəhimə*). A kişi, dayıma pul ver, Xorasandan mənə ipək yaylıq alsın.

M ə h ə m m ə d  R ə h i m. Pulum yoxdur. Bunlar dayının puludur. İrandan mal alacaqdır.

N a z l ı. Bəs mənim başım yaylıqsız qalsın?

M ə h ə m m ə d  R ə h i m. Hələlik köhnəsilə dolan. Sonra alaram. (*Pulları Usta İmana verir*.) Buyurunuz, düz altı yüz əlli manatdır.

U s t a  İ m a n (*pulları sayarkən*). Bacı qızı, sənə yaylıq da alacağam, başqa sovqat da. Ancaq bu evdən, eşikdən muğayat ol. Yoxsa o dinsizlər mən gəlincə evi soyacaqlar. Bir də mənim arvadıma qoşulub cinatdel olma.

N a z l ı. Dayı can, doğrudur, məni də yoldan çıxarmaq istəyirlər, lakin arxayın ol, mən elə iş etmərəm ki, sizə binamusluq gəlsin.

M ə h ə m m ə d  R ə h i m. Elə bir balaca o yan-bu yan elədin, o saat kəbinini verib evdən qovacağam.

U s t a  İ m a n. Nazlı mənim namuslu bacımın qızıdır. O pis iş etməz.

Çöl qapı döyülür.

M ə h ə m m ə d  R ə h i m. Nazlı o biri otağa keç. Yəqin axund Rəhmətullah ilə Hacı İsmayıldır.

Nazlı yan qapıdan, Məhəmməd Rəhim orta qapıdan çıxırlar, sonra Axund Rəhmətullah, Hacı İsmayıl, dallarınca Məhəmməd Rəhim daxil olurlar.

R ə h m ə t u l l a h. Səlamünəleyküm.

U s t a  İ m a n. Vəəleyküməssəlam. Çox xoş gəlmisiniz, buyurunuz, buyurunuz.

Otururlar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

H a c ı İ s m a y ı l. Nə yaxşı oldu ki, Məhəmməd Rəhim ilə görüşdük. Yoxsa sizin görüşünüzdən məhrum olacaqdıq.

U s t a İ m a n. Züvvar bu axşam çıxır. Mən də yoldaşlardan ayrılmaq istəmirəm.

R ə h m ə t u l l a h. Çox gözəl, bu gün saat xoşdur və bir də buyurmuşlar ki, züvvar nə qədər məkanından tez çıxsa, bir o qədər səvabı artıq olar; çünki zair niyyət bağladığı saatdan ağası onu gözləyir. Başqa kitabi-müqəddəsdə yazmışlar ki, xudavəndi-aləm elə əcələ edən zairin hər bir dəqiqəsinə behiştdə bir huri, hər bir saatına bir qılman bəxş edəcəkdir.

H a c ı İ s m a y ı l. Cənabi-axund ələlxüsus ki, belə küfr zamanında.

R ə h m ə t u l l a h. Bəli, bəli.

H a c ı İ s m a y ı l. Usta İman, bu divarlardakı şəkillər kimdir?

U s t a İ m a n. Dinsiz bolşeviklərin rəbbərləridir.

R ə h m ə t u l l a h. Onları nə üçün evdən asmısan? Məyər bilmirsənmi ki, bu otaqda namaz qılmaq caiz olmaz.

U s t a İ m a n. Necə bilmirəm, yaxşı bilirəm. Lakin nə edim, arvad cinatdel, oğul komsomol, qız pənirkə. Mən başıma nə kül töküm? Qurban olduğum allahın da səbri çox.

R ə h m ə t u l l a h. Bəli, səbri çoxdur, lakin bəlası da az deyil. Necə oldu qəvmi-Ad? Necə oldu Lut əhli? Hamısını bir türfətil-eyndə fot etdi.

H a c ı İ s m a y ı l. Axund, bu bolşeviklər belə məşhur tarixləri məgər oxumurlar?

R ə h m ə t u l l a h. Ay hacı, mən tarix sözü demirəm ki, ona şübhə edələr? Mən quranın lap ortasından söyləyirəm.

U s t a İ m a n. Ay axund, sən nə danışırsan? Onlar allahı, peyğəmbəri, imamı, quranı, kitabı, hamısını inkar edirlər. Sən onlara nə qandıracaqsan?

H a c ı İ s m a y ı l. Onlarla mübahisə etmək də günahdır.

R ə h m ə t u l l a h. Doğru buyurursan. O kafirlərin sözlərini də ağza almamalı.

U s t a İ m a n. Onsuz da olmur. Mən bu evdə o kafir oğlum ilə gündə on dəfə savaşıram.

S ə k i n ə (*pioner libasında daxil olur.*) Ata, gəldim pioner paltarımı sənə göstərim. Necədir, yaraşırmı?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

U s t a İ m a n. Çəkil, itin belindən gəlmiş. Yoxsa durub əlindəki deyənək ilə o açıq baldırına o qədər döyərəm ki, çolaq olub bir də küçələrdə curavəy-curavəy oxumazsan.

S ə k i n ə. Ata, pioneri döymək, söymək olmaz. Bir azadə şanlı proletariat qoşunuyuq.

R ə h m ə t u l l a h. Siz əcinnə qoşunusunuz. Allah kökünüzü yer üzündən götürsün.

S ə k i n ə. Molla, sən yerində farağat otur, çox mənim kimi balaca qızların kəbinlərin qoca kişilərə kəsmisən.

U s t a İ m a n. Sus, mürtəd qızı mürtəd.

S ə l i m ə (*daxil olur.*) A kişi, nə qışqırırsan, nə olmuş?

U s t a İ m a n. Daha nə olacaqdır. Kim bu ərə getməli qızı belə döşü açıq, baldırları açıq, əli dəyənəkli etmiş? Kim? Kim?

S ə 1 i m ə. Belə mən, mən.

U s t a İ m a n. Sən qələt etmisən. Atan Cəfərqulu ilə, baban Kosa Mehdi ilə. İt qızı it. Bu saat səni boğub öldürəcəyəm. Bu evə də od vurub yandıracağam. Daha mən təngə gəldim. (*Onun üstə hücum edir.*)

S ə k i n ə (*ağac ilə qarşısını alaraq uca səslə*). Yasaq.

U s t a İ m a n. Çəkil, itin qızı it.

M ə h ə m m ə d R i h i m. Usta əmi sakit olunuz uşaqdır. Qəbahətini anlamır.

R ə h m ə t u l l a h ilə Hacı İsmayıl (*qalxıb gedərkən*).Usta İman, xudahafiz. İltimasi-dua.

U s t a İ m a n. Bağışlayınız, halımı görürsünüz...

Çıxırlar.

S ə l i m ə. A kişi məni boğub öldürəcəksən? Məhəmməd Rəhim. Səlimə bacı, rahat olunuz.

Paroxod iki defə fit verir. Nazlı bir böyük bağlama ilə daxil olur.

N a z l ı. Dayı, sənə lazım olanların hamısını buraya qoymuşam.

U s t a İ m a n. Ədə, Məhəmməd Rəhim, paraxod iki dəfə fit verdi. Tez fayton dalınca get.

M ə h ə m m ə d R ə h i m çıxır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

S ə l i m ə. İndi bu dava-şavadan sonra çıxart görüm evə nə qədər pul verəcəksən?

U s t a İ m a n. Bir də görüm sənə pul nə lazımdır? Hər nə lazım olsa Məhəmməd Rəhim alıb verəcəkdir.

S ə l i m ə. Mən Məhəmməd Rəhimin əlinə baxan deyiləm, çıxart öz əlimə ver.

S ə k i n ə. Ata, mənə çəkmə pulu ver.

U s t a İ m a n. Sənə çəkimə lazım deyil. Baldırını açan qız ayaqyalın da gəzər bilər.

Allahqulu daxil olur.

S ə l i m ə. Oğlum, yaxşı vaxtda gəlmisən, atan gedir, evinə pul vermək istəmir.

A l l a h q u l u. Elə iş ola bilməz. Kişi kimi söz vermisən. Kişi kimi də əmələ gətir. Yoxsa, səni buraxmaq yoxdur.

U s t a İ m a n (*qoltuğundan kisəsini çıxardıb açıtr, bir qədər pul götürüb Səliməyə verir.)* Ala bu da sənin ev xarcın. Daha ürəyin sakit olsun.

S ə l i m ə (*sanıyıb*). Elə bu? Bir elə puldan evə bunu verirsən. Bu pul heç beş günə də çatmaz.

U s t a İ m a n. Bu pulları tərpətmək olmaz. Bunlara İrandan mal alıb gətirəcəyəm. Mənim də çalışıb vuruşduğum sizinçindir.

S ə l i m ə. A kişi, bizi ələ salmısan? Özünü lotuluğa qoymusan? (*Pulu onun döşünə çırpır.*) Al, Xorasanda sənə siğə üçün lazım olar.

Yenə fit səsi gəlir.

U s t a İ m a n. A dinsiz balaları dinsiz, siz mənim başıma nə gətirirsiniz? İndi ki, belə oldu heç qara köpük də vermirəm. A qız, Nazlı, şeyləri götür gedək.

Getmək istəyir. Səkinə qapının ağzını kəsib.

S ə k i n ə. Yasaq.

U s t a İ m a n. Çəkil, kafir balası kafir.

S ə k i n ə. Yasaq!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

M ə h ə m m ə d  R ə h i m (*daxil olur.*) Usta əmi, paraxod sən fit verdiyinə görə fayton tutmadım.

U s t a İ m a n. Vay sizin zatınıza lənət, məni ziyarətdən qoydunuz. A kafir uşaqları kafir, cəmi vəbalım sizin boynunuza gəlsin.

Al l a h q u l u, S ə l i m ə, S ə k i n ə (*üçü də*). Gəlsin.

U s t a  İ m a n. Axirətdə nameyi- əmalınız sol əlinizə verilsin.

Ü ç ü  d ə. Qoy verilsin.

U s t a  İ m a n.Ay müsəlmanlar, axı mən başı daşlı, mən gözü yaşlı nə edim? Arvad - cinatdel, oğul - komsomol, qız - pənirkə.

**Pərdə**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# *Hekayələr*





Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## KÖVKƏBİ-HÜRRİYYƏT[1]

Şahzadə nağıla başlayaraq deyir:

- Şahim, zamani-sabiqdə, Süleyman peyğəmbərin əsrində, tərəfi-şimalda bir tayfeyi-əzim sakin idi. Bu tayfanın vətəni bir cənnət misal məkan idi ki, təbiət öz gözəlliyini orada sübuta yetirmişdi. Lakin bu torpaq bir mərəzi-bidərmanə mübtəla olub, o gözəl nemətlərdən məhrum qalmışdı. Bu mərəz pirlik mərəzi idi: belə ki, 18 yaşında cavanın saçı-saqqalı ağarıb, bəli ikiqat olurdu. Əlləri, ayaqları əsib gözlərinin nuru gedirdi. Həştad yaşında bir qocaya dönürdü. Bu xalqdan iyirmi beş yaşına çatan olmamışdız. Bir gün bu tayfa məclisi-kübra qurub mərəzlərinə çarə tapmağa şüuru etdilər. Lakin aciz qalıb məyus oldular. O vaxt onlardan biri kürsüyə qalxıb dedi:

- Qardaşlar, biz özümüz bu azara çarə tapa bilmədik. Mənim başıma bir fikir düşmüş; söylərəm, bəyənsəniz, onu əmələ gətirərik. Tərəfi-cənubda, Asiya torpağında bəni-İsrail tayfasının arasında alim bir şəxs var. Bu alim hər bir çətin işə əlac və hər bir dərdə dərman bilir. Ağıllı adamlar seçib, onun hüzuruna göndərək və dərdimizə çarə istəyək.

Hamı bu təklifə razı oldu. Elçilər seçib, hədiyyələrlə bərabər, o alimin yanına göndərdilər. Elçilər o zaman gəlib çatdılar ki, alim həzrətləri əyləşib, işə məşğul idi. Elçilər divanxanaya daxil olub təzim etdilər və dedilər:

Ey tilsimlər açan, heyvanların, quşların dilini bilən, ey əcinnəyə hökmü çatan. Biz, əhli-şimalıq. Yerimiz cənnətmisal bir yerdir. Xuda hər nemətini bizə əta etmişdir. Lakin biz bir mərəzi-bidərmana mübtəla olmuşuq. Hənuz cavan ikən piri-faniyə dönürük. Ey sultani-hökmran, bizə bir nəzər et. Bax, qamətimiz bükülüb, saç-saqqalımız ağarmış, lakin heç birimizin yaşı iyirmidən ziyadə deyildir. Bu nə mərəzdir? Lütf elə, çarəsini söylə.

Alim dedi:

- Ey əhli-şimal, bu azarın dərmanı kövkəbi-hürriyyətin şəfaətidir. O, ulduz torpağınızın şərq tərəfində bir dağ dalında pünhandır. O dağ

---

[1] Azadlıq ulduzu



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

təbii deyil, onu divlər hörüb sizi kövkəbi-hürriyyətin şəfaətindən məhrum etmişlər; zamani ki, onu dağıtdınız, kövkəbi-hürriyyətin nuru canınıza sirayət edib ruh və bədənlərinizi təzələyəcəkdir. Sizləri cavanlaşdırıb öz təbii halınıza salacaqdır.

Elə ki, elçilər dərdlərinin çarəsini bildilər, alimə artıq razılıq edib, şad və xürrəm öz vətənlərinə qayıtdılar və vətəndaşlarını işdən hali etdilər, onlar da balta, bel, kürək, ling və qeyri alət götürüb dağı dağıtdılar və kövkəbi-hürriyyətin üzü açıldı. Onun şöləsi üstlərinə düşüb cümləsini cavan etdi. İnsanlar ruha gəlib, al libaslara girib bayram etdilər.

Lakin şadlıqları artıq davam etmədi. Bir müddət keçəndən sonra qara buludlar kövkəbi-hürriyyətin üzünü tutub onu yenə pünhan etdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# YUXU

Yuxumda özümü bir qaranlıq yerdə gördüm. Gözlərim heç şey seçmirdi. Lakin ayaqlarımın altında torpaq olduğunu hiss edirdim. Bir müddət keçərək gözlərim zülmətə öyrəşdi. Yavaş-yavaş ətrafımdakı əşyanı seçməyə qadir oldum. Müqabilində bir səhra açıldı, orada qoyun sürüsü göründü. Sürüyə tərəf yönəldim, yaxınlaşdıqda belə bir şəkil gördüm: qoyunlar başlarını yerə əyib, gözlərini ota dikib guya otlamaq istəyirlər, lakin hərəkətsiz durmuşlar. Çobana gəldikdə o da çomağının ucunu ovuclarına alıb çənəsinə dirsək vermişdi. Onda da heç bir hərəkət yox idi. Mən təəccübdə ikən gözlərimə meşə və çay sataşdı. Oraya getdim. Meşədə çoxlu heyvan və quş var idi. Fəqət bunlar da hərəkətsiz, sükuta getmişdilər. Hətta çayın suyu görünərək sanki yuxuya dalıb dayanmışdı. Məni heyrət götürdü. Bu anda sağ tərəfimdə qəbiristan və orada insanlar göründü.

- Gedim, onlardan harada olduğumu soruşum, - deyə yola düşdüm. Gəlib çatdıqda gördüm ki, qəbirlər arasında əmmaməli, fəsli, papaqlı, sarıqlı insanlar dərin yuxuya getmişlər.

- Xudaya, bu nə məxluq və nə məkandır ki, mənə rast gəlmiş?.. Bu fikirdə ikən gözümə bir gün bəd dəydi. Yanına getdim. Günbədin heç bir qapısı yox idi. Lakin mərmər divarın üzərində barmaq işarəsi, qapı bura olduğunu göstərirdi. Diqqətlə baxdıqda bu yazını seçdim. "Bura zülmət aləmidir. İşıqlığa çıxmaq istəyənlərin yolu buradır".

Yazının altında belə bir üçbucaq çəkilmişdi: $l\Delta^{\varepsilon}m$. Onun hər guşəsindən qızıl qarmaqlar asılmışdı. Bu tilsimi açmaq qəsdi ilə sağ qarmağı çəkib sol və üst qarmaqla bitişdirdim, qapı açılmadı. Sonra sol qarmağı üst və sağ qarmaqla bitişdirdim, yenə də açılmadı. Axırda üst qarmağı sol və onu da sağ qarmağa tərəf çəkib bitişdirdim, o saat qapı açıldı. Mən girdim, qapı yenə üzümə örtüldü. Bir qədər getdikdən sonra bir meydana çıxdım. Buradan 72 yol ayrılırdı.

Bunların hansı məni işıqlığa çıxarar - fikrində ikən yol başında, dirək üzərində barmaq şəkli "İ" hərfini işarət etdiyini gördüm, o yolu tutub getdim. Başqa bir meydana çıxdım. Orada da yol başında qondarılmış dirək üzərində "R" hərfi yazılmışdı. Bu minval ilə hər meydanda, dirək üstündə "Ş", sonra "A" və axırda "D" hərfləri göstərişi ilə qapıya çıxdım. Bu qapının üzərində dirəklər üstündə yazılmış hərflər mürəkkəb olub, "İrşad" ləfzi yazılmışdı. Qapını açdıqda günəş pəncərədən gözlərimə düşüb məni oyatdı.

Küçədən:

- "İrşad", "İrşad", təzə qəzet, - sədası gəlirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## QONAQLIQ

Bol yedilər, bol içdilər. Qəhvə gəldi. İçərkən ortalığa belə bəhs düşdü.

Hökumətin sütunu kimdir?

- Əlbəttə, bəylər! - Ev sahibi dedi. - Biz nücəbasız hökumət yaşaya bilməz. Hökumətin sütunu bizik.

Tacir dedi:

- Ticarət olmazsa, pul olmaz. Pulsuz da heç bir hökumət yaşaya bilməz. Hökumətin sütunu biz tacirlərik.

Alim dedi:

- Hökumətləri yaşadan bilikdir, onsuz heç bir quruluş davam edə bilməz, pozulub məhv olar. Hökumətin sütunu alimlərdir.

Ruhani dedi:

- Rəiyyəti hökmranlar itaətində saxlayan, onlara tabe etdirən biz ruhanilərik. Bizsiz əxlaqlar pozular, üsyanlar qalxar, qanlar tökülər, hökumətlər də yıxılar. Bizik hökumətin sütunu.

Zabit dedi:

- Söylədiklərinizi təsdiq edirəm. Lakin düşmən vətənin üstünə hücum etdikdə, döşlərini verib onu müdafiə edən kimdir? Əlbəttə, biz.

Hökumətin sütunu biz əsgərlərik.

Qonaqlar eyvana çıxıb qəlyan, siqar çəkməyə məşğul oldular. Bəhs yenə təzələndi. O vaxt bir qoca kəndli arabadan taxıl kisələrini fəhlələrin dalına verirdi, onlar da anbarlara yığırdılar. Ev sahibi bəy dedi:

- O qoca kəndlini hakəm seçək, nə desə, ona razı olaq.

Hamısı bu təklifə razı oldular. Kişini işdən avara edib çağırdılar, bəhslərini söylədilər. Kəndli dedi:

- Ey ağalar, düzünü axtarsanız, hökumətin sütunu biz kəndlilərlə o qan-tər içində yük daşıyan fəhlələrdir. Biz əkməsək, biçməsək, onlar da işləməsə, heç bir hökumət yasaya bilməz. - Bunu deyib cəld işinə getdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## TUTU QUŞU

(*nağıl*)

Biri vardı, biri yoxdu bir çal-çəpəri dağılmış, gülləri soluxmuş, ağacları yarıqurumuş bir köhnə bağ vardı. Bağın quşları bu xarabada çox məşəqqət ilə gün keçirirdilər. Günlərin bir günündə bu bağa haradansa bir bülbül uçub gəldi və bir neçə nəğmə oxumaqla bağdakı quşları başına cəm etdi. Quşlar yığılan kimi bülbül onlara bir fəsih və bilic nitq söylədi. Bu nitqdən quşlar bir şey anlamadılarsa da, yenə çoxları alqışlayıb "Əhsən! Əhsən!" dedilər. Sonra bülbül özünün gözəl vilayətlərini buraxıb bu bağa gəlmək qəsdini bəyan etdi və dedi:

- Mənim əziz qardaşlarım! Mən yaşıl çəmənləri, laləzar gülşənləri buraxıb bu viranəyə gəldim ki, siz bədbəxt qardaşlarımı da özüm kimi musiqi işlərinə aşna edim.

Haydı, əfəndilərim, başlayalım!

Bunu deyib bülbül bir dəstgahdə cəmi muğamatı tamam etdi və sonra quşlarla təliminə şüru etdi. Qarğalar qırıldaşdı, bayquşlar ulaşdı, sağsağanlar qığıldaşdı, sərçələr curuldaşdı, xülasə hər quş öz anasının öyrətdiyi səslə oxumağa başladı. Bülbül nə qədər çalışdı quşlardan heç biri onu yamsılamağı da bacarmadılar. Ancaq bircə tutu quşu öz adətinə görə onun təqlidini çıxardırdı. Axırda bülbül quşlardan naümid olub onları tutu quşuna tapşırdı və özü də gəldiyi vilayətə qayıtdı. Bülbül gedəndən sonra tutu quşu bülbülün ədası ilə bir "konsert" məclisi düzəltdi. Dəvət olunmuş qonaqlar həmin gün məclisə yığıldılar. Tutu quşu bir uca yerə çıxıb kərahətli[1] bir səslə qarğa kimi qarıldadı, sağsağan kimi qığıldadı, hətta qurbağa kimi də quruldadı, ancaq bir bülbül kimi oxuya bilmədi. Siçan bunu eşidib dedi:

- Ay tutu dayı! Qabaqlarda pis də olsa, öz ana dilində oxuyurdun, amma indi bülbülün də adını biabır etdin və hər tərəfdən avara qalmısan.

---

[1] İyrənc



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## QAN BULAĞI

İyulun isti günlərinin birində dağların arası ilə uzanan əyri-üyrü, eniş-yoxuş yol ilə iki atlı gedirdi. Bunların biri iyirmi yaşında gənc, digəri yetmiş sinninə varmış bir qoca idi. Bu iki şəxsin yaşlarında bu qədər böyük fərq olduğu halda, zahirlərində bir o qədər fərq görünməyirdi. Hər birisinin eynində pişmət, çərkəzi çuxa, belində kəmər, xəncər və qılınc, başında dəri papaq, çiynində qara yapıncı və boynunda ağ baslıq var idi. Qocanın at üstündə əyləşməsi, əzasının hərəkəti, alıcı quş kimi baxışı gəncdən seçilməyirdi. Lakin qocalıq nişanəsi üzünün qırışından və uzun ağ saqqalından görünürdü. Yol getdikcə daralırdı. Dağlardan enib, indi qayadöşü incə bir yol ilə gedirdilər. Onun yuxarı tərəfi divar kimi ucalan sıldırım qayalar, alt tərəfi göz qaraldan ucurum dərələr idi. Bu qorxulu yol ilə səfər etmək qeyrilərə namümkün olduğu halda, Dağıstan əhalisinə və onların atlarına adi bir şeydir.

Vaxt günortaya yaxınlaşmışdı. Susuzluqdan hər iki süvari yanırdı. Ələlxüsus, susuzluq gəncə artıq təsir eləyirdi. Onun gözləri səbirsiz və iztirab ilə su arayırdı. Bu halda gəncin qulağına su şırıltısı gəldi.

- Baba, muştuluq olsun, irəlidən su səsi gəlir, - deyə cavan atını sürdü.

Qoca təbəssüm ilə ona nəzər salaraq, başını yırğaladı. Gənc bulağa çatdıqda gördü ki, suyun rəngi qırmızıya çalır. Buna baxmayaraq, susuzluğunu tezcə rəf etmək üçün qurtum su içər-içməz:

- Bu nə cür sudur? - deyə ayağa qalxdı. Bu halda qoca gəlib ona çatdı və gülümsəyərək dedi:

- Susuzluğunu rəf etdinmi, oğlum?

- Xeyr, baba, bu bulağın suyu içməli deyil, zəfir dadı verir, rəngi də qana bənzəyir, - deyə cavab verdi.

- Elədir, oğlum, bu "Qan bulağı"dır, bunun suyu dəmir ilə qarışmış, bu su qansızlara və bəzi naxoşlara dərmandır...

Cavan sordu;

- Bu "Qan bulağı" adını nədən almış, baba?

- Bir az səbir et, oğlum, bulağın hekayəsini sənə söylərəm. İndi isə ardımca sür, bu yaxında içməli su var, - deyə qoca atını sürdü.

Bir qədər getdikdən sonra gözəl bir bulağa rast gəldilər, atdan endilər. Cavan xurcunundan yemək çıxarıb, süfrə salmağa məşğul oldu. Nahardan sonra qoca yapıncısını yerə sərib üstünə uzandı. Cavan



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

onun "Qan bulağı" barəsində verdiyi vədəyə müntəzir, qarşısında əyləşmişdi. Qoca gözlərini yumub bir müddət sükuta getdi. Gənc elə fikir etdi ki, qoca vədəsini unudub yuxuya daldı. Lakin fikri yanlış idi. Bir azdan sonra qoca gözlərini açdı, başlığım büküb dirsəyinin altında qoydu və dərindən bir ah çəkib dedi:

- Ulu Qafqaz, ulu dağlar! Hər bir daşın bir tarixdir. Kimlər gəlib sinəndən keçmədi, çaylarını qızıl qana döndrmədi!..

- Oğlum, bu dərə, bu torpağı iki yerə təqsim edir. Belə rəvayət edirlər ki, qədim zamanda bu dərənin o tərəfində böyük bir qəbilə, başında Misir xan adında bir rəis və bu tərəfində, digər bir silsilə Surxay xanın rəisliyi ilə sakin olurmuşlar. İttifaqən bu iki xanın arasında qan davası düşür, bunlar bir-birlərini tərəf etməyə başlayırlar. Bir müddət keçmiş, Misir xan və Surxay xan bir də baxıb görürlər ki, cəmi oğlanları və yaxın əqrəbaları bu qan davasında baqi qalır. Lakin hər iki rəis yeni övladlarının dünyaya gəlməsinə müntəzir olur ki, onların köməkliyi ilə düşməndən intiqamını alsın. İttifaqən bunların bir gecədə iki övladı təvəllüd edir. Surxay xanın oğlu, Misir xanın qızı olur. Bu ittifaqdan nə qədər Surxay xan şad olursa, bir o qədər də Misir xan qəmgin və məyus olur. Misir xanın anası, oğlunu belə məyus və qəmgin gördükdə deyir:

- Oğlum, qəm etmə, bilirəm səni pərişan edən nədir. Məgər qız tayfası düşməndən intiqam ala bilməz? Onlara da oğlan kimi tərbiyə versən, igidlikdə hər kəsdən geri qalmazlar.

Bunu eşitcək Misir xan yerindən sıçrayıb qalxır və anasını qucaqlayaraq deyir:

- Ana, fikrin çox gözəldir, ancaq de görüm, qızım olmağını kim bilir?

- Məndən və arvadından başqa kimsə bilməyir, - deyə anası cavab verir.

- Çox gözəl, indi mənim qızım olmağını gərək bir adam bilməsin. Sabahdan oğlum olduğunu elan edəcəyəm, sən deyən tərbiyəni də qızıma özüm verəcəyəm, lakin bu sirrin gizli qalması səninlə anasından asılıdır.

- Arxayın ol, oğlum, əmrin yerinə yetər, - deyə anası cavab verdi. On gündən sonra Misir xan qızına Teymur xan namını verir və bu sirr pünhan qalmaq üçün həmin bu müqabilimizdəki qayanın döşündə bir köşk bina edib orada sakin olur.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Teymur xan atasının nəzarəti altında tərbiyə alaraq, nağıl olunan köşkdə böyüməyə başlayır. Onun oyun şeyləri: tüfəng, xəncər, qılınc və yoldaşları bu qayalar sakini laçın, qaraquş, tərlan kimi yırtıcı quşlar olur. Belə tərbiyə nəticəsi olaraq on yaşında Teymur xan at minmədə, tüfəng atmada, qılınc vurmada igid cavanlardan geri qalmayır. Bunlardan artıq, insanları heyrətə gətirən Teymur xanın vəsfə gəlməyən gözəlliyi olur.

Bu tərəfdən Surxay xanın oğlu Paşa xan, Teymur xan kimi igidlikdə və gözəllikdə məşhur olur.

Bu iki uşaq böyüyüb on səkkiz yaşına çatır, bunların igidliyi və gözəlliyi ətraf və əknafa yayılır. Bu vaxta qədər görüşmək bunlara mümkün olmamışdı. İttifaqən bu iki cavan yekdigərinə rast gələrsə, biri və bəlkə də, ikisi də tələf olmaqlarını hiss edirmişlər. Bununla bərabər görüşmək arzusu hər ikisində gündən-günə qüvvətlənir. Oğlum! Əcdadımızdan bizə irs qalmış qana-qan etmək adətinə qurban olan bu cavanlar axırda bir-birləri ilə gorüşürlər.

Belə ki, baharın gözəl səhərlərinin birində Teymur xan ov arxasınca, sərhədləri olan bu dərəni aşıb o tərəfə keçir. O zaman Paşa xan da ova çıxmış olur. Bu iki aslan, gördüyün "Qan bulağı"nın başında bir-birlərinə rast gəlir. Bir müddət bir-birlərinin gözəl camalına heyran olub qalırlar. Paşa xan Temur xanın fövqəladə gözəlliyinə heyran olur. Teymur xan isə on səkkiz ilin ərzində qadınlığa müğayir yırtıcı, qaniçici quş kimi aldığı tərbiyənin onda qadınlıq hissini hələ puç etmədiyini indi anlayır, eşq odu onun ürəyini yaxıb yandırır, hər zaman igidləri xofa salan gözləri indi Paşa xana xumar-xumar baxıb ondan aman gözləyir. Paşa xan heyrətdən ayılıb, Teymur xanın kim olduğunu duyursa da sorur:

- Sən kimsən?

- Sən özün kimsən?

- Mən bu torpağın sahibi Surxay xanın oğlu Paşa xanam.

- Mən də bu torpağın sahibi Misir xanın övladı Teymur xanam. Bu sual-cavabdan sonra hər ikisi bir-birlərinə düşmənçilik nəzərilə baxmağa başlayır. Axırda Paşa xan:

- Camalın çox gözəldir, büna söz yox, görək qılınc vurmağın necədir? - deyə qılıncını çıxarır.

Onun cavabında:

- İndi qılınc vurmağımı da görüb bəyənərsən, - deyə Teymur xan da qılıncını çıxarıb Paşa xanın üstünə hücum edir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Oğlum, necə ki, göy üzündə əvvəl şimşək parlayıb, sonra gurultu sədası gələr, elə də bu iki cavanın qılıncı od parladıb bu qayalara səs salır. Xeyli müddət carpışırlar, lakin bir-birlərinə zəfər yetirə bilməyirlər. Bu halda günəş dağın dalında tülu edir. Onun zərrələri Teymur xanın gözlərinə ox kimi sancılıb qamaşdırır və bu anda Paşa xan fürsət tapıb qılıncı Teymur xanın sinəsindən vurur. Teymur xan yıxılır. Qan çeşmə kimi sinəsindən axıb baharın təzə və tər otlarını və çiçəklərini boyayır.

Paşa qılıncını atıb Teymur xanın yarasını bağlamaq qəsdilə sinəsini açır.

- Aman, ya rəb, sən qadın imişsən! – deyə qışqırır və Teymur xanın başını dizi üstə alıb: - Söylə, söylə, gözəlim! O soluq nəfəsinlə mənə lənətini, nifrətini izhar elə, - deyə fəryad edir.

Teymur xan zəif səs ilə cavabında:

- Paşa xan, sənə eşqimi izhar edirəm. Bu çirkin adətə lənət və nifrət! Ah, təbiət nə gözəldir! Paşa, mən gedirəm, əlvida!

- Toxta, bir az toxta, gözəlim, Paşa da səninlə gedir.

Paşa xan xəncərini çıxarıb öz sinəsinə vurur və Teymur xanı ağuşuna alıb deyir:

- İndi qoy mənim də qanım səninkinə qarışsın!

Oğlum, o vaxt bu dağlarda zəlzələ zühur edir və həmin yerdən dağ aralanıb iki növcavanı ağuşuna alır. Bir müddət keçərək gördüyün Qan bulağı qaya arasında cari olur. Rəvayətə görə, həmin bulağın suyu Paşa xan ilə Teymur xanın qanından əmələ gəlmişdir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## ÜMİD ÇIRAĞI

İlk baharın son gecəsi idi. Əlvan çiçəklər və otlar ilə bəzənmiş, buludlara qədər yüksəlmiş dağ bəşında düşən Ş... şəhərinin əhalisi dərin yuxuya dalmışdı. Yalnız iki balaca otaqdan: yalnız yanında özü kimi balaca bağçalı bir evdən işıq gəlirdi. Pencərədən çırağın zəif şöləsi bağçaya düşərək oranın zəngin böcək və pərvanələrini öz tərəfinə çəkirdi. Masa başında oturmuş, mütaliəyə məşğul, zəif əndamlı, sarımtıl bənizli, qıvırcıq saçlı bir gənc, çənəsinə dirsəklənərək kitab oxuyur, ! ara-sıra yorğun qara gözləri biixtiyar qapanaraq rahatlıq edirdi. O zaman uzun, ox kimi kirpikləri çöhrəsinə kölgə salır, başı masa üzərinə əyilir, bir müddət belə mürgüləyirdi, sonra diksinərək başını qaldırır, gözlərini ovcalayır, qalxıb pəncərəni açır, başını dişarıya çıxararaq bağçanın saf havasını dərindən tənəffüs edirdi.

Qaranlıqda qalmış pərvanə və böcəklər pəncərənin açılmağından istifadə edərək otağa soxulur, çırağın ətrafında uçuşurdular. Gecənin dərin sükutu və zülməti gəncin qəlbinə xof buraxır, onu diksindirirdi.

- Bu nə uşaqlıqdır? - deyə gənc pəncərəni qapayır və sonra əvvəlki yerini tutaraq, özlərini şöləyə atan pərvanələrə baxır: - Bu heyvancıqlar qaranlığı sevməzlər. Gör necə özlərini oda atırlar? Nə qədər işığa məftun bir məxluq, - deyə söylənirdi. Bu zaman nəzəri masanın üstə durmus cib saatına sataşır.

- Ah, gecə yarıdan keçmiş, lakin mən hazır deyiləm. Sabah son imtahanlarımı verəcəyəm. Orta təhsilimi bitirmək bu gecə ki səy və qeyrətimə bağlıdır. Atam yox, mənə yardım edəcək kimsəm yox, öz nicat və səadətim öz əlimdədir. Səy və qeyrət lazımdır. Sabah orta məktəbi bitirib ali məktəbə girəcəyəm. Orada bir neçə il təhsil alıb həkim olacağam, vətənim üçün mənfəətli bir üzv olacağam. Zavallı anamı məişətin bu ağır zəhmət və əziyyətindən xilas edəcəyəm.

Əlilə o biri otağa işarə edərək:

- Yat, anacığım, rahat ol və gələcək səadətimizə də inan, - deyə yenə də mütaliəyə başlayır.

Gəncin zənni yanlış idi, zavallı qadın bir neçə saat işlədikdən sonra rahat olmaq istədisə də yata bilmədi. Gözlərini oğlunun qapısına dikərək uzun və dərin fikrə getmişdi. Ağır, qara günlü məişəti birir-birir gözlərinin önündən gəlib keçdi. Budur, on səkkiz yaşında bir qız



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ikən özü kimi bir zəhmətkeşə arvad oldu. İçərisində yaşadığı evə sahib oldu. Övlad arzusu çəkərək bir gözəl oğula ana oldu.

Ah, nə böyük bir səadət. Lakin rəhmsiz fələk tezliklə bu səadəti yasa döndərdi. Bir il bəxtiyar yaşadıqdan sonra istəkli əri xəste düşüb vəfat etdi. Onu bir yaşlı uşaq ilə sahibsiz qoydu. O gündən bədbəxt ana çalışır, sel tək göz yaşları tökür, lakin körpə oğluna baxdıqca ağır məişətini unudur, beşiyini yırğalarkən deyirdi:

- Yat, oğlum, yat, yat ümid çırağım, yat, cəmi səadətimi, cəmi ömrümü sənin uğrunda sərf etməyə and içirəm.

Qeyrətli ana bu müqəddəs vəzifəsini çox gözəl ifa etdi. Oğlunu böyütdü, oxutdu, bu yaşa yetirdi. İndi təhsilini bitirmək üçün övladı belə çalışır, zəhmət çəkir. Onun incə ana qəlbi sıxılır, övladının əziyyətinə razı olmayır, onun zəhmətlərinə dözə bilməyirdi. Lakin bu zəhməti ona səadət qapısını açacağını da gözəlcə düşünürdü.

Ən artıq sıxılacaq bir şey varsa, o da oğlunun məktəbə getmək məsələsidir ki, bir neçə il bir-birindən ayrı düşəcəklərdi, bu isə ona qeyri-mümkün bir imtahan görünürdü. Yazıq ananın qəlbini hər dəqiqə deşən, onu rahat buraxmayan bir məsələ vardı. O da bir il bundan əqdəm ərinin qohumlarından biri dalaşarkən bir cavanı öldürməsi idi. Düşmənləri qatilin həbsə alınıb sürgün edilməsinə iktifa[1] etmək istəməyirdilər. Qana qan etmək fikri bəsləyirdilər. Bu səbəbdən zavallı qadın bu ili daima qorxu içərisində yaşayır, oğlunu gözlərindən iraq buraxmaq istəməyirdi.

Gecə keçər, oğlu yatmaz, ana axır buna səbir etməyib qalxar, şala bürünər, oğlunun otağına girər, övladının başını qucub qıvrıcıq saçlarından öpər.

- Ana, nə üçün durdun?

- Oğul, yata bilmədim. Qəlbimdə bir qorxu, bir iztirab hiss edirəm. Qorxuram sənə düşmən tərəfindən bir xətər toxuna.

- Anacığım, xof və iztirabın əsilsizdir, öz otağımda, gözünün önündə dərs oxuyuram. Mənə nə ola bilər? Mən bir məktəbliyəm, kimsə ilə də düşmənçiliyim yox, arxayın ol, mənə heç bir kimsə tərəfindən xətər toxunmaz, get, ana, rahat ol.

- Bəs sən oğlum, yatmayacaqsan? Oxuduğun yetər, dur, sən də rahat ol, çırağı söndür.

---

[1] Kifayətlənmək



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Yox, ana, səhəri açsam da, sabahkı imtahanlarımı hazır etməliyəm. Maraq etmə, bir gecəni yatmaqla mənə heç bir şey olmaz, lakin bir ilimi qayib etmək, hər ikimiz üçün fayda verməz. İndi daha mənə mane olma, - deyə gənc kitab oxumağa başlayır, anası da otağına çəkilir.

Bir saat belə keçir. Qəflətən bir tüfəng açılıb dağlara səda salır, dərin sükutu pozur. İkinci bir qadın çığırtısı bu sədayə cavab verər, yatmış qonşuları oyadır. Gənc tələbə yerə sərilir. Bir saat bundan əqdəm böyük ümidlər bəsləyən gənc, bir qəddar düşmənin, rəhmsiz düşmənin gülləsinə qurban oldu.

Sahibsiz ananın ümid çırağı söndü... Yenə zülmət, yenə dərin sükunət... lakin balaca otaqdan:

- Yox, oğlum, sən ölməmisən, ancaq yatmısan. Yat, ümidim, rahat ol, sabah yenə duracaqsan, imtahanlarını verəcəksən, anacığını bəxtiyar edəcəksən... Həzin, qəlbləri oxşayan oxşama sədası gəlirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## CƏHALƏT QURBANI

Uşaqlıq xatiratımdan nağılına şüru etdiyim bu vaqiə məndə ələ bir dərin təsir buraxmış, qəlbimdə ələ silinməz nəqş bağlamışdır ki, sanki uzun müddət əvvəl yox, dünən vaqe olmuşdur.

Səkkiz yaşında uşaq ikən "Seyidli" adlanan kəndimizdə başaçıq, ayaqyalın, təbiətin mərhəmətli qucağında, məişətin ağır və zəhərli hallarından xəbərsiz yaşardım.

Bir gün əmim oğlunun altı yaşlı oğlu ilə həyətimizdə oynarkən palanlı ata minmiş bir qocanı dərvazamızın ağzında durmuş gördüm.

- Baba, kimi istəyirsiniz? - deyə soruşdum. Cavabından məlum oldu ki, əmim oğlu ilə görüşmək istəyir. - Buyurun içəriyə, - deyə mən əmim oğluna xəbər verməyə qaçdım. Qoca, əmim oğlu ilə görüşdü, salamlaşdı. Mən də yoldaşım ilə oynamağa məşğul oldum. Bir qədər söhbətdən sonra salamatlaşıb, "allah sizdən razı olsun, mən qocanı ümidsiz qaytarmadınız" – deyə atını minib getdi.

Bundan bir neçə gün sonra həmin qoca, üstünə on dörd yaşında bir qız minmiş yüklü atın cilovunu çəkərək, yanında da on yeddi yaşlı digər bir qız ilə həyətə girdi.

Əmim oğlu onlara xoşgəldin elədi. Qoca, kiçik qızı atdan düşürtdü və sonra ata çatılmış iki mafraşı açıb yerə saldı. Bu mafraşlarda bir qədər qab-qacaq və qeyri ev şeyləri vardı. Əmim oğlu həyətimizdəki bir əski komanı göstərib dedi:

- Budaq baba, məskəniniz bu koma olacaqdır. Atı axura çək, rahat et, sonra uşaqlarınız ilə otağa buyurun, bizə qonaq olun.

- Çox razıyam, sizə zəhmət vermək istəmirəm. Qızlarım komanı təmizləyib palaz salarlar, rahat olarıq.

- Budaq baba, yol gəlmisiniz, yorulmusunuz, həm də acmısınız, buyurun, bizdə yemək yeyin, bir qədər rahat olun, sonra mənzilinizi səliqəyə salarsınız.

Bu sözlərə anam da şərik olub qızları otağımıza apardı. Budaq baba da atı rahat edib, əmim oğluna qonaq oldu. Anam qızlara yer göstərib oturtdu və sonra bacımı və məni göstərərək tanış etdi:

- Bu mənim qızım və bu da kiçik oğlumdur, böyük qardaşları Tiflisdə oxuyur. Sizin böyük bacınızı tanıyıram. O, Şelli kəndində olur. İndi siz birbaş Kürdüstandanmı gəlirsiniz?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Xeyr, biz Kürdüstandan Şelliyə gəldik, bacımızın yanında mənzil tapmadıq, buraya gəldik, - deyə böyük qız cavab verdi.

- Ananız sağdırmı?

- Yox, bir ildir ki, ölübdür.

- Anasız uşaqların günü pis keçər, ananın yerini heç kəs verə bilməz. Balalarım, mənim uşaqlarım da körpə ikən ataları öldü. Amma mən özüm uşaqlarımı bəsləyib böyüdürəm.

Anam qızlar ilə mehribanlıqla danışaraq yemək hazır etdi və süfrəyə qoyub təam yeməyi təklif elədi. Lakin onlar utanaraq, yerlərindən qımıldanmadılar.

- Utanmayın, qızlarım, irəli gəlin, çörək yeyin.

Bacım qalxıb, bacıların əllərindən tutdu və süfrə başına apardı. Onlar da utana-utana yemək yeməyə başladılar. Qonaqlarımız yeməyə məşğul ikən, mən də onların bir ata-ana övladı olaraq əsla bir-birlərinə bənzəmədiklərinə diqqət edirdim.

Böyük qız ucaboylu, incəbelli, iri qara gözlü, uzun qara saçlı, dodaqlarında müdam bir təbəssüm, nəzakətli bir Kürdüstan gözəli olduğunu sübut edirdi.

İkinciyə gəldikdə alagözlü bu qız göyərçinə bənzəyirdi. Bu bənzəmə mənim fikrimi o qədər cəlb etmişdi ki, özumü saxlaya bilməyərək:

- Sənin adın göyərçindirmi? - deyə kiçik qızdan soruşdum. Qəflətən verdiyim bu sual qadınların gülüşməsinə səbəb oldu.

- Xeyr, mənim adım Gülbənd, bacımınkı Tamamdır, - deyə böyük qız cavab verdi və sonra mənə diqqət yetirərək dedi:

- Göyərçin adı sizə daha artıq yaraşır.

Anladım ki, Gülbənd mənim abı mahud çuxama, çal papağıma işarə edir.

Mənim sualını indiyə qədər davam edən sükutu pozdu.

- Mənim qardaşım nağıla qulsaq asmağı çox sevər. Ona yemək vermə, içmək vermə, bolluca nağıl söylə. Gecələr məni rahat qoymur. "Bacım yenə nağıl de" – deyə yalvarar, mən də Məlik Məmməd, Qırat nağıllarından ayrısını bilmirəm, - deyə bacım şikayətləndi.

- Mən de nağıl bilməyirəm, ancaq bacım Tamam çox bilir. Kür-düstan aşıqları söylədikləri nağılların hamısını döşünə yığıb, elədirmi, bacım? – deyə Gülbənd soruşdu.

Tamam isə qızararaq, başını aşağı salıb cavab vermədi. Mən də anamdan soruşdum:

- Ana, Tamam bizim evdə olacaqdır, eləmi?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Yox, oğlum, Gülbənd əmioğlungildə qalacaqdır, Tamam da əmiqızının uşağını saxlayacaqdır. Budaq baba ilə emioğlun belə sözləşmişlər.

- Bəs Məmmədrza nədir? Qoy əmiqızımın oğlunu o saxlasın. Tamam da bizdə qalsın, - deyə anamdan rica etdim.

- Kişi xaylağı körpə uşaq saxlaya bilməz, bu arvad işidir. Sən darıxma, hamımız bir həyətdə oluruq, hər saatda da Tamamla görüşəcəksən, o da sənə gözəl nağıllar söyləyəcəkdir, - deyə anam məni sakit etdi.

Qızlar yeməklərini bitirib ayağa qalxdılar. "Sağ olun", - deyə anamdan getməyə izin istədilər.

- Gedin, qızlarım, mənzilinizi səliqəyə salın. Bu gün rahat olun, sabahdan da işə başlarsınız.

Qızlar çıxdılar, mən də onların arxasınca. Həyətdə Tamama yaxınlaşıb dedim:

- Tamam, doğrusunu de, yenə nağıl deyəcəksənmi?

- Deyəcəyəm, hələ sənə yaxşı oyunlar da öyrədəcəyəm, - deyə məni arxayın etdi. Sonra əlini çiynimə qoyaraq, məsumanə bir təbəssümlə:

- İndi de görüm, sənsən göyərçin, ya mən?

- Əlbəttə, sənsən. Mən paltarımı dəyişsəm, heç göyərçinə bənzəmərəm, - deyə mən cavab verdim.

- Doğrusu, göyərçini sevirəm, adım göyərçin olsaydı, artıqca xoşlanardım. Anam mənə dağkeçisi deyərdi, çünki qayalara keçi kimi dırmaşardım. Tamam adını mənə atam qoyub.

- Tamam, bundan sonra mən sənə Göyərçin deyəcəyəm, razısanmı?

- Razıyam, indi gedim bacıma kömək edim, sonra söhbət edərik, -deyə Tamam qaçaraq komalarına getdi.

Meyvə bağları ilə əhatələnmiş güllü, bağçalı böyük həyətimizdə bizdən başqa iki əmioğlumun da ailəsi yaşayırdı.

Kiçik əmioğlum hərçənd evli deyildi, lakin dul bacısı və onun iki yaşında oğlu ilə bir ailə kimi ayrıca yaşayırdılar, Tamam da bunlarda işləyəcəkdi. Kürdüstan dağlarında bəslənmiş bu iki çiçək bu ailələr içərisinə girməklə onlarda bir yenilik, şadlıq vücuda gətirdisə də, digər tərəfdən nifaqa və ondan törəyən faciəli hadisələrə də səbəb oldu; lakin burada onlardan bəhs etməyib hekayəmizin qəhrəmanı olan Tamam qızcığazın ürəkdeşən faciəsini yazacağam.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

* * *

Yazın qızğın günləri idi. Biz uşaqlar vaxtımızın çoxunu meyvə bağlarında keçirərdik. Gah yetişmiş meyvələri dərib yeyərdik, gah quş yuvalarından bala düşürüb oynardıq. Gah da cələ qürub ana quşları tutardıq. Bu pis hərəkətləri bizə tərk etməyə Tamam, səy və qeyrət edərdi. Bunların əvəzində bizə cürbəcür oyunlar öyrədib məşğul edərdi.

Heç unutmaram. Bir gün bibim evinə getmişdim. Onların bağında, gözümə ağac deşiyində qayrılmış bir alacəhrə yuvası sataşdı. Cəld ağaca dırmaşıb əlimi yuvaya soxdum və tüksüz ətcə balaların üstündən ana alacəhrəni tutub sevincək bir halda ağacdan endim. Daha bibimə görünməyib evimizə qaçdım. Həyətimizdə Tamama rast gəldim.

- Bibin sənə nə verdi? – deyə Tamam soruşdu.

- Heç zad vermədi, - deyə cavab verdim.

- Yalan söyləyirsən, bibin səni çox istəyir, yəqin yenə də ciblərini qənfet ilə doldurubdur. Bax, onun üçün də əllərini cibindən çıxarmayırsan, heç qorxma, mən səndən zor ilə almayacağam. İstərsən verərsən, istəməzsən verməzsən. Ancaq sözlərimin yalan olduğunu bu gün mənə sübut etdin, - deyə Tamam məni utandırdı.

Mən həqiqətən Tamamı çox istəyirdim və heç bir şeyi ondan müzayiqə etməzdim. Bunu özü də bilirdi. Lakin bu sözlərdən məqsədi nə olduğunu anlamadım. Sol cibimdən əlimi çıxarıb dedim:

- İndi özün bax, gör, cibimdə bir şey varmı?

- O biri əlini cibindən çıxart, qənfet oradadır, - deyə Tamam təklif etdi.

Əlacsız qalıb mən alacəhrəni çıxarıb ona göstərdim və nə üsul ilə tutduğumu söylədim.

- Mən bunu əvvəldən bilirdim. İndi mən sənə o anasız qalmış balaların halından bir neçə kəlmə söyləyəcəyəm, qəlbin yanarsa, balaca quşcığazlara yazığın gələrsə, analarını buraxarsan, - deyə Tamam elə bir maraqla, elə bir qəlbyandırıcı sözlərlə anasız qalmış quşcığazların halını təsvir etdi ki, mən ixtiyarsız ovcumu açdım və quşcığaz da şad bir səslə uçub getdi.

Tamam mənim gözlərimdəki yaşı görüb, "indən sonra bir daha quşlara əziyyət verməyəcəyəm", sözlərini eşidib məni qucaqlayıb öpdü.

Bu ittifaqdan sonra mən bu pis adəti tərk etdim. Belə üsul ilə, əsla zor etmədən, Tamam, bir çox çirkin hərəkət və adətləri mənə tərk



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

etdirdi. İndi bu uzun müddət keçdikdən sonra uşaqlıq xatiritamı yad etdikdə Kürdüstan dağlarında bəslənmiş elmsiz, tərbiyə görməmiş bir qızcığazda bu qədər rəhmdilliyə, onun uşaqlara tərbiyə verməkdə bu qədər ustad olmağına heyran qalıram.

Payız yetişdikdə biz uşaqlar üçün yeni bir məşğuliyyət əmələ gəldi. O da bağlarımızdan meyvə dərib damlarda asmaqdan ibarət idi. Anam məni həvəsləndirib deyirdi:

- Dur, oğlum, dur, qışın uzun gecələrində buxarımızı yandıracağıq, onun başına toplaşacağıq, Tamam da bizə gözəl nağıllar söyləyəcək, biz də bu meyvələri şirin-şirin yeyəcəyik.

Bəli, anam vədə verdiyi günlər gəlib çatdı, ağappaq qar kəfən kimi yeri qucaqladı. Soyuq külək heyvanları isti tövlələrə, insanları buxarının başına topladı. Gecələr qadınlar, uşaqlar otağımıza yığılıb buxarının başına toplaşırdılar. Anam da çərəz gətirib qoyardı. Biz də şirin söhbət edərək yeyərdik, danışardıq, gülüşərdik, axırda da Tamam maraqlı nağıllarını başlardı. Yeri gəldikdə özünü el aşıqlarına oxşadaraq, həzin bir səslə oxuyardı. Bəzi vaxt söhbət əcinnədən, şeytandan, divdən, hal anasından düşərdi. Hər kəs bunlardan əcaib, qəraib şeylər nağıl edərdi. Gülbənd bacısı Tamamın hər şeydən ziyadə xaraba qəbiristandan qorxduğunu söylərdi. Qadınlardan bəzisi ölülərin xortlamağından bəhs edərək Tamamın xofunu haqlı bilərdi. Anam biz uşaqların gözlərində qorxu əlamətini görərək söhbəti dəyişdirərdi. Onun əvəzində xidmətçi Bəxtiyara qaval çaldırıb bizləri oynadardı...

Bu il yay tətili münasibətilə böyük qardaşımla bir yerdə vətənə övdət[1] etmiş dayım mənimlə görüşdükdə anama dedi:

- Bunun da oxumaq zamanı çatmış. Gedəndə özümlə aparacağam.

- Yox, qardaşım, birini dartıb qərib vilayətə apardığın yetər, daha bunu vermərəm, - deyə anam dayımın təklifini rədd etdi.

- Verməyib nə edəcəksən? Özün bilirsən ki, oğlunun atası, əmiləri, hamısı ölüb, böyük mülkünüz əlinizdən çıxıb, cinsli ilxılarınız sahibsizlikdən tələf olub, sən bir dul arvad, buna nə tərbiyə verəcəksən?

Böyüdüb çobanmı edəcəksən? Nə üçün övladının bədbəxt olmağına səbəb olursan?

Belə dəyərli sözləri ilə dayım bacısını yola gətirmək istəyirdi. Lakin anam razı olmayıb deyirdi:

---

[1]Qayıtmaq



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Övladımı nə üçün elmsiz qoyuram?! Bu ildən mollanın yanına göndərib oxutduracağam...

- Onda, bu işi uşağın özünə burax, istər biz ilə təhsilə gedər, istəməz, sən anası və bacısı ilə burada qalar.

Anam buna razı oldu; çünki ondan ayrılmayacağıma şübhə etməyirdi. Lakin hər şey dayım tərəfə keçməyə səbəb oldu. Birisi mollanın çubuq və falaqqa qorxusu, digəri qardaşımın və qeyri məktəbli qohumların gözəl formalı məktəb paltarı və söylədikləri əcaib şeylər idi.

- Mən dayım ilə oxumağa gedəcəyəm, - deyə razılıq verdim.

Anam naçar qalıb bir şey demədi. Lakin yenə də ümidini kəsməmişdi, çünki məktəblərin açılmağına iki ay qalmışdı, ona kimi mən fikrimi dəyişdirəcəyəm ümidində idi.

Bir gün Tamam məndən soruşdu:

- Doğrudanmı, oxumağa gedəcəksən?

- Bəli, gedəcəyəm, yoxsa sən razı deyilsən?

- Mən razıyam, amma xanım məni öyrədir ki, səni bu fikirdən daşındırım. Sən heç kəsə qulaq asma, get, oxu, böyük adam ol, get burada çalış, ancaq yazıq kəndlilərə əziyyət vermə. Amma bu dediklərimi anana söyləmə, yoxsa xanım məndən inciyər.

Zavallı anacığım, ümid bağladığın Tamam da sənin bərəksinə gedir. Axır ayrılıq zamanı gəlib çatdı. Anamın və bacımın göz yaşlarına davam edə bilməyirdim. Əgər Tamam olmasaydı, mən anamdan ayrılmayacaqdım. Tamam mənə yanaşıb dedi:

- Heç qüssələnmə, doqquz aydan sonra yenə gələcəksən, burada şad görüşəcəyik. Sən də gördüyün şəhərlərdən, oxuduğun kitablardan bizə nağıl edəcəksən. Amma burada qalsan, heç bir zad bilməyəcəksən.

Bu sözlərlə Tamam mənə təsəlli verərək sakit edirdisə də, titrək səsindən, ağarmış çöhrəsindən, yaşla dolmuş şəhla gözlərindən məlum olurdu ki, bu ayrılıq ona da böyük təsir edir.

Axır gözü yaşlı anam, bacım və sair əqrəbam ilə əlvida edərək yola düşdüm.

* * *

Vətəndən xaric qapalı pansion, dörd divar içində yeknəsəq yaşayış, hər bir tutulacaq işin çınqraq ilə olmasını bir xəyalınıza gətirin ki, belə bir yerdə, asudə, gözəl təbiət içində bəslənmiş bir uşağın halı



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

necə olardı? Gündüzlər dərslərə, idmana, oynamağa və sair işlərə məşğul olaraq, belə məişətin ağırlığını bir o qədər hiss eləməyirdim, dərin sükuta dalmış uzun gecələri isə göz yaşı tökərək xəyal ilə keçirirdim... Nəhayət, yay tətili gəlib yetişdi. Bir para yoldaşlarımla vaqona minib vətənə üz qoyduq, üç gündən sonra gəlib evimizə çatdıq. Mən anam, bacım və sair qohumlarımla görüşdüm, öpüşdüm. Lakin nə həsrətini çəkdiyim Tamam və nə də Gülbənd onların arasında yox idi. Bu isə məni iztiraba salırdı. Soruşmağa da cəsarət eləməyirdim. Axırda görüşə gələnlər dağıldıqdan sonra anamdan soruşdum:

- Tamam və Gülbənd haradadırlar? Nə üçün mənimlə görüşməyə gəlmədilər.

Anam çaşqın bir hal ilə dedi:

- Bilmirəm nə üçün, əlbəttə, eşidib gələrlər, görüşərlər... Onlar səni çox istəyirlər.

Anamın belə dolaşıq cavabı məni daha da qorxu və şübhəyə saldı.

- Ana, nədən isə doğrusunu demək istəmirsən, söylə görüm, onların başına nə iş gəlmiş?

- Bir şey yox, onlar buradan köçmüşlər... Gülbənd də, Tamam da ərə getmişlər... Sonra başlarına nə qəziyyə gəlmişdir, bilmirəm.

Anladım ki, anam da, bacım da həqiqətən məndən gizləyirlər. Ona görə artıq sual vermədim və işin həqiqətini bilmək üçün başqa yollar aramağa səy etdim.

Əmioğlumun xidmətçisi Məmmədrza, uşaqlıqdan bu üç ailə içində yaşadığına görə, hamımız ona bir külfət üzvü kimi baxırdıq, ondan gizli bir sirrimiz olmazdı.

Məmmədrza üçün dünyada qəm-qüssə yaranmamışdı. Həmişə deyən, danışan, gülən, zarafatçı bir şəxs idi. Həmişə də "Bu dünya beş gündür, beşi də qara, əbləh odur, onu qəm-qüssə ilə keçirə..." sözlərini təkrarlarla söyləyirdi. Sabah ertə böyük bağımızı gəzmək bəhanəsilə Məmmədrzanı yanıma salıb getdim. Yol uzunu Məmmədrza məzhəkə söyləyərək məni güldürürdü.

Bağımızı seyr etdikdə Məmmədrzadan soruşdum:

- Lələ, səndən bir şey soruşacağam, məndən gizləmə, doğrusunu söylə. Nə üçün Budaq baba buradan köçmüş? Tamam ilə Gülbənd necə olmuşlar?

Bu sualımdan Məmmədrzanın gülər üzü qara bulud kimi tutuldu. Bir az fikirdən sonra:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Bu göy ot üstə oturaq, mən də sənə onların faciələrini söyləyim, - deyə təklif etdi.

Oturduq, Məmmədrza da kürd qızlarının başlarına gələn müsibəti nağıl etməyə başladı. Gülbənd ilə kiçik əmioğlumun sevişdiklərini bilirdim, lakin onu zor ilə bir kürd oğluna verib əmioğlumdan uzaqlaşdırmağı iridi, Məmmədrzanın nağılından bildim.

Məmmədrza Tamamın faciəli qəziyyəsini nağıl etdikdə mən davam edə bilməyib başımı otların arasında gizlətdim və göz yaşım neysan yağmuru kimi tökülüb otları islatdı.

Gülbəndin qəziyyəsindən sonra Budaq baba, böyük qızmın yanına köçməyə məcbur olur. Yazıq Tamam bizim ailəyə öyrəşdiyindən ayrılmaq istəməyirmiş, lakin əmioğlularının aralarına nifaq düşməsinə səbəb olmamaq üçün anam onun getməyinə izin verir.

Seyidli kəndi, ona qədər başqa kəndlərlə bitişən iki dağın arasında düşmüşdür. Bu kəndlilərin meyvə bağları təxminən 12-13 kvadrat kilometr yer tutaraq, uzaqdan baxdıqda böyük bir meşəyə bənzəyirdi. Qərb tərəfə uzanan dağlar getdikcə qaralıb, əskidən bina olmuş Əsgəran qalasına çatdıqda yarım kilometr qədər bir-birlərinə yaxınlaşırlar.

Bu iki dağın arasında Qarqar çayı axır. Kəndlilərin bağları, bostanları, tarlaları bu çaydan sulanır. Seyidli kəndinin səkkiz verstliyində, Əsgəranın yaxınlığında Bozdağ adlı bir otlaq mövcuddur. Bahar fəsli maldar kəndlilər buraya köçüb alaçıqlar qurarlar və orada yaya qədər qalıb mallarını otladarlar. Sonra yaylaqlara köçərlər.

Həmin Bozdağda, yol kənarında əski xaraba bir qəbiristan vardır, kəndlilər burada ölülərini dəfn edirlər. Zavallı Tamamcığazın faciəsi də bu yerlərdə zühur etmiş. Belə ki, bir mallı, dövlətli kəndlinin cavan oğlu şiddətli surətdə dəli olur. Hətta onu zəncirlə bağlamağa məcbur olurlar. Nə qədər dua yazdırırlar, pirə aparırlar və bu kimi avamca müalicə edirlərsə də fayda verməyir. Axırda kim isə: "Belə dəliyə bir məsumə qız gəlin olarsa sağalar" deyə ata-anasını inandırır. Onlar da elə bir qız axtarmağa başlarlar. Lakin hansı bir fağır kəndliyə böyük pullar vədəsilə təklif edirlərsə, heç kəs qızım belə dəliyə vermək istəmir. Axırda arayıb Budaq babam tapırlar və böyük pul ilə onu razı edirlər.

Zavallı Tamamın, "Səni bir gözəl dövlətli cavan oğlana veririk", -deyə məcburən razılığını alırlar, kəbinin kəsirlər. Sonra toysuz, gizlincə dəliyə gəlin aparırlar. Tamam baxıb görür ki, onu aldadıb dəliyə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

vermişlər. Bunu bildikdə yazığın bütün bədəni titrəməyə başlar. İttifaqən həmin gecə göy üzünü qara buludlar tutub şiddətli yağmur yağmağa başlar. Dağlardan axan sellər alaçıqlara dolub bəzilərini yumalayıb aparır. Adamların başı buna qarışdıqda Tamam fürsət tapıb qaçar.

Gecənin qaranlığı, göyün dağlara səda satan dəhşətli şaqqıltısı, dərələrdən axan sellərin gurultusu Tamam kimi bir qızı yox, bütün kişiləri də xofa salar. Başaçıq, ayaqyalın küləkdə boğuşa-boğuşa, sellərlə əlləşə-əlləşə Tamam qaçır. Dəli əmin ürəyinə elə bir qorxu salmışmış ki, zavallı qızcığaz indiki halına şad imiş. Onun fikri o imiş ki, adamlar duyuq düşüncə Qarqar çayını keçib meşədə gizlənsin. Lakin bir qədər qaçdıqdan sonra daşlara dəyib yaralanmış ayaqları yağmurdan islanmış, bədəni külək ilə əlləşməkdən tabdan düşmüş əzası, daha hərəkətdən qalır. O zaman bir pənah yeri arayır ki, gizlənib dincəlsin, haranı tapır, bilirsinizmi? Hər şeydən artıq xof etdiyi qəbiristanı.

Tamam, üstü günbədli bir əski məzar tapır və içində gizlənir.

İttifaqən axşamlamış bir qoca dilənçi, yoldan keçərkən, həmin gün-bədii məzarı görür. İçəri girmək məqsədilə qapısına gəlir. Bu zaman dəhşətli bir qışqırıqdan diksinərək çəkilir. Qoca heyrətdə ikən Tamam dişarı çıxır və sərsəri, qorxunc bir qəhqəhə çəkərək, ildırım kimi çaya tərəf qaçır. Dilənçinin bütün bədəninə bir lərzə yayılır. Bismillah, deyərək qəbiristandan qaçmağa üz qoyur.

Səhər olcaq Tamamı aramağa başlayırlar. Xeyli aradıqdan sonra meyidini Qarqarın o biri sahilində tapırlar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## QATİL UŞAQ

Otuz-qırx il bundan əvvəl, bəlkə indi də Azərbaycanın çox yerlərində müsəlman əkinçiləri arasında xeyli təəccüblü, hər kəsin nəzərini özünə cəlb edən və əkinçilik sənətinə əsla yaraşmayan bir hal vardı. O da əkinçilərimizin öz zəhmətilə becərilmiş taxılı biçməkdə aciz qalaraq, iranlı biçinçilərinə möhtac olmaqları idi.

Yayın isti günləri idi. İran biçinçiləri eyinlərində cındır paltar, ayaqlarında çarıq, qabarlı əllərində oraq, arxalarında mitil yorğan, Araz çayını keçərək, Azərbaycana sel kimi axırdı. Bu zəhmətkeşlər arasında başı əmmaməli və qurşaqlı, boynu yoğun seyid dəstəsi də görünürdü. Zənn olunmasın ki, bu müftəxorlar da Azərbaycana iş aramağa gəlirdilər. Xeyr, onlar xırmanları gəzib: "Cəddimin payını ver" deyə kəndlilərdən "seyid vergisi" tələb edərdilər. Dini və adəti - mövhumata qərq olmuş sadədil məzlum kəndlilər, hər bir vergidən əvvəl bu müftəxorların torbalarını doldurardılar və heç biri cürət edib onların tələbini rədd edə bilməzdi.

* * *

Zəmili kəndi dağ ətəyində, meşə qırağında düşmüşdü. Bu kəndin əhli əkinçilik və maldarlıqla məşğul olardı. Tarlaları yüksək yerlərdə olduğu üçün dağlar arasından axan çaylardan istifadə edə bilməzdilər. Ona görə yağmur az yağan ili əkinləri yanıb zəhmətləri hədər gedərdi.

Bu kəndin qurtaracağında, meşənin başlanğıcında əski və ufaq daxmada Qızxanım adlı bir qadın on iki yaşlı oğlu ilə yaşayırdı. Bu qadın beş il idi ki, dul qalmışdı. Əri Mehdiqulunu artıq dərəcədə sevərdi və sevməyə də haqlı idi, çünki Mehdiqulu həlim təbiətli, gülər üzlü, rəhmdil bir şəxs idi. Ölənə kimi bir dəfə də olsa, Qızxanımı incidib əziyyət verməmişdi. Bundan əlavə Mehdiqulu kənd əhli ilə də gözəl rəftar edərdi.

Tarlasını hamıdan qabaq şumlayıb qurtarardı və sonra dul qadınların, xəstə düşmüş kəndli qardaşların yerlərini pulsuz-parasız öz öküzləri ilə sürərdi; buna görə kəndlilər onu çox istərdilər. Bu yaxşılıqların əvəzi idi ki, indi dul qalmış Qızxanımın tarlasını "ho" edib əkərdilər və biçin zamanında kömək edərdilər. Bir tərəfdən də oğlu Mərdanı



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

özlərinə çoban tutub, pul verməklə Qızxanıma kömək əllərini uzadırlar. Qızxanım bu qeyrətli kəndlilərin sayəsində öz oğlu ilə yaxşı güzəran edərdi.

Qızxanım əri kimi işlək, xoş xasiyyətli, namuslu bir qadın idi. Bir ittifaq kəndlilərin məhəbbətini ona daha da artırmışdı: cavan Qızxanım dul qaldıqdan sonra dübarə ərə getməmişdi. Elçilərə belə cavab verərdi:

- Sevgili ərimdən sonra kimsəyə arvad olmaq həvəsində deyiləm və oğlum Mərdanın da qəlbini yaratmaq istəmirəm. O qeyrətli uşaq böyüyüb məni hamıdan yaxşı saxlayacaqdır.

Bu fikir yanlış deyildi. Mərdan sağlam, cəsur bir uşaq idi. Anası ilə mehriban rəftar edib itaətindən boyun qaçırmazdı.

Atası Mehdiqulu asudə vaxtlarını ovda keçirərdi. Bəzi vaxt Mərdanı da özü ilə ova aparardı. Bu isə uşaqda ovçuluq həvəsini artırardı. Atası öləndən sonra uşaq onun ov tüfəngini də özü ilə götürərdi. Anası mane olmaq istədikdə deyərdi:

- Ana can, qorxma, tüfəngdən mənə xata gəlməz, bəlkə, məni yırtıcı heyvandan mühafizə edər. Atmaqda da ustayam.

Günəş ahəstə-ahəstə dağ başından enirdi. Getdikcə gözə batıcı şöləsi zəifləşirdi. Dünyaya buraxmış zərrələrini geri çəkərək sanki deyirdi: - Siz də bir qədər rahat olun, balalarım.

Bir azdan sonra günəş dağın dalına enərək gözdən qaib oldu. Kəndə qaranlıq çökməyə başladı. Aradan bir on dəqiqə kecdikdən sonra dağın arxasından qara buludlar qalxaraq, kəndin üstünü aldı.

Qızxanım daxmadan çıxıb darvazaya gəldi. Qara buludları gördükdə yazıq qadının ürəyi iztiraba düşdü.

Mərdan hər gün günəş batdıqda malları kəndə gətirərdi. Qəflətən şimşək qızıl ilan kimi göyün üzündə oynayaraq dağlara dəhşətli bir səda buraxdı. Bu səsdən diksinərək, Qızxanım ürəyində dua etməyə başladı.

Gurultu getdikcə artırdı. Bir azdan sonra şiddətli yağmur yağmağa başladı. Qızxanım daxmaya girib köhnə, yamaqlı şalına büründü və yenə qapıya çıxdı. Bu vaxt qısaboylu, qaraqaş, pırtlaqgöz bir cavan



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

seyid, əbasını başına çəkmiş, doqqaz ilə gəlirdi. Qızxanımı gördükdə ona tərəf yönəldi.

- Bacı, mən qərib seyidi allah qonacı saxlamağı rica edirəm.

- Ağa, cəddinə qurban olum, bu ev heç bir qonağı qapısından naümid qaytarmamış, ancaq mənim ərim vəfat etmiş. Mən bir dul qadınam, kişisiz evə sən naməhrəmi necə buraxım?

Seyid bunu eşitdikdə və cavan Qızxanımın gözəl simasını gördükdə qara pırtlaq gözlərindən od parladı.

- Bacı, seyid övladı hər bir evə məhrəmdir, məni belə yağmurda qapıdan naümid qaytarsan, bu evi, bişək-şübhə, bəla tutar.

Qızxanım seyidin qarğışlarından çox qorxardı. Oğlu xəstə olanda, başı ağrıyanda, ya sancı tutanda hər bir şeydən əvvəl seyidə nəzir edərdi. İndi seyidin sözlərini eşitdikdə ürəyi qorxuya düşdü. Bir tərəfdən də namuslu qadın yad kişini evinə buraxmaqdan həya edirdi. Bu halda intizarını çəkdiyi oğlu yadına düşdü.

- Ağa, içəri buyurun, yağış sizi isladır. - Hər ikisi həyətə daxil oldu. Qızxanım daxmaya girib çırağı yandırdı və sonra seyidi içəriyə təklif etdi.

- Buyurun, ağa, rahat olun.

Seyid islanmış əbasını çıxarıb əyləşdi.

- Bacı, bəs oğlun haradadır?

- Ağa, oğlum kəndin mallarını otarır, indi gələr. Ancaq yağış çox şiddətli yağır. Oğlumdan nigaranam, çünki uşaqdır, dağdan axan selə düşüb tələf olar.

Seyid dedi:

- Xof etmə, bacı, sən mən seyidi müsafir etdin, cəddim Məhəmmədəlmustafa buyurmuşdur ki, mənim övladım olduğu evə bəla nazil olmaz. Bu saat oğlun sağ-salamat gəlib çıxar.

- Allah ağzından eşitsin, ağa.

- Əlbəttə, biz seyidlərin ağzından çıxan sözlərin hamısı allah, peyğəmbər kəlamıdır. Ancaq, bacı, səndən bir söz soruşmaq istəyirəm. Sən belə gözəl və cavan qadın nə üçün ikinci ərə getməmisən?

- Ağa, mən ərimi çox istəyirdim. O öləndən sonra əhd etdim ki, bir də başqasına getməyim. Onun tək varisini böyüdüm.

- Əhsən, əhsən, görürəm sən çox vəfalı qadınsan. Lakin nadanlıqdan cəddimin əmrindən çıxmısan və günah da etmisən. Məgər bilmirsənmi ki, cəddim Məhəmmədəlmustafa öz şəriətində bir kişiyə 4



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

arvad almağı caiz buyurmuşlar. Bundan əlavə, siğə yolu da qoymuş. Biz seyidlərə gəldikdə bunlar da lazım deyil. Bir dua oxumaqla hər bir qadın bizə halal olur. Mən buraya girdikdə o duanı oxudum ki, sən mənə halal olasan. Bunların sirri bilirsənmi nədir? İslam tayfası törəyib artsın, yer üzünü tutsun, kafirlərə qalib gəlsin.

Bu halda qızıl inəyin mələməsi Qızxanımın qulağına çatdı, cəld dişarıya çıxdı və qapını açıb inəyi içəriyə buraxdı. Sonra gözlərini doqqaza dikdi ki, görsün oğlu gəlirmi?

Yağış kəsilmişdi, lakin yoldan hələ sel axırdı.

Uzaqdan Qızxanımın gözünə bir qaraltı göründü. Gözlədi ki, görsün kimdir. Bir azdan sonra Mərdan və arxasınca Bozdar gəlib çıxdı. Qızxanım soruşdu:

- Oğlum, nə üçün belə gec gəldin? Yağış mallara xəta yetirmədi ki?

- Xeyr, ana, sel guclü olduğuna görə malları dağdan endirmədim ki, dərələrdən keçə bilməzlər, hamının mallarını bir-bir qapılarına kimi aparıb, həyətlərinə buraxdım.

- Gəl, ağıllı oğlum, rahat ol, bir seyid qonağımız da var. Yağış tutmuşdu, çox yalvardı ki, içəriyə qoyum.

- Yaxşı etmisən, ana! Belə havada qonağı yolda qoymazlar.

- Sən get rahat ol, mən də inəyimizi sağıb pəyəyə salım.

Mərdan içəri daxil olub seyidə salam verdi və "xoş gəlmişsiniz" - deyə halını soruşdu. Sonra islanmış yapıncısını çıxarıb divardan asdı və tüfəngini də bucağa qoydu. Seyid tüfəngə nəzər yetirib Mərdana dedi:

- Oğlum, tüfəng götürməyə hələ uşaqsan.

- Ağa, 12 yaşında kəndli balasına uşaq deməzlər. Bu gün sizin bəxtinizdən əlimə ov keçmədi. Dovşan çoxdu, ancaq mən onları ov etmirəm, çünki ətini heç kəs yemir. Ov edəndə də köpəyim Bozdara verirəm.

- Oğlum, dovşan ətini, at ətini peyğəmbərimiz məkruh[1] buyurmuşlar, yeni istəsən yeyərsən, istəməsən yeməzsən.

Mərdan soruşdu:

- Belə nə üçün? Desin ya halaldır, ya haram.

- Oğlum, şəriətimizdə çox sirlər vardır. Sən başa düşməzsən.

Qızxanım əlində bir badya süd daxil oldu. Sonra süfrə salıb, küpədən yağ çıxarıb sapılcaya qoydu və gedib qayğanaq bişirib süd, qatıq ilə süfrəyə qoydu.

---

[1] İyrənc-xoşa gəlməyən



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Ağa, başqa xörəyimiz yoxdur, allah verəndən yeyin.

- Allah evinizə bərəkət versin, bunlar da çoxdur. Təamdan sonra Qızxanım süfrəni yığışdıraraq dedi:

- Ağa, biz kəndlilər erkən yatıb, erkən də durmağı adət etmişik.

Bilirəm, siz də yol gəlmisiniz, yorulmusunuz. İzin verin, yerlərinizi salım.

Seyid dedi:

- Mənim də adətim elədir.

Qızxanım, oğlu və qonaq üçün içəridə, özü üçün də dəhlizdə yer hazır etdi.

Mərdan və seyid rahat olandan sonra Qızxanım çırağı götürüb dəhlizə keçdi və orada yatmaq istədi. Birdən yadına düşdü ki, Mərdanın köynəyi yarımçıq qalmış, səhər istəyəndə verə bilməyəcəkdir. Ona görə köynəyi tikməyə məşğul oldu. Qızxanım gecə yarıya kimi köynəyi hazır etdi. Sonra çırağı söndürüb özü də yatdı. Qızxanım yenicə yuxuya getmişdi ki, komanın qapısı açıldı, bunun cırıltısı Qızxanımı oyatdı.

- Kimsən? - deyə səsləndi.

- Bacı, mənəm, bayıra çıxmaq istəyirəm, köpəkdən qorxuram, -deyə seyid cavab verdi.

- Səbir edin, ağa, çırağı yandırım, - Qızxanım şala bürünüb çırağı yandırdı və aftafaya su töküb seyidə verib dedi: - Evin sol tərəfinə gedin.

- Bacı, köpəkdən qorxuram, dişarıya çıx, onu qoyma.

- Köpək pəyənin yanında yatır. O sizi görməyəcəkdir. Eybi yoxdur, mən də çıxaram.

Dişarıya çıxdılar, yağmurdan sonra hava çox gözəl və gündüz kimi aydınlıq idi. Seyid aftafanı yerə qoyub Qızxanıma tərəf gəldi.

- Gözəl xanım, bayıra çıxmaq bir bəhanə idi. Mən sənin eşqindən bu gecə gözlərimi yummamışam, mənim istədiyim gərək ola, - bunu deyib seyid Qızxanımın əlindən yapışdı.

Qan, həyalı, namuslu qadının başına sıçradı, əlini çəkib şala büründü.

- Ağa, sən məni bihəya qadınmı sayırsan? Heç peyğəmbər övladı belə iş edərmi? Səni evimə buraxıb qonaq etmişəm, qabağına duz-çörək qoymuşam, heç ondan utanmırsanmı? İndiyə kimi mənim əlimdən bir naməhrəm tutmamış.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Seyid dedi:

- Mən bayaq sənə dedim ki, mən sənə naməhrəm deyiləm, siğə duasını da oxumuşam. Mənlə mülaqat etsən nəinki günah, savabdan da savabdır, çünki bir seyid övladının məramını əmələ gətirirsən. Burada nə günah ola bilər? Onu da bil ki, hərgah mənim xahişimi əmələ gətirməsən, elə bir qarğış edəcəyəm ki, bu ev yanıb kül olsun, istəkli balan da tezliklə əlindən getsin, indi səndən cavab gözləyirəm.

Yazıq qadın seyidin ayaqlarına düşüb yalvarmağa başladı:

- Ağa, səni and verirəm o cəddinin pak olan ruhuna, mənim namusuma toxunma, mənim balamı əlimdən alma.

Seyid Qızxanımın şalını başından dartıb yerə atdı və onu qucaqlayaraq dedi:

- Görürəm, sən öz ixtiyarın ilə mənim xahişimi əmələ gətirməyəcəksən.

Namuslu qadın həyasından qışqırmırdı ki, səsini qonşuları və oğlu eşidər. Ancaq öz gücü ilə seyidin əlindən xilas olmaq istəyirdi. Bu halda Mərdan oyandı. Yuxulu uşaq dəhlizdən gələn işığı görüb səhər açılmışdır sandı. Cəld dəhlizə çıxdıqda həyətdə çılpaq anasını seyidin qucağında çapalayan görcək qan qeyrətli uşağın başına sıçradı. Tez içəri girib tüfəngi qapdı və həyətə çıxdı.

- Nə edirsən, binamus kişi?

Bunu eşitcək seyid Qızxanımı buraxdı. Mərdan onu qarovula götürüb tüfəngin çaxmağını cəkdi. Seyid şimal ruzigarından qopan qocaman ağac kimi yerə sərildi.

Bunu görcək Qızxanım qışqırdı:

- Nə etdin, oğlunu, seyid qatili oldun, evimiz tarmar olacaqdır.

- Bəs sən istərdin ki, mənim anamın namusuna toxunanı sağ qoyum. Məgər mən Mehdiqulunun oğlu deyiləm? Sən, ana, qorxma, hamıya cavabı özüm verəcəyəm, - deyə Mərdan anasına təsəlli verdi.

Tüfəngin səsinə və Qızxanımın qışqırığına yaxın qonşular tökülüb gəldilər. Əhvalatı biləndən sonra dedilər:

- Əhsən sənə igid və namuslu oğlan, lənət olsun belə binamus seyidə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## MOLLA QASIM

Molla Qasım öz arvadı Zeynəb ilə Güllücə kəndində ömür sürürdülər. Bunların İrandan Azərbaycana haçan keçməsi kəndin ancaq bir neçə qocalarının xatirində idi. Yerdə qalanları isə gözlərini açıb onları Güllücədə görmüşdülər.

Molla Qasım İrandan gəldiyi zaman bir çox böyük-kiçik kəndlərdə dolaşaraq nağıl etdiyimiz Güllücə kəndini bəyənib seçmişdi. Bunda da bir sirr vardı.

Mərkəzdən uzaq, qışlaqdan yaylağa uzanan yolun bir cığırımında, kol-koslu, ilan-çayanlı bir düzdə Güllücə kəndi bina olmuşdu. Əhalisi isə nəhayət dərəcədə avam, dini-mövhumat və bütpərəstlikdən qalma adətlər ağuşunda boğularaq, həkimsiz, dərmansız yaşayırdılar.

Molla Qasım anladı ki, belə camaatın içində hər nə ki, kələyi varsa, işlədə biləcəkdir. O idi ki, hərif bu kəndi və onun camaatını bəyənmişdi. Molla Qasımın fikri yanlış çıxmadı, az bir zamanda o, kəndin həm ticarət, həm mollalıq, həm də həkimlik, ağsaqqallıq və qeyri vəzifələrini əlinə keçirərək rahat yaşamağa başladı. Molla Qasımın ticarət mənbəyi olan balaca dükanına universal adı versək, səhv etmərik, çünki bu dünyada əttar, baqqal, bəzzaz, davacat və qeyri ticarət şeyləri mövcud idi.

Molla Qasımın bu "məta" mallarının qızğın alış-verişi el dağa köçən zaman və dağdan enən zaman olardı. Bu vaxt Molla Qasım dükanın mallarını artırardı, çünki böyük təcrübəsindən bilirdi ki, kəndlilər taxıllarını biçib, döymüş, ev üçün azuqə saxlayıb, yerdə qalanını satıb nəqd pul etmişlər, coluq-çocuqlarına, gəlin-qızlarına tuman, köynək, yaylıq, şal və qeyri paltarlıq alacaqlar.

Güllücədə Molla Qasıma borclu olmayan bir kəndli yox idi. Molla Qasım borcunu tələb edəndə, borcluları deyərdilər;

- A Molla Qasım, özün bilirsən ki, bu zaman bizdə pul olmaz.

- Pul yoxdur, toyuq, ördək, qax, qoz ki vardır. Arvadlarınız da corab, şal, palaz toxuyurlar. Bunlardan gətirin borclarınıza hesab edək, - deyə Molla Qasım onları məzəmmət edərdi.

Molla Qasım Güllücə kəndinə kim tərəfindən molla təyin edilmişdi, bilən yox idi. Əslinə baxsan, heç kəs tərəfindən. Başqa vəzifələri kimi bunu da o özü qəsb etmişdi və bu mətləbi də qaldıran bir



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

adam yox idi. Molla Qasımın qəsdi avam və nadan kəndlilərə şəriət öyrətmək, xeyir-şərlərini anlatmaq deyildi və özünün də bu barədə artıq məlumatı yox idi. Onun məqsədi yene də pul qazanmaq idi. Hətta kəndlilər bir məktəb açmaq fikrinə düşdükdə Molla Qasım mane olub demişdi:

- Canım, siz kəndlilərə məktəb nə lazımdır? Uşaqlarınızı oxutsanız, öz əkinçilik sənətini atıb şəhərlərə qaçarlar, sizi də köməksiz qoyarlar. Bu fikirdən daşının, ağrımaz başınızı bəlaya salmayın.

Molla Qasımın həkimliyinə gəldikdə ondan-bundan bir neçə dərman adı öyrənib hər cür azar olursa-olsun o bildiyi dərmanın birini imtahan edərdi. Xəstə şəfa tapmayıb öləndə deyərdi: əcəli yetən adam öləcəkdir, istər həkimi loğman da ola. Öldürmək, diriltmək xudavəndi-aləmin əlindədir. Aciz bəndə burada bir şey edə bilməz.

Molla Qasımın arvadı Zeynəb qarı da azarlılara zəli yapışdırmaqda böyük ixtisas sahibi olub, kəndin bir erkəyi, qadını, cavanı, qocası, uşağı yox idi ki, Zeynəb qarının həcəmət və zəlisini görməmiş olaydı. Uşaqlar onu gördükdə qorxub qaçardılar. Kənd əhli bu qarıya "həcəmət" Zeynəb ləqəbini vermişdi. Zeynəb yırtıcı quş gözlü, qoyduğu həcəmət kimi beli əyilmiş, dilavar, kimsədən qorxmaz və çəkinməz bir qarı idi. Əri xəstə üstə getdikdə, ya ölü üstə aparıldıqda, o, dükanda oturub alış-veriş edərdi. Bundan əlavə körpə uşaqların həkimliyi, kəndin mamaça və elçiliyi bunun öhdəsində idi. Bir sözlə, Molla Qasım Güllücə kəndini inək kimi sağıb yeyərdi.

Hər bir xəsis adamda olduğu kimi, bunda da təbiət böyük qorxaqlıq yaratmışdı. Hərgah gecə vaxtı həyətdə bir qaraltı, bir səs gəlsəydi, dışarı çıxmaqdansa, qapıları bərkidib Zeynəb qarını göndərərdi ki, görsün nə var. Biləks, Zeynəb qarı çox qoçaq bir qadın idi, ərinə deyərdi:

- Bilməyirəm, mən olmasaydım, sən bu vəhşi camaatın içində, necə yaşaya bilərdin?

Molla Qasımın bir sifətini də söyləməliyik. O da avam kəndlilər kimi mövhumata inanıb qorxmağı idi. Əlalxüsus, dostu Zeynal kişi keçən cümə ona bu hadisəni nağıl etməklə cinlərə etiqadını möhkəmləşdirmişdi.

- Molla Qasım, xəstə olduğum cəhətə bu yay xırmanını hamıdan geriyə qalmışdı. Arvad-uşağı yaylağa köçürüb, özüm aranda qalmış-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dım. İşlərimi qurtarandan sonra uşaqlar üçün bir kisə un və qeyri azuqə tədarük edib boz qatıra yüklədim, yola düşdüm. "Cinli" dağdan qorxa-qorxa keçirdim. Bir zihəyat yox idi. Məni vahimə götürmüş birdən qulağıma zurna səsi gəldi. Diqqət ilə baxdıqda iki dağın arasında camaat gördüm, yəqin etdim ki, toydur, qatırımı onlara tərəf sürdüm, yaxınlaşdıqda bir cavan oğlan qabağıma çıxıb dedi:

- Zeynal kişi, sən çox xoş gəlmisən, buyur, burada toyumuz bir az rahat ol, ye, iç, sonra gedərsən.

Oğlan qatırın cilovundan tutub yoldaşlarına tərəf çəkdi. Onlara çatdıqda məni qatırdan düşürtdü. Qatırı bir kola bağlayıb məni hazır süfrəyə dəvət etdi.

Qonaqlar:

- Buyur, buyur, Zeynal kişi, sən bizim toya xoş gəlmisən, - deyə salamladılar. Süfrənin başında əyləşdirdilər. Məni heyrətə gətirən şey vardı, o da hamı məni tanıdığı halda, mən heç kəsi tanımayırdım. Plov süfrəyə gəldikdə məni toya təklif edən oğlan dedi:

- Zeynal kişi, təama şüru edin, ancaq ürəyinizdəki sözü demə. Bunu eşitcək, Molla Qasım, sənin sözün yadıma düşdü. Yəni hər şeyi başladıqda bismillah deməli. Mən bismillah decək, hamı yox ol. Gördüm boz qatırın üstündəyəm. Heyvan bir kolun qabağında dayanıb dincini alır. Bunu gördükdə qan-tər məni basdı. Heyvanı rahat qoymayıb qamçıladım. Bir azdan sonra bu cin məkanından uzaqlaşdım. İndi də bu hadisə yadıma düşəndə tüklərim biz-biz durur.

Molla Qasım:

- Zeynal kişi, cin-şəyatin biz bəni-adəmin düşmənidir. Hər cildə girib bizləri haqq yoldan çıxarmaq fikrindədirlər. Ancaq gərək allahdan uzaqlaşmayasan, onda heç şey edə bilməzlər - deyərdi.

* * *

Hekayəmizin qəhrəmanları belə ömr sürməkdə ikən Azərbaycanda Şura hökuməti quruldu. Sair kəndlər kimi Güllücə kəndində də kənd şurası düzəlib yeni şura yaşayışı başlandı. Qızlar və oğlanlar üçün məktəblər açıldı, böyüklər üçün də savad kursları. Kəndliləri yeni quruluşun qanunu ilə aşna etmək üçün və onların biliklərini artırmaq üçün kənd camaatına tez-tez nitq və məruzələr oxuyurdular.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

* * *

Xanənişin olmuş Molla Qasım bir dəfə öz dostu Zeynal kişi ilə belə yığıncağa getmişdi. Natiq din və məzhəbdən bəhs etdi:

Din və məzhəb yoxsulları zəncirləyib ağalara və sərvətdarlara qul etmək üçün yaradılmışdır.

Din yoxsullar üçün bir tiryəkdir ki, onları həmişə qəflətdə saxlayıb, oyanmaqlarına mane olmuşdur. Ruhanilər, hökmranların, sərvətdarların min dürlü zühnünə davam etdirmək üçün, "yoxsullar səbir edin, böyüklərin ehtiramını saxlayın, onların itaətində olun ki, axirətdə allahın behiştinə nail olasınız, yoxsa əbədilik cəhənnəmin oduna yanarsınız" - deyə yoxsul sinfə bu dünyada cəhənnəm çəkdirib onların zəhmətilə özlərinə behişt qurmuşlar...

Bu nitqi eşitdikdə Molla Qasımın bədəninə titrətmə düşdü. Qorxudan daha məsciddə qala bilməyib evinə gəldi.

* * *

Nağıl etdiyimiz zamandan üç il keçdi. Zeynəb qarı hələ ümidini kəsməmişdi. Hey tas qururdu ki, Şura hökumətini yıxsın, amma bolşeviklər tilsimə düşməyib gün-gündən möhkəmləşirdilər. Güllücə kəndini indi tanımaq belə olmurdu. Bataqlı küçələri düzəldib, gecələr elektrik ilə işıqlanırdı. Cavanlar tərəfindən teatr tərtib olunmuşdu. Qadınlar üçün klub açılmışdı.

El yaylağa köçən zaman idi. Molla Qasım həyətdə qoz ağacının altında həsir saldırıb uzanmışdı. Zeynəb qarı da gilas və ərik qaxı qurudurdu. Bu halda dərvaza döyüldü. Zeynəb qarı gedib açdı. Bir cavan kəndli yedəyində iki at qapının dalında durmuşdu.

Zeynəb qarı soruşdu:

- Nə istəyirsən?

- Zeynəb nənə, molla əmi evdədirmi?

- Bəli, evdədir, içəri gəl.

Kəndli atları küçədəki ağaca bağlayıb içəriyə girdi. Molla Qasım başını qaldırıb soruşdu:

- Qənbər, nə var? Xeyir ola, yoxsa Hacı Cəfər naxoşlamış?

- Xeyr, molla əmi, atam salamatdır. Ancaq uşaqlıqdan bizim evdə tərbiyə almış bir kürd köç üstə qəflətən naxoşlayıb öldü. İndi onu dəfn



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

etmək üçün sizi aparmağa gəlmişəm. Yoldan kənar qəbir də hazır etmişik.

Molla Qasım istehza ilə dedi:

- Siz bolşeviklər allaha, peyğəmbərə, imama, şəriətə inanmayırsınız. Daha molla nəyinizə lazımdır? Heyvan kimi üstünü torpaqlayın, çıxsın getsin.

- Molla Qasım, mənə qalsa elə edərəm və sənə də əziyyət vermərəm, çünki əqidəmcə meyit namazı qılsan da, qılmasan da təfavütü yoxdur, ölü çürüyüb torpaq olacaqdır. Daha bundan bir də nə diriltmək və nə də sorğu-sual olacaqdır. Ancaq atam onu çox istəyirdi, deyir ki, gərək qayda ilə molla dəfn etsin.

Zeynəb qarı bu sözləri Qənbərdən eşitdikdə davam etməyib dedi:

- Allah sizin kökünüzü dibindən kəssin, dinsiz mürtədlər. Tükəzban kimi allah bəndəsi arvaddan belə kafir oğul törəsin?

Qənbər gülərək cavab verdi:

- Ay Zeynəb nənə, mən kafir öləndə, nə molla əmi zəhmət çəkib namazımı qılsın, dəfn etsin, nə də sən ağlaşma qurub şaxsey vurasan.

Ancaq məni atam göndəribdir ki, molla əmi gəlib Qədiri dəfn etsin. At da gətirmişəm. Zəhmət haqqınızı da alacaqsınız.

Molla Qasım pulun adını eşitcək yumşalıb dedi:

- Atan Hacı Cəfər ilə duz-çörək kəsmişəm, özü də çox dindar bir kişidir. Anan da Zeynəbin bacılığıdır. Onların xatiri üçün razı oluram.

Molla Qasım qalxıb geyindi, Qənbərin köməkliyi ilə atı mindi və hər ikisi yola düşdü. Yolda Molla Qasım Qənbərə nəsihət edirdi. O da cavabında deyirdi:

- A Molla Qasım, biz yoxsullar bu dünyada oda yanmışıq, bir də sən deyən dünyada yansaq, bu ədalətsizlik olar və sən də deyirsən ki, allah adildir, zalım deyil.

Molla Qasım hər nə dəlil gətirirdisə, Qənbər cavabını verib onu məəttəl qoyurdu. Belə bəhs edərək gəlib bir kolluq və qaranlıq yerdə qazılmış qəbrə çatdılar.

Orada iki kəndli, Rəhim və Kərim qəbrin yanında oturub bunları gözləyirdilər.

- Kərim, mollanın atını tut, - deyə Qənbər atdan düşdü.

Molla Qasım ölünün meyit namazını qılıb qurtardı. Onu qəbrə qoydular. Molla Qasım ölünün təlqinini oxuyan zaman Qənbər yoldaşlarına dedi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Molla duasını oxuyunca, biz də başdaşını gətirməyə gedək. - Kəndlilər getdilər. Molla Qasım qəbirdən çıxan torpağın üstə çömbəlib ərəb dilində kürd Qədirə axırıncı imtahanlarını öyrədirdi. Qəflətən ayaqlarını altından torpaq qaçıb qəbrə yıxıldı. Molla Qasım gördü ki, ölünün ayaqları yuxarı qalxdı. Bundan qorxaraq onun ayaqlarını əli ilə basdı. İndi də ölünün başı dikəldi. Bunu gördükdə Molla Qasım qışqırıb qəşş etdi.

Aradan bir on dəqiqə keçmiş kəndlilər üçlükdə bir iri daş gətirərək gəlib çıxdılar. Daşı qəbrin yanında yerə saldılar.

Kəndlilər qəbrə baxdıqda gördülər ki, Molla Qasım meyiti qucaqlayaraq huşsuz uzanmışdır. Rəhim qəbrə enib yoldaşlarının köməyi ilə Molla Qasımı bayıra çıxartdı.

Hər üçü Molla Qasımı huşa gətirməyə çalışdılar. Xeyli səydən sonra Molla Qasım özünə gəldi. Üzündən qan qaçıb, meyit rənginə dönmüşdü. Qənbər soruşdu:

- Molla əmi, sənə nə olmuş? Bu nə halətdir?

Molla Qasım zəif və titrək səslə dedi:

- Ölü xortlamış, ayağa qalxmaq istəyirdi... məni boğdu... sonra bilməyirəm nə oldu... Məni tez Zeynəbə yetirin...

Bunu eşitdikdə, kəndlilər biixtiyar qarınlarını tutub qəhqəhə ilə gülməyə başladılar.

- Bizim etiqadlı mollamız, heç ölü də xortlarmı, ölən adam da dirilərmi? Ay alim Molla Qasım, beləmi əqidə ilə biz avam kəndlilərə yol göstərici olmuşdun? - deyə Qənbər Molla Qasıma məzəmmət etməyə başladı.

Molla Qasım dedi:

- Mənə inanmayırsınız, qəbrə girin baxın.

- Baş üstə, Molla Qasım, bu saat qəbrə enib sənə səhih xəbər gətirəcəyəm, ancaq özün də qorxmayıb qəbrə baxasan, - deyə Qənbər qəbrə endi.

Molla Qasım qorxa-qorxa oraya baxırdı. Qənbər ölünün ayaq tərəfindən basdıqda meyitin baş tərəfi dikəldi.

- Gördünüzmü, - deyə Molla Qasım titrəyə-titrəyə soruşdu.

Qənbər ölünün baş tərəfindən basdıqda ayaq tərəfi qalxdı. Molla Qasım:

- İndi mənə inanırsınız.

Qənbərəlini meyitin baş tərəfinə soxaraq, Rəhim və Kərimə dedi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- İkinizə də lənət olsun, belə də qəbir qazarlarmı? Qəbrin ayaq və baş tərəfini qazıyıb çuxura salmısınız, amma ortasını dik qoymusunuz.

Əlbəttə meyitə əl dəydikdə ləngərlənəcəkdir.

Bunu eşitdikdə Kərim gülüb dedi:

- Ay Molla Qasım, yazıq Qədir xortlamamış, biz xortlamışıq.

Kəndlilər Qədirin meyitini çıxarıb qəbri düzəltdilər. Sonra yenə qəbrə qoyub basdırdılar. Molla Qasımın at üstə tək oturmağa taqəti yox idi, onu Kərimin tərkinə mindirib qurşağı ilə bağladılar ki, atdan yıxılmasın. Bu tövr ilə Qənbər və Kərim Molla Qasımı evinə gətirdilər. Zeynəb qan ərini belə gördükdə qışqırıq saldı.

- Zeynəb nənə, qorxma, molla əmiyə heç bir şey olmamış, zəiflikdən atda özü otura bilmədi, onun üçün belə gətirmişik, - deyə Qənbər onu sakit etdi.

* * *

Bu hadisədən Molla Qasım sarılıq azarına düşüb xəstə yatdı. Bu əhvalat kənd əhli arasında yayıldı. Nadinc uşaqlar Molla Qasımın evinin yanından keçdikdə bağırırdılar:

- Molla Qasım, qaç xortdan gəldi.

Molla Qasımın azarı getdikcə artırdı. Axırda el dağdan enən zaman, ağartının qızğın alver vaxtı Güllücə kəndinin sabiq mollası, həkimi, taciri, ağsaqqalı və sairə vəzifə sahibi Molla Qasım vəfat etdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**NƏ ÜÇÜN**

Axşamçağı, 1905-ci il yanvarın 8-də, Vasilyevski cəzirəsi küçələrindən birində uçuşan, sovrulan qarlarla əlləşərək, şiddətli dondurucu ruzgarlarla boğuşaraq, işçi bir qadın mənzilinə qayıdırdı. Bu qadının çöhrəsində bir məyusluq görünürdü, onu gözləyən ac uşağına bir parça da olsa çörək tapmamışdı, kiçik qızcığazının yanına əliboş gedirdi.

Qadın gəlib mənzilinə çatdı. Donmuş əli ilə qapını döydü. Balaca Lena çox çətinliklə qapının cəftəsini açıb anasını içəri buraxdı.

- Anacığım, yemək gətirdinmi? - deyə uşaq soruşdu.

- Toxda, balacığım, qoy donmuş əzamı bir isidim, - deyə Vera üst paltarını çıxarıb bir mitil əsgi yorğana büründü, lakin qapı və pəncərə arasından soxulan ruzgar rütubətli, soyuq və balaca otağı elə soyutmuşdu ki, Vera yorğanın altında da titrəyirdi. Kürkünə bürunüb bucaqda mürgüləyən 80 yaşlı Mixail baba nəvəsinin gəldiyini duydu. Bir qədər sükutdan sonra baba soruşdu:

- Vera, yığıncağınızda nə qərara gəldiniz?

Vera titrək səslə cavab verdi:

- On üç min tətil edən "Putilov" işçisi, başqa zavod və fabrik işçilərilə bahəm belə qət etdilər ki, sabah arvad-uşaqlar ilə birlikdə çar babaya müraciət etsinlər, ona dərdlərini söyləsinlər və imdad istəsinlər.

Bunu eşitdikdə Lena sevincək soruşdu:

- Anacığım, məni də aparacaqsanmı? Bax mən daha səndən yemək istəmirəm, sabah çar babam bizə hər şey verəcəkdir. Anacığım, qorxma, mən yorulmayacağam, aclıqdan da şikayət etməyəcəyəm.

Mixail baba istehza ilə dedi:

- Çar babadan imdad gözləmək, zülm yuvasına müraciət etmək, nə qədər sadəlilik. Romanov xanədanına altı oğul, beş nəvə qurban vermişəm, belə xidmət əvəzində bu uzun ömrümdə bir qarın çörəyə möhtac olmuşam. Qızım, qorxuram, sabah çar babanız çörək əvəzinə sizləri qurğuşuna qurban etsin.

- Nə deyirsən, baba? Elə iş olarmı? Biz fabrik-zavod sahiblərindən mümkün olmayan bir şey tələb etmirik. Gündə 12 saat zəhmətə, işçi qadınların gündəlik məvacibini 70 qəpiyə və erkəklərinkinin bir manat qədər artırılmasını rica edirik, bu böyük bir tələbmi? Bir də sabah biz silahsız, əllərimizdə kilsə bayraqları, döşlərimizdə xaç,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

uşaqlarımız ilə bərabər Qapon papanın rəhbərliyilə gedəcəyik, nə üçün bizləri qurğuşuna qurban etsin?

Mixail baba dodaqları altında mırıldanaraq, kürkünü başına çəkdi və bir azdan sonra yuxuya getdi. Lakin balaca Lena aclığını unudub çar baba barəsində anasına dürlü-dürlü suallar verirdi. Vera uşağını rahat etmək üçün çar babanın cah-cəlalından, ədalətindən, rəiyyət üçün atalıq etməyindən söyləyirdi. Bu dadlı laylardan balaca Lena xumarlanıb şirin yuxuya getdi.

* * *

9 yanvarda Peterburq küçələri işçilər və onların arvad-uşaqları ilə dolu idi. Hamısı müəyyən yerlərdə toplaşmağa tələsirdi. Getdikcə camaat artırdı. Polis məmurları xalq ilə mehriban rəftar edirdilər. Bu isə işçilərə ümid verirdi ki, hökumət onların qətnaməsini yerinə yetirməyə mane olmayacaqdır.

Vasilyevski cəzirədə qırx mindən artıq xalq toplanmışdı. Bunların sırasında Vera və kiçik Lena da vardı. Natiqlər kürsü üzərinə qalxaraq camaatı saray meydanına getməyə dəvət edirdilər. Bu təklifi qəbul edərək xalq saray meydanına tərəf axmağa başladı.

Aradan bir o qədər zaman keçməmişdi ki, şəhərin bir çox yerindən, polislər tərəfindən işçilərin gülləyə tutulmaq xəbəri gəlib çıxdı. Lakin heç kəs buna inanmayıb yenə də yeriş edirdi. Bu halda müsəlləh atlı kazaklar və jandarmlar camaatın qarşısını alaraq atəş açdılar. İşçilər geriyə dönmək istədikdə, onlar arxadan da gülləyə tutuldu. Bunu gördükdə adamlar bir-birini basaraq yan küçələrə qaçmağa üz qoydu, lakin sitəmkər çarın qaniçici qurşunu hər tərəfi almışdı. Məsum uşaqların naləsi, məzlum anaların fəryadı göylərə səda salmışdı. Lakin daş qəlbli, qaniçən kazaklar, buna baxmayaraq, zavallı işçiləri bacardıqca qılıncdan keçirirdilər.

Kiçik Lena anasını itirmişdi. Ayaq altında qalmasından qorxaraq özünü bir dərvaza bucağına soxmuşdu. Zavallı uşağın qorxudan qanı elə qaçmışdı ki, üzünün rəngi ayaqları altındakı qardan seçilmirdi. Aclıq, zəiflik bir tərəfdən, yorğunluq və qorxu digər tərəfdən zavallı uşağı taqətdən salmışdı. Daha ayaq üstə durmayıb yerə sərildi.

Bir saatdan artıq idi ki, Lena bihus qalmısdı. Bu vaxt nağıl etdiyimiz küçədə qovğa bitmişdi. Atma, qırma başqa küçələrə keçmişdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kiçik Lena bihuşluqdan ayıldı, gözlərini açdı, lakin bir müddət harada olduğunu, qar üstə sərilmiş meyitlər, onların aralarında sızıldayan, nalə edən yaralıların kim olduğunu və nə üçün belə hala düşdüklərini anlamadı. Bu halda onun qulağına belə bir səda gəldi:

- Lena, Lena, qızım, ac balam, haradasan? Səni də zalım kazaklar qanına boyadımı?

- Ah, anamın səsi, məni çağırır. Lena var qüvvəsini yığıb ayağa qalxdı, qara bata-bata meyitlər arasında anasını aramağa başladı. Bu vaxt yenə də anasının naləsi qulağına gəldi. Lena anasını gördü. Ayaqları dolaşa-dolaşa özünü onun qucağına atdı. Vera ağır yaralanmışdı.

- Anacığım, səni kim belə yaraladı?

- Zalım çarın qaniçici soldatı.

- Mən daha çar babanı sevmirəm, o zalım adam imiş, ana, qalx evimizə gedək.

- Qızım, mən qayıtmaz bir evə gedirəm, səni babana kim aparsın?

- Mən sənsiz getmərəm, anacığım, qoy yaranı bağlayım, sonra evimizə gedək... - bunu deyib zavallı uşaq titrək əllərilə basının yaylığını açmağa səy etdi. Bu vaxt at üstə əlində nizə bir kazak keçirdi. Kazak bunları gördü. Atını onlara tərəf çevirdi.

- Çar babaınzı ziyarət etdinizmi? - deyə qəhqəhə çəkdi.

Vera buna səbir etməyib çara nifrət etməyə başladı, zalım kazak nizəni onun sinəsi üstə tutaraq:

- Sus, üsyançı qadın, bu saat səni də bu yerə sərilmiş köpəklərin sırasına qataram.

Bunu gördükdə Lena, ufacıq döşün gərərək:

- Qoymaram, - deyə bağırdı.

Qəddar kazak:

- Al, - deyə nizəni zavallı uşağın sinəsindən vurdu və çaparaq getdi.

Lena anasının qucağına yıxıldı. Sinəsindən al qan fışqıraraq ağ qarı qırmızı rənglə boyadı.

- Ay zalım, bunun günahı nə idi ki, belə qanına boyadın.

Bu, zavallı ananın son naləsi oldu. Övladını qucaqlayıb öpərək gözlərini yumdu.

Lenanın solğun dodaqları "nə üçün, nə üçün" deyərək həmişəlik qapandı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## TƏBRİK

Çar zamanı idi... Hümmətəlinin evində qonaqlıq tədarükü görülürdü. Həyətin bir tərəfində qoyun soyulurdu, o biri tərəfində qazanlar asılmışdı, ortada palazlar salınmışdı, döşəklər düzülmüşdü. Hümmətəli döşək üstündə oturub, yastığa dirsəklənib, çubuq çəkə-çəkə qonaqlarını gözləyirdi.

Hümmətəli neçə il idi ki, yaşadığı Meşəli və ətraf kəndlərə kəndxuda seçilərək yazıq kəndlilərin başına min bəla gətirirdi. Bu hərif, qara damlarda, ağac daxmalarda yaşayan kəndliləri hökumət vergisi adına soyaraq özü üçün böyük dövlət və bir də ağ daşdan bina olunmuş ikimərtəbəli ev düzəltmişdi.

Rüşvətxor çar məmurları seçki zamanı onun tərəfini saxladıqları üçün, məzlum kəndlilər hər iki qüvvədən qorxaraq Hümmətəlinin ziddinə getməyə cürət edə bilməzdilər, o da kəndxuda seçilərək hökmranlığını sürərdi.

Son zamanlarda qonşu kənddə yaşayan Xankişi dövlətlənmişdi. Seçki zamanında Hümmətəli ilə mübarizə aparırdı. Xankişinin axırda ona qalib gəlməsini Hümmətəli hiss edirdi. Çox çəkişmədən sonra Hümmətəli bu fikrə gəlmişdi ki, onunla qohumlaşıb öz tərəfinə çəksin. Bu yolda xeyli tələlər quraraq axırda məramına nail oldu. Belə ki, Hümmətəlinin qardaşı qızı Məlahət, Xankişinin oğlu Qaraoğlana, bu gün nişanlanacaqdı. Hümmətəlinin övladı olmamışdı, bunun səbəbini arvadı Xədicədən görərək onun üstə yeni arvad almışdı. Lakin ondan da övladı olmadı, buna Xədicə artıq sad idi, çünki illəti ərində görürdü. O idi ki, günüsü ilə yola getməyərək, axırda onu boşatmağa müvəffəq olmuşdu.

Hümmətəlinin qardaşı Səfdərin də Məlahətdən başqa övladı otmamışdı. Atası Məlahəti çox istərdi və azadəböyüyerdi. Məlahət səkkiz yaşına çatdıqda atası vəfat etdi. Hümmətəli Məlahəti öz evinə gətirərək, onun malına və ixtiyarına sahib oldu. Yazıq uşağın o gündən də müsibətləri başlandı. Sonsuz Xədicə ilk günlərindən Məlahəti sevmədi. Bu gözəl və sağlam qızcığazı görməyə belə gözü yox idi, heç bir şey üstə onu danlardı, döyərdi. Qıvrıcıq və topuqlarına qədər sallanan saçları da biçarə qızın başına bir bəla kəsilmişdi. Xədicənin hər bəhanəsi qurtardıqda:

- Gəl başını darayım, - deyə Məlahətin o gözəl saçlarını daraq dişlərində qıraraq topa-topa yerə atardı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hümmətəliyə gəldikdə Məlahət qorxudan onun ətrafına belə dolanmazdı, yoldaşları ilə gəzməyi, oynamağı əmisi ona qadağan etmişdi. Bu isə azadə yaşamış qızcığaza danlanmaqdan, döyülməkdən artıq təsir edirdi.

* * *

Yavas-yavaş qonaqlar toplanmağa başlamışdı. Hümmətəli xeyli mehriban onlarla salamlaşaraq hər kəsə oturmağa yer göstərirdi. Lakin kəndlilər harada oturmağı gözəlcə bilirdilər. Döşəklər dövlətlilər, ruhanilər üçün qoyulmuşdu...

Cənnətəli:

- Hümmətəlidən başqa, kəndxuda olmağa kim layiqdir? O kişi neçə ildir bizim zəhmətimizi çəkmiş, yenə də çəkməlidir.

Hümmətəli özünü bicliyə vurub dedi:

- Xeyr, daha mən yorulmuşam, bəsdir, başqasını seçək ki, necə əziyyətli vəzifə olduğunu bilsin. Hökumət vergisi üstə məndən rəncidə olursunuz, onu bilmirsiniz ki, töycülərin vaxtlı-vaxtında toplanıb xəzinəyə verilməsini hökumət məndən tələb edir... Mən bir hökumət quluyam, əmrə tabeyəm, mənə buyururlar, mən də sizdən tələb edirəm.

- Doğrudur, doğrudur, - deyə kəndlilər təsdiq etdilər. Qara Hüseyn əlavə etdi:

- Canım, bir sözlə, dinmə ver.

Bu sözə kəndlilər gülüşdülər. Hümmətəli bu cür tülkülüklə kəndlilərin rəyini ələ alırdı. Xankişinin və dəstəsinin gec gəlməsi Hümmətəlini təşvişə salırdı. Qorxurdu ki, Xankişi fikrini dəyişsin, yenə ona düşmən olsun. Bu halda dərvaza açıldı. Xankişi adamları ilə həyətə daxil oldu. Hümmətəli cəld qalxaraq onlarla salamlaşdı.

- Xoş gəlmisiniz, buyurun, - deyə onlara yuxarı başda yer göstərdi.

Qonaqlar oturdular. Söhbət təzələndi. Bir azdan sonra süfrə salındı, xörək ortaya gəldi. Teamdan sonra çay və şimi meydana gəldi. Əsil mətləb açıldı. Kəndlilər bu xeyir işi alqışlayaraq anladılar ki, Hümmətəlinin çəngəsindən qurtarmaq zamanı hələ gəlməmiş.

Qonaqlar dağıldıqdan sonra, Xankişi Hümmətəli ilə otağa daxil oldu.

- Qızımı göstərin, görüm necə qızdır? - deyə Xankişi soruşdu.

On yaşında gəlin meydana gəldi.

- Pəh, pəh, maşallah nə göyçək qızdır, - deyə Xankişi Məlahətin alnından öpdü. Sonra bir üzük çıxarıb onun incə barmağına taxdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əhvalatdan xəbərsiz qız, Xankişiyə baxaraq sanki soruşurdu:

- Bu nə oyuncaqdır?

Xankişi xudahafiz edərək dedi:

- Qızım, salamat qal, səni qoca baban bəzəkli-düzəkli, başı üstə saxlayacaqdır.

* * *

Bu hadisədən iki il keçdi. Xədicənin Məlahətə etdiyi zülm getdikcə artırdı. Əmisinə gəldikdə o da Məlahətə başqa cür əziyyət verirdi. Həyətdən kənara çıxmağa izin vermirdi. Qonşuya, ya başqa bir yerə getmək lazım gəldikdə başına çadra örtərdi. Həmişə əmisindən bu sözü eşidərdi:

- Unutma ki, sən Qaraoğlana nişanlısan, özünü elə ismətli dolandır ki, nə mən, nə də adaxlın xəcalət çəksin, Yoxsa səni öz əllərimlə boğub öldürərəm.

Qaraoğlan adı gəldikdə yazıq uşağın bədəninə titrəmə çökürdü. O saat Qaraoğlanın vahiməli, pırtlaq gözləri və capıq surəti gözlərinin önündə dururdu.

Məlahət, Xədicənin və əmisinin min cür əziyyətinə razı olurdu. Lakin gələcəkdə Qaraoğlana arvad olmağını beyninə sığışdıra bilmirdi. Uzun gecələri, biçarə qız göz yaşı tökərək, vahimə içində keçirirdi. Gah özünü yuxuda qaranlıq ormanda, heybətli bir ayı qucağında görürdü. Sonra ayı Qaraoğlana dönürdü. Gah da özünü havada yırtıcı qartal caynağında görürdü. Bu da sonra dönüb Qaraoğlan olurdu.

Qonşuları Piri babanın nağıllarının sonunda gözəl qızları heybətli divlər çəngəsindən qəhrəman mələkzadələr xilas edərdi. Balaca Məlahət də öz qurtuluşunu elə şahzadələrdən gözləyirdi. Lakin minlərcə məlahətləri divlərini çəngəsindən xilas edən mələkzadələr deyil, Böyük Oktyabr inqilabı oldu.

* * *

Kəndliləri soymağa adət etmiş Hümmətəli, Şura hökuməti zamanında quzu cildinə girərək, min hiylə qurdusa da, kəndlilər onu heç bir yerə seçmədilər. Axırda yenə bir seçki zamanı bir neçə kəndliyə rüşvət vəd etdiyinin üstü açılaraq, bilmərrə seçmək və seçilmək hüququndan məhrum olundu. Məyus qalmış Hümmətəliyə təsəlli verəcək bir şey



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

vardısa, o da özü kimi, Şura hökuməti düşməni və öz həmməsləki Xankişinin də seçki hüququ əlindən alınması idi. Bu iki hərifin Şura hökumətini görməyə gözləri yox idi. Lakin zahirdə özlərini hökumət tərəfdarı göstərirdilər. Yeri gəldikdə deyirdilər:

- Şükürlər olsun ki, zülümkar çar hökuməti məhv oldu, indi hökumət biz işçi və kəndlilərindir.

Lakin kənddəki füqəra komitəsi bu iki hərifi gözəlcə tanıyırdı... Onları qabaqlayaraq dinc, farağat oturmalarına əmr etmişdi. Əks surətdə hər ikisinin sürgün olacağını xəbər vermişdi.

Şura hökuməti bərpa olunduğu gündən balaca Məlahətin də yaşayışı dəyişilərək bir bayram içərisində keçirdi. Buna ümdə səbəb İsmət xanım idi. Belə ki, Hümmətəlinin evində qadınlar klubu açılmışdı. Klub qadınlar arasında savadsızlığı ləğv etmək kursu açmışdı. Bu kursa İsmət xanım müdir təyin olunmuşdu. İsmət xanım Hümmətəlinin evində mənzil edərək Məlahəti öz qanadı altına almışdı. Onu, kursdan əlavə, öz otağında xüsusi oxudurdu. Kiçik vaxtında ana məhəbbətindən məhrum qalmış uşaq, həqiqi ana məhəbbətini İsmət xanımda tapmışdı.

İsmət xanım Məlahətin nişanlı olduğunu bilib bu işi pozmuşdu. Məlahət buna artıqca şad idi. Evin alt mərtəbəsində iki qaranlıq otağa soxulmuş Hümmətəli və Xədicə İsmət xanımın böyük düşmənləri idi, lakin ona bir şey etməyi bacarmırdılar. Məlahət az bir zamanda savadsızlığını ləğv edərək başqa talibələri ötüb keçmişdi. İsmət xanım uşağın belə zəka və səyini görərək, onu darülmüəlliminə hazırlayırdı. Buna da Hümmətəli razı deyildi.

- Kəndli qızına oxumaq yaramaz. Oxumuş qız ayağı çarıqlı kəndliyə ərə getməz, - deyə Hümmətli şikayətlənərdi.

Lakin İsmət xanım onun sözünə əhəmiyyət verməzdi.

Məlahət İsmət xanımın tərbiyəsi altında böyüyərək on beş yaşına çatdı. Bu gözəl qızı almaq çox cavan oğlanın fikrindən keçirdi, lakin hökumətdən qaçaq düşən Qaraoğlandan qorxaraq heç kəs cürət edib Məlahətə elçi düşə bilmirdi. Bir il əvvəl nəşrə başlanmış "Şərq qadını"ın Məlahət çox sevərdi. Qadınlar şöbəsinə gələn nömrələri oxuyub artıq maraqlanardı. İsmət xanım Məlahətin bu jurnala olan həvəs və məhəbbətini görüb dedi:

- Məlahət, nə üçün sən də başqa kənd qızları kimi sevgili jurnalına müxbirə olmursan?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Qorxuram yazdığımı çap etməsinlər, - deyə Məlahət cavab verdi.

- Nə üçün çap etmirlər? Əhəmiyyətli bir şey yazarsan, çap edərlər.

Gələcək nömrə, jurnalın iki illiyi münasibəti ilə buraxılacaqdır. Sən də bir şey yaz, göndər...

Bu söz İsmət xanımın yadından çıxıb getmişdi, lakin Məlahət o gündən rahat ola bilmirdi. Həmişə fikir edirdi ki, nə yazsın və İsmət xanımdan da soruşmaq istəmirdi, çünki fikri, məqaləsi çap olunursa sevgili müəlliməsinə göstərərək, onu şad etmək idi. Çox fikirdən sonra Məlahət jurnala bir təbriknamə yazıb göndərdi. İndi öz "Şərq qadını"nın bayram nömrəsini səbirsizliklə gözləyirdi.

* * *

Bir gün günəş qürubə enən zamanı Məlahət İsmət xanımla cavanlar klubundan evlərinə qayıdırdı. Yol uzunu, İsmət xanım onu gələn il darülmüəlliminə aparacağından söyləyirdi. Məlahət buna bir tərəfdən şad, o biri tərəfdən qəmgin idi. Şad idi ki, darülmüəllimina girib oxuyacaqdı və axırda müəllimə olacaqdı. Qəmginliyinə səbəb sevgili müəlliməsindən ayrılacağı idi. Belə şirin söhbət etdikləri zaman qəflətən yapıncıya bürünmüş bir atlı onların önünə çıxdı. Məlahət onun üzünü gördükdə qışqırdı:

- Qaraoğlan!

Qadınlar bir şey edincə, Qaraoğlan alıcı quş kimi Məlahətin üstünü aldı. At üstündən əyilib onu qucağına çəkdi və ildırım kimi götürüldü.

Xof və heyrətli qalmış İsmət xanım sanki yuxuda idi, indi ayıldı. Qaçaraq özünü milis müdiri Heydərqulunun idarəsinə saldı, vəqəni ona söylədi.

- Qorxmayın, İsmət xanım, bu saat Məlahəti burda görərsiniz, - deyərək Heydərqulu üç milislə bərabər atlanıb, çaparaq yola düşdü.

Qaraoğlarım fikri dağı aşıb meşədə gizlənmək idi. Kənddən xeyli uzaqlaşaraq atının başını yığdı. O, fikir edirdi ki, bu tezliklə onun arxasına düşən olmayacaqdır. Atını da yormurdu ki, dağa çıxa bilsin. Qaraoğlan dağın ətəyinə çatdıqda Heydərqulu və milislər bir güllə fasiləsincə ona yaxınlaşdılar. Atışma başlandı. Qaraoğlan onlara cavab verə bilmirdi, çünki qucağındakı Məlahət ona mane olurdu. Ona görə Məlahəti atdan yerə ataraq tüfəngini boynundan çıxartdı. Məlahət fürsət



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

taparaq milislərə tərəf qaçmağa başladı. Bunu gördükdə Qaraoğlan birinci gülləsini ona boşaltdı. Binəva qız yerə sərildi. Heydərqulunun gülləsi də Qaraoğlanı atdan yerə saldı. Heydərqulu Məlahətə çataraq atdan düşdü. Məlahət zarıldayırdı. Heydərqulu onun yarasını bağladı.

- Qorxma, bacım, yaran ağır yara deyil, bir az zamanda sağalıb ayağa duracaqsan. İntiqamını Qaraoğlandan almışam. Biz onu çoxdan axtarırdıq, axır cəzasını aldı.

Heydərqulunun əmri ilə milislər Qaraoğlanın meyidini öz atına sandılar, Məlahəti də Heydərqulunun qucağına qoydular, yola düşdülər. Gecədən saat yarım keçmiş milis idarəsinə varid oldular. İsmət xanım Məlahəti belə halda gördükdə nalə etməyə başladı.

- İsmət xanım, qorxmayın, qızın yarası zərərli yara deyil, tez sağalacaqdır.

* * *

Doktor da Məlahətin yarasını qorxulu tapmadı. Lakin onu qorxuya salan başqa bir azar idi, belə ki, götürülüb qaçırılan zaman Məlahətə bərk soyuq dəymişdi.

Doktor onda zatülcənb[1] gördü. İsmət xanım Xədicəyə ümid bağlamayaraq, xəstəni öz otağına gətirmişdi. Vaxtının çoxunu Məlahətə sərf edirdi. Vaxtlı-vaxtında dərmanını verib, xörəyini hazır edirdi. Məlahətin azarı getdikcə şiddətlənirdi. Doktor bir gün Məlahətə baxdıqda dedi:

- Əgər xəstə bu gecə azarın zərbinə davam edərsə, sağalmağına böyük ümid vardır.

O idi ki, İsmət xanım hər işini atıb Məlahətin yanından əl çəkmirdi. Axşam düşdükdə xəstənin qızdırması artmağa başladı. Gecə yarı olduqda qırx dərəcəyə qədər qalxdı.

Məlahət böhran içində sayıqlayırdı:

- "Şərq qadını..." "Nə üçün yox..." "Təbrik edirəm..."

Bu sözlərdən İsmət xanım anladı ki, Məlahət "Şərq qadını" jurnalına məqalə yazıb göndərmiş, indi onun intizarını çəkir. İsmət xanımın yadına düşdü ki, bu səhər şöbəyə qəzetlərlə bərabər "Şərq qadını" jurnalı da gəlmiş, cəld qalxıb onu gətirdi və titrək əlləri ilə

---

[1] Ağ ciyər pərdəsinin iltihabı

vərəqləri kəsdi. Jurnalın son səhifəsində, təbriknamələr sırasında belə bir təbrik oxudu:

"Şərq qadını" jurnalına!...

"Ey Böyük Oktyabr inqilabının altun qızı, hörmətli "Şərq qadını"! Əsrlərcə yumulan məsum gözlərimizi, indi iki ildir ki, sən açdın... Mənbəyindən doğan işıqlar Azərbaycanın ən uzaq və ən qaranlıq bucaqlarını belə şöləvər edir... Qaranlıqdan çıxardığın mənim kimi kəndli qızları, hamı səni alqışlar... Budur, mən də qəlbimin saf və səmimiyyətləri ilə ikiilliyini təbrik edirəm.

Yaşa və Şərq qızını hürriyyətlə yaşat!

İmza: kəndli qızı Məlahət".

İsmət xanım bunu oxuduqda ixtiyarsız, gözlərindən yaş töküldü.

- Qızım, gözlərini aç, bax, budur sevimli "Şərq qadını"nda təbriknamən çap olunmuş.

Məlahət qan ilə dolmuş gözlərini açdı. İsmət xanım jurnalı ona göstərərək təbriki oxudu. İsmət xanım təbriknaməni oxuduqca Məlahətin solğun dodaqları təbəssüm edib ölümün ağır pəncələri altında didilərək, dərin bir köks çəkməsi ilə heyatını bitirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# SONA XALA

...On doqquzuncu ildə, mayın axırında, yay tətili münasibətilə Bakıdan vətənə qayıdırdım. Bir neçə ildən bəri ayrıldığım qohum-əqrəbam ilə tez görüşmək arzusu, Kiçik Qafqaz dağları başında yayılmış gözəl ab-havalı və mənzərəli "Ş" şəhərini yenidən bir də görmək şövqü mənə isti və tozlu yolun əziyyətini unutdurdu. Günəş dağlar arxasına keçərək qayib olduqda mən də şəhərə varid oldum.

* * *

Səhər saat 9-da Sona xalanın qapısını döydüm. Sona xala qapını açdı. Məni görcək boynuma sarıldı.

- Xoş gəlmisən, oğlum, nə əcəb bizi yad etdin? Buyur, buyur, - deyə məni içəriyə saldı.

- Bəşir evdədirmi?

- Xeyr, bazara gedibdir, bu saat gələr. De görüm, çayı harada içəcəksən? Bağçada, ya balkonda?

- Sona xala, zəhmət çəkmə, çay içmişəm.

- Onda sən sevgili bağçana buyur, mən də bu saat gəlirəm. - Bunu deyərək, Sona xala otağa girdi. Mən də bağçaya getdim.

Həqiqət bu bağçanı mən çox sevirdim. Bu gözəl bağçanı bir qədər seyr etdikdən sonra Yasəmən xiyabanında qoyulmuş skamyada oturdum.

* * *

Sona xala, yalan, yaltaqlıq, alçaqlıq sevməz, sağlam, erkək təbiətli, uca qamətli, iri cəsədli bir qadın idi. Hər kəsin çirkin əməlini şax üzünə deyərdi. Bunun belə xasiyyətini bilib, ondan çəkinərdilər. Sona xalanın Bəşirdən başqa övladı olmamışdı. Bu tək oğluna nəhayət dərəcədə məhəbbət bağlamışdı. Sona xalanın bircə dərdi vardı, o da oğlunu evləndirmək idi. Bəşir isə bu işdən boyun qaçırırdı, çünki orta təhsil görmüş bir cavan, oxumamış qız almaq istəmirdi. Oxumuş qız da o zaman yox idi.

Sona xala əlində bir padnos, içində bir stəkan çay, mürəbbə, qaymaq, yağ, yağlı fətir, qolunda süfrə bağçaya daxil olaraq, şüşəbənd otaqda masaya süfrə salıb məni oraya təklif etdi.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

- Ye, oğlum, naharımız bir az gec olacaqdır. Bəşiri göndərmişəm bazardan turac alsın, plov bişirəcəyəm... Ona kimi ac qala bilməzsən.

Burada Sona xala öz yaşayışından söhbət açıb, bu çağacan Bəşirin evlənməməsinin ondan ötrü böyük bir dərd olduğunu da yanıqlı-yanıqlı söylədi.

- Yaxşı, Bəşir indi nə bahanə gətirir, daha ali məktəb təhsilindən əl çəkdi ki.

- Həmin dediyini yenə deyir: mən oxumuş, açıq gəzən azərbaycanlı qızı alacağam. Mən belə qızı haradan tapım? Mollanın qorxusundan hansı müsəlman cürət edib qızını oxuda bilər? Hələ açıq gəzmək kənarda qalsın... Bu ildən də Bəşir bir söz araya atmış, deyir: mən yeni "peyğəmbərin" zühurunu gözləyirəm, o gələr, müsəlman qadınlarının çadralarını başlarından atar, onlara oxumağı əmr edər, hüququnu erkəklərlə bərabər edər, onda mən də özüm üçün qız bəyənib sevərəm, alaram. Buna biz arvadlar deyərik: "Ölmə, eşşəyim, ölmə, yaz gələr, yonca bitər".

Bu halda qapı döyüldü. Sona xala cəld ayağa qalxaraq:

- Yəqin Bəşirdir. Mənim başım plov bişirməyə qarışacaqdır, sən calış onu yola gətir. - Bunu deyərək Sona xala getdi.

Bəşir mənim adımı eşitcək qaçaraq yanıma gəldi. Öpüşdük, görüşdük.

- Nə gözəl oldu gəldin, məktubundan belə görünürdü ki, yayda müalicə üçün sulara gedəcəksən. Bu xəbərdən çox məyus olmuşdum.

Bilmirdim bu yayı nə tövr keçirəcəyəm.

Bəşirin solğun bənizinə baxdıqda dedim:

- Əzizim, sənin də sular müalicəsinə ehtiyacın vardır. Bəşir gülümsünərək dedi:

- Mənim azarımın dərmanı yoxdur...

- Demək, yeni "peyğəmbərin" zühurunu gözləməli.

Bəşir bunu eşitcək əvvəl təəccüblə üzümə baxdı, sonra güldü:

- Görünür, anamla uzunca söhbət etmisən, -dedi.

- Bəli, özün də bilirsən nə barədə, hər hiyləni işlədib indi də zavallı qadını yeni "peyğəmbərin" zühuru ilə aldadırsan.

Bəşir dedi:

- Bu fikir mənim deyil, bu günlərdə burada görüşdüyüm səyahətçi bir almanın düşüncəsidir; belə ki, bir gün dağın başında oturub dəhşətli qayalarımıza və onların arasından şaqqıltı ilə axan çaylara tamaşa edirdim. Bir də gördüm yanımda səyahətçi libasında bir şəxs durbin ilə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qayanın döşündəki əski imarətə baxır. Bir qədər baxdıqdan sonra üzünü mənə tərəf çevirib azərbaycanca soruşdu:

- Bu əski imarətin tarixini bilirsinizmi? Kim tərəfindən bina olmuş? Oraya getməyə yol varmı?

Mən onun tarixini söylədim və səyyahı oraya apardım. Mənimlə dost oldu. Ömrümün çoxunu Şərq aləminin səyahətində keçirmişmiş. Mənə çox şeylər söylədi. Onu da hər şeydən artıq heyrət və dəhşətə salan Şərq qadının cəhalət zülmətində boğularaq, bəşər hüququndan məhrum qalması idi.

Səyahətçi deyirdi:

- Gənc dostum, bütün millətlər öz tarixində cəhalət dövrünü sürmüş. İndi də vəhşi halında yaşayan bir çox tayfalar var, lakin heç bir millət öz qadınını islam qadını kimi torbaya salıb günəşin işığından məhrum etməmişdir. Məncə hürr yaranmış Şərq qadınını bu haldan xilas etməyə yeni bir peyğəmbər zühuru lazımdır.

İndi, əzizim, eşitdin ki, bu mənim hiyləm deyil, alman aliminin fikridir.

Bu söhbətdən sonra evlənmək məsələsinin nə qədər çətin olduğu yenə də aralığa gəldi. Mən dedim:

- Nümunə üçün özündən başla, bir cavan qız al, tərbiyə ver, çadrasını at, özünlə açıq gəzdir. Bilirəm, çox çətinliklərə düçar olacaqsan, lakin davam etmək lazımdır.

Bəşir bir qədər fikirdən sonra dedi:

- Məsləhətin bəd deyil, ağlıma yatır, anam da məni rahat qoymur.

Qoy sən deyən olsun, görək axırı nə göstərər.

Bu halda Sona xala gəldi. Suallı nəzərlə üzümə baxdı. Mən dedim:

- Sona xala, oğlunu yola gətirmişəm. De görüm, mənə nə xələt verəcəksən?

- Hər nə istəsən, oğlum, qorxuram Bəşir sözündən qaça.

- Heç vaxt qaça bilməz, burada ikilikdə qət etmişik. Sənə söz verirəm ki, bu yay Bəşirin toyunu etməmiş buradan getməyim. Arxayın ol. Bəşir, bu işə razısanmı?

- Razıyam.

- Sona xala, daha uzağa qoymaq lazım deyil. Sabahdan qız axtarmağa başlarsan.

- Nə çoxdur qız; hansı bir bəyin, dövlətli tacirin qapısına getsəm, çox şadlıqla məni qəbul edəcəklər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bəşir dedi:

- Ana, mənim də şərtim var, mənə nə bəy və nə də dövlətli tacir qızı lazım deyil, arayıb bir kasıb qızı taparsan. Arxasız olsa, daha münasibdir, çünki fikrim onu oxudub, tərbiyə verib, açıq gəzdirməkdir. Hərgah bu fikrə mənimlə şəriksənsə, işə başla, yoxsa, heç kəsin qapısına getmə.

Sonaxala dedi:

- Bu əmrini çox şadlıqla qəbul edirəm, oğlum, mənə dövlət lazım deyil. Arvadını açıq saxlayacaqsan, ona da bir sözüm ola bilməz.

Sonra üzünü mənə tutub dedi:

- Mənim bu şadlığıma səbəb sən oldun, oğlum, ölənə kimi yadımdan çıxartmaram.

* * *

Həmin yay Sona xala arzusuna çatdı. On səkkiz yaşlı, həlim təbiətli gözəl bir gəlin qayınanası oldu. Bəşir də gənc arvadını özü oxutmağa və tərbiyə verməyə məşğul olaraq, yeni arvadının oxumağa olan həvəsindən, səyindən, zəkasından, hər şeyi tez görüb götürməsindən söylərdi və atəşli deyərdi:

- Milyonlarca belə zəkaları dörd divar içərisinə salaraq, hənuz açılmamış qönçə kimi saralıb-soldurub qəbrə göndərən insanlara lənət və nifrət etməyə haqlı deyilmiyəm? Bax, keçən cümə Sürəyyanı şəhərin erməni hissəsinə gəzməyə aparmışdım. Zavallı qadın burada doğulub, on yeddi il yaşadığı halda şəhərin bu hissəsini indiyə qədər görmədiyini mənə söylədi.

* * *

Avqustun axırında bu bəxtiyar ailə ilə əlvida edərək, Bakıya qayıtdım. Hər on-on iki gündən bir Bəşirdən məktub alırdım. O, gənc arvadının dərslərində hər anda irəliləməsindən, gələn il onun gözlərini açıb məlumatını artırmaq üçün səyahətə aparmaq fikrindən, özünün və anasının Sürəyyadan artıqca razı olmalarından yazırdı. Ara-sıra arvadını açıq gəzdirmək səbəbinə avam camaat tərəfindən onlara edilən əziyyəti də qeyd edirdi. Get-gedə Bəşirin məktubları bir şikayətnaməyə dönürdü. Avam camaat tərəfindən onların uzərinə açılan mübarizəyə bir daha davam etməyəcəyini və artıq dərəcədə əsəbiləşdiyini məlum edirdi. Son məktubunda:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Qışın çıxmasını gözləyirəm ki, arvadımı götürüb başqa vilayətə gedim, - deyə şikayətlənirdi.

Axırda Bəşirin məktubu bilmərrə kəsildi. Mən fikir etdim ki, Bəşir baharı gözləməyib başqa yerə köçmüş, lakin gələn faciəli xəbər məni məyus və pərişan etdi. Belə ki, bir gecə Bəşir arvadı ilə şəhərin Avropa hissəsində düzəldilmiş müsamirədən qayıtdıqları zaman iki cahil cavana rast gəlirlər. Cavanlar nalayiq sözlərlə Bəşirin arvadına sataşmağa başlayırlar, axırda:

- Bu yava matışqanı haraya aparırsan, qoy bir qədər biz ilə gəzsin, - deyə onların önünü alırlar. Bəşir buna səbir etməyib qovğa edir.

Sürəyya qəşş edib yerə düşür. Cahillər isə biçarə Bəşiri xəncər ilə öldürüb qaçırlar.

* * *

Şuralaşmış qırmızı Azərbaycan, sosialist inqilabının ildönümünü təntənəli surətdə bayram edirdi. Neft paytaxtı Bakı, adi boz libasını tərk edərək, zinətli al donunu geymişdi. Evlər, balkonlar, gəmilər hamısı qırmızı bayraq və qiymətli xalılar ilə bəzənmişdi. Hər yan gülşəndə laləlaərtək qızarırdı. Saat 8-dən başlamış İttifaqlar öz bayraqları altında, başda musiqi dəstələri, nizamla hürriyyət meydanına tərəf yeriş edirdilər. Bu sel kimi axan müxtəlif dəstələr sırasında hamının nəzərini özünə cəlb edən Azərbaycan qadınları dəstəsi idi. Bu dəstəni təşkil edən üzvlərin kimisi yenicə çadrasını atmışdı, kimisi hələ buna cürət etməmişdi. Kiminin üzündə şadlıq və cürət, kimisində qorxu və heyrət görünürdü. ictimai işlərə yenicə qədəm qoymuş bu qadınlar dəstəsinin başında duran bayraqdar, ucaboylu, irigövdəli, sadə milli libaslı qoca bir qadın idi. Xeyli qayda və nizam ilə dəstəni aparırdı. Bizim dəstə bu qadınlar dəstəsi arxasınca gedirdi. Qadının yerişi, əzasının hərəkəti mənə tanış gəlirdi. Bu vaxt qadın üzünü çevirərək:

- Geridə qalma, nizamı pozma, cərgəni düzəlt, - deyə uca səslə komanda etdi.

Qadının üzünü gördükdə Sona xala olduğunu bildim və onun keçmiş faciəli həyatı yenidən xatırımdan birər-birər gəlib keçdi.

* * *

Bəşərin faciəli vəfatından üç ay keçdikdən sonra arvadı Sürəyya uşaq doğarkən vəfat edir, bu isə Sona xalaya yeni bir dağ olur. Biçarə qadın bu hadisədən sonra, yenicə dünyaya gəlmiş qız nəvəsini götürüb



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

başqa qəzada yaşayan qohumugilə köçür. O zamandan bəri Sona xaladan xəbərim yox idi. İndi onunla tezcə görüşməyə ürəyim tələsirdi. Dar küçələrə gəldikdə dəstələr öz hərəkətlərini yatırmağa məcbur olurdular. Bu zaman maskalar geymiş aktyorlar, mənhus çar məmurlarını, ruhaniləri, bəy, xanları, burjuyları təqlid edərək oyun çıxarıb adamları güldürürdülər. İttifaqən, aktyorların avtomobili qadınlar dəstəsi müqabilində dayanmışdı. Molla rolunu oynayan aktyor Sona xalaya sataşmaq məqsədilə:

- A qoca qarı, heç həya etmirsən ki, üzünü açıb bu naməhrəm kişilərə göstərirsən, o əlindəki al bayraq cəhənnəmdə bir qızıl ilan olub, səni müdam sancacaqdır... - deyə zarafat etməyə başladı.

- Kəs səsini, qoca kaftar, siz mollaların zülmündən biz qadınlar, o cəhənnəmi burada çəkmişik, ixtiyarınız mənim əlimdə olsaydı, hamınızı toplayıb bu Kaspi dənizinə atardun! - Bunu deyib Sona xala bayrağını uzadıb mollanın əmmaməsini yerə saldı. Hər tərəfdən qəhqəhələr ucaldı.

- Bu cürətli qan kimdir? - deyə suallar verilirdi.

- Bu bizim Sona xalamızdır, - deyə qadınlar fəxr ilə cavab verirdilər.

Hürriyyət meydanında, 26 Kommunar qəbirləri yanındakı rəsm-keçiddən sonra nitqlər başlandı. Nitqlər bitdikdən sonra dəstələr yenə də intizam ilə müəyyən yerlərinə tərəf yeriş etməyə üz qoydular. Mən xəbər tutdum ki, Sona xala axşam qadınlar klubunda tərtib olunmus yığıncaqda olacaqdır. Axşam olduqda Sona xala ilə görüşmək məqsədilə qadınlar klubuna getdim. Salona daxil olduqda Sona xalanı kürsüdə nitq söyləyən gördüm. Sona xala deyirdi:

- Bacılar! Sözümü qurtararaq deyirəm: biz indiyə kimi barama içində dustaq yatan ipəkqurduna bənzəyirdik. O əlsiz-ayaqsız, gözsüz qurda topal deyərlər. Axırda o topal qanadlanıb pərvanə olur, baramanı deşib işığa çıxır. Biz dilsiz, ağızsız topalları da, əsarət zəncirini qırıb işıqlığa çıxaran Oktyabr inqilabı yaşasın, bir də yaşasın!

Sürəkli alqışlar ilə Sona xala kürsüdən endi. Mən onunla görüşdüm, dərdini mənə söylədi. Axırda bir ah çəkərək dedi:

- Kaş oğlum Bəşir sağ olaydı, bu azadə qadınları görəydi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## ZARAFAT

Şaki qırx yaşlı bir aktyor idi. 15 yaşından başlanmış könüllü sifətilə teatrlarda, müsamirələrdə iştirak etmişdi və hər növ əziyyətə qatlaşıb indi 25 illik səy və zəhmətilə iqtidarlı bir aktyor olmuşdu. Yoldaşları Şakinin xatirini istərdilər, onunla zarafat etməyi sevərdilər. Lakin Şaki son zamanlarda çox əsəbi olduğuna görə zarafatdan xoşu gəlməzdi, inciyərdi. Yoldaşları isə, buna baxmayaraq zarafatlarını daha da şiddətləndirirdilər.

Şaki nənəsi ilə bərabər bir balaca otaqda yaşayırdı. Püstə nənə 70 yaşlı bir qarı idi. Uşaqlıqdan yetim qalmış nəvəsi Şakini bəsləyib böyütmüşdü. O, Şakini çox istərdi. Yalnız bircə narazılığı Şakinin aktyorluq etməsindən idi. Dindar qarı çox sey etdi ki, nəvəsini bu işdən daşındırsın, ancaq bacarmadı. Bu əməl üstə Şakinin axirətdə cəhənnəmdə yanmasına bərk inanmışdı, ona görə məhərrəmlikdə təkiyə saxlardı, ildə bir ay əvəzinə üç ay oruc tutardı. Məscidə, pirə, seyidə nəzir edərdi ki, bəlkə allah onun təqsirindən keçə. Püstə nənə mətbəxdə yatardı. Hər gecə Şaki teatrdan gələnə kimi ayıq qalıb, onun yeməyini hazır edərdi, sonra özü rahat olardı. Axır vaxtlar Şaki yuxudan qalxıb öz-özünə danışardı, gözlərinə dürlü-dürlü şəkillər görünüb qışqırardı. Bu zamanlar Püstə nənə otağa gəlib deyərdi:

- Görürsən? Bax, allahın qəzəbi səni tutmuş, tövbə elə, yola gəl, bu şeytan sənətini burax.

- Nənə, get rahat ol. Mənə heç zad olmamış, mən öz rolumu öyrənirəm. Qışqırmağıma fikir vermə.

Belə sözlərlə Şaki Püstə nənəni sakit edərdi.

Püstə nənənin tərbiyəsi altında böyümüş Şaki mövhumatdan hələ büsbütün özünü xilas edə bilməmişdi. Bunu aktyor yoldaşları bilirdilər.

* * *

Bir dəfə Şaki teatrda olduğu zaman yoldaşları zarafat üçün qəfəs içində bir papağanı (*tutu quşu*) gətirib onun otağında gizlədirlər, Şaki gecə yarısı mənzilinə gəlir. Püstə nənənin yemək hazır etdiyini görüb deyir:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Nənə heç zad yeməyəcəyəm, sən get rahat ol, mən də yorulmuşam, tez yatacağam.

Püstə nənə gedib yatır, lakin Şaki nə qədər səy edirsə də yata bilmir. Öz-özünə söylənməyə başlayır:

- Ah, yenə bu fikir beynimi dəlir, məni bir an rahat qoymur. Mən kiməm? Nəyəm? Nə üçün yaranmışam? Axırda çürüyüb bir ovuc torpaq olmaq üçünmü? İnsana bu məşəqqət, bu əziyyət, bu cəfalar nə üçündür? Yeyərmiş, içərmiş, yatarmış, durarmış. İnsanda bu ədavət, bu rəzalət, bu kin-küdurət, bu büxl-həsəd nə üçündür? Bir neçə il ömür sürəcək insana, bu toplar, tüfənglər, nizələr, oxlar, partlayan bombalar nə üçündür? Haqq birdir əgər, bu müsəlman, bu xristian, bu kəbr, yəhudi nə üçündür? Ah, bu fikir beynimi deşir, mənə bir an rahatlıq vermir... Kürreyi-ərz yarandıqdan bəri tarixi-bəşər, qan, cinayət ilə tam doludur. Ey özü gizli, adı haqq, cahanda olacaqmıdır elə zaman ki, insan daha qan tökməyəcəkdir?

Bu halda papağan Şakinin səsindən oyanıb bu öyrəndiyi kəlməni deyir:

- Yox, yox, yox.

Bunu eşitdikdə Şaki heyrət və təlaş ilə qalxır. Ürəyi elə bərk döyünür ki, səsini özü eşidir. Su töküb içir, nəhayət, başını tutaraq, otaqda dəli kimi gəzməyə başlayır.

- Mən ya dəli olmuşam ki, qulağıma səs gəlir, ya da ki, həqiqətən, qeybdən "yox" cavabını aldım. Demək insan qan tökməkdən ötrü yaranmış?

Papağan: - Bəli, bəli, - deyə qışqırır. Bunu eşitdikdə xəstə aktyor həqiqi dəli kimi elə bir dəhşətli qəhqəhə çəkir ki, bütün qonşuları yuxudan oyadır. Sonra yerə yıxılır ürəyi gedir. Püstə nənə bu səsdən diksinib yerindən qalxır və cəld özünü otağa atır. Şakini yerə sərilmiş görüb qışqırıq salır. Qonşular onun harayına cəm olurlar və çox səydən sonra Şakini özünə gətirirlər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## MÜALİCƏ

Mənim rəfiqim hər cəhətdən yaxşı bir insandır, lakin atalarımız: "Eyibsiz gözəl olmaz" demişlər. Mənim də rəfiqimin bircə eyibi vardır, o da qayət əsəbidir. Əslinə baxsan, bu da eyib deyil, modalı bir xəstəlikdir.

İlk baharın sonunda rəfiqim təbiblərdən bir konsilium düzəltdirərək, xəstəliyinə çarə diləmiş. Həkimlər ona belə bir müalicə təklif etmişlər: "Bu üç ay yayı gözəl ab-havalı və az şənlikli bir kənd tapıb orada yaşamağı sizə məsləhət görürük. Bilmərrə oxu, yazı ilə məşğul olmayaraq, vaxtında yeyib, vaxtında istirahət etməlisiniz. Ümidvarıq ki, belə bir müalicə ilə xəstəliyiniz sizdən dəf olar".

Rəfiqim, Azərbaycan kəndlilərini bir-bir nəzərdən keçirdikdən sonra bacısı yaşadığı kənddə dayanır. Yay fəsli girdikdə bacısına bir məktub yazıb həkimlərin qərarını ona bildirir. Bir neçə il sevgili qardaşından ayrı düşmüş bacı, xeyli şadlıqla məlum edir ki: "Qardaş, durmayıb tezliklə gələsən və özün ilə heç bir şey gətirməyəsən, çünki hər şeyimiz vardır". Bu xəbəri aldıqdan sonra rəfiqim bacısının qabaqlamasına baxmayaraq, öz adəti üzrə yorğan-döşək, purjunlu çarpayıdan tutmuş diş fırçasınadək, malakan furqonuna doldurub yola düşdü.

* * *

Furqon ilə səyahət etmək ləzzətini qələmə almaqdan vaz keçirik, çünki hər bir azəri oğlunun ömründə bir dəfə də olmuş olsa, o "ləzzəti" çəkməsinə şübhə etmirik. Bundan əlavə, doğrusu, o səyahəti layiqincə təsvir etmədə özümüzü aciz görürük. Ancaq bunu əlavə etmək istəyirik ki, furqon ilə səfər edən şəxsə mənzil başına çatana kimi "sümsükut" orucu tutmağı əmr buyurmuşlardır. Danışmaq istəyənlər, lalların barmaq üsulu ilə danışmalarına bələd olmalıdırlar, çünki adi dil ilə danışdıqda elə bir dil meydana çıxır ki, onu anlayan bir dilçi bu böyük dünyada hələ tapılmamış. Rəfiqim birinci dəfə furqon ilə səfər etdiyinə görə (uşaqlıqda etdiyi səyahəti hesaba almırıq) "sümsükut'u pozub furqonçu malakan ilə danışmaq istəmiş, lakin iki kəlmə deməyə müvəffəq olmamış, o da belə surətdə: "...i hıqq, van... vay, da...uyn...yi...".



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Necə ki, görürsünüz rəfiqim ancaq "İvan dayı" deyə bilmiş ki, o da furqonçunun adıdır. Rəfiqim "i" hecasını dedikdə furqon daşa toxunaraq mətləbə dəxli olmayan bir "hıqq" kəlməsi meydana çıxır. "Van" dedikdə araba yırğalanıb rəfiqimin pensnesini yerə atır, o da daş üstə düşüb parça-parça olur. Bu vaxt rəfiqimdən bir "vay" nidası çıxır. Dalınca furqon çuxura düşüb rəfiqimi yuxarı elə atır ki, biçarənin başı kibitkaya toxunub əzilir və "uy"... etməsinə səbəb olur. İndi özünüz də görürsünüz ki, "sümsükut"u pozanın cəzası nə qədər böyük imiş.

Günəş dağlara enən zaman İvan dayının "avtomobili" gurultu ilə kəndə varid olur. Rəfiqimin pişvazına çıxmış bir sürü bacısı uşaqları "dayım gəldi" deyə arabanı əhatə edirlər. Refiqim isə furqonun içində isti paltosunu, qaloşunu geyib, şarfını boynuna dolayır və çətri əlinə alıb xeyli vüqar ilə arabadan enir. Uşaqlar onun ətrafını əhatə edirlər.

- Ay qırılmışlar, nə çoxsunuz? Sizi ürkütməsək sanamaq olmaz. -Uşaqlar gülüşürlər.

- Həsən, neçə qardaşsınız?

- Dayı can, bizə yeddi qardaş deyərlər. Hamımız qulluğunda hazırıq, əmrini gözləyirik.

- Onda şeylərimi götürün, gedək.

- Bu saat, dayı can, - deyə Həsən furqona qalxıb şeyləri bir-bir endirir.

Yeddi qardaş yüklənəndən sonra furqonda rəfiqimin bir mafraş yorğan-döşəyi, çamadanı və çarpayısı qalır.

- Uşaqlar, gedək, yerdə qalan şeyləri də gəlib İvan dayı ilə gətirərsiniz, - deyə rəfiqim karvanın başını çəkir. Bu vaxt rəfiqimin bacısı, yeddi yaşar qızı Gülnaz ilə darvazanın ağzında durub qardaşını gözləyirdi. Onun qorxusu bu şımarıq uşaqdan idi, çünki yeddi qardaşın bu tek bacısı və özünün son beşiyi çox əzizlənib, azada böyümüşdü.

- Bax, qızım, dayın xəstədir, səs-küy sevmir, gərək bilmərrə nadincliyi atasan. Onda dayın sənə çox şey alar, səni də sevər.

Bu halda yüklü qardaşlar həyətə daxil olurlar. Gülnaz dayısını isti paltona və şarfa bürünmüş görüb qəhqəhə ilə gülməyə başlayır.

- Niyə gülürsən, a şeytan qız... – deyə rəfiqim soruşur.

- Belə sənə gülürəm, qoy gedim evdən yorğan gətirim, bürün.

Gülnazın bu sözlərinə gülüşürlər. Rəfiqimin bacısı onun boynuna sarılaraq:

- A qardaş, Gülnaz demişkən, bu istidə nə üçün belə bürünmüsən?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Bacı, halımı heç sorma, lənət malakan furqonuna da, ona minənə də, yolda mənə bir qədər soyuq dəymiş və furqon da məni əzmiş ki, ayaq üstə durmağa taqətim yoxdur, - deyərək rəfiqim şikayətlənir.

- Gəl içəri, soyun, rahat ol, qorxma buranın elə havası vardır ki, ayaqsız gələn ayaqlı qayıdır. Nə üçün özünə yük edib bir belə şey gətirmisən? Mən səni xəbərdar etməmişdimmi? - deyə bacısı soruşdu.

- Ana can, dayımın şeyinin çoxu furqonda qalmış, - deyə Həsən gülür.

- A bacı, özün bilirsən ki, mən çox vasvasıyam... gərək öz yorğan-döşəyimdə yatam ki, rahat olam.

- Elə səni bu günə salan o deyilmi? Gəl içəri, soyun ayaqlarını isti su ilə yuyum, rahat ol.

Rəfiqim və bacısı palaz ilə döşənmiş otağa daxil olurlar.

- Bax, bu otağı sənin üçün hazır etmişəm. Bir adam buraya girib-çıxmayacaqdır, uşaqların günləri bağda, bostanda keçir, qulaqların bir səs eşitməyəcəkdir, - deyə bacısı rəfiqimi arxayın edir.

Rəfiqim yuyunub, camaşırını dəyişincə, yeddi qardaş anaları ilə bir bərabər onun otağını döşəyib, purjunlu çarpayısını qururlar, rəfiqim də soyunub yerinə girir və səfərin şiddətli əziyyətindən yorğun düşdüyünə görə tezcə yuxulayır.

Yeddi qardaş anaları:

- Bax, dayınız yatmış, səs olmasın, - deyə uşaqları onun otağından uzaq edir.

* * *

Aradan təxminən bir saat keçmiş günəşin son zərrələri üfüqdən qaib olduqda, qızıl inək dərvazanın ağzında elə bir böyürtü salır ki, sanki imdad bəkləyən bir gəmi bağırır.

- Ay uşaqlar, tez qapını açıb inəyi içəri salın, yoxsa dayınız bu saat yuxudan oyanar, - deyə anaları bağırır.

Uşaqlar qızıl inəyi içəri buraxıb balasını yanına salırlar ki, səsini kəssin. Əfsus ki, bu tədarük səmərəsiz qalır, çünki birinci mələməsindən rəfiqim yerindən dik atılıb qalxır və deyir:

- Budur, kənd məişətinin ləzzəti başlanır.

Rəfiqimin bacısı, qardaşım balkonda gəzən görüb badyada köpüklənən süd ilə içəriyə girir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Çox yaxşı vaxtda durmusan, qardaşım, çayımız hazırdır.

- Mən özüm durmamışam, bacım, sizin azançınız durquzmuş, - deyə rəfiqim ah çəkir.

Bacısı gülərək:

- Sənə söz verirəm ki, sabahdan bir də o azançının səsini eşitməyəcəksən. Hər səhər-axşam sənə bu yeni sağılmış süddən verəcəyəm, içərsən gör bir ayın ərzində kökəlib yanaqların necə lalə kimi qızaracaqdır.

Bunu deyib, rəfiqimin bacısı otağa girib çırağı yandırır və sonra badyanı süd ilə yerə qoyub kasa gətirməyə gedir və süddən bir qədər kasaya doldurub qardaşına uzadır ki:

- Al bunu iç!

- Bacı, toxda, de görüm bu südü necə sağmısan?

- Bunun necəsi yoxdur ki, badyam iki dizimin arasına qoyub inəyin əmcəklərini barmaqlarım ilə tutub aşağı çəkmişəm, süd də çeşmə kimi axıb badyaya tökülmüş. Belə ki, şövqün var, səhər sağanda gəl tamaşa et.

- Mən onun üçün soruşmadım, inəyi sağan vaxt döşlüyün vardımı?

- Yox.

- Əllərini sabun ilə yumuşdunmu?

- Əllərim tərtəmiz, gül kimi, nə üçün yuyum?

- Onda bacı, sənin bu südünün içində bu saat milyonlarla mikroblar narınca kimi qaynaşırlar. Mən onu içə bilmərəm, məni əfv edərsən, çünki buna həkimlər razı deyil.

- A qardaş, elə həkimlərin sözünə baxıb bu günə düşmüsən,vasvası olma ye, iç, gör necə sağalasan.

- Bacım, onlardan keçib, mənim üçün çay gətir. Səhərdən mən deyən kimi inəyi sağarsan, südü bişirərsən, mən də içərəm...

* * *

Məlumdur ki, kənd əhli erkən yatıb erkən də yuxudan qalxmağı adət etmişdir. Odur ki, rəfiqim də şamdan sonra bu qanuna tabe olmaq istədi, lakin bir tərəfdən hələ erkən yatmağa adət etməmişdi. Digər tərəfdən də qızıl inəyin səsindən həyəcana gəlmiş əsəbləri qaydasınca rahat olmamışdı. Ona görə də təbiblərin əmrindən çıxaraq oturub bir qədər kitab mütaliəsinə məşqul oldu. Sonra soyunub çırağı farağat etdi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

və yerinə girib rahat olmaq istədi. Elə yenicə yuxuya gedirdi ki, qulağına İncə, həzin bir səs gəldi. Fikir verdikdə gördü ki, səs otağın içindən gəlir. Getdikcə səs ona yaxınlaşırdı. Bir azdan sonra digər bir səs də ona qoşuldu. Bu anda rəfiqimin üzünü bir şey sancdı. O, cəld qalxıb lampanı yandırdı və onu sancan hərifi gördü.

Rəfiqim şəhərdən tədarüksüz gəlməmişdi. Çamadanı açıb cunayını çıxardı və üzünü onunla örtdü ki, hünülər ona əziyyət verməsin.

- İndi, hər ifl ər, "Şuri-şahnazı" başlayın, - deyə rəfiqim lampanı söndürüb yerinə girdi və bir azdan sonra yuxuya getdi. Bu vaxt üfüqdən ay ahəstə-ahəstə çıxmağa başladı. Boz köpək bunu gördükdə pəncərəsi altında başını göyə qaldırıb heybətli səsi ilə ulamağa başladı. Biçarə rəfiqim hövlnak yerindən sıçrayıb qalxdı və yenə lampanı yandırdı, sonra pəncərəni açıb bağırdı:

- Quduz dəymiş, səsini kəs.

Boz köpək pəncərədən bir qədər uzaqlaşıb yenə ulamağa başladı. Həsən dayısının səsinə oyanıb həyətə çıxdı və bir odun qapıb boz köpəyə atdı. Odun köpəyə nə təhər dəydisə, heyvan özünü çardağın altına soxub uzun-uzadı zingildəməyə başladı, axırda sakit oldu. Lakin iş-işdən keçmişdi. Boz köpəyin ulamağını eşidib qonşu itlər də ağız-ağıza verib ulaşmağa başladılar.

Rəfiqim yorğana bürünüb pəncərədən bu musiqini dinləyərək söyləyirdi:

- "Bir az şənlikli bir kənd tapıb da orada bu üç ay yayı istirahət etməlisiniz ki, əsəbləriniz rahat olub möhkəmləşə". Bəli, əsəblərim möhkəmləşir, möhtərəm təbiblərim.

* * *

Gecə yarıdan keçmişdi, köpəklərin səsləri kəsilmiş, kənd sükuta dalmışdı. Rəfiqim üçüncü dəfə lampanı söndürüb yerinə girdi, lakin yata bilmədi, çünki bu səfər də otağa döşənmiş xalılardan birələr yerinə daraşıb onu rahat olmağa qoymadılar. Yenə lampanı yandırıb paltarını geydi və otaqda o baş-bu başa getməyə başladı. Axırda taqətdən düşüb paltarlı yerinin üstə uzandı. Yorğun bədən rahatlıq tələb edirdi. Rəfiqim nə vaxt yuxuya getdiyini özü də bilmədi.

Sübhün tüluunda, eyvanda gecələmiş çil xoruz oyanıb uca və zil səslə banladı:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qu-qu-riqu.

Son həyəcanı çil xoruz özünə məxsus bir tərz ilə bitirdi. İkinci "qu-qu-riqu"da rəfiqim dik atıldı.

Zavallının ürəyi elə atlanırdı ki, sanki bu saat partlayacaqdır. Rəfiqim otağı aradıqda öz çəkməsindən başqa əlinə bir şey keçmədi, çəkmənin bir tayını əlinə götürüb, pəncərəni açdı. Çil xoruzu eyvanın sürahısı üstə banlayan gördü. Var qüvvəsilə çəkməni çil xoruza atdı, çil xoruz qığıltı ilə eyvandan yerə yıxıldı. Bunun səsinə toyuqlar qışqırıq saldılar. Bunların səslərinə qonşu xoruz-toyuqlar da qarışdılar, yatmışları oyatdılar.

* * *

Rəfiqim paltosunu geyib qaloşlarını ayağına taxaraq, eyvanda o baş-bu başa gedib, dəli kimi öz-özünə danışırdı. Bacısı əlində badya qızıl inəyi sağmağa getdikdə qardaşını eyvanda gördü.

- Nə erkən durmusan, a qardaş?

- Təbiblərin əmrini yerinə yetirirəm, bacım. Sizin bu gözəl kəndinizin saf havasını uduram, bacım, - deyə rəfiqim yenə də hirsli o baş-bu başa yeriş edirdi.

- Çox gözəl fikirdir, qardaşım, inşallah bir həftənin ərzində yanaqların qızarıb çıraq kimi yanacaqdır. Bax, görürsən döşümə döşlük taxmışam, əllərimi de sabun ilə təmiz yumuşam. Daha arxayın ol, -bacısı qızıl inəyi sağmağa məşğul oldu. Bu vaxt Həsən heyətə çıxdı və dayısını eyvanda görüb dedi:

- Sabahın xeyir, dayı can.

- Aqibətin xeyir, bacıoğlu, ancaq bilmirəm çil xoruzun aqibəti nə haldadır, xeyirdir ya şər.

Bu halda Həsən çil xoruzu eyvanın attına girmiş görüb deyir:

- Dayı can, çil xoruz canını sizin yolunuzda fəda etmiş.

- Demək, intiqamımı çil xoruzdan almışam, çönbələn dəymiş sübh tüluundan məni oyadıb yatmağa qoymamış, görünür, çəkməm onu bərk tutmuşdur.

- Dayı can, çəkməniz burada yoxdur.

- Axtar, gör haradadır?

Həsən axtarmağa başlayır, axırda çəkməni köpəyin hinində parcalanmış tapır, köpək isə işi duyub həyətdən qacır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Dayı can, boz köpək çəkməni parçalayıb bu hala salmış, - deyir və çəkməni göstərir.

- Demək, boz köpək də məndən intiqamını almış. Həsən, bu gecə bütün kəndiniz mənə müharibə elan etmişdi, düzü, özümü məğlub sanıram. Ona görə də hərb meydanından qaçıram. Çay içəndən sonra gedib karvansaradan İvan dayını buraya çağırarsan.

- Nə üçün, dayı can?

- Mənə lazımdır.

- Baş üstə, dayı can. Amma çil xoruzun xatasını çəkəcəksən, çünki Gülnazın sevgili xoruzudur.

- Eybi yoxdur, pul verərəm, ona bir gözəl xoruz alarsan. İndi çil xoruzu göz önündən uzaq et.

Həsən çil xoruzu aparıb bağçada basdırır və sonra əhvalatı anasına söyləyir.

Rəfiqimin bacısı çay zamanı qardaşına deyir:

- Bacın sənə qurban olsun, görünür, bu gecə narahat olmusan, hər nə şey ki, səni narahat edir, söylə hamısını rədd edim.

- Ay bacı, şair demiş:

Düşmən bir olsa dəfini asandır eyləmək.

Vay ol zaman ki, üz qoya dörd bir kənardan.

İndi sən zavallı, bunların hansına çarə edəsən: birəyə, hünüyə, köpəklərin, çaqqalların ulamasına, xoruzun banlamasına və qeyri-qeyri...

Bu halda İvan dayı daxil olub salamlaşır.

- İvan dayı, haçan şəhərə qayıdacaqsan?

- Bu saat, furqonu qoşub buraya gəlmişəm.

- Miniklərin varmı?

- Xeyr.

- Necə məni buraya gətirmisən, elə də şəhərə qaytaracaqsan.

- Baş üstə.

- A qardaş, nə edirsən? Belə də iş olarmı? Tanışlarımız məni məzəmmət edər ki, qardaşını bir gün də saxlamadı. Sənə bacın qurban olsun, bir az səbir et, iki günün ərzində elə öyrənəcəksən, yanında top da atsalar, yuxudan oyanmayacaqsan.

- Bacı, hərgah məni ölümə göndərmək istəyirsənsə qalım.

- Allah eləməsin, qardas, nə danışırsan.

- Onda mənə mane olma...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

* * *

Çaydan sonra yeddi qardaş, dayılarının şeylərini İvan dayının furqonuna daşıyırdılar. Çil xoruzun ölümündən bixəbər Gülnaz, rəfiqim ilə bərk dost olmuşdu, çünki dayı onun üçün çox şeylər gətirmişdi. Ona görə onu buraxmaq istəmirdi.

- Gülnaz, qızım, üç aydan sonra Həsənə yazacağam, səni şəhərə gətirsin, orada səni məktəbə qoyacağam, gələn yayda səninlə bərabər buraya gələcəyəm.

Şeylər furqona qoyulduqdan sonra rəfiqim əlvida edərək furqona mindi və "sümsükut" orucunu tutub yola rəvan oldu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## NAMUS

Axşam vaxtı idi. İyirmi yaşlı bir gənc həyəcanlı, bığlarını gəmirərək, otaqda o baş-bu başa gəzinir, öz-özünə söylənirdi.

- Yox, daha səbir kasam dolub daşmış... öldürməsəm ürəyim sakit olmaz, düşmənlərimin tənəli baxışlarında, dostlarımın istehzalı təbəssümlərində bunu aydın oxuyuram. Qoçu Sadığın oğlu Rəşid, qeyrətin, namusun harada qalmış?

Gəncin anası yanaşı otaqda axşam üçün yemək hazır edib süfrəyə qoyurdu. Yarıaçıq qapı arasından oğlunun sözlərini eşidirdi. Öldürəcəyi kim olduğunu duyurdu. Onu sakit etmək üçün otağa girdi.

- Oğlum, xörəyin soyuyur, gəl otur, ye, - deyə anası Rəşidi yemək otağına təklif etdi.

- Ana, sənin o duz-çörəyin, bu məmələrindən əmizdirdiyin südün mən oğluna haram olsun.

- Ay oğul, nə deyirsən, nə üçün belə qəzəbə gəlmisən? De görüm sənə nə olmuş?

- Daha bundan bədtər nə olacaqdır? Bacım Leyla mənim bu qeyrət papağımı o dikdaban çəkməsi altına salıb tapdalayır... Bu qədər qardaşları tərəfindən öldürülən bacılardan ibrət almır. Yoxsa, o elə fikir edir ki, mən Şura hökumətindən qorxub bu binamusluğu qəbul edəcəyəm? Xam xəyal... Hamı təqsir sən anamdadır...

- Rəşid, mən bədbəxt nə etmişəm?

- Onu etmisən ki, Leylanı, o biqeyrət Kamilə verməyə mən razı deyildim, sən məni vadar etdin. Dedin: "Kamil oxumuş cavan oğlandır, özünün də yaxşı qulluğu var". Onun elm oxuduğu başına dəysin. Mənə qeyrəti, namusu lazımdır, o da ki onda yoxdur. Deyirəm, Kamil, bu arvadının ipini çək, səhərdən axşama kimi bulvarda yava qızlar kimi açıq gəzib onunla-bununla mırt vurub gülür, bizi rüsvay edir. Deyir, sənə borc deyil, arvad mənimdir, nə sayaq saxlayacağam, özüm bilərəm.

- Oğlum, acığın tutmasın, Kamil doğru deyir, indi hamı Leyla kimi açıq gəzir. Qorxma, bacın namuslu, ismətli qızdır. O, elə iş tutmaz ki, sənə, ya ərinə alçaqlıq gətirə. Oğlum, qoçubazlıq zamanı getdi. İndicə asudə olmuşuq. Atan zamanı nə gün çəkdiyimizi bilirsən? Gündüzlər düşmənlərin qorxusundan rahat bayıra çıxa bilməzdik, gecələr bir hənirti gəldikdə hamımız dik atılardıq. Sən özün keçmişdə indiki kimi belə arxayın gəzə bilərdinmi?



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Belə sözlər ilə anası oğlunu sakit etməyə çalışırdı. Rəşid anasının dedikləri sözdə həqiqəti hiss edirdi. Doğrudan da, atası zamanı bütün ailənin günü qara idi, həmişə qorxu altında yaşayırdılar. Onun özü məktəbli bir uşaq olduğu halda, atasının əmrilə belinə tapança bağlamağa məcbur idi. Bacısının günü daha qara idi. O, atasının qorxusundan ki, sənə naməhrəmin gözü sataşar - otağından kənara çıxa bilməzdi. Anası onu da doğru deyirdi ki, o indi Şura hökuməti zamanı gəzə bilir. Lakin sabiqdən irs qalmış tərbiyənin təsiri onda dərin kök salmışdı. Qadınların açıq və azadə gəzməyinə o razı ola bilmirdi, çünki nadan atasından və cəmi qohum-əqrəbasından aldığı yanlış tərbiyə üzündən: "Açıq gəzən qadında qeyrət, namus olmaz" kimi sözlərə möhkəm inanmışdı.

Anası oğluna etdiyi nəsihətin təsirini görüb dedi:

- Oğlum, heç vaxt unutma ki, düşmənlərimiz atam güdaza verən kimi səni də vermək istəyirlər. Onların vəsvəsəsinə inanma, böyük bir ailədən bir kişi sən qalmısan, sən də tələf olsan, mən küçələrə düşərəm. - Dur oğlum, gedək, xörəyin soyuyur.

Anasının səyi ilə Rəşid bir qədər sakit olub yemək otağına keçdi.

* * *

Rəşidi yoldan çıxaranlar atasının düşmənləri idi anası Gülsüm bunu yaxşı bilirdi. Onlar köhnə ədavəti unutmamışdılar. Lakin Şura hökumətindən çəkinərək aşkar çıxış edə bilmirdilər. Hiylə ilə Rəşidi tələf etmək istəyirdilər. Onun bacısını əllərində intiqam aləti etmişdilər.

Anasının nəsihətindən sonra Rəşid sakit olub bacısına əziyyət vermirdi. Bir ittifaq da buna daha artıq səbəb olmuşdu. Belə ki, Rəşid son zamanları tibb fakültəsində təhsil alan bir yəhudi qızına məhəbbət bağlamışdı. Liya adında bu gənc qız, qoca anası ilə Leyla olan həyətdə yaşayırdılar. Bu kasıb ailə, ancaq bu iki nəfərdən ibarət idi. Liya özü oxuduğu halda müəllimlik edib, xüsusi dərs verməklə, həm özünü və həm də anasını saxlayırdı. Liya Leyla kimi qaraqaş, qaragöz bir qız idi. Onların bədənləri, boyları da bir biçimdə idi. Liya, Azərbaycan dilini gözəlcə bilirdi. Liya Leylaya rusca dərs verirdi.

Rəşid Liya ilə görüşmək qəsdilə bacısıgilə tez-tez gəlib-gedərdi. Leyla buna artıqca şad idi ki, qardaşı ona Liya ilə gəzməyə mane olmurdu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

* * *

Rəşidin düşmənləri rahat olmurdular. Onlar Gülsümün evini sahibsiz qoymaq fikrində idilər. Rəşidi tələf etmək üçün yeni planlar çəkirdilər. Leylanın dalınca pusquçular salıb, onun hara getdiyindən və nə iş tutduğundan məlumat toplayaraq, Rəşidə adsız məktublar yazırdılar, min dürlü iftiralar düzəldirdilər. Liyanı da əllərində alət etmişdilər. Onu müsamirələrə dəvət edib Leylanı oraya çəkmək istəyirdilər. Lakin Leyla ya getmir, ya da gedəndə Kamil ilə gedirdi. Bu isə onların planlarını pozurdu.

Axırda bir hadisədən istifadə edərək düşmənlər Rəşidi tələyə salıb məramlarına nail oldular. Belə ki, bir qış gecəsi klubda kostyumlu və rəqsli müsamirə verilirdi. Kiyev şəhərindən gəlmiş Liyanın nişanlısı bu müsamirəyə, namizədilə bərabər Leylanı da təklif etdi, lakin o razılıq edib, gedə bilməyəcəyinə üzr istədi. Liya müsamirəyə hazırlanaraq əntiq kostyum arayırdı, Leyla, cehiz getirdiyi əski Azərbaycan biçimi ilə tikilmiş ipək libasını ona göstərib sordu:

- Liya, bu paltar yararmı?

Liya, bu əski çəpgən, kürdü katibi, büzmə darayı tumanı və qeyrilərini gördükdə gözləri parlayaraq dedi:

- Ah, nə gözəl paltardır, mən ömrümdə belə şeylər görməmişəm.

Yəqinimdir ki, müsamirədə hamının gözə məndə olacaqdır.

Liya şadlığından Leylanı qucaqlayıb öpməyə başladı.

- İndi, gey görüm, əyninə necə gələcəkdir? - Leyla paltarı ona uzatdı.

Liya geydi, sanki bu libas onun boyuna biçilmişdi. Bu paltarda Liya Leylaya o qədər bənzəyirdi ki, seçmək belə olmurdu.

- Bəs başıma nə örtüm? - deyə Liya soruşdu.

- Bu saat onu da düzəldərəm, - deyə Leyla başqa sandıqdan bir əski İran tirmə şalı çıxarıb onun başına saldı.

Saat doqquz yarımda Liya nişanlısı ilə müsamirəyə getdi. Düşmənlərin adamlarından birisi orada hazır idi. O, Liyanın tanışı idi. Onu belə libasda gördükdə əvvəl tanımadı. Sonra onun paltarını tərif edib belə gözəl libasın kim verdiyini soruşdu. Liya nağıl etdi və əfsus etdi ki, Leyla gələ bilmədi. O, bir qədər Liya ilə söhbət etdi. Sonra klubdan çıxıb getdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O gecəsi Rəşid anası ilə naxoş xalasını yoxlamağa getmişdi, xalası bərk xəstə idi. Leylaya da xəbər verilmişdi, amma o hələ gəlib çıxmamışdı. Anası Rəşidi evə göndərib, özü bacısının yanında qaldı. Saat on tamamda Rəşid soyunub yerinə girdi. Gecənin bir vaxtı qapı döyüldü. Rəşid dik atıldı. O, fikir etdi ki, xalası keçinir, onu çağırırlar. Paltonu çiyninə atıb qapını açdı. Kürkə bürünmüş naməlum bir şəxs ona bir məktub verib cəld getdi. Rəşid otağa qayıdıb məktubu açdı, oxudu, rəngi qaçdı. Kağız əlində payız yarpağı kimi əsirdi.

- Yenə düşmənlərimin iftirasımı? Yox, böhtana oxşamır... "Gəl öz gözünlə gör" deyirlər. Binamus bacı, xalası evdə can verir, onu son görüşə çağırır, o, klubda aşnabazlıq edir... Ey biqeyrət bacı, əgər bu məktubda yazılan doğru olursa, sənin sabahkı günəş ziyasını görməyəcəyinə and içirəm! - Bunu deyə Rəşid cəld geyinib tapançasını paltonun qoltuq cibinə qoydu, qapını açıb küçəyə çıxdı. Hava ayaz idi. Rəşid paltonun boynunu qaldırıb yola düşdü. Fikir və xəyal onu elə aparmışdı ki, yolu azıb küçələrdə dolaşırdı. Öz-özü ilə danışırdı: "Bacımı öldürməyə mənim ixtiyarım varmı?" deyə özünə sual verirdi. Nə üçün? Kamil ona inanıb başına buraxır. Məgər onda heç namus hissi yoxmu?.. Yaxşı olmazmı ki, aparım məktubu ona göstərim... Yox, əvvəl məktubda yazılanı təhqiq etmək lazımdır. Rəşid başını qaldırdıqda özünü klubun qabağında gördü. Açıq qapıdan musiqi səsi gəlirdi. Kluba daxil olmaq istədikdə, gözü koridorda bir cavan oğlan ilə Şərq libasında bir gənc qadına sataşdı. Qadın sağ divarda bən olunmuş aynanın qabağında durub başının tüklərini düzəldirdi. Rəşid onun üzünü tamam görə bilmirdi, lakin əynindəki əski Şərq libası bacısı Leylanın olduğuna şübhə etmirdi. Bu vaxt oğlan ondan ayrılıb paltar saxlayan xidmətçinin yanına getdi, xidmətçi paltoları qarmaqdan çıxarıb ona verdi. Oğlan paltonu alıb qadına tərəf getdi. Onu kürsü üstünə qoyub şalı əlinə götürdü və qadının başına saldı. Rəşidin bədəninə lərzə düşdü. O, Leylanın bu əski tirmə şalını tanıdı. Bu vaxt qapıçı gəldi, ondan içəri girməyə dəvətnamə istədi.

- Mən içəri girmək istəmirəm, yoldasımı gözləyirəm, - deyə Rəşid cavab verdi.

- Burada durmaq olmaz, küçədə gözləyə bilərsiniz, - deyə qapıçı qapını örtdü.

Rəşid küçəyə çıxdı. Klubun qapısından bir qədər uzaqlaşıb pusquda durdu. Aradan bir az keçmiş oğlan ilə qadın klubdan çıxdılar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Oğlan göz gəzdirib fayton aradı, tapmadı. Sonra qolunu qadının qoluna salıb yola düşdülər. Rəşid özünü bir dərvazaya qısıb, onları irəli buraxıb arxalarınca düşdü. Onlar tinə çatdıqda durdular. Rəşid cəld bir sütunun dalında gizləndi. Küçədə bir kəs yox idi. bu zaman yan küçədən fayton qaraltısı göründü, oğlan bir qədər irəliləyib: "Fayton, fayton" deyə səslədi. Rəşid bundan istifadə edərək tapançasını çıxarıb özünü qadının üstünə atdı. Güllənin atılması, qadının yerə sərilməsi bir anda oldu. Oğlan özünü itirib, qışqıraraq qaçmağa başladı. Rəşid istədi ki, güllənin birisini də onun başına sıxsın, Liya zəif bir səslə dedi:

- Rəşid, nə üçün məni öldürdün? Mən sənə nə etmişəm? Tapança, Rəşidin əlindən düşdü:

- Liya sənmisən? - deyə qışqırdı.

Lakin Liyadan səs çıxmadı, çünki onun cavan ömrü bir cəhalət gülləsinə qurban olmuşdu, Rəşid əyilib ona baxdı.

- Şübhəsiz zavallı Liyadır, öz əlimlə sevdiyim günahsız qızı qanına boyadım, - deyə fəryad etdi.

Güllənin səsinə, Liyanın nişanlısının qışqırığına küçələrdən milislərin fitləri qalxmağa basladı.

Rəşid qaçmaq fikrində deyildi. O, bacısını öldürmək qəsdinə düşən gündən qət etmişdi ki, xahişini əmələ gətirdikdən sonra öz ixtiyarı ilə hökumətə təslim olacaqdır, o idi ki, milislər əllərində silah onu əhatə etdikdə, Rəşid qaçmayıb dedi:

- Bu yəhudi qızını bacım bilib səhvən öldürmüşəm, sizə təslim oluram. Məni milis idarəsinə aparın ki, şəhadətimi verim, - bunu deyə tapançasını onlara uzatdı.

Onu həbsə aldılar. Düşmənlər məramlarına çatdılar. İki qoca qadının ümid çıraqlarını söndürdülər.

* * *

Beş aydan artıq idi ki, Rəşid həbsxanada yatırdı. Bu günlərdə onun mühakiməsi olacaqdı. Bu mühakiməni Rəşid böyük iztirab və təlaş ilə gözləyirdi. Lakin onun bu həyəcanına səbəb, qorxu hissi deyildi, onu təşvişə salan o idi ki, şayəd məhkəmədə indiki yeni nəzərlərini, dərin düşüncələrini, onda əmələ gəlmiş böyük ruhani təğyirlərini son sözündə camaata layiqincə yetirə biləcəkdirmi? Ona inanacaqlarını? Yainki işini yüngülləşdirmək üçün bir hiylə sanacaqlarmı? Rəşid son



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Fikirlərindən qorxmurdu, çünki özünü qurtarmaq məqsədində deyildi, biləks məhkəmədən özü üçün ən ağır cəza tələb edəcəkdi. O etdiyi silinməz cinayətdən sonra yaşamaq təmənnasında deyildi. Lakin ölümə gedərkən, indiyə kimi fəxr ilə tutduğu yolun yanlış olduğunu öz həmfikir və həmməsləki olan gənc yoldaşlarına sübut etmək istəyirdi. Onda zühura gəldiyi təğyirlərin düz və səmimi olmasını onlara anlatmaq istəyirdi.

Bu təğyir Rəşiddə birdən əmələ gəlməmişdi. Əvvəlləri həbsxanada yatarkən sevdiyi qızı öldürməsinin baisi bacısını sanıb ona düşmənçiliyi artmışdı.

- Liyanın əsil qatili mən deyiləm, bacımdır, - deyə ondan intiqam almaq istərdi. Anasına gəldikdə ona da ədavət bağlayıb görüşmək istəməzdi... Bu isə köməksiz qalmış zavallı ananın gecə-gündüz göz yaşı tökməyinə səbəb olurdu.

Hər cümə günü, başqa analar və arvadlar kimi Gülsüm həbsxananın qabağında saatlarca durub oğlu ilə görüşmək istəyirdi. Lakin növbə ona çatdıqda xəbər verdilər ki, müqəssir anası ilə görüşmək istəmir. Hətta Rəşid anası gətirdiyi şeyləri de qəbul etmirdi. Biçarə ana həbsxananın divarına söykənib saatlarca ürək yaxıcı göz yaşlarını tökərdi. Başqa görüşə gəlmiş analar, arvadlar onun halına acıyardılar. Zavallını bir tövr sakit edib evinə aparardılar. Buna baxmayaraq, Gülsüm hər cümə yenə gəlirdi ki, bəlkə, bu dəfə oğlu fikrini dəyişdirib, onunla görüşəcəkdir, ya gətirdiyi şeyləri qəbul edəcəkdir. Ümidi puça çıxardı. Onun halına həbsxananın qapıçısı yanırdı.

O, bir cümə günü, Gülsümdən Rəşidin dostlarının adlarını öyrənib belə bir hiylə qurdu; gələn cümə növbə Gülsümə çatdıqda qapıçı dedi:

- Ana, oğlun şeyləri qəbul edir, ver aparım.

Biçarə arvad sevindiyindən özünü itirmişdi, əlləri əsə-əsə qəzetə bükülmüş çayı, qəndi, papirosu və özü bişirmiş olduğu halva və külçəni ona uzatdı.

- Oğlum, bunu Rəşidə verəndə de ki, onun dərdindən belim bükülmüş, ağlamaqdan gözlərimin nuru getmiş. Bu gün-sabah bu qəm və qüssədən öləcəyəm, bircə mənlə görüşsün ki, qəbrə rahat gedim.

- Yaxşı anam, deyərəm. Qorxma, oğlun səninlə görüşəcəkdir, ancaq bir az səbir elə. Çox cavan dustaqlar sənin oğlun kimi əvvəl vaxtlar heç kəsi görmək istəmirlər, sonralar, özləri qohumları ilə görüşməyə tələsirlər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qapıçı şeyləri ondan alıb dedi:

- İndi get, ana, ümidini kəsmə.

Gülsüm ondan razılıq edib getdi. Qapıçı şeyləri Rəşidə dostlarının birisinin adı ilə verdi. Beləliklə, qapıçı bir müddət həm anasını və həm də oğlunu aldadaraq, hər ikisini razı etdi.

Rəşidi həbsxanada ayrıca kameraya salmışdılar. Buna onun özü də şad idi, çünki halı elə sükut və təkliyi tələb edirdi.

Rəşid bütün günləri, saatlarca yerində uzanıb dərin fikirlərə dalırdı. Azadəliyin nə böyük səadət olduğunu indi düşünürdü... Uca və kiçik pəncərədən düşən günəşin işığının necə böyük bir nemət olduğunu indi anlayırdı.

- Mən nə üçün bacımı bu iki böyük nemətdən məhrum etmək istəyirdim? Bizim arvadlarımız, anadan olandan qəbrə gedənə kimi belə həbsxanalarda yaşayan dustaqlar deyildirlərmi? İnsafı, vicdanı olan şəxs belə ədalətsizliyə razı olarmı?

- Açıq, azadə gəzən qadınlarda namus, ismət olmaz... Bu fikir düzdürmü? Demək, bütün mədəni millətlərin qadınları namussuzdur... Bu nəzəriyyə doğrudurmu? Çarşaf yavalığın qarşısını alar; bu haqlı bir tədbirdirmi?

Rəşid öz-özünə belə sualları verib, həqiqət harada olduğunu dərin düşüncələrdən sonra arayıb tapırdı. Uzun gecələr, tutduğu cinayətin qanlı mənzərəsi gözlərinin qarşısında böyüyürdü. Sevgili Liyasının solğun dodaqlarından çıxan "Rəşid, məni nə üçün öldürdün, mən sənə nə etmişdim?" səsləri qulaqlarından çıxmırdı. Bəzən də bacısının pərişan üzü, müztərib gözləri, anasının zəif, qansız siması məzlum baxışları gözlərinin önündə canlanırdı. Bəzən də yuxusunda anasını küçələrdə dilənən görürkən diksinib oyanardı. Bu zaman Rəşidin yadına anasının bu sözləri düşürdü:

"Oğlum, düşmənlərin vəsvəsəsinə qulaq asıb məni küçələrə salma, əsil biqeyrətlik budur, oğlum".

Rəşid bu acı həqiqəti indi anlayırdı.

- Doğrudan da düşmənlərimin bir saxta məktubuna inanıb üç ailəni bədbəxt etdim, buna namuslu deyərlər? Günahsız Liyanın qoca anasını küçələrə atdım, belə qatil bağışlanmağa layiqmi? Yox, yox, - Rəşid suallarına cavab verirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

* * *

Rəşid daha anasının görüşündən boyun qaçırmırdı. Hər cümə, gülər üzlə onu qəbul edib mehriban söhbətlər edərdi. Ona təsəllilər verərdi. Gülsüm oğlunun belə təğyirinə artıq şad idi. Bir dəfə Rəşid soruşdu:

- Ana, nə üçün bacım məni görməyə gəlmir?

- Oğlum, səndən qorxur, sən tutulan gündən bəri bacın evdən heç bir yerə çıxmır, gecə-gündüz ağlayır, bir an rahat olmur. Gördüyün sağlam Leyla, əriyib çöpə dönmüşdür. Deyir: "Qardaşının bədbəxt olmasına bais mən oldum. Kaş o yanımda olaydı, başıma çarşaf salıb evdən bayıra çıxmağıma izin verməyəydi. Mən onun əmrini şadlıqla qəbul edərdim".

Rəşid gülümsəyib dedi:

- Qorxmasın, mən irəliki Rəşid deyiləm. Bu gündən sonra daha heç bir kəsdən çəkinməyərək açıq, azadə, könlü istəyən yerə getsin. Ana, onlara cəlladlıq etdiyimiz yetər, belə həbsxanalarda saxladığımız bəsdir, onların hüquqlarına, mal və canlarına, namuslarına toxunmaqlarımız bir namussuzluqdur. Qadınlar hər cəhətcə, erkəklərlə müsavidirlər. Bu sadəcə şeyi mən burada uzun müddət dərin fikirləşib, düşünüb anladım.

Gülsüm, oğlunun dediyi sözlərin çoxunu anlamadısa da, onda olan böyük dəyişikliyi hiss edirdi.

- Ana, bu dediklərimi bacıma yetir və gələn cümə də mənim gorüşümə gətir. Ona deyəcək sözlərim çoxdur. Daha durma, get, bacımı şad et...

Gülsüm şadlıqdan özünü elə itirmişdi ki, oğlu ilə belə salamatlaşmayıb, cəld getdi.

* * *

Üç gün idi ki, vilayət məhkəməsinin cinayət şöbəsi tərəfindən Rəşidin işinə baxılırdı. Başqalarına ibrət olmaq üçün məhkəmə ciddi və təntənəli bir surətdə qurulmuşdu. Böyük məhkəmə salonu maraqlanan tamaşaçılarla dolu idi. Bu gün məhkəmənin sonu olduğu üçün gələn adamların sayı iki qat artmışdı. Salonda qadınlar şöbəsinin üzvlərindən başqa qeyri çarsaflı qadınlar da çox idilər. Onlar məhkəmədən qatil üçün edam cəzası tələb edirdilər. Bu isə Gülsümün və Leylanın ürəklərinə ox kimi sancılırdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qadınlar şöbəsi tərəfindən təyin olunmuş natiqin odlu çıxışı camaata böyük təsir buraxmışdı. Rəşidin hökumət tərəfindən təyin olunmuş vəkili bu təsiri pozmağa səy edirdisə də, müvəffəq olmadı. Rəşid başını aşağı salıb heç kəsə baxmırdı. Dərin-dərin fikirlərə dalıb özünün harada olduğunu duymurdu.

- Vətəndaş müqəssir, söz sizindir, - deyə sədr elan etdi. Salonda elə sakitlik əmələ gəldi ki, milçək uçsaydı, qanadlarının səsi eşidilərdi.

Rəşid qalxdı. Yüzlərcə gözlər, onun zərif, gözəl, lakin solğun simasına, uşaq baxışlı gözlərinə, uca, incə boyuna, qıvırcıq saçlarına dikildi.

Rəşid həyəcana gəlmiş əsəblərini, hiddətli çarpan qəlbini sakit etmək üçün su istədi. Verdilər, içdi, sonra zəif, titrək, xoş səslə son sözlərini başladı. Tərcümeyi-halını, içərisində yaşadığı mühiti, qoçu atasından aldığı tərbiyəni doğru, düzgün təsvir edərək, etdiyi cinayətə keçdi. Onun nitqi gəldikcə yandırıcı oda, kəskin qılınca dönürdü. Həbsxanada çəkdiyi böyük ruhi əziyyətdən sonra, özündə əmələ gəlmiş təğyirləri elə saf və sədaqətlə isbat etdi ki, kimsədə bir şübhə izi belə qalmadı. Hamının rəhmini, məhəbbətini qazanmağa müvəffəq oldu. İndi onun ölümünü heç kəs tələb etmirdi, biləks, azad olmasını diləyirdilər. Bir az bundan əvvəl edamını tələb edən qadınların gözlərində mərhəmət və şəfqət yaşları görünürdü.

Rəşid nitqini bitirərək üzünü qadınlara tərəf çevirib:

- Bacılar, mənim kimi azad olmağınıza mane olan qara fikirli cavanlar və bütün ərlər aradan götürülməlidir. Mən də sizin rəyinizə şərik olaraq məhkəmədən özümə ən ağır cəza tələb edirəm, - deyə Rəşid oturdu.

Qadınlar tərəfindən "yox, yox, istəmirik" sədası qalxdı.

Məhkəmə üzvləri müşavirə otağına keçdilər. Salonda səslər ucaldı, qızğın bəhslər başlandı. Qadınlardan bir neçəsi Gülsüm və Leylanı əhatə edib:

- Qorxmayın, bacılar, bu işdə ölüm yoxdur, - deyə təsəlli verirdilər.

Aradan yarım saat keçmiş sədr, üzvlərlə bərabər salona daxil oldular. Hamı ayağa qalxdı. Böyük sükut içərisində sədr qətnaməsini oxudu.

- Müqəssir dörd il müddətində azadlıqdan məhrum edilir, lakin onun cavan və səmimi bir insan olduğunu nəzərə alaraq cəzası iki il azaldılır.

Salondan şadlıq sədası yüksəlmiş, adamlar sevinc dalğaları arasında axın-axın bayıra çıxırdılar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## "YOLUXMA XƏSTƏLİK"

İlk bahar... Mayın gözəl günlərindən biri idi. Ağaclar yaşıl paltara bürünüb səhralar çiçəklərlə bəzənmişdi. Batumdan Tiflisə sürətlə hərəkət edən dəmiryol qatarı miniklərlə dolu idi. Bunların çoxu, səfərin bu gözəl mənzərəsindən istifadə edə bilməyirdi; çünki Qara dənizin çılğın qəhqəhə ilə hayqıran fırtınalarından çox əziyyət çəkmişdilər. Onun üçün də indi kimisi uzanıb yatmış, kimisi də mürgüləyirdi.

Bu əziyyəti gənc Cəlil də çəkmişdi. Lakin öz yorğunluğuna baxmayaraq, kupe pəncərəsini qaldırıb baharın saf havasını dərindən tənəffüs edirdi. Hər anda mənzərəsini dəyişən təbiət onda başqa hiss və təsir buraxırdı.

Bu gənc yeddi il idi ki, Parijdə tibb fakültəsini ikmal üçün sevgili vətənindən ayrı düşmüşdü. Bu aralıq Oktyabr inqilabı zühur edərək, daha sonra Azərbaycanı da şuralaşdırmışdı. Vətəndən əlaqəsi kəsilmiş Cəlil, Parij mətbuatında dərc edilən provaqasiya xəbərləri mütaliə edərkən mütəəssir olardı. Cəlil hər nə qədər bu xəbərlərə inanmayırdı, lakin yenə qəlbində böyük bir iztirab hiss edirdi. O idi ki, Batuma çatdıqda yorğunluğuna baxmayaraq, şəhəri gəzməyə başlamışdı ki, belkə bir tanışa rast gəlsin... Ancaq kimsəyə rast gəlməmişdi.

* * *

Qatar Tiflis stansiyasına çatdıqda miniklər vaqonlardan əcələ ilə enərək özlərini bufetlərə soxmağa başladılar. Cəlil də kupedən enərək yerə düşdü... Lakin yenə də yemək yemədən əvvəl tanış aramaq fikrində idi. Ancaq qarınca kimi qaynaşan insanlar sırasında heç bir tanış tapmadı. Qəzet, məcmufə alıb bufetə girdi və yemək yeməyə məşğul oldu. Qatar hərəkət edərkən, Cəlil yenə vaqona atıldı... Bir qədər Tiflisin mənzərələrinə tamaşa etdikdən sonra kupesinə gəldi. İçəri daxil olduqda pəncərə səmtində qısa boylu, zəifəndamlı, batıqordlu, çalsaçlı bir şəxsi oturmuş gördü. Bunun siması Cəlilə tanış gəldi. Bu şəxs də diqqətli bir nəzərlə ona baxırdı.

Cəlil bunun qarşısında oturaraq soruşdu:

- Siz müəllim Mirzə Xəlilmisiniz?

- Bəli.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Məni tanıyırmısınız?

- Yəqin əski tələbələrimdən birisiniz... Lakin adınızı unutmuşam.

- Bəli, mən sizin əski tələbənizəm, adım Cəlildir.

- Doğru, doğru, indi tanıdım.

- Siz Parijdəmi təhsil edirsiniz?

- Bəli, təhsilimi bitirmiş, indi vətənə qayıdıram.

- Çox gözəl... Artıq şadam, - deyə Mirzə Xəlil əlini uzatdı. Cəlil yerindən qalxaraq iki əlilə onun əlini sıxdı.

- Möhtərəm müəllimim, sizi sağ və salamat görməyimə mən də artıq şadam.

Kupedə bunlardan başqa iki minik daha vardı. Lakin onlar üst yatacaq yerlərini qaldırıb uzanmışdılar. Bunların söhbətlərinə mane olan bir şey yox idi.

Cəlil qohum-əqrəbasının, dost-aşnalarının sağ və salamat olmağını bildikdən sonra söhbəti Azərbaycanın siyasi və ictimai vəziyyətindən açmışdı. Mirzə Xəlilin verdiyi məlumata təəccüb edərək deyirdi:

- Bizə çatan xəbərlər büsbütün bunun əksini anladırdı. Möhtərəm müəllimim! Mən hənuz Parijdə tibb fakültəsində təhsil alarkən, qət etmişdim ki, təhsilimi bitirdikdən sonra vətən evdət edəm. Bakıda qalmayıb Azərbaycanın ən uzaq və mədəniyyətcə geridə qalmış qəzasında oturaraq əhalisinə tibb yardımı edəm. İndi, söhbətimizdən sonar bu fikrimdə daha möhkəm qalmağı sizə söz verirəm.

Mirzə Xəlil dedi:

- Fikriniz çox gözəldir, çünki Azərbaycanda təhsillərini bitirmiş gənc təbiblərimiz qəzalara getməkdən çəkinirlər, hamısı Bakıda qalmaq istəyir.

- Mirzə, keçmişdə Azərbaycanda isitmə xəstəliyi çox artıq dərəcədə idi, indi nə haldadır?

- İndi azalmaqdadır. Şura hökuməti səhiyyə işlərinə artıq diqqət verir. Lakin Azərbaycanda yeni bir "yoluxma xəstəlik" peyda olmuş. Bu əcib, fəqət çox gözəl "xəstəlik" bütün Azərbaycanı bürüyür... erkək, qadın, çocuq, qoca - hamısı bu "mərəz"ə mübtəla olurlar.

Cəlil təəccüblə soruşdu:

- Möhtərəm müəllimim, o yoluxucu xəstəliyə bir "gözəl" kəlməsi də əlavə etdiniz... Buna mən təəccüb edirəm.

Mirzə Xəlil gülümsəyib dedi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Bəli, bu "xəstəliyə" mübtəla olan şəxslər çox gözəlləşirlər, ruhları yüksəlir, zehinləri itiləşir...

Cəlil təəccüblə dedi:

- Bu mərəzin bəzi nişanələri verəm xəstəliyinə bənzəyir. Lakin, ümumiyyətlə indiyə kimi görünməmiş bir mərəz... Şura hökuməti bu xəstəliyin qabağını almaq üçün nə təşəbbüsdə bulunur?

- Onun daha da artmasına səy edir. Cəlil bu sözləri eşitdikdə gülərək dedi:

- Möhtərəm mirzə, zarafat etdiyinizi indicə anladım.

- Xeyr, zarafat etməyirəm, lakin gecə keçmiş, söhbətimizi bitirək... Sonra Bakıda görüşüb bərabərlikdə bu "mərəz" haqqında danışarıq, indi isə rahat olaq.

Bir azdan sonra Mirzə Xəlil və Cəlil kupenin açıq pəncərəsindən içəri tökülən qucaq-qucaq ölgün ay işıqları altında uyuyurlardı.

* * *

Doktor Cəlil Bakıda idi. Neçə illərdən bəri uzaq düşdüyü Bakını gəzər, dolanar və bu günkü yeniliklərə ciddən sevinərdi. Bir gün Mirzə Xəlil ilə görüşürkən gülmüş və demişdi:

- Möhtərəm mirzə, vaqonda dediyiniz və həm də mübhəm saxladığınız gözəl "mərəz"i özüm axtarıb tapdım. Hal-hazırda onun mikrobunu təhlil edirəm ki, asan bir üsul ilə daha şiddətli inkişaf etdirərək Azərbaycanın on qaranlıq guşələrinə nəşr edəm, hətta bu gözəl "mərəz"in adını da öyrəndim. İstərsəniz söyləyim.

Mirzə gülərək:

- Hansı "mərəz"dir?

- O, maarif çiçəyidir ki, qocadan tutmuş çocuqlara qədər yayılmış və yayılmaqdadır.

- İndi mən də bunu peyvənd edəcəyimə söz verir və ciddi çalışacağam.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# İKİ DOST, İKİ DÜŞMƏN

Avqustun isti günlərindən biri idi. Mədənçilərin istirahət evində nahardan sonra xəstələrin bir taqımı bağçada kölgəli ağacların altında oturub söhbət edirdilər. Bunlardan Rəhman adlı bir işçi Vətəndaş müharibəsində zühur etmiş bir vəqəni yoldaşlarına nağıl edirdi. Onlar da oturub artıq diqqətlə onu dinləyirdilər. Bu dəmdə istirahət evinin həkimi əlində qəzet, odasından çıxıb bağçaya gəldi. Onu gördükdə Rəhman səsini kəsdi.

- Yoldaşldar, nə üçün istirahət evinin qanununu pozursunuz?

Taxtınızda uzanıb rahat olmalısınız - deyə həkim onları məzəmmət etdi.

Qoca işçi Salman dedi:

- Yoldaş Fəxrəddin, biz sükutu pozmayırıq, yuxumuz da gəlməyir.

Yoldaş Rəhman Vətəndaş müharibəsindən qayət maraqlı şeylər söyləyir, rica edirik ona mane olmayasınız.

Həkim izin verdi. Özü də skamyada oturub qəzet oxumağa məşğul oldu. Rəhman nağıl etməyə başladı. Söylədiyi, doğrudan da, maraqlı şey idi. Hətta Fəxrəddinin də fikrini cəlb etmişdi. O, qəzet oxumağı buraxıb dinləyirdi. Rəhman nağılı bitirdi. Araya bəhs düşdü. Cavan işçi Niyazi dedi:

- Yəqin oğlu atasını öldürdükdə kim olduğunu bilməmiş.

Qoca Salman dedi:

- Burada təəccüblü bir şey yoxdur. Vətəndaş müharibasində belə ittifaqlar çox olmuşdur. Ata oğlu, oğul atanı, qardaş qardaşı öldürmüşlər.

- Niyazi bu ildən firqəyə namizəd yazılmışdır, onda kommunizm qayəsi hələ möhkəmləşməmişdir, onun üçün də şübhə edir.

- Yoldaş Mərdanın bu sözünə mən de şərikəm, - deyə Fəxrəddin təsdiq etdi.

- Vətəndaş müharibəsi qeyri müharibələrə bənzəməz. Bu sinif müharibəsi, məfkurə mübarizəsidir. Burada ata, oğul, qardaş, hərgah başqa-başqa məsləklərə mənsub isələr, adi bir düşməndirlər.

- Kommunizmi dərin düşünsəniz, onun qayəsini yaxşı anlasanız ata, ana, qohum, dost, aşina hissi sizə qalib gəlməz. İndi izniniz ilə mən də başıma gələn bir vəqəni söyləyim...

- Söyləyin, - deyə rica etdilər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İşçilər onun əski bir kommunist olduğunu bilirdilər. Həkim qutusunu çıxarıb papirosunu yandırdı, çəkdi. Sonra hekayəyə şüru edərək dedi:

- Söylədiyim aydın olmaq üçün bir keçmişə əl atmalıyam. Mən kəndli övladıyam. Kəndlinin əlində bir parça əkin yeri olar, onu becərib məhsulu ilə öz coluq-çocuqlarını aclıqdan saxlar. Mənim atam  Səfərəlinin elə bir parça yeri də olmamış. Həsənqulu ağaya rəncbərlik edərək min məşəqqət ilə öz ailəsinə çörək qazana bilmiş.

Həsənqulu ağa tündməcaz bir mülkədar idi. Atam ondan artıq əziyyət çəkərdi. Anam da ağalıqda qaravaş idi. Binəva göz yaşından başqa, xanımlardan bir hədiyyə almazdı. Mənim də vəzifəm ağalıq qapısında kötək yemək idi. O vaxt mənim doqquz yasım var idi. Bir ittifaq mənim bu döyüş-söyüşümün qabağını almağa səbəb oldu. Həsənqulu ağanın övladı yox idi. On yaşında qardaşı oğlu Şahbaz bəy onun vahid varisi idi.

Bu uşaq atasız, anasız bir yetim idi. Şəhərdə leyli məktəbdə tərbiyə alırdı. Nağıl etdiyim il yay tətili münasibətilə Şahbaz, əmisigilə gəldi. Nökərlər, qaravaslar onun başına fırlanırdılar. Nə etsinlər? Gələcək səadətləri onun əlində idi. Şahbaz özü həlim bir çocuq idi, lakin yeri gəldikdə hökmran bir sinif üzvü olduğunu büruzə verirdi. Birinci qədəmdən biz dostlaşdıq, birlikdə oynardıq, birlikdə gəzərdik. Şahbazın qorxusundan heç kəs məni incidə bilməzdi. Onun bu böyük yaxşılığını mən heç bir vaxt unutmaram. Şahbaz həmin yay mənə rusca əlifbanı öyrətdi. Bu isə gələcək səadətimə səbəb oldu. Amma Həsənqulu ağanın xilafi-rəyi idi. Yalnız Şahbazın xatirəsi üçün bir söz deməyirdi. Bir ittifaq mənim məhəbbətimi Şahbaza daha da artırdı. Bir gün çayda çimərkən dərin yerə düşüb boğulurdum. Şahbaz özünü atıb məni çıxartdı. Onun özü yaxşı üzmək bilməyirdi. Bu isə tutduğu əməlini bir qədər də qiymətləndirirdi.

Yay bitdi, Şahbaz oxumağa getdi. Bizim üçün yenə məşəqqət günləri başlandı. Atam buna səbir etməyib şəhərə köçdü. Bir müddət işsiz qaldı. Axırda neft zavodunda fəhlə oldu. Gərək Salman əminin yadına gələ.

- Bəli, bəli, yaxşı yadımdadır, - deyə Salman təsdiq etdi.

- Türkdə bir məsəl var, deyərlər: "Yağışdan çıxdım, yağmura düşdüm". Biz də Həsənqulu ağanın zülmündən xilas olduq, zavod sahibi Hacı Səlimin çəngəsinə düşdük. Axırda atamın sol qolunu maşın kəsib atdı, azarxanaya düşdü. Atam nə qədər azarxanada idi, Hacı Səlim



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

onun məvacibini kəsməyirdi ki, şikayət etməsin. Sağalandan sonra bir şey verməyib atamı küçəyə atdı. Məhkəməyə düşdülərsə də, nəticədə məhkəmə işi zavod sahibinə tərəf kəsdi. Əlil atam aralıqda xırdavatçılıq edərək artıq əziyyət ilə gündəlik çörəyimizi qazana bilirdi. Burada mən məktəbə daxil olub sonra "Maarif’ cəmiyyətinin yardımı ilə orta təhsil bitirərək Leninqrada getdim. Orada darülfünunun tibb fakültəsinə girdim. Şahbaz bəy ilə görüşdük. Əski dostluğumuz yenə təzələndi. O vaxt Şahbaz institutda memarlıq oxuyurdu. Məni Şahbaz bəydən ayıran bir şey var idisə, o da sinif ayrılığı idi. Get-gedə bu ayrılıq dərinləşirdi. Mən orta təhsillə oxuyan zaman bolşevik firqəsinə girmişdim. Buraya gəldikdə firqə təşkilatında çalışmağa başladım. Bunu Şahbaz bilirdi. Bir dəfə bu barədə mübahisəmiz oldu.

- "Kommunizm utopyadır" - deyə Şahbaz mən ilə bəhs etdi.

- Proletariat hökumət qurmağa qadir deyil, o vurar, dağıdar, bəlkə, də padşahlığı yıxar, lakin üç gün də olsa hökumət apara bilməz...

- Nə üçün?

- ...Çünki tarixdə işçi-kəndli hökumət sürdüyü görülməmişdir.

- Görülməmişdir, indi isə görülər, - deyə mən cavab verdim.

- Sən bir çocuq kimi bəhs edirsən, - deyə Şahbaz hayqırdı.

- Şahbaz, hirslənmək lazım deyil, mənə məntiqli sübutlar gətir. Keçmişdə çox şeylər görünməmişdi, indi görünür. "Tarixdə görünməmişdir, ona görə olmaz" bu bir dəlil deyil ki, sən gətirirsən. Məncə, sən həqiqəti gizlədirsən, qəlbindəkini açıb deməyirsən.

- Mən nəyi gizlədirəm? - deyə Şahbaz sordu.

- Sən hökm sürən bir sinfə mənsubsan, ağalıqdan düşmək istəməyirsən, mətləb buradadır.

- Dogru deyirsən, fəqət mən fikrimi gizlətməyirəm; çünki aydın inanıram ki, hökumət siz kommunistlərin əlinə düşsə, insanları böyük fəlakətə salacaqsınız. İş silah gücünə gəlirsə, məni öz sıranızda yox, müqabilinizdə görərsiniz.

Bu bəhslərdən sonra mən Şahbazdan çəkilməyə başladım.

Bir gecə firqə yoldaşımızın mənzilində gizli müşavirə edirdik. Qəflətən qapı döyüldü. Biz təşvişə düşdük, kim isə məni səslədi. Qapını açdıq. Şahbaz içəri girib dedi:

- Tez olun kağızlarınızı tələf edin, jandarmlar gəlirlər...

Biz cəld kağızları sobaya atıb yandırdıq. Bir azdan sonra jandarmlar evi əhatə etdilər. İçəriyə soxulub aramağa başladılar. Ələ heç bir şey düşmədi. Jandarmların biri Şahbaza diqqətlə baxıb dedi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Bu studenti mən buraya gələn gördüm. Yəqin bunlara bizim gələcəyimi xəbər vermiş.

Şahbazı tutub apardılar. Hərçənd əldə bir sübut yox idi, mən yenə təşvişə düşdüm. Şahbazı bir gecə həbsdə saxlayıb buraxdılar. Mənim ilə görüşdükdə gülərək dedi:

- Hökumət əleyhinə işləyənlər siz, həbsə alınan mən.

Bu ittifaq yoldaşlar arasında Şahbazın ehtiramını artırdı. Mən üçüncü kursda olanda ata və anam vəfat etmişdi. Sağ qalan bacım Tahirə idi. O da ali ibtidai məktəbi bitirmişdi. Onu hazırlaşdırıb özüm ilə Peterburqa gətirdim, mamaçalıq kursuna qoydum.

Şahbaz Tahirəni tez-tez teatrlara, konsertlərə apardı. Onun namuslu bir cavan olduğu mənə məlum idi. Ona görə də bacım ilə gəzmələrinə mane olmazdım. Get-gedə Şahbaz ilə Tahirə arasında məhəbbət törədi. Bunu bildikdə qorxuya düşdüm; çünki bunların evlənməsi qeyri-mümkün idi. Hərgah Şahbazın özü və əmisi Həsənqulu ağa da rəy versəydi, mən razı olmazdım. Ona görə Tahirəni ondan ayırıb görüşməyini qadağan etdim. Bu İttifaq bizim dostluğumuzu pozdu. Tahirə mamaçalıq kursunu bitirib vətəninə qayıtdı. Bu vaxt Fevral inqilabı başlandı. 4-cü kurs tibb tələbələrinə şahadətnamə verib Almaniya cəbhəsinə göndərdilər. Göndərilənlər sırasında mən də var idim. Cəbhədə əsgərlər arasında bolşevizm və müharibəni yatırmaq propağandası apardığım üçün məni tutub həbsxanaya saldılar. Oktyabr inqilabı məni həbsdən azad etdi. Sonra vətəndaş müharibəsi başlandı. Üç il Sibirdə, axırda Cənub cəbhələrində Qızıl Ordu içərisində həkimlik vəzifəsini icra edirdim. İyirminci ildə Qızıl Ordu ilə Azərbaycana daxil olduq. İyun əksinqilabi üsyanda mən hərbi lazaretdə həkimlik, bacım Tahirə isə şəfqət bacısı vəzifəsini ifa edirdi. Bacım Tahirə yoldaş Niyazi kimi həmin il bolşevik firqəsinə namizəd olmuşdu. Bir gün yaralılara baxıb yenicə odama girmişdim ki, bir qədər istirahət edəm, Tahirə daxil olub dedi:

- Yeni bir yaralı gətirmişlər, gəl bax.

- Yaxşı, get, bu saat gələrəm, - dedim.

- Xəstənin yarası ağırdır, hər dəqiqəsi xətərlidir, - deyə bacım yalvancı bir nəzərlə üzümə baxdı.

Qalxıb getdim. Yaralı bihuş idi. Üzündən qan qaçıb meyit rəngini almışdı. Yarasına diqqətlə baxdıqda xətərsiz bir yara olduğunu bildim, lakin xəstənin bədəni qayət zəif idi. Yeni azardan durmuş adamın



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

vücuduna bənzəyirdi. Yaranı yuyub bağladım. Sonra ümumi odaya almağı əmr etdim. Bu vaxt bacım mənə yaxınlaşıb yavaş dedi:

- Xəstəni tək odaya qoymağı əmr et.

- O nə üçün?

- Sonra deyərəm.

Mən xəstəni xüsusi odaya aparmağı əmr verib, mənzilimə qayıtdım.

Tahirənin yaralıya təcili surətdə baxmaq təkidi, müəmmalı təklifi məni şübhəyə salmışdı. Burada bir sirr var, - deyə fikrə getdim. Aradan on dəqiqə keçmiş Tahirə də daxil oldu.

- Yaralını tanıdınmı? – deyə sordu.

- Yox, kimdir?

- Şahbaz bəy...

Məni heyrət görürdü. Dörd il icərisində nə qədər dəyişiklik... "Kommunizmi silah gücü ilə yürütmək istəsəniz, məni sıranızda yox, müqabilinizdə görərsiniz" sözü yadıma düşdü.

- Şahbaz bəy körpünü dinamitlə uçurmaq istədikdə, qarovulçu əsgər güllə ilə vurmuş, - deyə Tahirə əlavə etdi.

- Xəstənin halı indi necədir?

- Huşu gəlmiş, ancaq böhran içindədir.

- Hərarəti neçədir?

- 39,5.

- Həkimlərdən kim baxır?

- Yoldaş İvanov.

- Gedək, - deyə qalxdım.

Qəlbimdə bir iztirab ilə Şahbazın yanına gəldim, nəbzini aldım.

- Yəqin malareya ilə xəstələnmiş. İndi də bu hərarət onun hərarətidir.

- Yarasından heç bir qorxu yoxdur. Kaş ağır bir öldürücü yara olaydı.

- O nə üçün? – deyə Tahirə iztirab ilə sordu.

- Qızıl Ordu ilə müharibə edən əksinqilabçı ağanın, körpü dağıtmağa qəsd edən bir mühəndisin nə olduğunu bilirmisən?

Bunu eşitdikdə Tahirənin rəngi üzündən qaçdı. Əski məhəbbət qəlbindən helə çıxmadığını büruzə verdi.

- Xəstəyə baxmağa yoldaş İvanov kimi təyin etmiş?

- Məni.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Sən yaramazsan.

- Nə üçün?

- Məsləhət belədir. Get bacı Markovanı göndər.

Tahirə məyus və pərişan odadan çıxdı. Bir azdan sonra Şahbaz gözlərini açdı. Zəif səslə sordu:

- Mən haradayam?

Mən sandalya alıb yanında oturdum. Şahbaz böhranlı gözlərini üzümə dikdi, diqqətlə baxdı.

- Fəxrəddin, mən nə üçün buradayam?

- Şahbaz, sən yaralısan, bura da xəstəxanadır.

- Düşünürəm... Düşmən əlindəyəm.

- Qət etmə, yaran yüngül yaradır, Tezliklə sağalarsan...

- Sonra da güllə qabağında...

- Biz xəstə ilə müharibə etməyirik. Daha danışmağa izin verməyirəm, - deyə mən ayağa qalxdım. Bu halda Markova daxil oldu.

- Yoldaş Markova, bu xəstəyə siz baxacaqsınız. Xəstəyə yaradan artıq malareya əziyyət verir. Kinə təyin edirəm. Gündə üç dəfə verərsiniz. Çox su içməyə izin verməyiniz, əvəzində çay veriniz. Mən qapıya tərəf yönaldım. Qapıdan çıxdıqda qulağıma Şahbaz tərəfindən - iki dost, iki düşmən, - sədası dəydi.

* * *

Şahbaz sürətlə sağalırdı. Bu isə onu şad etməyirdi. Bir dəfə Markova onun yarasına yod sürtüb bağlayırmış. Şahbaz fürsət tapıb yod şüşəsini qapıb içmək istədikdə bacı əlindən alır. Şahbazın halı məni dərin düşündürdü. Sağaldıqdan sonra əvvəl hərbi tribunal, sonra güllə qabağında. Onun üçün nicat yolu yox idi. Məndən heç bir yardım gözləməyirdi, çünki bilirdi ki, mən kommunizm uğrunda hər bir şeydən keçirəm. O bilirdi ki, mən onunla şəxsən səmimi dostam, lakin məfkurəcə dərin düşmən. "İki dost, iki düşmən" mənası bu idi.

Son zamanlar Şahbazda dəyişiklik görünürdü. Qəlbi açıq danışıb gülürdü. Hətta şuxluq tərzi ilə bəhs də edirdi:

- Fəxrəddin, dediyimi geriyə alıram. Mən sizin hökm sürmənizə üç gün vaxt vermişdim, amma siz üç ildir ki, hökumət aparırsınız. Lakin ömrünüzə az qalmışdır...

- Səninlə mənim ömrümə çatar, - deyə mən cavab verdim.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

* * *

Bir səhər növbətçi bacı kabinəmə daxil olub dedi:

- Yoldas Fəxrəddin, Şahbaz bəy odasından yox olmuş. Bu xəbəri eşitdikdə sanki başıma bir ildırım çaxdı.

- Növbətçi həkim kimdir? - deyə sordum.

- Yoldaş İvanov.

- Buraya çağırınız.

Bacı getdi. Mən böyük iztirabda idim. Xəyalıma dürlü-dürlü şübhələr gəldi. İvanov daxil oldu.

- Yoldaş İvanov, xəstə Şahbaz bəy necə olmuş?

- Yoldaş müdir, hər yeri arayıb axtarış etmişəm. Gördüm döyən yoxdur. Mənim zənnimcə Şahbaz bəy dünən, cümə günü qaçmışdır; çünki xəstə əsgərlərin görüşünə yaxın adamlar, ancaq o günü buraxılır, o da komandanın buraxılış vəsiqəsilə.

- Fikriniz məncə doğrudur, lakin Şahbazın yanına bir kəs buraxılmamış. Buradan da mənim imzam ilə vəsiqə üzrə buraxılır, bu da olmamış.

- Şahbaz bəyi buradan qaçırmışlar, - deyə İvanov mənalı nəzərlə üzümə baxdı.

- Kim qaçırmış? Bunu sizdən tələb edirəm, - deyə səsimi ucaltdım.

- Onu ərkan-hərb tərəfindən təyin olunmuş Fövqəladə komisyon arayıb tapar!..

Şübhəsiz İvanov bu işdə məni müqəssir edirdi, etməyə də haqlı idi; çünki mənim Şahbaz ilə əski dostluğum, onu yüngül yaralı olarkən ayrı odaya buraxdığım və sonra da ona artıq diqqət etdiyim, bunların hamısı mənim əleyhimə idi.

Həmin fikrə Fövqəladə komisyon da gəldi. Komisyon tərəfindən aparılan istintaq yeni bir şey açdı, o da cümə günü xəstəxanadan mənim imzam ilə bir qadının dışarıya buraxılması, o qadın təğyiri-libas etmiş Şahbaz bəy imiş.

Əlbəttə, komisyon məni danışdırdıqda imza saxta olduğunu asanlıqla isbat edəcəkdim, lakin məni xof və şübhəyə salan bacım Tahirə idi. Bu ittifaq düşəndən bəri onunla görüşməmişəm. Bu halda Markova kabinəyə daxil olub dedi:

- Yoldaş müdir, Tahirə dünən axşam şəhərə getmiş, indiyə kimi qayıtmamış...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bunu eşitdikdə bütün bədənimə bir lərzə yayıldı. Tahirənin Şahbazın dalınca qaçması mənə aşkar oldu. Titrək bir səslə Markovaya dedim:

- Yəqin tanışıgildə gecikib qalmışdır, gəlib çıxar. İndi vəzifəniz dalınca olunuz.

- Markova getdi. Bir azdan sonra komisyon məni danışdırdı.

- Yoldaş Fəxrəddin, cümə günü sizin izniniz ilə dışarıya buraxılan kimdir? – deyə komisyon sədri sordu.

- Eylə ittifaq olmamış.

- Bu imza sizindirmi? - deyə vəsiqəni mənə uzatdı.

Mən alıb diqqətlə baxdım, xətt Tahirənin olduğunu bildim.

- Bu imza mənim deyil, saxtadır.

- Kimin xətti olduğunu bildinizmi?

- Bəli, bacım Tahirənindir.

- Bu cinayəti yapmağa Tahirəni nə və bəlkə, kim vadar etmişdir?

- Əskidən Şahbaz bəyə bağladığı və burada görüşdükdə təzələnən məhəbbət.

Bu barədə mən müfəssəl məlumat verdim. Komisyon bir neçə sual-cavabdan sonra istintaqı bitirdi.

* * *

Mənim üçün hərbi məhkəmə quruldu. Komisyona verdiyim şəhadəti burada təkrar etdim. Bu vaxt məhkəmə sədri:

- Şahidi gətirin, - deyə əmr etdi.

Bacım Tahirə daxil oldu.

S ə d r. Vətəndaş Tahirə, bu iş barəsində nə bilirsiniz? Söyləyiniz.

T a h i r ə. Saxta vəsiqəni imza edən, Şahbaz bəyi öz libasıma geyindirib qaçırdan mənəm. Sonra mən özüm də yapdığım cinayətdən qorxub qaçdım. İndiyə kimi şəhərdə gizlənmişdim. Qardaşımı müqəssir etdiyinizi bilib gəlmişəm. Qardaşımın bu işdə heç bir əlaqəsi və xəbəri yoxdur. Hamısını mən tək özüm etmişəm.

S ə d r. Şahbaz bəyi qaçırtmaqdan məqsədiniz nə idi?

T a h i r ə. Onu ölümdən xilas etmək.

S ə d r. Nə üçün?

T a h i r ə. Mən onu sevirəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sədr on dəqiqə tənəffüs elan edib üzvlərlə müşavirə odasına getdilər.

Bu zaman Fövqəladə komisyon sədri yanıma gəlib dedi:

- Yoldaş Fəxrəddin, mən istintaq apardığım zamandan sizin bu işdə müqəssir olmadığınıza inanmışdım. Lakin şübhəyə salan imzanız idi. Onu da ekspertlər tədqiq edib aydına çıxardılar. Bacınızın yox olması komisyon üzvlərinin bir neçəsini şübhəyə salmışdı. İndi o da aydınlığa çıxdı.

Bu vaxt sədr, üzvlərlə məhkəmə salonuna daxil oldular. Sədr məhkəmənin qətnaməsini oxudu. Mən azad olub, Tahirə həbsə alınıb yeni məhkəmə qurulacağım elan etdi. Lakin binəva bacım yeni məhkəməni görmədi. Qətnamə oxunduqdan sonra özü ilə gətirdiyi süleymanini içib yerə yıxıldı. Sağaltmaq mümkün olmadı. Canını Şahbaz bəyə bağladığı eşqə fəda etdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**MİSTER QREYİN KÖPƏYİ**

Puan Qay, Xan Qou şəhərinin Nan Si çayının sahilində əski bir daxmada qoca anası ilə yaşayırdı. Bu gənc, küçə aktyoru idi, Öz şagirdi balaca Sen O ilə bazarlarda, şənlikli küçələrdə, çayxanalarda oyun çıxartmaq, məzhəkə yaratmaq və mahnı oxumaqla, gündəlik ruzisini qazanardı.

Bəxti gətirib 60-70 qəpikdən çox qazananda, o axşamı, çörək və soğandan əlavə, balıq da alıb şad evlərinə gələrdi və küçədən həyətə daxil olduqda "Ana can, yuy... yuy..." deyə onu səslərdi.

Puan Qayı çinlilər sevərdilər, lakin avropalılar onu görmək belə istəməzdilər, çünki Puan Qay onların pis xasiyyətlərini, məğrurluqlarını, çinlilərə edilən zülmü pontamimi tərzi ilə gözəlcəsinə göstərib xalqı güldürürdü. Bunun üstə Puan Qay avropalılar tərəfindən neçə dəfə kötək yemişdi. Lakin yenə də onların təqlidini çıxartmaqdan saqınmazdı. Ancaq şəhərin Avropa hissəsinə enməkdən çəkinərdi.

Bir səhər Puan Qay küçədə həsir salıb, üst paltarını soyunub oyun çıxarırdı. Adamlar yığılıb ona tamaşa edirdilər. Bu zaman mister Qreyin aşpazı bazardan azuqə alıb evə qayıdırdı. Misterin məhşur köpəyi Bollu da onun arxasınca gəlirdi. Bu ingilis buldoqu sahibi kimi qayət kinli, dəhşətli bir köpək idi. Bollunun qapdığı iti və insanı əlindən almaq mümkün deyildi. Ta üstünə su tökməyincə tutduğunu buraxmazdı. Bu köpək çinlilərə çox əziyyət verirdi. Lakin mister Qreyin qorxusundan kimsə onu vura bilməzdi.

Bollu adamların dəstəsinə yaxınlaşdıqda uşaqlar: "Mister Qreyin köpəyi gəlir", deyə qaçmağa başladılar. Böyüklər də kənara çəkildilər. Bu zaman Puan Qay, arxası üstə uzanıb ayaqları ilə Sen O-nu tez-tez yuxarı atıb-tuturdu. Köpəyin diqqətini cəlb edən Puan Qayın həsirin üstə ilan kimi uzanan kəkili idi. Sen O onu gördükdə qışqırdı. Puan Qay, Sen O-nu yerə buraxıb cəld qalxdı. Bu vaxt köpək Puan Qayın arxalığını qapıb qaçmağa başladı... Puan Qay öz şeylərini şagirdinə tapşırıb köpəyin dalınca qaçdı. Küçədən daş yığıb köpəyə atırdı. Lakin Bollu daşların dəyməyinə baxmayaraq, arxalığı dişindən salmırdı. Daşın biri Bollunun ayağına bərk dəymişdi. Lakin höcət köpək yenə də arxalıqdan əl çəkmirdi. Küçəni dönərkən bir Çin polisi onun qabağını aldı:

- Nə üçün köpəyə das atırsan?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Görmürsənmi, köpək arxalığı aparır...

- Görürəm və köpəyin də mister Qreyin olduğunu bilirəm.

- Deməli, mister Qreyin köpəyi üçün qanun yoxdur...

- Puan Qay, özün də bilirsən yoxdur, nə üçün soruşursan? Ya arxalığından əl çək, ya da cürətin varsa, get misterdən al.

- Gedərəm və arxalığımı da alaram, - deyə Puan Qay yola düşdü. O daha qaçmırdı, ahəstə gedirkən dərin fikrə dalmışdı. Böyük və ulu vətəninin azğın, qudurmuş imperialistlər pəncəsi altında boğularaq, sızlayaraq məhv olduğunu düşünürdü:

Bizim üçün nicat yolu yoxmu? Hacana kimi dörd yüz milyonluq Çin, vəlişi avropalılar əlində oyuncaq olacaqdır, - deyə öz-özünə sual verirdi.

- Var, lakin biz biqeyrətlər, hamımız inqilabçı Kanton ordusuna qarışıb vətənimizi imperialistlər əlindən xilas etmək əvəzinə, inqilabçıların qarşısına çıxıb bunlarla müharibə edirik. Puan Qay, başında belə fikirlər gəlib mister Qreyin darvazasına çatdı və cürətlə içəri girdi. Bu zaman mister Qrey balkonda oturub qəzet oxumağa məşğul idi. O, itin ayağının Puan Qay tərəfindən yaralanmasından xəbərdar idi. İndi qəzəbli və səbirsiz onu gözləyirdi.

Mister Qrey başını qaldırıb Puan Qayı gördü və ayağa qalxaraq acıqlı soruşdu:

- Mənim itimi sənmi vurmusan?

- Bəli, mən vurmuşam. Arxalığımı götürüb qaçdı, mən də daş atdım ki, yerə salsın, lakin buraxmadı.

- Sən bilirsənmi ki, ingilis köpəyi tutduğunu buraxmaz?

- Bəli, ingilislərin köpəkləri sahiblərinə oxşamışlar, tutduqlarını buraxmazlar.

- Doğrudur, sən üç böyük cinayət etmisən, ona görə cəza alacaqsan. Birincisi budur ki, mənim sevgili köpəyim Bollunu yaralamısan...

- Mister, sizin papağınızı və ya başqa bir şeyinizi köpək götürüb qaçsa, nə edərsiniz?

- Tapançamı çıxarıb vuraram, yerində qalar.

- Mən ki hələ itinizi öldürməmişəm.

- Sənin həddin nədir ki, elə iş edə biləsən. İkinci, təqsirin bax budur, - deyə mister Qrey ona bir məktub göstərdi.

- Bu sənin arxalığının cibindən çıxmış, bilirsənmi nədir?!

- Kanton əsgəri dostumdan gəlmiş məktubdur.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Yalan! Kommunist firqəsi tərəfindən nəşr olunmuş proqlamasiyadır, sən o firqənin gizli üzvüsən və oyun çıxarmaq ilə onun fikrini burada yeridirsən.

Bunu eşitdikdə Puan Qay səbir edə bilməyib dedi:

- Elə ki, siz imperialistlər biz çinlilərlə rəftar edirsiniz, axırı hamımız ona gələcəyik. Üçüncü cinayətimi söyləyin.

- Üçüncü cinayət odur ki, izinsiz mənim həyətimə girmisən, o qapıda yazılanı oxumadınmı?

- Xeyr, orada nə yazılmışdır?

- Orada bu yazılmışdır: "Çinlilərə və köpəklərə daxil olmaq yasaqdır".

- Mister o qanunmu?

- Bəli, qanun.

- O qanunu əlahəzrət Corcmu vermiş?

- Sus, qanmaz köpək, onu mən vermişəm, hər bir ingilisin əmri siz vəhşi çinlilər üçün qanundur.

- Onları verənləri inqilabçı Kanton tezliklə məhv edecək.

Bunu eşitdikdə qan mister Qreyin başına sıçradı və elə bağırdı ki, bütün xidmətçilər səsinə töküldü.

- Bu köpəyi alın, o uzun saçından talvardan asın, mən əmr etmədikcə xilas etməzsiniz, haydı!..

Zavallı Puan Qayı tutub talvarın altına gətirdilər. Mister Qrey də balkondan enib oraya gəldi.

- İndi ayı kimi bağırarsan, - deyə "mədəni, nəcib" Qrey, Puan Qayı söyməyə başladı.

Puan Qayı asarkən, bozarmış dodaqlarından bir kəlmə belə buraxmadı. Lakin qanlı gözlərindən qəzəb atəşi saçılırdı. Qrey cənabları ingilis "ədalətini" İcra etdikdən sonra yenə balkona qalxıb qəzet oxumağa başladı. Aradan xeyli keçmiş xidmətçi çinli ona çay gətirirkən Puan Qayı azad etməyini yadına saldı. Mister saata baxıb dedi: "Hələ iki dəqiqə qalmış". Sonra qəzeti masanın üstə qoyub çay içməyə başladı. Hərgah mister Qrey o zaman dönüb xidmətçinin üzünə bassaydı, onun baxışında özünə qarşı nifrət əlamətlərini aydın oxuyardı.

Mister Qrey çayını içib aşağı endi və Puan Qayı xilas etməyə əmr verdi. Onu azad etdilər. Sonra mister Qrey qayçı gətirtdi və öz əli ilə Puan Qayın o uzun saçlarını kəsib ona uzatdı:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Bunu al, saxla, ta ki, tutduğun cinayəti unutmayasan.

Sonra emr etdi ki, onun arxalığını versinlər. Puan Qay illərlə bəslədiyi saçını alıb:

- Mister, mən and içirəm ki, heç bir an bu günü unutmayacağam, bu günə kimi mən inqilabçı deyildim, siz bu saçları kəsməklə öz əlinizlə məni inqilabçı kantonçular sırasına göndərirsiniz, sizə artıqca təşəkkür edirəm, - deyə Puan Qay götürüldü.

Altı aydan artıq idi ki, Puan Qay Kanton inqilabçı ordusunda şücaətlə dava edirdi. İmperialistlərin ümidi olan Şimal ordusu Qızıl Kanton ordusunun dəhşətli hücumları qarşısında davam edə bilməyib əllərində olan kənd və şəhərləri boşaltmağa məcbur olurdu.

Növbə Puan Qayın vətəni Xan Qou şəhərinə çatmışdı. Puan Qay irəlidə gedən bölüyün sırasında idi. Şəhərə hücum başlandı. Puan Qay qızmış şir kimi müharibə edirdi. Ən atəşli yerə özünü atırdı. Şəhərə girən birinci Puan Qay oldu. Günorta olduqda Xan Qou Kanton əsgərləri tərəfindən alındı. Lakin küçələrdə, ara-sıra güllə səsi gəlirdi.

Puan Qay, mister Qrey sakin olan küçə ilə evlərinə, anasını yoluxmağa gedirdi. Birdən qarşısına misterin köpəyi Bollu çıxdı. Sanki qəza Puan Qayın intiqamını yerdə qoymaq istəmirdi. Puan Qay cəld tüfəngi döşünə alıb iti nişanəyə götürdü. Güllə açıldıqda köpək yerə sərildi. Puan Qay gedib onun quyruğundan tutdu və sürükləyərək mister Qreyin dərvazası ağzına gətirdi. Misterin dərvazası, qapılan, pəncərələri bağlı idi. Həyətdə, evdə bir insan görünmürdü. Puan Qay kəmərini açıb itin başına keçirdi və xeyli çətinlik ilə dərvazadan asdı. Sonra cib kitabçasını çıxarıb bir varaq cırdı, yazdı, dərvazaya bənd etdi. Sonra fəxr ilə oxudu: "İngilislərə və köpəklərə içəri daxil olmaq qadağandır".

- Mister Qrey! İndi Puan Qayı ölənə kimi unutmazsan, - deyə yola düşdü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**BAX MƏN BUNA YOXAM**

İbrahim çadra, papaq və əski əlifba əleyhinə təşkil olunmuş mədəni hücum kampaniyasında iştirak edərək çox çalışdığı üçün artıq yolurmuşdu. Mənzilinə qayıdarkən, rəfiqi Qulamgildə bir qədər dincini almağı və onun xəstə oğlunu yoluxmağı qət etdi.

Qapıdan içəri daxil olduqda Qulamdan başqa, qısaboylu, ortayaşlı, başında 60-70 manata dəyən bir papağı olan həkimi masa üzərində oturub, resept yazan gördü. Qulam ilə salamlaşıb xəstə çocuğunun halını sordu.

- Mədəni hücum kampaniyanız nə cür keçdi? – deyə Qulam sordu.

- Çox gözəl və şənlikli keçdi, - deyə İbrahim cavab verdi. Doktor üzünü ona çevirib dedi:

- Məncə küçələrə düşüb "çadra daloy" deməyin heç mənası yoxdur. Belə şeylər öz-özünə məhv olub gedəsidir. Burada inqilab yox, təkamül yolu ilə getmək lazımdır. Yetişməmiş bir meyvəni dərməkdən mənfəət əvəzinə zərər və bəlkə də, xəta gələ bilər. O ki qaldı, papaq məsələsinə, bunda mən heç yoxam. Ümumiyyətlə, bir tayfanın milli libasını dəyişdirməyi mən tarixi səhv hesab edirəm, istər onu dəyişdirən dəli Petro olsun, istər Mustafa Kamal.

İbrahim:

- Möhtərəm doktor, - dedi, - fikrinizdən çox əskilik qoxusu gəlir! Mənim az olmuş olsa, nəbatat elmindən bir qədər məlumatım vardır. Min ildən ziyadə meyvəsi dəyməyən nəbat eşitməmişəm. Hərgah elə meyvə varsa, onun dəyməsi çox uzun və bəlkə də müşkül olduğu üçün dərib heyvanlara atılması lazım gəlir. O ki qaldı papaq məsələsinə, həkimlərdən papaq tərəfdarı olan şəxsi indiyə kimi eşitməmişdim, biləks, onlar papağın zərərindən söyləmişlər...

- Yoldaş, onlar da sizin kimi mətləbə dərin, geniş və ətraflı baxmamışlar. Libas hər torpağın təbiətinə görə yaranmışdır. Ərəbistanda - aba, əmmamə; Dağıstanda - yapıncı, başlıq; bizim Azərbaycanda - siz deyən yosma papaq, çuxa. Həmin yosma papaq - kəndlilərimizi yağmır vaxtı yağışdan, qış vaxtı qardan qoruduğu kimi, yeri gəldikdə yastıq vəzifəsini də ifa edir. Bu papağı kepka və ya şlyapa ilə əvəz etmək mümkündürmü? - deyə həkim, dəyərli məlumatını isbat etdi.

Qulam doktora cavab verərək:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Nə üçün mümkün deyil, - dedi, - yay fəsli Muğan və Mil düzlərinin təndir kimi üzü qarsan istisində yosma papağın altında tər çeşmə kimi axıb türk kəndlilərini oda yaxarkən həmin yerdə malaqanlar yüngül güləş papaqla başlarını günəşin yandırıcı şöləsindən mühafizə edirlər.

Doktor məsələyə ancaq praktiki tərəfdən yanaşırdı, onu da sübuta yetirə bilməyirdi. İbrahim Qulama müraciətlə dedi:

- Doktor, papağın zərərini, kəsafətini bizdə ona bir "namus" və "müqəddəs" kimi baxılmağı və ekonomiya cəhətincə kəndliyə əlverişli olmadığını unudub, fəqət bir millətçilik nöqteyi-nəzərindən baxır...

Söhbətin bu yerində doktor saata baxıb:

- Yoldaşlar, söhbətimiz çox maraqlıdır, fəqət naxoşlar məni gözləyir, - deyə ayağa qalxdı və xudahafiz edib getdi.

Bu vaxt Səlimə nənə podnosda üç stəkan çay içəri girdi.

- Xoş gəlmişsən, oğlum, çoxdan bəri bizi yad etməyirsən, - deyə Səlimə nənə İbrahimi məzəmmət etdi.

- Səlimə nənə, şuğlum çoxdur, vaxt tapmayıram ki, gəlib səninlə söhbət edəm...

- Əlbəttə vaxtınız yoxdur... Gündə bir hoqqa çıxardırsınız... Bunu eşitdikcə Qulam gülməyə başladı.

- Heç bu gün anamın başına gələn qəziyyədən xəbərin varmı?

- Səlimə nənə, nə olmuş? Söyləyiniz, - deyə İbrahim rica etdi.

- Nə söyləyim? Abır-həya çıxdı getdi...

- Səlimə nənə, bircə mənim bu yanımda otur, bu çayı da içə-içə mənə nağıl et, görüm bu gün başına nə iş gəlmiş? Yoxsa sənin canına, bu saat durub gedərəm.

- Otur, otur, oğlum, söylərəm. Bu səhər uşaqlar üçün yumurta almağa dükana getmişdim. Yumurtaları alıb çarşafımın ucuna büküdüm. Evə qayıdanda sizin dəstələrə rast gəldim. Onlar yanımdan keçəndə bir dəcəl uşaq "çadra daloy" deyə çarşafımı başmıdan dartıb yerə saldı. Yumurtalar çilik-çilik oldu. Ağzıma gələni dedim. Hayasız adamlar da "çadra daloy", - deyə gülməyə başladılar...

Bunu eşitcək İbrahim qəhqəhə ilə gülməyə başladı. Qulam da ona qoşuldu. Sonra Səlimə nənə dedi:

- Dediniz: padşah olmasın.

- Dedik: olmasın.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Dediniz: dövlətli olmasın.

- Dedik: olmasın.

- Dediniz: bəy, xan, ağa, xozeyin olmasın.

- Dedik: olmasın.

- İndi nə deyirsiniz ki, çadra olmasın. Bax, mən buna yoxam!.. Bu vaxt həyətdə qışqırıq qopdu.

- Yenə Məşədi Səfər arvadını döyür. Haraya gedim, - deyə Səlimə nənə həyətə çıxdı.

- Qulam, Məşədi Səfər kimdir? - deyə İbrahim sordu.

- Məşədi Səfər bu evin sahibidir. Özü də quzu cildinə girmiş bir qurddur. Danışanda deyirsən ki, əski bir kommunistdir. Ləqəbi də "Siyasətçi"dir. Yəqin ki, bir azdan sonra özü buraya gələcəkdir; çünki hər bir belə ittifaqda mənim yanımda özünü safa çıxarıb, arvadı Səkinəni taqsırlandırır.

Doğrudan da, bir azdan sonra Məşədi Səfər söylənə-söylənə içəri girdi. Cavanlarla salamlaşdı. İbrahimə işarə edərək:

- Yəqin yoldaş da fikir edəcəkdir ki, mən davakar, arvad incidən bir adamam. Əsla, yox. Mirzə Qulam təsdiq edər ki, mən köhnəpərəst deyiləm. Oğlum da onun yanında oxuyur, qızımı da bu ildən uşaq bağçasına qoymuşam, ancaq bu evi yıxılmış arvad evini-eşiyini atıb küçələrə düşübdür ki, mən mollanın təqlidini çıxaranlara tamaşa edəcəyəm. Mən deməyirəm ki, tamaşa etməsin, lakin qabaqca evini, həyətini süpürsün, xörəyi hazır etsin, uşaqların qarnını doydursun, sonra hansı cəhənnəmə istəyirsə, itilib getsin. Mirzə Qulam bilir ki, mən bu arvaddan nə əziyyət və məşəqqət çəkirəm. Nə üçün? Çünki bu bədbəxt qızı bədbəxt, elmsizdir, ay kaş bu Şura hökuməti otuz-qırx il bundan irəli gəlmiş olaydı! Onda biz də oxumuş, tərbiyəli ailə sahibi olmuşduq.

Burada Məşədi Səfər bir nəfəsini alıb kursüdə oturdu.

- Mirzə Qulam, məni yoldaşla tanış etmədin. Yoldaş nə iş sahibidir?..

- Ay Məşədi Səfər, qurma saat kimi aramsız zınqrovunu çalırsan. Heç fürsət verirsənmi ki, tanış edim? – deyə Qulam cavab verdi. Sonra məşədiyə mənalı baxışla:

- Bizim yoldaş yazıçıdır!

Məşədi Səfər, bunu eşitcək, cəld yerindən qalxıb, iki əli ilə İbrahimin əlini sıxaraq:

- Yoldaş, sizinlə tanış olmağa çox şadam! Mən yazıçıları artıq dərəcədə sevirəm. Bəlkə, artıq-əskik söz danışdım, məni əfv edəsiniz.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mən özüm çox basavad adamam; qəzet-jurnal gecə və gündüz əlimdən düşmür. Ələlxüsus siyasəti çox sevirəm. Ləqəbim də "Siyasətçi'.'dir. Ancaq yoldaş, Şura hökumətinin bir siyasətini mən başa düşə bilmədim. Bu barədə fikrinizi bilmək istərəm.

- Dediniz: allah yoxdur.
- Dedik: yoxdur.
- Dediniz: peyğəmbər, imam yoxdur.
- Dedik: yoxdur.
- Dediniz: din, məzhəb, şəriət, quran, oruc, namaz yoxdur.
- Dedik: yoxdur.
- Dediniz: məscid, molla, seyid, mərsiyəxan yoxdur.
- Dedik: yoxdur.
- Dediniz: ünas ilə zükur[1] müsavidir.
- Dedik: müsavidir.
- Axırda dediniz: əskidən bizə miras qalmış çadra yox olsun.
- Dedik: yox olsun.
- İndi də deyirsiniz ki, papaq da yox olsun. Bax, bunda mən yoxam!..

Bunu eşitdikdə İbrahim gülümsünərək dedi:

- Məşədi Səfər, bir belə "müqəddəs" şeydən əl çəkə bildin, nə üçün bu "namus" papağından əl çəkə bilməyirsən?

- Yoldaş, görünür ki, mətləbə dərindən fikir vermədiniz. Mənim sözüm papaqda deyil, siyasətdədir. İstəyirsiniz bu saat bu papaq əvəzinə başıma nəinki kepka, lap lodrağan (lüteran) qalpağı qoyum. Mən köhnəpərəst deyiləm; Mirzə Qulam təsdiq edər, ancaq bir mənə deyin görüm, Azərbaycanda nə qədər can var?

- Təxminən iki milyon yeddi yüz min, - deyə Qulam cavab verdi.

- Atan oldu rəhmətlik, bu miqdarın yeddi yüz minini papaq geyməyənlərə çıxaq, yarısını ünas tayfasına, yerdə qalar bir milyon. Demək, papaq geyən bir milyon candır. Orta hesab ilə ildə on min dəri lazımdır. Dərinin birini 30 manatdan götürsək, hökumətimiz ildə 3 milyon manat itirir. Bax, mən bu siyasəti başa düşə bilməyirəm, indi fikrimi anladınızmı? – deyə Məşədi Səfər sordu.

- Məşədi Səfər, nə üçün ticarət siyasətinizə qadınların çadralarını daxil etməyirsiniz?

---

[1] Qadınlarla kişilər



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Onun bu mətləbə dəxli yoxdur. Mən köhnəpərəst deyiləm, çadranın atılması tərəfdarıyam. Mən arvadım Səkinəyə min dəfə demişəm ki, arvad, bu mirası at getsin, lakin o özü atmayır. Qadınlara zor etməyi vicdanım qəbul etməyir, - deyə Məşədi Səfər meydana çağırıcı bir nəzərlə baxdı:

- Məşədi Səfər, qadını döyməyə vicdanınız necə yol verir?

- Yoldaş, o lazımdır; çünki qadın tayfası uşaq tayfası kimidir. Onlara quru söz kar etməz, yeri gəldikdə döymək lazımdır. Yoldaş, mətləbdən kənara çıxdıq. Sualıma cavab gözləyirəm.

Qulam dedi:

- Məşədi Səfər, siz, necə ki, bir alış-verişçi...

- Rica edirəm, səhvinizi düzəldiniz, mən sənətkaram.

- Bəli, siz sənətkarsınız, ancaq siz hökumətin hər bir tədbirindən sandıqçalara para toplamaq gözləyirsiniz; bu yalnız bir nəzərdir. Hökumət, maarif, səhiyyə və qeyri mədəni işlərə milyonlar sərf etdikdə öz para sandıqlarını güdməyir, dəri və çadradan gələn paranı öz böyük məqsədinə qurban edir.

- Məşədi Səfər, izninizlə bir sual da mən vermək istəyirəm.

- Buyur, yoldaş yazıçı.

- Sizin sənətiniz nədir?

- Mənim?.. Sənətim?.. Nə üçün soruşursunuz? Onun mətləbə dəxli yoxdur.

- Heç, bilmək istəyirəm.

- Mən... papaqçıyam.

- Onda mətləb aydın oldu... Məşədi, hökumətin bu yeni tədbirindən nə üçün xofa düşmüsünüz, o da aydın oldu.

- Yox, yoldaş, vicdanım haqqı səhv edirsiniz... Mən elə adam deyiləm. Mirzə Qulam təsdiq edə bilər.

- Yenə zalım qızının səsi gəlir. Gedim görüm uşaqları incitməyir ki, - deyə Məşədi Səfər qalxıb getdi.

İbrahim soruşdu:

- Qulam, sən nədə yoxsan?

- Mən də çadra ilə papağın indiyə kimi yaşamasında yoxam.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## GƏNC MAŞİNİSTKA VƏ QOCA YAZIÇI

On səkkiz yaşında sevimli bir qız. Keçmişi bilməz. Yaşmaq görməmiş, çarşaf bürünməmiş, molla, seyid tanımaz, siğə kimi çürük məhv olmuş sözləri anlamaz. Cəhrə, falaqqa kimi asari-ətiqəmizdən xəbəri yox. O, bir sözlə Şura balasıdır. Adı Nərgiz, özü də onun kimi bir çiçək. İşlədiyi yer Azərnəşr sarayı. Saat dörddə gələr, saat onda qulluğunu bitirər. Nərgiz çox iti işlər. Yazdığı zaman barmaqları yazı maşınında ləzgihəngi oynardı. Nərgiz həssas qızdır. Maşında yazdığı zaman əsərin təəssüratını onun simasından oxumaq olar. Dodaqlarında təbəssüm - demək əsərdən aldığı zövq, nəşə qəlbini şad etmiş. Barmaqları altında şaqqıldayan düymələr kimi özü də şaqqıldar - demək əsərdən aldığı zövq, nəşə ona artıq təsir etmiş. Gözlərində atəş, qaşları hərəkətdə, qəlbi çarpar - bu da əsərdən aldığı bədii həyəcandır.

Nərgiz məşğul olduğu otaqda səkkizə kimi maşinistka işləyir. İş zamanı bu otaq bir pulemyot bölüyünə dönür. Şaqqıltıdan ağız deyəni qulaq eşitmir, fəqət bu hal adət etməyənlər üçündür. Maşinistkalara gəldikdə, onların əlləri işdə olduqda ağızları da bikar qalmayır. Mehriban söhbət etdikdə pulemyotların səsləri, incə, həzin səda verir. Fəqət mübahisəyə keçdikdə şaqqıltı səsi artır. Sözləşmədən sonra qovğaya keçdikdə batareya aramsız uraqan atəşi açır.

Bir axşam, yetmişə qədəm qoymuş bir qoca əlində əsa, ayaqlarında qaloş, əynində isti palto, boynu şərf ilə sarınmış, qoltuğunda zorba və özü kimi köhnə bir kitab, qapını açdı. Maşinistkalar sanki bir komandaya tabe olaraq əllərini saxladılar. Otaqda səslər kəsildi. Sükunət içində qapı yanında oturan gənc qız:

- Əmi, nə istəyirsiniz? - deyə soruşdu.

- Qızlarım, sizdən Nərgiz kimdir?

- Mənəm, - deyə pəncərə ağzında oturmuş gənc qız cavab verdi. İxtiyar onun yanına gedərək:

- Qızım, mənim bu əski əlifba ilə yazılmış əsərlərimi maşınında yeni əlifbaya keçirməlisən, çapa veriləcəkdir.

- Əmi, o kitabdan ölü iyi gəlir. Maşinistkalar gülüşdülər.

- Qızım, doğrudur, bu kitab ölülər zamanı yazılmışdır.

- Əmi, o ölülərin keçmişi biz dirilərə nə lazımdır?..

- Yox, qızım, keçmişi bilmək lazımdır. Atalarımız demişlər:

Zimistan çəkməyən bülbül,
Baharın qədrini bilməz.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

- Əmi, düzü, mən o ilan-qurbağa hərfləri bilmirəm, - deyə qız boynundan atmaq istədi.

- Qızım, mən diktə edərəm, sən yazarsan, müdiriyyətdə belə qət olunmuş.

- Onda bir qədər səbir ediniz, əlimdə yazdığımı bitirim.

- Yaxşı, qızım, gözlərəm, - deyə qoca soyunmağa başladı.

Bu gündən qoca yazıçı ilə gənc maşinistka işə şüru etdilər.

Yazı zamanı Nərgiz tez-tez dayanıb, eşitmədiyi sözlərin mənasını soruşurdu.

- Əmi, bu yazdığımız vəqələr hansı ölkədə zühur etmiş?

- Qızım, indiki Şura vətənimiz Azərbaycanın keçmişində, çar zamanında.

- Nə yaxşı mən o zaman olmamışam! - deyə Nərgiz öz halından şad oldu.

Qoca yazıçı ilə gənc maşinistkanın məşğulliyyəti 10-12 gün davam etdi.

Qoca yazıçının yazdığı əsərlərin gücü ilə əski həyata atılaraq, qanlı faciələr içində boğulan gənc qızlarla bərabər Nərgiz də boğulurdu.

- Əmi, bir az tənəffüs edək, - deyə Nərgiz tez-tez otaqdan çıxırdı.

Qayıtdığı zaman yaşarmış gözlərindən mütəəssir olduğu bəlli olurdu.

- Əmi, hekayənizin qəhrəmam bu yazıq qızcığaz axırda tələf olacaqdır? - deyə Nərgiz sorduqda, sanki qocadan aman istəyərək, onu diri buraxmağını rica edirdi.

Qoca yazıçı gülərək:

- İndi ki, ona elə artıq acıyırsan, eybi yoxdur, qızım, öldürmərik, - deyə onunla zarafat edirdi.

Əski əsərlərinin gənc qıza belə təsir etdiyini gördükdə qoca yazıçı Nərgizə dedi:

- Bəli, qızım, o zaman həyat belə idi. Ona görə də bu günkü gözəl və şən həyatı qiymətləndirmək üçün, əski həyatı öyrənməliyik.

Nərgiz gülümsəyərək, qoca yazıçı ilə razılaşdı.

* * *

Şura Azərbaycanımız on beş ilin ərzində nə qədər irəliləmiş, nə qədər artmışdır. Ölkəmizin sosializm quruluşu, sosializm mədəniyyəti əski həyatı dərin kölgəliklərdə buraxmışdır.

Bu gün Nərgiz kimi şura balalarımız, əski həyatı, qaranlıq keçmişi yalnız kitablardan və muzeylərdən öyrənirlər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# *Qorxulu nağıllar*





Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## ƏHMƏD VƏ MƏLEYKƏ

Qışın orta ayı idi. Soyuqdan qaçıb evlərdə gizlənmişdi. Hacı Səmədin külfəti isti otaqda süfrənin başına cəm olub, yemək üçün onu gözləyirdi. O isə o biri otaqda öz işinə məşğul idi.

Hacı Səməd əlli yaşında, safürəkli, rəhmdil bir kişi idi. Hacı Səmədin külfəti qoca anasından, arvadından, doqquz yaşında bir oğlundan və bir də yeddi yaşında qızından ibarətdi.

Hacı Səməd oğlu Məmmədi ibtidai şəhər məktəbində oxudurdu və bu ildən də qızı Fatmanı şəhər qız məktəbinə vermişdi. Hacı Səməd başqa müsəlman atalara bərəks olaraq uşaqlarının dərslərinə, ədəb və tərbiyəsinə çox fikir verərdi.

Hacı Səməd işini qurtarıb yemək otağına gəldi. O, süfrənin başında əyləşdi, yeməyə başladılar. Şam qurtardı. Hacı Səmədin xörəyin üstündən çay içmək adəti idi. Bu vaxt külfətə ya kitab, ya gündəlik qəzetlərdən oxuyardı. Bu da olmasaydı, gəzib-gördüyü vilayətlərdən danışardı. Buna görə də gözlüyü gözünə taxıb əlinə qəzeti götürəndə hamı sakit olub onun danışığını gözləyirdi.

Hacı Səməd isə səsini çıxartmayıb öz-özünə yavaşcadan oxumağa başladı.

Fatma bu sakitliyə davam etməyib qoca nənəsinə dedi:

- Nənə, mənə bir qorxulu nağıl söylə.

Fatmanın qardaşı Məmməd, bacısından bu sözü eşidib dedi:

- İndi ki, qorxulu nağıl istəyirsən, bəs niyə o günü nənəm Məlik Məmməd nağılını söyləyəndə, div adı gələn vaxt nənənin qucağına qısıldın?

- Yox, mən heç qorxmurdum, - deyə Fatma cavab verdi.

Bu halda Hacı Səməd qəzeti yerə qoyub dedi:

- Yaxşı, qızım, bu gecə nənənin əvəzinə mən sənə bir qorxulu nağıl söylərəm, bu şərtlə ki, qorxmayasan.

- Yox, ata, qorxmaram, söylə.

Hacı Səməd çaydan bir neçə qurtum içib başladı:

- Qızım, biri vardı, biri yoxdu, şimal-şərqdə, meşə içində, çay kənarında Tatarcıq adında bir kənd vardı. Bu kəndin əhli əkinçilik və



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

çarvadarlıqla güzəran edərdi. Qızım, həmin nağıl olunan kənddə Nurəddin adında bir kişi vardı. Bu Nurəddinin on yaşında Əhməd adlı bir oğlu, altı yaşında Məleykə adlı bir qızı və Xədicə adında bir arvadı vardı.

Nurəddinin sənəti əkinçilik idi və mal-qaradan ancaq bir atı vardı. Nağıl olunan zaman bahar və yay çox quraqlıq keçməyə görə o vilayətdə taxıl susuzluqdan yanıb tələf oldu. Çox çəkmədi ki, ətraf və əknafda aclıq başlandı. Payızın əvvəlindən Nurəddin arabasını qoşub şəhərə kirayəçiliyə getdi. Orada qazandığı pulu dörd gündən, beş gündən bir evinə göndərərdi. Külfəti də onunla güzəran edərdi.

Əhməd kənd məktəbində oxuyurdu. Atası tərəfindən gələn məktubları asanca oxuya bilirdi. Bir neçə gün bundan əqdəm Əhməd yazıb atasından özü üçün bir başlıq və bacısı üçün bir əlcək istəmişdi. Hər ikisi bu şeylərin tezcə alınmasını xahiş edirdi. Lakin beş gün keçdi, bir həftə keçdi, on gün keçdi, atalarından bir xəbər çıxmadı. Xədicə bərk qorxuya düşmüşdü. Evdə pul və çörək də tükənmişdi.

Bir dəfə, əziz balalarım, söz vaxtına çəkər, belə bir gecədə, qarlı çovğunun şiddətli vaxtında, Əhməd və Məleykə atalarının yolunu səbirsiz gözləyən zaman, kim isə qapını döydü. Uşaqlar cəld:

- Atam gəldi, - deyə qapıya tərəf yüyürüşdülər. Amma onun əvəzinə kürkə bürünmüş, əlləri əlcəkli, başı başlıqlı qonşuları Şəhabəddin içəri daxil oldu. O kişi Nurəddinlə bərabər arabaçılığa getmişdi. Bunu görcək Xədicənin ürəyini qorxu aldı.

Uşaqlar:

- Əmi, bəs atamız hanı? - deyə soruşduqları vaxt ondan cavab almadılar. Şəhabəddin Xədicəni bayıra çağırıb, ərinin atlı-arabalı dərəyə uçub ölməyini xəbər verdi və onun cibindən çıxan altı manatı verib cəld getdi.

Xədicə ruhu qaçmış, nitqi tutulmuş halda içəri girdi və uşaqlarını bağrına basıb zar-zar ağladı. Bunların ah-naləsi, boranın gurultulu səsi bir-birinə qarışmışdı. Bunlar axırda sakit oldular. Əhməd anasından soruşdu:

- Ana, bu aclıq ildə atasız biz necə dolanacağıq, acından öləcəyik.

- Qorxma, oğlum, bu saçlarımı satıb sizi ac qoymaram, - deyə Xədicə oğluna təsəlli verdi, sonra hər ikisini soyundurub yatağa uzandırdı. Bir azdan sonra uşaqlar yuxuya getdilər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Amma o gecəni Xədicə sübhə kimi yata bilmədi. Fikir, xəyalət onu götürmüşdü. Sahibsiz arvad, yetim uşaqlar, aclıq ildə necə dolansın?

Bir neçə müddət keçdi. Xədicənin pulu lap qurtardı. Yavaş-yavaş ev şeylərini satmağa başladı. Xədicə bir də baxdı gördü ki, evdə heç bir şey qalmayıbdır. Uşaqlar da acdır. Çörək üçün hansı qonşuya getdisə əliboş qayıtdı, çünki hamı bunların günündə idi. Acından zavallı uşaqlar taqət və gücdən düşmüşdülər. Yazıq Xədicə hər yerdən ümidi kəsilmiş, dizlərini qucaqlayıb bir küncdə mumiya kimi oturmuşdu. Gizlin ağlamaqdan gözlərinin yaşı da qurumuşdu.

Qızım, axşam oldu. Acından Məleykənin qırmızı yanaqları saralmışdı...

Birdən Fatma özünü atasının qucağına atıb dedi:

- Ata, demə, demə! Qorxuram.

Hacı Səməd qızının başını sığallayaraq dedi:

- Qorxma, qızım, dalı yaxşıdır. Qulaq as, harada qaldım? Hə, Xədicə Məleykəni soyundurub yerə qoydu ki, bəlkə yuxuya gedə. Amma yazıq tifil rahat ola bilmirdi. Axırda Xədicə onu sakit etmək üçün dedi:

- Qızım, Məleykə, gözlərini yumub yat; onda gecə mələk bacamızdan sənə çörək salar.

Məleykə gözlərini yumdu. Bir azdan sonra yuxuya getdi. Amma Əhməd anası ilə oyaq qalmışdı. Gecədən xeyli keçmiş bacadan gumbultu ilə bir şey icəri düşdü. Ana və oğul diksinmiş ayağa qalxdılar ki, görsünlər o düşən nədir. Gördülər ki, ağzı bağlı bir torbadır. Xədicə əli əsə-əsə torbanın ağzını açdı. Gördülər ki, içi çörək, yemiş, cücə, yumurta və qeyri yeməli şeylərlə doludur. Bunu görcək Əhməd dedi:

- Ana, gördünmü, mələk bacamızdan bizə çörək saldı.

Xədicə heyrətdə qalıb cavab verə bilmədi. Bu halda torbanı boşaldanda içindən kağıza bükülmüş bir yumru şey çıxdı. Açanda gördülər ki, hamısı qızıl puldur. Bunu görən ana və oğul daha da artıq təəccüb etdilər. Bu halda Əhmədin gözünə pula bükülmüş kağızda yazı sataşdı:

- Ana, burada yazı var; qoy görək nədir? – deyə Əhməd kağızı oxudu.

"Qızım Məleykə, mən bir qoca səyyaham. Yolda evinizin yanında faytonumun çarxı oxdan çıxdı, onu salıncan mən istədim ki, sizdə bir



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

az qızınıb, rahat olam. Qapıya gəldikdə anan dediyi sözləri eşitdim. Geri qayıdıb bu şeyləri və pulu sənin üçün hazır etdim və təzədən gəlib bacanızdan atdım. Yaşa, qızım, yaşa, mən qoca babanı da yaddan çıxartma. Xüdahafiz.

Səyyah Cəmaləddin".

Bu halda Məleykə oyanıb dedi:

- Ana, mələk bacamızdan çörək saldımı?

- Bəli, qızım, ancaq mələk yox, baban Cəmaləddin, - deyə Xədicə Məleykənin qabağını yeməli şeylərlə doldurdu. O gecəsi iki bala, bir ana şadlıqlarından bilmirdilər ki, nə etsinlər. Axırda hamı şad-xürrəm yıxılıb yatdılar.

İndi siz də, əziz balalarım, durun yatın, səhər dərsə gedəcəksiniz.

Bu sözlərlə Hacı Səməd sözünü tamam etdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## ABBAS VƏ ZEYNƏB

Məmməd və Fatma şamdan sonra sabahkı dərslərini hazırlayıb, yazılarını yazıb oturmuşdular. Tez-tez atalarının üzünə baxırdılar. Hacı Səməd uşaqlarının fikrini duyub dedi:

- Yenə nağıl istəyirsiniz?

- Bəli, ata, - deyə Məmməd cavab verdi. Fatma dedi:

- Ata, bu gün müəlliməmiz bizə "Əlibaba və qırx quldur"un nağılını oxudu. Sən də bizə quldurdan söylə.

- Yaxşı, qızım, ancaq bunu bil ki, quldurlar elmsiz, tərbiyəsiz tayfadan çıxarlar. Heyvanın vəhşisi qurd, pələng və şir olan kimi, insanın də vəhşisi bunlardır. Ancaq təfavütləri odur ki, quldurlar onlardan neçə qat rəhmsiz, insafsız və zalımdırlar. Qulaq as, bu nağıldan özün bilərsən.

- Qızım, bahar fəslində Dan ulduzunun parlaq bir vaxtı idi. Qaya-dibi adlı kəndin əhli hələ yatmışdı. Bu kənd Zaqafqaziyanın cənub tərəfində, uca dağlarla əhatələnmiş bir çay qırağında, meşə kənarında salınmışdı.

Birdən azançının "allahü-əkbər" səsi ucaldı. Cütcülər bundan əvvəl oyanmışdılar, o zəhmətkeşlər zəmilərinə cüt əkməyə getdilər.

Getdikcə dan yerinin qızartısı artırdı. Dərələrdən və çaylardan duman qalxırdı. Günəş dağın dalından ahəstə-ahəstə çıxırdı. Hələ özü görünmüşdü. Amma şəfəqi, qarşıdakı uca dağın başına düşmüşdü. Sonra yavaş-yavaş qalxıb dağın dalından göründü və ruh verən qızıl zərrələrini aləmə dağıdıb cümlə yatmışları oyatdı. Çəmənlərdə, seyrəngahlarda, çiçəklər qönçələrində gizlənmiş pərvanələri və anları oyatdı. Quşların cəh-cəhi havaya ucaldı. Bunların xoş avazları cütcünü şura gətirdi. O da ahəstə-ahəstə cütünü sürüb öz nəğməsini oxudu. Dağ döşündə sürüsünü otaran çoban da bayatı nəğməsini tütəyində ucaltdı.

Günəş yavaş-yavaş qalxırdı. Onun qızıl şəfəqi getdikcə gümüş renginə dönürdü. Qayadibi kəndinin əhalisi durub hərə öz işinə getdi...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

* * *

- Abbas, bax, gör mən nə qədər yığmışam.

- Afərin, bacım Zeynəb, indi otur, bunları dəstə tutaq, bazarda satıb sənə çoxlu kişmiş alacağam.

- Fındıq da.

- Yaxşı, fındıq da alaram.

Bacı və qardaş ətəklərinə yığdıqları qulançarı yerə töküb, bir təpənin üstündə oturdular və onları dəstə tutmağa başladılar.

Bu iki uşaq atadan yetim idi və bir quru daxmadan başqa, ataları bunlara bir şey qoymamışdı. Ancaq anaları Fatma cəhrəçilik edib bir növ gündəlik çörəyini qazanırdı. Uşaqlar kiçik olduqlarından analarına bir o qədər köməkləri çatmırdı. Abbasın on yaşı, Zeynəbin yeddi yaşı vardı. Abbas ancaq bu ildən hər gün meşəyə odun qırmağa gedirdi və qırdığı odunu şələləyib, bazarda dükançılara bir az pula satırdı. İki gün bundan qabaq Abbas odun ilə bərabər bir dəstə qulançar da yığıb bazara gətirmişdi və onu bir şahı pula satıb anasına vermişdi.

Bu gün Abbas meşəyə getməyə hazırlananda Zeynəb də qulançar yığmaq həvəsilə anasından rüsxət istədi. Amma Fatma heç birini qoymaq istəmirdi, çünki quldur Səfərdən qorxurdu. Dörd il bundan əqdəm Səfərin qardaşı el davasında Qayadibi əhli tərəfindən öldürülmüşdü. Amma qatili kim olduğu məlum deyildi. Ona görə Səfər qardaşının qanını bütün kənddən iddia edirdi.

Bir dəfə Qayadibi camaatı Səfərdən belə dəhşətli bir sifariş aldı: "Ey qayadibililər! And içirəm məni yaradan xaliqə. And içirəm, anamın, bacımın namusuna, ta sizin böyük-kiçiyinizi, arvad-uşağınızı qırıb o gözəl vətəninizi odlayıb tar-mar etməyincə dünyada yaşamayacağam; vaxtınıza hazır olun".

Bu xəbər hamını bərk qorxuya salmışdı, çünki Səfər dəliqanlı bir adam idi.

Bu sifarişdən çox keçməmişdi ki, Səfəri adam öldürmək üstündə Sibirə göndərdilər. Dörd il idi ki, ondan bir xəbər-ətər yox idi. Ancaq bu yaxın zamanda Səfərin Sibirdən qaçıb başına özü kimi dəliqanlıları cəm edərək quldurluq etməyi hər yerə yayılmışdı. Qayadibi əhli də bərk qorxuda idi.

Fatma neçə gün idi ki, işsiz idi. Ona görə istər-istəməz uşaqlara izin verdi. Onlar da sevinə-sevinə meşə tərəfə üz qoydular.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Fatma ağıllı, xoşrəftar bir arvad idi. Öz uşaqlarına da yaxşı rəftarı, bir-birilə mehriban dolanmağı tərbiyə vermişdi. Uşaqlar da analarının gözəl sifətlərini və tərbiyəsini götürmüşdülər. Çox analar bu iki tifilin tərbiyəsinə həsrət çəkirdilər.

Abbas uzunboylu, nazikbədən, ağbənizli, alagözlü, xoşsifət bir uşaq idi. Zeynəb qaraqaş, qaragöz, dolubədənli, uzunsaçlı, qırmızıyanaqlı bir qız idi. Abbas bacısını artıq dərəcədə sevirdi. Heç elə bir gün olmazdı ki, öz qazancından bacısına bir şey almayaydı. Abbas üzünü bacısına çevirib dedi:

- Zeynəb, bu yığdığımız qulançar azdır, buna heç bir şahı da verməzlər. Dur gedək, mən bir yaxşı qulançarlıq yer bilirəm. Orada qulançar yığaq və həm də mən odun doğrayıb şələ qayırım.

- Axı, qardaş, mən yorulmuşam.

- Yavaş-yavaş gedərik, orada sən yorğunluğunu alarsan, mən özüm tək yığaram, - deyə Abbas dəhrəsini və sicimini götürüb ayağa qalxdı və bacısının da əlindən tutub dağın döşündəki meşəliyə üz qoydu.

Bir qədər meşə ilə gedəndən sonra bir gözəl və səfalı seyrəngaha çıxdılar. Bu seyrəngah yaşıl, təzə və tər otla, gözəl, ətirli, rəngli çiçəklərlə zinətlənmişdi. Rəngbərəng pərvanələr və arılar bu çiçəkdən o çiçəyə uçub bahar günəşi ilə oynaşırdılar. Hər rəngə çalan cürbəcür cücülər otlara mərcan kimi sarılmışdı. Bir tərəfdən çiçəklərin qoxusu, bir tərəfdən quşların cəh-cəhi və bir tərəfdən də baharın xoş mehi insanı biruh edirdi. Seyrəngahın bir tərəfi qayaya dirənmişdi. Bu qayadan bir bulaq axıb şırıltı ilə aşağı tökülürdü. Suyun zərrələri havada, günəşin şəfəqindən almaz parçaları kimi parıldayırdı. Bu bulaq "Şırlanbulaq" adı ilə məşhur idi. Zeynəb bu gülüstanı, bu çarqat kimi sərilmiş lalələri və çiçəkləri görcək yorulmağını unudub - Ah nə gözəl çiçəklər var, - deyə qışqırdı və qardaşmın əlini buraxıb gül yığmağa qaçdı. Abbas da ipini və dəhrəsini yerə qoyub qulançar yığmağa məşğul oldu. Zeynəb gah çiçək yığırdı və gah da qışqıra-qışqıra pərvanələri qovurdu. Bir azdan sonra yorulub bir laləzarlıqda oturdu və lalələrdən gəlin qayırmağa başladı. O vaxt Abbas qulançar yığa-yığa çəməndən xeyli uzaqlaşıb bir kolluq dərəyə düşmüşdü.

Gün qalxıb günortaya yaxınlaşdı. Qəflətən dağların arasına bir gurultu düşdü. Abbas elə bildi ki, göy guruldayır, amma yuxarı baxdıqda bir bulud da görmədi. Bu gurultudan bir dəqiqə keçməmiş elə bir



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

gurultu başladı ki, deyəsən bu saat göylər uçub yerə töküləcəkdir. Abbas başını yuxarı qaldırıb gördü ki, güllə dağların başından kəndlərinə və zəmilərdə yer əkən cütcülərin və qoyun otaran çobanların üstünə dolu kimi yağır. "Quldurlar!" - deyə Abbas qışqırdı. Bir əvvəl istədi ki, dərədə gizlənsin. Sonra yadına düşdü ki, Zeynəb açıq yerdə qalmışdır. Dərhal bacısına tərəf qaçdı ki, onu da götürüb Ayı kahasında gizlənsin.

Abbas özünü o vaxt yetirdi ki, Zeynəb çəməndə başıaçıq, saçları döşünə tökülmüş, ovçu oxundan qaçan ceyrantək "Abbas, qardaş" - deyə o tərəf-bu tərəfə qaçıb qışqırırdı və dağlardan da birəhm quldurların gülləleri onun üstünə dolu kimi yağırdı. Abba ucadan səsləndi:

- Bacı, Zeynəb, qorxma, buradayam!

Zeynəb qardaşının səsini eşidib ona tərəf qaçdı. Lakin otuz qədəm gətməmişdi ki, birdən "Ox!" deyib yerə yıxıldı. Abbas özünü bacısına yetirib gördü ki, Zeynəbin sinəsindən al qan qətrə-qətrə tökülüb, otlar və çiçəkləri lalə rənginə döndərmişdir.

- Abbas, mənə su ver!

- Dur, bacım, qaçaq Şırlanbulağa.

Zeynəb istədi ki, qalxsın, amma bacarmadı. Abbas onu çox çətinliklə qucağına götürüb, bulağa tərəf aparmağa üz qoydu. Lakin on qədəm getməmişdi ki, quldurlar bunları təzədən gülləyə tutdular.  Abbas özünü və bacısını bir çuxur yerə saldı ki, oranı güllə tutmurdu. Zeynəbin lalə kimi olan üzü solub ağ zanbağa dönmüşdü.

- Abbas, yandım, mənə su ver! – deyə Zeynəb nalə edirdi.

Bacısının susuzluğu Abbasın ürəyini nəhayət dərəcədə yandırdı.

- Bacı, bu saat sənə su gətirəcəyəm, - deyə Abbas bulağa tərəf yüyürdü. Güllə müdam onun üstünə yağırdı.

Abbas özünü bulağa yetirdi. Araqçınım su ilə doldurub qayıtdı. Bu dəfə Abbas qaça bilmirdi: qorxurdu ki, suyu tökülsün. Abbas o qədər Zeynəbə yaxınlaşdı ki, onun "su" naləsini eşitdi. Birdən Abbas ufultu ilə yerə yıxıldı. Namərd güllə binəva uşağ sol böyründən dəyib dalından çıxmışdı. Abbas qalxıb yerimək istədi. Lakin üç qədəm getməmişdi ki, dübarə yıxıldı. Abbas sürünə-sürünə özünü bacısının üstünə saldı, gördü ki, gözləri yumuludur. Amma dodaqları ayrıla qalmışdır. Elə bil ki, deyir: "Qardaş, Abbas, mənə su ver".

Abbas Zeynəbi qucaqlayıb öpə-öpə deyirdi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Bacı, Zeynəb, gözlərini aç, gəlmişəm.

Bu hadisədən altı saat keçdi. Dəxi tüfəngin gurultusu kəsilmişdi. Dağların arasını tüstü almışdı. Bu tüstü Qayadibi kəndinin yanmış evlərinin və bağlarının tüstüsü idi. Beş-altı saat bundan qabaq cənnət bağına bənzəyən Qayadibi kəndi, indi yanıb kül olmuşdu. Əhalisi isə bir parası qətlə yetişib, yerdə qalanı da qaçıb dağlarda, meşələrdə gizlənmişdi. Quldur Səfər qardaşının intiqamını belə aldı.

Gün batdı, ay çıxdı. Nağıl olunan yerlərdən bir səs çıxmırdı. Heyvanlar və quşlar insanların vəhşi hərəkətindən elə xofə düşmüşdülər ki, hələ cürət edib yuvalarından çıxa bilmirdilər. Ay yavaş-yavaş qalxıb qəmgin-qəmgin insanların tutduğu vəhşi əməllərə baxırdı.

Gecədən xeyli keçmiş bir arvad dağları, daşları, meşələri axtarırdı. Bu arvad Fatma və axtardığı da iki balası idi.

- Zeynəb, Abbas, gözəl balalarını, yetim balalarım, haradasınız, səs verin!.. - deyə Fatma nalə edirdi.

Lakin çəmən üstündə, lalələr arasında qucaq-qucağa verib qanlarına qəltan olmuş Zeynəb və Abbas - bu iki məsum, anaları Fatmanın naləsini eşitmirdilər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**NURƏDDİN**

Axşam çağı idi. Hacı Səmədin külfəti çay süfrəsində hazırdı. Məmməd yazısını qurtarıb diqqətlə öz-özünə oxuyurdu və qələtlərini də düzəldirdi. Fatma isə əlləri ilə başını tutub dərin fikrə getmişdi. Hacı Səməd üzünü qızına tərəf tutub soruşdu.

- Qızım, nə fikrə getmisən?

Fatma cavab verdi:

- Ata, müəllimimizin əmrinə görə, gərək sabaha bir elə nağıl düzəldim ki, ondan belə məna çıxsın: "Yaxşılıq elə, əvəzini görərsən". İndi qulaq as, söyləyim, gör yaxşıdırmı?

- Çox gözəl, qızım, söylə görüm.

Fatma söylədi; atası da bəyənib tərif etdi. Məmməd dedi:

- Ata, mənə də müəllimimiz atalar sözündən olan "Yaxşılığa yaxşılıq hər kişinin işidir, yamanlığa yaxşılıq ər kişinin işidir" sözünə münasib bir hekayə düzəldib yazmağı əmr etmişdir. Hərgah izin versən, oxuyaram.

- Oxu, oğlum, görüm nə tövr yazmısan.

Məmməd oxudu. Hacı Səməd bunu da bəyəndi. Fatma soruşdu:

- Ata, hansınınızınkı yaxşıdır?

- Qızım, qoy birisini də mən söyləyim, sonra baxaq görək kiminki əladır, - deyə Hacı Səməd cavab verdi.

- Söylə, ata, söylə, - dedilər.

Hacı Səməd başladı:

- Övladlarım, Qafqazda Hacı Nəsir adlı bir tacir sakin idi. Bu tacirin Həlimə adlı bir cavan arvadı vardı. Həlimə camalda gözəl olduğu kimi, xasiyyətdə ondan da gözəldi. Bu arvadın dünyada övladsızlıqdan başqa bir qəm-qüssəsi yox idi. Axırda bunların bir oğlu oldu. Hacı Nəsir o gün oğlunun təvəllüdünü şadlıq edib, şəhərin fəqir-füqərasına pul və xörək payladı. Oğlanın adını Nurəddin qoydular. Ata və ana, gecə və gündüz Nurəddinin başına dolanırdılar.

Hacı Nəsir hər il yarmarkaya mal xiridinə gedərdi və qayıdanda arvadı və oğlu üçün hər cür sovqat gətirərdi. Bir dəfə Hacı Nəsir oğlu



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

üçün kibrit qutusu irilikdə bir "Gülüstan" kitabı gətirmişdi. Həlimə bu qəribə şeyi haradan aldığını soruşduqda Hacı Nəsir cavab verdi:

- Bir gün yarmarkada, bazardan mənzilimə qayıdarkən, bir nəfəri körpü üstündə başım aşağı sallayıb ağlayan gördüm. Mən dayanıb bunun səbəbini soruşdum.

Kişi dedi:

- Mən əhl-əyal sahibi bir kasıb adamam. Əslim iranlıdır. Əldə xırdavat satmaqla üç yüz manat pul düzəldib buraya gəldim ki, mal alıb aparam. Bir saat bundan qabaq pulumun hamısını cibimdən çıxartmışlar.

Bu kişinin halına ürəyim yandı. Cibimdən üç yüz manat çıxarıb dedim:

- Al, kişi, bu sənin üç yüz manatın, get mal al, kəsbindən qalma.

Qazanıb, sonra pulumu qaytararsan. İndi isə balaca Nurəddinimə dua et.

Kişi əlimdən öpüb adımı və mənzilimi soruşdu və sevinə-sevinə çıxıb getdi. Axşam mənzilimdə çay içdiyim zaman həmin kişi içəri daxil olub:

- Hacı, sovqat üçün bundan əziz bir şeyim yoxdur, - deyə "Gülüstan" kitabını mənə uzatdı. - Qoy mən Rəhim tərəfdən sevgili övladınız Nurəddinə Sədinin bu "Gülüstan" kitabı yadigar olsun. Sonra dubarə razılıq edib getdi.

Həlimə kitabı ipək parçaya tikib Nurəddinin boynundan asdı və dedi:

- Oğlum böyüyəndə bu kitabı oxuyar.

Nurəddin böyüyüb səkkiz yaşına çatdı. Hacı Nəsir oğlunu məktəbə qoydu. Nurəddin oxumaqda birinci şagird idi.

Yoldaşları ilə çox mehriban rəftar edərdi. Ona görə də hamı onu sevər, xatirini istəyərdi.

Çox çəkmədi ki, Hacı Nəsirin ticarət işləri tənəzzülə başlayıb, yavaş-yavaş var-yoxu əlindən çıxmağa başladı. Vəfalı Həlimə ərinə ürək verib, çox qəm-qüssə çəkməyə qoymazdı.

Bir dəfə Həlimə hamamdan çıxanda özünü soyuğa verib yorğan-döşəyə yıxıldı. Hacı Nəsir istəkli arvadının üstünə müalicə üçün bir neçə məşhur həkim gətirdisə de, sətələcəm azarından sağalda bilmədi. Həlimə doqquzuncu gecə, "Nurəddin" deyə-deyə vəfat etdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Həlimə oğlunu hər gecə soyundurub əzizləyə-əzizləyə yatırardı. O da anasının boynunu qucaqlayıb: - Ana, gecən xeyrə qalsın, - deyə onu öpərdi və şirin yuxuya gedərdi. O idi ki, həmin gecə qulluqçu onu rahat edəndə anası yadına düşüb təzədən ağlamağa başladı. Gecə yarıdan keçdi. Lakin Nurəddin yata bilmədi. Ağlamağını kəsib xəyala getmişdi.

- Ah, birdən anam dirilə... Bəlkə, anam heç ölməmişdir, bilmirlər?.. O günü müəllimimiz söylədi ki, bir elə yuxu var ki, ölümə oxşayır, bir neçə gün, hətta neçə ay azarlı ölü kimi qalıb axırda yenə dirilir. Çox ittifaqlar düşür ki, elə azarlını ölmüş zənn edib dəfn edirlər.

Ah, bəlkə anam da elə yuxuya getmişdir?.. Onu ölmüş bilib basdıracaqlar, - yox, yox, qoymaram. Səhər tezdən atama deyəcəyəm ki, hələ anamı basdırmasınlar, bəlkə ölməmişdir.

Belə fikir və xəyalatda ikən Nurəddin sübh vaxtı yuxuya getdi və günortaya kimi yatdı. Nurəddin yuxudan oyanınca Həliməni dəfn etdilər.

Hacı Nəsirin başı yas yerinə gələn adamlara qarışdığından oğlundan bixəbər idi. Nurəddin gözlərini açdı. O biri otaqda molla həzin bir səslə quran oxuyurdu. Mollanın xoş avazı yuxudan yeni ayılmış Nurəddinə layla kimi təsir edib, onu bir müddət yuxu ilə ayıqlıq halətində saxladı. Sonra "Bu quran nə üçün və kim üçün oxunur" fikri Nurəddinin başına düşdü. Bu isə anasının ölməyini yadına saldı. Birdən gecəki fikri Nurəddinin başına ildırım kimi şığıyıb onu yerindən dik qaldırdı. Bu halda qulluqçu Bahar içəri daxil oldu. Nurəddin soruşdu:

- Bahar, de görüm, anamı basdırdılarmı?

Bahar gözlərinin yaşını silərək:

- Bəli, basdırdılar. Kaş onun əvəzinə mın ölıydim, mıni basdıraydılar, - deyə cavab verdi.

Anasının dirilməsindən zavallı Nurəddinin ümidi daha kəsildi, lakin onu ölüm yuxusunda ikən dəfn etmək şəkki hələ ürəyində idi. O idi ki, axşam başsağlığına gələn adamlar ona dedi, atası da onu şəkdən çıxarıb sakit etdi.

Anasının vəfatından sonra Nurəddində böyük təğyir görünürdü. Həmişə deyib-danışan, gülərüzlü və mehriban bir uşaq olduğu halda, indi qəmgin və məyus olub məktəb yoldaşlarından kənar dururdu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Həmfikri, həmsirri ancaq kitabları olmuşdu. Əvvəl vaxtlar yoldaşları onun bu halətini anasının vəfat etməyinə görə təbii bilib, bu xəyalda idilər ki, sonralar yenə həmişəki halına düşəcəkdir. Lakin bir ay keçdi, iki ay keçdi, bir il keçdi. Nurəddin əvvəlki halına düşmədi. Ancaq biliyi ilə müəllimlərini heyrətə gətirirdi. Çox vaxt onlara elə sual verirdi ki, cavabında aciz qalırdılar.

Hacı Nəsirin əli aşağı düşdüyünə görə Nurəddin dəxi əvvəlki kimi məkətəbə öz faytonlarında getmirdi. Bu təğyirdən Nurəddin bir o qədər qəm çəkmirdi, çünki təbiətində təkəbbürlük, təşəxxüslük əsla qoyulmamışdı. Hacı Nəsir nə qədər oğlunun elm və ədəb kəsbində göstərdiyi səy və qeyrətdən fərəhlənirdisə, bir o qədər də onun pərişanlığından qəmgin olardı və bilməzdi ki, nə yolla onu şad etsin. Axırda Hacı Nəsir evlənmək fikrinə düşdü. "Bir kasıb kişinin qızını alıb evimə gətirməliyəm ki, Nurəddinə analıq edib onu qəm-qüssədən azad etsin", deyə Hacı Nəsir fikir etdi. Bir ittifaq bu xahişi tezliklə əmələ gətirməyə səbəb oldu.

Hacı Nəsir  bir qeyri şəhərdə sakin olan şəriki ilə hesab çəkməyə getmişdi. Bu şəhərin iyirmi verstliyində olan kənddə Hacı Nəsirin İmamverdi adlı tanışı vardı. Neçə müddətdi ki, ondan bir xəbər-ətər yox idi.

- Bu uzun yolu gəlmişkən qoy bu dostuma da bir baş çəkim, - deyə Hacı Nəsir yola rəvan oldu. Kəndə çatdıqda ondan-bundan xəbər tutub axırda İmamverdini tapdı.

İmamverdi altmış yaşında bir qoca kişi idi. Kənddə özünə görə yaxşı evi-mülki vardı. Amma indi onların hamısı satılıb borclarına verilmişdi. İmamverdi Hacı Nəsiri bir köhnə daxmaya dəvət edərkən dedi:

- Hacı Nəsir, son görən dövlət əlimdən çıxdı. İndi mənə qalan, ancaq bu uçuq daxmadır. Övladdan da bir qızdan başqa, bir kəsim qalmamışdır.

- Hərgah mənim işlərim əvvəlki kimi düzgün olsaydı, sənə əl tutardım.

- Bilirəm, bilirəm, - deyə İmamverdi cavab verdi. Sonra üzünü qızına sarı tutub dedi:

- Gülpəri, tez ol nahar tədarük et, Hacı Nəsir yol gəlib, acdır. Gülpəri xörək hazırlamağa, İmamverdi və Hacı Nəsir söhbət etməyə məşğul oldular.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gülpəri qısaboylu, doluəndamlı, qarabuğdayı, bədxasiyyət, iyirmi üç yaşında bir qız idi. Gülpərinin bədxasiyyəti onun indiyə kimi qız qalmasına səbəb olmuşdu. Kənddə heç kəs ona yaxınlaşıb elçi düşməyirdi. İmamverdi ilə Hacı Nəsirin uzun söhbətinin nəticəsi bu oldu ki, qəza, Hacı Nəsiri dolaşdırıb İmamverdi ilə qohum etdi.

İki gündən sonra Hacı Nəsir Gülpərini evinə arvad gətirdi və Nurəddini öpərək dedi:

- Oğlum, bu sənin təzə anandır. İrəli gəl, gedib əlindən öp. Evimizə xoş gəlmisən de!

Bu xəbərin təsirindən Nurəddinin rəngi-ruhu qaçıb bədəni titrəməyə başladı. O saat sevgili anasının surəti gözlərinin önündə durdu. Uca bir səslə:

- Ah, ata, nə tez anamı yaddan çıxartdın! - deyə Nurəddin ağladı və birinci dəfə olaraq atasının sözündən çıxıb, onun əmrini yerinə yetirmədi.

Oğlunun sözləri Hacı Nəsirin ürəyinə ox kimi sancılıb gözlərini yaşartdı. Gülpəri bu əhvalatdan qəzəbnak olub:

- Təzə gəlini beləmi qəbul edərlər? Sən məni buraya yasamı gətirmisən? - deyə qışqırdı.

- Gülpəri, acığın tutmasın, doğru deyirsən, gərək sənin pişvazına çıxılaydı, şadlıq olunaydı. Ancaq onu da qohum-əqraba edər, halbuki mənim heç kəsim yoxdur. Bu gündən bu ev-eşiyin xanımı sənsən, ancaq səndən təvəqqe edirəm ki, bu oğluma həqiqi analıq edib ürəkdən sevəsən. Nurəddin ədəbli, tərbiyəli uşaqdır. İndi anası yadına düşüb ağlayır. Sonra həmişə sənin itaətində olacaqdır. Gəl gedək otaqlarını, şeylərini sənə göstərim. - Bunu deyib Hacı Nəsir Gülpərini o biri otağa apardı.

Gülpəri Hacı Nəsirin evinə qədəm qoyduğu saatdan zavallı Nurəddinin müsibəti başlandı. Gülpəri öz pis xasiyyətini tezliklə büruzə verdi. Səhərdən axşama kimi əllərini bir işə vurmayıb, nökər və qulluqçuların üstünə qışqırıb-söyməyi özünə peşə etmişdi. Əlalxüsus, yazıq Nurəddinin günü qara olmuşdu. Onu tez-tez söyərdi və heç zad üstündə döyərdi. Lakin qeyrətli uşaq əsla səsini çıxarmazdı. Hətta atasına şikayət etməyib özünü onun yanında şad saxlardı ki, atası qəm etməsin.

Get-gedə Gülpərinin zülmü artırdı. On ildən ziyadə Hacı Nəsirə xidmət edən nökər bu tövr rəftara daha davam edə bilməyib qulluqdan



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

çıxdı. Nurəddin olmasaydı, Bahar da çoxdan çıxıb gedərdi. Lakin vəfalı qulluqçu mərhum xanımının yaxşılığını unutmayıb, Gülpərinin hər zülmünə davam edirdi; təki əli balaca Nurəddindən üzülməsin.

Hacı Nəsir bu işləri görüb ikinci dəfə evlənməyə çox peşman idi. Gülpərinin üzünü az görmək üçün səhər sübhdən bazara gedib, bir də axşam evə qayıdardı. Bir tərəfdən ticarət işlərinin getdikcə dolaşıb zərər gətirməsi, digər tərəfdən də evinin binizamlığı Hacı Nəsiri azara salıb mum kimi eridirdi.

Nurəddin də Gülpərinin bu hərəkətindən vaxtının çoxunu məktəbdə keçirərdi.

- Tələsmə, bu gün-sabah o köpəkləmiş atan ölüb gedər, ixtiyarı düşər mənim əlimə, onda səni bircə saat da məktəbində qoymaram, - deyə Gülpəri qışqırardı.

Bir ilə yaxın idi ki, Gülpərinin zülmü davam edirdi. Bir gün Nurəddin evə gec gəldikdə Gülpəri hirslənib onu döyməyə başladı. Bu halda qəflətən Hacı Nəsir qapıdan içəri girdi və Nurəddini Gülpərinin əlindən alıb qeyzlənmiş dedi:

- Ay nəməkbəhəram, mən səni kimi bir kasıb qızını dilənçilikdən qurtarıb özümə arvad etdim ki, sən də o yaxşılığın əvəzində bu uşağa analıq edib qayğısını çəkəsən, yoxsa onun üçün cəllad olasan? And içirəm Həlimənin o pak olan ruhuna, bundan sonra səni bu evdə bir gün saxlamaram. Get şeylərini hazırla. Bu saat təlaqini verib səni boşayacağam. - Bunu deyib, Hacı Nəsir cəld bazara tərəf getdi.

Bu ittifaqdan yarım saat keçməmişdi ki, Hacı Nəsirin dükanda ürəyi partlayıb vəfat etməsi xəbəri gəldi. Bir azdan sonra meyidini evə gətirdilər. Batində bu bəlaya şad olan Gülpərinin zahirdə başına döyub, üzünü cırıb, özünü meyidin üstünə salması Nurəddinə atasının ölümündən yaman təsir etdi. Ona görə əvvəl istədi ki, Gülpərinin bu riyai-əməlini açıb adamlara söyləsin. Amma atasının həmişə ona verdiyi: - "Külfətin sirrini açıb özgələrə söyləmək qəbihdir" -nəsihəti yadına düşüb bu fikirdən daşındı və bir bucağa çəkilib mat və məbhut dayandı. Nurəddin özünü saxlayıb qəsdən ağlamırdı ki, Gülpəriyə oxşamasın. Lakin batindən bixəbər adamlar onun belə lal durmasını vəfasızlığa və Gülpərinin elə yalandan üzünü cırmasını vəfalılığa həml etdilər. Atasının dəfni və təziyəsi Nurəddinə yuxu kimi gəlirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

* * *

Hacı Nəsirin üçü çıxan kimi Gülpəri Nurəddinin üzündən öpə-öpə əlinə pul verib dedi:

- Oğlum, daha dərsindən qalma, dur məktəbə get, dərslərini qurtarandan sonra da yoldaşlarını götürüb gəzməyə get ki, kefin açılsın.

Bu gün atanın borcluları gələcəklər. Mənim başım onlara qarışacaqdır.

Daha dayanma, oğlum, get.

Bu əmrə Nurəddinin özü də şad oldu və dərhal heybəsini götürüb cəld getdi. Yol uzunu Nurəddin Gülpəri barədə fikir edirdi.

- Atam öləndən bəri Gülpəri mənimlə çox mehriban dolanır, hərgah əvvəldən belə olsaydı, heç atamın da bağrı çatlayıb ölməzdi.

Görəsən Gülpərinin mənimlə belə rəftar etməsinə səbəb nə oldu? Bu hal onda mənə rəhmi gəldiyindənmi, yoxsa, atası İmamverdinin qorxusundanmı əmələ gəldi? İmamverdi yaxşı kişidir. O məni çox istəyir. Ah, görəsən, Gülpərinin bu halı çoxmu çəkəcəkdir? Qorxuram İmamverdi baba gedəndən sonra yenə məni döyməyə başlaya. Onda kimim var ki, mənə kömək etsin. Hərgah Bahar kömək edərsə, o saat onu da qovar; çünki indi hamı ixtiyar onun əlindədir.

Bu fikir və xəyalatda ikən Nurəddin gəlib məktəbə çatdı. Gülpərinin belə dəyişməsinə səbəb, Nurəddinin zənn etdiklərinin heç biri deyildi. Gülpəri yaxşı bilirdi ki, özünün övladsız olmasına görə Hacı Nəsirin cəmi mal və dövləti tək Nurəddinə qalacaqdır və o da uşaq olduğundan hər ixtiyar qəyyum əlinə keçecəkdir. İndi hiyləgər qadın bu qəyyumluğu axtarırdı və məramına da çatdı.

Gülpəri ərindən çox pul gözləyirdi, lakin Hacı Nəsirin var-yoxunu hesaba çəkib borclarını verəndən sonra məlum oldu ki, bir qədər nəqd pul bir ev atasından və on iki min manatlıq cəvahirat və ev şeyi də anasından Nurəddinə irs qalıb. Ona da Gülpərini qəyyum təyin etdilər.

Nurəddin evlərinə qayıtdıqda Bahar onu əhvalatdan xəbərdar etdi. Nurəddin Gülpərinin dəyişməsini indi başa düşdü. Bahar dedi:

- Qorxma, nə qədər ki, sən sağsan Gülpəri bir qəpiyə də əl vura bilməz və səni incidə bilməz, çünki onda onu qəyyumluqdan çıxardarlar.

Bu sözlərdən Nurəddin çox şad oldu. Baharın dediyi də düz oldu. Güləpri Nurəddinə daha əziyyət verməyib onunla mehriban dolanmağa başladı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bahar, doğrudur, Nurəddini Gülpəri tərəfindən arxayın etdi, amma özü onun bu dəyişilməsinə əsla inanmırdı. Gülpərinin ürəyində bir gizli fikir bəsləməsinə şəkki yox idi. Ona görə gözləyirdi ki, Nurəddinə o tərəfdən bir zərər yetişməsin. Gülpəri də bunu duyub, Baharı bir yolla rədd etmək fikrində idi. Ancaq aşkar qovmaqdan çəkinirdi, çünki Bahar körpə vaxtından Hacı Nəsirin evində böyümüşdü. Hamı onun xatirini istəyirdi və ona qulluqçu nəzərilə baxmırdı.

İmamverdi ömrünün çoxunu kənddə keçirməyinə görə şəhər dolanacağına adət etməmişdi. Bu səbəbdən əziyyət çəkirdi. Axırda qızına dedi:

- Gülpəri, indi işlərin qayda ilə gedir, daha mənə ehtiyac yoxdur, şəhərin havasını götürmürəm, ona görə mən gedirəm. Siz də, inşallah, Nurəddin azad olub yaya buraxılan kimi yığışıb gəlin. Təki, üç ay yayı o gözəl ab-havada keçirib cana gələsiniz.

Gülpəri atasının ömrinə razı oldu. İmamverdi Nurəddindən ayrılanda onu öpərək dedi:

- Oğlum, dərslərini səy et ki, imtahanını yaxşı verəsən. Allah qoysa, gəlib görərsən ki, bizim kənd nə gözəl yerdir. Sənə tilov qayıracağam, hər gün çayda balıq tutarsan; orada çimərsən, meşəyə gedib çiyələk, moruq, göbələk yığarsan.

İmamverdi xudahafizləşib yola düşdü.

Nurəddin İmamverdi babanın ayrılığına qəmgin oldusa da, onun verdiyi vədlərə çox şad idi, çünki anadan olandan öz şəhərlərindən başqa bir yeri görməmişdi. Çayı, meşəni, ancaq kitabda oxumuşdu. Bu səbəbə görə yay tətilini səbirsiz gözləyirdi. Gülpəri də bu işə şad idi. Ancaq onun şadlığına başqa səbəblər vardı. Bir il bundan əvvəl kəndlərində yoldaşlarının təzə çit libasına həsəd aparan Gülpəri, indi ipək paltarda, üst-başı qızıl və cəvahirat ilə bəzənmiş kəndlərinə qayıdacaqdı. Qabaqlarda ona yaxın düşməyən elçilər indi qapısından əl çəkməyəcəklər. Amma bunların hamısından çox onu şad edən şey ürəyində bəslədiyi gizlin fikir idi. Yəni orada Nurəddinin dövlətini özünə mal etməyə bir çarə arayıb tapmaqdı.

Axırda Nurəddinin səbirsizliklə gözlədiyi gün gəlib çatdı. Üç gün idi ki, Gülpəri səfərə yığışırdı. Bu yığışmaq Baharı bərk təşvişə salmışdı, çünki Gülpəri evin cəmi şeylərini sandıqlara doldurub, özü ilə aparmaq fikrində idi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Xanım, üç aydan ötrü bir belə şeyi yük eləyib aparmağın nə mənası var? – deyə Bahar soruşduqda:

- Yox, Bahar, əziyyət olsa da ümid olub burada qoymaq olmaz, - deyə Gülpəri cavab verdi.

Bahar ümid edirdi ki, Gülpəri onu da kəndə aparacaqdır. Lakin hər bir şey hazır olandan sonra Gülpəri ona dedi:

- Bahar, sən şəhərdə qalasısan. Evi səndən başqa heç kəsə ümid olub, qoya bilmərəm.

Bahar nə qədər yalvardısa da Gülpəri razı olmadı. Nurəddin də təvəqqə etdi, mümkün olmadı.

- Yox, yox! Evi Bahardan başqa heç kimə tapşıra bilmərəm, - deyə Gülpəri təvəqqəni rədd etdi. Həccə getmirik ki, üç aydan sonar yenə buradayıq.

- Bahar, xudahafiz, evdən yaxşı muğayat ol!

Bahar Nurəddini qucaqlayıb öpdü.

- Yaxşı yol, allah səni bəladan hifz etsin. Ah, görəsən, bir də səninlə görüşəcəyəmmi?..

Baharı ağlamaq boğub, daha danışmağa qoymadı.

Koç yola düşdü. Nurəddin Bahardan ayrılmasına görə bir qədər bikef oldu. Amma sonra görmədiyi yerlerə, vaqondan baxdıqca, qəmi yadından çıxdı.

Vaqon çox sürətlə gedirdi. Nurəddin birdən altıya kimi sanayınca bir tel ağacı keçirdi. Mənzərələr tez-tez dəyişirdi; gah göy ot və çəmənlərlə bəzənmiş düzəngah, gah yaşıl təpələr və dağlar, gah qaranlıq meşələr və dərələr və gah da aydın çaylar və yollar görünürdü.

Nurəddin heyrətdə idi, çünki bunların heç birini görməmişdi. İndiyə kimi tozlu, tüstülü şəhərdən bir qeyri yerə çıxmamışdı.

Gülpəri bir neçə gün qabaq, kağız vasitəsi ilə yazıb hansı gün çıxmalarını atasına məlum etmişdi və əlavə fayton gözləməyini rica etmişdi. Lakin səfərin ikinci günü gəlib oraya çatdıqda, vağzalda nə atasını və nə də bir tanış adam görmədi. Bu isə Gülpərini bərk təşvişə saldı. Cəld nökəri Cəfəri göndərib iki nəfər hambal çağırtdı, yanındakı və bağajdakı şeyləri daşıdıb ikinci klas salonuna yığdırdı.

Gülpəri Cəfəri götürmüşdü ki, onları buraya kimi ötürüb yenə geri qayıtsın. Vağzalda iki saata kimi gözlədilər, amma heç kəs gəlib çıxmadı. Gülpərinin təşvişi getdikcə artırdı, çünki yanındakı qiymətli şeylərin tələf olacağından qorxurdu. Hərçənd, bu şəhərdə tanışlara



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

vardı, amma onlara da ürəyi qızmırdı. Axırda Gülpərinin daha atasının gəlməsindən ümidi kəsilib, nökəri ilə yola düşməyə naçar qaldı.

Gülpəri Cəfəri göndərib iki fayton tutdurdu, faytonun birinə nökəri və şeyləri qoyub, o birinə də özü Nurəddinlə oturdu və qorxa-qorxa yola düşdü. Şəhərdən kəndə uzaq deyildi. Hamısı iyirmi verst idi. Lakin Gülpərini qorxuya salan dağlar arasından və meşələr içindən keçən yollardı ki, onlarda çox vaxtı soyğunçuluq ittifaq düşərdi. Gülpəri erkən gedib mənzilə çatmaq üçün faytonları qovdururdu və faytonçulara da iti sürmək əvəzində çay pulunu artıq verməyi vədə etmişdi. Gülpərinin qorxduğu başına gəldi. Belə ki, ağır yüklü fayton əyri-üyrü və eniş-yoxuş yollara çatdıqda, bir döngədə aşıb, oxu və çarxı sındı. Bu hadisə zühur edən vaxt günəş enib dağın dalında gizlənmişdi. Gülpəri artıq iztiraba düşüb söylənirdi.

- Allah, bu nə iş idi mənim başıma gəldi. İndi bu yol içində, bu qorxulu dağlar arasında necə olacağıq. Görəsən, atamın başına nə iş gəldi ki, bu vaxta kimi gəlib çıxmadı. Kaş şəhərdə qalıb ondan xəbər gözləyəydim.

Faytonçu:

- Xanım, onlardan keçmişdir. Gəl biz gedib kənddən kömək çağıraq.

Gülpəri buna razı olmadı.

- Yox, heç vaxtı şeylərini burada qoyub getmərəm, ayrı çarə varsa arayıb tapın.

Faytonçular dedilər:

- Xanım, ayrı çarə yoxdur. Hərgah faytonun oxu sınmamış olsaydı, çarxı bir tövr sarıyardıq və yavaş-yavaş sürüb, özümüzü kəndə salardıq. İndi isə ümidimiz bir allaha qalmışdır.

Bu sözlərdən sonra Gülpərinin iztirabı daha da artdı. Axşam oldu. Soyuq düşdü. Dərələrdən duman qalxmağa başladı. Heç kəs gəlib çıxmadı. Gecə orada qalmağın qorxusu çoxdu. Gülpəri üzünü faytonçulara tərəf tutub:

- Bu gecə bu yol üstündəmi qalacağıq? - deyə soruşduqda, faytonçular cavabında aciz qaldılar. Nurəddin bu ittifaq düşəndən bəri fikrə gedib çarə arayırdı. Nurəddin öz siniflərində ən fərasətli uşaq sayılırdı. Nurəddin üzünü onlara tutub dedi:

- Mən bir çarə tapdım, qulaq asınız söyləyim. Sınan faytonun dörd atı var. Şeyləri bu atlara yükləyib biz gedərik, fayton sahibi burada qalar. Sonra kənddən buna kömək göndərərik.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu təklif cümlənin xoşuna gəldi. Ələlxüsıs Gülpəri şad idi ki, beləcə asan yolla Nurəddin onları çətinlikdən qurtardı. Vaxtı itirməyib atları yüklədilər və yola rəvan oldular. Səfərin qorxulu yeri qabaqda idi. Meşənin içilə səkkiz verst yol gedirdi. Köç meşəyə çatdıqda qaranlıq lap çökmüşdü. Cəfər yüklü atlarla qabaqda və fayton dalda gedirdi. Gülpəri bərk qorxurdu. Nurəddin qorxaq uşaq deyilsə də, meşənin vahiməsi onu da basmışdı. Elə sakitlik idi ki, nə bir zihəyatın səsi çıxırdı, nə də bir yarpaq tərpənirdi. Odur ki, bir yandan bu sakitliyin özü də insanı vahiməyə salırdı. Qəflətən bir qorxulu səs meşəni götürdü. Bu səsdən Nurəddin diksindi, Gülpəri qışqırdı. Faytonçu dedi:

- Qorxma, xanım bayquşdur, ulayır.
- Vay, allah səni yox etsin, gör nə murdar səsi var, - deyə Gülpəri qarğış elədi,

Meşənin qurtaracağına iki verst qalmış bir atlı-yaraqlı adam Cəfərin qabağını kəsdi.

- Dayan, tərpənmə, atdan düş, yoxsa odladım!
- Əmiraslan ağa, atına, mənəm.
- Cəfər, sənsən?
- Bəli, ağa, mənəm.

Atlı tüfəngini çiyninə salıb, Cəfərə sarı irəlilədi.

- Cəfər, bu köç kimindir?
- Ağa, Gülpəri xanımındır. Odur özü də daldan faytonla gəlir. Yolda faytonumuzun biri sındı, ona görə şeyləri atlara yükləmişik. Şəhərdə nə qədər İmamverdi babanı gozlədiksə də, gəlib çıxmadı, axırda naçar qalıb özümüz yola düşdük.
- Cəfər, sən yavaş-yavaş sür get, mən də faytonla bərabər gəlirəm, - deyə Əmiraslan atını qamçıladı. Gülpəri atlını görcək qorxuya düşdü:
- Yaman yerdə qaranlıqladıq.
- Qorxma, xanım yəqin sizin adamlardandır, qabağınıza gəlibdir, - deyə faytonçu Gülpəriyə ürək verdi.

Əmiraslan faytona yaxınlaşıb ucadan səsləndi:

- İndi necəsən, əmiqızı, sizi tutub var-yoxunuzu əlinizdən alımmı?

Gülpəri bu səsi eşitcək sevinib qışqırdı:

- Əmiraslan, əmioğlu, sənsən?! Nə yaxşı gəldin, bəs atam hanı?

Gərək fayton tutub qabağımıza gələ idi. Bilmirəm kağızı gəlib çatmayıb, ya başına bir iş gəlib?

Əmiraslan dedi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Mənim, sizin gəlməyinizdən xəbərim olmamışdır. Özüm də evdən səhər çıxmışam. Yəqin əmimin indiyə kimi gəlib çıxmamağına səbəb körpünü sel aparması olmuşdur. Cəfərdən başınıza gələn hadisəni eşitdim. Əmiqızı, köçdən belə görünür ki, daha bir də geri qayıtmayacaqsan. Yaxşı da edərsən, adam gərək verdiyi sözün üstündə dursun.

Gülpəri söhbəti dəyişdirmək üçün dedi:

- Əmioğlu, deyəsən Nurəddini görmürsən?

Əmiraslan Nurəddini indicə gördü və Gülpərinin də işarəsini anladı:

- Nurəddin, sən çox xoş gəlmisən. De görüm məndən qorxdunmu?

- Səndən niyə qorxuram, adam da adamdan qorxarmı? - deyə Nurəddin cavab verdi.

- Oxuyan uşaq qorxaq olar.

- Xeyr, səhv edirsiniz, oxumayan uşaq qorxaq olar. Oxuyan uşağın elmi olar, hər şeyin sirrini bilər, ona görə de qorxmaz.

- Yaxşı, indi ki, sən elə qoçaq oğlansan, gəl mənim atımı min, bir az da mən faytonda dincimi alım, - deyə Əmiraslan Gülpəriyə göz vurdu. Gülpəri Əmiraslanın işarəsini başa düşdüsə də yenə razı olmayıb dedi:

- Yox, yox, Nurəddini at yıxar.

- At çox dincdir. Adam yıxan deyil, yavaş-yavaş faytonun yanınca sürər. Ancaq atdan qorxan deyilsə...

- Mən qorxaq deyiləm, - dedim!

Axırda Gülpəri razı oldu. Əmiraslan atdan düşüb Nurəddini mindirdi. Nurəddin özünü atın üstündə görcək onu tərkimlədi. At sıçrayıb qaçdı. Gülpəri qorxdu. Amma Nurəddin atda bərk oturmuşdu. Əmiraslan dedi:

- Maşallah, qoçaq uşaqdır.

Sonra faytona minib Gülpərilə gizlin söhbətə başladı.

Əmiraslan, İmamverdinin kiçik qardaşı Tanrıqulunun oğlu idi. Bundan başqa Tanrıqulunun övladı olmamışdı. Ona görə valideyni Əmiraslanı əzizləyib, ərköyün böyütmüşdü. Balaca Əmiraslan üçün "yox" kəlməsi yox idi. Her xahişi ata-anası tərəfindən fövri əmələ gəlirdi. Əmiraslan özgə uşaqda bir şey görsəydi, o saat gerək ona da alına idi, yoxsa sakit olmazdı. Belə tərbiyənin nəticəsi tezliklə ortaya çıxdı. Əmiraslan doqquz yaşına çatdıqda atası ona heybə və çərəkə aldı. Təzəcə paltar geydirib hədiyyə ilə onu mollanın yanına oxumağa



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

apardı. Üç gündən sonra Əmiraslan çərəkəsini cırıb məktəbdən qaçdı. Ata-anası nə qədər yalvardısa da, bir şey çıxmadı. Atası çox təkid edəndə Əmiraslan dedi:

- Dədə, mən məktəbə getməyəcəyəm. Orada molla adamın ayağını falaqqaya salıb döyür. İstəyirsən məni şkolaya qoy gedim.

Tanrıqulu rusca oxumağın ziddinə gedənlərdən idi. Bu fikri onun başına salan və onu şkolaya düşmən edən kənd mollası axund Molla İman idi. O, həmişə deyərdi:

- Tanrıqulu, məbadə oğlunu şkolaya qoyasan. Orada müsəlman uşaqları təmiz urus edirlər. Başlarına tük qoydurub şapka qoyurlar.

Oxutduqları da Sədi, Hafiz əvəzinə başdan-ayağa tülkü, çaqqaldır.

Tanrıqulu axundun birinci dərəcə müridlərindən hesab olunurdu. Odur ki, oğlunun şkolaya girmək xahişi onu çaşdırdı. Nə axundun əmrindən çıxa bilirdi, nə də oğlunun oxuyub ədəbli, elmli olmasından əl çəkə bilirdi. Axırda məsləhət üçün Əli bəyin yanına getdi. Əli bəy elmli və qoca bir kişi idi. Tanrıqulu həmişə onun hörmətini saxlardı və hər məsləhəti olsaydı gedib onunla həll edərdi. Tanrıqulu Əli bəygilə gələndə orada Əli bəydən başqa bir şəxs də gördü. Buna Tanrıqulu əvvəlcə bu adamın yanında fikrini açıb Əli bəyə demək istəmədi. Amma elə ki, Əli bəy: - "Bu mənim yaxın dostum Mirzə Həsəndir, tanış olun" - dedi, fikrini dəyişdirib əhvalatı ona nağıl etdi. Əli bəy uşağı şkolaya qoymağı məsləhət görüb dedi:

- A kişi, heç kəsin sözünə qulaq asma. İstəyirsənsə oğlun adam olsun, şkolaya qoy. O ki qaldı axund Molla İman, onun fikri başdan-ayağa yanlış və xatadır. Burada heç bir uşağı rus etməmişlər. Əgər etmişlərsə, budur, onların müəllimi söyləsin.

Mirzə Həsən gülümsünüb dedi:

- Əgər islamlıq başa tük qoyub, şapka geymək ilə pis olursa, belionda Molla İmanın dediyi düzdür. Ancaq onun bu sözü hansı kitabdan götürdüyünə mən də məəttəl qalmışam. Bu fikir Molla İmanın öz başından çıxma bir şeydir. - Qardaşım, oğlunu tezliklə göndər gəlsin.

Peşman olmazsan.

Tanrıqulu bir iki adamın məsləhətinə görə oğlunu şkolaya qoydu.

Əmiraslan şkolada çox davam etmədi. Nadinc, söyüşkən, bu doqquz yaşında uşaq, cəmi müəllimləri təngə gətirmişdi. Heç bir gün olmazdı ki, Əmiraslan bir uşaqla savaşıb, döyüşməsin. Bunun bəd əxlaqını düzəltməkdə müəllimlər aciz qalmışdılar. Buna da bais ata-anası idi,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

çünki üç saat məktəbdə keçirdiyi vaxtdan başqa, günün yerdə qalanını Əmiraslan hər bir əmr və nehydən azad idi. Hər nə könlü istəyirdi onu edərdi. Axırda yoldaslarının birini bıçaqlayıb yaralamağının üstündə Əmiraslanı məktəbdən xaric etdilər. Tanrıqulu Əmiraslanı bir-iki il ora-bura atdısa da bir şey çıxmadı.

Əmiraslan, əmisi qızı Gülpəridən iki yaş böyük idi. Qardaşlar bu iki tifili bir-birinə körpə vaxtlarından ad etmişdiler. Amma İmamverdi Əmiraslanın oxumayıb belə bitərbiyə qalmasından artıq narazı idi və bu barədə də qardaşını müqəssir edirdi.

- Belə tərbiyə olmaz. Uşaq gerək izin olmayan şeyi tutmasın.

Böyük-kiçik anlasın. Bunun axın peşmançılıqdır, - deyə İmamverdi, qardaşını məzəmmət edərdi.

Əmiraslan on altı yaşına çatanda ata-anası dalbadal vəfat etdi və nənəsi Püstə qarıdan başqa evlərində bir kəs qalmadı. Atası öləndə Əmiraslana yaxşı mal-dövlət və pul qoymuşdu. Bir-iki ilin ərzində yaramaz oğul bunların hamısını kefə, qumara qoyub tələf etdi. İmamverdi nə qədər çalışdısa da qardaşı oğlunu pis yoldan qaytara bilmədi və axırda onunla bilmərrə əlaqəsini kəsib evinə qoymadı. Nə qədər əlində dövlət var idi, Əmiraslan Gülpəriyə yaxın düşmürdü. Amma elə ki, var-yoxunun hamısı eyşi-işrətə qoyulub puç oldu, Gülpərini almaq fikrinə düşdü. Lakin İmamverdi:

- Ne qədər mən sağam, bu iş baş tutmaz, - deyə onun təklifini rədd etdi.

Gülpərinin könlü əmisi oğlunda idi. Ona görə də qosulub qaçmaq istəyirdi. Lakin Əmiraslan bu əmrə razı deyildi, çünki onun fikri Gülpərini almaq deyil, əmisinin dövlətini ələ almaq idi. Bu isə İmamverdinin razılığı ilə mümkün olardı. Axırda, Əmiraslan Gülpəridən əl çəkib bir dövlətli dul arvad aldı. Əmiraslan arvadın gətirdiyi dövləti tezliklə qumara və kefə qoyub özünü də boşadı. Pis yola öyrənmiş Əmiraslan üçün pul lazım idi. Ona görə yavaş-yavaş oğurluğa və yol kəsməyə şüru etdi. Bu yolda neçə dəfə həbsə düşüb çıxdı. O ətrafda bir yolkəsmə, bir oğurluq olmazdı ki, Əmiraslanın orada əli olmamış olaydı. İndi faytonda əyləşib Gülpərilə söhbət edən Əmiraslan belə hərifdi.

Əmiqızı və əmioğlu sözü bu yerdə qoydular ki, Əmiraslan Gülpəri üçün əmisinə elçi düşsün. Hərgah İmamverdi bu dəfə də razı olmasa, Gülpəri atasından izinsiz Əmiraslana getsin.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

* * *

Nurəddin Cəfərə çatdıqda atın başını çəkdi. Lakin qızışmış köhlən at qüvvətsiz uşağa qulaq asmadı və qaraltıdan ürküb daha da bərk qaçmağa başladı. Nurəddin gördü ki, atı öz gücü ilə saxlaya bilməyəcəkdir. Yüyəni buraxıb iki əli ilə yəhərin qaşından möhkəm yapışdı ki, atdan yıxılmasın. Cəfər Nurəddini bu halda gördükdə istədi atın qabağını kəssin, ancaq bacarmadı. Cəfər qabaqda Əmiraslana nökər idi. Ona görə onun atının xasiyyətini yaxşı bilirdi. Bu atın adı Ceyranbasan idi və özü də bir dinc at idi. Amma qızışıb qaçanda heç bir at dalından çata bilməzdi. Döngənin birində qəflətən bir fayton yolu kəsdi. Ceyranbasan yoldan meşəyə sapıb Nurəddini üstündən yerə atdı. Bu yerə dəyməyin zərbindən zavallı uşağın ürəyi getdi. Bunu görcək faytonçu faytonu saxladı. Onun içindən İmamverdi baba çıxıb Nurəddinə tərəf yönəldi. Yaxınlaşanda gördü ki, bir uşaq hərəkətsiz, yerə sərilibdir. İmamverdi əyilib uşağa baxanda təəccüblə qışqırdı:

- Sübhanallah, bu ki Nurəddindir. Bu, at ilə nə üçün gəlsin? İmamverdi cəld uşağın başını dizi üstə alıb sinəsini açdı.

- Oğlum, Nurəddin, mənəm, İmamverdi baba.

Nurəddin zəif səslə ufuldadı və sonra özünə gəlib İmamverdi babanı tanıdı.

İmamverdi Nurəddinin bədəninin o yan-bu yanına baxdı ki, görsün yaradan-ağrıdan nəyi var. Əlini sağ dizinə vuranda Nurəddin qışqırdı.

- Baba, ora dəymə, ağrıyır, qıçım sınıbdır.

- Yox, oğlum, qorxma, sınmamışdır, yəqin çıxıbdır, - bunu deyərək İmamverdi Nurəddini üsulluca qucağına aldı və faytona qoydu. Bu halda köç gəlib bunlara çatdı. İmamverdi baba elə ki, Əmiraslan və Gülpəridən əhvalatı bildi və onlan bir faytonda oturmuş gördü, qəzəblənmiş qışqırdı:

- Sizin ağlınız harada idi? Bir tikə uşağı köhlən ata mindirib, gecə vaxtı meşəyə buraxmaq olarmı?

Əmiraslan təqsiri boynuna alıb əmisindən üzr istədi. Sonra faytondan düşüb atının dalınca getdi. Gülpəri çalışırdı ki, atasının acığını yatırtsın.

- Ata, acığın tutmasın, bunlar hamısı qəza işidir. Fayton yolda sındı.

Sən gəlib çıxmadın...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Mən nə edim, günortadan bəri çayın o tərəfində körpünün qayrılmasını gözləyirdim. Səhər sel gəlib aparmışdı, - deyə İmamverdi cavab verdi.

- Ata, o da qəzadan deyilmi? Amma şükür allaha ki, axırı xeyirdir.

Nurəddinin qıçını kənddə sınıqçı Qara Hüseynə saldırarsan, çıxar gedər.

Köç meşədən çıxdı. Bu vaxt ay da çıxmışdı. Nurəddini, İmamverdi baba faytonun içində balışları düzüb, rahat etmişdi. Axşamdan iki saat keçmiş köç gəlib kəndə çatdı.

Köç gəlib Güllücə kəndinə çatanda bu kəndin əhalisi yatmışdı. Kənd əhli gün batanda yatıb, gün çıxanda da yuxudan durar. İmamverdi baba Güllücəni Nurəddinə tərif etməkdə səhv etmirmiş. Gözəl hava, saf su, dağ, bağ, meşə insana başqa bir ləzzət verir. Bu kənd dağın döşündə salınıb, gün çıxan tərəfində yaxşı meyvə bağları və meşə, cənub tərəfində gözəl zəmilər və şimal tərefındə gözəl çəmənlər var idi. Dağdan soyuq bulaqlar üzüaşağı kəndə sarı axırdı. Güllücənin dadlı meyvələri ətrafda məşhurdu. Bu kəndin hər evinin qabağında bağdan əlavə, gözəl bağça da vardı. Bu bağçalarda ev sahibləri ətirli güllər və çiçəklər əkmişdilər. Kənardan baxanda dağ döşündə salınmış bu kənd, bir gülüstan şəklində görünürdü. Buna görə də Güllücə adına sahib olmuşdu.

İmamverdi babanın evi kəndin üst tərəfində bir hündür yerdə idi. Buradan çox gözəl mənzərələr açılırdı. İmamverdi babanın həyatində iki tikilisi vardı. Biri köhnə daxma idi, o biri də iki otaq və mətbəxli, qabağı eyvanlı təzəcə ev idi. Evin qabağı gözəl bir bağça idi. Bu bağça yaxşı meyvə ağacları, ətirli gül və çiçəklərlə dolu idi. Bağçanın ortasında, bir soyuq bulaq torpaqdan çıxıb çarhovuza tökülürdü. Bu su ilə İmamverdi baba bağçasını və bostanını sulayırdı. İmamverdi baba bu tezə evin bir otağında Gülpəri və o birində Nurəddin üçün mənzil tədarük etmişdi.

İmamverdi baba bilirdi ki, çıxığı yerinə tez salmaq lazımdır. Hərgah tez salınmasa, yerinə ət gələr və sonra onu düzəltmək çətin olar. Buna görə külfət bir balaca rahat olan kimi, gecə olmasına baxmayıb, bağbanı Mehdi kişini göndərdi ki, sınıqçı Qara Hüseyni yatmış da olsa, durquzub gətirsin.

Bir azdan sonra Qara Hüseyn gəldi. Bu işi İmamverdi yaşında, qırx ildən artıq sınıqçılıq edən və ətrafda məşhur olmuş bir zat idi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qara Hüseyn Nurəddinin qıçını əlləşdirib dedi:

- Sağ ayağı diz qapağından çıxmışdır. - Sonra şaqqıltı ilə ayağı yerinə saldı vı qıçın dörd itrafına ağac düzüb bərk sarıdı. Nurəddin ağrıya davam edib əsla səs çıxartmırdı.

- Yaşasın belə qoçaq uşaq, - deyə Qara Hüseyn Nurəddini tərif etdi. Sonra da evdı tapşırdı ki, Nurəddinin qıçı üç gün belə qalasıdır. Heç tərpətməyin, sonra gəlib özüm açacağam. Bundan sonra üzünü Nurəddinə çevirib dedi:

- Ağıllı oğlum, ayağını heç tərpətmə, onda ağrıtmaz və sən də rahat olarsan.

Qara Hüseyn xudahafiz edib getdi.

Gecədən xeyli keçdi. Amma Nurəddin ayağının ağrısından yata bilmirdi. İmamverdi baba onun yanında oturub keşiyini çəkirdi. Amma Gülpəri o biri otaqda xoruldayırdı. Axırda Nurəddin yuxuya getdi. Bir də gözünü açanda gördü ki, günəş pəncərədən içəri düşmüşdür. İmamverdi baba Nurəddinin yanına gəldi.

- Sabahın xeyir, oğlum, rahat yata bildinmi? Ayağın ağrıyırmı?

- Azacıq ağrıyır, baba.

- Darıxma, oğlum allah qoysa bir neçə günə sağalıb duracaqsan və səni gəzməyə aparacağam. Bir bax gör babanın nə gözəl bağçası vardır. Bu sözləri deyib İmamverdi pəncərəni açdı və özü də bayıra çıxdı.

Sübhün təmiz havası, güllərin və çiçəklərin qoxusu otağı ətirləndirdi. Quşlar gömgöy budaqlarda oturub oxuşurdular. Pəncərənin ağzında bir tut və bir gilas ağacı bitmişdi. Gilasın budaqları pəncərəyə o qədər yaxın idi ki, əl uzadanda çatırdı. Bu ağacın üstü qırmızı gilasla dolu idi. Quşların bəzisi gilas və bəzisi də tut ağacında oturub, gah oxuyurdular və gah da balaca dimdikləri ilə tutdan və gilasdan qopardıb yeyirdilər. Nurəddin bunlara çox həvəslə baxırdı. Bu quşlardan sərçədən başqa qeyrilərini tanımırdı. Nurəddin bir də gördü ki, bir ana sərçə ağzında bir göy cücü pəncərənin üstünə qondu və oradan cik-cik səsi gəldi. Nurəddin gözlərini dolandıranda gördü ki, bir yuvadan dörd dənə sərçə balası başlarını bayıra çıxardıb civildəyirlər. Anaları uçub yuvanın ağzına qondu. Balaları, sarı ağızlarını açıb civiltini bərkitdilər. Ana sərçə ağzını açıb cücünü birinin ağzına verib uçdu. Bir azdan soıra yenə ağzında cücü yuvasının yanında hazır oldu. Bu dəfə cücünü o biri balasına verdi. Gələn dəfə üçüncüsünə və sonra dördüncüsünə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

verdi. Bu qayda ilə ana sərçə balalarına dən daşıyırdı və bir dəfə də olsa növbəti pozmurdu.

Bu sərçə yuvası və onun içində olan balaların yaşamaları Nurəddinə bir məşğələ oldu. Bir dəfə balaca sərçələrdən biri yuvadan sürüşüb, uçaraq otağın içinə düşdü. Bu halda İmamverdi baba içəri daxil oldu.

- Baba, indicə yuvadan bir sərçə balası uçub içəri düşdü. Onu tut mənə ver.

İmamverdi sərçəni tutub Nurəddinə verdi:

- Oğlum, yaxşı öyrətməli vaxtıdır.
- Baba, sərçəni necə öyrədirlər? Mənə də öyrət.
- Yaxşı, oğlum, öyrədərəm.

İmamverdi sərçəni Nurəddindən alıb yerə qoydu və bir az kənara çəkilib muşqurmağa başladı. Sərçə muşquruğu eşidəndə cik-cik etməyə başladı, amma uçub çağırışa gelmədi. İmamverdi baba dedi:

- İndi bu toxdur, ona görə mənə qulaq asmır. Qoy bir az ac qalsın, o vaxt muşquranda uçub gələcəkdir. İndi, oğlum, gəl sərçən üçün mənzil qayıraq.

İmamverdi baba bunu deyib rəfdən bir boş tütün qutusu və bir qədər pambıq götürdü və Nurəddinə verdi:

- Bu da sərçənin evciyi.

Nurəddin sevinib sərçəni qutuda rahat etdi.

- Baba, sərçəm acanda nə verim?
- Çörək çeynəyib ver, tut ver, amma bunlardan yaxşısı cücüdür. Mən bağçamızdan tutub gətirərəm.

Bu halda, Cəfər əlində podnos, içində çay-çörək, şora batırılmış təzə inək yağı içəri daxil oldu. Çayı Nurəddinin qabağına qoyub halını soruşdu və dedi:

- Ağa, bu gün mən evə qayıdıram, nə qulluğun varsa, buyur.

Nurəddin dedi:

- Məndən Bahara salam-dua yetir, amma ayağımın çıxmağını demə, ürəyi xarab olar və bir də mümkün olsa, mənim şəkil dəftərlərimi və rəng qutumu göndərərsiniz. Gələndə almışdım ki, burada şəkil çəkəm. Yadımdan çıxıb qalıbdır.
- Baş üstə, ağa, özüm adam tapıb göndərərəm, hələ ki, xudahafiz.

Allah sənə tezliklə şəfa versin, - deyə Cəfər getdi.

Üçüncü günü Qara Hüseyn gəlib Nurəddinin ayağını açıb dedi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- İndi, oğlum, ayağın yaxşıdır, daha sarımayacağam. Ancaq bir müddət gərək üsullu dolanasan. Atılıb düşməyəsən. Bir-iki gün evdən çıxma. Yavaşca-yavaşca evdə gəz. Eyvanda otur, babanın bağçasına tamaşa eylə, sonra səni bağıma gəzməyə aparacağam.

Qara Hüseyn xudahafiz edəndə İmamverdi baba ona pul verdi. Amma o qəbul etməyib dedi:

- Mən heç vaxt pul qəbul etmərəm. Hələ səninlə dostluğum dursun, Nurəddinin atası mənə çox yaxşılıq edibdir. O yaxşılığın əvəzində mən ona heç bir şey etməmişəm. İndi borcumu verirəm, artıq bir şey etmirəm.

Qara Hüseyn gedəndən sonra İmamverdi baba Nurəddinin başını sığallayıb dedi:

- Görürsən, oğlum, yaxşılıq nə gözəl şeydir. Atanın yaxşılığının əvəzini övladına edirlər. Bax, oğlum, bu əyləşdiyin evi atanın köməkliyi ilə tikdirmişəm. İndi mən də bunu və qabağındakı bağçanı vəsiyyət etmişəm ki, sənə verüsin. Bunu bu kənddə hamı bilir. Mən öləndən sonra bunlar sənindir. Bunların Gülpəriyə dəxli yoxdur.

Gülpəri pəncərənin qabağından keçərkən bu sözləri eşidib dedi:

- Ata, o nə şeydir ki, mənə dəxli yoxdur?
- İçəri gəl deyim.

Gülpəri gəldi, İmamverdi baba dedi:

- İndi Nurəddinə vəsiyyət edirəm ki, bu oturduğu ev və qabağındakı bağça onundur, sənə dəxli yoxdur. Bu vəsiyyətimi sənə deyirəm, qızım, bunu əmələ gətirərsən. Özün də yaxşı bilirsən ki, bunlar onun atasının pulu ilə tikilmişdir.

Gülpəri dedi:

- Ata, əmrini yerinə yetirməyə hazıram. Ancaq mənim də səndən bir təvəqqəm var.
- Söylə, qızım, görüm nədir?
- Mən söyləməyəcəyəm, Əmiraslan söyləyəcəkdir.
- Məni Əmiraslanla heç bir işim ola bilməz. Bunu özün də bilirsən. Bir də siz bura gələndən bəri, o, Nurəddini yoxlamağı əldə bəhanə edib, bura tez-tez gəlməsin, yoxsa qovaram.
- Ata, elə iş etmə, bu gün o səndən bir şey təvəqqə edəcəkdir. Onun təvəqqəsini qəbul et, çünki, mən də o təvəqqeyə şərikəm.
- Yenə deyirəm, Əmiraslanla mənim heç bir işim ola bilməz.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Onda nə etməli, sənsiz olacaqdır, məni bağışla.
- Gülpəri, açıq danış, görüm nə istəyirsən?
- Bu gün Əmiraslan sənə mənim üçün elçi düşəcəkdir, sənin razılığım istəyirəm.
- Heç vaxt!
- Onda sənsiz olacaqdır!
- Nə qədər sağ varam, bu iş baş tutmaz.
- Baxarıq! İndi də mən balaca qız deyiləm ki, iyirmi beş yaşında, hər ixtiyarı öz əlində bir arvadam. Mən dedim ki, bu iş, ata izini ilə olsun, sən istəmirsən, daha təqsir məndən götürüldü. Təvəqqe edirəm ki, bir də mənim işimə qarışmayasan.

Bunu deyəndən sonra Gülpəri hirslə qapını vurub çıxdı. İmamverdi baba kürsüyə çöküb, başı aşağı xeyli fikrə getdi.

Bir azdan sonra Əmiraslan gəldi. İmamverdi baba o biri otağa keçdi, orada iş nə yerdə qaldığını Nurəddin bilmədi. Ancaq oradan İmamverdi babanın qışqırığı gəlirdi.

Bu ittifaqdan üç gün keçmiş, Gülpəri atasından izinsiz, kəbinini kəsdirib Əmiraslana gəlin köçdü.

Gülpəri gətirdiyi şeylərin hamısını özü ilə bərabər apardı.

Gülpəri Nurəddinin İmamverdi babanın yanında qalmağına mane olmadı. Nurəddin bu işə çox şad idi, çünki Gülpəri buraya gələn gündən onunla mehriban rəftar etməyi atıb, əvvəlki kimi pis dolanırdı. Qızının belə itaətsizliyi İmamverdiyə artıq dərəcədə təsir etmişdi.

Nurəddinin ayağı təmiz sağalmışdı. Hər gün İmamverdi baba ilə gah bağçada bal ansına tamaşa etməyə məşğul idi, gah da ipək qurduna tut yarpağı daşıyırdı, gah da meyvə bağına gedib İmamverdi baba ilə meyvə dərirdi. Ya da çayda balıq tuturdu və burada çimirdi, gah da meşəyə gedib moruq, göbələk yığırdı. Haraya getsəydi, sərçəsini də özü ilə aparırdı. İmamverdi baba sərçəni qırmızı rəngə boyamışdı. Ona görə Nurəddin ona Qızılca adı qoymuşdu. İndi Qızılca elə öyrənmişdi ki, Nurəddin haraya getsəydi, sərçə də çağırılmamış, öz-özünə uçub onun dalınca gedərdi.

Hər həftə şənbə günləri Güllücə kəndində bazar olardı. Bu günləri ətraf və ətrafda sakin olanlar tökülüb bazara gələrdilər. Kimi mal almağa, kimi mal satmağa gəlirdi. İmamverdi baba da hər şənbə Nurəddin ilə bazara çıxardı. Nurəddinin məktəb paltarı cümlənin nəzərini özünə cəlb edərdi, ələlxüsus kənd uşaqlarının...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nurəddin İmamverdi babanın yanında çox gözəl vaxt keçirirdi və şükür edirdi ki, Gülpəri onu özü ilə aparmadı. Şəhərin natəmiz havasından saralıb heyvaya dönən Nurəddini bir ayın ərzİndə tanımaq olmurdu. Ətə-cana gəlib üzü lalə kimi qızarırdı. Əfsus ki, zavallı Nurəddin üçün bu xoşbextlik çox çokmədi. Gülpəri əre gedəndə öz razılığı və Nurəddinin razılığı i]e onu atasrnm yanında qoymuşdu. Amma indi nədənsə fikrini deyişdirib, Nurəddini öz yanma aparmaq istəyirdi. Lakin İmamverdi baba əsla razı olmurdu. Buna görə de hər gün ata və qız arasında bu barede qovğa vardı. Bu isə Nurəddinə çox tesir edirdi. Axırda Nurəddin dedi:

- Baba, daha Gülpəri ilə dalaşma, men razıyam. Onun yanında olanda nə olar? Qoy gedim, yenə hər gün sənin yanına gələrəm.

İmamverdi baba, istər-istəməz razı oldu. Nurəddin də Əmiraslanın evinə köçdü. Az bir müddətdə Əmiraslan Gülpərinin əlində olan nəqdi pulunu gah yalvarmaq və gah da qorxutmaq ilə alıb qumara, kefə tələf etdi. Əmiraslan elə bilirdi ki, Gülpəri Hacı Nəsirin dövlətindən lazımınca yükünü tutubdur. Amma onun əliboş olması tezliklə məlum oldu. Bu cəhətə Əmiraslan gündə Gülpəri ilə dava-qalmaqal etməyə başladı. Gülpəri işi bu halda gördükdə neçə müddətdən bəri ürəyində Nurəddinin dövləti barəsində bəslədiyi gizli fikri açıb Əmiraslana söylədi və ondan bu işə çarə istədi. Əmiraslan çox şad olub dedi:

- Hərgah indiyə kimi bunu məndən gizlətməsəydin, çoxdan çarə tanımışdım. Yenə də taparam. Sənin işin yoxdur.

* * *

Nurəddin elə bilirdi ki, hər vaxt istəsə, İmamverdi babanın yanına gedə bilər. Lakin bu fikrin yanlış olması ertəsi günü ona məlum oldu. Bu tərəfdən də Gülpəri, və ələlxüsus, Püstə qarı yazıq uşağa göz verib, işıq vermirdi. Ancaq Əmiraslan öz fikri cəhətincə Nurəddinlə mehriban dolanıb onu yanından iraq qoymayırdı. Haraya gedirdi özü ile apa-nrdı. Bir dəfə Əmiraslan Nurəddini götürüb bağına gezməyə apardı. Orada onu gilas ağacına çıxartdı ki, gilas dərsin. Nurəddin gilas ilə ətəyini doldurub aşağı düşmək istədikdə Əmiraslan dedi:

- Nurəddin, o əlinlə tutduğun budağın başında gör nə çox gilas var, çıx o şaxı sındır. Eləcə evimizə aparaq.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nurəddin dedi:

- Budaq nazikdir, qorxuram sına.
- Bəs sən deyirdin, mən qorxaq deyiləm. O budaq mən yekəlikdə adamı götürər.

Bu sözlərdən Nurəddin qeyrətə gəlib yuxarı dırmaşdı. Ağacın başına çatdıqda, budaq şaqqıltı ilə sınıb yerə düşdü. Amma Nurəddin iki budaq arasına pərçim olub ölümdən xilas oldu. Nurəddin aşağı düşəndə Əmiraslan sınıq budağı çiyninə götürüb dedi:

- Gedək, Nurəddin, allah bu səfər səni ölümdən qurtardı, - bunu deyib qəhqəhə ilə güldü.

Nurəddin Əmiraslanın "bu səfər" deməsinə və gülməsinə təəccüb etdisə də onun fikrini anlamadı.

O biri gün Əmiraslan Ceyranbasanı çullayıb dedi:

- Nurəddin, atımızı apar həm çayda sula və həm də bir az gəz. Nurəddin razı olmayıb, dedi:
- Mən Ceyranbasandan qorxuram. Onu heç vaxt minməyəcəyəm.
- Axırı ki, qorxaqlığını boynuna aldın. Bunu deyib Əmiraslan atın belinə sıçradı.
- Elə isə gəl tərkimə min, gedib cayda çimək.

Nurəddin çimməyi cox sevirdi. Ona görə də tez razı oldu.

Çayda Əmiraslan soyunub atı mindi və suyun dərin yerinə salıb bir necə dəfə üzdürdü. Sonra üzünü Nurəddinə tərəf tutub dedi:

- Hərgah qorxmursan gəl səni də mindirim.

Nurəddin razı oldu, Əmiraslan Nurəddini ata mindirib, noxtanın ucundan yapışdı. Əmiraslan atı lap dərin yerə salıb bir neçə dəf’ üzdürdu. Bir dəfə at dərin yerə düşəndə qəflətən ipi çəkdi, at burxulub Nurəddini üstündən saldı. O, suya batdı və bir neçə saniyədən sonra suyun üzünə çıxıb üzməyə başladı. Hərgah bu dəmdə Nurəddinin nəzəri Əmiraslana düşsəydi, onun gözlərindən parlayan odu və üzündə zuhur edən acığı görərdi. Nurəddin üzüb kənara çıxanda Əmiraslan soruşdu:

- Bu üzməyi haradan öyrənmisən?
- İmamverdi baba öyrətmişdir. Sizə gəlməmişdən əvvəl hər gün çayda çimirdik. İndi İmamverdi baba azarlamışdır.
- Onu haradan bilirsən, yoxsa qaçıb getmisən?
- Xeyr, dünən bağbanından eşitdim.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Yenə deyirəm ki, sənin onun ilə əsla işin olmasın. Tez ol geyin, gedək.

Nurəddin Əmiraslanı acıqlı görüb dinməz-söyləməz tezcə geyindi. Yol uzunu Əmiraslan fikirdə olub bir kəlmə söz demədi. Əmiraslan bu ittifaqdan sonra yenə öz pis fikrindən əl götürməyib. Nurəddin isə başına gelən xataları qəza işi bilib, Əmiraslandan şəklənməyirdi. Ancaq bir ittifaq onu şəkkə saldı. Bir defə Əmiraslan onunla bazardan evə qayıdanda yolda çəpər üstündə bir gürzəni qıvrılıb yatmış gördülər. Əmiraslan dedi:

- Nurəddin, gör nə gözəl koramal balasıdır. Tut, aparıb kirpimə verək yesin. Qorxma, koramalın zəhəri yoxdur, adamı vurmaz.
- Mən də bilirəm zəhəri yoxdur. Ancaq o koramal deyil gürzədir.
- Yox, sən tanımırsan, koramaldır.
- Koramalın başı sarımtıl olur, elə qara rəngli olmur.
- Onu sənə kim deyibdir?
- İmamverdi baba, neçə dəfə bağçada koramalı mənə göstəribdir.

Əmiraslan qəhqəhə ilə gülüb dedi:

- Koramaldan qorxursan, ona görə də ilanı bəhanə gətirirsən.

Nurəddin bir söz deməyib, əlindəki ağacla tez ilanın başından vurub öldürdü.

- İndi bax, gör ilandır, ya koramaldır.

Bu halda yol gedən iki adam buna baxıb dedi:

- Əlbəttə, ilandır, özü də gürzədir.

Adamlar gedəndən sonra Əmiraslan ilanın o yan-bu yanına baxıb dedi:

- Düzdür, mən səhv edirəm, bu koramal deyil. İlan koramala çox oxşayır, ona görə səhv etmək olar.

Nurəddin ona cavab verməyib, ancaq fikrindən bunu keçirdi:

- Sənə qulaq assaydım indi meyidim bu yol üstündə qalmışdı.

Bu ittifaqdan sonra Nurəddin Əmiraslandan şəklənib, sərvaxt dolanmağa başladı.

Bir dəfə Nurəddin sərçəsini götürüb bağçada oynamaq bəhanəsi ilə qaçıb İmamverdi babanı yoxlamağa getdi. İmamverdi baba döşəkdə yatırdı, azardan çox zəif düşmüsdü. Yazıq kişi Nurəddini qucaqlayıb, sevindiyindən ağladı. Nurəddin də başına gələn hadisələri nağıl etdikdə, İmamverdi babanın üzündə təşviş artırdı. Nurəddin axırıncı ilan



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

fəqərəsini[1] nağıl etdikdə, İmamverdi baba daha səbir edə bilməyib, zəif səsi ilə belə qışqırdı:

- Yox, daha səni orada qoymaq olmaz. Mən azarlıyam, durmağa taqətim yoxdur, səni o iki şeytanın şerindən mühafizə erməyi bacarmıram. Oğlum, gərək tezliklə şəhərə Baharın yanına qayıdasan. Yoxsa tələf olarsan. İndi get, mən də görüm nə çarə tapıram. Ancaq sərvaxt ol, Əmiraslanın sözünə əsla inanma.

İmamverdi baba Nurəddini qucaqlayıb öpdü. Zavallı kişinin gözlərindən yaş dolu kimi yağıb, üzünü, ağ saqqalını islatdı.

Murəddin çox qəmgin evə qayıdırdı. Yol uzunu başına gələn qəza-qədərdən fikir edirdi:

- İndi anlayıram ki, Əmiraslan nə məqsəd ilə məni gah uca nazik budağa çıxardırmış, gah dərin suya salınırmış və gah da ilanı koramal adına əlimlə tutdururmuş. Bəli, mənim ölməyimi istəyirmiş. Ancaq burasını anlamıram ki, mən ona nə etmişəm ki, mənim ölümümü istəsin və bundan ona nə mənfəət ola bilər. - Bu barədə fikirdə ikən birdən Baharın bu sözü yadına düşdü: "Qorxma, ağam, nə qədər sən sağsan, Gülpəri sənin bir qəpiyinə də əl vura bilməz", - Demək ki, mən ölsəm malım Gülpəriyə düşəsidir. Əlbəttə, belədir, bu sadə fikri mən indiyə kimi niyə anlamamışam?!

Nurəddin evə qayıdanda, həyətdə Əmiraslana rast gəldi.

- Haradan gəlirsən?

- Bağçadan gəlirəm, - deyə Nurəddin cavab verdi və qızarıb başını aşağı saldı, çünki Nurəddin ömründo əvvəlinci dəfə idi ki, yalan deyirdi. Bunun halətindən yalan deməyini duyub Əmiraslan acıqlı yenə soruşdu:

- Düzünü de görüm, harada idin?

- İmamverdi babanı yoxlamağa getmişdim.

- Sən nə cürət edib mənim əmrimdən çıxırsan? - Əmiraslan bunu deyib qışqırdı və Nurəddini çomaq ilə döyüb, anbara saldı və ağzını kilidləyib getdi.

Bu İttifaqdan iki gün sonra İmamverdi babanın iflic azarından dili tutulmaq xəbəri gəldi. Gülpəri və Əmiraslan cəld geyinib getdilər, amma Nurəddini aparmadılar. İlan fəqərəsindən bəri Əmiraslan Nurəddinlə

---

[1] Əhvalatını



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mehriban dolanmağı bilmərrə buraxıb, hər bir cüzi şeyi bəhanə edərək, onu tez-tez döyüb anbarda dustaq edirdi.

Gecə Əmiraslan ilə Gülpərinin söhbətindən Nurəddin anladı ki, İmamverdi babanın dili tutulubsa da hələ ölüm haləti yoxdur. Bu xəbərdən Nurəddin şad olub öz-özünə dedi:

- Yox, Əmiraslan məni öldürsə de səhər sübhdən qaçıb babamı yoxlamağa gedəcəyəm.

Bu fikir ilə Nurəddin yatdı. Nurəddin Püstə nənə ilə bir otaqda yatırdı. Səhər gözlərini açanda gördü ki, Püstə nənə otaqda yoxdur. Bundan şad olub cəld geyinməyə başladı. Sonra sərçəsini görürüb bağçaya girdi ki, gizlincə bağ arası İmamverdi babagilə getsin. Nurəddin nar koluna çatdıqda, qəflətən onun dalından Əmiraslan ilə Gülpərinin səsini eşitdi. Cəld və üsulluca kolun içinə girib gizləndi. Əmiraslan Gülpəriyə deyirdi:

- Sənə yenə deyirəm ki, zəhər verməkdən başqa çarə yoxdur.

- Yazıq baba, bu zalmılar sənə zəhər vermək istəyirlər. Yox, qoymaram, nə yaxşı oldu ki, bunların fikrini bildim.

Nurəddin bu fikirdə ikən Əmiraslan başladı:

- İndi yaxşı fürsətdir. Əminün dili tutulub, xəstəlikdə yatır, Bahar da ki, uzaqdadır. Kimə nə gərəkdir ki, Nurəddin nə azardan öldü.

Bu sözləri eşidəndə Nurəddinin rəngi qaçıb tükləri biz-biz durdu. Yazıq uşaq qorxusundan nəfəsini içinə elə çəkmişdi ki, deyəsən biruh idi.

Gülpəri dedi:

- Yox, Əmiraslan, bunu bacarmayacağam. Mən deyirəm ki, bu isdə öldürmək olmasın.

- Elə isə heç çarəsi yoxdur. Nə şəriət ilə, nə zakon ilə Nurəddin sağ ikən onun malını sənə vermək olmaz. İndi ki, sən bacarmırsan, mən bacararam. Qulaq as, gör bu fikir necədir?

- Nurəddini göndərəcəyəm ki, həyətdə quyudan su çəksin. Özün də bilirsən ki, quyunun dərinliyi qırx arşından artıqdır. Nurəddin su çəkdiyi halda daldan itələyib quyuya salacağam. Hamıya deyərik ki, quyudan su çəkdiyi yerdə özü düşüb boğulmuşdur. Hərgah razısansa de, bu axşam əmələ gətirim.

Gülpəri bir dəqiqəyə kimi dayanıb cavab vermədi. Bu bir dəqiqə Nurəddinə bir il göründü və ürəyindən keçirtdi ki, hərgah Gülpəri bu



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

əmrə razı olmasa, bütün mənə etdiyi zülmü yaddan çıxarıb ömrümün axırına kimi onu öz anam kimi sevməyə söz verirəm...

- Razıyam, - deyə Gülpəri cavab verdi.

Əmiraslan dedi:

- Onda gedək. Mən səni əmimin yanında qoyub axşam evə qayıdaram. Sən də gecə orada qalarsan. Daha heç kəsin sənə gümanı gəlməz.

Əmiraslan və Gülpəri getdilər. Bir azdan sonra Nurəddin koldan çıxdı. O yan-bu yana baxıb qorxa-qorxa yola düşdü.

- İndi daha mən İmamverdi babanın yanına niyə gedim. O özü ölüm halında ikən məni bu zalımların əlindən necə xilas edə bilər? Yox, yox, qaçıb özümü Bahara çatdırmaqdan başqa bir çarə yoxdur. Bunu deyib Nurəddin sürətlə meşəyə tərəf üz qoydu. Ancaq meşəyə girib gözdən itəndə bir az ürəyi sakit oldu.

- Hərgah yolu azmasam, axşama kimi gedib şəhərə çataram.

Nurəddin meşə ilə iki saata qədər gedəndən sonra bir çaya rast gəldi. Gecə güclü yağış yağdığına görə çayda su çox idi. Nurəddin dayaz yer axtarırkən gəlib bir yerə çatdı ki, orada bir uzun ağac sınıb körpü kimi çayın üstünə düşmüşdü. Nurəddin bu ağacın üstü ilə keçdiyi zaman ayağı sürüşüb çaya düşdü. Bu yerdə çay xeyli dərin və kənarları da hündür idi. Nurəddin qol atdı ki, üzsün. Gördü ki, paltarlı üzmək çox çətindir. Bir neçə dəfə batıb çıxandan sonra bir sallanmış şax əlinə keçdi. Bu şaxdan tutub, bulanlıq su ilə islanmış halda, papağını itirmiş kənara çıxdı və bihuş bir halda xeyli uzanıb qaldı. Bir az rahat olandan sonra Nurəddin paltarını çıxarıb suyunu sıxdı və günün qabağında sərdi ki, qurusun. Paltarı quruyandan sonra geyinib çayaşağı xeyli getdi ki, bəlkə papağını tapsın, lakin nə ondan, nə də sərçəsindən ki, suya düşəndə çiynində oturmuşdu, bir əsər tapmadı. Bunlardan əl çəkib yenə şəhərə getməyə başladı. Ancaq bu səfər yolu azıb meşədən çıxa bilmədi. İki saat, üç saat dolanıb yenə həmin yerə çıxırdı. Bununla belə cürətli uşaq, yolu tapıb meşədən çıxmaqdan ümidini kəsmirdi. Axırda gün batan zaman, Nurəddin yolu tapdı və bir qədər gedəndən sonra yoldan bir az kənar bir şaxlı-budaqlı ağac tapıb üstünə çıxdı ki, orada gecə yatsın. Yaxın budaqları əyib yarpaqların arasında Nurəddin özünə yer qayırdı və çox yorğun olduğuna görə ac və susuzluğa baxmayıb, tez yuxuya getdi. Gecənin bir vaxtı heybətli bir səsdən Nurəd-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

din diksinib qalxdı və az qaldı ki, ağacdan yıxılsın. Zavallı uşağın ürəyi elə atlanırdı kt, deyəsən bu saat partlayıb çıxacaqdır. Bir azdan sonra yenə səs təkrar oldu. Ancaq bu səfər Nurəddin qorxmayıb dedi:

- Bayquşdur, ulayir. O vaxt kəndə gedəndə də bizi qorxutdu.

Bu ittifaqdan sonra daha Nurəddin yata bilmədi. Bütün bədəni ağrıyırdı. Gecenin qaranlığı, meşənin vahiməsi yalnız uşağa deyil, hətta böyük adama da qorxu hissi gətirirdi. Amma Nurəddin bu halətə şükür edirdi:

- Hərgah Əmiraslan ilə Gülpərinin danışığını eşitməsəydi, indi meyidim qırx arşın quyunun dibində idi. Ah, bircə özümü Bahara çatdırsaydım, ürəyim sakit olardı.

Nurəddin fikrə getdi. Bütün keçmişi gözünün qabağından bir-bir gəlib keçdi. Budur, balaca uşaqdır. Ata və anası ona hər gün bir şey bağışlayırlar ki, onu şad etsinlər. Budur, əvvəlinci dəfə məktəb formasını geyib məktəbə gedir, anası onu qucaqlayıb şirin-şirin öpür və sevindiyindən ağlayır... Ah, o gözel günlər nə tez keçdi... Qara günlər başlandı. Anası öldü, Gülpəri gəldi. Atası öldü, İmamverdi gəldi. Sonra Bahar... Köç... Əmiraslan... Yenə İmamverdi... Yenə Əmiraslan... Gülpəri... Püstə qarı. Qəm və qüssə, zavallı yetimin ürəyini elə aldı ki, daha səbir eləməyib hönkürtü ilə ağlamağa başladı. Bu ağlamaq Nurəddinin ürəyini boşaldıb sakit etdi. Bir azdan sonra Nurəddin yenə yuxuya getdi. İkinci dəfə Nurəddini qarğalar yuxudan oyatdı.

Demə Nurəddin yatan ağacın başında bir qarğa yuvası varmış. Sübh vaxtı ana qarğa balaları üçün yem dalınca uçanda qəflətən ağacda bir qaraltı gördü. Qarğa əvvəl səssiz, budaq-budaq atılıb diqqət yetirdi ki, görsün bu qaraltı nədir. Elə ki, düşməni olan insan olduğunu yəqin etdi, bir elə qarıltı saidı ki, bir-iki dəqiqənin ərzində meşənin qarğalarını yuvasının başına cəm etdi. Köməyə gələn qarğalar bunun səsinə səs verib elə qarıltı saldılar ki, deyəsən bu saat meşəni dağıdacaqlar.

Nurəddin əvvəl gözlərini açanda harada olduğunu bilmədi. Sonra huşu özünə gəlib ağacda yatdığı yadına düşdü. Nurəddinin tərpənməsi qarğaların qarıltısını artırdı. Əlalxüsus ata və ana qarğa Nurəddinin başı üstünü alıb elə həşir saldılar ki, deyəsən bu saat onu dimdikləyib yerə salacaqdılar. Nurəddin işi belə görəndə ağacdan enməyə başladı. Qarğaların səsinə yol ilə gedən bir qoca dilənçi oraya gəldi. Nurəddin bunu gorüb, ağacdan düşmək istəmədi. Yolçu dedi:

- Oğlum, quşun yuvasını dağıtmaq günahdır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Mən yuva dağıtmıram əmi, - deyə Nurəddin cavab verdi.
- Bəs bu səhər ertəsi orada nə qayırırsan?
- Mən bu gecə burada yatmışdım.
- Nə üçün ağacda yatmışdın, oğlum?
- Gündüz yolu azıb meşədə qaldım, onun üçün burada yatmışdım.
- Ağacdan düş, oğlum, mən səni evinizə apararam. Nurəddin bu təklifdən qorxub titrəyə-titrəyə belə cavab verdi:
- Mənim evim yoxdur, əmi. Mən atasız-anasız bir yetiməm. Dilənçi Nurəddinin titrəməsini görüb dedi:
- Məndən qorxma, oğlum, mən də elsiz-obasız bir qoca yolçuyam.

Kəndlərdə dilənirəm. İndi şəhərə gedirəm.

Dilənçinin açıq üzündən və mehriban danışığından Nurəddin ürəklənib düşdü.

- İndi söylə gorüm, oğlum, sən kimsən və haraya gedirsən?
- Əmi, acından ölürəm, qabaqca bir şeyin varsa ver yeyim, sonra əhvalatımı sənə nağıl edərəm.

Dilənçi dağarcığından bir qədər quru çörək və soğan çıxarıb Nurəddinə verdi. Nurəddin alıb şirin-şirin yeməyə başladı. Nurəddinə ömründə heç bir xörək belə ləzzət verməmişdi.

Aclığını bir qədər dəf edəndən sonra Nurəddin bəlalı başına gələn hadisələri tamamilə dilənçiyə nağıl etdi.

- Əmi, məni evimizə çatdırsan, Bahar sənə hər nə istəsən verər, - dəyə Nurəddin dilənçiyə yalvardı.
- Qorxma, oğlum, səni aparıb evinizə verərəm. Ancaq gərək səbir edəsən. Sizin şəhər buradan xeyli uzaqdır, pul da yoxdur ki, vaqon ilə gedək. Buranın iki yüz verstliyində bir böyük şəhər var. Orada mənim bir qohumum var. Onun yanına gedərik, bəlkə ondan pul tapdıq. İndi gedək.

Bu halda dilənçinin nəzəri Nurəddinin paltarına düşdü:

- Yox, belə yaramaz gərək üstünü dilənçi üstünə oxşadaq, - bunu deyən yolçu, qoltuğundakı köhnə paltarı ki, ona allah payı vermişdilər, Nurəddinə geyindirdi və bir cındır yaylıq ilə başını örtdü.
- Hə, indi hazırsan, gedək.

Hər ikisi yola düşdü. Dilənçi paltarı Nurəddini elə dəyişdirmişdi ki, onu tanımaq mümkün deyildi. Yol ilə bir saata qədər getmişdilər ki, daldan bir çaparaq atlı göründü. Nurəddin dönüb baxanda canına titrəmə düşdü.

- Əmi, bu gələn Əmiraslandır. Məni axtarır, Durma qaçaq.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Nurəddin qaçmaq istədikdə, dilənçi onun əlindən tutub qoymadı.

- Ağılsız, nə etmək istəyirsən? Elə yaramaz. Qorxma, o səni bu paltarda tanıya bilməz.

Əmiraslan bunlara çatıb qocadan soruşdu:

- Kişi, bir on yaşında, o yanındakı boyda; başında nişanlı papaq, əynində boz mahuddan paltar, boynu yaşıl məxmər paltolu uşaq gördünmü?

- Yox, ağa, görmədim. Budur nəvəm ilə səhər ertədən bu yol ilə gedirik, amma elə uşağa rast gəlməmişik.

Əmiraslan bir az fikirli dayanıb atın başını geri döndərdi və qamçılayıb gözdən itdi. Nurəddinin ancaq indi ürəyi sakit oldu.

- Əmi, nə yaxşı ki, paltarımı dəyişdin, yoxsa Əmiraslan məni öldürüb, bu meşəyə atacaqdı.

Dilənçi dedi:

- Oğlum, indi gərək adını da dəyişdirəsən, çünki Əmiraslan sənin itməyini yəqin divana məlum edəcəkdir. Hərgah səndən sual etsələr ki, kimsən, adın nədir, de ki, Əlaəddindir və özüm də dilənçiyəm, anladınmı?

- Bəli, baba, anladım, - deyə Nurəddin cavab verdi.

Günortaya bir saat qalmış, meşənin qurtaracağında, Cənnətəli ilə Nurəddin ocaq qalayıb, meşədən yığdıqları göbələyi bişirib, dadlı moruq ilə yeməyə başladılar. Nahardan sonra uzanıb bir qədər rahat oldular. Axşama bir saat qalmış yolçular gəlib şəhərə çıxdılar və gecə orada qalıb, səhır yola rəvan oldular. Kəndbəkənd dilənə-dilənə, on iki gündən sonra yolçular gəlib Cənnətəli deyən böyük şəhərə çatdılar.

Bədəninin və üst başının çirkindən və pasından, indi o gözəl və zərif Nurəddini tanımaq olmazdı. Zavallı uşaq, qızdırma azarından yeni qalxmış adam kimi ayaq üstündə dayana bilmirdi.

Cənnətəli Nurəddin ilə bərabər beş gün qohumunu axtardı amma gördüm deyən olmadı. Axırda bir adam, iki ay bundan əqdəm öldüyünü və heç bir şeyi olmadığına görə camaat pulu ilə basdırıldığını onlara xəbər verdi. Bundan ümidləri kəsildi.

Bir dəfə Cənnətəli xəstə olduğuna gorə küçənin bir tinində oturub, Nurəddini dilənməyə göndərdi. Nurəddin indiyə kimi hec vaxt əl açıb dilənməmişdi, çünki qoca həmişə özü dilənib yığardı. Bir-iki küçə dolandısa da Nurəddin həya edib bir kəsə əl uzada bilmədi. Bu tərəfdən də əliboş qayıtmağa qocadan xəcalət çəkirdi. Axırda Nurəddin bir



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

geniş küçəni keçərkən, ayağı büdrəyib yıxıldı. Bu halda daldan fayton içində bir adam iti gəlirdi. Faytonçu atları saxlaya bilməyib Nurəddini basdırdı. Bunu görcək adamlar qışqırıb yüyürüşdülər. Nurəddini hərəkətsiz və qan içində gördükdə birisi dedi:

- Yazıq dilənçi öldü.

O birisi dedi:

- Hərgah zəfərli yerindən basılmayıbsa heç zad olmaz. Bu halda adamlar geri çəkilib Rəhimə təzim etdilər.

- Boş-boş danışmaqdansa, bu yazıq uşağa kömək vermək yaxşı deyilmi, cəld götürüb bunu faytona qoyun.

Bir neçə adam Nurəddini götürdülər və Rəhimin faytonuna qoydular. O da minib dedi:

- Tez sür evə!

Evə çatan kimi Rəhim şəhərin məşhur cərrahını çağırtdı. Həkim Nurəddini soyundurub hər yerinə baxdı. Sonra yaralanan yerlərini yuyub sarıdı və dedi:

- Qorxulu yarası yoxdur. Beş-on günə kimi sağalıb durar. Ancaq uşağın özü çox zəif və bədəni də çox çirklidir. Bunlara əlac etməlidir.

Hələliyə nə hamama göndərmək və nə də vannaya salmaq olmaz.

Ancaq yerinin içində bulud[1] və sabun ilə bədənini təmizləmək lazımdır.

Həkim gedəndən sonra Rəhim, arvadı Rəhiməni çağırıb dedi:

- Arvad, evə qayıdarkən bu uşağı basdırıb ölüm halına salmışam.

Bu halda Nurəddin gözlərini açıb təəccüb ilə ətrafına baxırdı və harada olduğunu anlamırdı. Rəhimə onun başını sığallayıb, dedi:

- Oğlum, adın nədir?

Rəhim dedi:

- Arvad, hələ o lazım deyil, uşaq çox zəifdir, danışdırma. Tez ol isti su, sabun və bulud hazır et. Uşağın bədənini yumaq lazımdır. Həkim belə əmr edibdir.

Qulluqçu bunları hazır etdi. Uşağı soyundurub yumağa məşğul oldular. Rəhimə Nurəddinin boynundan parçaya tikilmiş bir dua çıxartdı. Bu duanın parçası həm çirkli və həm də köhnə olduğundan bunu təzə parçaya tikmək məqsədilə cırdı. İçindən bir balaca kitab çıxdı.

---

[1] Yuyunmaq üçün düzəlmiş lif.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Kişi, gör bu nədir, - deyə Rəhimə kitabı Rəhimə uzatdı. Rəhim ona baxıb dedi:
- Şükür olsun, axırda tapdım. - Sonra üzünü uşağa tərəf tutub dedi:
- Sənin adın Nurəddindirmi, oğlum?
- Bəli, - deyə Nurəddin zəif səslə cavab verdi. Bunu eşidən Rəhimə soruşdu:
- Kişi, sən bunun adını haradan bildin?
- Rəhimə, bu uşaq axtardığımız, Hacı Nəsirin oğlu Nurəddindir. Bu əlimdəki də sənə nağıl etdiyim "Gülüstandır".
- Bunu allah bizə övlad göndərmişdir.
- Afərin Rəhimə, yaxşı anlamısan, - deyə Rəhim Rəhimənin sözünü təsdiq etdi. Rəhim və Rəhimə Nurəddini yuyub, qurtardılar. Nurəddin rahat olub yuxuya getdi.

* * *

Rəhim, Nurəddinin atası mərhum Hacı Nəsirdən aldığı puldan maya tutub ildən-ilə alış-verişinin dairəsini artırmışdı. Sonralar dəri alış-verişinə girişmişdi. İşinin xatiri üçün Buxaraya köçmüşdü. Orada da dəri alış-verişindən əlavə ipək işinə də girişmişdi. Üç-dörd ilin ərzində Rəhimin işi tutub yaxşı qazanmışdı, ancaq övladları qırılıb vərəsəsiz qalmağına görə özünü xoşbəxt hesab etmirdi. Axırda arvadının təkidi və təklifinə görə, altı ay idi ki, almalısını alıb, satmalısını satmışdı; Rəhimənin vətəni olan bu şəhərə köçmüşdü. Burada işi rast gətirib, tərəqqiyə başlamışdı.

Həkim təyin etdiyi vaxtdan da irəli. Nurəddin sağalıb ayağa durdu. Rəhim və Rəhimə Nurəddindən bu dilənçilik halına düşməyinin səbəbini ancaq indi soruşdular. Nurəddin başına gələni tamamilə nağıl etməyə başladı. O, nağıl etdikcə rəhimdil qocalar ah çəkirdilər. Nurəddin nağılını tamam edib Rəhimdən təvəqqe elədi ki, onu evlərinə, Baharın yanına göndərsin. Rəhimə Nurəddini öpüb dedi:

- Oğlum, Nurəddin, budur bir həftədir sən bizdəsən, mən o qədər şadam ki, özümü göydə hiss edirəm. Oğlum, hər nə istəyirsən verək, ancaq bizi atıb getmə. Kim bilir, yenə başına nə gələcəkdir.

Rəhimə sözünü qurtarmamışdı ki, Rəhim Nurəddinin kitabını əlinə götürüb dedi:

- Oğlum, bu kitabın əhvalatını bilirsənmi?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Bəli, atam söyləyibdir, - deyə Nurəddin cavab verdi.

- İndi al, onun cildində yazılan yazını oxu. Nurəddin alıb oxudu.

"Yaxşılıq elə balığı at dəryaya balıq bilməsə xalıq bilər". İmza: Rəhim".

- Oğlum, o Rəhim mənəm. O zaman üç yüz manat itirib körpünün üstündə ağlayan Rəhiməm. Sənin atan Hacı Nəsir mənə bir yaxşılıq etmişdi, indi onun borcunu qaytarıb sən oğluna verirəm, - dedi. -

Bizim övladımız yoxdur. Hərgah səni indi evinizə göndərsəm. Gülpəri qəyyum olduğuna görə səni yenə yanına aparacaqdır. Bahar səni mühafizə edə bilməz; çünki o bir qulluqçu adamdır. İndi sən razı olsan Bahara da yazaram gələr.

Nurəddin çox şadlıq ilə bu təklifi qəbul etdi. Bu gündən Nurəddin üçün yeni bir məişət başlandı. Rəhim Nurəddini edadi məktəbinə qoydu. Nurəddin bu gündən atasının sağlığında olduğu kimi, hər gün dərsə getməyə başladı. Bir dəfə dərsdən qayıdarkən Nurəddin küçədə Cənnətəlini gordü. Çox sevindi, onunla görüşdü. Ondan ayrılandan sonra başına gələni yol uzunu nağıl etdi.

- Baba, sən mənə yaxşılıq etdin, indi də mən sənə yaxşılıq edəcəyəm.

Rəhim Nurəddinin bu hərəkətindən şad olub dedi:

- Həmişə belə et, oğlum. Fəqir-füqaranı yaddan çıxartma.

Cənnətəliyə təzə libas geyindirib bağçaya bağban etdilər.

Rəhim Nurəddinə verdiyi sözə əməl edib, Baharın dalınca adam göndərmişdi. Bir axşam Nurəddin, Rəhim və Rəhimə ilə çay içdiyi zaman, Bahar qapıdan içəri girdi və Nurəddinə təəccüblə və çaşmış bir halda baxıb dayandı. Nurəddin cəld qalxıb dedi:

- Bahar, məni tanımırsanmı? - Bu sözü deyib özünü onun üstünə atdı. Bahar ancaq indi ayılıb dedi:

- Vay, Nurəddin sağ imiş. - Bunu deyib Nurəddini bərk qucaqladı. Bunları bu qayda ilə görüşmələri iki qocanın gözlərini yaşartdı. Bahar bir az rahat olandan sonra dedi:

- Nurəddin, bilirsənmi ki, səni hamı, hətta divan da ölmüş bilir. Sən itəndən üç gün sonra kəndçilər papağını çaydan tapıb Əmiraslana vermişlər. O da divana məlum edib, sənin ölməyini təsdiq etdirmişdir. Bir azdan sonra bir də gördüm ki, Əmiraslanla Gülpəri budur gəldilər, evin yerdə qalan şeylərini yığışdırıb kəndə göndərdilər və mənə də dedilər:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Bahar, indi sən bizə lazım deyilsən. Haraya istəyirsən gedə bilərsən. Bu vaxt mən bir ilin ərzində ürəyimə yığılanın hamısını ağlaya-ağlaya və qışqıra-qışqıra boşaltdım. Qonşular səsimə cəm olmuşdular.

- Camaat, Nurəddinin ölümünə bais bu iki şəxsdir! - deyə qışqırdım. Axırda Əmiraslan qaradavoy çağırıb məni qovdurdu. İndi gərək sağ olmağını divana məlum edib, onlardan hesab alasan.

- Yox, Bahar, hələ bunlar lazım deyildir. Öz vaxtında bunlar olacaqdır. İndi mənim var-yoxum Nurəddinindir. Onun pula, dövlətə ehtiyacı yoxdur.

Çaydan sonra ər və arvad Bahar ilə Nurəddini söhbət edən qoyub o biri otağa keçdilər. Nurəddindən cəmi əhvalatı biləndən sonra Gülpəri ilə Əmiraslandan intiqam almaq qəsdi Baharın ürəyində daha da möhkəmləndi. Baharın xasiyyətini, ləyaqətini və evdarlığını Rəhimə bəyənib evin cəmi ixtiyarını ona verdi.

* * *

Bu nağıl etdiyimiz zamandan on il keçdi. Baharın axın idi. Rəhimin evində səhər tezdən böyük qonaqlıq tədarükü görülürdü. Bu qonaqlıq, Nurəddinin edadi məktəbini birinci dərəcədə təhsil edib qurtarması münasibətilə yoldaşlarına verdiyi ziyafət idi. Bahar, Rəhimə və Rəhim süfrənin zinnətinə məşğul idilər. Hətta Cənnətəli də bağçadan öz əlinin zəhməti ilə bitirdiyi güllərdən dərib süfrəni bəzəməkdə onlara kömək edirdi. Bu qonaqlığın baisi olan Nurəddin isə o biri otaqda təzə tələbə libasını geyib güzgünün qabağında özünə ziynət verirdi. Bir azdan sonra Nurəddin təzə paltarını göstərmək qəsdilə yemək otağına girdi. Rəhim, Rəhimə, Bahar hər üçü heyrətə gəlib Nurəddinin gözəlliyinə valeh və heyran qalmışdılar.

- Allah səni bədnəzərdən saxlasın, oğlum, - deyə Rəhimə Nurəddinin boynunu qucaqladı. O da, onu əllərinə götürüb körpə uşaq kimi gəzdirdi.

Saat iki tamamda, otaq gonc qonaqlar ilə dolmuşdu. Bir azdan sonra Nurəddin qonaqlarını yemək otağına təklif etdi.

İndiyə kimi Rəhimin evi belə şad deyib-danışmaq, oxuyub-gülmək, cavan səsləri eşitməmişdi. Səsdən, gülməkdən nahar vaxtı çalınan tanrı səsi eşidilmirdi. Axşama iki saat qalmış, qonaqlar dağılmağa baş-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ladılar. Nurəddin də özünü bir qədər havaya vermək üçün şahər bağına gəzməyə getdi. Axşam vaxtı, külfət hamısı çay süfrəsində hazır olan vaxt Nurəddin içəri girib dedi:

- Ata, sizə bir qonaq gətirmişəm, təvəqqe edirəm qəbul edəsiniz.
- Sənin qonağın bizə həmişə əzizdir, oğlum, - deyə Rəhim cavab verdi.
- Bilirəm, ata, ancaq qonaq elə şəxsdir ki, qorxuram qəbul etməyəsiniz.
- Edərəm, oğlum, de içəri gəlsin. - Nurəddin çıxıb bir dilənçi arvadın əlindən tutub içəriyə saldı. Dedi:
- Ana, bilirsənmi bu dilənci arvad kimdir?
- Gülpəridir, - deyə Bahar qışqırdı və gözlərində intiqam odu parladı.
- Bəli, Bahar, Gülpəridir, ancaq tamaşa et gör ondan intiqamımı necə alıram. - Bu sözü deyib, Nurəddin Gülpəriyə tərəf döndü və dedi:
- Gülpəri, indiyə kimi mənə etdiyin zülm və cəfanın əvəzində mən sənin bütün təqsirindən keçib bağışlayıram. Mənim ürəyimdə indi sən bədbəxtə rəhmdən başqa qeyri şey yoxdur.

Bunu eşitcək Gülpəri ağlaya-ağlaya Nurəddinin ayağına yıxıldı və dedi:

- Nurəddin, rəhmli cavan, allah-təala sənə etdiyim zülmün əvəzində məni bir elə bəlaya düçar etdi ki, yeməyə çörək tapmayıb küçələrə düşdüm.

Nurəddin Gülpərini qaldırıb oturtdu. Gülpəri başladı:

- Doğrudur, sənin dövlətinə malik olmaq istəyirdim, ancaq ölümünü istəmirdim. Məni yoldan çıxardan o şeytan Əmiraslan oldu.

Axırda Əmiraslan sözü bu yerdə qoydu ki, səni quyuya salıb öldürsün.

Bahar bunu eşidib dedi:

- Onun üçünmü məni min bəhanə ilə şəhərdə qoydun, ay zalım?

Nurəddin dedi;

- Bahar, sakit ol, qoy nağıl etsin.

Gülpəri dedi:

- Papağın sudan çıxandan sonra yəqin etdik ki, çayda boğulub ölmüşsən, yazıq atam bu xəbəri eşidən kimi vəfat etdi.

Nurəddin bunu eşidib ah çəkdi. Gülpəri dedi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Sonra sənin malına sahib olduq...
- Amma yeyə bildinmi? - deyə Bahar sordu.
- Yox, bir-iki ilin ərzirtdə Əmiraslan qumara uduzub qurtardı. Sonra əvvəl şəhərdəki və ondan sonra kənddəki evləri satıb tələf etdi. Her şey əldən çıxandan sonra Əmiraslan məni qovub özü də qaçaq dəstəsinə qoşuldu. Bir neçə müddət quldurluq edəndən sonra divan tərəfindən tutulub asıldı.

Bahar dedi:

- Məşhur məsələdir deyərlər: "Su çanağı suda çatlar".

Gülpəri:

- Məni de bir kişi alıb bu şəhərə gətirdi və bir azdan sonra məni atıb yox oldu. İndi o gündən küçələrə düşüb dilənçilik edirəm. Bu yolda nələr çəkdiyimi bir allah bilir...

Gülpəri başını aşağı salıb yenə ağlamağa başladı. Rəhim dedi:

- Gülpəri, ağlama, sən Hacı Nəsirin arvadı və Nurəddinin analığı olmuşsan. Bunların xatiri üçün və Nurəddinin özü sənin günahından keçdiyi üçün burada qalıb rahat olacaqsan. - Sonra üzünü Nurəddinə tərəf tutub dedi:
- Oğlum, indi rahat ola bilərəm, çünki sənə verdiyim tərbiyənin meyvəsini bu gün gördüm. Mən səni oğulluğa götürməklə böyük bir hünər etmədim, çünki mən ancaq yaxşılığa yaxşılıq etdim. Bu isə hər kişinin işidir. Amma sən yamanlığa yaxşılıq etdin. Bu isə ancaq sənin kimi ər kişinin işidır. - Bunu deyən Rəhim Nurəddini qucaqlayıb öpdü.

Hacı Səməd nağılını tamam edib soruşdu:

- İndi deyin görüm, övladlarım, kimin nağılı yaxşıdır?
- Əlbəttə, səninki, səninki yaxşıdır, - deyə Məmməd və Fatma cavab verdilər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## QARACA QIZ

Qafqaz şəhərlərinin birində Usta Zeynal adlı bir sərrac öz arvadı Şərəfnisa ilə yaşayırdı. Bunlar İran əhli idilər, öz vilayətlərində məişətləri məşəqqət ilə keçdiyinə görə vətənlərini buraxıb buraya gəlmişdilər. Usta Zeynal sərraclıq etməklə külfətini bir tövr dolandırırdı, Usta Zeynalın övladdan yalnız altı yaşında Tutu adlı bircə qızı vardı. Tutu çox qara və çirkin idi. Anası ona körpo vaxtından "Qaraca qız" deyib əzizlədiyinə görə əsil adı unudulub, hər kəs onu bu adla çağırırdı. Qaraca qız çox nadinc idi və özü qız uşağı ikən qızlarla oynamağı sevməzdi; həmişə oğlan uşaqları ilə oynayardı. Uşaqlar Qaraca qızdan qorxardılar, çunki o çox cürətli idi və yumruğunun da qabağında heç kəs dura bilməzdi. Qaraca qız həmişə zəifin tərəfini tutardı. Hər zaman anası onun nadincliyindən qonşulara şikayət edib deyərdi:

- Qaraca qızı su batırmaz, od yandırmaz,

Bununla belə Qaraca qız çox rəhmdil və səxavətli qız idi. Hər nə əlinə düşsəydi, yoldaşları ilə bölüşərdi.

Usta Zeynal yaşadığı şəhərdə tez-tez zəlzələ olardı. Bir qış həmin şəhərdə böyük zəlzələ olub çox ev uçurtdu. Zəlzələ gecə yarısı, xalq şirin yuxuda ikan ittifaq düşdüyünə görə çox adam çökmüş evlərin altında qalıb tələf oldu. Səhər açıldıqda ətrafdan xalq tökülüb şəhərə köməyə gəldi. Adamlar dəstə-dəstə olub əllərində kürək, bel, külüng uçuqları qazımağa başladılar. Ata oğulu, oğul ananı, qardaş bacını səsləyə-səsləyə daş-torpağı ayırırdılar. Bir dəstə də Usta Zeynalın evini qazıyırdı. Əvvəlcə Şərəfnisanın, bunun dalınca Usta Zeynalın meyidi çıxdı. Bir azda qazıyandan sonra bir deşik açıldı. Buradan çılpaq bir balaca qız çıxdı. Bu qız həmin Qaraca qız idi.

O, ata-anasının meyitlərini görüb ağlamağa başladı. Hər kəs öz qohum-əqrəbasını aramağa məşğul olub, Qaraca qızın qeydinə qalan yox idi.

Zəlzələdən iki gün qabaq, bir dəstə qaraçı bu şəhərin kənarında çadır qurub düşmüşdü. O dəstədən bir qaraçı arvadının Qaraca qıza yazığı gəlib çadırlarına apardı və orada ona yemək və paltar verib,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ocağın qırağında oturtdu. Qaraçılar Qaraca qızın yetim qalmağını və onun heç bir kəsi olmayıb qərib olduğunu bilib, öz yanlarında saxlamağa məcbur qaldılar.

Qaraca qızı qızlığa götürən qaraçı arvadı Yasəmən iyirmi yaşında, gözəl, yumşaq təbiətli, şad ürəkli bir qadın idi. Xasiyyətinin yaxşılığına görə Yasəməni hamı sevərdi; amma onun əri Yusifi heç kes sevməzdi, çnüki o, çox bədxasiyyət, tündməcaz, zalım bir şəxs idi. Yasəmən qaval çalıb oxumaq və oynamaq ilə pul qazanıb dəstəyə çox mənfəət verərdi. Onun əri Yusif də qapı-qapı gəzib ayı oynadardı.

Yasəmən Qaraca qızı çadıra gətirən zaman, Yusif orada yox idi, çünki dəstənin bir hissəsi onunla bərabər səhər tezdən buradan çıxıb yola düşmüşdü. Yerdə qalanı da getməyə yığışırdı. Yasəmən ərindən çox qorxurdu, çünki bilmirdi ki, o, Qaraca qızı qəbul edəcək, ya yox. Bunun üçün Yasəmən iztirabda idi.

Qaraçı dəstəsinin yerdə qalanı da yola düşdü. Yasəmənin iztirabı bihudə deyilmiş, çünki geridə qalmış dəstə gəlib yoldaşlarına çatdıqda Yusif bu işdən xəbər tutub çox acıqlandı və bir kəndə çatan kimi Qaraca qızı orada qoyub gedəcəyini söylədi. Yasəmən ərinə yalvardı ki, belə iş etməsin, lakin Yusif onu dinləmək belə istəmədi... Qaraca qız isə ürəyində bu işə şad idi, o, Yusifdən qorxurdu və qorxmağa da haqlı idi; Yusifin heybətli sifəti, hələ qara və pırtlaq gözləri nəinki uşağı, hətta böyük adamı da qorxuya salırdı. Yasəmən ərinin tamahkarlığını bilirdi, ona görə Qaraca qızın gələcəkdə onlara böyük mənfəət verəcəyini söylədi.

- Yusif, bilirsənmi mən nə fikirdəyəm? Mən Qaraca qıza mahnı oxumaq, özüm kimi oynamaq öyrədəcəyəm və üst-başını bəzəyib kəndlərdə, şəhərlərdə oynadacağam, sənin üçün pul yığacağam.

Bu fikri Yusif bəyənib, Qaraca qızın dəstədə qalmasına razı oldu.

* * *

Qaraçıların məişətini Qaraca qız çox bəyənirdi və bu gün burada, sabah bir təzə yerdə, çay qırağında, meşə kənarında, mənzil edib çadır qurmaq, nağıl söyləmək - bunların hamısı Qaraca qıza çox xoş gəlirdi. Əvvəl vaxtlar Qaraca qız Yusifin ayısından qorxurdu. Amma sonralar öyrəşib onunla çox dost olmuşdu. Ayı da onunla oynamağı sevirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yasəmən Qaraca qızı ərinə söz verdiyi kimi, yaxşı geyindirib oxumaq və oynamaq öyrətmişdi. Tamaşaçılar Qaraca qızın gözel səsinə və oynamasına təəccüb edib heyrətdə qalırdılar. Qaraca qız balaca qavalını açıb tamaşaçılara tərəf tutanda, dərhal onun içi pul ilə dolurdu. Bu isə Yasəməni artıq şad edirdi. Yusif bu barədə arvadından və Qaraca qızdan razı idisə də, yenə xasiyyətinin pisliyindən hər ikisini çox incidərdi.

Qaraca qızın təbiətində inadcıllıq vardı. Bu xasiyyətinə görə Yusifdən nə qədər kötək yeyirdisə də, yenə tərsliyindən əl götürməzdi. Qaraca qız, ancaq Yasəmənin sözündən çıxmazdı, çünki Yasəmən onunla mehriban dolanırdı. Yusif Qaraca qızın tərsliyinə təəccüb edib arvadına deyərdi:

- Bu zorbalıqda ayı mənim qamçımın qorxusundan hər cür oyun çıxarır, amma bu balacalıqda qızın əlində aciz qalmışam.

Yasəmən ona belə cavab verərdi:

- Bunun səbəbi odur ki, ayı heyvandır, bu isə insandır. Heyvanla edilən rəftar insanla edilməz. Heyvana yoğun çubuq lazımsa, insana mehriban rəftar, mülayim söz lazımdır.

Yusif arvadının bu dogru sözünə inanmayıb deyərdı:

- Yox, bu səbəb deyildir, sən olmasan, mən onu iki günün ərzində mum kimi edərəm.

Ərlə arvadın arasında olan belə söhbətin nəticəsi o olardı ki, Yusif Qaraca qızı daha da artıq kötəklərdi. Qaraca qız bu zülmdən xilas olmaq üçün neçə dəfə qaçmaq fikrinə düşmüşsə də, lakin qaçmağa heç vəhclə imkan tapa bilməmişdi.

* * *

İki ildən artıq idi ki, Qaraca qız qaraçı dəstəsində yaşayıb, mahnı oxumağı və oynamağı ilə ətrafda məşhur olmuşdu. Yusif Qaraca qızı çox incidəndə Yasəmən onu qorxudub deyərdi:

- Bu zavallı qıza nə çox əziyyət verirsən. Axır təngə gəlib qaçar və sənin də əlin belə böyük mənfəətdən çıxar.

Bu sözlər həmişə Yusifə təsir edib, Qaraca qızı döyməkdən bir müddət çəkinərdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

* * *

Yayın orta ayı idi. Gütüün istisindən insanlar, heyvanlar və quşlar kölgə yer və sərin su arayırdı. Qaraçı dəstəsi bir dağ üzərindən axan çayın kənarında çadırlarını qurub mənzil etmişdi.

Günorta vaxtı idi. Qaraçılar hərəsi bir işə məşğul idi. Yusif ayısını götürüb yaxın kəndə getmişdi. Yasəmən çayın qırağında su qızrıdıb paltar yuyurdu. Qaraca qız da çayda çimirdi. Çay dağ döşündən gəldiyinə görə xeyli iti və xarıldaya-xarıldaya axırdı; amma suyu az olduğundan Qaraca qız üçün qorxusu yox idi.

Yasəmən paltarı yuyub kollarm üstünə qurmaq üçün sərmişdi. Özü də başını yumaq fikri ilə qara, uzun saçlarını hörükdən açıb döşünə tökdü. Yasəmən Qaraca qızı səslədi ki, gəlib onun başına su töksün. Qaraca qız iki arşın ucalıqdan tökülən şəlalənin altında durub çimdiyinə görə Yasəmənin səsini eşitmədi. Bir azdan sonra Yasəmən yenə Qaraca qızı çağırdı. Bu dəfə də cavab almadı. Yasəmən saçlarını döşündən yığıb belinə atdı. Bu halda qulağına çay tərəfindən sel gurultusu gəldi. Bunu eşitcək Yasəmən dik atılıb çaya tərəf yüyürdü. O vaxt Qaraca qız şəlalənin altında idi. Yasəmən çayın yuxarısından daşları və kolları yumalaya-yumalaya, gurultu və nərilti ilə gələn seli görüb var gücü ilə qışqırdı: - Qızım, tez ol qaç, sel gəlir.

Qaraca qız Yasəmənin səsini eşidib, şaləlңnin altından çıxdı, ancaq bir neçə addım atmamışdı ki, sel onun üstünü cəllad kimi aldı. Yasəmən işi belə gördükdə alıcı quş kimi özünü çaya atdı. Yasəmən özünü Qaraca qıza yetirincə sel qızı götürdü və bir neçə saniyə suda itirdi. Bir azdan sonra qızın başı göründü. Yasəmən özü də bir neçə dəfə suya batıb çıxandan sonra, üzüb Qaraca qıza çatdı və saçlarından tutub çiyninə atdı. Hərçəndi Yasəmən çox üzücü idi. Amma bu iti axan, daşları və boyük kolları yumalayan seldə üzmək mümkün deyildi. Qaraçılar Yasəmənin qışqırığını eşidib köməyə töküldülər. Sel getdikcə artırdı. Axırda sel bunları bir böyük daşa çırpdı. Qaraca qız Yasəmənin əlindən çıxıb daşın üstündə qaldı. Amma Yasəməni sel götürüb üzüaşağı axıtdı. Qaraçılar çaya tökülüb hər ikisini sudan çıxartdılar. Onların ikisi də bihuş qalıb yerə sərilmişdi, üzlərinin rəngi ölü rəngi kimi idi. Qaraçılar xeyli çalışdıqdan sonra hər ikisini huşa gətirdilər. Qaraca qızın bədəni daşlara dəyib bir neçə yerdən qaral-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mışdı, amma qorxusu yox idi. Zavallı Yasəmənə gəldikdə başı bir neçə yerdən yaralanmışdı. Lakin rəhmdil arvad özünə gələn kimi yaralarını unudub, tez zəif səslə Qaraca qızı soruşdu. Qaraçılardan biri Qaraca qızı qucağına götürüb Yasəmənə göstərdi.

- Bax, Yasəmən, budur, Qaraca qız sağdır. Arxayın ol.

Yasəmən bir qədər ona baxdı, sonra yenə bihuş olub gözləri yumuldu. Qaraçılar Yasəmənin yaralarını bağlayıb, Qaraca qız ilə bir yerdə çadırlarına apardılar və hər ikisinə yer salıb rahat etdilər.

Axşam çağı Yusif gəlib evə çıxdı və yoldaşlarından bu xəbəri eşidib çox qəzəbləndi və dedi:

- Mən bilirdim ki, bu uçuqdan çıxmış qız axırda bizim başımıza bir bəla gətirəcəkdir.

Qaraçılar Yusifi sakit edib dedilər:

- Qorxma, heç bir şey olmaz. İndi onlara rahatlıq lazımdır, durum bayıra çıxaq, səs-küy olmasın. Burada yalnız Yasəmənin dostu Hüsniyyə qalar, ona qulluq edər.

Qaraçıların hamısı Yusif ilə bərabər bayıra çıxdılar. Çadırda ancaq Hüsniyyə qaldı.

Qaraca qız tamam gecəni ufultu və zarıltı ilə keçirib sübhə yaxın yuxuya getdi. Amma Yasəmən qızdırma içində bir dəqiqə rahat olmadı. Vəfalı Hüsniyyə rəfiqəsinin yanını kəsdirib sübhə qədər gözlərini yummadı. Yasəmənin qızdırması getdikcə artırdı. Səhər açıldıqda hərarəti 40 dərəcəyə çatdı.

Yazıq Yasəmən qızdırmanın təsirindən tora düşmüş quş kimi yerində çapalayırdı. Onun gozləri həmişə yumulu idi.

Gecə yağış yağdığına görə səhərin havası çox saf və təmiz idi. Dünənki bəlanı törədən çaylağın suyu indi enib əvvəlki həddinə düşmüşdü. Onun həzin şırıltısı, quşların cəh-cəh və nəğməsinə qarışmışdı. Qaraca qızın sevgili şəlaləsi günəşin qırmızı şöləsindən parlayırdı. Axırda Yasəmən gözlərini açdı. Biçarənin lalə kimi yanaqları solub zanbağ rənginə dönmüşdü. Yasəmən Hüsniyyəni tanıdı. Zəif səslə ona dedi:

- Hüsniyyə, Yusif haradadır?
- Bayırdadır, bacım, çağırımmı?
- Çağır, hamını çağır... ölürəm...
- Qorxma, bacım, ölməzsən. Bu gün haradan olmuş olsa, sənin üçün həkim tapıb gətirəcəyəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bunu deyib Hüsniyyə bayıra çıxdı və bir azdan sonra Yusif başqa qaraçılarla bərabər içəri girdi. Qaraçılar Yasəmənə ürək verirdilər. Yasəmən dedi:

- Yox, əzizlərim, mən ölürəm... Yusif, əlini mənə ver... Vəsiyyətimə qulaq as... Əmələ gətirməyə söz ver...

Bir az dayanıb yenə təzədən başladı:

- Yusif, budur dörd ildir ki, sənə arvadam. Bu vaxta kimi səndən döyüşdən, söyüşdən başqa bir şey görmədim. Cavan ömrümü çürütdün... Mənə min cür zülm və cəfa etdin, bunların hamısını bağışlayıram. Ancaq son mənə söz ver ki, bundan sonra Qaraca qızla mehriban rəftar edib onu incitməyəcəksən...

Yasəmən səsini kəsdi, çadırda bir müddət sakitlik oldu. Sonra Yusif dedi:

- Yoldaşlarımın qarşısında vəsiyyətini əmələ getirməyə söz verirəm.

Yasəmənin üzündə şadlıq zühur etdi və Hüsniyyəyə dedi:

- Bacım, Qaraca qızı sənə tapşırıram. Ondan muğayat ol. Ah, gözlərimə qaranlıq çökür... Məni boğurlar... Yusif... Hüsniyyə... Qaraca qız... – deyə Yasəmən sayıqlaya-sayıqlaya vəfat etdi.

* * *

Yasəmənin vəfatından sonra Yusif bir müddət verdiyi əhdə vəfa etdi; lakin sonralar təbiətində olan pis sifətləri yenə aşkar olmağa başlandı. Hüsniyyə bacardığı qədər Qaraca qızı Yusifin zülmündən mühafizə edirdi. Ancaq iş orasında idi ki, Yusif Yasəmənin vəfatından sonra Qaraca qızla pul qazanmaq üçün hər gün səhər mənzildən çıxıb bır də axşam qayıdırdı. Hüsniyyə zavallı yetimin üzünə baxdıqda sualsız da anlayırdı ki, o biçarə, Yusifdən nə qədər zülm və əziyyətlər çəkir.

Axır vaxtlar Yusif bir pis əmələ də mürtəkib olmuşdur: belə ki, əlinə düşən pulu içkiyə verib tez-tez məst oturdu.

Yusifin belə vaxtlarında Qaraca qızın günü daha da qara olurdu.

Bir dəfə Yusif və Qaraca qız yol ilə gedirdilər. Bunlar bir dəstə atlı cavan oğlanlara rast gəldilər. Bu cavanlar şəhərə toya gedirdilər. Onlar Yusifgilə təklif etdilər ki, bir az çalıb oxusunlar. Yusif razı oldu. Qaraca qızın oxuyub oynamağı cavanlara xoş gəldi. Onlar bir-birinin bəhsinə Qaraca qızın qavalını ağ və qara pul ilə doldurdular.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Sağ ol, çox yaşa, Qaraca qız, - deyə cavanlar atlarını sürdülər.

Yusif sevincək Qaraca qızdan pulları alıb cibinə tökdü və dedi:

- Gəl, qızım, sən ayı ilə o kolluqda otur, dincini al, mən də gedim o görünən kənddən çörək və sənin üçün də fındıq, kişmiş alım.

Bu sözdən Qaraca qız əsla şad olmadı, çünki bilirdi ki, oraya içməyə gedir. Amma bununla belə bir söz demədi.

Onlar yoldan kənara çıxıb kolluğa tərəf üz qoydular. Yusif bir böyük kol seçib ayını oraya bağladı və Qaraca qıza dedi:

- Ağıllı qızım, burada otur, bu saat gələcəyəm.

Yusif getdi. Qaraca qız da kölgədə uzandı və bir azdan sonra şirin yuxuya getdi. Ayı bir müddət sakit uzandı. Sonra durub zəncirini dartmağa başladı. Kolun budağı ayının gücünə davam etməyib qopdu. Ayı özünü asudə görüb bir müddət kolluqda gəzdi, sonra üzünü meşəyə tərəf tutub getdi.

Yusif iki saatdan çox idi ki, kəndə getmişdi. Qaraca qız yuxudan hələ oyanmamışdı. Axırda Yusif sərxoş halda, o tərəf-bu tərəfə yırğalana-yırğalana gəlib çıxdı. Qaraca qızı yatmış görüb və ayını bağladığı yerdə tapmayıb, ayağı ilə qızı elə bərk vurdu ki, biçarə dik atıldı.

- De görüm, ayı hanı? Mürtəd qızı mürtəd.

Qaraca qızın qorxudan dili tutulub cavab verə bilmədi.

- Hələ dayan, qoy ayını tapım, sənin payını sonra verəcəyəm.

Yusif kola diqqətlə baxıb gördü ki, ayını bağladığı budaq qopub və özü də yoxdur. Bundan anladı ki, ayını oğurlamamışlar, özü kolu qoparıb meşəyə qaçmışdır.

- Düş qabağıma, ayı meşəyə qaçmışdır, gedək tapaq.

Qaraca qız titrəyə-titrəyə yola düşdü. Yusif yol uzunu gah Qaraca qızı söyüb qorxudurdu, gah da öz-özünə danışırdı. Onlar meşəni xeyli dolandılar, amma ayıdan bir əsər görmədilər. Birdən Qaraca qızın qulağına ayının bağırtısı geldi.

- Eşidirsənmi, əmi, bu tərəfdən ayının bağırtısı gəlir.
- Heç zad eşitmirəm, yalan deyirsən.
- Bax, bax, yenə bağırır.

Bu dəfə Yusifin özü də eşitdi:

- Doğru deyirsən, bağıran ayıdır.

Hər ikisi səs gələn tərəfə üz qoydular. Ancaq səs meşəyə düşdüyünə görə ayının yeri yaxın görünürdü, amma həqiqətdə xeyli uzaq idi. Axırda gəlib ayını tapdılar. Ayı zənciriylə ağaca dolaşıb dartınır və



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bağırırdı. Yusif ona çatan kimi hirsindən və acığından ayını azad etmədən əvvəl, əlindəki ağac ilə onu döyməyə başladı. Ayının bağırtısı meşəni başına götürmüşdü. Axırda ayı dartınıb xaltanı başından çıxartdı və ildırım kimi özünü Yusifın üstünə atdı. Bir dəqiqə keçmədi ki, qızmış ayı sahibini parçaladı. Qaraca qız bunu gördükdə dəhşətli bir hal ilə qaçmağa başladı. Ancaq qorxudan özünü itirib, yol əvəzinə meşənin ortasına tərəf qaçdı. Bir azdan sonra ayı Yusifin meyidini buraxıb Qaraca qızın dalınca düşdü. Bunu gördükdə zavallı qızın bədəninə titrəmə düşdü və var gücü ilə qaçmağa başladı. (Getdikcə ayı Qaraca qıza yaxınlaşırdı. Bu halda Qaraca qızın qabağına bir uçurum dərə çıxdı. Qaraca qız dərədən endikdə ayı özünü ona çatdırdı. Ancaq ayı enişi aşağı qaça bilmədiyindən dərənin içinə yumbalandı. Qaraca qız fürsət tapıb özünü dərənin döşündəki mağaraya saldı. Bu mağaranın ağzı enli idi, amma içəri getdikcə daralırdı. Ayı dərənin dibinə kimi yumbalandı. Sonra ayağa qalxıb, üzüyuxarı dırmaşmağa başladı. Bəllidir ki, ayının dal ayaqları qısa olduğu üçün enişi pis enir, yoxuşu isə asan dırmaşa bilir. Ayı axtarıb mağaranı taparaq içəriyə soxuldu. Qaraca qız sürünə-sürünə özünü mağaranın dar yerinə yetirdi. Ayı isə dar yerə soxula bilmədi. Bir az donquldanıb mağaranın ağzında yatdı. Qaraca qız tərpənməyə də qorxurdu. Ancaq onun qorxusu nahaq idi, çünki indi ayının hirsi yatmışdı, ona dəyməzdi və bəlkə də, onun orada olmasına şad olardı.

İki saatdan artıq idi ki, Qaraca qız mağaranın içində uzanıb qalmışdı. Biçarə qız ayının qorxusundan özünü mağaranın deşiyinə elə pərçim etmişdi ki, tərpənməyə də imkanı yox idi. Bir tərəfdən mağaranın içindəki havanın azlığı, digər tərəfdən də ayının vahiməsi yazıq qızı bihuşluq halına salmışdı. Ayı isə fısıldaya-fısıldaya yatmışdı. Birdən ayı oyanıb donquldanmağa başladı. Bu halda Qaraca qızın qulağına çoxlu it səsi gəldi. Ayının da donqultusu artdı. Çox çəkmədi ki, itlər hürə-hürə mağaranm ağzını aldılar, ancaq cürət edib içəri girə bilmədilər. Bir azdan sonra at üstündə ovçular qışqıra-qışqıra gəlib çıxdılar. Bunlar mağaranın içindən ayının nəriltisini eşidib, tüfənglərini hazırladılar və itləri içəri qısqırtdılar. İtlərin bir neçəsi cürətlənib mağaranın içərisinə soxuldu. Ancaq



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

çox çəkmədi ki, yenə zingildəyə-zingildəyə geri qayıtdılar. Onlardan bir-ikisi yaralanmışdı. Bu halda ovçular bayırdan:

- Axtar bas, Xalı bas, Gümüş bas, - deyə qısqırtdılar. İtlər cürətlənib yenə özlərini içəri soxdular və ayı ilə tutaşdılar. Ayı bir müddət onlar ilə boğuşandan sonra mağaradan sıçrayıb çıxdı. Bu halda üç güllə birdən onun üzərinə açıldı. Bunların zərbindən biçarə ayı boğanaqdan yıxılan ağac kimi, yerə sərildi. Ovçuların biri:

- Afərin, mənim gülləm.
- Xeyr, Hüseynqulu ağa, səhv edirsən, ayını öldürən mənim gülləmdir.
- Bağışla, Səlim bəy, mən ayını başından atmışam, yəqin ki, onu yıxan mənim gülləmdir.
- Səbir edin, əzizlərim. Bu saat məlum olar, - bunu deyib, əvvəlki adam atdan düşdü və nökərlərin köməyilə ayının cəmdəyini o yan-bu yana çevirib diqqətlə baxmağa başladı:
- Əzizlərim, heç bəhs etməyin, üçümüzün də gülləsi ayıya dəymişdir. Sonra üzünü nokərlərinə tərəf tutub dedi:
- Cəld ayının dərisini soyun, Rəhim bəy, sənə demədimmi ki, ayısız bu ovdan qayıtmayacağam. Elə öz meşəni tərif edib məni məsxərə edirdin ki, sizin meşənizdə dovşan da tapılmaz. Bəs bu nədir?

Bu halda Rəhim bəy ayıya diqqət ilə baxıb dedi:

- Yenə də, Hüseynqulu ağa, öz fikrimdə möhkəm durmuşam. Bu ayı meşə ayısı deyil. Əldə bəslənmiş ayıdır.
- Elə iş ola bilməz. Onu haradan bildin?
- Budur, bax, ayının boyun tüklərini zəncir aparmışdır. Səlim bəy, doğrumu deyirəm?

Səlim bəy baxıb Rəhim bəyin sözünü təsdiq etdi. Bundan sonra bəylər qaqqıltı ilə gülməyə başladılar. Hüsenqulu ağa əvvəl dostlarından sözünü zarafat hesab etdi, amma sonra özü də diqqət ilə baxdıqda şəkkə düşdü. Bu halda ov tulalarına qoşulmuş Qara köpək mağaraya girdi, bunun dalınca başqa itlər də getdilər və yenə içəridə hürüşmə başlandı. Bunu gördükdə Hüseynqulu ağa dedi:

- Deyəsən, mağarada yenə ayı var.

Bəylər tüfənglərini hazırlayıb mağaranın ağzını kəsdilər. Bu zaman qara köpək Qaraca qızın ayağından tutub itlərin arasından sürüyə-sürüyə mağaradan bayıra çıxartdı. Bəylər bunu gördükdə təəccüb edib heyrətdə qaldılar. Qara köpək Qaraca qızı buraxdı, amma o, hərəkətsiz



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qalıb ayağa qalxmadı. Bəylər Qaraca qızın üstünü aldılar. O, zəif bir hal ilə gözlərini açdı; lakin harada olduğunu anlamadı. Hüsenqulu ağa ondan soruşdu:

- Qız, sən kimsən? Bu mağarada nə qayırırdın?

Qaraca qız cavab vermədi. Rəhim bəy dedi:

- Hüsenqulu ağa, gormürsənmi ki, qız hələ lazımınca özünə gəlməmişdir. Nə sual edirsən. Mən əhvalatı onsuz da anlayıram. Qızın sifətindən və libasından qaraçı qızı olduğunu duymursanmı? Bu ov etdiyimiz ayı da əldə bəslənmiş qaraçı ayısıdır. Ancaq sahibi harada qalmış, burası mənim üçün aşkar deyildir.

Səlim bəy qıza diqqətlə baxıb dedi:

- Hə, bu qızı mən görmüşəm. Məşhur oxuyan və oynayan Qaraca qızdır, sahibi də qaraçı Yusifdir. Üç ay bundan qabaq ona nə qədər pul və xələt vəd etdimsə də, bu qızı mənə satmadı, indi yaxşı əlimə düşübdür. Siz öləsiniz gündə qonaqlıq edib sizə böyük kef verəcəyəm.

Hüseynqulu ağa bunu eşitdikdə dedi:

- Demək, o kefi mən verə bilmərəm? Əslinə baxsan, qız mənə çatar, çünki mənim köpəyim tapmışdır.

Bəylərin arasında bəhs düşdü. Səlim bəy dedi:

- Hüseynqulu ağa, özün yaxşıca bilirsən ki, arvadın Pəricahan xanım qaraçı qızını evinə qoymaz, nə üçün bəhs edirsən?

- Nə üçün qoymur? Ev sahibi odur, yoxsa mən? Bundan əlavə qızı Piri kişiyə verəcəyəm ki, o saxlasin.

Bəylər buna razı oldular. Hüseynqulu ağa qızı nökərlərinə tapşırdı. Bəylər yenə ov etməyə başladılar, lakin dörd saata qədər meşəni dolanıb bir tülkü və üç dovşandan başqa əllərinə bir ov keçirə bilmədilər. Ona görə ovu tərk edib yola düşdülər.

Qaraca qız özünə gəlib yol uzunu başıa gələn əhvalatı alayarımçıq nağıl etdi. Hüseynqulu ağa onun atasız yetim olduğunu eşidib dedi:

- Çox gözəl oldu, indü heç kəs qızı məndən ala bilməz.

* * *

Axşam vaxtı Hüseynqulu ağa öz dostları Rəhim bəy və Səlim bəy ilə bərabər evlərinə gəldilər. İtlərin hürməyi, ovçuların səsləri, nökər və mehtərlərin qışqırığı bir-birinə qarışmışdı. Ağca xanım bu səs-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

küyə mürəbbiyəsindən izinsiz bayıra çıxdı. Kənarda durmuş Qaraca qızı görüb ona yaxınlaşdı. Qaraca qız və Ağca xanım nəzərlərini bir-birinə salıb bir müddət diqqətlə baxışdılar. Bu iki uşağın arasında böyük fərq vardı: Birinin ata-anası bəyzadə, o birisininki isə yoxsul idi. Biri zəif, zərif, hər bir işdə özgəyə möhtac olduğu halda, o biri polad kimi sağlam bədənli, az yaşında çox görümş, öz zəhmətilə məişət edən bir uşaq idi. Birinin baxışı sanki özgələri köməyə, o birinin nəzəri isə hamını qovğaya çağırırdı.

Ağca xanım zərif əlini Qaraca qıza uzatdı, o da kobud barmaqları ilə onun əlini sıxdı. Ağca xanım bu sıxmağa davam etməyib qışqırdı, sonra güldü.

Bir az çəkmədi ki, şirin söhbətə başladılar. Bu vaxt Hüseynqulu ağa Qaraca qızı unudub otaqda bəylər ilə ov bəhsinə girişmişdi. Ağca xanım ilə Qaraca qızın söhbəti çox çəkmədi. Pəricahan xanım otağından həyətə endi və qızını Qaraca qız ilə söhbət edən görüb çox bərk acıqlandı və mürəbbiyəsini çağırıb dedi:

- Nə üçün öz vəzifənizi unudursunuz, xanım? Baxın, tərbiyə verdiyiniz qız kiminlə dostluq etmişdir. Otağına aparın. Bu gecə şamsız qalacaqdır.

Mürəbbiyə, gözü yaşlı Ağca xanımın əlindən tutub otağına apardı. Qaraca qıza da Pəricahan xanım - dalımca gəl, qaraçı qızı, - deyib Hüseynqulu ağanın otağına apardı və rişxənd ilə dedi:

- Bu şahzadə qızım haradan tapıb gətirmisən. Qızın ilə tanış olub çox şirin söhbət edirdilər.

Hüseynqulu ağa əhvalatı ona nağıl edib dedi:

- Pəricahan, qızına yazığın gəlsin, gör yoldaşsızlıq, onu nə hala salmışdır. Qoy bu qız ilə oynasın, atlansın, qol-qanadı açılsın, bədəni bərkisin, kefi açılsın. Bu qız qaraçı qızı deyildir və olsa da nə eybi vardır.

Xanımın yanında qaravaşı olmazmı?! Mürəbbiyəsi yanında olacaqdır.

Bir pis iş edərlərsə, tərbiyə edib qoymaz.

Bu sözlər Pəricahan xanıma əsla təsir etmədi:

- Sən mənə söz vermişdin ki, tərbiyə məsələsinə qarışmayacaqsan. İndi nə üçün sözündə davam etmirsən? Bu qız buradan gedəsidir, artıq söz lazım deyil.

- Xeyr, bu qız burada qalasıdır, - deyə Hüseynqulu səsini ucaltdı.

- Sənə deyirəm, bu qız bu saat buradan gedəsidir. Yoxsa, mən burada qalmaram, - deyə Pəricahan xanım qəzəbləndi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Səlim bəy fursəti fövtə verməyib dedi:

- Onda verin mən aparım.

Hüseynqulu ağa dedi:

- Səlim bəy, heç vaxt ona razı olmaram. Necə ki, sizə dəmişəm, elə də edəcəyəm. Qaraca qız bağbanın Piri babanın yanında olacaqdır.

Pəricahan xanım dedi:

- Bu şərtə mən də razryam. Ancaq Ağca xanımla bilmərrə əlaqəsi olmayacaqdır, çünki ondan pis xasiyyət götürər.

Bu şərtlə aparıb Qaraca qızı Piri kişiyə tapşırdılar. Piri kişinin daxması ağalığın böyük meyvə bağının içində idi. Piri kişi yetmiş yaşında, yumşaq təbiətli bir qoca idi. Heç bir kəsi yox idi, özü də Hüseynqulu ağanın rəiyyəti olub onun atası zamanından bu bağa bağbanlıq edirdi. Piri kişi həmişə bağda ömür sürüb, işi düşməsə ağalıq qapısına gəlməzdi.

Xidmətçilər Hüsejnqulu ağadan qorxub hüzurunda titrəyirdilər. Lakin Piri kişi kimsədən qorxmazdı və bacardığı qədər qulluqçuları ağaların zülmündən mühafizə edərdi. Ona görə onu başqa nökərlər sevərdi. Qaraca qızın saxlanmaq üçün Piri kişiyə verilməsi onu çox şad etdi. Öz komasında Qaraca qız üçün yer hazırladı; onu yedirib rahat etdi. Qaraca qız yatağına girib bir müddət yata bilmədi. Sonra Piri kişidən soruşdu:

- Baba, o xanım, qızını nə üçün mənimlə oynamağa və söhbət etməyə qoymur?

- Qızım, onlar bəydirlər, biz rəiyyət, onlar ağadırlar, biz nökər. Bizimlə onların nə yoldaşlığı. Qızım, sən Ağca xanımı yaddan çıxar. O sənə yoldaş deyildir.

Qaraca qız bu sozlərlə sakıt olmayıb duşunurdu:

- Mən Ağca xanıma nə etdim ki, anasının mənə acığı tutdu. Bu gecə ona yemək verməyəcəklər. Yazıq ac qalacaqdır. Anam sağ olanda məni də naharsız qoyardı, ancaq mən nadinclik edərdim. Bu heç-zad etməmişdı.

Qaraca qız fikrini bir yerə çıxarmamış yuxuya getdi. O gecəni həmin fikirlər Ağca xanımı da sakit etmirdi. Nə anasının, nə mürəbbiyəsinin nəsihətini anlamırdı.

- Nə səbəbə mən o qızla oynayıb danışa bilmərəm. Mən bəy qızı olanda nə olar. Məni nə üçün şamsız qoydular. Qaraca qız çox təəc-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

cüblü şeyler danışırdl. O deyirdi ki, sənə qaval çalmaq, oynamaq öyrədəcəyəm. Ah, nə üçün anam məni qoymadı ki, onunla çoxluca danışam.

Ağca xanım yorğanı başına çəkib gizlincə ağlamağa başladı və bir azdan sonra yuxuya getdi.

* * *

Piri kişi hələ uşaqlıqdan gün çıxmamış yuxudan durmağı adət etmişdi. İndi də tezdən qalxıb ocağı qaladı, özü kimi ömrü keçmiş, hisdən qaralmış çaydanı su ilə doldurub ocağa qoydu və daxmadan çıxdı ki, bağı dolansın.

Piri kişi bu bəslədiyi bağı çox sevirdi. Buradakı ağacların çoxunu özü öz əli ilə əkib-becərmişdi. O ətrafda bitən bir meyvə ağacı yox idi ki, bağda olmasın. Hüseynqulu ağanın bu bağı mülkədarlar arasında xeyli şöhrət qazanmışdı. Hüseynqulu ağaya qonaq gələndə, o öz qonaqlarını bağına tamaşa etməyə aparardı.

Bağı oğrudan qorumağa Piri kişinin bircə köməkçisi vardı. O da Qaraca qızı mağaradan çıxaran Qara köpək idi. Qara köpək çox heybətli və hünərli bir it idi. Onun qorxusundan heç kəs bağa dolana bilməzdi. Bu köpəkdə bir qəribə hal vardı. Hər kəs ki, Piri kişiyə düşmən idi, köpək onu sevməyib, yaxına qoymazdı. Piri kişi bir yeni şəxs ilə tanış olanda, Qara köpək o adama quyruq bulayıb yaxınlaşsaydı, Piri kişi onu özünə dost hesab edərdi. Əksinə, o adama dişlərini ağardıb mırıldasaydı, onu özünə düşmən bilərdi. Qara köpəyin bu hissini Piri kişi dəfələrlə imtahan etdiyi üçün belə deyərdi:

- Dost-düşmənimi Qara köpəklə tanıyıram.

Piri kişi Qara köpəyi heç vaxt zəncirləmirdi. Gecə və gündüz Qara köpək asudə idi. Bununla belə Qara köpək bağdan kənara çıxmazdı. Ancaq bəzi vaxt Hüseynqulu ağa ova getdikdə o da həvəslənib ov tulalarına qoşulardı; bu vaxt onu geri qaytarmaq üçün gərək Piri kişi özü gələydi, yoxsa kimsəyə qulaq asmazdı.

Piri kişi komadan çıxdıqda qapını açıq qoymuşdu. Bu halda Qara köpək içəri girib evdə bir adamı yatmış gördü. Qulaqlarını şəkləyib heybətli bir halət ilə ona tərəf yönəldi. Sonra Qaraca qızı tanıyıb quyruğunu buladı və irəli gəlib yanında uzandı. Əlini yalamağa başladı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu vaxt Qaraca qız gözlərini açdı və hələ yuxulu olduğu üçün Qara kopəyi tanımayıb qışqırdı. Bunun səsinə Piri kişi cəld içəri girib dedi:

- Qızım, nə üçün qışqırdın? Kimdən qorxdun?
- Baba, burada ayı var.
- Yox, qızım, Qara köpəkdir, qorxma, burada ayının nə işi var? - Sonra Qara köpəyə: - Çəkil, - deyib onu bayıra qovladı.
- Yat, qızım, hələ tezdir.
- Yox, baba, daha yuxum gəlmir, mən həmişə tez dururam.
- Çox yaxşı edirsən, qızım, adam gərək səhər tezdən dura ki, bədəni sağlam ola.

Qaraca qız paltarını geyib dedi:

- Baba, əl-üzümü harada yuyum?
- Budur, daxmamızın yanından su axır, get orada yu.

Qaraca qız üzünü yumağa getdi. Piri kişi də süfrəni salıb pendir, çörək və yağ qoydu, sonra çaydandan iki fincan çay töküb süfrəyə qoydu. Bu vaxt Qaraca qız üzünü yuyub içəri girdi.

- Al, qızım, üzünü sil, otur çay içək.

Piri kişi Qaraca qıza dəsmal verdi. Qaraca qız da əl-üzünü qurudub süfrəyə oturdu, hər ikisi yeyib-içməyə məşğul oldular. Çaydan sonra Piri kişi Qaraca qıza dedi:

- Dur, qızım, gün qızmamış həm bağımızı gəzək, həm də ağalar üçün meyvə dərək.

Piri kişi özü bir səbət götürdü və Qaraca qıza da bir ceverən verdi. Evdən bayıra çıxdıqda Qara köpək də onlara qarışdı. O, quyruğunu bulaya-bulaya Qaraca qıza yanaşdı. Qaraca qız onun başını sığallayıb cəvərəni onun boynundan asdı. Qara köpək başını bulayıb cəvərəni yerə saldı. Qaraca qız götürüb yenə boynuna keçirdi. Qara köpək bu dəfə də başını əyib cəvərəni yerə saldı. Piri kişi dedi:

- Qızım, zəhmət çəkmə, Qara köpək azadəliyə öyrənmişdir, o, təlimə yatmaz.
- Yox, baba, yatar, bir gör onu necə öyrədəcəyəm.

Bunu deyib Qaraca qız Qara köpəyin qabağına çöməldi və onun gözlərinə baxarkən dedi:

- Qaraca köpəyim, ağıllı köpəyim, cəvərəni götür.

Qaraca qız cəvərəni yenə onun boynuna saldı. Bu dərə Qara köpək cəvərəni yerə salmayıb Qaraca qızın üzünə baxa-baxa yanınca getdi. O da sevincək dedi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Afərin, Qaraca köpəyim! Baba, gördünmü?
- Görürəm, qızım, və çox da təəccüb edirəm. Qara köpək indiyə qədər məndən başqasının əmrinə tabe olmamışdı. İndi isə hətta cəvərəni də aparır.
- Hələ bu nədir ki, baba, gor ona qədər öyrədəcəyəm. Mən qaraçı dəstəsində olan zaman ayını, meymunu və qeyri heyvanları öyrədəndə görmüşəm, ancaq, baba, heyvanı əzizləyə-əzizləyə öyrətməlidir, yoxsa, döymək ilə bir şey olmaz. Amma qorxutmağın eybi yoxdur.

Bax, Yusif ayını doydü, o da onu parçaladı.

Piri kişi Qaraca qızın əhvalatını balaca eşitmişdi.

İndi isə Qaraca qızın kim olduğunu, bu vaxta qədər necə yaşadığını ona ətraflı nağıl etdirdi. Qaraca qızın ürək yandırıcı faciəsindən rəhmdil Piri kişi xeyli qəmgin oldu və ürəyində bu yetim uşağa məhəbbəti artdı.

Səhərin saf və gözəl havası, kolların və meyvələrin ətri, quşların nəğmələri insana zövq-səfa verirdi. Belə təbiət içində yaşamış Piri kişiyə baxanda adam onun yetmiş yaşında olduğuna inanmırdı.

Onlar gəlib almalığa çatdılar. Qırmızı ətirli almaları gördükdə, Qaraca qızın gözləri parladı.

- Baba, nə gözəl almalardır.
- Qızım, bağımızda hər cür meyvə var, dərib yeməyi qadağan etmirəm, ancaq ac qarına yeməyəsən, yoxsa azarlarsan. İndi sən ağaca çıx, almaları dər, mən də səbətə yığım.

Qaraca qız tez ağaca dırmaşdı, almaları dərib yere tökməyə başladı. Ağzını da bikar qoymurdu. Bir azdan sonra Piri baba dedi:

- Qızım, daha bəsdir, düş gedək bir qədər armud, üzüm və hulu yığaq.

Qaraca qız düşdü. Almalardan cəvərəninə qoyub yenə Qara köpəyin boynuna asdı. Armudluğa gedərkən birdən Qara köpək cəvərəni yerə atıb ildırım kimi götürüldü. Qaraca qız tökülmüş almaları yığarkən baxıb gördü ki, bir balaca pişik qaçır, Qara köpək də istəyir onu tutsun. Bunu görcək Qaraca qız cəld qalxıb yüyürə-yüyürə Qara köpəyi geri çağırdı. Lakin nə qədər qışqırdısa o, pişikdən əl çəkmədi. Piri baba da çağırdı, Qara köpək onun da sözünə qulaq asmadı. Qara köpək az qalmışdı ki, onu tutsun pişik cəld armud ağacına dırmaşıb özünü qızmış köpəkdən xilas edə bildi. Qaraca qız bu işdən xeyli şad olub, əllərini bir-birinə vura-vura qaqqıltı ilə gülməyə başladı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Dızz, Qara köpək, dızz, necəsən, tuta bildinmi, - deyə Qara köpəyə yanıq verdi.

Qara köpək isə işi belə gördükdə ağacın dibində elə həşir etməyə başladı ki, sanki bu saat pişiyi səsi ilə qorxudub yerə salacaqdı. Yızıq pişik hərçəndi hündürdə idi və əl çatan yerdə deyildi, lakin bununla belə titrəyə-titrəyə gözlərini Qara köpəkdən çəkə bilmirdi. Qaraca qız özünü ağaca yetirib dırmaşmağa başladı. Pişik onu görüb oturduğu budaqdan yuxarı çıxmadı. Qaraca qız ona yaxınlaşıb gördü ki, xallıca gözəl bir pişik balasıdır. Piri kişi də Qaraca qızın almalarını cəvərənə doldurub armud ağacının dibinə gəldi. Bu halda Qara köpək bir qədər sakit olmuşdu. Amma yenə də gözləri ağacda idi.

- Baba, bax, nə gözəl pişik baiasıdır, bunu aparıb evimizdə saxlayacayam.
- Çox yaxşı, qızım, apar. İndi o, armudları da dər, sonra düş.

Qaraca qız armudları dərib, pişiyi qucağına alaraq yerə düşdü.

Qara köpək əvvəl bir qədər özünü rahatsız saxladı, sonra Qaraca qızın səyilə bilmərrə sakit oldu və axırda pişiyə də dəyməyib onunla dostluq binasını qoydu. Meyvələr hazır olduqda Piri baba dedi:

- İndi bunları ağalığa aparmaq lazımdır. Qapıya kimi mənə kömək et, sonra mən özüm apararam.
- Baba, məgər mən ağalığa gedə bilmərəm?
- Yox, qızım, getsən Pəricahan xanıma xoş gəlməz, elə bilər ki, onun əmrindən çıxırıq.

Qaraca qız Piri kisini bağın qapısına kimi ötürüb öz xal-xal pişiyini qucağına aldı, bağı gəzməyə başladı. Çəpərin qırağı ilə gedərkən, Qaraca qız gördü ki, Ağca xanım da mürəbbiyəsi ilə skamyanın üstündə oturub kitab oxuyur. Görünürdü ki, Ağca xanım kitabı fikirlə oxumur və oxuduğunu da sevmirdi. Bu halda bir gözəl kəpənək gəlib Ağca xanım oturduğu skamyanın üstünə qondu. Ağca xanım gizlincə kəpənəyi tutmaq istədisə də lakin tuta bilmədi. Bunu mürəbbiyə görüb çox acığı tutdu və hirsli Ağca xanımın əlindən tutub evə apardı.

Qaraca qız bir müddət dayandı ki, görsün Ağca xanım yenə bağçaya çıxacaqmı. Bir azdan sonra mürəbbiyə yalnızca gəlib skamyanın üstündə əyləşdi və kitab oxumağa məşğul oldu. Qaraca qız duydu ki, o, Ağca xanımı evə salıb dustaq etdi. Bu işdən rəhmdil Qaraca qızın nə qədər Ağca xanıma ürəyi yanıb yazığı gəldisə, bir o qədər də mürəbbiyəyə düşmənçiliyi artdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ağalıq evi təzə qayda ilə tikilmiş iki mərtəbə gen-bol bir imarət idi. Bundan başqa evin baş tərəfində üç balaca otaqdan ibarət bir qədim tikili də vardı. Bu, Hüseynqulu ağanın babasından qalma köhnə bir imarət idi. Bu evin pəncərələri xırda və rəngbərəng şüşələrdən ibarət idi. Bu evlərdə heç kəs olmurdu. Həmişə iki otağın ağzı bağlı olardı. Orada Hüseynqulu ağanın babasından qalma əntiq şeyləri saxlanırdı. Ancaq üçüncü otaq qədim yaraqlar və zinətli şeylərlə bəzənib Hüseynqulu ağa üçün açıq saxlanırdı. Burada Hüseynqulu ağa nahardan sonra uzanıb bir az rahatlıq edərdi. Bu otağın bircə dənə pəncərəsi vardı, o da qeyri pəncərələr kimi yana açılmayıb, yuxarı çəkilirdi. Onun xırdaca və rəngbərəng şüşələri içəriyə bir o qədər işın buraxmazdı, ona görə də otağın içi qaranlıq idi. Bu otaq ağalıqda "Baba otağı" adı ilə məhşur idi. Axır vaxtlarda Ağca xanım müqəssir olduqda, onu tənbeh üçün bu otağa salırdılar. Qaraca qız çəpər uzunu gəlib, evin başına çatdıqda gözləri nağıl etdiyimiz Baba otağına sataşdı. Pəncərənin abı, yasıl, qırmızı, Sarı və qeyri rəngli şüşələri Qaraca qızın diqqətini cəlb etdi. Çəpər hündür olduğundan Qaraca qız bu otağı yaxşı görə bilmirdi, ona görə də bir ağaca çıxdı ki, oradan baxsın. Bunu Ağca xanım içəridən görürdü. Barmağı ilə şüşəni döydü ki, özünün orada olduğunu Qaraca qıza bildirsin; birdən şüşə cingilti ilə sınıb yerə töküldü. Bundan hər ikisi qorxuya düşdü. Qaraca qız ağacdan yerə düşmədisə də, yarpaqların qalın yerində özünü gizlətdi. Bir azdan sonra Ağca xanım sınan şüşənin yerindən baxıb yavaşcadan Qaraca qızı çağırdı. O da özünü ona göstərib dedi:

- Ağca xanım, səni orada mürəbbiyənmi dustaq eləmiş?
- Bəli, onu sən haradan bildin?
- Mən bayaq çəpərin arasından güllü bağçaya baxırdım, sən də kitab oxuyurdun. İstəyirdin kəpənəyi tutasan, mürəbbiyənin sənə acığı tutdu, dustaq etdi.
- Doğru deyirsən, anamın və mürəbbiyəm Mariya İvanovanın acığı tutanda, məni buraya salırlar. Ah, sən nə xoşbəxt uşaqsan. Mənim kimi dustaq olmayıb özün üçün bağda azad gəzirsən.
- Sən də həmişə dustaq olmursan ki, qeyri vaxtlarda mənim kimi gəzirsən.
- Yox, məni heç kəs ilə oynamağa qoymurlar, gəzəndə həmişə Mariya İvanovna yanımda olur. Mən onunla gəzməyi sevmirəm.

Qaraca qız dedi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Nə etməli, səni mənimlə oynamağa qoymurlar.
- O qucağındakı nədir, - deyə Ağca xanım soruşdu. Qaraca qız xallı pişiyi ona göstərib dedi:
- Bu pişik balasını bu sabah bağdan tapmışam.
- Ah, nə gözəl pişikdir, - deyə Ağca xanım köksünü ötürdü.
- İstəyirsən, sənə bağışlayım.
- Çox yaxşı, gətir bu deşikdən ver.
- Oraya nə tövr gəlim, qapıdan gəlsəm, məni görərlər və qoymazlar.
- Gör çəpərdən keçə bilərsənmi?
- Yaxşı, görüm keçə bilərəmmi, - deyə Qaraca qız ağacdan düşüb çəpərdən keçməyə yol axtarmağa başladı. Gəzərkən çəpərin altından su arxının yolunu gördü, bu deşikdən Qaraca qız xeyli çətinliklə evin dal həyətinə çrxdı. Sonra gizlincə gəlib pəncərənin qabağına çıxdı. Ağca xanım sevinə-sevinə dedi:
- Haradan keçdin?
- Su arxının deşiyindən. Al, gör nə yaxşı pişikdir.

Ağca xamm pişiyi alıb bağrına basdı. Qaraca qız deşikdən içəri baxıb dedi:

- Nə gözəl otaqdır, nə çox yaraq asılmışdır.

Ağca xanım dedi:

- Mən buranı sevmirəm, özüm də qorxuram. Pəncərəni aça bilsəydim sən də gələrdin, burada söhbət edərdik. Ancaq onu yuxarı qaldırmaq lazımdır. Mənim də gücüm çatmır. Qoy görüm, Mariya İvanovna qapını daldan bağlamış ya yox. Bunu deyib Ağca qapını çəkdi, qapı açıldı.
- Ah nə yaxşı oldu, tez ol gəl.

Qaraca qız ətrafına baxa-baxa cəld içəri girdi. Hər ikisi sevinərək bir-birini qucaqladı. Sonra da şirin söhbət etməyə başladılar.

Bu vaxt Mariya İvanovnanın oxuduğu kitab xeyli maraqlı olduğundan başı qarışıb, Ağca xanımı bir saat əvəzinə iki saat dustaq etdiyindən xəbəri yox idi. Lakin bu unudulmağa Ağca xanım çox şad idi. O, Qaraca qızı vaxtında qaçırmaq üçün tez-tez qapıya çıxıb baxırdı ki, görsün mürəbbiyəsi gəlirmi. Bir dəfə də çıxanda anasını yanında hazır gördü. Bu ittifaqdan Ağca xanımın rəngi qaçıb bədəninə titrətmə düşdü. Özünü elı itirmişdi ki, anasının sualına cavab verə bilmirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Pəricahan xanım Baba otağını açıq görüb fikir etdi ki, Hüseynqulu ağa içəridə olar, bu qəsd ilə oraya girmək istədikdə Ağca xanım lap özünü itirib onun qabağını kəsdi:

- Ana, buraya girmə, girmə, - deyə özü də ağlamağa başladı.

Pəricahan təəccüblü ikən Mariya İvanovna gəlib çıxdı və ondan qızının dustaq olmağını bildi. Pəricahan xanım, mürəbbiyə və onların arxasınca Ağca xanım otağa girdilər. Pəricahan xanım pişiyi görüb soruşdu:

- Bundan ötrümü qorxdun? Nə gözəl pişikdir, bunu saxlamağa sənə izin verirəm.

Ağca xanım Qaraca qızı içəridə görməyib bir qədər ürəkləndi, Qaraca qız isə divanın altına girib gizlənmişdi. Hər üçü otaqdan çıxıb qapını bağladılar və nahar yeməyinə getdilər. Qaraca qız qapısı bağlı evdə qaldı.

Xanımlar gedəndən sonra Qaraca qız cəld divanın altından çıxıb qapıya yüyürdü ki, bir kəs gəlməmiş buradan getsin. Lakin qapını daldan cəftələnmiş görüb məyus qaldı. Sonra pəncərəni çəkmək fikrinə düşdü, amma nə qədər çalışdısa, bir şey bacarmadı, çünki pəncərənin yuxarıdan iki nazik dəmir mil ilə bağlı olduğunu anlamayıb, ancaq var gücü ilə yuxarı qaldırırdı. Xeyli çalışdıqdan sonra Qaraca qız ümidsiz divanın üstündə oturdu. O, xeyli təşvişdə idi, çünki bilirdi ki, bu sirrin üsrü acılsa, Pəricahan xanım onu buradan qovub, qızına da böyük tənbeh edəcəkdir. Bir az oturandan sonra Qaraca qız yenə pəncərəni çəkmək fikrinə düşdü, bu səfər diqqət yetirdikdə, nəzəri dəmir millərə sataşdı, dərhal qalxıb onları çıxartdı və sonra pəncərəni çəkməyə başladı. Pəncərə hərçənd ağır idi, amma Qaraca qız da qüvvətli idi. O, pəncərəni qaldırıb altından cəftə ilə bənd elədi. Sonra pəncərədən çıxıb qapını açdı. Pəncərəni saldı, bayıra çıxıb qapını bağladı, gəldiyi deşikdən bağa girib komalarına getdi.

Bu vaxt Ağca xanım Qaraca qız barəsində artıq dərəcədə iztirabda idi. Boğazından əsla çörək getmirdi, fikri müdam Qaraca qızın yanında idi. Hətta qəsdən şorbanı süfrəyə tökdü ki, bəlkə onu tənbeh edib yenə Baba otağına salarlar, lakin bu hiylə onu muradına çatdırmadı; çünki Pəricahan xanım qızının rəngi qaçdığını görüb təşvişə düşdü:

- Qorxma, qızım, eybi yoxdur, xörəyi süfrəyə qəsdən dağıtmadın ki, özü töküldü. Yoxsa, qızım, azarlısan?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bunu deyib Pəricahan xanım əlini qızının alnına qoydu:

- Doğrudan da qızdırman var. Bir az şorba iç, sonra yatacaqsan.

Daha bu gün heç yerə çıxmayacaqsan.

Bu əhvalatdan Ağca xanım daha da artıq təşvişə düşüb dedi:

- Yox, ana, mən azarlı deyiləm. Məni yatacaq otağına göndərmə. Hüseynqulu ağa üzünü arvadına tərəf tutub dedi:

- İndi sapsağ qızı azarlı edəcəksən.

- Rica edirəm, mənim tərbiyə verməyimə qarışmayasan.

- Nə üçün, mən ata deyiləm?

- Atasan, ancaq nadansan. Nadan atadan qız nə tərbiyə götürə bilər?

Hüseynqulu ağa cəld yerindən qalxıb acıqlı-acıqlı yumruğunu masaya elə bərk vurdu ki, boşqablar bir-birinə dəydi:

- Sus! Tezliklə sənə göstərərəm ki, bu evin sahibi mənəm... - Bunu deyib Hüseynqulu ağa qabağındakı boşqabı götürüb yerə çaxdı və hirsli, yemək otağından çıxdı.

- Get, piyan soldat, - deyə Pəricahan xanım bağırdı.

Bu hadisədən yazıq Ağca xanım titrəyərək göz yaşı tökməyə başladı. Pəricahan xanım mürəbbiyəyə dedi:

- Bu qızı otağına apar, soyundurub rahat et. Sonra geyin, bəzi şeylər almaq üçün şəhərə gedəcəyik.

Dayə Ağca xanımla getdilər. Pəricahan xanım da öz otağına getdi.

Bir azdan sonra Pəricahan xanım mürəbbiyə ilə faytona minib yola düşdü.

Anası gedəndən sonra Ağca xanım bir müddət otaqda qalıb pəncərədən baxdı, oradan dəmiryol stansiyası görünürdü. Vağzal Hüseynqulu ağanın mülkündə tikilmişdi. Hərdənbir Ağca xanım öz mürəbbiyəsi ilə oraya gəzməyə gedərdi.

Birdən vaqon fit verdi.

- Hə, anamgil getdi. Bir də axşam çağı gələcəklər, indi gedim Qaraca qızı dustaqdan xilas edim. - Bunu deyib, Ağca xanım cəld geyindi və çıxıb Baba otağına tərəf getdi. Oraya yetişdikdə gördü ki, otağın qapısı cəftəsizdir. Yavaşca qapını açıb içəri girdi. Gördü ki, atası divanın üstündə uzanıb sığara çəkir və ondan başqa da içəridə kimsə yoxdur. Bu ittifaqə Ağca xanım həm şad oldu və həm də təəccüb etdi. Bu vaxt atası onu gördü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Hə, qızım, dustaqlıqdan qaçmısan. Çox da yaxşı etmisən. O, dəli ananın sözlərinə qulaq asma, gəl bir az ata-bala söhbət edək.

Ağca xanım atasının belə mehriban rəftarından istifadə edərək, onun qucağına atıldı. Sonra başını əyib divanın altına baxdı və Qaraca qızı orada görməyib mat qaldı. Hüseynqulu ağa soruşdu:

- Qızım, nə üçün mat qalmısan? Söhbət elə görək nə var, nə yox. Ağca xanım soruşdu:
- Ata, sən çoxdanmı buradasan?
- Nahardan sonra gəldim, qızım.
- Sən gələndə qapı açıq idimi?
- Yox, mən özüm açdım. - İçəridə kim vardı?
- İçəridə, bax, bu xallı pişik vardı, - bunu deyə-deyə Hüseynqulu ağa dal tərəfində qıvrılıb yatmış pişiyi ona göstərdi. - Qızım, bundan ötrümü soruşdun?

Ağca xanım pişiyi alıb dedi:

- Yox, ata, bundan ötrü soruşmuram.
- Bəs kimdən ötrü soruşursan?

Ağca xanım cavab verməyib fikrə getdi.

- Qızım, nə üçün fikrə getdin? Uşaq atasından söz gizlətməz.

Ağca xanım bilirdi ki, atası arvadının acığına Qaraca qızla oynamağa ona izin verər. Ona görə sirri açmaq istədi. Atasının boynunu qucaqlayıb dedi:

- Ata, anama deməzsən ki, söyləyim.
- Demərəm, qızım, söylə.

Ağca xanım əhvalatı ona söyləyib soruşdu:

- Ata, bes Qaraca qız buradan necə çıxmışdır.
- İndi mənim Piri kişi ilə işim var. Sən də mənimlə gedərsən, orada Qaraca qız ilə oynarsan və həm də onun buradan necə çıxmasını özündən soruşarsan. - Bunu deyən Hüseynqulu ağa divanın üstündən qalxdı. Ağca xanım şadlığından bilmirdi ki, nə etsin.

Hüseynqulu ağa qızı ilə bağı gəzirkən Piri kişinin daxmasına çatdı. O vaxt Piri kişi qapısında oturub səbət hörürdü. Qaraca qız da arxda qabları yuyub, daxmaya girirdi. Qaraca qız Hüseynqulu ağanı görüb qorxuya düşdü. O, içəridən döşək gətirib yaşıl otların üstünə saldı. Hüseynqulu ağa oturdu və üzünü qızlara tutub dedi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Siz də gedin bağda oynayın.

Qaraca qız qavalını götürüb Ağca xanımilə gəzməyə və oynamağa getdilər. Ağca xanım və Qaraca qız əl-ələ verib bağda qaçmağa və oynamağa başladılar. Ağca xanım başına gələni Qaraca qıza nağıl etdi, o da Baba otağından necə çıxdığını ona söylədi. Bunlar öz aralarında söz qoydular ki, mümkün olduqca Baba otağında görüşsünlər. Qaraca qız Ağca xanıma qaval çalıb, mahnı oxumağı və oynamağı öyrədirdi. Axırda hər ikisi göy otun üstündə oturub söhbət etməyə başladılar. Ağca xanım bu halda çox şad idi. Ancaq anasının bir neçə saatdan sonra qayıtması yadına düşdükcə ürəyi sıxılırdı.

Bir azdan sonra Hüseynqulu ağa Piri kişi ilə gəlib qızlar oturduğu yerə çıxdılar. Bunlar qızları götürüb arı pətəklərinin tamaşasına getdilər. Qızlar arıların işləməsinə çox həvəslə baxırdılar. Piri kişi bir pətəyə çatdıqda dedi:

- Bu pətəyin arıları çox vurağandılar, qızlarım, bunlardan özünüzü gözləyin.

Bir başqa pətəyə çatdıqda gördülər ki, buranın arıları pətəyin ağzında qarışqa kimi qaynaşırlar. Bunu gördükdə Piri kişi dedi:

- Yaxşı vaxtda gəlmişik, bu saat buranın arısı beçə verəcəkdir. - Sonra üzünü Qaraca qıza tərəf tutub dedi. - Qızım, qaçaraq get, evimizdən o gün sənə göstərdiyim ağ torbanı götür gəl.

Qaraca qız yüyürərək getdi, bir azdan sonra arılar pətəkdən dəstə-dəstə çıxıb uçmağa başladı. Piri kişi onların dalınca düşdü. Axırda aılar bir gilas ağacının budağına qondular. Bir dəqiqə keçmədi ki, bir-birinin üstünə qonaraq üzüm salxımı kimi ağacdan sallandılar. Bu zaman Qaraca qız torbanı gətirdi. Hamı ağacın altında hazır oldu. Piri kişi Ağca xanıma dedi:

- Ağca xanım, hər yuvada bircə dişi arı olar, ona şah deyərlər. Bir yuvada iki şah olanda dava olur. Yeni doğmuş şah məcbur olur uçub başqa yuva arasın. O vaxt onun dalına yeni törəmiş arılar düşürlər. Bax, gör yeni şahın qoşunları onu nə cür əhatə etmişlər. İndi biz onu tutub təzə arı səbətinə salmalıyıq. Onda arılar da onun başına cəm olacaqlar.

Bu sözlərdən sonra Piri kişi üzünü Qaraca qıza tərəf tutub dedi:

- Qızım, çıx ağaca və bu sallanan arıları torbanın içinə salıb ağzını büz.

Qaraca qız pişik kimi ağaca dırmaşmağa başladı. Ağca xanım Piri kişidən soruşdu:

- Baba, o arılar Qaraca qızı sancmazlarmı?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Yox, xanım, arını incitməsən və onlardan qorxmasan adamı sancmazlar.

Qaraca qız arı dəstəsini torbaya salıb ağzını büzdü. Piri kişi dedi:

- İndi, qızım, budağı silkələ, arılar torbaya tökülsün, ya da budağı sındır, torbanın içində qalsın.

Qaraca qız budağı sındırdı və aşağı endi. Piri kişi torbanı ondan aldı. Hamı arılığa gəldi. Piri kişi torbadakı arıları bir boş pətəyə boşaltdı.

- Ağca xanım, bu pətəyi sənin adına saxlayacağam və balı da öz ixtiyarında olacaqdır. Haçan könlün bal istədi, gələrsən, kəsib verərəm.

Bundan Ağca xanım çox şad oldu. Hüseynqulu ağa dedi:

- Qızım, bu da sənin arın, indi gəl gedək, bir azdan sonra anan gələcəkdir.

* * *

Axşam çağı Pəricahan xanım Mariya İvanovna ilə şəhərdən gəlib çıxdı. Pəricahan xamm Ağca xanımı çox şad və yanaqlan qızarmış görüb dedi;

- Bax, qızım, mənə qulaq asıb evdən bayıra çıxmadın, ona görə sağalıb rongin özünə gəldi. Gör, qızım, sənə nə qəşəng şeylər gətirmişəm.

Ağca xanım, anası gətirdiyi gözəl kuklalara, başqa oyun şeylərino və şirin yeməli şeylərə baxıb çox şad oldu. Bu vaxt Ağca xanımm arzu etdiyi bir şey vardısa, o da bu şeyləri Qaraca qıza göstərib onunla bölüşmək idi. Bu da ancaq Baba otağmda mümkün idi.

Ağca xanımm təbiəti çox həlim idi, özü də sozə baxan bir qız idi. Lakin Qaraca qız ilə görüşmək arzusu onda o qədər artıq idi ki, mürəbbiyəsinin əmrindən çıxıb tez-tez özünü Baba otağına saldırırdı.

Ağca xanımın gündən-günə sağlam olmağı anasını nə qədər şad edirdisə, bir o qədər də mürəbbiyəsinin əmrindən çıxıb özünə tənbeh etdirməyi onu qəmgin edirdi. Bu barədə Pəricahan xanım ərinə şikayət edəndə, Hüseynqulu ağa rişxəndlə deyirdi:

- İki böyük arvad bir balaca uşağı tərbiyələndirə bilmirsinizmi. Mən sizə məsləhət görürəm ki, onu tez-tez Baba otağına salıb dustaq edəsiniz.

Bu kimi hallarda Hüseynqulu ağa qızına acıqlanıb Baba otağına göndərərdi və gizlin Qaraca qıza xəbər verərdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

* * *

Piri kişi Qaraca qızın Ağca xamm ilə gizlin görüşüb dostluq etməsinə əsla razı deyildi, O bilirdi ki, quduz bəyzadələrdən başqa, qeyrilərini insan dərəcəsinə qoymayan Hüseynqulu ağa bu yetim qızı arvadının acığına Ağca xanımın yanına buraxır. O biri tərəfdən Piri kişi düşünürdü ki, bu sirr açıldıqda Pəricahan xanım Qaraca qızı qovacaq Piri kişinin bir də narazılığı onda idi ki, Hüseynqulu ağa ziynətli qaraçı libası tikdirib Qaraca qıza geyindirirdi və öz qonaqlıqlarında oynadırdı.

Bunun üstündə Piri kişinin Hüseynqulu ağaya çox acığı tuturdu. Lakin qızı onun əlindən almaqdan aciz idi. Piri kişinin fikri yanlış deyildi Belə ki, bir dəfə Hüseynqulu ağa böyük qonaqlıq edib çox adam çağırmışdı. Bu qonaqlıqda oxuyub çalan dostəsi də vardı. Hüseynqulu ağa Qaraca qızın dalınca nökər göndərdi ki, gəlib oynasın. Bu vaxt Qaraca qıza soyuq dəydiyinə görə yerdə yatırdı. Piri kişi qızı getməyə qoymadı. Bu ittifaqdan sərxoş ağa artıq dərəcədə qəzəbnak olaraq, ikinci dəfə nökəri göndərdi ki, qızı yerdən qaldırıb gətirsin, Piri kişi əlacsız qaldıqda Qaraca qız qalxıb qaraçı paltarını geydi və qavalını əlinə alıb yola düşdü.

Qaraca qızın özünün də oynamağa meyli çox idi. O, rəqs etməyi olduqca severdi. Odur ki, məclisə mübariz istəyən pəhləvan kimi atıldı. Bir məharətlə oynamağa başladı ki, bütün danışıq və səs kəsildi. Qaraca qız elə coşmuşdu ki, orada olan adamlar onun gözündən itmişdi. Ancaq öz ustadı olan Yasəınən gözünün önündə durmuşdu. Birdən Qaraca qız elə bir tərzdə fırlandı ki, baxanların nəzərində bir şar kimi göründü. Qəflətən Qaraca qız bir dizi üstü çökərək əlinin birini qaval ilə yuxarı tutub, o birini belinə qoydu.

Rəqsi belə bitirmək Qaraca qızın adəti idi. Qaraca qız qonaqlar tərəfindən gurultulu alqışlandı. Sonra hamı rica etdi ki, bu oyunu bir də təkrar etsin. Qaraca qız qəbul etmədi. Hətta Hüseynqulu ağanın da sözünə baxmadı. Hamının ümidi kəsilmişdi ki, birdən Ağca xanım ortaya çıxıb, çalğıçılara həmin rəqsi çalmağı əmr etdi. Hamı təəccüb ilə ona baxırdı. Çalğıçılar çaldılar, Ağca xanım da oynamağa başladı. Bunun oynamağı gözəl və qaydalı idi. Hər hərəkətindən məlum edirdi ki, bu, Qaraca qızın şagirdidir. Bir-iki dövrə vurandan sonra Qaraca qızı cağırdı, o da dərhal sıçrayıb ortalığa girdi və hər ikisi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qabaq-qabağa oynamağa başladı. Bu xəbər bir anda ağalıq xidmətçilərinə yayıldı. Onlar dəstə ilə yüyürüb qapının ağzından tamaşa etməyə başladılar. Bu xəbər Pəricahan xanıma da çatdı. O da tamaşaya gəldi. Ancaq o, qızının oynamağına əsla şad olmayıb acığından bilmirdi ki, nə etsin.

Qızlar oynamaqlarını bitirdilər, hər tərəfdən onlar alqışladılar. Hüseynqulu ağa fərəhlənib qızını bağrına basdı. Bəylər onu tərif edib başını sığalladılar.

Bir azdan sonra Pəricahan xanım qulluqçusunu göndərib Ağca xanımı yanına çağırtdı. Hüseynqulu ağa duydu ki, arvadı qızını tənbeh etmək üçün çağırır. Bu fikir düz də çıxdı. O biri otaqdan Pəricahan xanımın bağırtısı gəlirdi. Hüseynqulu ağa səbir edə bilməyib qonaqlardan üzr istədi və Pəricahan xanımın yanına gəlib gördü ki, Ağca xanım hönkürtü ilə ağlayır və Pəricahan xanım da qışqırır:

- De görüm, bu oynamağı sənə kim öyrətmişdir?

Hüseynqulu ağa dedi:

- Buyur, cavabım mən verim, bunu Qaraca qız öyrətmişdir. Sözün nədir?

- Qaraca qız onu harada görürdü ki, öyrətsin. Mən onunla görüşməyi qadağan etməmişdimmi?

- Sən etmişdin, lakin mən etməmişdim. Bu evin sahibi mənəm, yoxsa sən? Kimin həddi var bundan sonra mənim əmrimdən çıxsın...

Pəricahan xanım indiyə qədər ərini bu dərəcədə hirsli görməmişdi.

- İndi ki, belədir, daha mən bu evdə nə üçün oturmuşam.

- Özün bilərsən, oturursan-otur, gedirsən-get. Bunu bilməlisən ki, bundan sonra mən öz istədiyim kimi davranacağam.

O biri otaqdan bəylər onun səsini eşitdilər. Rəhim bəy və Səlim bəy onun ailəsinə məhrəm olduqları üçün onları sakit etməyə gəldilər. Hüseynqulu ağanı çəkib o biri otağa apardılar. Bu itifaqdan qonaqlar pərişan olub bir-bir dağılmağa başladılar. Ancaq Rəhim bəy ilə Səlim bəy qaldılar ki, ər ilə arvadı barışdırıb, getsinlər. Bunlar istədiklərinə çatdılar. Hüseynqulu ağanın hirsi yatıb arvadına dedi:

- Nə üçün razı olmursan Ağca xanım oynasın, oynamağın nə zərəri var ki?

Səlim bəy dedi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Pəricahan xanım, mənim qızım Ağca xanım kimi oynamaq bilsəydi, onun başına dolanardım. Amma nə etməli ki, atası kimi şüursuz çıxıb, ayaq atmağı da bilmir.

Rəhim bəy dedi:

- Uşaq tayfası Ağca xanım kimi oynamağa, gülməyə yaranmışdır.

Yoxsa, mənim qızım kimi qaradinməzdən nə fayda.

Pəricahan xanım onun sözünü kəsərək dedi:

- Mən dəmirəm ki, qızım oynamaq bilməsin, lakin mən deyirəm ki, Mehdi ağanın nəvəsi Ağca xanıma bir qaraçı qızı ilə yoldaş olub, oturub-durmaq yaraşmaz. Bu ittifaqdan sonra, mən Ağca xanımı burada qoya bilməyəcəyəm. Mən irəliki kimi şəhərə köçəcəyəm və qızımı da pansiona verəcəyəm. Hüseynqulu ağa burada qalsın, çünki şəhərdə yaşamağı sevmir.

Hüseynqulu ağa buna razı oldu.

* * *

Sabahısı günü Ağca xanım anası ilə şehərə köçdü. Yazıq qızcığaz istəkli dostu Qaraca qızla görüşe bilmədi. Ağca xanımın şəhərə koç-məsi Qaraca qıza böyük təsir etdi. Bir tərefdən Ağca xanımın aynlıq həsrətİ, o biri terəfdən də onun ata-anasının arasma ədavət düşməsi Qaraca qızı çox qəmgin edirdi. Onu şad edən bir şey varsa, o da qonaqlıqda zühur edən ittifaqdan sonra Hüseynqulu ağanın günlərini dostu Səlim bəy və Rəhim bəygildə keçirib öz evində az görünməsi idi ki, beləliklə də Qaraca qızı da oynanıağa çağırmırdı. Bundan elavə Qara-ca qız özü də oynamağı tərk etmişdi. O, günlərini bağda keçirirdi. Yoldaşı da Qara köpək idi. Bu it Qaraca qızla elə dost olmuşdu ki, yanından iraq olmaq istəmirdi. Qaraca qız da onu elə öyrətmişdi ki, hər istədiyini edirdi. Piri kişi həmişə bunları bir yerdə görəndə gülüb deyirdi:

- İki qara yaxşı tapışmısınız.

Bir ittifaqdan sonra Qaraca qızın Qara köpəyə məhəbbəti daha da artmışdı. Belə ki, bir gün Qaraca qız moruq yığmaq qəsdi ilə cəvərəni görürüb meşəyə getmişdi. Qara köpək də yanında idi. Meşə Hüseynqulu ağanın mülkündə idi. Qaraca qız azmaqdan və meşə heyvan-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

larından qorxmurdu, çünki hər iki halda qara köpəyin onu xilas edə biləcəyini anlayırdı. Meşədə cəvərəni moruq ilə doldurub evə tərəf üz qoydu. Meşənin içindən dəmir yolu gedirdi. Qaraca qız yolu keçdiyi zaman ayağı büdrəyib yıxıldı və moruğu yola töküldü. Bunu yığan vaxt vaqon qatarı göründü. Qaraca qızın başı moruğunu qarışıb qatarın gəlməsindən xəbəri yox idi. O vaxt Qara köpək meşədən yola çıxdı və Qaraca qızı başı aşağı moruğ yığan və qatarı iti gələn görüb ildırım kimi götürüldü və Qaraca qıza elə döş vurdu ki, o da, özü də derəyə uçdular, Qaraca qızm sağ ayağı kola ilişib qanadı. Bunun ağrısından və Qara köpəyin belə hərəkətindən acıqlanıb qışqırdı. Amma başını yuxarı qaldırdıqda vaqon qatarının keçdiyini gördü. Qaraca qız anladı ki, ağıllı köpək onu bu tövr ölümdən qurtarmışdır. Ona görə də dərhal acığı yatdı və Qara köpəyin başını sığallayıb, onu əzizlədi. Sonra yola çıxdı ki, görsün cəvərəsi necə olmuşdur. Gördü ki, ondan ancaq qırılıb yerə tökülmüş çöplər qalmışdır. Qaraca qız ölümdən qurtarmasına çox şad olub, cəvərənin tələf olmasına bir o qədər də yanmadı.

Bu xəbər gedib şəhərə də çatmışdı. Ağca xanım dostu Qaraca qızın ölümdən xilas olmasına çox şad olub atasına yazdığı məktubun içində bir şahı iriliyində zərli bir kağız da qoymuşdu ki, bu da mənim tərəfimdən Qara köpəyə bəxşiş olsun.

* * *

Yayın axır günləri idi. Ağca xanımın pansiona girməsinə az qalmışdı. O, anasından rica etdi ki, bu axır günlərini kəndlərində keçirməyə izin versin. Pəricahan xanım razı olub dedi:

- Yaxşı, qızım, mən özüm də səninlə bərabər oraya gedəcəyəm ki, bir az rahat olaq. Yoxsa, burada gəlib-gedənlərin əlindən bir dəqiqə asudə deyiləm. Ancaq Ağca, şərtim budur ki, o qaraçı qızı ilə tamamilə əlaqəni kəsməlisən. Sən bəy qızısan, elə rəiyyət qızı ilə oturub-durmaq sənə yaraşmaz. O gün atan şəhərə gəlmişdi özü tutduğu əməlindən peşiman olmuşdur. O deyirdi ki, mən arvadımın acığına Ağcanı Qaraca qızla görüşdürürdüm. Yoxsa, qızımın öz qaravaşilə dostluq etməsinə heç mən də razı deyiləm. Bağın meyvəsi dərildikdən sonra Piri kişini də, Qaraca qızı da qovacağam.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu xəbərdən Ağca xanım qəmgin və pərişan oldu. O, indi kəndə getməsinə şad deyildi. O idi ki, səhəri günü anası onu yuxudan qaldırdıqda dedi:

- Ana, mən kəndə getmək istəmirəm.
- Nə üçün, dünən sən özün dəmirdinmi? Qalx, tənbəllik etmə. Ağca xanım istər-istəməz qalxıb geyindi. Pəricahan xanım kəndə gələcəklərini teleqrafla Hüseynqulu ağaya xəbər verdi.

Qatar stansiyada dayandıqda Ağca xanım pəncərədən atasını görüb çağırdı. Vaqondan endikdə Ağca xanım Qaraca qızı kənarda durmuş gördü. Pəricahan xanımın başı şeylərinə qarışmışdı. Nökərlər şeyləri alıb faytona yığırdılar. Ağca xamm bundan istifadə edərək, gizlincə, Qaraca qızın yanına qaçıb onunla görüşdü.

- Tez ol, get, xanım bizi burada görməsin, yoxsa yenə acığı tutar, - deyə Qaraca qız Ağca xanımı tələsdirdi.
- Doğru deyirsən, sonra görüşərik, - deyə Ağca xanım ata-anasına yanaşdı və faytona minib yola düşdülər.

Ağalar qapıya çatdıqda xidmətçilər həyətdə cərgə ilə düzülüb zalım xanımın qorxusundan tir-tir əsirdilər. Bunların içində Piri kişi də vardı. Pəricahan xanım Qaraca qızı orada görməyib, qızının ürəyini ondan soyutmaq üçün rişxənd ilə dedi:

- Qızım, bu da dostun Qaraca qızın vəfası, gör səni necə tez yadından çıxarmış.

Ağca xanım anasının bu tənəsinə səbir edib, sirrin üstünü açmadı. Sabahı günü Mariya İvanovna da gəlib çıxdı. Ağca xanımın buraya gəlməkdə məqsədi Qaraca qız ilə gün keçirmək idi. O da mümkün olmadığından çox bikef və qəmgin idi.

* * *

Qaraca qız da qəmgin idi. Komadan çıxmaq istəmirdi. Gün çıxıb qalxmışdı. Qaraca qız oyanmışdısa da, hələ yerindən qalxmamışdı.

- Qızım, nə çox yatmısan, sən heç belə gecikməzsən, azarlı deyilsən ki, - deyə Piri kişi soruşdu.
- Yox, baba, azarlı deyiləm, amma durmağa heç könlüm yoxdur.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Piri kişi komanın qapısını açıb dedi:

- Qızım, bax gör nə gözəl günəş çıxmış. Belə havalarda ancaq tənbəllər yatar.

Qaraca qız qalxıb aram ilə geyinməyə başladı. Sonra əl-üzünü yuyub çay içməyə məşğul oldu. Çaydan sonra bayıra çıxdı. Həqiqətdə günəş xeyli parlaq idi. Bağı gəzərkən Qaraca qızın gözünə qarışqa yuvası sataşdı. Bu qarışqaların içində qanadlıları da vardı. Onlar qalxıb havada uçurdular. Gah bu yuvam, gah da o yuvanın ağzında qaynaşırdılar. Piri kişi Qaraca qıza yaxınlaşıb dedi:

- Qızım, nəyə baxırsan?

- Qarışqalara baxıram, baba. Bunların içində qanadlıları da var. Baba, bu nə üçün?

- Qızım, onların qanadları həmişəlik deyildir, onlar töküləcəklər. Bu gün qarışqaların toy günüdür. Maya tutandan sonra onların dişilərinin qanadı quruyub düşəcək.

Qaraca qız babasından qarışqa toyu eşitcək, əllərini bir-birinə vıırub şaqqıltı ilə gülməyə başladı. Piri kişi də ona qoşulub gülməyə başladı.

- Bəli, qızım, qarışqaların toyudur. Get qavalını gətir, çal, onlar da səndən razı qalsınlar.

Piri babanın bu fikri Qaraca qıza xoş gəldi. O, qaçaraq komaya gedib qavalını gətirdi. Çalıb, oynamağa başladı. Piri kişi bu işdən şad oldu.

Bu vaxt Ağca xanım mürəbbiyəsilə bağçada oturmuşdu. Mariya İvanovna kitab oxuyurdu. Ağca xanım da evcik tikirdi. Çiçəkləri dərib onu bəzəyirdi. Bu zaman onun qulağına Qaraca qızın nəğməsinin səsi gəldi. Onu görmək üçün çəpərin qırağına gəldi. Ağca xanım, Qaraca qızm çəpərin yanmda oxuduğu mahnını dinləyərkən, qıvrılıb özünü günəşə veren zəhərli bir ilan atılıb Ağca xanımm çılpaq qolundan sancdı. Ağca xanım qışqırıb özünü mürəbbiyəsinin üstünə atdı. Bunun qışqırığına anası və xidmətçilər töküldülər. Mariya İvanovna özünü itirib, Ağca xanımı bağçada tək qoyub evə su gətirməyə qaçdı. Ağca xanım da qışqıra-qışqıra onun dalınca yüyürməyə başladı.

- Qızım, qavalını çalma, görək o ağalıqdan gələn səs nədir, - deyə Piri baba Qaraca qızı dayandırdı.

- Baba, bu səs Pəricahan xanımın səsidir, - deyə Qaraca qız ildırım kimi götürüldü. Həyətə çatdıqda gördü ki, Ağca xanımın biləyindən qan axır və Pəricahan xanım da ağlayaraq xidmətçilərə yalvarır:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Aman, sizə qurban olum. Tezcə bir Ağcanın yarasını sorub, ilanın zəhərini yerə tökünüz.

Lakin heç kəs bu qorxulu işə cürət edib qədəm qoymurdu.

Qaraca qız Pəricahan xanımdan bunu eşitcək Ağca xanımın qolundan zəhəri sorub yerə tökməyə başladı. Hamı qorxulu bir halda buna təəccüb edirdi. Pəricahan xanım Qaraca qızın saçlarını öpərək deyirdi:

- Qaraca qız, mənə rəhmin gəlsin, qızımı ölməyə qoyma.

Qaraca qız isə Pəricahan xanımın naləsinə əsla fikir verməyib öz istəkli dostunu ölümdən xilas etməyə səy edirdi. Bir azdan sonra Qaraca qız nə qədər sordusa daha yaradan qan gəlmədi. Ağca xanım ağca xanımı yaradan bir o qədər şikayət etmirdi, yaradan yuxarı qaytan ilə möhkəm bağlanmış yerdən şikayət edirdi:

- Ana, qaytanı aç, qolumu kəsir.
- Yox, qızım, olmaz. Onda zəhər bədəninə yayılıb səni öldürər. Səbir et, bu saat şəhərə teleqram vuracağam. Atan həkim gətirsin, - bunu deyərək Pəricahan xanım bir teleqram yazdı və nökərə verdi ki, aparıb stansiyadan vursun. Ağca xanımın qolunu bağlayan zaman Piri kişi gəlib çıxdı. Əhvalatdan xəbərdar olub xeyli iztirab ilə Qaraca qızın üzünə baxdı.
- Baba, gördünmü başımıza nə gəldi? - deyə Pəricahan xanım şikayətləndi.
- Bəli, gördüm. Onu da gördüm ki, öz balanı ölümdən xüas etmək üçün bu atasız-anasız yetimi bəlaya salmısan, - deyə Piri kişi sərt nəzərlə onun üzünə baxdı.
- Baba, nə deyirsən. Qaraca qıza heç bir şey olmamış.
- Yaxşı bax, xanım.

Bu vaxt Qaraca qız dedi:

- Baba, içərim yanır. Mənə su ver içim.
- Gəl, qızım, gedək. Görüm sənə nə çarə edə bilərəm. Sonra üzünü xidmətçilərə tutub dedi:
- Cəld gedib mənim komamdan qatıq gətirin, ayran edib qıza içirdim.
- Baba, bu saat - deyə xidmətçilər yüyürüşdülər.
- Baba, sənə yalvarıram, Qaraca qızı aparma. Qoy burada yatsın. Teleqram vurmuşam, Hüseynqulu ağa şəhərdən həkim gətirəcəkdir. - Bunu deyərək Pəricahan xanım onun qabağını kəsdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Çəkil, sən indiyə kimi bu qızı ağalığın ətrafında dolanmağa qoymamısan ki, bəyzadə qızına pis xasiyyətləri təsir edər. İndi də mən onun bu zülm yuvasında qalmasına razı deyiləm. - Bunu deyərək Piri baba Qaraca qızın əlindən tutub apardı.

* * *

Piri kişi Qaraca qızı soyundurub rahat etdi. Ona tez-tez ayran verirdi. Lakin Qaraca qızın dişinin dibi qanadığı üçün yaranı sorduqda zəhər tüpürcəklə onun qanına yerimişdi. Bununla belə Piri baba Qaraca qızdan ümidini kəsməmişdi. Lakin öz canını özgə uğrunda fəda etmiş qızcığazın həyatı bitmək üzrə idi.

- Baba, mən ölsəm, məni o bağımızın yanındakı göy təpədə basdırın. Oranı mən çox sevirəm. Oradan hər yer görünür. Orada hər cür çiçək var.

- Qorxma, qızım, həkim gəlib, sənə dərman verəcək. Sən də sağalacaqsan, uzun yaşayacaqsan. Mən qoca babanı o dediyin göy təpədə basdıracaqsan.

Hüseynqulu ağa həkim ilə gəlib çıxdı. Həkim Ağca xanıma baxdıqdan sonra dedi:

- Ağca xanımın heç bir qorxusu yoxdur. İlanın zəhəri bədəninə yayılmamış ref olunmuş, azacıq hərarəti var. Dərman verərəm yaxşı olar.

Bu xəbərdən ata və ana çox şad oldular. Sonra həkim ilə bərabər Piri babanın daxmasına getdilər. Qaraca qızın qanla dolmuş gözləri yumulmuşdu. Həkim ona baxdıqdan sonra dedi:

- Xəstənin halı çox ağırdır, çünki soran zaman zəhəri udmuşdur, o qanına qarışıb bədəninə yayılmışdır. Sağalması çətindir.

Bu xəbərdən Piri kişi məyus olub dedi:

- Həkim, öz balasını ölümdən xilas etmək üçün başqa bir balanı ölümə verən qadına nə deyərlər?

- Sus, qoca köpək, mənim qızımı bir qaraçı qızına taymı edirsən, - deyə Hüseynqulu ağa bağırdı.

Həkim onları sakit edib, gətirdiyi dərmanı Qaraca qıza içirtdi və Piri kişiyə tapşırdı ki, bundan xəstəyə tez-tez versin.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Baba, məyus olma. Qız çox sağlamdır. Ümidvaram ki, sağalar, deyə həkim ağalar ilə bərabər getdi.

Piri baba daxmanın qapısını açıb Qaraca qızın başı tərəfində oturdu. Sonsuz qoca Qaraca qıza artıq dərəcədə məhəbbət bağlamışdı. Qaraca qız onun əski komasına yeni bir həyat, yeni bir şölə gətirmişdi. İndi o şölə sönür... Ona da səbəb tam uşaqlığından zülmünü çəkdiyi ağaları olmuşdu.

Qaraca qız qan ilə dolmuş gözlərini açdı, axır nəfəsində günəşin şəfəqinə bir müddət baxdı, sonra gülümsündü, gözlərini yenə yumdu. Qaraca qız öldü!..

- Daxmanın bülbülü uçub getdi, - deyə Piri baba göz yaşı tökdü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# ƏŞRƏF

*Sevimli şagirdim*
*Əşrəf Babayeva ithaf*

Hacı Səməd şam namazını yenicə qılıb qurtarmışdı. Məhəmməd və Fatma da yemək otağında nazik və həzin bir səslə “Mən bir türkəm[1], elim-obam uludur” mahnısını oxuyurdular. Hacı Səməd müddət onlara qulaq asıb, sonra içəri girdi. Uşaqlar dərhal səslərini kəsib, ayağa qalxdılar. Hacı Səməd dedi:

- Nə gözəl mahnıdır! Nə gözəl sözlərdir: “İnsan olan vətəninin quludur!..” Bu mahnı, övladlarım, bir gözəl qəhrəman çocuğun hekayəsini yadıma saldı.

Uşaqlar atalarından bunu eşitcək cəld dedilər:

- Ata, təvəqqe edirik bu hekayəni bizə söyləyəsən!..

- Yaxşı, övladlarım, soylərəm, çünki söyləməli bir hekayədir. - Hacı Səmədin arvadı çay töküb, onun qabağına qoydu. Hacı Səməd de çaydan bir neçə qurtum içib başladı: - Otuz sənə bundan əqdəm Qara dəniz kənarında yapılmış bir şəhərdə Hacı Kazım namında bir tacir sakin idi. Bu tacir İstambul ilə güclü xəlçə alış-verişi edirdi. Hacı Kazımın çox övladı təvəllud etmiş idisə də, cümləsi qırılıb, tək bircə on səkkiz yaşında Əlimərdan adlı oğlu qalmışdı. Əlimərdan çox gözəl oğlan idi. Ancaq alış-veriş etməyi sevməyirdi və bir də çox pul tələb edərdi. Atası ha istəyirdi ki, onu evləndirsin, amma Əlimərdan bu əmrdən boyun qaçırırdt. Atası çox təkid edib deyəndə ki, oğlum, evimiz arvad tərəfindən sahibsiz qalmışdır, anan öləndən sonra nökər-qulluqçu ümidinə qalmışıq, evlən, evimiz qaydaya düşsün...

Əlimərdan onun sözünü kəsmək üçün deyərdi:

- Yaxşı, ata, evlənməyə hazıram, ancaq gərək evləndiyim qız tərbiyəli, oxumuş ola: hərgah şəhərimizdə belə qız varsa, bu saat nigahını oxut.

Bunu dedikdə, Əlimərdan yaxşı bilirdi ki, şəhərlərində belə qız yoxdur. Ancaq bu cür hiylə ilə atasını sakit etmək istəyirdi. Hacı

---

[1] Azərbaycanlı



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kazım özü də bilirdi ki, bu söz oğlu tərəfindən bir bəhanədir, çünki Əlimərdanın özü elmsiz bir cavan idi. Üç-dörd il məktəbdə oxuyub, ancaq ana dilində bir az savad qazanmış idi. Hacı Kazım oğlunun bu barədə də sözünü kəsmək üçün oxumuş qız arayırdı. Həmin şəhərdə Hacı Kazım ilə həmsinn Cəmaləddin ismidə bir mülkədar yaşayırdı. Cəmaləddin nəcib şəxslərin biri idi. Onun ata-babası öz zamanlarında böyük bir mülkə sahib olmuşdular, ancaq knyaz Cəmaləddinin vaxtında o böyük mülk tələf olub, bir cüzi hissəsi qalmışdı ki, onun ilə də knyaz özünü və övrətini bir tövr ilə saxlayırdı. Knyazın övrəti Kamilə xanım Anatollu Tofiq Paşanın qızı idi. Kamilə xanımın, ana tərəfindən Cəmaləddinə qohumluğu çatırdı.

Hacı Kazım ilə knyaz Cəmaləddin cavanlıqdan bir-birilə dost idilər. İndi isə dostluqları daha da möhkəmləşmişdi. Hacı Kazım oğlunun, guya tərbiyəli qız tapmamaq səbəbinə evlənməkdən baş qaçırtmasını dostu Cəmaləddinə söyləmişdi. O da Əlimərdan istədiyi qızı tapmağa söz vermişdi. Amma buna Hacı Kazımın ümidi yox idi, cünki uşaqdan böyüyə kimi şəhərlərinin hamı adamlarını tanıyırdı: oğlu istədiyi qız orada yox idi, amma bu xeyir işə bir ittifaq səbəb oldu: üç gün idi ki, Kamilə xanımın bacısı Nəcibə xanım ona qonaq gəlmişdi. Kamilə və Nəcibədən başqa Tofiq paşanın üç oğlu və iki qızı da var idi. Bu böyük külfəti ancaq öz təqaüdi ilə dolandırırdı və onlara lazımınca tərbiyə vermişdi.

Kamilə xanım atasının qocalığını və qardaşlarının körpəliyini mülahizə edib Əlimərdana getməyini Nəcibəyə təklif etdi, o da bu təklifi qəbul etdi. Atasının razılığına Kamilənin şübhəsi yox idi. Məktub vasitəsilə yazıb, Nəcibənin izinini istədi.

Hacı Kazım bu işə artıq dərəcədə şad idi və oğlunun da belə nəcib şəxslər ilə qohum olmağa razı olmasına şübhəsi yox idi. Bu səfər hacının zənni düz oldu: Əlimərdan bu əmrə şadlıqla razı oldu. Tezliklə Nəcibə xanımın atasından da razılıq məktubu gəldi. Hacı Kazım çox böyük cah-cəlal ilə oğlunun toyunu etdi.

Nəcibə on yeddi yaşında qayət, gözəl bir anatollu qızı idi. Gözəlliyi dərəcəsində də elm və tərbiyə almışdı.

Nami qoyulmuş "Nəcibə"liyi hər bir əsərindən aşkar olurdu. Əlimərdan Nəcibəni ürəkdən sevib onun təsir göstərməyi ilə bir az müddətdə cəmi fəna əməllərini bilmərrə tərk etdi. Bu iki cavanın bir-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

biri ilə olan gözəl rəftarı və dolanacaqları şəhər cavanları üçün dərs olmuşdu.

Tarix hicrinin 1303-də, baharın əvvəlində, Nəcibədən hekayəmizin qəhrəmanı Əşrəf təvəllüd etdi.

Əşrəfin dünyaya gəlməsi babası Hacı Kazımın qəflətən vəfat etməsinə səbəb oldu. Belə ki, Hacı Kazımın Həsən adında bir qoca xidmətçisi vardı. Bu xidmətçi Əlimərdana lələlik etməyinə görə hamı ona Həsən lələ nami verib çağırardı. Həsən lələ Əlimərdanı çox istəyirdi və onun böyüyüb, indi evli kişi olmasını əsla nəzərə almayıb, yenə də lələlik vəzifəsindən əl götürməyirdi. Hacı Kazım Həsən lələyə dəmişdi ki, hərgah Əlimərdanın oğlu olsa, ona da lələ olacaqsan. Bu da Həsən lələni nəhayət dərəcədo şad etmişdi. O idi ki, Həsən lələ hamıdan tez Nəcibə xanımın oğlan doğmasını bilib Hacı Kazıma müjdə verməyə qaçdı. O zaman Hacı Kazım bazardan evə gəlirdi. Qapıya çatdıqda Həsən lələ təngnəfəs bu xəbəri ona verdi. Hacı Kazımın bu şadlıq xəbərindən ürəyi çatlayıb öldü və intizarını çəkdiyi nəvəsini görmədi. Bu ittifaq cümləni, ələlxüsus Həsən læləni məyus edib, şadlıqdan qoydu, o özünü bu barədə müqəssir hesab edib deyirdi:

- Hərgah mən şadlıq xəbəri ona verməsə idim, onun bağrı çatlayıb ölməzdi.

Atasının vəfatından sonra Əlimərdan ticarət işini baş xadimi Əzimə tapşırıb, özü gününün çoxunu evdə keçirməyə başladı.

Əşrəf böyüyüb, yaşı altıya yaxınlaşdı. Bu, çox gözəl, sağlam və sevimli bir uşaq idi. Nəcibə xanımın elm tərbiyə verməkdə nə dərəcədə qabilə və ustad bir ana olmağı oğlunun gözəl hüsnü və əxlaqından görünürdü. Əşrəf izinsiz heç bir şeyə əl vurmazdı, söyüş kimi fəna xasiyyətlər əsla onda yox idi. Dili qayət şirin idi. Sağ yanağında böyük bir xalı var idi; gülən zaman bu xal üzünün çuxuruna düşüb, ona xeyli məlahət verirdi. Ata-anası Əşrəfi çox istəyirdi. Hər gün ona cürbəcür libas geyindirib gəzdirirdilər. Atası onun üçün balaca ikitəkərli fayton və bir eşşək almışdı. Həsən lələ eşşəyi faytona qoşub, gündə Əşrəfi şəhərdə gəzdirərdi. Şəhər əhlinin əksəri onu tanıyıb əzizlərdi. Əlimərdan tanışlarına gülə-gülə deyərdi:

- Şəhər uşaqları arasında mən bir məşhur adam olmuşam; onlar harada məni görsələr, "Odur Əşrəfin atası gedir", - deyib, bir-birlərinə göstərirlər.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Həsən lələyə gəldikdə xalqın Əşrəfə böylə diqqətlə baxıb nəzer yetirdiyinə və onu tərif edib, "Nə gözəl uşaqdır"! dediklərinə çox acığı tutardı.

- Axırda birinin uşağa gözü dəyəcəkdir, - deyib Nəcibə xanıma şikayət edərdi. O da gülüb deyərdi:

- Göz dəyməkdən qorxma, Həsən lələ, onlar yanlış sözlərdir, ancaq Əşrəfi fəna xasiyyətli uşaqların yoldaşlığından, tərk ədəb əsərlərindən mühafizə et.

- Yox, xanım, siz bəd gözün təsirinə inanın... Mən çox ittifaqlar bilirəm, - deyə Həsən lələ cavab verərdi.

Nəcibə xanım Həsən lələnin çox rəhmdil, saf və sadə bir qoca olmasını nəzərə alıb, onun köhnə adətlər tərəfdarı olmasını adi bir təbiət sayırdı, ona görə də bu barədə onun ilə artıq bəhs etməyirdi, o idi ki, bir gecə Əşrəfi soyunduranda onun boynunda parçaya tikilmiş bir heykəl görüb dedi:

- Oğlum, bunu kim sənin boynundan asmışdır?

Əşrəf dodaqlarında təbəssümlə, iri və qara gözlərini şivə ilə kiçildib, xeyli nəzakətlə dedi:

- Heç kəsə deməzsən ki?
- Yox, oğlum, heç kəsə deməərəm, de!
- Bunu Həsən lələ asmışdır, dəmişdir ki, heç kəsə demə, bunu assan sənə göz dəyməz.

Bu, Nəcibə xanımın oğluna verdiyi tərbiyəyə müğayir[1] idisə də, bir tərəfdən Həsən lolonin Əşrəfə olan məhəbbətini və digər tərəfdən də onun "belə olmasa ona göz dəyər!" dediyi ilə iztirabda olduğunu nəzərdə tutub, duanı oğlunun boynundan çıxartmadı.

Atasının vəfatından sonra Əlimərdanın ticarət işi tənəzzül etməyə başladı. Buna da ümdə səbəb o idi ki, Əlimərdan dükanda əyləşib, ticarət etməyi əsla sevməyirdi. Onun cavan təbiəti həmişə hərəkətdə olmaq istəyirdi. Uşaqlıqda dənizi çox sevib, gəmiçiliyi arzu edirdi. Atasının sağlığında ticarət işini irəli aparmaq üçün tez-tez İstambula səfər edirdi. Bu isə onun dənizə məhəbbətini daha da artırardı. İndi işi belə görəndə, əsla sevmədiyi xəlçə alış-verişindən bilmərrə əl çəkib, arzusunu çəkdiyi gəmiçilik fikrinə düşdü, ona görə də dükanının bütün

---

[1]Zidd



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

malını satıb, bir gəmi aldı və gəmiçiliklə məşğul oldu. Əlimərdan bu işə çox şad idi. Amma Nəcibə xanım həmişə qorxuda olub, əsla rahat olmayırdı. Biçarə arvad hər dəfə dənizin fırtınası qalxanda sübhə kimi yatmayıb, dua edərdi. Belə qorxuda vaxt keçirmək Necibə xanıma təsir edib, onu gündən-günə arıqladırdı. Nə qədər ərinə yalvarıb, bu sənətdən əl çəkməsini təvəqqe edirdisə də əri qəbul etməyib rədd edirdi və deyirdi:

- Nəcibə, ölüm gələn vaxt hər yerdə olsa aparasıdır; istər rahat evdə və istərsə də dənizdə olsun.

Nəcibə deyərdi:

- Mənim rahatlığım üçün səndən təvəqqə edirəm ki, dənizə özün getməyəsən. Sən xidmətçilərini göndər, özün də hesaba baxarsan.

- Yox, əzizim, belə olmaz. İş sahibi gorək işinin üstündə olsun. Görmədinmi istəkli və baş xidmətçimiz Əzim işi nə yerə yetirdi?! Qorxma, inşallah mənə heç şey olmaz.

Bu sözlər Nəcibə xanımı rahat etməyirdi.

Əlimərdanın evi dənizin kənarında tikilmişdi. Buradan dənizin üzü göz sürdükcə aydın görünürdü. Əlimərdan səfərdə olan zaman ana və oğlu tez-tez eyvana çıxıb, durbinlə dənizə baxırdılar ki, görsünlər gəmiləri görünürmü. Əlimərdanın dənizə olan məhəbbəti oğlu Əşrəfə də sirayət etmişdi. Hətta oyun şeyləri içində gəmi, lodka, qayıq və başqa dəniz şeylərini qeyrilərindən artıq sevirdi. Bağçalarında balaca bir göl var idi. Burada Əşrəf lodkada əyləşib, lələsi ilə gəzirdi. Gah-gah bu göldə balıq tuturdular və çimirdilər. Əlimərdan hər dəfə dənizdən çıxıb, evinə gələn zaman, Nəcibənin qorxusundan dənizin möhnət və zəhmətindən əsla danışmayıb, hər yerdə onun tərifini və gözəlliyini söyləyirdi. Bu nağıllar həmişə Əşrəfə böyük təsir edir və öz ürəyində dənizə olan məhəbbətini daha da artırırdı. Hətta Həsən lələnin də nağddan içində dəniz xüsusunda olanlarını artıq sevirdi. Bu məhəbbət Nəcibə xanımı qorxudurdu. Odur ki, deyirdi:

- Əşrəf, səni, fırtınalı və dəhşətli dənizə buraxmaram! Səni İstambula aparıb "Məktəbi-hərbiyyəyə" verəcəyəm ki, oradan baban kimi "Paşa" çıxasan!

- Yox, anacığım! Mən onu istəməyirəm, mən oxuyub "kapitan" olacağam! Özümün gəmim olacaq və Həsən lələni də orada "matros" edəcəyəm – Əşrəf anasına bu yol ilə cavab verərdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Oğlunun belə cavabından Əlimərdan fərəhlənib, Nəcibəyə deyərdi:

- Nahaq yerə, əzizim, zəhmət çəkmə, oğul gerək atasının yolu ilə getsin.

Əlimərdanın gəmiçilikdə də baxtı gətirmədi. Gah gəmisi dumana düşüb, başqa gəmilərə toqqaşırdı və sınıb onu xeyli zərərə salırdı; gah daşıdığı mala zəfər yetirdiyi üçün onun cərimasini verirdi. Getdikcə Əlimərdan borca düşürdü, bu səbəbə onu fikir alırdı; ancaq işinin boylə dolaşıq olmasını Nəcibədən gizli saxlardı ki, onu təşvişə salıb rahatsız etməsin. Həmişə Nəcibənin yanında Əlimərdan özünü şad saxlayırdı. Nəcibə isə bunu duyurdu və bunuu üçün də keyfi açılmayırdı. Əlimərdana tez-tez yalvarırdı ki, bu sənətdən əl götürsün. İndi Əlimərdan özü də bu fikrə gəlmişdi. Ona görə Nəcibəyə dedi: "Nəcibə sənə söz verirəm ki, işlərimi bir qaydaya salan kimi bu sənətdən əl götürəcəyəm". Nəcibə ərinin verdıyi bu vədəsindən nihayətdə şad oldu.

* * *

Payızın son ayı idi. Qara dənizin ən fırtınalı bir zamanı idi. Üç gün idi ki, dənizin nəriltisi və gurultusuna adət etməmiş şəhər əhli yata bilməyirdi. Qara dənizin boylə adətdən xaric nəriltisini qoca kişilər də görmədiklərini söyləyirdilər. Əlimərdanın gələn vaxtı idi. Fəqət gəlib çıxmadığı Nəcibə xanımı çox təşvişə salırdı. Gecələr yatmayıb namaz qılır və Əlimərdanın salamat olması üçün allaha dua edirdi. Gündüzlər də durbində dənizə baxıb, təşvişdə idi. Qara dənizin zəhmi balaca Əşrəfi də almışdı. O, Həsən lələsinə deirdi: "Həsən lələ! Daha mən kapitan olmağı istəmirəm!" Nəcibənin təşvişi getdikcə artırdı.

- Həsən lələ, görəsən bu necə işdir. Əlimərdan necə oldu? Üç gün bundan qabaq gəlib çıxası idi. Bu barədə sən nə fikir edirsən?

- Qorxma, xanım, allah kərimdir, heç şey olmaz! Gəminin kapitanı təcrübəli adamdır. Qara dənizi öz əlinin içi kimi tanıyır.

Nəcibə xanım artıq dərəcədə təşvişdə idi. Hansı gəmiçidon soruşurdularsa, gördüm deyən yox idi. Nəhayət, "Trapezund" şəhərinə mal apardığını soraq verən tapıldı. Həsən lələ hər gəmi gələn kimi körpüdə hazır olurdu ki, ağasından bir xəbər bilsin. Bir axşam Həsən lələ xeyli qəmgin evə qayıtdı. Nəcibə xanım onu görüb, artıq təşvilə soruşdu;



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Həsən lələ, nə xəbər bildin?

- Xanım, bir yaxşı xəbər bilməmişəm, ağa, nə səbəbdən isə "N" şəhərində gəmidən mal verdiyi zaman divan, tərəfindən tutulub dustaq olmuşdur və gəminin bəzi malları da zəbt edilmişdir, Ancaq nə səbəbə? Nə üçün? Burasını dürüst xəbər verən yoxdur.

Bu xəbərdən biçarə Nəcibə xanım bitab olub, özündən getdi. Bu ittifaqdan üç gün keçmiş Əlimərdan gəmisi ilə bərabər gəlib, öz şəhərinə çıxdı. Fəqət, şəhərə çatan kimi onunla gələn divan əhli onu, kimsə ilə görüşməmiş, həbsxanaya apardılar və bir müddət heç kəsi onun yanına qoymadılar.

Zavallı Nəcibə bu ittifaqdan xəstə olub yatırdı. Axırda Nəcibə xanıma əri ilə görüşməyə izin verdilər. Əlimərdan arvadı ilə görüşdükdə dedi:

- Nəcibə, öz təqsirimdir ki, çəkirəm. Axır vaxtlar işlərim çox dolaşmışdı, borclarım həddən aşmışdı. Ancaq həqiqəti səndən gizləyirdim. Bir cuhud məni yoldan çıxartdı. Çox artıq kirayə verməklə Osmanlı torpağından Rusiyaya gəmilə "kontraband" qaçaq malı yığdı.

Gəlib "N" şəhərinə çıxdıq. Sahibi getdi ki, axşam gəlib mahnı gəmidən çıxartsın. Mən də yük vurduğum qeyri malları gəmidən çıxardırdım. Divan əhli gəlib gəmini axtardı. "Kontraband" malları tutdu. Cuhud da yox oldu. Təqsiri boynuma qoyub məni dustaq etdilər. Ancaq, Nəcibə, qəm etmə, allah kərimdir. Get Əşrəfdən de muğayat ol.

Əlimərdanı altı ay həbsdə saxlayandan sonra məhkəmədə işinə baxdılar və onu müqəssir edib, beş il vaxta Sibirdə, Tomsk quberniyaya göndərməyə qərar verdilər və iki həftə möhlət verdilər ki, bütün işlərini sərəncam etsin. Əlimərdan hər şeyini satıb, borclarını verdi və özünə də bir qədər pul qaldı. Əlimərdanın fikri sibirligini çəkib qurtarınca Nəcibə və Əşrəfi Kamilı xanımın yanında qoymaq idi. Amma vəfalı arvad ərindən ayrılmaq istəmədi. Kamilə xanım və əri nə qədər yalvardılar isə də mümkün olmadı. Axırda Əlimərdan əlacsız qalıb, razı oldu. Həsən lələ də bunlardan ayrılmaq istəmədi və dedi: mən çox dünya görmüşəm və özüm də rusca bilirəm. Siz isə heç biriniz bilməyirsiniz, mənsiz necə dolanarsınız? Mənim sizə xeyirdən başqa nə zərərim ola bilər? Həsən lələ bu sözdən sonra Əlimərdandan getməyə izin istədi və onu razı elədi.

Yaym əvvəlində, yağışlı bir gündə Əlimərdan, Nəcibə, Əşrəf və Həsən lələ gözü yaşlı, qohum-əqrəbalarından və gözəl vətənlərindən



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ayrılıb, vaqon ilə yola düşdülər. Vaqon axırıncı fitini verib, tərpənəndə, stansiyada bir övrət qışqırıb, ürəyi getdi. Bu övrət Kamilə xanım idi. Bacısının Sibir kimi yad və dəşhətli bir ölkəyə getməsinə zavalı arvad səbir edə bilməyirdi. Vaqonun dəmir pəncərəsindən baxan Nəcibə xanım da bacısını öylə gördükdə bitab olub, yerə yıxıldı. Əlimərdana gəldikdə, onun ürəyində olan qəm və qüssə bir mərtəbəyə çatmış idi ki, saatlarla gözünü bir nöqtəyə dikib, harada olduğunu hiss edə bilməyirdi. Və onu da belə fikrə salan arvad və oğlu idi. O fikir edirdi ki, Sibir kimi soyuq bir vilayətdə, cənub qönçəsi Nəcibə və Qafqaz çiçəyi Əşrəf necə dolanacaqlar?!

Əşrəf ata-anası kimi qəmgin deyildi. Çünki Həsən lələnin deməsi ilə Əşrəf öylə bilirdi ki, özgə vilayətə köçürlər və orada atasının dustaq etməyib, azad edəcəklər. Bunların vaqonu özgə vaqonlar kimr deyildi. Pəncərələri dəmirdən olub, qapılarında da əsgər dayanırdı. Bu əsgər həmişə Əşrəfi görəndə nə isə, bir söz deyirdi və gülümsünürdü. Əşrəf rusca bilmədiyi üçün onun dediyini başa düşməyirdi. Amma Həsən lələ əsgərlə rusca danışırdı. Həsən lələ tez-tez stansiyalarda düşüb, Əşrəf üçün yeməli şeylər alırdı. Və bəzən Əşrəfin özünü də düşürdüb, gəzdirirdi. Səfərin altıncı günü gəlib, böyük bir stansiyaya çıxdılar. Bu zaman Həsən lələ vağzalda bir səbirli müsəlmanla təzəcə tanış olmuşdu. Onunla şirin söhbətdə ikən. Əşrəf qeyri adamlarla bərabər vaqondan stansiyaya düşdü. Həsən lələnin bundan xəbəri olmadı. Bayram günü olduğuna görə stansiyada və onun ətrafında çox adam var idi. Bir dəstə adam ney çalıb, oynayırdılar, bir dəstə də, çinli bir oyunçunun cürbəcür oyun göstərməsinə tamaşa edirdi. Vaqondan düşdükdə Əşrəfin nəzəri bu oyunbaza sataşdı və irəli gedib ona tamaşa etməyə başladı. Bir azdan sonra vaqon fit verib, hərəkət etdi. Əşrəfin bundan xəbəri olmadı. Həsən lələnin də başı söhbətə qarışıb, Əşrəfin stansiyada qalmasından xəbəri olmadı. Çinli oyunbaz oyunu qurtarıb, pul yığmağa başladı. Adamlar yavaş-yavaş dağılışdılar. Əşrəf də geri qayıdıb, gördü ki, vaqonları yoxdur, getmişdir.

Əşrəf vaqonları getmiş görüb, ağlamağa başladı. Adamlar onun başına yığışıb, onun kim olduğunu və burada nə qayırdığını xəbər aldılarsa, Əşrəf cavab verə bilmədi, çünki rus dilini bilməyirdi. Onlar Əşrəfin çərkəsi libasından duydular ki, bu bir müsəlman uşağıdır və anladılar ki, bu, ata-anasından izinsiz vaqondan düşüb, burada qalmış-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dır. Onlar Əşrəfin halına çox yanırdılar. Onlardan biri gedib "jandarm" çağırdı ki, Əşrəfi ona tapşırsınlar. Əşrəf silahlı jandarmı görüb qorxudan qışqırdı və özünü bir qoca övrətin üstünə atdı, qoca arvad Əşrəfin başını sığallayıb öpdü. Zavalı çocuq arvadın qucağında qorxusundan tir-tir əsirdi. O, öylə bilirdi ki, jandarmı ona tənbeh etmək üçün çağırmışlar. Rəhimdil arvad Əşrəfin halına nəhayət yanırdı. Bu qoca arvadın adı Sofiya Aleksandrovna idi. Nikolay İvanoviç ilə Samara şəhərinə gedirdilər. Bunun əri orada edadi məktəbində ümumi təbiiyyat müəllimi idi. İndi bu stansiyada vaqon gözləyirdilər ki, yola düşsünlər. Əşrəf jandarmın qorxusundan səsini kəsib, Sofiya Aleksandrovnanın qucağına sıxılmışdı. Bu halda Nikolay İvanoviç gəlib çıxdı. Əhvalatdan xəbərdar olandan sonra Nikolay İvanoviç jandarma dedi:

- Yəqin ki, bu müsəlman uşağı Sibirə gedən vaqondan düşüb qalmışdır. Siz gedib stansiya nazirinə məlum edin ki, bu barədə o biri stansiyaya teleqram vursun. Qoy uşaq da bizim yanımızda qalsın. Buyur bu da mənim "Kart vizitim"dir!

Jandarm "Kart viziti" alıb oxudu: - "Nikolay İvanoviç Barsov Samara edadi məktəbinin ümumi təbiiyyat müəllimi". Jandarm buna razı olub getdi. Adamlar da dağılışdılar.

İki rəhmdil qocanın səyi ilə Əşrəf ağlamağını kesib könlü açıldı. Nikolay İvanoviç Əşrəfin adını bilmək üçün böylə bir dərs başladı. Barmağı ilə arvadını göstərib dedi: "Sofiya", sonra özünü göstərib dedi: "Nikolay". Əşrəf onun fikrini anlayıb, hələ soruşmamış əli ilə özünü göstərib dedi: "Əşrəf". Ər və arvad Əşrəfin böylə bir zehinli uşaq olduğu üçün başını sığalladılar. Jandarmın stansiya nazirinə əhvalatı deməsinə görə o da teleqraf vurmuşdu. Yarım saatdan sonra xəbər çıxdı ki, ikinci stansiyanın yaxınlığında vaqon yoldan çıxıb çox ölən və yaralı vardır. Bu stansiyadan komək istəyirlər. Bu halda Samaraya gedən vaqon gəlib çıxdı. Nikolay İvanoviç stansiya nazirindən təvəqqe etdi ki, Əşrəfi özü ilə Samaraya aparmağa izin versin. Bu barədə öz dilindən iltizam kağızı verməyə hazırdır ki, hər vaxt uşağın ata-anası çıxsa, öz xərci ilə haraya istəsələr, göndərsin. Stansiya naziri buna razı olub, iltizam kağızını və adresini ondan aldı. Nikolay İvanoviç Əşrəfi götürüb, özü ilə Samaraya apardı.

Nəcibə xanım gözlərini açıb, vaqonda özünü yorğan-döşək içində gördü. Biçarə övrət, öylə zəif idi ki, üzlərini də tərpətməyə qüdrəti yox



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

idi: iki gün idi ki, bihuşluğu davam edirdi. Nəcibə xanımın özünə gəlməyinə Əlimərdan çox şad oldu. Lakin qorxusundan danışdıra bilmədi. Bu halda vaqonun qapısı açıldı. Nəcibə xanımın gözləri silahlı əsgərə sataşdı. Əlimərdan durub qapını örtdü. Nəcibə xanım zəif səslə dedi:

- Nə fəna yuxu gördüm!.. Vaqon dağılmayıbmış...

Əlimərdan arvadının fikri özünə dürüst gəlmədiyini və vaqonun dağılmasını yuxu bildiyini görüb dedi:

- Əzizim, azarlı olmağına görə həkim, bir müddət danışmayıb, rahat olmağını əmr etmişdir. İki gündür ki, acsan, al bir az süd iç!

Əlimərdan Nəcibə xanıma bir qədər südlə bulka yedirtdi. Bir azdan sonra Nəcibə xanım yuxuya getdi. Əlimərdan isə onun yanında qəmgin və məyus əyləşib fikrə getdi. "Bir müddətdən sonra Nəcibə yaxşı özünə gələrsə və Əşrəfim hanı? - deyib sorarsa, nə cavab verəcəyəm, xudaya?"

* * *

O zaman Əşrəf Nikolay İvanoviç və Sofiya Aleksandrovna ilə gəlib, Samara şəhərinə çatdılar. Vaqonda Əşrəf bir-iki dəfə ağladısa da, axtrda Nikolay İvanoviçin səyi ilə sakit oldu. Samaraya çatanda Əşrəf, Ədil (Volqa) çayında üzən gəmiləri görüb, yenə vətənləri yadına düşdü. Lakin bu səfər ağlamayıb, əli ilə gəmiləri göstərərkən, Sofiya Aleksandrovnaya dedi:

- Bax, bizim də boylə gəmimiz var idi. Mənim özümün "lodka"m da var idi. Həsən lələmlə minib gəzirdik.

Sofiya Aleksandrovna "lodka" sözündən başqa bu danışıqdan heç bir şey anlaya bilmədi. Əşrəfi qucağına alıb dedi:

- Gözəl, Əşrəfim! Qoy evimizə çataq, sənə bazardan bir yaxşı lodka alacağam. Çarhovuzumuzda oynadacaqsan. Ondan başqa çoxlu oyun şeyləri də alacağam. - Əşrəf də bu danışıqdan ancaq "lodka" sözünü başa düşdü.

Barsov aldığı ev, Volqa çayının kənarında tikilmişdi. Bu evin eyvanından çox gözəl mənzərə açılırdı. Səhərdən axşama kimi cürbəcür gəmilər Volqa çayının üzərində ağzı yuxarı-aşağı üzürdülər. Əşrəf buradan tamaşa etməyi çox sevərdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir tərəfdən yolun əziyyətindən, bir tərəfdəndə lazımınca müqəyyəd olunmamaqdan Nəcibə xanımın azarı getdikcə şiddət edirdi. Həsən lələyə gəldikdə, o da ağır yaraların zərbindən həmişə (böhran) içində olub, danışmağa qadir deyildi. Həsən ləlәni azarlılara məxsus olan ayrı bir vaqonda aparırdılar. Əlimərdan Həsən lələsiz çox əziyyət çəkirdi, çünki rus dilini bilməyirdi; bir şey lazım olanda məəttəl qalırdı. Uzun səfərdən sonra axırda gəlib, hökumət tərəfindən təyin olunan Sibirdə Tomsk şəhərinə çatdılar. Bu şəhərdə divan tərəfindən polisə tapşırılıb azad olundular. Həsən lələ ilə Nəcibə naxoş olduqları üçün, bunları xəstəxanaya almağı hökumət, mütərcim vasitəsilə, Əlimərdana təklif etdi; ancaq bunu Əlimərdan qəbul etmədi və mütərcim müsəlmandan təvəqqə etdi ki, onun ilə bərabər şəhərdə mənzil axtarsınlar; o da razı olub, öz evində kirayəyə oturmalarını təklif etdi. Əlimərdan çox şadlıqla bunu qəbul etdi. Bu adam Həbibulla adlı tomsklı cavan bir oğlan idi ki, polissedə yazıçılıq edirdi. Həbibulla yazıçılıq və evlərinin bir hissəsini kirayə verməklə arvadı Gülsüm ilə bərabər məişət edirdi.

Əlimərdan Həbibulladan üç otaq kirayə edib, burada qaldı. Gülsüm Nəcibə xanıma ürəkdən qulluq edirdi. Bunun belə ürəkdən çalışmasına görə Nəcibə xanım yavaş-yavaş sağalmağa başladı. Həsən lələ də sağalmağa üz qoyurdu. Əlimərdan Həbibullanın gözəl xasiyyətini və onlarla etdiyi yaxşı rəftarı görüb, onu qardaşı kimi sevirdi. Əlimərdan şəhərə bələd olduqda, orada qafqazlılardan tapıb, onlar ilə tanış oldu. Onların əksəri Əlimərdan kimi Sibirə sürgün göndərilmişdilər. Bunlardan bəzilərinin vaxtı tamam olmuşdusa da, buraya öyrəşib daha öz yerlərinə qayıtmaq istəmirdilər.

* * *

Tomskda qarlı və çovğunlu bir gün idi. Nəcibə xanım otaqda sandalya üstündə əyləşib, qəmgin-qəmgin bayıra baxırdı. Külək qarı qaldırıb, oraya-buraya çırpırdı; bacanın gurultusu Nəcibə xanımın qəmini daha da artırırdı.

Şimal qışının bu dəhşətli mənzərəsinə baxır idisə də xəyalı öz yerlərinin gözəl mənzərələrində idi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əlimərdan və Həsən lələ də bu otaqda idilər, onlar da çölün gurultu və şaqqıltısına tamaşa edirdilər. Birdən Nəcibə xanım dönüb Həsən lələdən soruşdu.

- Həsən lələ, vaqon dağılan zaman Əşrəf hansı çuxasını geymişdi?

Həsən lələ cavab verməyib, başını aşağı saldı. Biçarə qocanın gözlərindən yaş tökülürdü. Əlimərdan arvadına dedi:

- Nəcibə, nə üçün yenə Əşrəfin ölümünü yada salıb, Həsən lələni məyus etdin? Onsuz da yazıq kişinin o gündən bəri üzü qəm-qüssədən açılmayır.

- Bağışla, əzizim, bu gecə də Əşrəfi yuxumda gördüyüm üçün soruşdum. Yuxumda gördüm ki, Əşrəf mənə deyir: "Ana, qara çuxamı çıxart, ağ çuxamı geydir".

Həsən lələ birdən başını qaldırıb, nə isə demək istədi; lakin özünü saxlayıb, yenə başını aşağı saldı.

Həsən lələnin yaraları sağalıb özünə gəldiyi zaman, Əlimərdan vaqonun necə dağılmasını və Əşrəfin meyidinin tapılmasını, ona söyləmişdi. Həsən lələ bir tərəfdən öz təqsirini və bir tərəfdən də Nəcibə xanımın birdəfəlik Əşrəfin ölümü xəbəri ilə sakit olmasını nəzərə alıb, onun itməyini xəbər vermədi. Bu tərəfdən də Nəcibə xanım Əşrəfi yaddan çıxartmayırdı.

Nikolay İvanoviç və əlalxüsus Sofiya Aleksandrovnanın səyi ilə Əşrəf yavaş-yavaş rusca danışmağa başladı. Buna hər iki qoca artıq şad idi. Sofiya Aleksandrovna gününün çoxunu Əşrəfin tərbiyəsinə sərf edirdi. Hava getdikcə soyuqlaşır, Volqa nəhri donmağa başlayırdı. Cənub havasında pərvəriş tapmış Əşrəfə bu soyuq çox təsir edirdi. Bunu görüb Nikolay İvanoviç ona isti qış paltarı aldı. Sofiya Aleksandrovna Əşrəfi geyindirib, hər gün gəzməyə aparırdı. Əşrəf gəzən vaxt balaca uşaqları qar üstündə kirşə ilə sürüşən görüb, Sofiya Aleksandrovnadan təvəqqe edirdi ki, ona da oylə kirşə alsın. Sofiya Aleksandrovna onun xahişini əmələ gətirdi. Dekabr ayı gəldi; məktəblər on beş gün qış tətili münasibətilə bağlandı. Nikolay İvanoviç dərsdən azad olub, hər gün Əşrəfi gəzməli yerlərə aparırdı. Bir dəfə Nikolay İvanoviç sirkin açılmağını qəzetdə oxuyub, arvadına dedi:

- Sofiya Aleksandrovna, bu gecə sirk açılır, yaxşı olmazmı ki, bu gecə Əşrəfi aparaq, keyfi açılsın?

- Çox gözəl fikirdir, əzizim, doğrudan da bu, Əşrəf üçün böyük bir şadlıq olar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Axşam vaxtı hər üçü geyinib, sirkə getdilər. Sirk adamla dolu idi. Əşrəfi Həsən lələ bir neçə dəfə sirkə aparmışdı. Bu dəfə sirk onun ata-anasını yadına saldı; ona görə başını Sofiya Aleksandrovnanın dizinə qoyub, həzin-həzin ağlamağa başladı. Sofiya Aleksandrovna onun başını sığallayıb, soruşdu: "Nə üçün ağlayırsan, əzizim? Dayan, bu saat başlayacaqlar; görəcəksən nə qəribə şeylər göstərəcəklər!.. Bu halda oyun başlandı, Yalançı pəhləvan məzhəkəni başlayıb cürbəcür oyunlar çıxarmağa şüru etdikcə, Əşrəf qəmini yaddan çıxarıb, qaqqıltı ilə gülürdü. Əşrəfin kefinin açılması qocaları şad etdi. Oyun qurtardı. Bunlar evlərinə qayıtdılar. Əşrəf evlərində sirkdə gördükləri oyunları çox məharətlə təqlid edirdi. On beş gün qış tətlini Əşrəf çox şadlıqla keçirirdi. Təzə ildə Nikolay İvanoviç və Sofiya Aleksandrovna Əşrəfə yaxşı bəxşeyişlər aldılar. Qış tətili qurtardı. Nikolay İvanovic birinci gün idi ki, dərsə getmişdi. Dərsdən qayıdanda Sofiya Aleksandrovna onun qəmli olduğunu görüb buıun səbəbini soruşdu. Nikolay İvanoviç cavabında nahiyə müdiri tərəfindən aldığı kağızı uzatdı. Bu kağıza da onun Samara edadi məktəbindən Qazan məktəbinə təyin olunması yazılmışdı.

Nikolay İvanoviç dedi:

- Hərçənd ki, mənim Qazan edadi məktəbinə təyin olunmağımda qulluğuma əskiklik yoxdur, bileks, Qazan daha boyük və darülfünu olan bir şəhərdir, ancaq Samarada çoxdan bəri olduğumuza görə bu şəhərə öyrənmişdik. Nikolay İvanoviç hazırlaşıb yanvar ayının on ikisində Samaradan köçüb, təzə qulluğuna getdi.

Nikolay İvanoviç Qazan şəhərini qabaqda da bir neçə dəfə görmüşdü. Amma arvadı birinci dəfə idi ki, bu şəhəri görürdü. Sofiya Aleksandrovna uzaqdan Qazanın mənzərəsini görüb çox bəyəndi. Nikolay İvanoviç dedi:

- Doğrudur, Qazanın görünüşü yaxşıdır, amma abi-havası, təmizliyi Samaraya çatmaz. Havasının təbiəti belədir ki, yayda çox isti və qışda çox soyuq olur. Bu şəhərin natəmizliyinə gəldikdə, Volqa nəhrinin sahilində olan şəhərlər arasında birincidir. Mən çox qorxuram ki, sən bu şəhərin abi-havasını götürməyəsən.

- İnşallah, heç şey olmaz, - deyə Sofiya Aleksandrovna ərinə cavab verdi. Barsovlar edadi məktəbinin yaxınlığında bir ev tııtub, sakin oldular. Nikolay İvanoviç qorxduğu şey başa gəldi. Belə ki ar-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

vadı Qazanın abi-havasını götürməyib, müdam azarlı olurdu. O, arvadına deyirdi:

- Səbir et, əzizim, yay tətili başlanan kimi, səni götürüb Samaranın bağlarına aparacağam. özüm isə ərizə verib yenə köhnə yerini istəyəcəyəm; hərgah verməsələr, o vaxt mən də qulluqdan istefa verəcəyəm.

Sofiya Aleksandrovna azarlı olduğu üçün Əşrəfin günü qəmgin keçirdi. Tamam gün onun otağında qalıb, şəkil və oyun şeyləri ilə məşğul olurdu. Onunla oynamağa, gəzməyə getməyə yoldaşları da yox idi.

Nikolay İvanoviç dərsdən qayıdıb, bir də dərsə gedənədək, gününü azarlı arvadının yanında keçirirdi. Ancaq bir-iki dəfə arvadının təvəqqəsinə görə Əşrəfi kirşəyə mindirib gəzdirmişdi.

Qazanın çovğunlu və boranlı qışı axıra yetdi. Bahar günəşi havanı, torpağı qızışdumağa başladı. Qar əridi. Qazanka və Volqa çayları buzdan azad oldular. Ağaclar çiçəkləşib, otlar göyərdi.

Sofiya Aleksandrovna azardan sağalıb, Əşrəfi tez-tez gəzməyə aparırdı. Qazan bağlarının içində "Russkaya Şvətsariya" adlı bağ Əşrəfin çox xoşuna gəlirdi, çünki bu bağ hündür ağacları ilə vətəni Qafqaza çox bənzəyirdi. Bu bağın bir tərəfində uşaqlara məxsus bir yer hazırlamışdılar ki, orada onlar oynayırdılar.

Bir dəfə Sofiya Aleksandrovna Əşrəfə Qafqaz libası geyindirib, həmin bağa apardı. Onu uşaqların içində qoyub özü bir xanımla söhbətə məşğul oldu. Əşrəf bir skamyada oturub, qəmgin-qəmgin uşaqlara baxırdı. İki uşaq, biri oğlan, biri qız, Əşrəfi belə qəmgin görüb, onu oynamağa təklif etdilər. Amma Əşrəf istəmədi.

Bu bağ, bu oynayan uşaqlar, Əşrəfin yadına vətənlərini, ata-anasını və Həsən lələsini saldı. Zavalı uşaq başını skamya üzərinə qoyub, həzin-həzin ağlamağa başladı. Uşaqlar onun ağlamağını görüb, başına yığıldılar. Birisi ona oyun şeyi verdi ki, ağlamasın, o biri uşaq, əlinə konfet uzatdı. Bir balaca qız da yaylığını çıxarıb, onun gözlərini sildi. Bu uşaqların içində doqquz yaşında, üstü Avropa libaslı, amma başında ağ fəs Mustafa adlı bir müsəlman uşağı da var idi. Bu uşaq Əşrəfin paltarından onun bir müsəlman olduğunu zənn edib, onunla belə sual-cavab etdi:

- Sin müsəlmanmısən?

Əşrəf cəld başını qaldırıb, Qafqaz ləhcəsində cavab verdi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Hə, müsəlmanam!
- Adın niçindir?
- Əşrəf!
- Niçi yaşın bar?

Əşrəf "niçin", "bar" ləfzələrini anlamadı isə də "yaş" sözündən sualı başa düşdü və dedi:

- Mənim yeddi yaşım var!

Mustafa da Qazan uşağı olduğundan Əşrəfin dilinl yaxşı anlamayırdı; o, Əşrəfdən soruşdu:

- Sinin atan barmı?
- Yoxdur, atam ölübdür!

Sonra Mustafa Əşrəfin əlindən tutub dedi: - Yıblama, gəl, minimlən gitik! (Ağlama, dur, mənimlə gəzək!)

Əşrəf durub onunla gəzməyə getdi. Əşrəf öz başına gələni ona nəql edirdi. Mustafa onun dilini tamamilə anlamayıb, ancaq bəzi sözlərini başa düşurdü.

Mustafanın atası, Bürhanətdin adlı, dövlətli bir müsəlman idi. Sənəti sövdagərlik idi. Mustafadan başqa da bir övladı yox idi. Övladına həm ana, həm de rus dili oxudurdu. Mustafa hər gün qulluqçuları ilə gəlib, "Russkaya Şvətsariya" bağında oynayırdı. Mustafa Əşrəfə yarıtürk və yarırus dili ilə qandırmışdı ki, hər gün bu bağa gəlib oynasınlar; Əşrəf də buna razı olmuşdu. Bu vaxtdan başlayıb, Əşrəf və Mustafa hər gün bu bağda görüşüb, dostlaşdılar. Sofiya Aleksandrovnaya mümkün olmayan vaxt, Əşrəfi qulluqçularına qoşub, bağa gəzməyə göndərərdi. Mustafanın səyi ilə Əşrəf az vaxtda Qazan dilinə də aşina oldu. Sofiya Aleksandrovna bağda Mustafa ilə tanış olmuşdu. Onun tərbiyəli və həlim bir uşaq olduğuna görə, Əşrəflə yaxınlaşmağına özü də səy edirdi. Bundan əlavə, Əşrəf bir müsəlman uşağı olduğunu mülahizə edib, fikir edirdi ki, divan vasitəsilə Əşrəfin ata-anası və qohum-əqrəbası tapılacaqdır. Mustafa Əşrəfi qonaq çağırıb, onu öz ata-anası ilə tanış etmişdi. Əşrəf onların hər ikisinə çox xoş gəlmişdi. Mustafanın anası Ayişə, hər onu görəndə bağrına basıb əzizləyirdi, öpürdü və onun halına yanırdı. Əşrəfin də, Ayişə çox xoşuna gəlirdi. Hər onu görəndə qucağına atılıb, onu öpərdi, çünki onun bir suyu anasına oxşayırdt. Əşrəfin vasitəsilə Barsovalar da onlar ilə tanış olub, gedib gəlirlərdi. Bu iki külfət bir-birini sevib dost oldular. Sofiya



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aleksandrovna Qazanın abi-havasını götürməyib təzədən azarladı və bir aya qədər naxoş olub, may ayının axırında vəfat etdi. Onun ölümü vəfalı ərini çox qəmgin etmişdi. O idi ki, yay tətili başlanan kimi, qəmini dağıtmaq üçün, Avropa səyahəti fikrinə düşdü. Əşrəfi özü ilə səyahətə aparmağı məsləhət bilməyib, onu müvəqqəti Bürhanəddingildə qoydu; onlar isə, Əşrəfi çox şadlıq ilə qəbul etdilər. Yay tətili qurtardı. Nikolay İvanoviç gəlib çıxmadı. Bürhanəddin bu barədə ədadi məktəbindən xəbər bilmək üçün nazirin yanına getdi. O da Nikolay İvanoviç Parij şəhərində vəfat etdiyini xəbər verdi. Bu xəbər hamı külfəti qəmgin etdi.

Əşrəf Bürhanəddingildə qalıb, Mustafa ilə bərabər yaşamağa başladı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## UŞAQLIQ HƏYATIMDAN XATİRƏLƏR

Atam Rzaqulu deyərmiş ki, mənim üç oğlum, bir qızım olacaqdır. Onlara bu adları qoyacağam: Qəhrəman, Rüstəm, Süleyman, Məhtaban. Atamın bu arzusıı əmələ gəlir.

Böyük oğlu Qəhrəman öz sağlığında, hələ uşaq ikən vəfat edir. Mənim təvəllüdümdən iki ay sonra özü də vəfat edir. Üç körpə uşağın pərvəriş, təlim və tərbiyəsi annam Dürnisənin öhdəsinə düşür. Dayım Səfərəli Vəlibəyov (Zaqafqaziya səminariyasının müəllimi) bacısının bu ağır vəzifəsini bir qədər yüngülləşdirmək məqsədilə böyük qardaşım Rüstəmi, altı yaşında uşaq ikən, yaşadığı Qori şəhərində aparır. Orada öz yanında hazırladıb Tiflis şəhərində gimnaziyaya qoyur. Mən də bacım Mahtabanla anamın himayəsində, Seyidli kəndində yaşamağa başladıq. Seyidli kəndi indiki Ağdam şəhərinin bir hissəsidir. Uşaqlıq həyatımın böyük hissəsi bu kənddə keçmişdir.

## KƏND MƏİŞƏTİ

Seyidli və onu əhatə edən kəndlilərin bağ-bağatı o dərəcədə boldur ki, göz ətrafda ot və ağacdan savayı bir şey görmür. Haraya baxırsan bağ, bağ və yenə də bağ. Hətta göyün üzü agacların arasından parça-parça görünür. Dar doqqazlarından başqa açıqlıq yer yoxdur. Buranın üzüm bağları Gürcüstan bağları kimi gələsər deyildir. Tənəkləri hər növ hündür ağaclara dırmaşdırılmışlar.

Payız fəsli üzüm salxımları budaqlardan sallanaraq ağacları yolka kimi bəzəyirlər.

Mən gözlərimi açdıqda özümü belə zəngin təbiət içində gördüm. O məni mərhəmətli qucağında yaşadarkən, həyatın ağır, zəhərli hallarını - yetimlik, yoxsulluq məşəqqətini unutdururdu. Biz uşaqların bütün günləri bağlarda keçirdi. Ta aclıq bizə qalib gəlməyincə evlərimizə qayıtmazdıq. Qayıtdıqda da çox vaxtı, əllərimizə bir parça çörək alaraq, yenə də bağa qaçardıq. Cürbəcür meyvələr orada; çiçəklər, göy



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

otlar orada; rəngin pərvanələr, oxuyan quşlar orada. Bizi bağlara cəlb edən şeylər bunlar idi.

İlin hər fəslində biz uşaqlar üçün bağda məşğuliyyət var idi. Bahar vaxtı ağaclar hər növ rəngin çiçəklər açaraq, bağları gülüstana döndərirdi. Bu zaman quşlar yuva tikməyə məşğul olduqda, biz də onlara bəhs edərək evcik tikib çiçəklərlə bəzərdik. Bu mövsümdə yetişməyə başlayan meyvələrə gəldikdə, biz onların deyməyini gözləməzdik. Alça çiçəyini tökүb bir balaca böyüyən kimi göy olmağına baxmayaraq, duz ilə yeyərdik. Sonra tut ilə gilas dəyməyə başlardı.

Yay fəslində ərik, gavalı boyürtkən deyərdi. Payız geldikdə, böyüklərlə bərabər, üzüm, heyva, nar, əzgil, zoğal, alma, armud, qoz və qeyri meyvələr yığmağa məşğul olardıq. Hətta qışda da özümüz üçün iş tapardıq. Qar hər yeri bürüyən zaman, biz bağın xiyabanlarında qardan top qayırar, onları yumalamağa başlardıq. Top getdikcə irilənərək axırda boyumuzdan hündür olardı, daha yumalamağa gücümüz çatmazdı. Ya da qardan adam, heyvan heykəli qayırardıq. Lakin bu oyunun axın ağlamaq olardı. Çünki üşümüş əllərimizi oda verdikdə sızıldamağa başlardı.

Uşaq bir qədər özünü anladıqda hər şeyin sirrini bilmək istəyir. O zaman ananın təlim və tərbiyə rolu artır. Çünki birinci növbədə uşaq sualı ona verir. Doğrudur, uşağın hər sualına cavab vermək müşküldür. Lakin mümkün olan dərəcədə cavab verib onu sakit etmek lazımdır. Mən də anama çox sual verərdim. Bir dəfə anam ilə bağımızda idim. Cırcırama aramsız cırıldayırdı.

- Ana, o cırcırama nə deyir, - deyə sual etdim.
- Oğlum, o cırcırama deyir ki:

Qarışqacıq-quruşqacıq.
Mənə dedi, qarışqacıq.
Dedi, dedi, dedi, dedi.

Mən anamın bu cavabına xeyli güldüm. Sonra o sözləri əzbərlədim. Cırcırama oxuyanda mən də ona qoşulub deyərdim:

- Qarışqacıq-quruşqacıq,

Mənə dedi, qarışqacıq.
Dedi, dedi, dedi, dedi.

Səslərin ahəngi cırcıramanın oxumasına elə bənzəyirdi ki, sanki doğrudan da, cırcırama o sözləri deyirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

* * *

Yenə bir gün anam həyətdə oturub köynək tikirdi. Mən də yanında oturmuşdum. Sərçələr "cik-cik" edərək həyətə səs salmışdılar. Tut ağacının başında oturmuş sərçə birdən: "Cırrıt!" edərək səs saldı. Sərçələr o dəqiqə səslərini kəsib özlərini çəpərin içinə soxdular. Mən buna təəccüb edib soruşdum:

- Ana, o sərçə nə dedi? Quşlar niyə gizləndilər?
- Oğlum, o sərçə dedi ki, qaçın, tez gizlənin, budur qırğı gəlir! Doğrudan da bir azdan sonra qırğı göründü. Çil xoruz qışqırıq saldı.

Qırğı dayanmayıb keçdi. Mən heyrətdə idim. Təəccüblə soruşdum:

- Ana, bu quş dilini sən haradan bilirsən? Mən də öyrənə bilərəmmi?

Annam gülərək dedi:

- Niyə bilmirsən! Quşlara fikir versən, öyrənə bilərsən. Tağı əmoğlun ovçudur. O, quşlar, heyvanlar haqqında çox şey bilir. Ondan soruş, desin.

**TAĞI ƏMİ**

Əmim Mirzə Məmmədin üç oğlu var idi: Tağı, Aslan, Mehdi. Tağı böyük, Mehdi kiçik qardaş idi. Sonuncu İranda tibb təhsil edərdi. O, İrana gedən zaman mən çox kiçik olduğuma görə yadıma gəlmir. Qardaşlardan yalnız Tağı evli idi. Onun məndən iki yaş kiçik Məmmədağa adlı bir oğlu var idi. bu, mənim oyun yoldaşım idi. Tağı əmi sair əmizadələrimə nisbətən məndə böyük təsir buraxmışdı. Səxavətli, rəhmdil, həlim təbiətli bu şəxs öz xasiyyəti cəhətincə hamının hörmətini qazanmışdı. Atam kimi onun da ova artıq həvəsi var idi. Qızılquş, qırğı, tula saxlayıb, ölənə kimi ondan əl götürmədi. Ata məhəbbətini görmədimsə də, atalıq məhəbbətini bu sevgili əmizadəmdə gördüm.

Tağı əmi quşçular arasında məşhur idi. O, bəslədiyi quşun önündən bir qırqovul qaçıb canını qurtara bilməzdi. Ov tulaları da çox təlimli olardılar.

Mən əvvəllərdə quşların adlarını, növlərini, yaşayışlarını, xasiyyətlərini bilməzdim. Çalağan ilə quzğuna fərq qoymazdım. Onları mənə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

öyrədən Tağı əmi oldu. Göyün üzündə bir qara nöqtə kimi görünən alıcıquşu mənə göstərərək deyərdi:

- Bax, o göy üzündə süzən quş qaraquşdur. Ova çıxıbdır.

- Tağı əmi, o yuxarıda quş yoxdur. O, kimi ov edəcəkdir? – deyə soruşduqda:

- Onun ovu yerdədir. Alıcı quşların gözləri çox iti olar. Onlar yerdə siçan kimi xırda bir heyvanın hərəkət etməyini görərlər. İndi o qaraquş da yerdə dovşanın qaçdığını, ya kəkliyin uçmağını gördükdə, ildırım kimi şığıyıb caynağına alacaqdır. Sonra bir uca dağın başında oturub yeyəcəkdir, - deyə Tağı əmi mənə cavab verərdi:

Mən qaraquş, quzğun, çalağan, qızılquş, qırğı, yapalaq, bayquş, sar kimi ət yeyən vəhşi quşları, alacəhrə, şeyda bülbül, sarıköynək, baltadimdik kimi oxuyan bağ quşlarını, ya da turac, qırqovul, kəklik, çil, bildirçin kimi ov quşlarını məktəbdə şəkildən yox, hələ uşaq ikən təbiətin özündə, Tağı əminin vasitəsilə gördüm, öyrəndim. Onun mürəbbilik vəzifəsi bir bunlarla bitmirdi. Mühitimdə gördüyüm şeylərin adlarını, onlarla əmələ gələn dəyişiklikləri yenə də ondan öyrəndim. Mən əvvəllər qurdlar ilə kəpənəklərin əlaqədar olduqlarını bilməzdim.

Bir dəfə bağda ala-bəzək bir qurdu yarpağa büküb gətirdim.

- Tağı əmi, bax gör nə qəşəng qurddur? - deyə ona göstərdim.

- Doğrudur, gözəldir. Lakin bu qurd kəpənək olanda daha da gözəl olacaqdır, - deyə Tağı əmi əlavə etdi.

Mən təəccüb edərək soruşdum:

- Bundan necə kəpənək olacaqdır? Onun qanadları var, bunun yoxdur.

Tağı əmi cavab verdi:

- Bu qurd yarpaq yeyə-yeyə böyüyəcəkdir. Sonra hörümçək kimi tor hörüb içində qalacaqdır. Bir müddətdən sonra onun gözləri, ayaqları yox olub topal olacaqdır. Sonra topala qanadlar, göz gələcəkdir.

Yazın isti günlərinin birində baramasını deşib çıxacaqdır. Bağda uçub çiçəklərə qonduqda, sən də papağını əlinə alaraq onu tutmaq fikrinə düşəcəksən.

Mən o vaxta kimi ipək qurdunun saxlanılmasını görməmişdim. Sonralar özümüz qurd saxladıqda Tağı əminin nağıl etdiyini öz gözümlə gördüm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

* * *

O zaman məndə iki arzu vardı. Biri at minib seyr etmək, digəri Tağı əmi kimi quş ovuna getmək. Bunların birincisinə Tağı əmi razı olaraq, ikincisi üçün:

- Hələ ova gedən vaxtın deyil, gələn il səni qırğı ilə bildirçin ovuna aparacağam. Qızılquş ovuna atla gedərlər. Yaxşı at minmək öyrənsən, ona da apararam, - deyə məni sevindirdi.

Tağı əmi dediyinə əməl edən şəxs idi. O gündən atları suvarmağa göndərəndə mənə də boz madyana minməyə izin verdi. Anam təşvişə düşərək:

- Ay Tağı, at uşağı yıxar, - dedikdə:
- Qorxma, heç zad olmaz. Bizlər at üstündə böyümüşük, - deyə onu sakit etdi.

Mən get-gedə kənd uşaqları arasında birinci at minən oldum. Bir hadisə anamı qorxuya saldı. O məni bir müddət at minməyə qoymadı. Belə ki, bir dəfə Həsən adlı yoldaşımla Ağdam bazarına gedirdim.

- Gəl çapışaq, - deyə yoldaşım təklif etdi. Onun altında üçyaşar ürgə idi, mənimkində Tağı əminin boz madyanı.
- Kəhər at altımda olsaydı, gəl çapışaq deməzdin, - deyə Həsəni utandırdım.
- Eybi yoxdur, sənə bir qədər ara versəm, razı olarsanmı?
- Olaram, - deyə cavab verdim.

Bazarla, çapışdığımız yerin məsafəsi iki kilometrə kimi var idi. Yol enli və hamar idi. Qorxulu yol üç döngə idi. Mən irəlidən Həsən arxadan atların başını buraxdıq. İki döngəni salamat keçdik. Üçüncü döngəyə xeyli qalmış Həsən gəlib məni keçdi. Bunu gördükdə mən atın başını yığdım. Lakin Həsən ürgəni saxlaya bilməzdi. Bazara dönən döngəni keçdikdə ürgə Həsəni üstündən üç metrəyə qədər atdı. Bunu gördükdə adamlar yüyürüşdülər. Mən də gəlib çatdım. Həsənin qıçı iki yerdən sınmışdı. Onu xalça üstə qoyub evlərinə apardılar. Seyidlinin məşhur sınıqçısı Məşədi Yusif onu bir ayın ərzində sağaldıb ayaq üstə qoydu. Həsən irəliki kimi yenə bizimlə oyun yoldaşı oldu. Onda axsamaqdan əlamət belə qalmamışdı.

Bu məşhur sınıqçını, uşaqlar üçün yazdığım "Nurəddin" adlı hekayədə yad etmişəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## QUŞ TUTMA

Tağı əminin göstərişi ilə mən və Məmmədağa qaratoyuq, ala-cəhrə, sərçə kimi quşları tutmağı öyrənmişdik. Qaratoyuq tutmaq üçün at qılından cələ hörüb, bağda, ağaclar altında çox gözəl olan yerdə qururduq. Özümüz də uzaqda, ağac altında gizlənib, pusquda dururduq.

Qaratoyuq bağın xəzəllərini toyuq kimi eşələyə-eşələyə gəlib axırda cələ qurduğumuz yerə çıxırdı. Eşələndiyi vaxt ayağı cələnin qıldan qayrılmış gözünə düşürdü. Qaratoyuq ayağını çəkdikdə qıl halqa daralıb onu bənd edirdi. O zaman quş ayağını azad etmək üçün dartmırdı və çapalayırdı. Bunu gördükdə biz qaratoyuğun üstünü alırdıq. Sevinə-sevinə aparıb qəfəsı salırdıq. Qaratoyuq əsarətə tez öyrənişir, sonra oxumağa başlayır. Hətta onu tar ilə oxumağa öyrədirlər.

Sərçı tutmaq üçün heç cələ də lazım gəlmirdi. Həyətin bir küncündə xəlbirin altına və yanlarına dən tökürdik. Xəlbirin bir yanını qaldırıb altına karandaş kimi hamar çubuqdan dirək verərdik. Çubuğun alt ucuna uzun sap bağlayıb pusquda durardıq. Sapın ucu əlimizdə olardı. Sərçələr dənləyə-dənləyə gəlib xəlbirin altına girdikdə birdən sapı çəkərdik. Sərçələr nə qədər cəld qaçsalar da, yenə bir-ikisi xəlbirin altında qalardı.

Bunların maraqlısı çərtmə ilə alacəhrə tutmaq idi. Bütöv qozu iki parça edərdik. Parçanın birin tam ortasından deşərdik. Bu deşiyə çöp taxardıq. Onun ucuna da bircə dənə at qılından kəmənd kimi halqa qayırıb bağlayardıq. Çöpün ucunu qoz ləpösindən yuxarı çıxartmırdıq. Çərtməni bağda ya yerə sancardıq, ya da ağacda budağa bağlardıq. Alacəhrə qoza çox aşiqdir. Çərtməni görə-görə yenə də özünü onun üstə atır. Lakin qoz ləpəsini dimdiklərkən, həmişə ayaqlarını halqanın içinə düşməkdən gözləyir. Nə qədər cəldlik etsə də axırda dadlı qoz ləpəsi onun əsir düşməsinə bais olardı. Ayağı tora düşüb asıla qaldıqda, qışqırıq salardı.

## MƏMMƏDAĞANIN ALACƏHRƏSİ

Çox köçəri quş var ki, qış mövsümü Qarabağda qalıb isti yerlərə köçməyir. O cümlədən biri də bağ quşu alacəhrədir. Nağıl etdiyim il qış bollu qar və çovğun ilə gəldi. Hər növ havaya öyrənmiş sərçələr



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

belə qışa davam gətirə bilirdilər. Onlar gündüzlər özlərini həyətdə, tövləyə, peyinliyə, evlərin dəhlizlərinə soxaraq yem tapırdılar. Gecələr də samanlığa, dəyələrə, daxmaların, güləş damların deşiklərinə girərək özlərini soyuqdan mühafizə edirdilər. Lakin bağlarda yaşayan şux, sevimli alacəhrəciklər belə havada həm acından, həm də soyuqdan artıq əziyyət çəkirdilər. Bunların bütün pənah yerləri bağların qaratikan çəpərləri idi ki, orada az-çox yem tapa bilidilər. Gecələr də orada yatırdılar. Həmin qış, yoldaşım Məmmədağanı çiçək azarı tutdu. Bu xəstəliyə düşməni soyuqdan saxlamaq lazımdır. Məmmədağa Tağı əminin tək övladı idi. Ona görə onun xatiri əziz idi.

Məmmədağanın çox gözəl xasiyyəti var idi. Mən onu hər vaxt mühafizə edərək qoymazdım ki, uşaqlar ona əziyyət versinlər. Əmizadələrimin köhnədən qalma bir qara damı var idi. Orada heç kəs olmurdu. Məhsul saxlamaq üçün anbar idi.

Qara damlar qışda çox isti olarlar. Necə də olmasın! Dərin quyu kimi yerin içinə girən damlara ortadan bir baca qoyub üstünə bir metroya qədər qalın torpaq tökürdülər. Bu ağırlığa davam gətirməsi üçün torpaq pillələr qazırlar. Onun üstünü örtürlər. Buna dəhliz deyirlər. Babalarımızın bu köhnə "imarət"inə nədən "qara" adı verildiyini bilirsinizmi? İki şeydən: biri üstünə tökülən qara torpaqdan, o biri tüstüdən, içərisi hirslənib qurum tutaraq, qaralmağından.

Tağı əmi Məmmədağanı soyuqdan saxlamaq üçün arvadı Bacı-xanımla dama yığışdı. Ocağa böyük kötüklər qoyub yandırırdılar. Gecə-gündüz damda ocaq sönməzdi. Bayırdan içəri girdikdə sanki bir hamama girirdin. Mənim günlərimin çoxu burada keçirdi. Tağı əmi ovdan cürbəcür hadisələr söyləyirdi.

Məmmədağanı sevindirmək üçün bir dəfə çortmə qurub bir ala-cəhrə tutdum. Məmmədağa buna çox şad oldu. Qəfəs olmadığı üçün alacəhrəni bir gün aşsüzən altında saxladıq: zavalı quşcığaz o qədər aclıq çəkmişmiş ki, azadlığı üçün əsla çalışmayıb, ancaq qarnını doydururdu. O biri günü ayağına uzun sap bağlayıb damın içinə buraxıdıq. Quşcığaz yenə də qaçmaq fikrində deyildi. Damın içində, dəndən tutmuş çörək, qənd qırıntılarına kimi nə düşürdü dimdikləyib yeyərdi. Məmmədağa elə öyrənmişdi ki, ona süd doğraması, südlü aş, firni və qeyri xörək verdikdə alacəhrə də boşqabın qırağına qonub onunla bərabər yeyərdi. Bir azdan sonra sapı da ayağından açdıq. Buna çox şad idi. Çünki damda sap ilə rahat gəzə bilmirdi. Həmişə dimdiyi ilə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sapı ayağından çıxartmaq istəyirdi. Bu gündən sərbəst olaraq, damın içində cik-cik edə-edə gah uçurdu, gah yorğan-döşək yükünün üstə oturub mürgüləyirdi. Lakin damdan bayıra çıxmırdı.

Bir səhər damda oturmuşduq. Birinci gün idi ki, hava açılıb gün çıxmışdı. Günəşin şəfəqi damın bacasından içəriyə düşmüşdü. Ala-cəhrə cik-cik edərək damda uçurdu. Birdən bacadan çıxıb getdi.

- Ah, quşum qaçdı! - deyə Məmmədağa qışqırdı.

- Qorxma yenə gələcəkdir. Belə isti yeri, yemək-içməyi buraxıb getməz, - deyə Tağı əmi onu sakit etdi. Doğrudan da, bir azdan sonra yenə də cik-cik edərək bacadan içəri uçdu.

Bu sevimli quşcığaz tamam qış damda yaşayıb baharda bağa uçdu. Lakin köhnə məkanını və dostlarını unutmayıb gahdan bir ziyarət edirdi.

## İLANLARLA MÜBARİZƏ

Yazın isti günlərindən başlamış payızın əvvəlinə kimi, bağlarda gəzdikdə, dar doqqazlarla getdikdə, koluqda, qulançarlıqda biz uşaqlar, özümüzü zəhərli ilanlardan gözləməliyik. Açıqlıq yerdə bu asan idi. Lakin bağda, qalın otlar içində qıvrılıb yatmış ilanı hardan gorub, özümüzü bu müzür heyvandan mühafizə edəydik? Dostumuz koramal otların arası ilə hərəkət etdikdə məlum olurdu. Amma zəhərli ilanlar məlum olmurdu. Bir yay olmayırdı ki, ilan uşaq vurmamıs olsun. Onlar da bizdən paylarını yaxşıca alardılar. İsti günlərdə çəpərlərin döşü ilanlarla dolu olardı. Onlar yuvalarından çıxıb özlərini günə verərdilər. Biz də dəstə bağlayıb onlarla müharibə edərdik. Hər birimizin əlində uzun çomaq olardı. Kimin gözünə qıvrılıb yatmış, ya hərəkət edən ilan sataşsaydı, tez çomağı ilə vurub öldürərdi. Hər kəs çox öldürsəydi, o, birinciliyi qazanardı.

Bilmirəm haradan çıxmışsa, guya kərtənkələlər ilanlara ağu verirlər, ona görə bunları da düşmənlər sırasma qoyub qırardıq. Bu barədə Tağı əmidən soruşduqda o, belə cavab verdi:

- Yalan sözdür; kərtənkələlərin zəhəri yoxdur. özləri də zəhərli həşəratı yeyib tələf etməklə bizə böyük mənfəət yetirirlər. O ki qaldı ilana, onun iki zəhərli dişi var. Zəhər dişinin dibində nazik pərdəli iki



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

tuluğun içindədr. İlan çaldıqda pərdələr yırtılıb zəhər yaralının qanına qarışır, onu zəhərləyib öldürür.

Tağı əminin bu verdiyi məlumatdan sonra biz kərtənkələ qırmağı tərk etdik.

## TAĞT ƏMİNİN TƏRLANI

Tağı əminin iki növ ov quşu olardı. Biri qızılquş, o biri qırğı. Qırğı ilə Tağı əmi bildirçin tutardı. Qızılquş ilə qırqovul, kəklik, turac ovuna gedərdi,

Son zamanlar Tağı əmi bir yerə getdikdə quşları mənə tapşırırdı. Quşlara nə qədər və nə cür ət verməyi Tağı əmi mənə öyrətmişdi.

- Bax, ət yağlı olmasın, - deyə Tağı əmi dübarə tapşırardı.

Mən Tağı əminin hər hərəkətini götürmüşdüm. Onun kimi bəhləni geyirdim. Quşun bağını qıfıldan açardım. Əti əlimə alaraq, bir-iki addımdan quşu muşqururdum. Ac quş tez özünü ətin üstünə atırdı. Lakin Tağı əmi kimi quşu ağaca buraxıb çağırmağa cürət edə bilmirdim. Qorxurdum ki, dövr edib havaya qalxsın, tuta bilməyim.

Nağıl etdiyim il, Tağı əmi dağdan gəldikdə, özü ilə bir qızılquş da gətirdi. Bu, tərlan idi. Tağı əmi onu yuvadan düşürmüşdü. Ona lazım olan tərbiyəni verərək ova hazırlayırdı. Bir müddət ac saxlayıb yem vaxtı həyətdə ağaca buraxırdı. Sonra əlinə cücə götürərək heyətin o biri başından çağırırdı. Tərlan cücəni gördükdə uçub əlinə qonurdu. Cücənin tüklərini yolmağa başlayırdı. Ətini deddikdə Tağı əmi cücəni quşun əlindən alıb onu yenə ağaca buraxırdı. Dübarə çağırırdı. Quş uçub gəlirdi. Bir-iki dəfə belə etdikdən sonra yedirirdi. Sabahısı cücə əvəzinə ət götürürdü. Bəzi vaxt qırmızı dəsmalı bükərək ətə oxşadırdı. Tərlan ona da gəlirdi.

Bu tərlanın caynaqları qeyri quşlara görə çox iti idi. Bəhlədən keçib ələ batırdı. İki bəhləni bir-birinin üstündən geyməyincə onu ələ götürmək mümkün deyildi.

Bir dəfə Tağı əmi bazara getmişdi. Tərlan həyətdə, öz müəyyən yerində qıfıl üstündə bağlı idi. Mən və Məmmədağa bağda idik. Birdən həyətdə qışqırıq qopdu. Biz qaçaraq gəldik. Onda gördük ki, Tərlan, Məmmədağanın bir yaşında bibisi oğlu Əyyubu basmarlayıb cücə kimi altına alıbdır. Arvadlar da quşu tutub çəkirlər ki, uşağı buraxsın.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Nə qayırırsınız? - deyə qışqırdım. - Quşu çəkməyin, yoxsa uşağın ətini qopardar. - Cəld arvadlan kənar edib tərlanın ayaqlarını sıxmağa başladım. Quşun caynaqları açılıb uşağı buraxdı. Arvadlar bu ittifaqdan elə heyəcana gəlmişdilər ki, quşu boğub öldürmək istəyirdilər. Mən mane oldum. Yaxşı ki, bu halda Tağı əmi özü gəlib çıxdı. Arvadları sakit edərək dedi:

- Yaxşı, mən quşumu bu gündən damda saxlayacağam. Siz də uşaqlarmızdan muğayat olub, başına buraxmayın.

Tərlanın Əyyuba hücum etməsinə onun qırmızı köynəyi səbəb olmuşdu. Tərlan qırmızı şeyə həris idi. Harada görsəydi üstünə atlanardı. Tağı əminin bu tərlanı axırda məşhur bir quş oldu.

## AXTAR VƏ ŞƏNGÜL

Axtar və Şəngül Tağı əminin ov tulaları idi. Axtar erkək, Şəngül qancıq idi. Axtar qısaboylu, gödəktüklü, bozrəngli, görkəmsiz tula idi. Gödək, məxmər kimi hamar, düm ağ rəngli, üstü qara xalı və zolaqlı tükü var idi. Beli, ayaqların, burnu incə idi. Qaşlarının üstündə iki gözə bənzəyən xalı vardı.

Bu tulaların zahirləri başqa olduğu kimi, xasiyyətləri də başqa idi. Axtar qaşqabaqlı, tənbəl, İstirahət sevən tula idi.

Şəngül diribaş, şən, mehriban, sevimli bir heyvan idi.

- İt də gülərmi? - deyə şübhə edən şəxs Şəngülün gülər halətini gördükdə - bəli, gülər, - deyə təsdiq edirdi. Budur, tənbəl Axtar həytdə uzanıb özünü günəşə verir. Şəngül isə oynamaq istəyir. Nə etsin?

Kimlə oynasın? Bozdar köpəkləmi? O, qocalmış, gözlərinə pərdə gəlmiş heyvərə bir köpəkdir. Onunla oynamağı Şəngül sevmir. Bir dəfə onunla oynadıqda Bozdar nədənsə acıqlanıb onu boğmuşdu: Ondan bəri Bozdar ilə yaxınlıq etmirdi.

Tənbəl də olsa, yenə öz yoldaşı Axtar, Şəngül qısıla-qısıla gedib, Axtarın ayağından çəkməyə başladı. Axtar başını qaldırıb, dişlərini ağardaraq mırıldadı. Şəngül kənara çəkildi. Axtar yenə uzandı. Bir azdan sonra Şəngül gəlib Axtarın qulağından yapışaraq çəkməyə başladı. Acıqlı Axtar qalxaraq onun üstə hücum etdi. Şəngül qoyub qaçdı. Axtar yenə uzanıb yatmağa məşğul oldu. İndi Şəngül onu başqa yol ilə təngə gətirməyə başladı. Axtarın üstündən o tərəf-bu tərəfə tullanaraq onu narahat etdi. Axtar bilirdi ki, oynamayınca Şəngül ondan əl



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

çəkməyəcəkdir. O idi ki, bir dəfə üstündən tullandıqda cəld qalxıb onu basmarladı. Sonra buraxıb özü qaçdı. Şəngül axır məramına çatdı. Axtar şövqə gəlib onunla oynamağa başladı.

Şəngül ilə Axtarın əsil bayramı Tağı əmi kəhər atı minib, qızılquşu əlinə götürərək ova gedəndə idi. Tulaları çağırmağa ehtiyac yox idi, çünki qızılquşun qumru səsi onları xəbərdar etmişdi. İndi Axtarı tanımaq olmurdu. Tənbəllik necə olmuşdu? Hərəkətsizlik harada qaldı? Şəngülə gəldikdə o, şadlıqdan özündən çıxardı. Gah sirk itləri kimi Axtarın üstündən tullanardı, gah qoca Bozdarın quyruğundan dartardı, gah da darvazanı cırmaqlayıb qaçmaq istəyirdi.

Bunların xasiyyətləri ovda büruzə verərdi. Axtar ovun izini aradıqda aram və diqqətlə hərəkət edərdi. Şəngül isə səbirsizliklə gah irəli qaçardı, gah yana üz tutub gedərdi. O zaman Tağı əmi:

- Şəngül qaldı! – deyə onu çağırardı. O da sahibinə tabe olaraq o saat geri qayıdardı, ovun izini yenidən aramağa başlardı.

Ovu tapdıqda Axtar da, Şəngül də öz təlimləri üzrə sağ əllərini qaldıraraq Tağı əmiyə baxırdılar. Tağı əmi:

- Bas! - dedikdə atlanıb quşu qaldırardılar. Lakin burada da Şəngül bəzi vaxt, ələlxüsus Tağı əmi gecikdikdə əsəbiləşərək ovu izinsiz qaldırardı.

## ÇƏRİK SƏFƏRİ

Yazın axırı idi. Biçin başlanmışdı. Tağı əminin ailəsi Çəriyə köçmüşdü. Çərik, Seyidli kəndinin əkin və otlaq yerləri idi. Orada bizim dəyirman və əkin yerlərimiz var idi. Tağı əmi məni bikef gördükdə:

- Qəm etmə. Biçin qurtarıb xırman başlandıqda gəlib səni də aparacağam. Orada Məmmədağa ilə vələ minərsiniz. Sonra tez-tez bildirçin ovuna gedəcəyik, - deyə mənim könlümü aldı.

Aradan on gün keçmiş Tağı əmi öküz arabası ilə gəlib çıxdı.

- Hazır ol, sabah səni də Çəriyə aparacağam. Məmmədağanın balıq qarmağı burada qalmışdır. Onunkunu da, özünkünü də götür, orada balıq tutarsınız, - deyə Tağı əmi tapşırdı. Hazır tilov olmadığı üçün Tağı əmi iynəni əyib bizə qarmaq qayırmışdı.

Səhər erkən araba qoşuldu. Tağı əmi bəhləni mənə vererək dedi:

- Al bəhləni gey, qırğım sən aparacaqsan, arabanı mən sürəcəyəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mən buna çox şad idim. Şəngül ilə Axtar məndən də artıq şad idilər. Anam məni ötürdükdə:

- Bax, oğlum, günəşdə gəzmə, çayda çimmə, yoxsa qızdırarsan, - deyə tapşırdı. Lakin özü də bilirdi ki, bunlara əməl olunmayacaqdır. Yola düşdük. Şəngül ilə Axtar arabanın ağır ayağı ilə gedə bilməyib gah irəli qaçırdılar, gah da qayıdıb qarşımıza gəlirdilər. Ağdamdan Çəriyə 9-10 kilometr yol idi. Çərəyin tarlalarına çatdıqda Axtar ilə Şəngül ovlamağa başladılar. Tağı əminin gözləri tulalarda idi.

- Axtar ovun izinə düşmüşdü. Qırğını mənə ver, - deyə Tağı əmi arabadan düşdü. Mən qırğını ona verdim. Tağı əmi qırğının qayışını açdı. Bu halda Axtar sağ ayağını qaldıraraq marığa durdu. Tağı əmi qırğını ovcuna aldı. Axtara yaxınlaşaraq:

- Axtar bas! - deyə əmr etdi. Tula o saat özünü bildirçinin üstünə atdı. Bildirçin pırıltı ilə qalxdı. Tağı əmi qırğını gəmşədi. Bildirçin əlli addım qaçmamışdı ki, qırğı onu havada caynağına alıb yerə endi. Mənzilə gəlib çatınca Tağı əmi altı bildirçin tutdu.

- Nahara sizə bildirçin çığırtması verəcəyəm. Məmmədağanın qızıl inəyi də yenicə doğmuşdur. Ləzzətli bulaması var, - deyə Tağı əmi tərif etdi.

Mənim gəlməyimə Məmmədağa çox şad idi. Biçarə nə etsin? Böyüklər işə məşğul, oynamağa uşaq yox.

## BALIQ YERİNƏ İLAN

Bir gün Məmmədağa ilə dəyirmanın aşağısında çinarların kölgəsində oturub, qarmaq ilə balıq tuturduq. Bir saatdan artıq ovlamağın nəticəsində adama barmaq iriliyində iki balıq tutmuşduq.

- Eh! İndiyə kimi əlimizlə gəlmələrdən bundan çox tuta bilərdik, - deyə Məmmədağa şikayətləndi.

- Doğru deyirsən, dur gedək axtaraq, - deyə mən də onun fikrinə şərik oldum.

Dəyirmanı yatırtdıqda, suyu dəhnədən arxa buraxardılar. Su axarkən yeri oyub çuxurlar, oyuqlar əmələ gətirərdi. Dəyirman işlədikdə arxın suyu kəsilərdi. Su ancaq oyuqlarda, çuxurlarda gölmə tutardı. Məmmədağa ilə bu gölmələrdə balıq axtarırdıq.

Yenə də ayaqlarımızı soyunub, qollarımızı çirmələyərək balıq axtarmağa başladıq. Bir az vaxtda 7-8 balıq tutduq. Arx aşağı gedər-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

kən bir böyük gölməyə rast gəldik. Paltarımızı soyunmağa məcbur olduq. Su gölmədə göbəyimizə kimi çıxırdı. Bir az suyu araşdırmışdıq ki, Məmmədağa səsləndi:

- Bay, balıq əlimə dəydi!
- Hanı, hanı? - deyə mən də onun yanında axtarmağa başladım. Bir azdan sonra mənim də əlimə bir uzun şey dəydi.
- Nə uzun balıqdır... Söz ağzımızda yarımçıq qaldı. Qara zolaqlı, ucları diş-diş bir ilan suyun üzünə çıxdı.
- İlan! - deyə qışqırdım. Biz cəld Sudan çıxdıqda ilan da üstümüzə hücum edərək quruya çıxdı. Lakin gölmənin ətrafı yamac olduğundan sürüşüb yenə suya düşdü. Bizim qışqırığımıza xırmandan Tağı əmi ilə bərabər adamlar töküldülər. İlan sudan bir barmaq yuxarıda deşik tapıb başını oraya soxmuşdu. Adamlar kürək ilə onu öldürüb sudan çıxartdılar. Tağı əmi ilana baxaraq dedi:
- Yaxşı salamat qurtarmısınız. Bu ilan gürzədir. Çox zəhərli ilandır. Görünür yuxarıdan sürüşüb suya düşmüşdür, sonra çıxa bilməmişdir.

Mən Seyidlinin çəpərlərində belə ilan çox görmüşdüm və uşaqlar ilə də öldürmüşdüm. Lakin gürzə olduğunu bilmirdim. Bu hadisəni uzun müddət unuda bilmədim. Buna səbəb Krılovun "Uşaq və ilan" təmsili idi ki, uşaqlığımda əzbərlətmişdilər. İndi də onu yadımda saxlamışam:

İstər ilan balıq tuta, ilan tutub bir uşaq,
Parçalanıb qorxudan o vaxtında dil-dodaq.
İlan baxıb uşağa aqil ol, deyib, əgər
Artsa belə cürətin, çox zərər sənə deyər.
Hifz elədi bu səfər allah səni, şükr qıl,
Bundan sonra zarafat etdiyini tanı, bil.

## TALESİZ QUŞCIĞAZ

Taxıl biçilib döyülmüşdü. Qalmışdı dəyirman işi. Tağı əmi asudə idi. Günlərinin çoxunu ovda keçirirdi. Yaxında ov etdikdə məni də özü ilə aparırdı. Bir gün Məmmədağa anası ilə Seyidliyə getmişdilər. Onlar bir də axşam qayıdacaqdılar. Tağı əmi dedi:

- Dur, biz də onlar gəlincə bildirçin ovuna gedək.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Mən bu təklifdən artıq şad oldum, çünki axşama kimi yoldaşsız nə edəcəyimi özüm də bilmirdim. Tağı əmi ov torbasını boynundan asaraq dedi;

- Vəzifələrimizi ayıraq. Axtar ilə Şəngül bildirçini izləyib qaldıracaqlar, mən də qırğını vaxtında vuracağam. O da ovu tutacaqdır.

Sən də onları bu torbaya dolduracaqsan.

Mən Tağı əminin sözünə gülüb dedim:

- Mənim işim haımsından asandır.

Ov üçün uzaq getmek lazım deyil. Biçilmiş tarlaların küləşliyindən bildirçinlərin "bit-billit" səsləri gəlirdi. Tağı əmi zəmilərə çatdıqda:

- Axtar tet! Şəngül tet! Ha burda, ha burda, Şəngül qaldı! - deyə tulaları ovlatmağa başladı. Bu gün Şəngül Axtara üstün gəlmişdi. Birinci ovu qaldıran o oldu. Tağı əmi bildirçinin başını kəsib mənə verdikdə Axtarın ayağı altından bir bildirçin də qalxdı. Qırğını buraxmağa fürsət olmadı. Bildirçin uçub yaxın bir kolun içinə girdi.

- Eybi yoxdur, o da bizim malımızdır, hara getsə axırda sənin torbanda olacaqdır, - deyə Tağı əmi kola tərəf üz qoydu. Bizdən irəli tulalar yüyürüb kola çatdılar. İkisi də başlarını kolun içinə soxduqdan sonra dalı-dalı çəkilməyə başladılar. Bu vaxt biz onlara çatdıq.

- Tağı əmi, tulalar nə üçün geri çəkildilər, - deyə soruşdum.

- Yəqin ilan görmüşlər, bu saat bilərik, - deyə Tağı əmi kola diqqətlə baxmağa başladı. - Səhv etməmişəm, ilandır, özü də gürzə. Qıvrılıb yatmışdır. Bu saat onu tutacağam, - deyə Tağı əmi qırğını mənə verdi.

Tağı əmi ilandan əsla çəkinməzdi. Bir balaca ağac ilə başından basıb. İndi də tənbəki cibindən çıxarıb içindən bir qədər qır çıxartdı. Sonra həmin çubuğun sapı ilə ilanın başından basıb boğazından yapışdı. Hazır etdiyi çubuq qırını ilanın boğazına salıb onu bir qədər əlində saxladı. Sonra yerə qoydu. İlan hərəkətsiz qaldı. Mən təəccüb edərkən Tağı əmi dedi:

- İlanın zəhərindən başqaları öldüyü halda, ilan özü tənbəkinin qırından zəhərlənib tələf olur. İndi bu ilan şişib kötük kimi olacaqdır.

- Bunu deyə Tağı əmi ilanı götürüb kolun üstünə qoydu. Sonra qırğını məndən alıb:

- Axtar tet! Şəngül tet! - deyə tulaları kola girməyə çağırdı.

Şəngül ilanın ölüsündən də qorxaraq kola yaxın düsmədi. Axtar isə özünü kolun içinə soxdu. Lakin bildirçini orada tapmadı. Məlum oldu ki, bildirçin ilan fəqərəsindən istifadə edərək özünü başqa yerə ver-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mişdir. Axtar da ovdan əl çəkən hərif deyildi. Tezliklə onun izinə düşüb tapdı. Tağı əmi deyən kimi bu da bizim malımız oldu. Günəş qüruba enirdi. Torba da getdikcə şişirdi.

- Daha kifayət edər, - deyə Tağı əmi evə tərəf döndü. Bir az getmişdik ki, Şəngül ayağını qaldıraraq Tağı əminin üzünə baxdı.

- Bu da Şəngülün xatiri üçün, - deyə Tağı əmi qırğını ovcuna aldı. Şəngül bunu gördükdə özünü bildirçinin üstünə atdı. Qırğı bu son bildirçini də tutdu. Tağı əmi bunu qırğıya vermək istədikdə:

- Tağı əmi, o bildirçini öldürmə, mənə ver, onu evə diri aparacağam, - deyə rica etdim.

- Yaxşı, al bunu. Torbadan bir bildirçin ver, qırğıya yedirdim.

Mən Tağı əmiyə bir ölü bildirçin verdim, o da diri bildirçini mənə verdi. Bildirçini cibimdə əlimlə tutmuşdum. Zavalı heyvancığın ürəyi elə döyünürdü ki, deyəsən bu saat partlayıb, canı çıxacaqdı.

Fikrim daim bunda olaraq necə qayıdıb ilan olan kola çatdığımızı bilmədim. Tağı əmi ilanı göstərərək dedi:

- Görürsən necə şişmişdir?

Mənim yenə də fikrim cibimdəki quşda olaraq, ilana məhəl qoymadım. Tağı əmi məni fikirli görərək dedi:

- Görürəm, həm yorulmusan, həm də acmısan, beləmi? Səbir elə, evə yaxmlaşmışıq.

- Yox, Tağı əmi, mən yorulmamışam, amma acmışam.

Yorulmağımı boynuma almadım ki, Tağı əmi bir də məni ova aparmaz. Lakin məni qəmgin və pərişan edən cibimdəki quşcığaz idi, ona çox acıyırdım. İndi bunu Tağı əmidən almağıma peşman idim. Bu torba başları kəsilmiş quşlara heç də acımırdım. Onları bu diridən xoşbəxt hesab edirdim. Onlar ölüb getmiş, daha bir də dirilib oxumayacaqlar, yuva tikib bala çıxarmayacaqlar... Yenə də quşcığazın ürəyi döyünürdü. Bir an rahat olmurdu. Bu isə mənə təsir edirdi. Nə edim? Buraxımmı! Onda Tağı əmi mənə nə deyər? Məni sevməz, bir də ova aparmaz. Yox, bu yaramaz, - deyə fikrimi dəyişdirmək istədim. Lakin cibimdəki ürəyi döyünən heyvancıq mənim də üreyimin döyünməsinə səbəb oldu. Daha səbrim tükənmişdi. Quşu azad etməkdən artıq, özümü bu əzabdan xilas etmək fikrində idim. Axırda belə bir hiylə gəldim: bir az Tağı əmidən geriyə qalaraq, əlimi cibimdən çıxarıb:

- Vay, yıxıldım! - deyə özümü yerə atdım. Bildirçin cibimdən çıxıb pırıltı ile uçmağa başladı. Qırğı bunu gördükdə çırpınıb Tağı əminin əlindən çıxdı. Ayaqlarından uzun qayış sallana-sallana bildir-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

çini tutub yerə endi. Tağı əmi onu qırğının əlindən alıb başını kəsdi. Sonra iki bölük edərək tulalara atdı.

- Görürəm, çox yorulmusan. Düz yerdə ayağın büdrəyir, yerə yıxılırsan, - deyə Tağı əmi gülməyə başladı. Mənim fikrim ölən quşda ikən, soruşdum:

- Tağı əmi, tox qırğı da ov dalınca gedərmi?

- Sənin quşun kimi bəxtsizlərin dalınca gedər, - deyə Tağı əmi təbəssüm ilə cavab verdi.

## QAYIBIN İTİ

Qayıb kişinin əvvəli mal-qaralı, qoyun-sürülü, dövlətli bir kəndli idi. Get-gedə dövləti əlindən çıxıb bir cüt öküz, bir inək sahibi olmuşdu. Əvvəlki dövlətdən ona Qaraqıllı adlı bir çoban iti yadigar qalmışdı. Sonsuz Qayıb kişi bu köpəyi övlad kimi sevirdi. Hərgah bir adam ondan:

- Qayıb əmi, arvadının ölümünü istərsən, yoxsa itinin? - deyə sual etsəydi:

- Əlbəttə arvadımın, - deyə cavab verərdi. Qayıb kişinin bu itə bir belə məhəbbət bağlaması hamını heyrətə gətirirdi. Səbəbini arayanlar deyirdilər ki, bir falçı onu inandırıb ki, nə qədər Qaraqıllı sağdır sən bir zaman, yenə irəliki kimi dövlət sahibi olacaqsan.

İtin özünə gəldikdə, adi çoban itlərindən xeyli iri, qüvvətli, cəsur və hünərli bir heyvan idi. uzun qara tükləri onu çox heybətli göstərirdi. Qaraqıllının qorxusundan bir qurd Qayıbın sürüsünə yaxırı gələ bilməzmiş. "Qayıbın iti" adı ilə ətrafda məşhur olaraq, bu köpək dillərdə zərbi-məsəl kimi söylənirdi. Birisi itini çox tərif etdikdə:

- Nə çox tərif edirsən? Qayıbın iti olmayacaqdır ki, - deyə onun sözünü kəsərdilər.

Mən də bu itdən çox şeylər eşitmişdim. Lakin özünü gönnəmişdim.

Qayıbın iti hürməzdi. Yol ilə dinc gedən adamlarla isə işi olmazdı. Başqa itlər kimi onların üstünə getməzdi. Lakin birisi qabağından istər atlı, istər piyada qaçmaq istədikdə qızmış şir kimi üstünü alardı.

Mən Çərikdə olan zaman Qayıb kişi də biçin və xırman işlərinə məşğul idi. İti də yanında idi.

Bir gün Tağı əmi ovdan çox quş gətirmişdi. Bir neçəsini xurcuna qoyaraq mənə dedi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Boz madyanı min, bunları Hümmətgilə apar.

Hümmət Tağı əminin xalası oğlu və həm də qaynı idi. Tağı əmi məni ata mindirdikdə dedi:

- Bax, Qayıbgilin obasının yanından keçərkən atı yavaş sür. Olmaya-olmaya çapasan.

- Arxayın ol, Tağı əmi, çapmaram, - deyə ona söz verdim.

Hümmət əmigil ilə bizim aramız üç kilometrə kimi idi. Gedənbaş obanın yanından sələmət keçib getdim. Tapşırığı əmələ gətirib qayıdarkən yenə obanın yanından keçdikdə atı yavaş-yavaş sürdüm. Bir vaxt bir it hürə-hürə üstümə gəldi. Bunun səsini eşitcək başqaları da tökülüb gəldilər. Atı addım-addım sürərkən nəzərim itlərdə idi. Onların içində Qayıbın itini arayırdım. Lakin ona oxşar bir it yox idi. Bu mənə ürək verdi. Bir qədər getdikdən sonra itlərin səsləri kəsilməkdə idi. Cürətlənib madyanı tərkimlədim. Bir də baxıb gördüm ki, tozu duman kimi qatdıraraq, bir qara it gəlir. O saat atı saxladım. İt mənə çatan kimi atın önündə ayaq üstə qalxdı. Başı atın başı ilə bərabər oldu. Qorxudan nəfəsimi içimə çəkmişdim. Bir az belə durduqdan sonra Qaraqıllı dönüb yavaş-yavaş getməyə başladı. Mən elə qorxmuşdum ki, atı yavaş sürməyə də cürət etmirdim. İt xeyli getmişdi ki, mən də atı yürüş ilə sürməyə başladım. İt obaya yaxınlaşırdı, mən də mənzilə.

- Yox, daha gəlməz, - deyə özümə ürək verdim. Tağı əmigil də təpədən mənə tamaşa edirdilər. Bu mənə cürət verdi, madyanı çapmağa başladım. Tağı əmi əllə mənə nə isə işarə edirdi. Lakin mən nə istədiyini anlamadım. O və başqaları mənim qarşıma tərəf yüyürməyə başladılar. Bundan mən şübhələnib geriyə baxdım. Onda gördüm ki, yaramaz köpək məndən əl çəkmək istəmir. Atı saxladım. İt nəinki kimi atın qabağında dikəldi. Bu səfər at rahat durmayıb başını yırğaladı. O saat köpək madyanın alt dodağını dartıb parçaladı. İt bununla kifayətlənərək obalarına tərəf yola düşdü. Madyanın ağzından qan çeşmə kimi axırdı. İt gözdən itdi. Lakin mən daha səhvimi təkrar etməkdən çəkinərək yerimdə durmuşdum. Tağı əmi hamıdan irəli gəlib çatdı.

- İt səni yaralamayıb ki? - deyə təşvişlə sordu.

- Yox, Tağı əmi, ancaq madyanın ağzını qapdı, - deyə cavab verdim.

- Madyan cəhənnəmə, sən sələmət çıxmısan. Min belə madyan sənə qurban, ancaq bu sənə nəsihət olsun. Bundan sonra böyüklərin sözündən çıxmazsan.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# MÜNDƏRİCAT

Müqəddimə……………………………………………………………………………4

## PYESLƏR

Tamahkar…………………………………………………………………………..15
Dibdat bəy…………………………………………………………..……………47
Türk birliyi ………………………………………………………………………60
Laçın yuvası……………………………………………………...…………..65
Molla Nəsrəddin Bakıda……………………………………………………...96
Çərxi-fələk……………………………………………………………………..112
Qaranlıqdan işığa………………………………………………………………119
Şahsənəm və Gülpəri …………………………………………………………..125
Bir eşqin nəticəsi……………………………………………...………………133
Səadət zəhmətdədir……………………………………...…………………151
İki yol……………………………………………………………..……..……157
Şeytan……………………………………………………………..…………...165
Eşq və intiqam…………………………………………………………………174
Yeni həyat……………………………………………...…………………...227

## HEKAYƏLƏR

Kövkəbi-hürriyyət…………………..…………….………………………………...241
Yuxu…………………………………...………………………………………243
Qonaqlıq………………………...……………………………………………..244
Tutu quşu………………...……………………………………………………245
Qan bulağı……………………………………………………………………..246
Ümid çırağı……………………………………………………………………250
Cəhalət qurbanı……..………………………………………………………...253
Qatil uşaq………………………………………………………………………262
Molla Qasım……………………………...……………………………………268
Nə üçün……………………………………...……………………………………...275
Təbrik……………………………...…………………………………………..278
Sona xala………………………...……………………………………………285
Zarafat…………………………...……………………………………………….291
Müalicə ………………………………………………………………………..293
Namus…………………………………………………………………………….301
"Yoluxma xəstəlik"……………………………………………………………310
İki dost, iki düşmən…………………...………………………………………….313
Mister Qreyin köpəyi………………………………………………….…....322
Bax mən buna yoxam.………………………………………………….....326



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gənc maşinistka və qoca yazıçı…………………………………………….…………..331

QORXULU NAĞILLAR

Əhməd və Məleykə…………………………………………..…………………335
Abbas və Zeynəb…………………………...……………………………………339
Nurəddin………………………...…………………………………………………..344
Qaraca qız…………………………………………………………………………...379
Əşrəf…………………………...……………………………………………………411
Uşaqlıq həyatımdan xatirələr………...…………………………………………..427



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**SÜLEYMAN SANİ AXUNDOV**

**SEÇİLMİŞ ƏSƏRLƏRİ**

"ŞƏRQ-QƏRB"

BAKI-2005



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

| | |
|---|---|
| Buraxılışa məsul: | *Əziz Güləliyev* |
| Texniki redaktor: | *Rövşən Ağayev* |
| Tərtibatçı-rəssam: | *Nərgiz Əliyeva* |
| Kompyuter səhifələyicisi: | *Rəşad Həmidov* |
| Korrektor: | *Hüseyn Şahbəndəyev* |

Yığılmağa verilmişdir 12.07.2004. Çapa imzalanmışdır 21.01.2005.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 28. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 12.




Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional